AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:

# FOLKLOR DA BİR TARİXDİR

## VIII KİTAB

**(Kəlbəcər rayonundan toplanmış
folklor örnəkləri)**

BAKI – 2014

**“Qarabağ folklorunun toplanması,**
**sistemləşdirilməsi və araşdırılması” adlı layihə**
**əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ:** **AMEA-nın müxbir üzvü,**
**fil.ü.e.d. Muxtar KAZIMOĞLU**
**(İMANOV)**

**TOPLAYIB**
**TƏRTİB EDƏN:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR:** **fil.ü.f.d. Oruc ƏLİYEV**

**NƏŞRİNƏ MƏSUL:** **fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2014.

İSBN – 9-789952-810868

Q $\frac{4603000000}{\text{N-098-2014}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2014

# TƏRTİBÇİDƏN

Kəlbəcər Azərbaycanın ən yüksək dağlıq rayonudur. Qərbdən Ermənistan Respublikası, şimaldan Daşkəsən, Göy-Göl, Goranboy, şimal-şərqdən Tərtər, şərqdən Ağdam, Xocalı, cənubdan Laçın rayonları ilə həmsərhəddir. 1930-cu ildə rayon statusu almışdır. Rayonun ərazisi 1936 kvadrat kilometr, əhalisi isə 80 mindən artıqdır. 128 kənddən ibarət olan Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan tərəfindən işğal edilmişdir. İşğaldan sonra rayonun əhalisi Azərbaycan Respublikasının 56 rayon və şəhərinə dağılmış və köçkünlük şəraitində yaşamağa məhkum edilmişdir. İşğal nəticəsində rayonun təsərrüfatına o vaxtkı qiymətlərlə 703 milyard 528 milyon rubl ziyan vurulmuşdur. 53.340 nəfər öz doğma yurdundan qovulmuş, 511 nəfər dinc sakin öldürülmüş, 321 nəfər isə əsir götürülmüş və itkin düşmüşdür.

Kəlbəcər folklor sarıdan Azərbaycanın ən zəngin bölgələrindən biridir. Bunu toplama materialları da təsdiq edir. Kəlbəcər folklorunu toplamağa qısa zaman ərzində başlamağımıza baxmayaraq, artıq bir cildi dolduracaq qədər material yazıya alınmışdır. Bunun da əsas səbəbi folklor məclislərinin Kəlbəcərdə son dövlərə qədər öz fəallığını qoruyub saxlamasıdır.

Digər köçkün rayonların folklorunun toplanmasında qarşılaşdığımız problemlər eynilə bu rayon üçün də xarakterikdir. İnsanların kompakt məskunlaşmaması, ayrı-ayrı rayonlara dağılması şifahi ənənəyə bələd adamları tapmaq işini xeyli çətinləşdirir. Ona görə də Kəlbəcər sakinləri ilə görüşmək üçün Bakı, Gəncə şəhərlərinə, Goranboy, Tərtər, Yevlax, Şamaxı, Bərdə, Xızı rayonlarına getmək məcburiyyətində qalırıq.

Bölgədə folklorun söylənildiyi əsas məclislərdən biri yun daramaq üçün evlərdə təşkil olunan iməcliklərdir. Bu cür iməciklər payız aylarında keçirilərdi. Bir gün qabaqcadan ev sahibi qonşulara xəbər verərdi ki, sabah onun evində yun daranacaq. Qız-gəlin ona köməyə gələrdi. Səhər başqa bir evdə yun daranardı, bu dəfə həmin evə köməyə gedərdilər. Kimin əlçəyi çox olardısa, ev sahibi ona

nəmər verərdi. İş prosesini daha da yüngülləşdirmək üçün ev sahibi həmin məclisə xüsusi nağıl söyləyicilərini dəvət edərdi. Ağcakənd sakini Səfurə Alıyevanın dediyinə görə, belə məclislərə çox vaxt Əhliyyət adlı bir söyləyicini çağırardılar, o da maraqlı söhbətləri ilə camaatın başını qatardı. Onun "Padşahın qaz bölgüsü" nağılı daha maraqla qarşılanardı. Bu cür məclislərdə qız-gəlinlər qırmızı kəlağayıdan gərdək qurardılar. Ağ yundan qız fiquru, qara yundan oğlan düzəldərdilər. Oğlana qara bığ qoyardılar. Qız guya yun darayanların birinin olurdu, oğlan da ev yiyəsinin olurdu. Gərdəyi düzəldib bəynən gəlini onun arxasına qoyardılar. Biri deyərdi, bəynən gəlini tağdan asmışam, ev yiyəsi gəlsin düşürsün. Ev yiyəsi də yaxşı yemək bişirər, orda işləyən qız-gəlinə yemək verərdi. Onda da hamı həvəslənərdi, yunu yaxşı darıyardı.

Ümumiyyətlə, payızdan başlayaraq yaza qədər evlərdə qara nağıl gecələri təşkil olunardı. Söyləyicilərin dediyinə görə, bir gecədə bəzən iki-üç nağıl danışılardı. Ən uzun nağıl "Hatəmin nağılı" idi ki, axşamdan başlayardı, ta sabaha qədər davam edərdi. Nağıl gecələrinin maraqlı söyləyicilərdən biri Oruclu kənd sakini Qasım kişi idi. Maksim Qorkiyə oxşadığına görə camaat onu Maksim Qasım deyə çağırardı. Təhsilsiz olmasına baxmayaraq, sinədəftər bir insan olan Qasım kişi nağıl, bayatı, tapmaca bilicisi kimi tanınardı. Ağcakənd sakini Süleyman Süleymanovun dediyinə görə, camaat onu xüsusi nağıl axşamlarına dəvət edərdi. Hətta aşıq məclisində Qasım kişi iştirak edərdisə, hamı deyərdi ki, aşıqlar inciməsin, bir az da Qasım kişi söhbət eləsin.

Nağıl gecələrindən əlavə, ayrıca tapmaca gecələri keçirilərdi və burada səhərə qədər tapmaca deyilərdi. Kim cavabını tapa bilməsə, o, borclu qalardı. Onda tapmacanı söyləyən deyərdi, satıram. Yerdən biri deyərdi, alıram. – "Hansı cəzanı çəksin?" – "Qab götürsün, getsin filan bulaqdan bir qab su gətirsin, camaat su içsin". Elə vaxt olurdu, tapmacanın cavabını tapa bilməyən gedib su gətirərdi, bu səfər deyərdilər ki, sənin şahidin yoxdu, bəlkə suyu başqa yerdən doldurub gətirmisən. Onun yanına birini şahid qoşub təkrar su gətirməyə göndərərdilər. Tapmacanı tapmayan şəxsə digər cəza-

lar da verilərdi. Məsələn, səhərə qədər dik ayaq üstə durmaq və s. Bəzən tapmacanı deyən şəxs humanistlik göstərər, bir az ayaq üstə durduqdan sonra həmin şəxsi bağışlayardı. Yun daramaq üçün təşkil edilən iməcliklərdə də tapmacalar deyilərdi. Həmin məclisdə qızlar iki dəstəyə bölünər və qarşılıqlı bir-birinə tapmacalar deyərdilər.

Bu seriyadan buraxılan digər cildlərdə olduğu kimi, bu kitab da ilk növbədə öz yeniliyi ilə diqqəti cəlb edir. Burada da nəsil-tayfalar haqqında, əcdadlar haqqında, ayrı-ayrı kəndlərin bünövrəsini qoyan şəxslər haqqında maraqlı nümunələr yer almışdır. "Qulf haqqında" təsəvvürlər, "Yeddi qardaş ilan" haqqında rəvayət, "Üç qardaş" nağılı, "Səməd Vurğunun Kəlbəcər səfəri" ilk dəfə çap olunan nümunələrdir. Bir çox mətnlərin isə ənənəvi variantlardan fərqlənən yeni variantları qeydə alınmışdır. Məsələn, "Lövhi-məhfuz", "Adam şeytan", "Musa peyğəmbər və Qara qul", "Aşıq Alının Türkiyə səfəri" kimi örnəklər ənənəvi variantlardan kifayət qədər fərqlənirlər.

Bölgədən yeni süjetlərlə yanaşı, bir çox yeni personajlar da qeydə alınmışdır. Belə personajlardan biri Şıx Səyaddır. Şıx Səyad, Şıx Sədi, Şıx Sədin kimin müxtəlif adlarla təqdim edilən bu personajla bağlı üç süjet qeydə alınmışdır. Həmin süjetlərdən ən geniş yayılanı Şıx Səyadın qadınların əməlindən kitab yazmasıdır ki, onun beş variantı yazıya alınmışdır. Digər süjet Əsrik kənd sakinindən qeydə alınmışdır və Şıx Səyadın arvadının ona xəyanətindən bəhs edir. Üçüncü süjetdə isə Şıx Səyadın Çərxi-dəvvara girərək bütün elmləri öyrənməsindən söhbət açılır.

Bölgədən qeydə alınmış bəzi nümunələr bir çox janların inkişafı haqqında müəyyən təsəvvür əldə etməyimizə kömək edir. Əsrik kəndindən qeydə alınmış "Əsl dost" nağılı (TR 893*A) belə nümunələrdən biridir. Ağdaş folklor örnəklərini topladığımız zaman rayonun Mürsəl kəndində belə bir süjetlə qarşılaşmışdıq. Söyləyici onu olmuş, baş vermiş hadisə kimi nağıl etdiyindən onun folklora aidiyyəti olmadığını düşünüb yazıya almadıq. İnfortmator mətni danışıb qurtarandan sonra onun məlum nağıl süjeti olduğunu anladıqda artıq iş-işdən keçmişdi. Üstündən uzun illər ötəndən sonra həmin

nağılın yeni bir variantını Kəlbəcər rayonunun Əsrik kəndindən qeydə almaq bizə nəsib oldu. Süjetin qısa məzmunu belədir: *Qəhrəman dostunun onun nişanlısına aşiq olduğunu bilib onların evlənməsinə razılıq verir. Müflisləşmiş qəhrəman dostunun yaşadığı şəhərə gəlir. Dostu onu soyuq qarşılayır, amma sonradan anasının vasitəsilə ona öz evində sığınacaq verir, atasının vasitəsilə ona iki kisə qızıl göndərir, onu öz bacısı ilə evləndirir. Qəhrəman bu yaxşılıqları dostunun etdiyini bilib onunla barışır.* Ağdaş variantında polşalı tələbəylə azərbaycanlı tələbənin dostluğundan, Əsrik kəndindən qeydə alınmış variantda isə amerikalı kapitalistlə azərbaycanlı cavan həkimin dostluğundan bəhs olunur. Mətn ənənəvi nağıl süjeti əsasında qurulsa da, məlum nağıllardan xeyli fərqlənir. Ənənəvi epik məkanlar burada real məkanla əvəz olunur (Yəmən, Misir kimi coğrafi adlar əvəzinə, Azərbaycan, Amerika, Polşa kimi müasir coğrafi məkanlar işlədilir), hadisələr uzaq deyil, yaxın keçmişdə cərəyan edir. Ona görə də müasir məişət elementlərinə, müasir dövrlə səsləşən bir çox sənət və peşə adlarına burada rast gəlmək mümkündür. Arxaik nağıllarda qəhrəmanın milliyyəti olmadığı halda, müasir nağıllarda onun milli mənsubiyyəti önə çıxarılır. Bu cür dəyişikliklər, yəni nağılların fantastik donunu çıxararaq daha real məzmun kəsb etməsi, əslində onları müasir dövrlə əlaqələndirmək ehtiyacından irəli gəlir. "Əsl dost" nağılının timsalında biz özünəməxsus kompozisiya xüsusiyyətləri olan tamamilə yeni bir nağıl qrupunun yaranmasını müşahidə edirik.

Sonda söyləyicilərlə görüşlərin təşkilində bizə göstərdikləri köməyə görə Kəlbəcər Rayon İcra Hakimiyyətinə, icra başçısının birinci müavini Eldəniz Mehdiyevə, İctimai-Siyasi və Humanitar Məsələlər şöbəsinin baş məsləhətçisi Vaqif Məmmədova, Əli Alışanova, Kəlbəcər Rayon Uşaq Təşkilatının sədri Gültəkin Məmmədovaya, "Cinayət və Hakimiyyət" qəzetinin baş redaktoru Natiq Rəfiyevə dərin minnətdarlığımızı bildiririk.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. QULF HAQQINDA

Qurannan qabax göydən qulf yenirmiş. İki nəfər bir-birin inandırmaq üçün deyirmiş gedək ziyaratgaha. Gedif and içirlərmiş, əgər o işdən xəbərləri yoxdusa, qulf yenirmiş.

Nəysə, bir kasıb adam bir varrıdan həmişə pul alırmış. Aparıf verəndə bu varrı başın qaldırmırmış ki, gətdinmi, verdinmi. Bir gün borc alan deyir, bu heş başın qaldırmır. Bu dəfə pulu aparmıyajam, gedif bir də isdiyəjəm. Gəlif deyir:

– Dayı, genə pula gəlmişəm.

Deyir:

– Get bax, gör döşəyin altda varsa, apar.

Gedir ki, yoxdu. Deyir:

– Axı gətirif qoymamısan, aparasan.

Deyir:

– Yox, vermişəm.

Bu deyir gətirif qoymamısan, o deyir vermişəm. Deyir:

– Ay oğul, nəhlət şeytana de.

Deyir:

– Onda sabah gedək ziyaratgaha.

O gejə pul aparan bir dənə çəlik düzəldir, çəliyin için oyur, kişidən nə qədər pul götürmüşsə, onun içinə doldurur. Çəliy əlində ikisi də gedir ziyaratgaha. Ziyaratgaha girəndə borc alan deyir:

– Mənim çəliyimi tut, mən girim içəri.

Girir içəri, deyir:

– Allah-taala, sənə agahdı, mən filan vaxdı o kişidən götdüyüm bir belə məbləğdə pulu ona qaytarmışam.

Qulf yenir. Gələndə çəliyi bunnan alır. Bu dəfə borc verən girif and içir. Deyir:

– Allah-taala, sənə agahdı ki, mən bir belə pulu bu kişiyə vermişəm.

Qulf genə gəlir. Onda Allah-taalaya agah olur ki, elə şey göndərməliyəm ki, ona heş kim çarə eliyə bilməsin. Onda Quranı göndərir. Bax Quran onnan sora gəlir.

## 2. YEDDİ QARDAŞ İLAN

Haca ziyarətə gedən zəvvarrarın Laçın tərəfdə düşərgələri varmış. Özü də onlar ayın-oyunnarını xurcunnara yığırdılar, atın tərkinə bağlıyırdılar. Gedillər Laçın rayonunda bir kəntdə düşərgə salıllar. Düşüllər çörək yeyillər. Kişinin biri xurcunu götürür ki ağzını bağlıya, görür bir dənə ala ilan özünü atdı xurcuna. Bunu yanındakı ağsakqallara deyəndə deyillər ki, ona dəymə, görək xurcunda hara gedir.

Gedillər o biri düşərgədə gənə xurcunu açanda kişi görür ki, ilan çıxdı getdi. Bunlar da düşüllər çörək yeyillər, xurcunu yığışdıranda ilan gəlir gənə özünü atır xurcuna. Gedillər İran sərhədini keçillər. Bir kəndin ortasıynan yol gedir. Ordan keçəndə kişi görür, ilan özün xurcundan atdı, girdi bir darvazadan içəri. Camahata deyir, burda saxlıyın, mən bu ilanın dalına düşüm. Görür ki, ilan atdı özünü həyətdəki su quyusunun içinə. Darvazanı döyür, açıllar. Ev yiyəsi də ağır külfətdi, uşaqlarıynan oturub çörək yeyirdi.

– Salam-məlöyküm.

– Əlöyküm-salam.

Deyir:

– Biz zəvvarıx, yolnan gedirik, bir söz örgənmək üçün gəlmişik. Deyin görüm sizin əsliniz hardandı?

Deyir:

– A kişi, onun tarixi uzundu, neynirsən.

Deyir:

– Yox ey, örgənmək istiyirəm.

Deyir:

– Laçının, məsələn, Güləbirt kəndinnənik.

– Bəs ordan bura niyə gəlmisiz?

Deyir:

– O vaxtı bizim məhlə səhra bir yerdə idi. Çoxlu da daş qalağı vardı. Oranı təmizdiyirdik ki, torpağı əkək. Bir ilan çıxdı, bunu öldürdük. Sonra o birsi çıxdı, onu öldürdük. Altı ilan öldürdük, biri qaçdı aradan çıxdı. O ilan bütün qardaşdarımı öldürdü, axırda özüm başımı götürüf qaçıf gəlmişəm bura. Neçə ildi burdayam.

Deyir ki, mən gedirəm, həmən ilan biznən gəlif özün atıfdı hovuza. Get onu öldür. Gəlillər ki, ilan ordadı. İlanı quyudan çıxarıf öldürür. Bu zəvvara da çoxlu ənam verif yola salıllar.

## 3. ƏSİRLİKDƏN QAÇAN

41-45-ci illərdə bizdərdən beş-altı nəfər almanlara əsir düşür. Hərəsi bir rayonnan oluf. Həmin dəstənin bir üzvü bizim qohum idi, o danışırdı. Əsirlikdən qaşmağını söhbət eliyirdi. Deyir, almanlar bizi əsir tutdular. Doldurdular bir maşına, apardılar ki, bizim özümüzə qəbir qazdırallar, diri-diri basdırallar. Bir nəfər yanımızda qaroulçudu, tüfəy də əlindədi. Qurdalandım, qolumu açdım. Yoldaşıma dedim ki, qolumu açmışam, neyniyək? Dedi, imkanın varsa, gör tüfəyi onun əlinnən ala bilərsənmi? Deyir, sürünə-sürünə buna yanaşdım, nətər əl atdımsa bunun xirtdəyinə, səsi çıxmadı. Tüfəyi aldım əlimə. Bir-bir yoldaşdarımın əlin açdım, dedim özünüzü maşınnan atın yerə. Bir-bir özdərin atdılar, axırda da mən özümü atdım. Bunlar duyux düşənə qədər biz qaçdıx aradan çıxdıx.

Axşama qədər birtəri axtarıf bir-birimizi tapdıx. Birinin qolu qırılıf, birinin çiyni əzilif. Heylə birləşdik, onnan sonra gəzə-gəzə gəldik çıxdıx bir dərin meşəyə. Gördük bir sürü var, yanında da bir neçə çoban. Bunlar da olar Təpəgözün çobannarı. Dedik, biz də insanıx. Dedilər, sizə nə lazımdı kömək eliyək, amma Təpəgöz sizi buraxmıyajax. Onlar bizə kömək elədi. Qoyunnan kəsif onların dərisinə bürünüf özümüzü vurdux qoyunun içinə. Təpəgöz əlin vuruf bir-bir qoyunnarı yoxladı, gördü qoyun dərisidi, bizi buraxdı.

Ordan da gəldik, gördük bir toy məclisi var. Biz də altı nəfərik. Girdik içəri, bizə heç kim demir gəlin oturun. Gələn qonaxları oturdullar, amma bizə bir söz demillər. Biz də oturdux, yedik-içdik.

Bizə demədilər kimsiz, hardan gəlmisiz. Toy qutardı. Bunlar çıxdılar getdilər. Biz də bir ayləyə qoşuldux getdik. Yer-zad saldılar, yatışanda bizə bir söz demədilər. Biz də yorğan-döşək götdük, yer saldıx yatdıx. Yanımızda Naxçıvannan bir oğlan vardı. Bu da şorgöz idi. Dedi ki, bu gejə o sarı gəlinin yanına gedəjəm. Dedim, ə, bizi burda öldürtdürərsən. Dedi, yox ey, nə olur olsun getməliyəm. Əlajım kəsildi, şiritnən onun qıçın bağladım biləyimə ki, gedəndə xəbərim olsun. Deyir, nətər sürünüf gedirsə, bircə dəfə gəlinin biləyinə əl atanda, gördük qışqırtı qalxdı. Gəlin qalxdı ayağa. Atılır göyə, düşür yerə, atılır göyə, düşür yerə. Biz də burda durmuşux, bizə demirlər siz kimsiniz. Qarannıxdı, biz də çıxıf gedə bilmirik. Günüz olanda, heç olmasa, bilirik ki, hara gedirik dana. Deyir, getdilər keşiş gətdilər. Keşiş baxan kimi dedi, burda bəni-adam var. Deyir, divara baxıllar, ora-bura baxıllar, bizə baxıllar, amma bizi görmüllər. Keşiş xamırdan altı dənə adam düzəltdi, onlara burun, qulax, göz qoydu. Ülgücü xamırdan düzəltdiyi adamın başı üstündə tutuf öz dilində nəsə danışdı, ülgücü çəkdi, xamırın qulağın kəsdi. Bir də baxdıx ki, qadının biləyinnən yapışan kişinin qulağı kəsildi. – "Ayə, bədbaxt oğlu, bizi qana salassan". Deyir, elə heylə qulağı kəsik ordan çıxdıx, bir müsibətnən gəldik. And içirdi ki, o qulağı kəsik bu yaxınnara qədər yaşıyırdı.

## 4-6. LÖVHİ-MƏHFUZ

Şıx Sədin çox elmli adam olufdu. Lövhi-məhfuz rezinnən sep formasında idi, üstü hərifnən yazılıdı. Şıx Sədin bərəmumnan yuxa salıf, orda bir il gözdüyüf. İlin axır çərşənbəsi o çarx bir dəyqə dayanır. Bir dəyqənin içində bu yuxaların hamısını götürür sepin üstünə yaxır. Bir il orda oturur gözdüyür. O çarx orda hərrənir. Bir ilin başında çarx gəlif öz yerində dayananda bu səfər yuxaları götürür yerə yığır. Bayaxdan oandına vurmuşdu, yazılar tərsinə çıxdı axı. Bir il də oturuf bunu köçürür kağıza. Kitabın adını qoyur Elmicəm. Kitabı vurur qoltuğuna, dərya kənarıynan gəlirmiş. Allah-taala buyurur ki, Şıx Sədin elmi cəm elədi, apardı. Kitab onun əlində

qalsa, ikinci Allah o sayılır. Cənab Cəbreyilə buyurur ki, nə olur olsun kitabı onun əlinnən çıxartmaq lazımdı. Deyir ki, bəs neyliyax? Deyir ki, ayrı şikildə get qabağını kəs, elə dur ki, şapərin çatsın onun əlinə. De ki, ey şıx, Cənab Cəbreyil yer üzünə düşüfdü, yerin maa de. Şıx kitabın açıf baxajeh, onda vur kitab düşsün dəryaya.

Cənab Cəbreyil pirani kişi şiklində, titriyə-titriyə əsadan tutur, yolun qırağında durur. Görür Şıx Sədin gəlir, kitab da qoltuğunda. Gəlif yaxınnaşanda:

– Əssalami-məlöyküm.

– Əlöykümət-salam.

Deyir:

– Ya şeyx, bir ərzim var.

Deyir:

– Nədi, ay qoja, nə ərzin var? Ajsanmı?

Deyir:

– Yox. Pis günnərim var. Məni evdə yaxşı yola vermillər. Deyillər ki, Cənab Cəbreyil bu günnərdə bu ərazidə düşüf yer üzünə. Görməmisən? Mən onu gəzirəm.

Deyir:

– A kişi, o elə şeydi onu görmək olarmı?

Deyir:

– Bir kitabına bax, gör gəlif, gəlmiyif.

Şıx Sədin burda allanır. Deyir:

– Bir az aralı dur.

Kişi çəliyi əsə-əsə qırağa çəkilir. Bu eynidə açır baxır, deyir:

– Sən mana nə dedin?

Deyir:

– Sənə dedim, ya şeyx, Cənab Cəbreyilin yerin maa de.

Deyir:

– Kitab yazır ki, Cənab Cəbreyil mənim yanımda ayağ üstə durufdu. İndi sən mana Şıx Sədin deyirsənsə, Cənab Cəbreyil sən özünsən.

Deyir:

– Ay kişi, belə də yalan olarmı? Allaha bax.

Şıx Sədin yuxarı baxanda şapərinnən vurur, kitab getdi dəryaya. Ordan beşcə dənə vərəx kənarraşdı. Guya beş kitab o vərəxlərdən qalmadı. Onnan sonra Allah tərəfinnən əmr olundu lövhiməhfuzu dördüncü təbəqəyə qaldırdılar.

**5.**

İmam Mehdi sahib-əz-zamanın bu dünyadan gedən vaxtıydı. Şıx Bəhyəddinnən Şıx Səyəddin oluf. Biri şiə oluf, biri sünnü oluf. Bunlar deyir, İmam Mehdi dünyadan gedəjəh, gəl gedək onnan öyüd-nəsiyət alax. Deyir, axı yerin bilmirik, nətər tapajağıx? Deyir, Quran əlimdədi, bunnan tapajam.

Quran bunları gətirir Gəncəyə çıxardır, Əttar Əhmədin tükanına. İçəri girir:

– Salam-məleykim.

– Əleykimət-salam.

Mehdi sahib-əz-zaman deyir:

– Ey Şıx Bəhyəddinnən Şıx Səyəddin, niyə bu qədər əziyyət çəkdiniz?

– Ay ağa, sən dünyadan gedəjən, səndən öyüd-nəsiyət almağa gəldik.

Deyir:

– Durun gedək.

Gəncənin körpüsünə gələndə deyir ki, məni nəynən tapdınız? Deyir:

– Bax bu kitabnan.

Deyir:

– Kitabı mənə ver.

Əlinə alan kimi vurur, Gəncənin körpüsünnən çaya düşür. Deyir:

– Ay ağa, ay ağa, atma.

Deyir:

– Suya düşməyinə baxma, onu çarxı-davvara atdım. Mən gələndə onu özümnən gətirəjəm. Əgər o kitab pis adamların əlinə düşərsə, onda insanı at, it, pişik – nə sifətlərə desən salallar. Özüm gələndə onu özümnən gətirəjəm.

## 6.

Çarxı-davvar deyillər, yeldən, küləkdən iti işdiyir. Çarxı-davvarın üzü tamamilə duvadı. Novruz bayramı gejəsi bir dəyqə o durur, sonra genə işdiyir. O duranda arı mumunnan düzəldilmiş qəlibləri onun üzünə vurub o duaları götürüllər. Köhnə mollalar duaları ordan heylə götürüflər.

## 7. ŞEYTAN FƏHLƏLƏRİ

Babamız belə danışırdı ki, bir günnəri şeytanın bir gözəl qadına gözü düşür. Əri evdə olmuyanda kişinin şiklində gedir arvadın yanına. Arvad baxır ki, əri gəldi evə. Altına palaz sərir, döşək qoyur. Deyir:

– Otur.

Deyir:

– Oturmax yoxdu. Tələsik gedirəm, gəl zinalığ eliyax.

Arvad təəccüb eliyir. Deyir:

– Axı sən bu həvsələnin yiyəsi döyülsən. Uşaq gələr, qonşu gələr.

Deyir:

– Bənd olma, qapını ört, daldan kilidini qoy.

Arvadnan deyişəndə ara qarışır. Birdən ev yiyəsi özü gəlir girir içəri. Arvad baxır ki, əri bir idi, indi oluf iki. İkisi də eyni şikildə, eyni geyimdə. Birdən əri qayıdır ki, kimdi bu kişi? Deyir ki, əvin yıxılmasın. Bu gəldi, elə bildim sənsən. Az qala tuluğu suya vermişdim. İndi mən nə bilim ərim sənsən, yoxsa bu kişidi. Bu deyir:

– Ərin mənəm, nejə yanı, məni tanımırsan?

Şeytan da deyir:

– Sən yalan deyirsən, qadının əri mənəm, əv də mənimkidi.

Mübahisə yaranır, qonum-qonşu səsə yığılır. O deyir, bu deyir. O vurur, bu vurur. Bir az bir-birin tozun çırpannan sonra deyillər, gedax peyğəmbərin yanına, peyğəmbər bu işi ayırd eləsin. Peyğəmbər su gətizdirir bunların əl-üzün yudurdur. Deyir:

– Qəlbinizi təmizdəyin.

Bunlar ikisi də deyir ki, qəlbimiz təmizdi, bizim nəyimiz var?

Deyir:

– Təmizdisə, hər kim soyunuf bu əl aftafasının boğazınnan girif lüləyinnən çıxsa, əv də, qadın da onunkudu.

Həqiqi kişi insan evladıdır. Bunun bir qolu yerrəşməz aftafaya. Deyir:

– Yox, mən başara bilmərəm.

Amma bu kişinin cildinə girmiş şeytan deyir ki, mən düşərəm. Tez pencəyin çıxarır, lütlənir. Aftafanın ağzınnan girir qulpunnan çıxanda peyğəmbər əlinin ikisin də qoyur üstünə, saxlıyır. Deyir:

– Sənin axırın buradı, səni öldürəjəm.

Bu dəmdə səda gəlir ki, ya peyğəmbər, adam göndər, gör bazarda camahat nə iş görür. Adam göndərdi ki, hərə bir top ağı qoltuğuna vuruf külüknən yer qazır, özünə qəbir qazır yol boyu.

– Ay bala, nə iş görürsüz?

Deyillər ki, bəs işdədıx yoruldux. Biz havaxta qədər işdiyif özümüzü öldürəjeyih. Allah verənnən yeyif elə burda da yatajeyih. Öləndə də bu ağa büküləjeyih, yıxılax, o biri üstümüzü basdırsın. Da nə lazımdı ay oğul dərdi çək, qız dərdi çək.

Peyğəmbər sitayiş elədi:

– Ya rəbbim, bu nədi belə?

Dedi:

– İnsannar şeytan fəhləsidi. Hər bir insanın qəlbinə şeytan girir ki, dur bu divarı sök, qapını genəlt, darvazanı hör. İndi də sən bunu tutuf saxlamısan. Bunu öldürmax mənim əlimdə aciz döyül. Onu öldürsəm, onda insannar kütdəşəjeh, heş kim işə əl uzatmıjeh. Salamat burax, amma tobalatma ver ki, insannarın evinə heylə basqın eləməsin. Yeddi dəfə toba desin, burax.

Peyğəmbər özü də buyurur ki, ay şeytan, bilirəm də sənsən, bax səni öldürmürəm. Yeddi dəfə toba de, xalanın dabanına and iç, səni buraxım. Orda tobalatmasın verənnən sonra onu buraxır.

İndi insan şeytan fəhləsidi. Xəyalımıza düşür dururux məhlənin bir tərəfini sökurux, bir tərəfində tikirux, bir tərəfdən köçürux o tərəfdə tikirux. Qonşu tikir mən də tikirəm. Bunun hamısını qurdalıyan şeytandı.

## *PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA*

### 8. SÜLEYMAN PEYĞƏMBƏRNƏN BAYQUŞ

Süleyman peyğəmbər bir gün əmr eliyir bütün heyvanlara, bütün cannılara ki, gəlsin bunun hüzuruna. Sözü var, tapşırığı var, deyəjəhdi. Bütün heyvannar gəldi, bayquş gəlmədi. Bu, heyvannara sözün, söhbətin, tapşırığın verdi. Bütün heyvannarın, quşdarın dilin bilirdi Süleyman peyğəmbər. Sonra bayquşun dalınca yenə xəbərçi göndərdi. Nəsə, bir müddətdən sonra bayquş gəldi. Süleyman peyğəmbər dayanmışdı. Gəldi salam verdi. Süleyman peyğəmbər bunun salamın almadı. Uşdu o biri ağacdan salam verdi. Peyğəmbər yenə bunun salamın almadı. Keşdi üçüncü ağacdan salam verəndə, peyğəmbər salamın aldı. Salamın aldı, sözün-söhbətin dedi. Dedi:

– Ey quş, ey Allahın heyvanı, sən iki dəfə salam verdin, mən salamını almadım. Bəs niyə bir də gəldin bu ağacdan salam verdin mana?

Dedi:

– Ya peyğəmbər, yurd yurddan xeyirri olar. O yurd mana düşmədi, bu yurd düşərri oldu. Burdan sən mənim salamımı aldın. Mən sevindim.

Onunçun deyillər ki, yurd yurddan düşərri olar. Onnan sonra, Süleyman peyğəmbər onun adını qoydu bəyquş – bütün quşdarın bəyi. O, insannan ona görə qaçır ki, o İmam Hüseyn aşiqidi. O da rəvayətdi, Quranda yazılıfdı. Həmən bayquş bəyquşdu, İmam Hüseyn aşiqidi. İmam Hüseyni qətlə yetirənnən sonra həmən quş insannardan qaşdı xarabalıqlara. Odur ki, deyillər, bayquş xarabalıx sevər. İnsannar İmam Hüseyni qətlə yetirdiyinə, onun qədrin bilmədiyinə görə, insannardan qaçır o. İmam Hüseynin təziyəsi olanda, aşura günü həmən bayquşun gözünnən yaş gəlir.

## 9-10. SÜLEYMAN VƏ QARIŞQA

Süleyman peyğəmbər bütün cannıların dilini bilirmiş. Bir gün bu, qoşunuynan yolnan gedəndə görür ki, bir topal qarışqa çığırır:

– Dünya dağıldı, qoymuyun. Dünya dağıldı, qoymuyun.

Süleyman peyğəmbər deyir:

– Bir topal qarışqadan ötrü dünya niyə dağılır?

Deyir:

– Peyğəmbər sağ olsun, mən ölənnən sonra istiyir dünya alt-üst olsun, mənim üçün nə fərqi var.

## 10.

Cənab Əli qoşunuynan gedirmiş. Görür ki, qabaxda bir qarışqa çığırır. Adamlarınnan birini göndərir ki, gör o çığıran nədi, niyə çığırır. Gedir ki, bir topal qarışqadı. Deyir:

– Onu götürün yolun qırağına qoyun.

Deyir:

– Ay qarışqa, sən ölməknən dünya qısırmı qalajax?

Deyir:

– Fidahın olum, mən də özüm üçün yaşıyıram.

## 11. MƏHƏMMƏD PEYĞƏMBƏR VƏ SALMAN

Peyğəmbər əleyhsalam Salmannan gedirmiş düyü zəmilərinə baş çəkməyə. Salmanın da qoltuğunda yekə çuval varmış. Birdən hay-küy gəlir kolluğun arasından. Baxıf görüllər bir dəstə quldurlar peyğəmbəri axtarır. Peyğəmbər bilmir neynəsin. Qaçmağa yer yox, gizdənməyə yer yox. Bunlar çataçatdı. Neyniyək? Deyir:

– Ya peyğəmbər, əlac yoxdu, gir çuvalın içinə.

Salman çuvalın ağzını bağlıyır, atır belinə. Quldurlar gəlir çatır.

– A kişi, dayan. Peyğəmbər əleyhsalamı görmədin?

Deyir:

– Yox.

– O çuvaldakı nədi aparırsan?

Deyir:

– Peyğəmbərdi.

– Ə, nə peyğəmbərdi?

Deyir:

– Peyğəmbərdi də, salmışam çuvala, almışam dalıma.

Quldurlar qah-qah çəkif gülürlər. Elə bilirlər, bu bunlarnan zarafat eliyir. Peyğəmbərin qədəmi qırılır çuvalda. Quldurlar gedəndən sonra Salman açır çuvalın ağzını. Peyğəmbər deyir:

– Ya Salman, elə mənim düşmənim sənmişsən. Ayə, sən deməzdinmi məni öldürəllər?

Deyir:

– Ya peyğəmbər, bir peyğəmbər öləjək deyə mən yalan danışaydım?

Təsəvvür elə, gör yalan danışmax nə qədər pisdi.

## 12. HƏZRƏT ƏLİ VƏ ÜÇ ƏSGƏR

Cənab Əli düşman üstünə gedirmiş qoşunuynan. Gəlif bir kəndin yanınnan keçəndə həmin kənddən olan üç əsgər deyif ki, bura bizim kəndimizdi. İcazə ver gedək ayləmiznən görüşək, gələk. Deyir ki, gedin, amma tez gəlin. Sizi qabaxda suyun üstündə gözdüyəjəm.

Bunların biri gəlif görür ki, ayləsinin yanında ayrı bir kişi var. Qılıncı çəkir arvadını bircə-bircə doğror, çıxır gedir. O birsi gəlir ki, arvadının yanında ayrı bir kişi var. Deyir ki, peyğəmbərin qanunuynan boşadım səni. Mənim uşaxlarımın içinnən çıx get. O birsi də gələndə görür ki, arvadının yanında ayrı kişi var. Deyir ki, o kişi çıxsın getsin, mən sənnən yaşıyıram.

Fidah olum, Cənab Əliyə hər şey əyan idi. Bunlar qayıdıf gələndə deyir ki, nə gördünüz, niyə peşman gəlirsiniz? Deyillər ki, bəs belə-belə. Cənab Əli arvadını öldürənə deyir ki, sən mənim qanımnansan, keç mənim dəstəmə. Arvadını boşuyana deyir ki, sən

peyğəmbərin qanunuynan gedifsən, keç peyğəmbərin dəstəsinə. Arvadına "sən mənə qəbulsan" deyənə yeddi qılınc vurur. Deyif ki, insan namusnan yaşıyar.

## 13. YERİN-GÖYÜN AĞIRLIĞI

Əli evdə xanişin oturan vaxtı Fatma baxır ki, Həzrət Əlinin əlinin üstü cızılıfdı. Deyir, noluf əlinə? Deyir, nə vardı ki, nə ola? Özgə vaxtı atannan danışırsan. Atan getdi qalanı ala bilmədi, amma bu oğul aldı. Deyir ki, nolsun, atam qojalıfdı, atan yerindədi. Deyir ki, qojadı, dinməz dursun. Burda Fatimənin qəlbi inciyir. Küskün gedir atasıgilə. Peyğəmbərə agah idi. Yeriyəndə qadın birinci sol ayağını qabağa atar, kişi sağ ayağını. Peyğəmbər görür Fatma gəlir, amma sağ ayağını birinci atır. Orda buyurur ki, qızım, Fatma, noluf ki, sən yerişini dəyişmisən? Deyir ki, ata, heç bir şey olmuyufdu, amma əmin oğlu Əli zarafatında sənin qojalığını gözümə dikif. Ona görə qəlbim inciyif. Deyir ki, narahat olma.

Ordan durur gedir o yerə ki, orda Quran ona hissə-hissə gəlmişdi – Hir mağarasına. Əbanı atır başına, pıçıltıynan Cənab Cəbreyilnən danışır. Deyir, mənim Allahıma de ki, beş pənci əlanın birisi şəhid İmam Hüsöynün anası, peyğəmbərin nişanası və Əlinin zövcəsi Fatimənin xətrinə dəyifdi. Bunu özü hifz eləsin. Cənab Cəbreyil səda gətirdi ki, ya Məhəmməd, Allah buyurdu ki, sən incimə. Əlidi da, cahıllığınnan ayləsiynən söhbət elədi. Kim olur olsun, ata qojalanda cavannar ona söz atar. Gəldi, dedi, qızım, get, inşallah, görüşərik.

Peyğəmbərə bir gün səda gəldi ki, Əli yerin altına cinni davasına gedif. Gəl yolayrıcında dur. Əli yerin altınnan çıxajeh, bu yoldan keçəjeh. Keçəndə sən dünyanın ağırrığın yığ bir qoç dağarcığına. Məhəbbət gözdə olur. Düşman da olsa, dost da olsa, göz-gözə baxanda vurulur. Deyir ki, Əlinin üzünə baxma, Əli gözünnən səni tanıyar.

Peyğəmbər ayrı bir şikildə yolda oturur, əlində də əsası. Əli yerin altından çıxır, yol kənarında qojanı görəndə salam verir. – "Salam-

məlöykü, ey şahənşah qoja”. Deyir, əlöyküm-salam, ey mərdanə pəhlivan. Deyir, qoja, nə istiyirsən, niyə durmusan burda? Deyir ki, misalçün, Bərdə şəhərindən gəlif Tərtərə gedirdim. Yoruldum, dağarı qoydum yerə, indi güjüm çatmır qaldıram. Deyir, Qəmbər. Qəmbər cavab verir: “Bəli, ya əmir. – Əmir beş rəyisin böyüyünə deyillər. – Yüz canım olsun, Qəmbər deyəndə sana fəda eliyəm”. Deyir, dağarı at kişinin çiyninə. Qəmbər yapışdı dağarcığın qulpunnan. Nə qədər qaldırdı olmadı, qujaxladı olmadı. Dedi, Qəmbər, niyə ləngidin? Dedi ki, ya əmirəlmöminin, Heybərin qalasının bir tay qapısı qırx min funt ağırrıxda idi. Götürdüm kanalın üstünə qoydum, bir belə zora düşmədim. Bu dağara güjüm çatmır. Dedi, çəkil kənara. Atdan düşür Əli. Yaxınnaşır dağarın qulpunnan tutur, qaldırır. Qaldıranda atın dörd qılçası da girir yerə. Atın boğazı çöldə qalanda at kişniyir: “Ey qiyamət günü mənim sahibim, sirr yoldaşım. Gözünü aç, ataya bir bax”. Əli başını qaldıranda Məhəmmədi tanıyır. Peşmançılığ çəkir, orda üzr istiyir, gedir. Məhəmməd də öz evinə gəlir. Heç-heçə qutarıllar.

Əli gəlir evə, gözü də bir az qızarmışdı. Fatmaya demir atanın əməlidi, gözüm qızarıf. Deyir, elə-belə ağrıyır. Fatma çıxır çölə, yol alır atasıgilə. Atası deyir, qızım Fatma, xeyirdi belə tez gəlmisən? Deyir ki, ata, əmin oğlu Əli cinni padşahıynan dava eliyirdi. Davadan gəlifdi. Nəysə, gözündə qızartı var. Deyir, bə demədi niyə qızarıf? Deyir ki, soruşdum, amma bir söz demədi. Deyir, qızım, mənim ağzımın liğavınnan götür, cunanın ujunda apar gözdərinə sürt, qızartısı keçər.

Bir gün peyğəmbərnən Əli qapının ağzında bir daşın üstündə oturmuşlar. Əli deyir ki, ya Məhəmməd, bir ərzim var. Deyir ki, Əli, söylə nə ərzin var? Deyir, sən elə bir söz deyəsən ki, bir gün keçənnən sonra o sözü deməmiş olasan? Bu gün bir evdə yemək yeyəsən, səhər onu yeməmiş olasan? Ya bir söz deyəsən, üstünnən iki gün keçənnən sonra o söz yalan olar, sən onu deməmiş olasan? Peyğəmbər axı yalan danışmaz. Deyir, Əli, qadan alım, heylə şey olmaz. Mən o işi başarmaram. Deyir, əmi, vəxtin varsa gedək bir Gülü düzün gəzək. Gülü düzü Naxçıvannan Məlişkənin arasında

yiyəsiz düzdü, qıpqırmızı lalələr bitir. Bunlar gəlir həmən Gülü düzündə bir az gəzillər. O gül yaxşdı, bura yaxşı seyrangahdı, xoş havası var. Namaz vaxdı gəlif oturullar. Namazı qılıllar, qutarannan sonrasına Əli deyir, əmi. Deyir, Əli, nədi? Deyir, mən ölürəm. Peyğəmbər deyir, ölməyə vaxtmı tapdın? Bu düzün ortasında ölmək nədi? Deyir, heş darıxma. İsmi-əzəm duasını oxuyur, peyğəmbərin əlini sıxır. Deyir ki, bərkə düşsən, Cənab Cəbreyili çağır, o sənə örgədər. Mən ölürəm. Sən heş nəyə əl vurma. Üz-gözümü sığa, ayağımı bağla, əllərimi yanıma qoy. Sana kömək gələjeh ağ dəvəli, ağ niqablı, ağ örpəkli. Heş kimnən də soruşma bu nədi, kimdi. Məclisdəcə otur, gəlif gedənə başsağlığı ver. Üçümü verənnən sonra get nəvələrə bildir, Fatmeyi-Zəhraya bildir.

Əli ölür. Gözün sığıyır, əllərin bağlıyır, barmaxların bağlıyır bir yerə. Bir də görür ki, dəvə yükü qab-qaşığ gəlir. Biri tabut gətirir, biri mağar qurur. Əlini yuata götürüf yuyullar, aparıf haqq evinə qoyullar. Qəbr qazılır, basdırıllar. Qayıdır gəlir, üş gün bunun yasında oturur. Üçüncü gün axşamçağı hamı dağılıf gedir. Gəlir daşın yanında ətəyin çırpır, çıxır daşın üstündə oturur. Özü oxuyurmu, Cənab Cəbreyil ona kömək eliyirmi o məhvi qalır. Daş qalxır havaya, gəlir bayax durduxları qapıda öz yerini tutur. Düşəndə görür ki, İmam Həsənnən İmam Hüseyn yolun qırağında oynaşıllar. O deyir babam gəldi, bu deyir babam gəldi. Bu qabax gəlir. – "Baba, salamlar olsun". – "Əleyki salam, mənim balalarım, cənnət quşları". Baba hər ikisin öpdü, amma Hüseynin boynunnan öpürdü. Üzünnən öpməzdi. Dedi ki, atanız Əliyə görə başınız sağ olsun. Dedi, baba, noluf Əliyə? Dedi, Əli, sırağagün dünyasın dəyişdi, basdırdım gəldim. Deyir, baba, Əli bu səhər getdi meçidə. O dey orda oturuf moz eliyir. Dedi, uşaxdı da, üş gün bunnan qabax gördüğün danışar.

Gəldi qapıya. Qızı Fatimə qabağa çıxdı. – "Ateyi-mehriban, xoş gəlmisən". Deyir, qızım Fatimə, başın sağ olsun, balaların sağ olsun. Deyir, bu toxtaxlıx nə üçündü, ata? Deyir, ona görə ki, əmin oğlu Əli dünyasın dəyişdi, Gülü düzündə basdırdım gəldim. Deyir, bu nə vaxt oluf? Deyir, üç gün bunnan qabax. Deyir, ateyi-mehri-

ban, Əli mənnən bu gejə bir örtükdə yatıf. İndi də gedif meçitdə sənin yerində oturuf moz eliyir. Deyir, qadın xeylağıdı da, olar. Allah heş kimə göstərməsin, ölüm işi çətindi. Ordan qayıdıf gəlir meçidə. İçəri girir ki, Əli oturuf. Peyğəmbər kəlmə kəsmir. Keçir öz yerində əyləşir. Hamı çıxıf gedəndə ikisi tək qalır. Deyir ki, Əli, bu nə işdi mənim başıma aşdın? Deyir, əmi, sənnən soruşdum ki, bir sözü deyəsən, yalan olsun. Sən gəldin nəvələrinə və Fatiməyə baş sağlığı verdin ki, atanız ölüf. İndi ölməmişəm ki. Sözün yalan oldu? Deyir, bəli, oldu, Əli. Dedi, məni apardın məzara qoydun, üstümü basdırdın. Camahata dedin ki, Əlini torpağa tapşırdım gəldim. İndi ölməmişəm ki? Deyir, yox. Deyir, üş gün ehsanımı yedin, indi yeməmiş oldunmu? Deyir, bəli, Əli, oldu. Onda deyir ki, Əli, sən sirri-xafiyəsən. Anadan olduğun günü görməsəydim, sənə Allah deyərdim.

## 14. HƏZRƏT ƏLİ VƏ SALSAL PƏHLİVAN

Salsal pəhlivan Lökdə oxumuşdu. Lök böyük bir çarxdı. Yer üzündə gəlif dayanardı. Şıx Sədi ordan elmi götürənnən sonra onu qeyb elədilər, dördüncü qata qaldırdılar. Salsal elə pəhlivan oluf ki, gejə yatanda bir qulağın altına sərirmiş, bir qulağın da üstünə atırmış. Dünyanın ağırrığının qırt yarı götürə bilirmiş. Cinni tayfasının qapısına yazılmışdı ki, yer üzündə yaranmış pəhlivannarın heş biri bu qapını aça bilməz. Ancağ ərəb oğlu Əli Abutalıb oğlu açajaxdı. Onda Salsal dedi, ey xudabənd aləm, mənə elə bir ömür ver ki, mən indiki qüvvəmdə Əlinin yer üzünə gəlməsini gözdüyüm, onnan görüşüm. Salsal gəldi bir mağarada zağanın içində uzandı, üş yüz altı il orda yatdı. Üş yüz altı ildən sonra oyananda hansı dəyqədə yatmışdısa, o dəyqədə də oyandı. Duranda gördü bir nəfər deyir, niyə baxırsan, üş yüz altı ildi yatırsan burda. Dedi, ey Allahın göndərdığı, məni dolama. Mən gələndə də gün burdan çıxmışdı. Yatdım, elə indi də gün burdadı. Bu da o vaxt olur ki, Abutalıb oğlu Əli dünyaya gəlmiş olur. İndi festivala idmançı göndərən kimi o vaxtı da Misir padşahı dünya birriyinə pəhlivan yığır. Orda kim güj-

düdü, onun güjünü sınıyajax. Əli də oraya dəvət olunur. Salsala deyillər, sən də get Əliynən orda görüş.

Bu hövlənək durur, əl-üzünü yuyur, yolnan gedəndə görür ki, bir dənə əmudu iki kərgədana qoşuflar, kərgədan yolnan sürüyür. Yanında da qarabuğdayı, şimşək baxışlı, bənövşəyi bığlı bir cəngəvar var. Üş-dörd dildə salam verir. Əli bunun yeddi dildə salamın qaytarır. Deyir, Abutalıb oğlu Əlini gəzirəm, görməmisiz? Əli cavab verir ki, eşit mənən, bil mənəm. Salsal elə başa düşür ki, eşitməmişıx, tanımırıx deyir. Keçir gedir. Əli gülür, dinmir.

Misir padşahının yanına çatanda Salsal bəyan eliyir ki, mən At tayfasınnan qalma Rustamzalın nəslinnənəm. Gəlmişəm bu yığıncaxda iştirak eliyəm, Abutalıb oğlu Əliynən görüşəm. Deyillər, az vaxtda o da gələjək. Gələndə görüşərsən. Bunnar burda durmuşdu. Görüllər həmən oğlannar kərgədanı sürdü gətirdi, meydanın ortasında əmudu qoydu yerə. Deyir ki, bəs sizdə də yalan olar? Mən sənnən soruşdum, mana niyə düzünü demədin? Əli deyir, bizdə yalan olmuyuf, olmaz da. Sən soruşdun ki, mən Əlini gəzirəm, mən də dedim eşit mənəm, bil mənəm. Yəni mənəm Əli. Sən başqa cür başa düşdün.

Pəhlivannar güləşməli oldu. Əli dedi, mənim əmudumu kim çiyninə alıf meydanı gəzif göyə tullasa, göy aləminnən onu sağlam yerə qoysa, mənnən güləşməyə ixtiyarı var. Salsal getdi əmudun dəstəyinnən tutdu. İrəli-geri güj verdi, dizin yerə qoydu, çiyninə aldı qaldırdı, amma göy aləminə ata bilmədi. Düşürtdü yerə. Dedi ki, rast ki belədi, mən güləşməyimizə icaza verirəm. Bu mamentdə Əli mübarək əllərin atdı əmudun dəstəyinnən tutdu, başında bir dəfə fırradı, atdı göy aləminə. Göydən qayıdıf gələndə mələklər səda verdi ki, ya Əli, əmudu tut, yoxsa meydanı parçalıyar. Belə əliynən işarə elədi, əmud bunun əlinə yaxın gəldi, dəstəyinnən tutdu qoydu yerə. Salsal dedi, indi də növbə mənimdi. Neçə yüz metirrıx dəmiri gətirdi çaldı yerə, burdu. Dedi, gəl bunu çıxart. Əlinin bir də orda gözünə qan gəlir, zora düşür. Orda güj verif çıxardanda dizə qədər torpağa batır, amma çıxarda bilmir. Əvəz-əvəz olur. Onda padşah bir torba qızıl Əliyə, bir torba qızıl da

Salsala verdi. Əli gətirdi bir torba qızılı padşahın taxtınnan asdı. Dedi, mən imamdan, ölüyadan danışıram, pul mənim nəyimə lazımdı? Vaxt olar mənə lazım olar, bir sailə verərəm. Yoxsa mənim qızıla ehtiyacım yoxdu. Aparıf nəyə xəşdiyəjəm?

Bir gün bir sailə pul lazım olur. Onda Həzrət Əli Şimonnan on dənə qızıl alır verir ona. Borcun yerinə zülfüqarını girov qoyur. Yəhudi deyir, onu götürə bilmiyəjəm. Atını girov qoyur. Yəhudi deyir, onu minə bilmiyəjəm, mənim nəyimə lazımdı. Deyir, onda İmam Hüseynnən İmam Həsəni sənə girov verirəm. Misirnən buranın arası altı aylıq yoldu, gedif Misirdən sənin qızılı gətirəjəm. Axşama qədər həmən qızılı gedif gətirir.

## 15. HƏZRƏT ƏLİYNƏN RÜSTƏM ZAL

Bir dağ vardı Əhər-rüba, tamam buzuydu. Nə od buza qalib gələ bilirdi, nə buz oda. Həzrət Əli dedi ki, gərək mən ora gedəm. Həm də yazılmışdı ki, ərəblərdən bir şəxs gələjəhdi, bu tilsimi o sındırajeh. Gəldi ki, odnan buzun arasında bir iz var. Həzrət Əli fikrə getdi.

– Xudabəndi təbarük Allah, yer üzündə yaranmış hansı bəşərdi ki, onun burda izi var?

Yuxuya getdi. Gördü ki, Cənab Cəbrayıl gəldi. Dedi: “Ya Əli, bil və agah ol. Sənnən qabax Rustam buraya ayax qoyufdu, amma belə bir istixasə eliyifdi. Ona çatıfdı ki, bu tilsimin açarı ərəblərdən bir şəxsin əlindədi. Onda Rustam deyifdi ki, kaş nə ola onun mən başmax götürəni olam”.

Həzrət Əli getdi həmin o tilsimi fəth elədi. İstixasə elədi, xudaya xudabənd aləm, mənə elə bir imkan yaratginən ki, mən Rustamı görüm, onsuz getmiyim o dünyaya. Səda oldu: “Get Bəqra qəbirstannığına, iki rükət ayət namazı qıl, haqq dərgahına yön tutginan, Rustam qalxar”. Getdi gördü ki, dağ aralanır. Torpağ aralandı, Rustam çıxdı. Çıxanda Həzrət Əliyə dedi ki, mən o sözü demişəm ki, o tilsim dağına ayax qoyanın, onu məhv eliyənin mən başmax götürəni olum. – Bu bizim dinə din gətirmiyif axı. Məşədən

la ilahə illallah demiyifdi. – Həzrət Əli dedi ki, mən də Rustamsız cənnətə ayax qoymuyajam. Dedi:

– Ya Rustam, sənin gəlişinə bir doyunca baxım.

Rustam çıxdı, dizətən torpağa işlədi. Qayıtdı dedi ki, ya Əli, torpax qojalıfdı, mənim ayağımın altında davam gətirmir. Dedi:

– Allahdan sənə ömür istiyəjəm. Xudabəndi təbarək Allah sana ömür bəxş eliyəjəh. Verax arxa-arxaya bu kafirləri dinə gətirək.

Dedi:

– Onnan sonra ölüm var?

Dedi:

– Hə.

Dedi:

– Səni Allahın varlığına and verirəm, mən bir də o zəlaləti görmüyüm. – Ona görə ki, insan qəbr evinə qoyulanda qəbr onu elə sıxır ki, anadan əmdiyi süd burnunnan gəlir. – Dedi, bir də mən o zəlaləti görmüyüm.

Həzrət Əli dedi:

– Xudabənd təbarək aləm, sənin varlığına şükür, sən bilən məsləhətdi.

Onnan sonra torpax örtüldü.

Rustam qüvvəsin gəzdirə bilmirmiş, dağlara amanata verirmiş. Deyirmiş filan dağ, sana amanata verirəm quvvamın yarısın. Ona görə əmanətə xəyanət olmaz.

## 16. HƏZRƏT ƏLİNİN ŞƏHRİ-ZƏRƏ YÜRÜŞÜ

Salsalın qardaşı vardı, adı Dal idi. Bunun gözü düşdü qardaşı arvadı Şamama Nigara. Qardaşını öldürdü, Şamamanı aldı. Salsal Həzrət Əliynən dava eliyirdi. Malik Əjdəri tutdu, əl-ayağını bağladı, saldı zindana. Malik Əjdər zindanda olanda Şamama Nigar gedir Malik Əjdərə dəyməyə. Salsaldan gizdin buna yemək aparır. Getdi ki, Malik Əjdər ağlıyır, oxuyur.

Göyün gedən mələkləri,

Sən ağama xəbər eylə.
Yüz iyirmi dörd peyğəmbərə,
On iki imama xəbər eylə.
Deynən qulun zindandadı,
Şahi-mərdana xəbər eylə.

Onda deyir, Şamam Nigar Əlini çox sevirdi. Saçınnan ayırdı saz əvəzində basdı sinəsinə, dedi:

Nə ağlarsan, nə sızlarsan,
Malik, sənin bajın mənəm.
Nə istərsən, gözüm üstə,
Nə desən, ehtajın mənəm.

Buna yemək gətirdi, bu yedi. Onda Həzrət Əli gəldi. Salsalın çox oğlu vardı. Əliynən meydanda üz-üzə gələndə Salsal dedi ki, səni belə qüvvəli deyillər. Əgər mənim gürzümü götürə bilsən, onda mənim meydanıma gəl. Gördü ki, beş-altı pəhlivan bunun gürzünü sürüyə-sürüyə gətirir. – Əlidə Allahın hökmü oluf ey, ona fəda olum. – Gürz gələndə əl atdı gürzün dəstəyinə. Gürzü tavladı atdı göyə. Gürz bir xeylax qalxannan sonra qayıdanda tutdu dəstəyinnən, öpdü qoydu yerə. Salsal dedi:

– Yaxşısan, yaman deyilsən, amma mənə bərabər deyilsən.

Bunun bir halqa dəmiri vardı. Onu filə qoşuf gətirirdilər. Dedi, çəkəjeyih. Dəmirin bir tərəfindən Əli tutdu, bir tərəfindən Salsal pəhlivan. Çəkdilər, mis dəmir ortadan bölündü. Yarı parçası Əlinin əlində qaldı, yarı parçası Salsalın əlində qaldı. Gənə dedi:

– Yaxşısan, yaman deyilsən, amma mənə bərabər deyilsən.

Salsal neyləmişdi? Salsal Qurannan köynək geyinmişdi, ona görə Əli neçə səfər zülfüqarı başına çaldısa, Zülfüqar kəsmədi. Əlinin güjünü gördü. Əli bunun neçə oğlunu öldürdü. Üzdə Əliyə deyirdi ki, mən sənə tabe olajam, amma dalda dönmürdü öz sözünnən.

Salsal oldu, Baba Əmir oldu (Əlinin əyyarı idi), Şamama Nigar, bir də Həzrət Əli oldu. Bunlar dördü də gedillər Şəhri-Zərə. Gedillər Şəhri-Zərin tilsimin sındırallar, bu qızılı bölələr. Həzrət Əli o yerə gəldi ki, şahı-mar quyusu var. Burdan düşüb gedəjəh, bu

tilsimi qırajax. Yoxsa qeyri-yerdən mümkün döyül. Həzrət Əli dedi ki, siz burda quyunun başında olun, mən düşəjəm. Həzrət Əli quyuya düşəndə Salsal bir tonnux daşı ordan qujaxladı gətdi saldı quyuya. Dedi, Həzrət Əlini öldürdüm.

Həzrət Əli yendi quyunun dibinə, gördü burda bir div var. Div Əlini görəndə ona səjdə elədi. – "Ya Əli, sana fəda olum, mən sənin yolunu gözdüyürdüm. Belə cinnilər gələjəh, vəşilər gələjəh, sən elə bismillahi-rəhmani-rəhim deyif qılıncını çal, qorxma".

Salsal quyuya daşı salanda Baba Əmirnən Şamama qaçdı. Bu da qayıtdı öz qoşunun içinə. Dedi ki, Əlini öldürdüm.

İndi burda yeyiv-içif kef edirlər. Yeyiv-içif burda dəmləndi. Baba Əmir dedi ki, yox, mən hara qaçım. Şamamaya dedi, sən burda quyunu gözdə, mən gedim, Allaha pənah, görüm ona bir xata yetirə bilirəm. Gəldi ki, qoşun yeyiv-içif yatışıfdı. Salsal da yatıfdı, elə bil bir dağ yıxılıf oraya. Dedi ki, mən qılışnan bunun başını kəsə bilmiyəjəm, mümkün döyül. Buna mənim zorum çatası döylü. Şişi qoydu ojağa, basdı Salsalın gözünə. Salsal bağırdı. Baba Əmir də neynirdi? Mayallax vururdu, altı aylıx yolu bir günə gedirdi. Mayallax vurdu, gəldi Şamamanın yanına. Dedi:

– Gəl qaçax, gözünü tökmüşəm.

Həzrət Əli tilsimi qırannan sonra gəldi, indi bunlar gedəjəhlər. Bir də gördü ki, Salsal gəlir. Salsal Əlini görəndə ağladı. Dedi, mənim gözümü töküf məni belə zəlil eliyif.

Getdilər Şəhri-Zərə. Şəhri-Zərə gedəndə gördülər ki, burda çəfkan oyniyillər atın üstündə. Burda bir dilavər var, min nəfərin içindən bu qalib çıxdı. Dedi ki, Şamama, o kimdi? Dedi, o mənim qabaxkı yoldaşımdı – Daldı. Bu lənətdik onu öldürdü, məni aldı. Əli heyfsiləndi oğlana. Baxdı ki, min nəfərə təkcə qalib gəldi.

Gəldilər, Həzrət Əli qırmışdı tilsimi. Qızılı çəkirdilər. Baba Əmir aparırdı öz kölgəsində basdırırdı, Salsal da aparıf tökürdü dəryaya. Həzrət Əli ona nə qədər qılınc vurdu mümkün olmadı, nə də onu yıxa bilmirdi. Salsalın qoşunu gəlif çatanda Şamamaynan çıxmışdı dağın başına. Qoşun ox atırdı bunlara, bunlar sapadnan. Sapanda bir daş qoyurdu, atanda hər daşa min adam ölürdü. Həzrət

Əli ordan çığırdı: "Əyə, nağarırsan, Salsal gəlir". Bu, Əliyə sarı qayıdanda ox atdı. Ox qolunnan işdədi ciyərinə dəydi, yumalandı gəldi düşdü Əlinin ayağının altına. Şəhri-Zəri onda heylə talan elədi.

## 17. HƏZRƏT ABBAS

Peyqumbər əleyhsalam gəlif dünyaya, millət onun dininə sel kimi axnaşır. Padşahın bir pəhlivanı vardı, onun meydanında çarhovuz vardı. Çarhovuzun yanında bir daş vardı. Bu daş nəymişsə, bəhri-təbil çalınırdı, pəhlivan gəzirdi, quvvalanırdı, bu daşı alırdı qujağına, hovuzun başına hərrənirdi, gətirif qoyurdu yerinə. Padşah dedi, peyqumbəri qonax çağırın. Gəlsin mənim pəhlivanıma baxsın, onda özü mana təslim olajax.

Peyqumbəri qonax çağırdı. Əli əleyhsalam dedi, ya əmoğlu, bizi qonax dəvət eliyiflər, gedax qonaxlığa. İmam Həsən dedi ki, ata, mən də gedəjəm. İmam Hüseyn dedi ki, mən də gedəjəm. Həzrəti Abbas on yaşında uşağıydı. Dedi, baba, razı olsanız da gedəjəm, olmasanız da gedəjəm. Çox qəzəbnak idi. Bunun da anası ölmüşdü, heç kəs onun xətrinə dəymirdi. Dedi, gedək.

Getdilər. Səs yayıldı padşahın torpağına. Dünyaya yayıldı ki, peyqumbər gəlir. Hamı peyqumbəri görmək istiyir. Padşah fəxri yer verdi bunlara. Dəm-dəzgah yarandı bunların şərəfinə. Bunun qızıl meydanına millət yığılmışdı. Torpağı göyə atsaydın, millətdən yerə düşməzdi. Dedi ki, ya peyqumbər, sizin icazəniznən mənim pəhlivanım bir oynayar, ona tamaşa eliyərıx.

Bunlara fəxri yer verdilər, çıxdı oturdular. Pəhlivan gəldi meydanda gəzdi, gəşt eylədi. Bu daşı aldı qucağına, çarhovuzun başına hərrədi gətdi qoydu yerə. "Urra hay" qalxdı göyə. Həzrət Əli baxdı İmam Həsənin üzünə, İmam Həsən baxdı İmam Hüseynin üzünə. Həzrət Abbas dedi ki, baba, icaza ver mən gedif bir az gərdiş eliyəjəm. Dedi:

– Ay bala, oraya böyük pəhlivannar lazımdı. Sən uşaxsan.

Dedi:

– Yox ey, baba, mana icaza ver.

Həzrət Abbasın qolu çatmıyıf daşa, daşın altına girifdi. Daşı başının üstünə qaldırıf yeddi dəfə çarhovuzun başına hərriyif gətirif qoyur yerə. Padşah bunu görəndə dedi:

– Ya peyqumbər, sənə fəda olum, sənin qanun-qaydan nədi?

Dedi:

– Əşədən la ilahə illallah, əşədi ənnə Məhəmmədi rəsulallah, əşədi ənnə əmirəlmömin Əliyən vəlilullah.

Bunu dedi. Padşah əmr elədi, hamı peyqumbərə din gətirdi. Padşah özü də bayrağın qaldırdı. Dedi, mən öz pəhlivanımnan fəxr eliyirdim. Bunun bir balaca tifili mənim pəhlivanıma üstün gəldi.

Onda o ölkə dini-Məhəmmədi qəbul elədi.

## 18. HATƏM

Hətəm yolun ayrıcında bir bina tikdirir, gedif gələnlər orda yeyirmişdər, içirmişdər, gedirmişdər. Bir gün elə olur ki, Hətəmin bir dostu olur, bu gəlif burdan keçəndə Hətəmnən görüşürmüş, yeyiv-içif gedirmiş. Bir gün Hətəm ölür. Qardaşı deyir ki, mən də Hətəm kimi olajam. Anası deyir ki, ay bala, sənnən Hətəm olmaz. Deyir:

– Niyə, ay ana?

Deyir ki, çünki Hətəm balaca vaxtı bir döşümü əmirdi, o birini əmmirdi. Əlinnən işarə eliyirdi ki, o biri qardaşıma da ver. Sən isə bir döşümü əmirdin, əlini qoyurdun o biri döşümün üstünə. Deyir ki, yox ey, mən elə eliyəjəm ki, Hətəmin öldüyünü bilməsinnər. Hətəm kimi camahata hörmət eliyəjəm.

Bir gün Hətəmin dostu gəlir.

– Salam-məlöykü.

– Əlöykümət-salam.

Yeyiv içillər. Deyir ki, Hətəm hanı? Deyir ki, başqa yerdədi. Bu duruf gedəndə istiyir ki, yol azuqəsi götürə, deyillər ki, yol azuqəsi götürmək olmaz. Nə qədər yeyiv-içirsənsə ye iç, amma götürüf aparmağ olmaz. Başdıyır dizinə döyməyə. Deyir ki, ə, niyə ağlıyırsan? Deyir ki, Hətəm ölüf.

– Ə, səy-səy danışma.

Deyir:

– Yox, vallah Hətəm ölüf.

– Ə, bəs nə bilirsən Hətəm ölüf?

Deyir ki, Hətəm heç vaxt deməzdi ki, götürmə. Deməli, Hətəm ölüf ki, deyillər sən götürmə. Doğurdan da, hər adamdan Hətəm olmaz.

## 19. SEYİD MANAF AĞA

Bir gün Laçın camahatı Seyid Manaf ağaynan zarafat eliyir ki, sən qüvvəli olarsan, yoxsa əmin oğlu Hajı Əmirxan. Dağın döşündə tala yeri var. Bir dəstə maral meşədən çıxıf məliyirmiş. Biri yenir, gəlir düz seyidin ojağına, yelini də dolu. Seyid Manaf ağanın arvadının adı İnci idi. Deyir ki, İnci, sərniş gətir bunu sağ. Sərniş gətirir, maralı sağır. Südü tökür maralın belinə. Maral ürpəşir. Əliynən sığallıyır, yuyur. İkincisini də sağıf tökür. Üçüncü dəfə sağanda deyir kətəməz bişir, yeyəjəm. Deyir, get Allahın heyvanı. Allah qarnındakınnan sana xeyir versin, bala görəsən. Amma başçınıza deyərsən gəlif məni aparsın Her-herə. Əmim oğlu Hajı Əmirxanın yanına gedəjəm.

Maralın erkək tayına təkə deyillər. Təkə maralların içinnən çıxıf məliyə-məliyə gəlif kişinin qapısına yenir. Atın tapxırı çatmır onun ortasına. Bir balaça döşəkçəni maralın üstünə qoyullar, örkənnən sarıyıf seyidi mindirillər. Gedir Her-herə.

Səhər gün çıxan vaxdı mal-qara çölə çıxanda deyillər ki, Hajı Əmirxan, bir seyid gəlir, üz-gözünnən nur yağır. Bir maralı minif gəlir. Seyid qəzəbnək adam olufdu. Başdıyır titrəmağa. Deyillər, ağa, niyə heylə eliyirsən? Deyir, o mənim əmim oğludu, gəlir məni sınamağa. Daşın üstə otumuşmuş. Deyilişə görə, Manaf ağa maralnan gələndə Hajı Əmirxan qəzəbnən deyir, məni yoxlamağa gəldin? Ey Allahın nuru, tərpən. Daş bir neçə santı irəli tərpənmişdi. Seyid Manaf ağa deyir, əmoğlu, bu bəs elədi. Laçın camahatı bilmək istiyirdi, görax mən dəli seyidəm, ya sən.

Üç gün əmisi oğluynan qalır, bunu qonağ eliyir, sonra maralı da minir qayıdır geri.

## 20. ŞIX HƏSƏN

Milli kəndində Şıx Həsən adlı birisi olub. Deyilənə görə, çox möcüzələr göstərərmiş. Hətta qışın qarlı günündə gedib meşədən gül-çiçək, bənövşə dərib gətirərmiş.

Bir gün Şapılar kəndindən bir nəfər Şıx Həsənə şəkk edir. Ona inanmayaraq deyir ki, əgər o şıxdırsa, hər şeyi bilirsə, gəlsin mənim ocaqda bişirdiyim kömbəni çıxartsın və bir qismət də yesin. – O vaxt yağ və südlə yoğrulmuş xəmiri sacın altına qoyub üstündə ocaq qalıyardılar. Həmin xəmir kürədəki çörək kimi bişərdi. – Şıx Həsən Milli kəndində öz evində dincəlirmiş. Birdən qəflətən arvadına deyir:

– Məni yenə yaman əziyyətə saldılar. Çarıqlarımı ver, gedəsi yerim var.

Qışın qarlı günündə gecə Şapılar kəndinə yola düşür. 8-9 kilometrlik yolu gəlib Şapılara çatır və həmin evə gedir. Onu görəndə hamı təəccüb edir. – "Məni bu qışın günü niyə əziyyətə saldınız" – deyərək kömbəni ocaqdan çıxarıb bir qismət kəsib yeyir. Qalanını isə ev sahibinə verib deyir:

– Alın, bu da sizin dediyiniz söz. Kömbəni ocaqdan çıxardıb bir qismət də yedim.

Ev sahibi xahiş edir ki, bir halda ki, əziyyət çəkib gəlmisən, barı kömbədən doyunca ye. Şıx Həsən cavab verir ki, siz mənə şəkk edərək dediniz ki, gəlib bir qismət yeyim. Demədiniz ki, doyunca yeyim. Ev sahibi Şıx Həsənin əlindən, ayağından öpür və yalvarır ki, onların səhvini bağışlasın.

# *YER ADLARI, TAYFA VƏ NƏSİLLƏR HAQQINDA*

## 21-25. KALBA ELLAZ VƏ MƏMMƏDUŞAĞI NƏSLİ

Ağalar əmim vardı, 120 yaş yaşadı. Mən də çoban idim, amma çalışırdım ki, məlumat alam görax kimik biz. Onun dediyinə görə, bizim babalarımız Dərələyəzə hardansa gəliflər. Gəlmədi deyə bunlara torpax sahəsi verməyiflər. Torpax sahəsinin üstündə

narazılıx olanda o kəndlərnən qız verif qız alıflar ki, bu narazılıx götürülsün. Yenə də olmuyuf. Səfolar İstisuyunnan da bir qız alıflar. Düzəlmiyəndə dedığım Məmməd də qojalmışmış. İki Məmməd oluf: biri baba Məmməd, biri dədə Məmməd. Birinci Məmməd öləndə oğlu Nəbi atasının adını oğlunun üstünə qoyur. Torpax məsələsində deyiflər ki, gərəh burdan çıxax. Məjbur olullar, hər tayfadan bir nəfər cavan oğlanı göndərillər, boş yer axtarıllar. Biri olur Kalbalayı Ellaz, əmisi oğlu olur Məmməd. Gəlillər, özləriynən də toxum da götürüllər. Dağın birindən baxıllar ki, düzəngah yerdə bir tikili görükür. O vaxt da oralar cəngəllik idi, kol-kos basmışdı. Çox çətinnığnan gəlif həmin tikilini tapıllar. Təyinnəşdirillər ki, bura məçitdi. Bir-iki gün qalıllar burda. Az olsa da, şum çıxardıf toxumu səpiflər. Duruf gəziflər. Bir qəbirstannıx tapıflar, bir də bir künbəz. Baxıflar ki, bu qəbirstannıxda mədəni qəbirlər var, üstündə qoç heykəli, sandıx, at fiqurları. Buraları gəziflər, ayrı olajax tapmıyıflar. Taxılı səpif gediflər. Payız olanda ağsakqallar göndərif ki, gedin görax taxıl nətər bitif. Gəlillər ki, taxıl uzanıfdı, iyirmi santımetrətən sünbülü var. Bu sünbülləri biçif aparıllar, göstərillər ki, belə bir yararlı yer var. Bu yerləri təsdiq eliyənnən sonra deyillər ki, köçə hazırrığ olsun. Qış gəlir keçir, dağlarda qar əriyəndə köçü yüklüyüllər, gəlillər düşüllər oraya. Kəlbəcəri də o vaxtı meşə basmışdı. Yoğun palıd ağacları varmış. Deyirlər ki, bu düzü təmizləmək lazımdı. Bu düzü təmizləməyə öküzün qüvvəsi çatmıyıf. Palıd ağacların kəsiflər qoşuflar kələ, kəlnən bejəriflər. Köklərin ilişdirillərmiş yoğun zəncirə, kəl dartıf yerdən qopardırmış. Onda babalarımız deyif ki, bu kəndin adı Kəl becərən olsun.

**22.**

Ellaz çox qoçağ adam oluf. Əmisi oğlannarıynan harayasa gəzmağa gedif. Hüsöyn kişi deyirdi ki, mən Qazağa eşitmişəm. Qazağa gediflər, orda davaya düşüflər. Ağalar kişi də deyirdi ki, yox, Mil-Muğan düzünə gediflər. Gediflər ki, kənddə toy var. Ellaz deyir ki, gəlin girax qamışa, bu toy sovuşsun. Bunlar gizdanmaxda yağın oğurrux məsələsi varmış da. Girillər qamışa. Yoldaşının biri

deyir ki, susamışam, gərək su içəm. Qamışdıxdan qıraxda da axar su varmış. Ellaz deyir ki, görmürsən atdıları? – At çapırmışdar da toyda. – Bizi görəllər, bizi qırallar, tutallar. Olmur. Məjbur olur, sürünə-sürünə gedir, suyu içif gələndə açığına gəlir. Atdılar görür ki, ordan bir adam girdi qamışa. Gəlif deyillər ki, çıxın. Çıxmıllar. Bunlara bir-iki güllə atırlar, bunlar da onlara atır. Suya gedən adam bir cılız adammış. Atışma olanda bu deyir, o toyu olanın qolunda qırmızı var, onu vurajam. Ayə etmə, eləmə. Olmur. Atır, onu öldürür. Öldürəndə bunların badronu qutarır. Bunlar girillər qamışdığın qalın yerinə. Camahat gəlir, qamışdığı odduyullar. Ellaz deyir ki, bizi qırmayın, çıxax.

Çıxıf təslim olullar, silahların da verillər. Deyillər, niyə vurdunuz? Deyir ki, bax bu elədi. Özün göstərən də bu oldu, bəyi vuran da bu oldu. Onda deyillər ki, yox, bu meyidi tək aparmıyajeyih. Birinizi öldürəjeyih. Ellaz deyir, məni öldürün. Deyillər, yox, Nəbini öldürəjeyih. Nəbi də çox gözəl olur, şəxsiyyətdi oğlan olur. Ağlıyır Ellaz. Deyir ki, onun əvəzində məni öldürün. Baxmıllar, Nəbini öldürüllər. Gətirillər obaya. Toyu olan oğlanın anasın çağırıllar ki, oğlunun qanın almışıx. Gəlir ki, bir nər uzadıflar. Deyir, əliniz qurusun sizin. Oğlumu öldürəni ayanda qoymusuz, bu oğlanı niyə qanına bulamısız? O arvad Nəbinin qannı köynəyini özündə saxlıyır, öz oğlunun qannı köynəyini verir Ellaza. Deyir, Ellaz, bunu apar. Bu oğlanın anası durursa, o mənim oğluma ağlasın, mən də onun oğluna ağlıyajam. Elə helə də olur. Meyidləri yanaşı basdırıllar. Tüfələrin alıf Ellazı boşduyullar.

Ellaz gizlin gedir əmisi oğlunun qəbrinin üstünə. And içir, deyir, əmoğlu, qanını alajam. Həmən kəndi təmiz talıyır. Kimini öldürür, malın yığır, atın aparır, çox adam öldürür. Qanın alannan sonra Kalba Ellaz qırx beş yaşa çatır da. Onda adam öldürmağa tööbə deyir, gedir ziyarətə. Qayıdır gəlir, bir yaxşı əməlli adam olur.

**23.**

Kalba Ellaz deyilişə görə yüz atmış yaş yaşıyıf. Qardaşdar qırılıf, oğul qırılıf, nəvə qırılıf. Balaca kişiymiş, özü də gözdəri

göymüş. Elə göygöz deyirmişdər. Arıxlıyır, olur bir dəri, bir sümük. Ağlın da itirir. Onu nəticəsinin arvadı saxlıyıf. Pəri adında bir qadın onu ədyalnan dalına bağlıyırmış, dalında gəzdirirmiş. İndi bizim camahatda belə bir nəsiyət var. Biri-birinə alqış eliyəndə deyir ki, səni görüm Pəri nənə götürən savabdan götürəsən.

**24.**

Kərbalayi Ellazın və əmisi oğlu Məmmədin Zəngəzur mahalında yaşadıqları kənddə başqa bir tayfa ilə aralarında dava düşür. Kərbalayi Ellazın və Məmmədin tayfası o tayfadan adam öldürür, həmin tayfa da bunlardan bir nəfər öldürərək qisas alırlar. Bununla da bir kənddə iki tayfa arasında qan düşmənçiliyi olur. Məmməd və Kərbalayi Ellaz belə məsləhət eliyirlər ki, bu qannıçılıqla bir kənddə yaşamaq çətin olacaq. Ələlxüsus bu qan davası davam edərək daha da dərinləşəcək, bu iş heç bir günahı olmayan gələcək nəsillər arasında da davam edəcək. Ona görə də gələcək qan-qadadan uzaq olmaq üçün Məmməd və Kərbalayi Ellaz – hər iki əmoğlu məsləhətləşirlər ki, burdan köçüb getsinlər. Onlar razılaşırlar ki, bu işi tədbirlə gerçəkləşdirsinlər. Elə etsinlər ki, onların niyyətindən burdan çıxıb gedənə qədər heç kim xəbər tutmasın. Bu minvalla ov ovlamaq adıyla özlərinə yararlı yaşayış yeri axtarmaq üçün Məmməd, Kərbalayi Ellaz və bir neçə qohumu silahlanıb kənddən çıxaraq Kəlbəcər istiqamətinə yola düşürlər. Onlar Zəngəzurdan Laçına, ordan da Minkənd tərəfdən gəlif çıxırlar Qoçdaş adlanan yaylağa. Qoçdaş yaylağı ilə Kəlbəcər qabaq-qarşı olduğundan ordan baxıb görüllər ki, aşağıda böyük bir düzənlik sahə var. Bu düzənliyin ortasında nəsə tikili ağarır. Onun otuz addımlığında isə nisbətən kiçik başqa tikili olduğunu görürlər. Amma bütün ərazi meşəlik olduğundan və hər yeri kol-kos basdığından burada başqa heç nəyi ayırd etmək mümkün olmur. Onlar Qoçdaşdan enib gəlirlər həmin ağaran binanı tapırlar və görürlər həmin tikili məscid imiş. Yaxınlığındakı tikili isə qırmızı kərpicdən tikilmiş minarədir. Pilləkənlə çıxıb minarədən baxdıqda ətrafda çoxlu dam-daş yeri görürlər. Bundan bilirlər ki, buralar nə vaxtsa yaşayış yeri olub.

Onu da müəyyənşədirirlər ki, burada çoxdan insan yaşamadığına görə hər tərəfi kol-kos basmış və vəhşi heyvanlar burda yuva qurmuşlar. Vəhşi heyvanların və meşədə bir-birini itirməyin qorxusundan həmişə bir yerdə hərəkət edirmişlər. Bir dəfə görürlər ki, yaxınlıqda uzun bir təpə var. Belə məsləhət görürlər ki, həmin təpənin üstünə çıxsınlar. Çünki ordan hər tərəfi yaxşı görə bilərlər. Təpənin üstünə çıxdıqdan sonra baxırlar ki, burda böyük bir düzənlik var. Təpənin aşağısındakı düzənlikdə isə xırda tikiliyə bənzər nəsə görünür. Həmin tikiliyə yaxınlaşanda görürlər ki, bu tikili köhnə bir kümbəzdi, yanında da çoxlu daşdan düzəldilmiş qoç heykəlləri var və bura böyük bir qəbirstanlıqldı. Artıq dəqiq müəyyənləşdirirlər ki, bu yerlərdə bir vaxtlar yaşayış olub.

Məmməd və Kərbalayi Ellaz özləri ilə balaca bir torbada apra, buğda toxumu götürüblərmiş. Balaca bir yeri əkərək bu toxumu səpirlər ki, görək burada taxıl bitir, ya yox. Bir qədər ov ovladıqdan sonra qayıdıb öz yerlərinə gedirlər. Bir il keçdikdən sonra onlar yenidən ov edə-edə gəlib Kəlbəcərə çıxırlar. Taxıl səpdikləri yerə baxıb görürlər ki, dəmyə şəraitdə burda elə gözəl taxıl – apra, buğda yetişib ki, adamın həvəsi gəlir. Bütün bunları gördükdən sonra Məmməd və Kərbalayi Ellaz qayıdıb öz tayfaları ilə köçüb Kəlbəcərə gəlirlər.

Kərbəlayi Ellaz və əmisi oğlu Məmməd Kəlbəcəri iki sahəyə bölürlər. Tərtər çayının sol cinahını, yəni Qoçdaş tərəfi Məmmədə və oğlanlarına verirlər. Kəlbəcərin sağ cinahı – Qaraqaya adlanan tərəfi isə Kərbalayi Ellaza və onun oğlanlarına verirlər. Kərbəlayi Ellaz iki qızını öz qohumlarına verib indiki Allı kəndi və Kilsəli kəndinin yerini onlara göstərib həmin yerlərdə ev tikib yaşamağı tövsiyə edir. Məmməd isə Şapı[1] adında qızını Taro adında bir qohumuna verir və Şapılar kəndinin ərazisini onlara yaşayış yeri düzəltmək üçün verir. İndi Kəlbəcər iki böyük tayfadan ibarətdir. *Məmməddən törəyən nəsillər:* Hacı Qasımlar, Molla Xələfli, Hacı Şirinlər, Zeynolar, Qurbanlar, Əhmədlər, Oruclar, Məşədi Nəbilər, Mey-

---

[1] Başqa variantda isə Şapının Kərbəlayi Ellazın qızı olduğu söylənilir.

rəmlər, Məşədi Həsənlər, İbrahimlər, Məşədi Abbaslar, Məmişlər, Kərbəlayi Allahverdilər. *Kərbəlayi Ellazdan törəyənlər:* Hacı Həsənəlilər, Hacı Zamanlar, Kamallar, Kərbəlayi Bayramlar, Məşədi Şirinlər, Məşədi Rzalar və s.

**25.**

Kalba Ellazın yeddi oğlu oluf. Hər oğluna bir ərazini verir. Bir günnərim Kəlba Ellazın oğlu gəliv atasına deyir ki, ay dədə, məni aparıv atmısan güneyə, qızın Şapıya da bir dünya yer vermisən. Nolar maa da bir qırıx yer ver. Deyir ki, ay bala, get o dərənin bu tərəfində də sən ol. Gedir bu orda bir daxma tikir. Şapı gəlir. Deyir ki, ay dədə. Deyir, nədi, ay qızım, nə deyirsən? Deyir, nədi, bir qırıx mana yer vermisən, hələ bir oğlunu da calıyırsan mana. Halbuki düzü dünya yerdi ey, nə ucu var, nə bucağı.

## 26-30. GEŞTƏK

Geştək səkgiz para kənddən ibarətdir: Böyük Geştək, Alolar, Təkdam, Həsənnər, Armutdu, Yellicə, İmannar, Məşədi Xələf binəsi. İmanoğlu, Bevdalıoğlu, Kərimoğlu, Möjdunoğlu Geştəkdə yaşayan nəsillərdi. Aloların babaları Allahverdi oluf, dörd-beş qardaş oluflar. Dərələyəzdən gəlif orda binə salıflar. Siftə Geştəkdə binə salıflar, sonra görüflər yer darrıx eliyir, gəliv Alolarda binə salıflar.

Bevdalıların da əsli Dərələyəzlidir. Bevdalının iki arvaddan on iki oğlu oluf. Oğlu Haxo oluf. Əsl adı Hakverdidi, amma Haxo kimi tanınır. Geştəkdə malını, heyvanını otarmaq üçün örüş çatmır. Gedir ətraf kəndləri gəzir ki, harda yaxşı yer var, mal-qarasını orda saxlasın. Gəlir çıxır Armutdu kəndinə. Həmin kəntdə də Həsən addı bir kişi oluf. Gəlif ona deyir ki, qoy mən də heyvanımı gətirim, bir qışdığına burda dolanax. O narazı qalıf. Axırı ki, Geştəhdən köçüf gəlif yığılıf Armutduya.

**27.**

Yellicə Geştəyə daxil olan yeddi para kənddən biri idi. Vaxtilə mərkəz oluf Geştək kəndi. Nəsil artdıxca hərə çıxır bir tərəfə.

Kərim ağa da Geştəyə gələn ilk adamlardan biri oluf. Behbudalıynan onun arasında narazılıx yaranıfdı. Bu da öz nəslini götürüf Yellicə kəndinə gəlir. Kərimoğlu, İmanoğlu, Möjdunoğlu – bizim kənddə məskunlaşan bu üç tayfa idi. Küləyi çox olan yer idi, ona görə bizim kəndə Yellicə deyiflər. Bizdə Yelli gədik vardı, Yelli yurd vardı.

**28.**

Bizim nəslimiz Dərələyəzdən gəlif. Babalarımız əvvəl gəlif Geştəkdə yerrəşif. Sonra deyiflər ki, bütün tayfaların burda yerləşməyi düz deyil, gəlin gedək özümüzə kənd yeri seçək. Yaxşı bilicilərin biri gəlib Yellicə kəndinin yerini müəyyənləşdirib. Kəndin yeri balaca olub. Gedif baxıllar yerə, deyillər, yox, bura balaca yerdi, burda kənd salmaq olmaz. Ağsakqallar deyir, yox, yeddi burun axıb gəlir ora, yəni yeddi sahə gəlib orda birləşir, hərəsi də bir kənd saxlıyar. Heylə biçnək sahələri olur. Deyir ki, belə yerdə kənd salallar.

**29.**

Bir ataynan oğul harasa gedirmiş, yolları Geştəkdən keçir. Geştəyə çatanda axşam düşür, ulaxların yükün tökürlər, özləri də uzanıllar. Gejənin bir vaxtı ata görür ki, oğlu durub ki, bunun başını kəssin. Oğlunu dilə tutub sakitdəşdirir. Yenə başlarını qoyub yatıllar. Aradan bir az keçmiş ata görür yenə oğlu durub ki, bunun başını kəssin. Deyir ki, dur burdan gedək. Bu torpax qannan yoğruluf.

**30.**

Çar Rusiyası dövründə Geştək camahatı arasında böyük qanlıçılıq yaranır. Haqq-nahaq bir-birindən yüzə qədər adam öldürmüşdülər. Bu qanlıçılıq uzun müddət davam edir. Əl ilə bir-birini öldürənlərin meyidləri qəbirstanlıqda ayrı tərəfdə, öz əcəli ilə ölənlər isə başqa bir tərəfdə dəfn edilib. Bu qanlıçılığın səbəbkarı Geştək kəndində Xudo adlı bir nəfər olub. Kəndarası dalaşmada bir nəfər ağacla vurub Xudonun barmağını sındırır. Sağalsa da, onun barmağı bir

növ topal olur, yaxşı işləmir. Bildiyimiz kimi, hamı Novruz bayramında aş bişirir. O vaxtlar aşı bir qayda olaraq əl ilə yeyirdilər. Növbəti Novruz bayramında Xudonun arvadı da aş bişirir. Mis camlarda həm ərinə, həm də onlarla birlikdə yaşayan dörd-beş oğluna da aş verir. Boşqabı Xudonun qabağına qoyduqda yeməyir, itələyir. Səbəbini soruşduqda barmağını yuxarı qaldırıb göstərir və deyir:

– Nəynən yeyim, barmağım var ki, aş yeyəm. Mənim bir züryətim olmadı ki, barmağımın qisasını alsın.

Oğlanları atalarının bu tənəli sözündən sonra aş yemirlər. Elə Novruz bayramı günü gedib Xudonun barmağını sındıran adamın əlini daşın üstünə qoyub xəncərlə doğram-doğram edirlər. Əli doğranan adam ah-vayla öz qohumlarına xəbərə qaçır. Onun qardaşları, qohumları silahlanıb Xudonun evinə hücuma keçirlər. Hər iki tərəfdən atışma başlayır. Bu atışmada Xudonun iki oğlu, o cümlədən yenicə məktəbi qutarmış Molla Mehdi öldürülüb. Hücuma keçən tərəfdən isə bir nəfər ölür, bir nəfər yaralanır. Bu hadisədən sonra qanlıçılıq əmələ gəlir. Həmin əhvalat bu gün də kənd camaatı arasında bir məsələ çevrilib. Kimsə ara qarışdıranda deyirlər: "Xudo kimi barmağını dikəldib qan salma".

## 31-32. MOLLA BAYRAMLI

Molla Şahbaz böyük qardaşdı, xırda qardaşının adı Molla Bayramdı. Bunların aralarında iyirmi-otuz yaş fərq olufdu. Molla Şahbaz Şuşa qalasının sahibkarı Mehdiqulu xannan həmyaşıd oluf. O vaxdı Xoyda başı sarınıf, Gəncə quberniyasında onların başının əmmaməsinin təsdiqi verilif. O vaxdı babamızı Sank-Peterburqa dilimanc göndəriflər. Ordan gəlir Gəncəyə. Salahlıdan bir qıznan evlənir, onnan üç oğlu bir qızı qalmışdı.

Laçının Mirik kəndində bunların özünün varı-halı yaxşı idi. Altı dənə balaca buzov danalarını otardığı vaxt uşaxlarnan aşıq-aşıq oynuyur, canavar gəlif danaları məhv eliyir. Anası orda oğlunu döyür, başını yarır. Laçınnan qaçan gəlir Kəlbəcərin Zar kəndinə. Ordan Göyçə mahalına aşır. Orda Məşədi Raşo addı bir imkannı

adam vardı. Ot çaldığı yerdə gedə bunun yanınnan keçəndə baxır ki, başınnan qan axır. Deyir, oğlum, hara gedirsən? Deyir, var ölkəsinə. – Var ölkəsi deyəndə Göyçəni nəzərdə tuturdu. Göyçə mahalında taxıl, buğda əkirdilər, ona görə orda çörək çox idi. – "Oğlum, mənə bir oğul lazımdı, olar mənə nökər olasan?" Deyir, baxaram. Oğlanı axşam evə gətirir. Bunun da evdə bir qızı var idi. Babam söhbət eliyirdi ki, qız oturanda babam da ayağ üstə olanda ikisinin boyu ancax bərabərrəşirdi. Nəysə, qismət olur qız oğlanı, oğlan qızı sevir. Molla Bayramın törəməsi həmin qızdan olandı. Molla Bayramın üç oğlu bir qızı oluf. Böyük oğlunun adı Abbasəlidi, bizim ana babamızdı. Mən onların dördüncü nəvəsiyəm. Bir qardaşı İbaddı, o biri Əsəddi, biri də Adgözəldi. Pəri adında bircə dənə qızı olufdu.

**32.**

Molla Bayramnan Molla Şahbaz Qoyunnu Alının oğludu, Qoyunnu Alı da Mirik Həsənin oğludu. Onların anaları Naxçıvannan gəlmədi. Qoyunnu Alının anası pencər yığırdı bişirə yeyə. Pencəri yığır, süd olmur. Qonşuya südə gedir, qonşu süd vermir. Onda Alı deyir ki, ana, qəm eləmə, mən gedif sənə qoyun gətirəjəm. Keçir Qazax mahalına. Qazax mahalında bir il altı ay çobançılığ eliyir. Öz zəhmətinnən bir neçə qoyun alır, axırda sürü yiyəsi olur. Ataları ölür, arvad var dağılmasın deyə əmilərinə kəbin olur.

## 33-35. AĞCAKƏND

Bizim camahatın lap əvvəli Dərələyəzdən oluf. Ordan köçüflər Laçına. Laçında müəyyən qədər qalannan sonra mal-qara saxlamaq üçün boş yerrər axtarıllar. Bu yerrər də yiyəsiz oluf. Gəlif burda məskən salıflar. İlk olaraq Alırza, onun iki oğlu gəlif. Onnan sonra Alırzanın o biri qohumları Məşədi Əhmədgil, Oruculu kəndinə də Məşədi Səfər gəlif. Əvvəlcə bura onların yaylax yerləri oluf, sonra Alırzanın oğlu Xudo deyir ki, mən burdan köçmüyəjəm, burda məskən salajam. Bünövrəni Xudo qoyur orda. Özünə dam tikib qalır orda. İndi kənd Nəjikli, Alırzalı tayfalarından ibarətdir.

Ağaxanlar, Şəldilər, Bayramlar, Alırzalılar Alırzadan törəyənlərdir. Mollalar, Dovutlar, Həsənuşağı isə Nəjiklidən törəyənlərdir. Bizim kənddə Nəjiklidən böyük tayfa yoxdu. Bir az yatağan oluf. Amma yuxudan ayılannan sonra çox işdiyən oluf. İndi o xüsusiyyət bizdə var. Nəjikli günortaya qədər yatar, günorta durandan sonra axşama qədər bütün işi görüf qutarar.

Xudo çox düz adam oluf. Deyif ki, mən Kərbalaya gedəjəm, orda da öləjəm. Kərbəlaya gedifdi, ziyarətlərin başa vuruf, səhər artıq gələjəhlər. Axı bu əhd etmişdi ki, orda öləjəm. Namaz üstündə dua eliyir ki, xudabənd aləm, mən gəlmişdim ki, ağamın ayağının altında basdırılım. Mən bir də qayıdıf gedəjəm oraya, bu torpax mənə qismət olmuyajax. Gejə vəziyyəti qarışır. Molla çağırıllar, gəlif Quran oxusun. Gəlillər ki, Xudo özü Quran oxuyur. Rəhmətə gedir, elə orda da dəfn eliyillər.

**34.**

Xudonun heyvanına deyirlər ki, canavar dəymirmiş. Xudonun qardaşı uşaxları mənim babalarımdı: Bayramnan Hüseyn. Yetim uşaxlarmış, üç-dörd dənə çəpişdəri varmış, qatarmış Xudonun qoçunun içinə. Xudo qoçlarını güneydə otararmış. Axşamüstü çağırıf bunlara deyir ki, ay bala, gedin çəpişdərinizi gətirin, canavar qırar. Deyir ki, əmi, sənin o boyda qoçlarını canavar yemir, bizim çəpişdəri yeyəjək? Getmillər. Səhər gedillər ki, çəpişdərinin üçün də canavar yeyif, amma Xudonun qoçlarına dəymiyiflər. Deyillər, nətər olur sənin sürünə canavar dəymir, bizimkinə dəyir? Deyif, yüz heyvandı, iki yüz heyvandı – hər nədi, Allahın qarşısında həmişə onun xumsun, zəkatın vermişəm. Mənim ona borcum yoxdu. Ona görə mənim heyvanıma dəymiyif.

**35.**

Kəndin yuxarı hissəsindəki əkənək yerləri aran camahatının yaylax yeri olub. Onlar yayda gəlirmişdər, öz yaylaxlarında alaçıxlarını qururmuşdar, bunlar da qalırmış kəndin içində, örüşə çıxa

bilmirmişlər. Bizim kənddə Məşədi Murtuza oluf. Deyir ki, mən elə eliyəjəm onlar bir də bu əraziyə gəlməsinnər.

Bir il taxıl əkifmiş bir balaca yerdə. O taxılı otarıf. Tərəkəməyə deyif ki, allah qoysa, sizi beş abbasıynan bu yalın o üzünə aşırajam. Bunlar gülüllər ki, beş abbasıynan bizi nətər aşırajax? Tərəkəmə arana köçənnən sonra dəmirçiyə beş abbası verif xışın dəmirini düzəltdirir. Bunu atına yüklüyüf, gətirif xışını düzəldir. Başdıyıf tərəkəmənin yerini əkməyə. O hissəni düz dağın başına qədər əkif. Camahat da kömək eliyif, toxum alıflar, hər yeri eliyiflər taxıl. Tərəkəmə gələndə görüf ki, hər yer taxıldı. O vaxdı da taxılı otarmaq olmazdı. Deyiflər, hə. Məşədi Murtuza ona görə dedi ki, beş abbasıya sizi aşırajam yalın o üzünə. Beş abbasıya cütün xışını düzəltdi, oranı əkdi taxıl elədi, bizi aşırdı o üzə. Onnan da onların o torpaxlardan ayağı kəsildi.

## 36. NARINCLAR

Ağdamın Kolanısında İsmayıl bəy olub. İsmayıl bəyin Narınc adlı bir qızı olubdu. Narıncın bir yoldaşı oluf, çox əzazil olufdu. Qız əhd eliyib ki, Allah, bunnan mənim canım qutarsın, mən bir nökərə də gedərəm. İsmayıl bəyin nökəri Rustam Narıncı götürüb qaçır bizim kəndə. Bir müddət bir yerdə yaşıyıllar, onnarın iki uşağı olur. İsmayıl bəy həmişə dağa-arana gedif gəlirmiş. Bir gün o tərəflərə gələndə gəlin uşaqlara örgədir ki, yenin yolun qırağına, babanız gələjehdi. Babanız gələndə sizdən soruşajeh ki, ay bala, kimsiniz siz? Onda deyin ki, baba, biz sənin nəvələrinik, bu meşənin başında yaşıyırıq. Bunlar belə deyəndə İsmayıl bəy düşür atdan uşaqların üzünnən öpür. Deyillər, baba, yerimiz-yurdumuz yoxdu, bizə yaşamağa yer ver. İsmayıl bəy əlin belə uzadır deyir, ay bala, Taxtabaşınnan Çıraqlı arasına qədər yeri verdim sizə. O kəndin bünövrəsi Narışdan olub, kənd ona görə Narışdar adlanıb.

Narışdarda dörd-beş nəsil var: usublar, novruzdar, fərzalılar, baxşalılar.

Fərzalı bəy Məmmədalı bəyin oğlu olub. Bu eşidir ki, İmarat Gərnavatda Zeynəb adında dul qadın var. Fərzalı bunu gətirir dədəsi Məmmədalıynan evləndirə. Zeynəbin də yanında bir oğlu olur, adı Usub olur. Onda da Usubun beş-on yaşı olardı. Fərzalı deyir, elə bu Usubu da aparım, irilənəndə quzuya göndərərəm. Atın tərkinə alır, gətirir Narışdar kəndinə. Usub böyüyəndən sonra onu Fatma adında bir qıznan evləndirir, ondan da Məhərrəm, Əhməd, Hümmət törüyür. İndi həmin nəsil usublar kimi tanınır.

Novruzdarın da əsli Laçının Şamkəndindəndir. Novruzun atası Tahir, Tahirin də atası Möjdun olub. Novruz qoja nənəm Güldəstəni götürüb qaçıf Laçına. Bir müddət Laçında qalannan sonra qoja nənəmlə birlikdə gəlif Narışdarda məskən salır.

## 37-38. XALLANLI

Bizim ulu babamız Kalbay Qəfər Laçın rayonunun Kamallı kəndindən gəlif. Kənd Məşədili, vəlili, qafarrı tayfalarından ibarətdir. Qafarrı hamısından çox idi, torpağı da çox idi. Ona görə digər nəsillər də çalışıb biznən qohum olsunnar, qız alıf qız veriflər, heylə bünövrələşif qalıflar. Biçənək yerimiz az olsa da, örüşümüz çox idi. Qışda biçili ota da ehtiyac olmurdu. Güney yer idi, qışda binələrdə ot olurdu, mal-qoyunu o otnan yaza çıxarırdılar. Taxtabaşı Xallanlısı bizdən gedənnərdi. Mənim yadıma gəlir, onda uşaq idim. Bizim kənddən Şükür əmigil, Kalbay Salman, İsmayıl kişigil, Qənbər əmi, Səlim əmi ayrılıb getdilər Taxtabaşına. Orda boş zağalar vardı. Getdilər orda tikili tikdilər, məskunlaşdılar. Atama dedim, ata, sən niyə onnarnan getmədin? Onların örüş sahələri çox, əkin sahələri çox, hər yer biçənək. Dedi, oğul, o torpax çox qudurğun torpaxdı. Ora bevah[2] yerdi. Oraya gedən insannar sonra bir-biriynən məlğətə[3] törədif, neçə dəfə doluf, neçə dəfə boşalıf. Orda çox qanlar oluf, çox məlğətələr oluf.

---

[2] Bevah – xeyirsiz

[3] Məlğətə – münaqişə

**38.**

Xallanlı kəndi Tərtər çayının sağ tərəfində, Tutqu çayının yuxarı axarında Başlıbel kəndi ilə Qaraxançallı kəndlərinin arasına yerləşir. Bu kəndi ilk abad edənlərdən biri Laçın rayonunun Xallanlı kəndindən köçüb gələn Qafar kişi olub. Onlar uzun müddət yaşamaq üçün yer axtardıqdan sonra əlverişli şəraiti olduğuna görə, eyni zamanda mal-dövlət saxlamaq, əkin-biçin etmək üçün münasib olduğuna görə bu kəndi seçiblər. Qafar kişinin tayfası məsləhətləşəndən sonra müvəqqəti alaçıqlar quraraq burada yaşamalı olublar. Xallanlı kəndində şərait olmadığına görə bütün ev əşyalarını gətirə bilməyiblər. Bütün əşyaları farmaclara, çuvallara yığıb künədev adlanan mağarada gizlətməli olurlar. Bu mağaraya ancaq iplə sallanmaq mümkün imiş.

Bir müddət keçəndən sonra özləri üçün hər cür şərait düzəldirlər. Buna görə də əşyalarını həmin mağaradan gətirmək qərarına gəlirlər. Qafar kişinin tayfası xeyli yük heyvanı – at, öküz, qatır aparır ki, ev əşyalarını gətirsinlər. Ancaq heç biri cəsarət eləyib mağaraya sallanmaq istəmir. Axırda Qafar kişi özü düşməli olur. Yoldaşları iplə onu mağaraya sallayırlar. Yorğan-döşəyin üstündə rahat yatan ayı səs-küyə oyanır. Görür ki, bir nəfər iplə mağaraya sallanır. Ayı yerindən qalxıb Qafar kişiyə hücum edir və onun dizini ağzına alır. Qafar kişi çığırmağa başlayanda yuxarıdakı yoldaşları qorxularından qaçıb uzaqlaşırlar. Mağarada ayı ilə mübarizəyə qalxan Qafar kişi özünü itirmədən cibindən bıçağı çıxardaraq ayının dal ayaqlarının peylərini kəsir. Ayaq üstə dayana bilməyən ayının ona hücum etməyə imkanı olmur. Ayı qabaq əlləri ilə mağaradan çıxıb sürünə-sürünə uzaqlaşır. Mağaradan çıxan ayını görən yoldaşları Qafar kişini artıq ölmüş hesab edirlər. Ayının uzaqlaşdığını görəndən sonra mağaranın yanına gəlirlər. Görürlər ki, Qafar kişi sağdır və onları səsləyir. İpi sallayıb yaralı Qafarı mağaradan çıxarırlar. Bundan sonra mağaradakı ev əşyalarını heyvanlara yükləyib kəndə gəlirlər. Qafar kişinin diz qapağını ayı sındırdığına görə uzun müddət müalicə olunur. Sağalandan sonra axsadığına görə kənd camahatı ona Topal Qafar deyirmişlər.

## 39-45. ƏSRİK

Bizim babalarımız Tovuz rayonunun Cırdaxan-Əsrik kəndinnən gəlmədir. Beş qardaş oluflar: Alı, Məmməd, Şano, Rustam, Qasım. Tovuz rayonunun Cırdaxan-Əsrik kəndində el davası oluf, kəndnən bu tayfa arasında dava olanda bu qardaşdar da əldən iti imiş, orda adam öldürür. Qan olanda ağsakqallar belə qərara gəlillər ki, ya siz qardaşınızın birin verin bunlar öldürsün, ya da ki torpağınızı, əmlakınızı verin adam öldürdüyünüz tayfaya, çıxın gedin (söyləyici kövrəlir – top). Bunlar da birinci təklifnən razılaşmırlar, ordan çıxıf gəlirlər Xocalıya. Pənahəli xannan sığınacaq istiyirlər. O da Xocalı kəndini verir bu qardaşlara. Bunlar orda kənd salırlar, dəyirman tikirlər. Bu səfər camahat bunlarnan yön getmir. Dəyirmanı uçurullar. Xan genə bu işə qarışır. Deyir, gedin görün o dəyirman işdiyirsə, onnan bir torba un gətirin. Mənim əmim vardı Misir kişi, Əsgər kişi, atam vardı. Onlar danışırdı ki, xan o dəyirmanın ununu görənnən sonra deyir, bu kişilər qaşqın adamlardı, sığınacaq tapıf, bunlardan nə istiyirsiz. Bir də bunların dəyirmanını gejəynən uçurmağa gələndə dava düşür, orda qardaşdarın biri ölür. Ordan çıxıf gəlillər Laçın rayonunun Muncuxlu kəndinə. Bu qardaşlardan biri Rustam çox ovçuymuş. Ov etmək üçün evdən çıxır, Əsrik kəndinin ərazisinə gələndə görür ki, həqiqətən Tovuz rayonunun Əsrik kəndinə oxşuyur. Altınnan çay axır, meşəsi, ərazisi, düzənniyi. Deyir ki, gəlin gedək orda kənd salax. Heylə beş qardaş gəlif burda kənd salırlar. Şanodan törəyənlər Zərqulu, Moz-Qaraçannı kəndlərində, Kor Alıdan törəyənlər Əsrik, Məmməddən törəyənlər isə Tirkeşəvənd, Bəylik kəndindədir. Elə bil ki, Qoçdaşnan Mozun arasında beş qardaş yerləşir.

### 40.

Bir gün Qarabağ xanı bu əraziyə gəlir. Orda Taxtalı qotur su var, onun üzərinə gələndə bu qardaşlar yığılır onun başına. Xan deyir ki, niyə siz orda dayanmadınız? Deyir, xan, biz buranı bəyəndik, buranı özümüzə məskən seçdik. Qasımın da atının qızıl yəhəri

varmış. Deyir, xan sağ olsun, mən bu qızıl yəhəri verirəm sənə, mənim qardaşım Məmməd bəy kimi adamdı, bunu bəy yaz. Bizim bəyliyin kökü ordan gəlir. Əsrik kəndinin tarixi bax ordan başlıyır. Qoturru zonasında səkkiz parakənd – Abdullauşağının yarısı, Mozqaraçannı, Fətallar, Zərqulu, Alırızalar, Bəylik, bir də Əsrik həmin bu beş qardaşın törəməsidir.

**41.**

Dörd qardaş Əsrik-Cırdaxan kəndində iki ayləni kom qırır, ordan qaçıllar. Gəlillər Ələmqulu xanın mülkünə. Ələmqulu xan da Tərtərdə olurmuş, onun mülkündə dörd-beş kənd yerləşirmiş. Bunlar Ələmqulu xandan qalmağa yer istiyirlər. O da Doşannını təhlif eliyir. Gedif baxıllar, xoşlarına gəlmir. Bunlar keçif gedillər Laçının Muncuxlu kəndinə. Muncuxlu kəndində bir müddət qalannan sonra orda dəyirman tikmək fikrinə düşüllər, amma camahat qoymur. Bu dəfə yerli camahatnan bunların davası düşür. Dörd qardaş bu kəndə qalib gəlir. Bunlar gəlir Ələmqulu xanın yanına. Deyir ki, rast ki bu dörd qardaş sizə qalib gəlib, bunlar orda dəyirman da tikajaxlar, onlara torpax da verəjəm. Bir müddət orda qalannan sonra bu dörd qardaş deyillər ki, çıxax görək ətrafda nə var. Gəlif çıxıllar Ağduzdağa, ordan gəlif çıxıllar Oyuğun şişinə. Aşağı yenəndə bir maral vurullar. Maralın ətinnən bişirif yeyənnən sonra gəlif çıxıllar Təpəkəndə. Bura onların çox xoşuna gəlir. Bunlar köçüf gəlillər oraya.

Bu qardaşlardan biri olur Hüseyn. Hüseyn sonsuz olur, onun uşağı olmur. Kərəm gedir Şəkərəmə. Bizim babalar da gəlirlər Əsriyə. Kor Alı Navın gözündə, Kalbay Avaz da Qurbanəligilin məhləsində məskunlaşır. Kor Alının qızının iki inəyi varmış. Bunlar Qara qaya yaylağında olanda Ağayar gedir bunun inəyini oğurlayır. Rəddinə düşüf gəlirlər ki, Ağayar inəyi kəsif ətini yeyir. Gejə atışma düşür, güllə dəyir, Əzim ölür. Kalbay Avazın da on bir oğlu varmış. Kalbay Avaz görür ki, burda adam ölüb, köçüb gedir Fətallara. Fətalı Kalbay Avazın böyük oğlu olur.

Kor Alıdan Bəylər, Allahqulu, Vəli, Rustam, Qasım törəyir. Şanodan törüyənnər Avdıuşağı, Çobankərəkməz, Zərqulu. Məm-

məddən törüyənnər Əsrik, Şəkərəm, Çovdar, Hajalırzalar, Moz-Qaraçannı, Fətallar.

**42.**

Həmin beş qardaşın böyüyü Kor Alıdır. Niyə ona Kor Alı deyiflər? Xan gələndə qardaşdarın beşi də yanaşı duruf. Alının da gözü balaca imiş. Xan deyir, ə Alı, kor deyilsən? Deyir, xan sağ olsun. Kor deyiləm, gözlərim balacadı. Adı onnan qalır Kor Alı.

Məmmədə də Qotur Məmməd deyirlərmiş. Məmməd də mənim kimi çox yeyənmiş, cannı adammış. O vaxdı hamam yox, yayın da isti günü. Xannan görüşəndə xan görür ki, bu belini verif ağaca, qaşınır. Deyir, Məmməd, yaxına gəl. Qotur deyilsən ki? Deyir, yox. Deyir, bu su qotur sudu, bax sən onda çim. Qotur Məmməd adı da belə yaranır.

**43.**

Bir gün xan Mıxtökən yalıynan gedirmiş. Görür ki, Şəkərəmdə şennik var. Qırx atdıynan tökülürlər Şəkərəmə. Kərəm qırx atı hörüklüyür, çulluyur, qırx adamı da rahat eləməyə hər bir şəraiti olur. Səhər xan deyir ki, mən şah ola-ola belə bir şərait yarada bilməmişəm. Sənin adını qoydum Şah Kərəm. Şəkərəm də onun adınadı.

**44.**

Bərdə bəyləri bir gün Kəlbəcərə gəlir. Yolnan gedəndə görüllər boz sürülər var. Soruşullar ki, bu ilxı kimindi. Deyillər, Rəfinin. – Mal sürüsü kimindi? – Rəfinin. – Qoyun sürüsü kimindi? – Rəfinin. Deyillər, gedək görək bu Rəfi nətər adamdı?

Gəlillər qapıya. Rəfi özü evdə olmur, amma arvadı bunları yaxşı qarşılayır, bunlara heyvan kəsir. Deyillər, Rəfi hardadı? Deyir ki, iş dalınca gedif. Deyillər, onda bizi niyə düşürdün, evin kişisi yoxdu. Deyir, elə mən onun bir tayıyam. Heyvanı bişirir, yedirdif-içirdif bunları yola salır. Duruf atdanıflar. Gedəndə deyiflər, arvada deyin çölə çıxsın. Çıxıf. Deyillər, yaxşı at gördüm Rəfidə, yaxşı döylət gördüm Rəfidə, yaxşı arvad gördüm Rəfidə.

## 45.

Mənim babamın əmisi Vəli oğlu Alı yüzbaşı olufdu. Məşədi İsgəndər də Ağcakənddə yüzbaşı olufdu. Bir gün bunlar camahat-dan vergini yığıf aparıf Şuşada təhvil verəseymişdər. Alı baba da özünə korlux verməzmiş, yığdığın xərcliyirmiş. Bir az pul qoyur cibinə, deyir, gedim hörmətnən-zadnan işi yoluna qoyaram. Məşədi İsgəndər də bir xurcun qızıl yığıf aparır. Yelligədikdə atdarı saxlı-yıllar. Düşüllər ki, su başına getsinnər, namaz qılsınnar. Alı baba deyir ki, İsgəndər, xurcuna nə yaman çox ayın-oyun yığmısan? Deyir, neca Ali, qızıli, puli yığmışam da, aparıram. Deyir, Məşədi İsgən-dər, gəl sanıyax, görəh sən çox pul yığmısan, mən. Məşədi İsgəndər pulu tökür otun üstünə. Alı babanın da altı yüzdüyü varmış. Əlin salır yüzdükləri çıxardır, qatır Məşədi İsgəndərin puluna. Deyir, Məşədi İsgəndər, dırrı-fıs qarışdı. Məşədi İsgəndər ajığ eliyir, xur-cunu da qoyur orda, atı minir qayıdır. Alı baba da bunun pulun yığır, aparır öz adına təhvil verir, qalanını da parçaya, piniyə verir. Sonra Məşədi İsgəndərin nəvələri deyirdi ki, babam deyərdi, Alı bizi müflis elətdirdi. Hökumət gəldi həmin töycünün əvəzinə nə qədər malımızı, qoyunumuzu apardı.

## 46-50. BƏYLİK

Bəylikdə Məşədi Talıb bəy oluf, böyük qardaşının da adı Gə-ray bəy olub. Hətta Gəray bəy zarafat düşəndə ona Meşədə Talıb de-yirmiş. O vaxdı ayağı tunel, başı Başdıbeldə meşənin böyüyü o imiş.

Gəray bəy özü addı-sannı bəy oluf. İki təhsil alıfdı. Bir geoloji kəşfiyyatı qutarmışmış, mühəndismiş, bir də ki həkimmiş. Otuzuncu ildə oğlanlarını başa salır ki, siz cavansınız, sizi sovet hökuməti ye-yejek. Çıxın gedin İrana, Türkiyəyə. Onsuz da onlar biləjək ki, mən rusun ziyalısıyam, həmi də Rusiyada təhsil almışam, mənə toxunmu-yajaxlar. Həqiqətən də, otuzuncu ildə Mir Cəfər Bağırov bir dəstəy-nən bəyliyin arxasınca gələndə gəlir ki, Gəray bəyin stolunun üstün-də Marksın “Kapital” əsəri var. Deyir ki, bu kişiyə nə demək olar.

Məşədi Talıb bəy də Qulubəyli yurdunda alaçıxda imiş. Mir Cəfər Bağırovun gəldiyini eşidif atnan gəlir oraya. Bağırov deyir ki, Məşədi Talıb, sovet hökuməti bəylikdən ötəri gəlib, siz bu ərazini tərk eliyin. Onnan sonra Bəyliyin ərazisini bölüb iki qalxoza qatıllar: yarısını Əsriyə, yarısını da Qalaboyuna verillər.

Rustam bəy, Firidun bəy, Əsəd bəy, Cəmil bəy, Alı bəy, Gəray bəy, Məşədi Talıb bəy Məmmədən törüyənlərdi.

**47.**

Bizim ərazidə olan bəylər arasında intriqa yaranır. Bunlardan birinin malı itir. Bunları bir-birinə tuşlatdırıllar. Dayı-bajıoğlu arasında dava düşür, bajı oğlannarı dayıdan xeyli adam öldürür. Qaraş bəyi öldürüllər, Firidun bəyin qardaşını öldürüllər. Firidun bəy təklənir. Firidun bəyin də arvadı Soltan bəyin bajısdı. Soltan bəy Laçın rayonunnan qoşun çəkir Firidun bəyin köməyinə gəlir. Qoturru yurdunun başının üstündə hündür təpə vardı, ordan baxanda bütün ərazi ayağının altında qalırdı. Soltan bəy plamyotu orda qurur, – onnan o təpənin adı Plamyot təpə qalır, – Bəylikdən xeylax adamı qırır. Məşədi Talıb bəy eşidib ki, Soltan bəy qoşun çəkib Bəyliyin üstünə gəlib. Hajıların yurdu deyilən yer var. Məşədi Talıb bəy atnan ordan çıxanda deyir, Soltan, bəsdi, qoşunu çək get. Soltan bəy də onun sözünü eşidir, qoşunu çəkir gedir.

**48.**

Kostan bəy Firudun bəyin qardaşdarı Qaraş bəyi, Soltanı öldürənnən sonra Firidun bəy siyasət işlədir. Xəbər göndərir ki, Kostan, qardaşım da öldü, bajım oğlanları da öldü, daha qojalmışam. Görürsən ki, bu dövlət yiyəsiz qalıfdı. Qoyunun da qırxılmaq vaxtıdı. Bu adnan bunu gətirir. Firidun bəyin də Qazıxannıya gedən yolun altında çayın qırağında ikimərtəbəli evi vardı. İkinci mərtəbəyə silahlı adam qoyur.

Kostan da bir gündə yüz qoyun qırxırmış. Gəlir soyunur, beşatılanı söyküyür qapıya, başdıyır qoyunu qırxmağa. Firidun bəy gözlüyür ki, bir az da yorulsun. Otuz-qırx qoyun qırxannan sonra

gözdən yayınıb yuxarıdakı adama deyir ki, at. Güllə atılannan sonra Kostan əlində xançal qalxır yuxarı ki, atanı tapa. Evləri gəzir, o adamı tapmır. Polun taxtası qalın palıd ağacınnan olur. Nətər xəncəri taxtaya sancırsa, xəncər qın yerinə qədər taxtaya girir. Orda da canın tapşırır.

**49.**

Soltan bəy Bəyliyə gələndə deyifdi ki, Kostan bəyi yaman igid deyillər, qoçax deyillər, gəlsin bir mənnən görüşsün. Təpəkənd adlanan yer vardı, Kostan da ordan gəlir bunlarnan görüşə. Özü atın üstündə olur, aynalı tüfəy də əlində. Bir də baxır ki, bir qartal uçur. Soltan bəyin adamları da Firidun bəyin evinin qabağında kom durufdu. Kostan elə nişan alır ki, qartal düşür bunların ayağının altına. Soltan bəy ağıllı adammış. Deyir, atı minin, Kostan gəlir. Mən onu çağırtdırdığıma görə onun xətrinə dəyifdi. Kostan ora gələnətən bunlar aşıllar öz ərazilərinə.

**50.**

Erməni-müsurman davasında Qoturrudan beş yüz atdı Soltan bəyə köməyə gedir. Şuşanın azad olunmasında bizim camahatdan çox adam iştirak eliyifdi. Şuşanı ermənidən azad edəndə bir erməni dığası krışada qalmışmış. İbrahim bəy, Soltan bəy, bir də Xosrov bəy Şuşanın içiynən yenişə-yoxuşa gəzirmiş. Erməni elə tuşluyur ki, güllə İbrahim bəyin alnına dəyir. Qırx gün Şuşa camahatı İbrahim bəyə yas saxlıyır, qara ələm vurullar.

## 51-52. ALXASLI

Sınıq Kilsə, Çay kənd, Başkənd, Aşağı xaç, Mişni, İstibulax, Göy dərə, Ağdaş – bax bu kəndlərin hamısı Alxaslıdı. Ana kənd bizimkidi (Sınıq Kilsə - top.). Bunların əsli-kökü Füzulidən oluf. Füzulidən gediflər Qubadlıya, Qubadlıdan Laçına gəliflər. Laçında bunların var-döölətdəri oluf. Alxas addı biri aşır gəlir bu üzə. Görür bu yerrər yaxşıdı. Qayıdır gedir. Yeddi qardaş oluflar, ataları da

Talıbxan oluf. Bircə də qızdarı olur – Ağca qız adında. Kəlbəcərə gələndə qızı borana düşüf ölür, Dəli dağın döşündə Ağcaqız yaylağında onu basdırıllar. Çaykənddə kilsənin qabağında meşədə bünöörə salıllar. Bax bu kənddər ordan bölünmədir. Ordan da bir qol ayrılır – Xoləzəh alxaslısı. Talıbxan da vəsiyyət eliyif ki, mən öləndə məni aparın qızımın yanında dəfn eliyin. Orda da deyir ki, mən yeddi oğlumu neynirəm ki, mənim cinazəmi aparıf ora çıxarmıya, qızımın yanında basdırmıya. Deyir, onu yeddi oğlu aparıf orda basdırır.

**52.**

Kəndin bünövrəsini qoyan İrza kişi oluf, oğlu da Kor Navrız olufdu. Kor Navrızın beş oğlu varmış: Nəcəf, İsmayıl, Xəliluşağı, Behbuduşağı, Hajı Cəfərqulunun döləyi də yuxarı Xoləzəhdədi. İrzanın on beş yaşında Ağca addı qızı varmış. İran xanı vəzirin göndərər ki, o qızı maa versinlər. Bunlar da məslahat eliyillər ki, xan qoja kişidi, bizdə ona veriləsi qız yoxdu. Xan iki dəfə elçi göndərir. Üçüncü dəfə göndərəndə Nəcəf də dəliqanlı cavanmış, xanı öldürmək istəyir. Kor Navrız deyir, öldürmə, çıxıf gedək. Gəlif Kəlbəcərdə qalıfdılar. Nə it saxlıyıflar, nə xoruz ki, onlar səs eliyər, yerlərini nişan verər. Ağcaqız qəbirstannığı var. Ağca sətəlcəm oluf ölür, orda basdırıllar. İstibulaxda qardaşı Nəcəf öləndə vəsiyyət eliyif ki, məni aparın bajımın yanında dəfn eliyin. Babamgil söhbət eliyirdi ki, ləməgil danışırdı ki, yay imiş, farmaşdara otu yığıf onu aparıf orda dəfn eliyiflər.

## 53. SEYİDLƏR

Gədəbəydə mis mədəninin tikilməsi ilə əlaqədar çar don kazaklarını Gədəbəyə sürgün eliyir. Bizim babalar Gədəbəydə Arıxdamı kəndində malakanlarnan bir yerdə qoyun otarıllar. Görüllər ki, rusdar donuz otarır. Bunlar da seyid olduxları üçün görüllər mümkün döyül. Bir dəfə çomaxnan vuruf rusların başını əzillər. Bir neçə münaqişədən sonra yuxarıdan onlara göstəriş verillər ki, bir də

rusdarın xətrinə dəysəniz, nəsilliknən hamınızı sürgün eliyəjeyik. Seyid İmanqulu oğlanlarına deyir ki, siz burda rusdarın içində qalsanız gavurraşajaxsız, din əldən gedəjəh. Gəlin biz yeni ərazi tapax. Öz oğlanlarından bir neçəsini və əmisi oğlanlarını götürüb yönü qibləyə doğru Kəlbəcər ərazisinə gəlir. Seyidlərin üst tərəfində Bərkim başı ərazisində özləriylə gətirdikləri qarğıdalı, darı, arpa, buğdadan – hərəsindən bir balaca kisə əkillər. Yazda əkillər, payız gəlillər ki, arpa, buğda boy verif. Yaxşı məhsuldar yerdi. O birsi ili bunlar köç eliyir, gəlir Seyidlər kəndinin üstündə Seyid talasında məskən salıllar. Güjlü mal-heyvanları olur. Qışlamanı keçirillər, görüllər ki, buranın qışı çox sərtdi, yenillər Seyidlər kəndinə.

Seyid İmanqulu kişi dünyasını dəyşir, onu Söyüd talasında dəfn eliyillər. Qışda atalarını amanat basdırıllar, yazda aparıf Gədəbəydə dəfn eliyillər. Sonra o biri əmioğlannarına, qohumlarına xəbər verillər. Bir neçə ildən sonra İlyaslar kəndi gəlir, Dəmirçidamı kəndi gəlir.

Seyid İmanqulu kişinin yeddi qardaşı olur. Onun biri cavan ölür. Böyük qardaşdarı olur Seyid Allahverdi, Kalba Hakverdi, bizim babamız Bayramalı, Məmmədalı, Abdulla, Nəbi. Bizim kənd həmin yeddi qardaşın törəməsidir. Sifdə bizim babalar gəlif yerləşdiyinə görə əraziləri də çox oluf, sonra hamısına pay veriflər ki, onlar da yaxşı yaşasınlar. Məmmədqulu adlanan sahəni Dəmirçidamına, Dağın dalı adlanan sahəni Armutduya, Bozdu sahəni Cəmilliyə, gölün ayağını İlyasdara pay vermişik. Bizim babalar Güneypəyədən qız alıflar. Qırx hektar yal yurd deyilən əkənəyi də babalarımız onlara pay verif.

## 54-57. AĞDABAN

Ağdaban sözünün mənası haqqında üç variant danışılır. Bir varianta görə, Teymurləng Kəlbəcərdən keçib Göyçəyə gedəndə Qozdu körpüyə çatanda qoşunun bir hissəsi çay yuxarı gedir, bir hissəsi də dağın o biri üzüynən gedir. Onlar gəlillər bizim kənddə

tala deyilən yerdə görüşüflər, orda sevinif, şaddıx eliyiflər, Ağdabani havası çaldırıflar. Kəndin adı da guya ordan qalıf.

Bizim kənddə əhəng daşdarı çoxdu. Qıraxdan baxanda əhəng daşdarı görünür. Ağ təban, yəni ağ əhəng daşı sözünnəndi. Üçüncü, bizim kənd dumannı olur. Bir varianta görə də, kəndin adı ağ duman sözünnəndi.

**55.**

Bizim babalarımız əvvəl Dəmirçidamında məskunlaşıblar, Ağdaban da bizim yaylax yerimiz olub. Sonra görüflər ki, buranın qışı Dəmirçidamına nisbətən daha mülayimdi, burda mal-heyvan saxlamaq üçün yaxşı şərait var. Onnan sonra başlıyıflar qışda da orda qalmağa. Siftə səkgiz ev tikilif, sonra camahat artıf.

Bizim kənddə üç köklü nəsil var: miskinni, dəlləkli, feyzallı. Miskinnilər Miskin Abdalın törəməsidilər. Miskinnilərin babası Qoca gəlif Göyçəyə – Sarıyaquba, ordan Dəmirçidamına, Dəmirçidamınnan da Ağdabana gəlif. Bizim tayfamız dəlləkli tayfasıdı. Babamız da dəllək oluf. Azaflı Mikayıl atamın əmisi oğludu. Babamız əslən Şəmşəddin mahalınnan oluf. Bizim tayfanın bir qolu Gürcüstanda Qaraçöp adlanan ərazidə yaşıyır. O vaxtı hansısa müharibənin təsirindən oluf qardaşdar dağılışıflar. Bizim babamız Kərim ordan öz arvad-uşağını götürüf Göyçənin Sarıyaqubuna köçüf. Ora çox açıx yerdi. Yaşamaq bir az çətin oluf. Ordan köçüf Kəlbəcərin Dəmirçidamına gəlif. Onların bir qardaşdarı köçüf gəlif Goranboya. Azaflıgilin atası orda qalıf. Kərim də ayləsiynən Göyçəyə gəlif.

Babası Kərimi uzun illər axtarıf, tapa bilmiyif. Dəmirçidamınnan Gəncəyə alverə gələnnər varmış. Görüllər ki, bir kişi karvansaranın girişində duruf gələnə-gedənə baxıf ağlıyır. Soruşuflar ki, ayə, niyə ağlıyırsan? Səhər də biz səni gördük, axşam da. Deyir, ay oğul, neynirsən? Dərdimi təzələmiyin, gedin. Deyif, yox, xayiş eliyirəm, Allahın işidi da. Deyir ki, ay oğul, bəs belədi, bir oğlum, gəlnim uşaxlarıynan itkin düşüf, o vaxtdan xəbər tuta bilmirəm. (O biri oğlanlarının yerini bilirmiş). – "Nədi adı?" Deyif, bəs belə, yol-

daşı da filankəs. Deyif, əşi, o Dəmirçidamında, bizim kirvələrin qonşuluğunda ev tikib orda yaşıyır. – "Əyə, nə danışırsan?" Kişini aparıflar Tovuza. Buna yaxşı hədiyyə veriflər, at bağışlayıflar. Möhkəm hədiyyəynən ordan gəliflər Dəmirçidamına, orda tapışıflar.

**56.**

İmarat Qərvəntdə Kərəmli bəyləri oluf, Ağdaban kəndi də Edil bəyin torpağı oluf. Edil bəydən yeri alırmışdar, qışda gəlif heyvanlarını saxlıyırmışdar. Ora qış üçün əlverişdi yer idi. Ətraf meşə idi, yaxşı otlaq sahələri vardı, gözəl bulaxları vardı. Gəlif orda qışdıyırmışdar, yayda gedirmişdər. Son vaxdara qədər camahat Ağdabana gedəndə deməzdi kəndə gedirəm. Deyərdi qışdağa gedirəm. Sonradan örgəndim ki, bunlar Dəmirçidamınnan Ağdabana qışdağa gəlirmişdər deyə kəndə qışdağ deyirmişdər. Sonra bizim babamız, ağsakqallar yığılıflar Edil bəynən danışıflar ki, üş yüz qızıla o kəndi alsınlar. İki yüz qızıl manat düzəldiflər, yüz manatını da seyiddən alıflar. Heləcə gəlif kənddə məskunnaşıflar.

**57.**

Raykomdan bizim kəndə nümayəndə gəlif, deyif nəyə ehtiyacınız var. Mənim babam Bayram kişi əlini qaldırıf deyif, mənə icazə ver. Deyif ki, bu kənd su deyif qırılır. Yeddi kilometr burdan yuxarıda çay var, ordan bu kəndə su çəkmək lazımdı. Qaraca addı bir kişi varmış, kalxoz sədri imiş. Deyif ki, ay Bayram, ordan bura su gəlməz, oyun açma başımıza. Deyif ki, o su gəlməlidi. Deyif, a kişi, nətər gələjəh? Deyir, o su gəlməsə, qapımda qara gamışdarım var, onları satıf camahata düşən əməkgününü verəjəm. Gəlsə, kalxoz ödəsin. Deyəndə raykomun işcisi deyir ki, mən yetmiş beş əmək günü ayırdım. Bayram babam özünə də bir dənə birqadir götürüb. Elə bil hər kəsə on metr yer ayırıf ki, bura qazılmalıdı. Sən demə, arxın çertyojun bunnan qabax çəkif hazırrayıfmış. Qumlu bir yer varmış, ora gəlif çatanda hamı məyus olur ki, çınqıllıxnan su axmaz. Seyid Mirsəyyaf gəlif işin üstünə çıxır. Deyir, camahat, ruhdan düşməyin, çəkin, bu işin üstünə mən gəlmişəm, suyunuz

çıxajax. Nəysə, suyu gətirif kəndə çıxarır. Camahat əlini yalannan suya salan kimi eliyif, "ə, Bayramın suyunnan yuyurux" deyif lağ eliyirmiş. Su gəlif kəndin başınnan töküləndə Aşıx Şəmşiri çağırıflar, bayram eliyiflər. Babamın bir yeznəsi vardı Koruş. Hələ su çəkilməmişdən əvvəl deyir ki, o su gəlif du kəndə çıxsa, mən eşşək kimi anqırajam. Su gəlif kəndə töküləndə dayım, Koruşun tükanının qabağınnan keçəndə deyif, niyə gəlmədin, əmoğlu? Deyir, məni eşşək kimi anqırtmağa gətirirdin? Odu-budu camahat o sudan istifadə eliyirdi.

## 58-59. BAĞIRLI

Bizim nəslimiz Gədəbəydəndir – Arıqdamınnan. Bizim babamız ojax oluf. Onun ojağına heyvan gəlirmiş. Qonşuda Mürsəl seyid oluf. Bu seyid deyir, bu heyvan mənim ojağıma gəlifdi. Babam deyir, sənin evin odu, mənimki budu. Sənin qapını o tanımır? Sənin qapına getsin da. Mürsəl deyir, gəl ojağımızı sınaşdırax. Deyir, nətər sınaşdırax? Deyir, gedək odun gətirək. Deyir, babamız göyüş ağajınnan odunu şəlləyir gətirir, Mürsəl armud ağajınnan. Axşam yatanda ojağı qalıyıllar, kösöyü basdırıllar külə. Səhər qalxanda babam Bağır görür göyüş bajadan çıxıf çölə. – Onu Allah çıxardır ey, Allahın hökmüdü. Közün içinnən göyərdif bajadan çıxardıf. – Seyid Mürsəlinki də armuddu, pöhrəliyif qalır. Seyid Mürsəl genə buna biyət eləmir.

Bir dəfə nətər olursa su sənəyi Seyid Mürsəlin boğazına keçir. Nə qədər eliyillər, çıxardammıllar. Bunun özünün olmasa da, arvadının biyəti varmış. Deyir, üç dəfə sən Bağırı incidifsən, o sənəy çıxarmı boğazınnan? Əlinnən tutuf gətirir, həmən göyüş ağajının başına hərriyir. Babamız Bağır barmağını çəkəndə sənəy yerə düşür. Onnan sonra əl çəkir.

### 59.

Bağırın cədd babası Vəl Eşqidi. Onun oğul sonu olmur. İki qızı olur: birinin adı Şəhri, birinin adı Mehri. Deyir, ay arvad, bu qızdarı iməcliyə vermə, əgər sirr açılsa, məni tapbıyajan.

Bəy devriymiş. Bəyin arvadı gəlif yalvarır, deyir, o qızın birini ver, hilmə çalsın gəvəyə, köməy eləsin. Əl çəkmir, aparır. Bəyin arvadı deyir, ay bala, dədəndi, anandı, sizsiniz. Nə mal var, nə qoyun var, heç bir şeyiniz yoxdu. Nəynən dolanırsınız? Biz bir belə malın-variyətin yiyəsiyik, amma yenə ajınnan qırılırıx. Deyir, ay xala, noluf, şükür Allaha. Atamız qazanı yudurur, nə niyyət desə hasil olur, onu yeyirik.

Axşam Vəl Eşqi gəlir arvada deyir ki, qazanı yu, yemək düzəlt. Qazanı yuyur, ojağa qoyur, əlini "halva olsun" deyif belə hərriyəndə əli yanır. Dolmur qazan. Deyir, arvad, sirr açıldı, məni sən tapbıyajan. Tur dağının sinəsində olajam. Səhər duz torbasını, surfamı, bir də hasamı oraya gətirərsən.

Arvad səhər qalxır. Surfoyu da aparır, hasasını da aparır. Tələsdiyinnən duz torbası qalır. Gedir ki, əri oturuf. Deyir, bu sənin surfondu, bu da hasandı. – "Bə, – deyir, – duz torbası hanı?" Deyir, yadımdan çıxıf. Deyir, sənnən törüyənnərin bir istəyə ağız tamı olmuyajaxdı. Niyə gətirmədin?

Bir az söhbət eliyillər. Deyir, belə bax. Belə baxanda görür qeyb oldu. Bizim nəsil onun qızdarı Şəhriynən Mehrinin törəməsidi. Şəhri bizim nənəmizdi, Mehri ellazalıların nənəsidi.

## 60-61. MİLLİ

Bizim babalarımız İraqda yaşayıb, Kərkükdə. Ordan Türkiyəyə, Türkiyədən də Dərələyəzə gəliblər. İraqda yaşıyan kürdlərnən aralarında torpaq söhbəti olub. Görüllər mümkün deyil, kim çölə-bayıra çıxır, salamat qalmır, öldürüllər. Bizim babamız oluf Rəhim, biz onun yeddinci nəsliyik. O babamız qardaşdarına, əmisi oğlanlarına məsləhət görüb ki, burdan çıxaq. Ordan gəliflər Türkiyənin Ərzurum bölgəsinə. Orda xeyli yaşıyıblar. Osmanlı imperiyasının vaxtı olur, bunları torpaxnan təmin eliyə bilmiyiblər. Onnan sonra Dərələyəzin bir tərəfi gedif çıxır Naxçıvana, Batabata. Oralar çox səfalı, meşəli yerdi. Gəlif orda məskunnaşıflar: Ələz, Güllücə kəndlərində.

Babamgil beş qardaş, bir bacı oluf. Bir gün bu kişilər əkin-biçinnən məşğul olan vaxtı bəy gəlir bunların kəndinə, bu qızı görür. Nökərlərinə deyir ki, onu qoyun mənim atımın tərkinə, bağlıyın beliмə, onu alajam. Nökərlər qızı atın tərkinə bağlıyıllar. Sıldırım yerdə qız bunun xəncərini çıxardır, ipi kəsir, özünü sıldırımlıxdan atır ölür.

Xəbər çatır bu qardaşdara. Bunnar bəyin getdiyi səmtə gedib qızın meyidini tapıllar. Götürüf gətirillər, dəfn eliyillər. Qırxın verənnən sonra deyillər gedək qisasımızı alax. Gedib bəyi də öldürüllər, oğlunu da öldürüllər, evin də yandırıf gəlillər. Əvvəl köçüllər Füzuliyə. Orda istiyə dözmüllər, ölən olur. Ordan gəlillər Kəlbəcərə. Millilərə tüməntökən Milli deyillər. Nə qədər öküz verillər, pul verillər, bəyin yaylağını alıllar. Həmin yerin adını da qoyullar Milli.

**61.**

Milli sözü mildən götürülmədi. Osmanlı ordusunda qabaqda gedən baryaqdara mil deyərmişdər. Bizim tayfadan Müzəffər orduda mil tutan olub.

## 62-63. ÇƏRƏKDAR

Çərəkdar kəndi kolanılardan ibarətdi. Kolanıların tarixi vətəni Qərbi Azərbaycan ərazisindəki Dərələyəz mahalıdı. Hansısa münaqişə üzündən onlar öz torpaqlarından köçmək məcburiyyətində qalıllar. Hətta Kolanıqırılan deyilən yer olub. Rəhmətdik Zeynal babam o yerin harda olduğunu deyərdi, təəssüf ki mən unutmuşam. Deyərdi ki, Dərələyəz ərazisindən çıxannan sonra Kəlbəcərə çatmamış hardasa bərk bir yerdə kolanıların qabağını kəsib qırıblar. Kolanıların bir qismi tarixi vətənində qalır, bir qismi Naxçıvana, Tərtər yaxasına, bir qismi də Aran Qarabağa, Şirvana, Kür yaxasına gəlir.

Çərəkdara gələn kolanı nəsilləri bunlardır: Meyvalılar (Mehbalılar), məşədi uğurrular, rəfilər, alıbəylilər, imamqulubəylilər, səlimlilər, xurşudlular. Tərətər çayı Çərəkdar kəndini iki hissəyə ayırır: sağ sahil, sol sahil. Kəndin sağ sahilində olan məhəllələrə Köhnə Çərəkdar deyilir. Tərtər yaxasında isə bağ yeri, çökək məhlə,

heyvalı, ata pəyəsi, sol sahildə alıbəylilər, çuxur məhlə, küf talası, qazaxlı məhləsi, qəndi məhlələri yerləşir.

**63.**

Çərəkdar qojaları danışırdılar ki, o vaxdar duz tapılmazmış. Xüsusi karvanlar Kəlbəcərdən Naxçıvana duz gətirməyə gedərmiş. Merdən-meyvədən apararmışdar, duznan dəyişərmişdər. Belə karvanların birində gedillər bunlar Naxçıvana. Gedəllər ki, Naxçıvanda bir meydan qurulub. Bu meydanda pəhləvanlar güləşə çıxıblar. Bunlar da qərib adamlar oluflar. Bir tərəfdə oturuf bu tamaşaya baxıllar. Ulu babalarımız danışır ki, Mehbalı kişi qəzəblənəndə, coşqu gələndə şişərmiş. Meydanda pəhləvanlar güləşər. Bunların içində biri var, yetənin kürəyini basır yerə, durur meydanda nərə çəkir. Birdən böyründəkilər baxıllar ki, Mehbalı kişinin əynindəki paltar ordan-burdan para-para oldu. Böyründəkilər deyir, Mehbalı, nə iş görürsən? Deyir, məndən asılı döyül. Mən burda oturum, o orda nərə çəksin, bu ola bilməz. Durar elə bu paltarda düşər meydana. Dizi aynalı pəhləvan bunun vücuduna baxar, geyiminə baxar. Deyər, bu pəhləvan döyül. Bu kimdi mənim qabağıma çıxıf? Nəysə tutaşallar. O vaxtı qurşaqdan tutarmışlar. Kim kimin qurşağından tutdu, ayağını yerdən üzdü, başı üstünə qaldırıb kürəyini yerə basdı, qalib odu. Gözünə döndüyüm Mehbalı babam qaldıra bunun kürəyini basar yerə. Bütün meydan ayağa qalxar, istiyəllər ki, bunlara xətər yetirsinnər. Məclisin böyüyü əlini qaldırır. Deyir, əlinizi saxlıyın, işiniz olmasın. Qalib bunlardı. Ondan sonra onların dəvələrini, ulaxlarını yüklüyərlər duznan, bunlara yaxşı hörmət eliyərlər. Ordan təhlükəsiz olsun deyə Naxçıvan ərazisinnən keçirəllər, sağ-salamat Çərəkdara gəlib çıxallar.

## 64-65. GƏLİN QAYA

Gəlin qaya qəlbi qaya idi, yanı da düzəngah idi. Bir bəyin oğlu bir kişinin qızın isdiyir. Bəy də eşidif ki, qızın anası pis yolun

yolçusudu, oğlunun onnan evlənməsinə razı olmuyufdu. Oğlu deyif ki, yox, alajam.

Nəysə, qırx gün, qırx gejə toy çaldırır. Qırx atdıynan qızı götürüf gəlillər. Gəlin qayanın yanında əylənillər. Orda yemək-içmək yeyillər. Görüllər, o tərəfdən bir atdı gəldi. At qulunnu atdı, özü də qara kəhər maydandı, amma qulun aladı. Bəyin gözü sataşır buna. Deyir, a oğul, gəl bura. Deyir, de görüm bu at qara maydandı, bu qulun niyə aladı? Deyir, nə bilim, mən də təəccüb qalmışam. Hər il qara kəhər doğurdu, bu il belə doğuf. Deyir, heç atanız, babanız danışıfmı ki, maydanın anası, ya nənəsi belə bir qulun doğuf. Deyir, hə, atam deyirdi ki, babam deyərdi, bu atın nəsli bir dəfə ala qulun doğuf. Əmr verir ki, gəlin geri qayıtsın. Deyillər, nəyə görə? Deyir, bu qulunun qarı nənəsinin qarı nənəsi havaxtsa ala qulun doğuf, demək bu gəlin də nə vaxtsa anasının yolunu gedəjək. Ordan gəlini qaytarır Gəncəbasar tərəfə. O vaxtdan oranın adı qalır Gəlin qaya.

**65.**

Bir oğlan ayrı kəntdən bir qız istiyir. Gəlir atasına deyir ki, qızı mana alın. Atası örgənif ki, bu nəsil yaxşı döyül. Gəlif deyifdi ki, oğul, ordan əl çək. Kəndin bir ağsakqalı varmış. Təzə aylə quranlar ağsakqala gənəşərmiş. Ağsakqala gənəşir, deyir ki, oğlum əl çəkmir. Ağsakqal deyir, özüm gedif yoxluyajam. Gedif yoxluyur ki, qızın anası yaxşı adam döyül. Gəlif deyir, oğul, almıyajaxsan onu. Gədə özün qana qoyur. Deyir, baba, onda özümü öldürəjəm. Bu ağsakqal deyir, bir qızdan ötrü bir adam öldürmüyəjeyih. Gedin gətirax. Gedillər, qızı alıf gətirillər. Həmin qəyənin yanında düşüllər, istirahət eliyillər. Bir də görüllər ki, Qarabağ bəylərinin ilxıçısı dağdan atı tökdü. Yamacda otarırmış. At töküldü suya. At oynaşıf gələndə bu toy adamları atdara baxıllar. Baxıllar ki, atın içində bir ala dayça var. Maraxlanıllar, deyillər baba, bir belə ata bax, o alabəzək ata bax. Ağsakqal mehtəri çağırır. Deyir ki, ay mehtər, bu camahat maraxlanır ki, bir belə atnın içində bu bəzəkli at nə gəzir? Deyir, ağsakqal, burda elə bir maraxlı şey yoxdu. O ala dayçanın qarı nənəsinin nənəsi ala idi. Həmən nəsilə çəkif. Bu gedə də söh-

bətə qulax asırmış. Birdən ayılır. Deyir ki, gəlini qaytar. Ayə, etmə, eləmə, mümkün olmur. Gəlini qaytarıllar. Gəlin gedir öz atasının evinə ki, vəziyyət belə oldu, oğlan yiyə durmadı. Qabaxlar Gəlin qayıtdı idi, indi də Gəlin qayası deyillər.

## 66. CEYRAN BULAĞI

Bax bu əhvalatı Bərdə rayonunun Soğanverdi kəndinnən Əvəz adında təhlə çobanı mana Qoçdaş dağında söhbət eliyif. O dedi ki, bir təhlə həməşə yaylağa tək çıxıf, tək gəlirmiş. O gedif çıxır Sarı yer yaylağına. Yaman da əliaçıx oğlanmış. Arvadının da adı Ceyranmış. Arvada da tapşırığı beləymiş ki, mən evdə oldum, olmadım, məni deyif gələn qonağıma heyvan kəsdirirsən, yaxşı hörmət eliyif yola salırsan, gedir. Belə də olurmuş. Bir gün oğlan haraya gedirsə, Ceyran evdə qalır. Bir də görür itdər hürüşdü. Çıxır ki, üç atdı dağın döşünnən baxıllar. Gəlin görür, bunların nəsə sözü var. Biri çağırır ki, ay bajı, evdə kişi varmı, gəlax bir qismət çörəh yiyax, yol adamıyıx, ajmışıx. Deyir, var, var, qardaşdar, gəlin. Tez çobannara xəbər eliyir ki, biriniz heyvan gətirin. Heyvanı kəsillər. Çoban heyvanın ətini qazana töküb gedir qoyuna. Qonaxlardan biri nankorrux eliyir, bu gəlinnən xoşu gəlir. Bunların arasına pıçı-pıçı düşəndə bu gəlin bunlardan şübhələnir. Görür ki, bu iki oğlan o birini dannıyır. İki yaşında bir oğlan uşağı varmış. Bu uşağı gətirif qoyur süfrənin qırağına. Deyir ki, mənim ərim mana belə tapşırıf ki, mənim qonağıma yaxşı hörmət elə. İndi bu oğlanı ərim hesab eləyin, mənim ərimin çörəyini kişi qaydasıynan, kişi namusuynan, qeyrətiynən yeyin, çıxın gedin. Oğlanlar deyirlər ki, ə, bu işdən əl çək. Olmur. Süfrə yığışılmamış gəlinə deyir ki, maa su ver. Suyu verəndə arvada göz vurur. Göz vuranda yoldaşları dilxor oluf çıxıllar. Arvad keçir çətənin dalına, ərinin naqanını doldurur keçirir qoynuna. Gəlir. Deyir ki, de görüm nədi? Bu istəyin bildirir. Bildirəndə naqanı sıxır bunun ortasına. Bunun qolun şiltə-şiltə eliyir. Çətənin də gerisini yarır, ordan qaçır özünü salır yarğana. Bu iki

qonağı da tərkisilah eliyir. Çobannara hay salır. Çobannar tökülüşüf gəlir. Bunların qolun bağlıyıllar.

Axşam olur. Bir də görüllər ki, dağın başınnan atdılar görükdü. Bu iki nəfər ağlaşıllar. Çobannarın ağsakqalına yalvarıllar ki, ay ağsakqal, sən bu gəlinin əlinnən bizi al, çıxax gedax, bu yaralı qalsın. Gəlin çobanın sözün götürür. Deyir, sözüzü götürürəm, mənsiz bir kəlmə deməyin. Ərim hövsələsizdi. Söhbəti mən açajam. Özü də başarsam, sizə hörmət eliyəjəm.

Əri gəlir qapıya. Deyir, ay arvad, qonağımız gəlif? Deyir, gəlif, amma biri yaralıdı. – "Niyə?" Deyir ki, yolnan gəldıxları yerdə bir havayı güllə dəyif, qaçıf özlərini salıflar bura. – "Ay arvad, bəs bunların yemağı?" Deyir, heyvan kəsmişəm. Birini də bu kəsir. Bunlara deyir ki, qorxmayın, sizi hara desəz, ora aparajam, yaranızı sağaldajam. Yemax ortaya gələndə bunlar süfrəyə əl atmır. Deyir, niyə çörəyimi yemirsiz? Mənim qonağımsız axı. Ceyran ərinin dizinin dibində oturur, əlini qoyur ərinin dizinin üstünə. Deyir, bu süfrənin üstündə sənə bir sirr açajəm. Bu Quran haqqı, bu çörək haqqı düz danışajəm. Vəziyyət belə oldu. O hayasızdığ elədi, mən də sənin naqanınnan bunun ortasına atdım, qoluna dəyif. İndi bu qonax, bu da sən. İstiyir ki, qalxsın bunlarnan dava eləsin. Arvad çörək tutur bunun qabağına. Deyir, bir qan mən eləmişəm, ikinci qanı da sən eləmə. Üstümdə ad qalar. Deyəllər ki, Ceyranın üstündə bir belə adam qırdı. Oğlan yavaşıyır. Süfrəni yığışdırtdırır. Deyir ki, çıxın gedin. Yaralı durmur. – "Niyə getmirsən?" Deyir ki, mən qurumsaxlığ elədim sənin çörəyinə düşmən çıxdım, arvadına söz atdım. İndi ya məni öldürməlisən, ya da razılaşmalısan ki, mənim anam gələ, molla gətirərsiz, siğə oxutdurasız, Ceyrannan mən olax bajı-qardaş. Deyilişə görə, elə heylə də olur. Ceyran bunları vuranda gedif həmən bulaxda yuyunuf. İndi həmən bulax Ceyranın adına qalıf.

## 67. QAR ARXAC

Qaraxaçı ermənilər Qaraxaç adlandırıf. Bizim tarixçilər də ora Qara arxac dedilər. Mənim babalarım o yaylağa çıxırdılar. Onlar

Qaraxaç, Qara arxac demirdilər. Ağalar kişi söhbət eliyirdi ki, oğul, nə Qara arxac tanımırdıx, nə Qaraxaç tanımırdıx. Bizim babalarımız Qar arxaca çıxırdı. Çünki o dağda təzə qar köhnə qara qarışırdı. Ona görə oraya Qar arxac deyirmişdər.

## 68. KEYTİ DAĞI

Keyti adlı bir kişi olur, onun peşəsi ovçuluq olur. Özü də qoçax adam oluf. Şikar etdiyi ovun hansı onun tüfəyinin qabağında əllərini qaldırıb ayaq üstə durardısa, bilirdi ki, vurduğu ov yüzü tamamlayıb. Onda həmin ova tüfəy atmazdı. O tüfəyi kəfənləyib yerə basdırardı, başqa bir tüfəy götürüb ovunu edərdi. Bir neçə tüfəy yerə basdırandan sonra bir gün əcəl bunun başının üstünü alır. Öz övladlarını çağırır vəsiyyət eliyir ki, dünya məni allatdı. Çox ovlar qırdım. Neçəsini qıranda gördüm körpə balası var. O balalar düşürdü çöllərə, çığıra-çığıra anasını axtarırdı. İndi bilirəm ki, çox günahlar eləmişəm. O günahı heç nə yumaz. Öz aqibətim də vurduğum ovlar kimi oldu. O dağda ki, ov ovlamışam, məni aparın o dağın başında basdırın.

Evladları onun vəsiyyətinə əməl edir, onun aparıb dağın başında qara tüfəyi ilə birlikdə dəfn edirlər. İndinin özündə də həmin qəbr ordadı. Yay vaxtı tərəkəmə çobanları qoyun otaran zaman o qəbirin üstündə şam yandırardılar. İndi o dağ Ovçu Keytinin adıyla adlanır.

## 69. SOĞANATILAN QAYA

Bizim kəndin yuxarısında bir qaya vardı, Soğanatılan qaya deyirdilər. Çox hündür qaya idi. Heş kim soğanı atıf o qayanın başınnan aşıra bilmirdi. Şanonun nəvəsi Kəlba Şəldi olur, çox güjdü adam oluf. Örüşə gedən heyvan qayadan uçurdu, dalına alıf gətirirmiş. Bir gün öz yaşıtdarıynan komalaşıllar, mərc gəlillər ki, kim soğanı qayadan aşıra bilər. Yoldaşları aşıra bilmir, o götürüf atır, soğan aşır o üzə. Onnan oranın adı qalır Soğanatılan qaya.

## 70. SÜMÜKTÖKÜLƏN DƏRƏ

Bizim kəndin Göyçəyə aşan üzündə bir düz var idi. Düzün ayağında dərə kimi yer var idi, ordan su axırdı. O yerin adına Sümüktökülən dərə deyirdilər. Yayda tay-tuşlarnan yığılıf gedirdik ora. Orda saysız-hesabsız sümüklər vardı. Yay olanda qarğa-quzğun gəlirdi, sümüyü götürürdü yerdən qaldırırdı, sümük ağzınnan düşürdü, dalınca şığıyırdı. Biz də uşaxdıx, sapadnan quşlara daş atırdıx. Heç ağlıma gəlməzdi bu sümük nə olan şeydi. 1988-ci ildə Göyçədən deportasiya olunanlar, yaşlı adamlar bizə dedilər ki, 1918-ci ildə martın 31-də ermənilər bir mahalı vəşicəsinə qovuflar. Onlar da mal-qaralarını götürüf Kəlbəcər üzrə aşmax isdiyirmiş. Dağda möhkəm boran olur, həm mal-qara tələf olur, həm də xeylax adam orda qırılır. Həmin hadisədən iki-üş gün sonra boran səngiyəndə kəlbəcərlilər, Göyçənin sağ qalan sakinləri qayıdıf o adamları orda dəfn eliyiflər. Ona görə oraya sümüktökülən dərə deyillər.

## 71. LAÇIN QAYASI

Rəvayətə görə, Laçın addı bir oğlan olur, bir qızı sevir. Qızın da atası vermək istəmir. Görür ki, oğlan qızdan əl çəkmir. – Qızın da oğlana könlü varmış. Köhnə adət-ənənəyə görə qızı da gərək ata-ana verəydi da. – Sonra oğlanı çəkindirmək üçün bir şərt qoyur ki, qayanın başında bir çəmənnik var, orda dağ keçisi otduyur. Get o dağ keçisini sağ tut gətir, mən qızımı saa verərəm. Oğlan gedir, keçini tutur, amma yenə bilmir. Üç gün qalır orda. Baxıllar ki, yenə bilmir. Kəndin ağıllı, dünyagörmüş ağsakqalları yığılır, qıza deyillər ki, sən çıx o qənşərdən çağır ki, Laçın, atam məni sənə verdi. Həmin o səsin gücüynən oğlan qayıdır yenir. Onnan o qayanın adı Laçın qayası adlanır.

## 72. QOTURLU

Bizim o zonada hədinnən artıq turşsu bulaxları vardı. O qədər qazlı olurdu ki, yarım istəkanı bir nəfəsə işmək mümkün döyüldü.

Qoturru dərəsi bu cür bulaxlarnan zəngin idi. Bədənində qaşınma olan insannar bir dəfə o turşu bulağında çimərdi, qaşınma keçif gedərdi. Onlara son illər turşsu deyildi, onların əsl adı qotur sudu. Qotur su bulaxları çox olduğunnan o zonanın adı qalmışdı Qoturru zonası. Qoturru zonasına daxil olan kəndlər: Comard, Kilsəli, Nəcəf-alı, Laçın, Almalıx, Gözdübulax, Qaragüney, Keçiliqaya, Çorman, Əsrik, Çobankərəkməz, Ağcakənd, Oruclu, Abdullauşağı, Fətallar, Qaraçannı, Ağyataq, Moz, Bəylik, Qaraxançallı, Hacı Alırzalar, Zər-qulu, Xallanlı, Başdıbel. İyirmi beş kənd Qoturru zonasına daxil idi.

## *TARİXİ ŞƏXSİYYƏTLƏR, TANINMIŞ İNSANLAR, QAÇAQLAR HAQQINDA*

### 73. ŞAH ABBASIN FƏRRACI

Şah Abbas cənnətməkan şah oluf. Heç bir şah onun kimi ad almıyıf. Bir gün vəziri, fərraşı da yanında ölkəni gəzirmiş. Fərraş da tez-tez adamları döyürmüş, onları incidirmiş. Şah Abbas da de-yirmiş ki, biz axı ad qazanırıx, ölkələri gəzirik, fağır-füqəraya hör-mət eliyirıx, dara düşəni dardan çıxardırıx, ehtiyacı olanı ödüyürux. Sən niyə narazılıx salırsan? Kəndin birinin qırağınan keçəndə bir arvad çıxır, deyir:

– Ay atdılar, bir ayağınızı saxlıyın.

Ayaxların saxlıyıllar. Arvad girir içəri. Gözdüyüllər, bu arvad çıxmır. Bir azdan sonra çıxır deyir:

– Gedin, gedin, ay atdılar, gedin.

Fərraş deyir ki, məni qınıyırsan. Bax bu nə demaxdı? Şah Abbas arvadı çağırır, deyir:

– Ay ana, niyə bizi saxladın?

Deyir:

– Toyux kürkə salırdım. Arvad görəndə cücənin çoxu fərə çıxır, kişi görəndə xoruz çıxır. Sizi saxladım ki, yumurtanı yığım toyuğun altına, hamısı xoruz çıxsın.

Fərraş deyir:

– Şah sağ olsun, məni qınıyırsan. Bax beləsin təpəsinə atıram ey.

## 74. QIZIL ÇARIQ

Şah oğlu Şah Abbas bir gün göstəriş verir ki, mənə qızldan bir dənə çarıx tikin. Qızldan buna çarıx tikillər. Bu gəlir baxır, ayağına geyinir. Vəzirinə deyir ki, Allahverdi, dur gedək vilayəti gəzək, baxaq görək ayağımdakına nə qiymət verəjəklər.

Gəzillər, görüllər dağda yiyəsiz yerdə bir çoban qoyun otarır. Şah Abbas deyir ki, saxla, çarığımı dəyişim, o qızıl çarığı geyinəjəm ayağıma, görüm nə deyir. Çarığı geyinir, gəlir.

– Salam-məlöykü.

– Əlöykümət-salam.

Sürünü nətər otarırsan, qoyun nətərdi. Belə söhbətdən sonra deyir ki, çoban qardaş, bu ayağımdakı nədi? Deyir:

– Çarıxdı.

Deyir:

– Düz-əməlli bax, çarıx nədi?

Deyir ki, vallah çarıxdı. Deyir:

– Ə qızıldı ey, çarıx nədi?

Deyir:

– A kişi, qızıl da olsa çarıxdı, gön də olsa çarıxdı.

Yəni istiyirsən rezinnən düzəlt, istiyirsən qızıldan, adı çarıxdı ki çarıxdı.

## 75. KƏRBƏLAYİ HƏCƏR

Kalba Həcər Bəybuğur addı bir cavannan evlənir. Gəlinin yaşı otuz altını keşdiyinə görə bunun uşağı olmur. Bir çavuş gəlir, Kərbəlaya adam aparır. Burda qalır gejəliyir. Deyir, sizdən də gedən varsa, bizə qoşulsun. Bunlar da gedir. Deyir ki, uşağımız olmur. Çavuş deyir, bir ağ gətirin, köynək bişdirin, amma yaxasını aşmayın. Aparax aləmi-rözada müştöyüdə göstərərix, müştöyüd nə deyirsə, onu eliyərix.

Eləcə də eliyirlər. Ağ gətirillər, köynək biçdirillər, yaxasına əl vurmullar. Bunlar da qoşulur ərli-arvatdı paki-müntəzir bunlarnan

gedir. Ziyarat eliyillər, müştöyüdə bildirillər. İmam Hüsöyünün qəbrinin altında sumkanı qoyullar yerə. Deyilişə görə, qəbrin böyründə məktub yeri var. Müştöyüd deyir ki, ərzini yaz oraya at. İnşallah, ordan sədası gələr, səfası nə olarsa, görərıx. Bunlar ziyarat eliyir. Müştöyüd özü də bunlara xeyir-dua verir, üzünnən öpür. Deyir, ağam aləmi-röyada sizə buyrux buyurub. Bir ətək qızıl verif, gedin yaşayın. Gəlif şəhərdən çıxannan sonra bu deyir, mənə niyə qızıl verdi. Müştöyüd deyir, nə istiyirsiz, niyə mübahisə eliyirsiz? Deyir, bu Həcərin axı uşağı olmurdu. Deyir, o zənbili gətirin bura, zənbil deyəjəh. Zənbili açıllar ki, köynəyin yaxası açılıf.

Orda Mosul kəndi var. Ziyaratdan çıxannan sonra gəlif orda bir ağsakqaldan bir evi kirayə eliyillər. Qoşuna üş günnux istirahət verilir. Həcərnən Bəybuğuru aparıllar, kirayə elədihləri evə gəlin köçürələr. Deyir, hax verifdi, biz də verirıx. Üç gün istirahət eliyin, üş günnən sonra çıxın burdan. Onlar orda qalır. Allah verir bunun boynuna bir uşax düşür. Axırı gəlir o vaxtı çatır ki, bunun bir oğlu olur. Oğlu olanda deyir, ay camahat, mənim ziyaratım qəbul oluf, Allah mana züryət verif. Bunun adını nə qoyax? Qurbannıx ayıdı. Biri deyir, Qurban qoyax, biri deyir, İsmayıl qoyax. Deyir, heylə döyül. İsmayıl İbrahimxəlil peyğəmbərin oğludu. O oğlunu qurban verif. Mən oğlumu İsmayıla qurban verirəm. Belə qərara gəlillər ki, Qurbanqulu bəy qoyax. Qurbana gedənin qulu. Onda Həcər Kəlbəcərin ortasında karvansara tikdirmişdi. Bəri başında da iki minaralı məçit vardı.

## 76-82. KÜRDOĞLU MƏHƏMMƏD

Babam deyirdi ki, Mircəfər Bağırov Kürdoğlunu çağırtdırıf yanına, özünə də bir onatılan verif. Deyif, get Kəlbəcərə, oranın idarəsini verdim sənə. Kəlbəcərin katibinə də zəng vuruf deyif ki, bu adamnan işin yoxdu. Mir Cəfər Bağırovun yanında olduğu gejə gələrlər qapısında ala qancığını vurallar. Qardaşı Yunus evdə yatmırmış ki, onu öldürəllər. Girif samannıxda yatıf. Satıflar ki, Kürdoğlu Məhəmməd gəlif samannıxda yatıf. Kürdoğlu Məhəmməd

adıynan gəlif Yunusu vuruflar, bir də ala qancığı vuruflar. Evi də talan-qarət eliyif gedəndə anası çağırıf deyif ki, ayə, gedin, Məhəmməd gələndə Yunusun qanını bağışdıyajax, amma ala qancığın qanını bağışdamıyajax. – Sən fikir ver kişinin qapısında o vaxt itini vurmax nə deməkdi. – Bunlar çıxıf gediflər. Səhərisi Kürdoğlu Məhəmməd gəlir. Mir Cəfər Bağırova da söz verif ki, silahı qoydum yerə. Gəlif görür qapısında itini vuruflar, qardaşını öldürüflər. Qardaşını aparıf basdırır. Mir Cəfər Bağırovun verdiyi onatılanı qoyur ora, öz silahını götürür, gedir qisasın alır.

**77.**

Kürdoğlunun ayləsin çox incidirmişdər ki, yoldaşını tut ver bizə. Bizim qonşu kənd vardı Əsrik kəndi, orda Qədir kişi vardı, o vaxdı o milisya işdiyirdi. Deyirdi, mən də hökumətdə işdiyirəm. Hamımız Kürdoğludan çəkinirik, harda üstümüzə düşsə, bizi qırajaxdı. Onda da Kəlbəcər Tərtər rayonuna baxırdı, NKVD orda oturmuş. Kürdoğlunun arvadını aparıllar, qujağında körpə uşağı vardı. Qədir kişi deyir gətdilər, biz də qapıda durmuşux. İçəri girdilər, bir neçə adam da arvadnan girdi. Deyir, Məhəmməd özü də gəldi girdi içəri. Deyir, bu arvadın üstünü çox kəsdilər ki, niyə Məhəmmədi tutuf bizə vermirsən? Arvad dedi ki, sənin ordun var, saldatın var, sən tuta bilmirsən, mən kadın xeylağı nətər onu tutum ələ verim. Deyir, dedi ki, bax burda bir belə kişi var. Sənin yoldaşın burdakı adamların hansına oxşuyur? Barmağın uzatdı Kürdoğlu Məhəmmədin özünə, dedi ki, bax bu kişiyə oxşuyur. Bunu görmüş, elə bil Məhəmmədin özün görürsən.

İndi bu arvadı Umutduya aparıf vermək lazımdı. O vaxtı da maşın nə gəzir. NKVD dedi ki, hansınız bu arvadı aparıf verə bilərsiz? Hamı qorxur, hökumət adamlarıdı, qaçaxlar harda üstlərinə düşsə, öldürəjax. Qədir kişi deyir, dedim ki, mən apararam. Dedim, mən Məhəmmədi tanıyıram, o da məni tanıyır. Onda da, deyir, qabaxcadan qanpulu verirdilər. Qanpulunu ayırdılar qoydular qırağa, indi mən bunu aparmalıyam. Arvadı gətirif böyrümdə oturtdurdum, uşağı da qorxumdan qujağıma aldım ki, uşağa görə qabaxdan məni

atmazdar. Böyrümdə də qadındı, ordan da atmazdar. Düşdüm yola, "Allaha pənah" deyif gəldik. Çardaxlını keçəndə döngədən burulanda qabaxdan dörd-beş tüfəy uzandı. Saxladıx. Deyir, Məhəmməd çıxdı, gəldi mənnən görüşdü. Dedi, ay Qədir kişi, qorxmursan bu qadınnan meşəynən gedirsən. Dedim, yox, mən əmoğludan niyə qorxum. Sən əmim oğlusan, bu da sənin yoldaşındı. Mən aparmalıyam da.

Nəysə, deyir, apardım çıxartdım öyə. Deyir, gejə oturmuşux, anası da sağdı. Deyir, Məhəmməd birdən girdi içəri. Mənnən görüşdü. Gejəni qaldıx, səhər vaxtı hələ hava işıxlaşmamış bu durdu getdi. Mən də durdum çayımı-çörəyimi yedim, arabanı qoşdum, indi qayıtmalıyam Tərtərə. Meşəynən gedirəm, fıştırığı qaldırmışam. Deyir, genə tüfəylər uzandı. – "Saxla". Saxladım. Deyir, Məhəmməd gəldi. Gəldi dedi ki, gejə qaldıx bir yerdə, qorxub eləmədin ki? Dedim, əmoğlusan, sənin nəyinnən qorxajam. Dedi, səndə dəsmal olmalıdı bağlı, çıxart görüm. Deyir, mən arabanı qoşanda yoldaşı gətirdi bağlı dəsmal verdi mana, dedi bunu Məhəmməd evdə qoyuf ki, ver Qədirə. Dedim, var, yoldaşın mana verif. Deyir, cibimdən çıxartdım – qorxumdan da aşmamışdım ki, görüm yolda harda qabağımı kəsif mənnən isdiyəjax. Deyir, dəsmalı əlində çöyürdü o tərəfə bu tərəfə. Axı iki yerdən düyün çalıf, həmin düyünnərə baxdı. Dedi ki, Qədir kişi, həm əmoğulluğa görə, həm də yoldaşımı gətdiyinə görə bu pulu sənə verirəm. Baxdım ki, görəm mən çalan düyünü açmıyıflar ki. Qoy cibinə, halalındı. Qorxma, atı sür getsin. Deyir, Kürdoğlu Məhəmmədin yoldaşın heylə apardım təhvil verdim.

**78.**

Kürdoğlu Məhəmməd özü Qaraçannıdan oluf, amma ayləsini gətirif bizim kəndə qoymuşdu. Çələkdardan irəfilərnən bunların arasında düşmənçilik oluf. Onlar biliflər ki, Kürdoğlu Məhəmməd Ağdabandadı, bunların üstünə qoşun gətirir. Kürdoğlu Məhəmmədin qardaşı Yunus çox qoçaq adam oluf. Evdə yatmıyıf samanlıxda gejəliyif. Çələkdarlılar gəliflər. Kimsə işarə verif ki, samanlıxda

yatıflar. Samanlığı mühasirəyə alıflar. Bir nəfər girif içəri ki, bu yatıf burda. Tüfəyi yavaşca yanınnan götürüf verif çölə. Yadına düşmüyüf ki, bunun böyründə qılınc var, onu da götürə. Bunu qurdalıyıf ki, oyada, durmağıynan qılıncı bunun qarnına soxmağı bir oluf. Bu çığıranda çöldəkilər gülləliyif Yunusu öldürüflər, bunun yanında ayrı adam varmış, onu da öldürüflər. Bunları öldürənnən sonra irəfilər gəlif Kürdoğlu Məhəmmədin anası, bir də arvadına sataşmaq istiyiblər. Mənim babam Namazın böyük qardaşı Nəsir gedif onları gətirif öz evində saxlıyıf.

Kürdoğlu Məhəmməd sonra düşmənlərinin hamısını bir-bir öldürür. Bir dəfə gedif Çələkdara. Qardaşını öldürənlərdən biri malı örüşə ötürüf qayıdır. Əlində silah olmuyuf, qılıncı çəkif Məhəmmədin üstünə cumanda Məhəmməd qılçalarınnan vuruf, zülüm verə-verə onu öldürüf. Deyif, mən sizə neynəmişdim, siz mənim qardaşımı öldürdünüz? Deyir, hələ bu ala itin qanıdı, qardaşımın qanını sonra alajam.

**79.**

Kürdoğlu Məhəmməd qaçax olan vaxdı Alxan oğlunun yurdu deyilən yer var, yayı orda olurmuş. Bizim kəntdə Səməd kişi oluf. Gedif qoşuluf atriyada. Deyif, atamın goru haqqı, Kürdoğlunun başını kəhər maydanın döşündə gətirəjəm. Kürdoğlu eşidif ki, Səməd qoşuluf atriyada. Səmədin qardaşı Gəray da mənim bajım Nazanın əri idi. Gəray dağdan atın belində gələndə kurqanın yalı deyilir, yalı dolayısı düşəndə Məhəmməd durbinnən baxır, elə bilir Səməddi. Ordan bir güllə atır, gəlir yanbızınnan sürtüb keçir. Sonra buna xəbər veriflər ki, Gərayı vurmusan. Deyif, ə, ona deyin ki, məni bağışdasın, elə bildim Səməddi. Onu yaraladım ki, atriyaddan uzaqlaşsın, o məni tuta bilməz. Həmən gün Səməd kişi paltarın soyunuf atriyaddan uzaqlaşıf.

**80.**

Kürdoğlu Məhəmmdəgilnən biz kirvə olmuşux. O, qaçaxçılığ eliyəndə gəlif bizim binədən çörək götürərmiş, orda dincələrmiş.

Atamın bir maması vardı, adı Qızxanım idi. Geştəkdən Əmiraslan oluf, Kürdoğlu Məhəmməd, Zeynal addı bir nəfər, nəysə dörd nəfər olur. Oturullar, yeyiv-içənnən sonra bu deyir ki, Qızxanım nənə, mən gedirəm. Çox zəhmət çəkmisən, halal elə. Məni tanıyırsan? Deyir ki, yox əşi, mən səni tanımıram. Deyir, nətər tanımırsan? Mən sizin evinizdə öz ağırrığım qədər duz yemişəm, hələ çörəyi demirəm. Nətər məni tanımırsan? Deyir ki, başı aşağı əy, deyim. Deyir, ay oğul, adını bilirəm ey, amma deyə bilmirəm. Desəm eşidəllər, səni də tutarlar, məni də.

**81.**

Kürdoğlu Məhəmməd həmişə üzünü-başını bizim camahata qırxdırırmış. Bir gün üzü tüklü gəlir əmimin yanına. Deyir, Hüsöyn, üzümü qırxginən. Əmim deyir ki, bunun üzünü qırxdım, ulquma yenəndə dedi ki, əlini saxla. Onatılanı çıxartdı söykədi başıma. Dedim ki, Məhəmməd, dəlisən, nəsən. Bəs bizim yüz illik kirvəliyimiz? Dedi ki, insan dediyin çiy süd əmif. Ad üçün ülgücü çəkərsən ki, Kürdoğlu Məhəmmədi öldürdüm. Qoy heç olmasa, tətiyi çəkim öcümü alım.

**82.**

Hajı Şəmməd oğlu Kərimin Kürdoğluya qarşı nəsə səhv işi olur. Bir gün Hajı Şəmməd oğlu Kərim Əsrikdən Kəlbəcərə gedir. Kürdoğlu Məhəmməd də bunun gəldiyini bilirmiş, Almalıx deyilən ərazidə Qara qayaya girif bunu gözdüyür. Hajı Şəmməd oğlu Kərimin də bir saz atı varmış. At altında gəlir, Almalıxda Soltanın dəyirmanı deyilən yerdən keçif qənşərə çıxanda Kürdoğlu Məhəmməd deyir, Kərim, atını saxla. Atını saxlıyır. Deyir ki, anan mənim qohumumdu, səni öldürmüyəjəm. Amma saa bir güllə atajam ölənə qədər sənnən qəbr evinə gedəjəh. Sağ çiynin nişan alır. Həmin güllədən ölmür, amma qolunu da işlədə bilmir.

## 83-85. MƏŞƏDİ CƏMİL

Hajı Həsənalı adında bir adam oluf, Kalba Ellazın nəvəsi oluf. Xan qızı gəlif bunnan söhbət eliyəndə baxıf ki, bu həm şairdi, həmi də çox savatdıdı. Deyir ki, səni Şuşaya aparajam. Aparıf onu orda vəkil təyin eliyir, Kəlbəcərin nəzarətini ona verir. Kəlbəcər əhalisinin vergisini Hajı Həsənalı yığıf Xan qızına göndərirmiş. Hajı Həsənalının bajısı oğlu da Məşədi Cəmil olur. 1917-1918-ci illərdə Göyçə camahatını erməni qırıf təmiz çıxardıfdı. Axşam toran düşəndə kəndlərə od vuruflar. Camahat da gəlif dağlarda qırılır, da salamat aşa bilmir Kəlbəcərə. Göyçədə Səməd ağa varmış. Səməd ağanı, Aşıq Nəcəfi alladıf aparıflar ki, barışırıx. Alladıb aparıf neçə adamı qırıflar, od vuruf yandırıflar. Səməd ağaynan da Məşədi Cəmil dostumuş, gediş-gəlişləri vardı. Səməd ağanın adamları xəbər göndərir ki, Məşədi Cəmil, bil və agah ol ki, Göyçə çıxdı, ağsakqallarımızı qırdılar. İndi nööbə Kəlbəcərindi, sizə hüjum olajeh. Onda Məşədi Cəmil təşkil eliyir. Bizim Kəlbəcər üç yerə bölünür: Lev ayrımı, İstisu dərəsi, bir də Qoturru-Bəylik dərəsi. Kəlbəcər dərəsində camahatı yoxluyur, silahları yoxluyur: kimdə silah var, patron yoxdu, kimdə patron var, tüfəy yoxdu. Siyahı tutur, bir neçə qatır yükü yağ-bal götürür, Sultan bəynən də gediş-gəlişləri varmış, gedir Sultan bəyin yanına. Deyir ki, erməni gələjeh, maa gərək silah verəsiz. Deyir, Xosrovnan danışax. O da qubernatormuş. Gedillər yanına. Çağırır Məşədi Cəmili. Deyir ki, Göyçəni çıxartdılar, indi nööbə Kəlbəcərindi, Kəlbəcərdən sonra Laçındı, Laçınnan sonra Dağlıq Qarabağdı. Onların fikri budu. Bərk durmax lazımdı. Apardığı yağın-balın da əvəzinə patron verillər. Neçə at yükü güjdü silah-sursat verillər. Badronnarı ata yüklüyəndə Məşədi Cəmil çuxasının cibini badronnan doldurufdu. Sultan bəy deyif ki, Məşədi, badronları niyə cibinə doldurursan? Deyir, gənə üç-dörd dığanın qabağını kəsər. Onda bir at da gətizdirif, onu da patronnan yüklüyüf. Bir at da özünə minməyə verif.

Onda gəlillər bir dağ var uzunasına, o üzü Basarkeçər rayonudu, bu üzü Kəlbəcər rayonu. Məşədi Cəmil hər gədikdə post qurur.

Erməni kəşfiyyatçıları da hər yeri duyuf görüf, amma Bağır xan deyilən yeri görmüyüflər. Bu qarovulçuların əksəriyyətini də ovçulardan qoyuf. Orda Məhəmməd adında, bir də İsgəndər adınada iki oğlan Bağır xanın dağında keşik çəkirmişdər. Həm də dağda duman varmış. Səhərə bir-iki saat qalanda görüllər ki, o üzdən hənirti gəlir. Ata da top qoşmuşlar, atların səsi imiş. Bunlar yerlərin tutullar. Duman çəkiləndə görüllər güjlü qoşun gəlir. Bir atdı qoşunun bir tərəfində gedir, biri də o biri tərəfində. Atlar da topu çəkir. İndi çıxıllar ki, dağdan Kəlbəcəri topa tutalar. İsgəndər deyir, ə, tələsmə, qoy yaxınnaşsınnar, atax. Atıllar, qoşunun qırağıynan gedən həmin atdıları atdan salıllar. Atdan salanda pərən-pərən düşür, burda da neçəsini vurullar. Burda qaçaqaç düşür. Atdar qayadan düşür, top at qarışığ gedir düşür dərəyə. Bunların ağlı kəsmir gedif topu götürələr. İki günnən sonra gedillər ki, gejə gəlif topu aparıflar. Onda kəndlərə xəbər yayılır. Zəyliyin başının üstündə Şiş qaya vardı. Şiş qayanın da başının üstün kəsmişlər. Bəylik camahatı görür ki, ermənilər Şiş qayanı tutuflar. Üş nəfər cavan oğlan hərrənir, topçuların birin vurur. Bunlar da topu qoyuf qaçır. Məşədi Cəmil əmr eliyir, erməniləri Göyçə gölünəcən qovullar. Həbibin atası Nağı kişini Sevanda erməni gülləynən vurur. Güllə bu ombadan dəyir, o biri ombadan çıxır. Qoşun qayıdıf gəlir. Yoxluyullar ki, Nağı yoxdu. Biri deyir ki, Nağını orda vurdular götürə bilmədim. Əmisi oğlanları gedir, Kalba Ellaz tərəfdən üş nəfər gedir. Gedillər ki, Nağı sağdı. Qoyullar tüfəyin üstünə, yetmiş kilometr yolu gətirillər. Nağı ölmür, böyük bir tayfanın atası olur.

**84.**

Otuzuncu ildə qaçaxlar hökumətə xayanatdığ eliyir. Kəlbəcərdə də Kürdoğlu Məhəmməd deyir ki, türməni dağıdax, dustax çıxsın, onları silahlandırax rusu Kəlbəcərə buraxmıyax. Məşədi Cəmil eşidir ki, tükanlar dağıdılıf, dustaxları buraxıflar, qaçaqaçdı. Özün çatdırır ki, vəziyyət pisdi. Cibinnən əl dəsmalın çıxardır, camahatı çağırır. Deyir, ay namard uşağı, bu bəy-xan döyül. Bu hökumətdi. Bunun ordusu var. Hökumətnən hökumətdığ elamağ

olmaz. Camahatı sakitdəşdirir. Onda da orda palitbüro Ələkbər varmış, NKVD. Məşədi Cəmili gizdətdirir. Sovet hökuməti qaçaxları güllədəndə Palitbüro Ələkbər deyir ki, bu sağlam adamdı. O vaxtı da icrayyə komitəsi vardı, onun da atasını Məşədi Cəmil oğurrux üstə döymüşmüş, yumruxnan vuruf burnun cırmışdı. Deyir ki, Məşədi Cəmil mənim üstümə ad qoyuf. Atamın burnun cırıf, mənə də burnu cırığın oğlu deyillər. Orda yazır ki, palitbüro Ələkbər Məşədi Cəmili tutdurmur. Ayrı urus gəlir. Urus Məşədi Cəmili tutur, aparır Şuşa qalasına. Camahat tökülür, yalvarır-yapışır. Urus nə qanır, əlində sənəd var, aparıf salırlar ora. Sonra çekist gəlir, arıyır axtarır ki, Məşədi Cəmilin günahı yoxdu. Üş-dörd ay yatannan sonra bunu boşdüyüllər. Deyillər, Məşədi Cəmil, azadsan.

Oğlu Qasım gedif atasını gətirmağa. Deyir ki, Qasım, burda ol, qalyanımı yandırıf gəlim. Deyir, ay dədə, bura generalın kabinetidi, burda olmaz. Deyir, yox, məni tanıyıllar da. Olmur. Demə, bu kopoğlu erməniymiş. Məşədi Cəmil içəri girəndə general deyir ki, Məşədi, səni buraxıllar. Sənnən bir söz soruşajam. Düzün desən, yaxşı olar. De görüm camahatda günah oldu, hökumətdə? Deyir, oğul, əzzəl camahatda günah oldu. Tükannardan beş metr parça qaçırtmaxnan hökuməti yıxmağ olmazdı. Onnan sonra hökumətdə taxsır oldu ki, yoxlamamış adamları tutdurur. Deyir, hə, aparın qolun bağlayın. Elə onnan da getdi.

**85.**

Məşədi Cəmil uşax vaxtı çox kür olufdu. Bir gün iki toyux kəsmişmişlər. Külfət üçün yemək hazırrıyıllar. Hajı Qasım deyir ki, arvad, Cəmil gələjeh, dava salajehdi. Yeməyi hələ paylama, Cəmil gələnnən sonra paylıyarsan. Gələndə nənəsinə deyir ki, nənə, maa yemax ver. Hajı Qasım deyir:

– Bala, payın odu.

Qazanın ağzını açır ki, bir qazan yeməkdi. Birdən ağlıyır.

– Ay Cəmil, niyə ağlıyırsan, ay bala?

Deyir:

– Görün özləri nə qədər yeyif ki, mənə də bu qədər saxlıyıflar.

## 86. HACI HƏSƏNALI

Hajı Hasanalı Xan qızının Cavanşir qəzası üzrə vəkili olufdu. Kəlbəcər camahatınnan vergini o yığırmış. Kalba Bayramnan əmi uşağı oluflar, amma araları olmuyuf. Aralarında giley-güzar olufdu. Şəfi bəy gəlifdi ora. Şəfi bəy deyif ki, Hajı, bir də Kalba Bayramnan ərizə yazsan, səni incidəjəm. Hacı Həsənalı Məşədi Şaverdiyə deyif ki, səni kəndə yüzbaşı qoyajam. O da deyif, axı məni saymaz xalq. Həsənalı deyif, səhər heyvanı ötürəjəm qoruğa, sən mənim heyvanımı gətirif dama doldurarsan. Nökərlərimi göndərəjəm, vermə, özüm gələjəm.

Səhər bir də görüllər ki, qoruxda heyvan var. Şaverdi qoruxçuya deyif ki, get o heyvanı yığ gətir, qat tövləyə. Deyifdi ki, o Hajı Həsənalının heyvanıdı. Deyif, Hajı Həsənalını mən tanımıram, ora qoruxdu. Get heyvanı gətir. Heyvanı gətirif salıf dama. Hajı Həsənalı nökəri göndərif ki, get heyvanı gətir. Vermiyif. Deyif, gərək Hajı özü gələ apara. Təzədən Hajı özü gedif deyir ki, Məşədi, nökərlər bilmiyif heyvanı qoruğa ötürüflər. Deyif, birinci dəfə olsun. Heyvanı verirəm, bir də heyvanı qoruğa ötürmə. Hajı Həsənalıdan başdıyanda camahat onda ehtiyat eliyifdi ki, bu siftə bəydən başdadı. Gör bunun dalı nətər olajeh.

## 87-89. MƏŞƏDİ İSGƏNDƏR

Məşədi İsgəndərin başına gəlmiş bir əhvalatdı. İndi də yeri düşəndə onu misal çəkillər. Kənddə olan insannar malını, heyvanını çıxarardı yaylağa, kənddə tək-tək adamlar qalardı. Onda da dağdan kəndə gəlif gedən olardı. Kənddə qalana yemək-içmək gətirərdilər, qatıx-süd gətirərdilər. Məşədi İsgəndər kəntdə qaldığı vaxt onun yoldaşı dağdan bir küpə ərinmiş yağı gətirir ki, gündə qırıx-qırıx yağ gətirməknən olmur, yeri gələndə istifadə eliyər. Bunu bir nəfər bilir. Məşədi İsgəndər yatıfmış. Bir səhər durur ki, yağ küpəsi yoxdu. Məşədi İsgəndər dinmir. Kim olsa qonşulara səs salar, axtarar, amma Məşədi İsgəndər dinmir. Nəysə, yoldaşı Yetərə də bildirmir

ki, küpə gedif. Küpənin oğurlandığını iki nəfər bilir. Bir bu özü bilir, bir də küpəni aparan bilir.

Aradan bir müddət keçir. Küpəni oğurruyan adam özünü saxlaya bilmir. Bununla rastlaşır.

– Salam-məlöykü.

– Əlöykət-salam.

Deyir:

– Məşədi, eşitdim sənin yağ küpəni oğurruyuflar. Tapdın?

Deyir:

– Hə, tapdım.

– Kimdi?

Deyir:

– Sənsən.

– A kişi, sən nə danışırsan?

Deyir:

– Bəri bax. Bu küpənin oğurlandığını bir mən bilirəm, bir də onu aparan bilir. Nə mənim ağzımdan çıxmıyıf, nə arvadımın ağzınnan çıxmıyıf. Heç kim bilmir ki, mənim küpəm oğurlanıf. Sən hardan bilirsən?

Deyir:

– Məşədi, şeytan qəlbimə doldu. Məni bağışla, bu sirr elə aramızda qalsın, gedim küpəni gətirim.

Deyir:

– Yox. O ki boynuna aldın, halal eliyirəm.

**88.**

Məşədi İsgəndər iyirmi beş il yüzbaşı işləyif. O vədə Laçın böyük bir qəza oluf, yüzbaşıları orda qəbul eliyirmişdər. O vədə Şəfi bəy rayon icrayə komitəsinin rəhbəri imiş. Bütün təliqələri paylıyır Kəlbəcərin sovet sədrlərinə ki, Mir Cəfər Bağırov sizi Laçın qəzasında qəbul eliyəjaxdı. Burdan iyirmi beş dənə yüz başı atdanır Laçına gedəsi olur. Məşədi İsgəndər çarıxnan, başında qoyun dərisinnən papaxnan gedir. Yolda o biri yüzbaşılar buna sataşır. Deyillər, sən niyə gedirsən, sən ağsakqal kişisən. Sənin aya-

ğında çarıx, başında motal papax. Deyir, deyirsən iyirmi beş nəfərin içində bir kişi getməsin Laçına? Deyir, nətər kişi? Deyir, kişinin başında papağ olar, ayağında da kalvanı çarığ olar. – “Əşi, deyir, vallah səni bu vəziyyətdə Mir Cəfər Bağırov qəbul etməz”. Deyir, gedax da, görüm kimi qəbul eliyəjəh, kimi qəbul eləmiyəjəh.

Gedib çatıllar. Hər kəs öz atın rahatdıyır, gəlif zala doluşullar. Mir Cəfər Bağırova xəbər verillər ki, Kəlbəcərin yüzbaşıları gəlifdi. Deyif, orda Məşədi İsgəndər addı bir nəfər var, mən xayiş edirəm o qəbula gəlsin. Onnan savayı heç biri qəbula gəlməsin. Bu adam Mir Cəfər Bağırovun yanınnan çıxır. Deyir, burda Məşədi İsgəndər var? O kimdisə, onu çağırır. Burda kastyumlu, sapoxlu, başında buxara papağ olan adamlar var, bunlar qəbul olmaya, bu yolux kişi gedə qəbula. Deyillər, əşi, bəlkə səhv eşitmisən. Deyir, Mir Cəfər Bağırov deyir ki, orda Məşədi İsgəndər addı yüzbaşı var, onu gətir. Bu kişi düşür içəri. Düşəndə ədəb-ərkannan buna salam verir. Deyir, Məşədi, otur, sənnən bir-iki söz xəbər alajam. – Varrı adamların siyahısın vermişdilər Mir Cəfər Bağırova, Məşədi İsgəndərin də adı orda vardı. Bunu hərriyirdilər ki, kulaka salalar. – Deyir, Məşədi, otur, sənnən söhbətim var. Çöldəkilərin heç birin qəbula yazmamışam, mən sənə nə desəm, çıxıf çöldəkilərə danışarsan. Deyir, baş üstə. – “Sənnən yazıflar ki, bu qədər malın, bu qədər qoyunun, bu qədər atın, bir dəyirmanın var”. Deyir, yox, mənim bir dəyirmanım yoxdu, iki dəyirmanım var. Deyir, bə yaxşı, bu dəyirman sənin, bu qədər at, mal, qoyun... Deyir, icazə verərsənmi mən sənin cangüdəninnəm çıxım çölə, kitabçamı gətirim. Deyir, hə. Məşədi İsgəndər nəkqədər ki dövlətə tədarük verif hamısın kiftansiyaların alıf yığıfmış. Bunu gətirir. Bağırov deyir, bə yaxşı, bir heylə əti, südü, yağı, yunu sən kimə vermisən, satmısan, neynəmisən? Sən tutulmalı adamsan. Deyir, yoldaş Bağırov, mən indi qoyajam qabağına, sən də baxajaxsan gö-rüm mən yemişəm, yoxsa dövlət yeyifdi. Deyir, hə, aç papkanı. Açır baxır ki, dövlətə tonnan ət verif, tonnan yun verif, tonnan yumurta verif, tonnan yağ verif. Bağırov deyir, sən kulaka layiq adam döyül-sən. Mən gedif oturajam Bakıda, orda tapşırajam, heç kimin sənnən işi yoxdu. Deyir, yoldaş Mir Cəfər Bağırov, mən xayiş edirəm, məni

itin-qurdun ayağına vermə. Kişini kişi ayağına ver, öz dəsti-xətinnən yaz. Deyir, mənim gözüm üstə. Götürür orda yazır ki, Məşədi İsgəndər əhv olundu. Möhürün də vurur verir. Deyir, get çöldəki yoldaşlarına deynən ki, sənin kimi işdəsinlər.

**89.**

Günnərin bir günü bizim rayspalkom Şəfi bəy Məşədi İsgəndərə qonaq gəlir. Yaxşı heyvan kəsir, yaxşı yemək hazırrıyır. O vədə də istol yox, hamı gəvənin üstündə otururdu. Deyir, Məşədi, de görüm sənin oğul züryətin var, yoxdu? Deyir, Şəfi bəy, o nə sözdü. Bu dey bax, bu oturannar beşi də mənim oğlumdu. Deyir, Hayıf Məşədi İsgəndər, yurdun kordu, sonun yoxdu. Deyir, nətər yoxdu? Deyir, Məşədi İsgəndər Məşədi İsgəndərdi, amma sonu yoxdu. Deyir, nətər olmalıdı oğlannar? Deyir, bunlar sənin oğlannarın olsaydı, boşqabdakı sümüyü dişdərinə elə çəkərdilər ki, sümüyün şakqıltısı eşidilərdi. Özü də sümüyü o ona ataydı, o buna ataydı, bir-birin al qana boyuyardılar. Hayıf sənin kimi adamın yurdu kordu.

## 90-91. ARĞALI

Seyid İmanqulu babam öz uşaqlarına imkan vermirdi ki, rusdarnan yoldaşdıx eləsinlər. Amma Arığ Alı xəlvəti bunlarnan yoldaşdıx eliyir, ruscanı örgənir. Sankpeterburqda çar sarayında onun stolu olur. Qurultaylara dəvət edilir. O vaxdı da Kəlbəcərin bir hissəsi Zəngəzur mahalına, Murov zonası isə İrəvana tabe idi. 1868-ci ildə Arığ Alı deyir ki, Murov zonasını İrəvandan çıxardax Qarabağ xanlığına qatax. Arığ Alı çarın yanında olanda onun razılığını alır. Gedir İrəvan xanlığıynan müqavilə bağlayır. İyirmi doqquz baş cöngə aparır. Orda cöngənin birini kəsillər. Mənim dədəmin babası Bayramalı kişi də müqavilənin mətnini yazan olur. Arığ Alının əmisi uşaqları, qardaşdarı, qohumları – beş nəfər olur, Kəlbəcər ərazisini İrəvan xanlığından ayırıb verillər Qarabağa.

**91.**

Göyçə ərazisində Səməd ağa olur. Səməd ağanın qasidi gəlir çıxır Kəlbəcərə. Dəmirçidamınnan keçib Söyüddüynən gedirmiş Göyçə mahalına. Yolda soruşur ki, bu mal sürüsü kimindi? Deyirlər, Arığ Alının. Bu cöngə sürüsü kimindi? Deyirlər, Arığ Alının. Bütün sürüləri soruşur, axırda görür ki, iki-üç ilxı at otarıllar. Deyir, bala, bu nədi? Deyir, bu ayğır atlarıdı, bu iş atlarıdı, bu dölləknən maydan atlardı. Baxır, baxır, deyir, Səməd ağanın elə adı varmış. Bir dənə göydəmir at minifmiş. Deyir, ay göydəmir at, sən də ol Arığ Alının. Ata bir şallax vurur, verir nökərə. Arığ Alının çobannarı olur. Çobanın biri tez atı minif gəlir Çəpli kəndinə. Deyir ki, ay baba, bir nəfər yolda soruşdu bu at ilxısı kimindi, qoyun sürüsü, mal sürüsü kimindi. Soruşa-soruşa getdi. Dedi, bunun evi tikilsin, bu nəymiş bir belə varı-devləti var. Atdan düşdü, dedi bu at da Arığ Alının olsun. Deyir, bala, gedərsən, məjburu da olsa, o adamı qaytarıf gətirərsən bura.

Bizim kənddən yuxarı Dəmirçidamına qalxan yoxuş var. Yoxuşun ayağında qasid yəhər çiynində yol gedir. Deyir, əmoğlu, qayıt, Arığ Alı çağırır səni. Deyir, yox ey, gedirəm. Deyir, gəl. Gəlməsən, sənin əl-ayağını bağlıyıf alajam atın tərkinə.

Bunu atın tərkinə alır gətirir. Arığ Alı bir erkək kəsdirir, yemək hazırlatdırır, süfrə açdırır. Deyir, a bala, sən kimsən, hardan gəlirsən? Mənim nə qədər at ilxılarım var, neynirəm sənin atını? Deyir, ay baba, mən bu yolu gəldim. Kəlbəcərin girəcəyindən qutaracağına qədər soruşdum ki, bu ilxı kimindi, bu sürü kimindi. Dedilər Arığ Alının. Mən də fikirrəşdim ki, Səməd ağanın adı var, onun heç bu qədər var-devləti yoxdu. Elə düşdüm atdan, dedim belə. Dedi, bala, düşmüsən, əcəb eləmisən. Mənə at lazım deyil. Sənə indi mən dişi at pay verim, erkək at pay verim? Arığ Alı mehtərlərinə deyir ki, bir dənə saz örgənmiş at verin. – Biz tərəfdə atlar üş yaşına qədər xam olur, dörd yaşında onu örgədillər. Yorğa yeriyirsə, minik üçün istifadə edillər, tənbəldirsə, yükə qoşullar. – Bir dənə cavan atın başına yeddi qulaş rəşmə salır, deyir, bu atı da sənə pay verirəm. Bunun yoluna da yeməkdən, azuqədən qoyur,

deyir ki, get Səməd ağana denən ki, Arığ Alı onu görüşə çağırır. Biz qonşu ərazidəyik, dostluq etməliyik. Görüşmək istiyirsə, səni göndərsin, Söyüdlü yaylağında görüşək.

Qasid Arığ Alı verən atı minir, öz atını da quşquna bağlıyır gəlir. Səməd ağa deyir, bu nədi? Başına gələni nağıl eliyir. Deyir, Arığ Alı bir erkək kəsdi, mənə qonaxlıx verdi. Bir dənə də at pay verdi. Siznən də görüşmək istiyir. Deyir, çox gözəl. Get de, gəlsin Söyüdlü yaylağında görüşək. Söyüdlü yaylağında ağır ocax vardı. Həm onlar, həm bizim camahat ora ziyarətə gəlirdi. Orda erkəklər kəsilir, aşıqları gətirillər, Aşıq Ələsgər gəlir, böyük məslic qurullar. Səməd ağaynan Arığ Alının dostluğu belə başlayır.

## 92-95. HACALI YOLDAŞ

Hajalı Yoldaş, Hajı Bəşir, Hajı Mehdi, Kərbalayi Fərəc – bu dörd qardaş bizim Qoturru zonasında addı-sannı adam oluflar. Hajalı Yoldaş sözün deyən, sözünün qiymətini bilən bir kişi olufdu.

Bu dörd qadaşın Sərinoğlu yaylağında alaçıqları vardı. Özləri də həmişə Qarabağ bəylərinin xeyrinə-şərinə gedərmişlər. Bir gün sel gəlir, Tərtər çayı bir ayını gətirif çıxardır Bərdəyə. Qılışdı Savalan bir atdıya kağız verir, deyir bunu Hajalıya çatdırginən. Yazır ki, Hajalı, bir kürdü sel gətirif çıxardıfdı. İndi bilmirıx ki, bunu nətər dəfn eliyax. Hajalı məktubun cavabında yazır ki, siz öz əzizlərinizi nə cür dəfn eliyirsizsə, onu da heylə dəfn eliyin.

### 93.

Qarabağ bəyləri Sarı yerə gələndə deyirlər ki, Hajalı Yoldaş həmişə bizə pay göndərir, gəlin gedax onnan söhbət eliyək. Gəlirlər, erkək kəsilir, plov dəmlənir. Hamı yerdən mitəkkəyə söykənib oturullar. Plov onda mejmahılara çəkilirmiş, paylayan da bir-bir əyilib plovu bəylərin qabağına qoymalıymış. Hajı Bəşir plovu gətirif paylıyır. Bu da mənim kimi yeyif səmrimiş[4] adamdı da. Əyilib

---

[4] Səmrimək – ölçüdən çıxmaq

plovun birini qoyur, ikincini qoyur. Bunnan bir xəta çıxır. Araya sükut çökür. Bizim ağsakqallar danışardı ki, Hajalı Yoldaşın qorxusunnan heş kim gülə bilmir. Plov paylanıf qutarannan sonra bəyin biri deyir ki, Hajalı Yoldaş qağa, biz sənnən dağda, aranda çox olmuşux. Amma soruşmamışıx ki, görək siz neçə qardaşsınız. Deyir ki, bəy sağ olsun, düz buyurursunuz. Biz dörd qardaşıdıx. Hajı Bəşir bir xəta işlədi vejdən[5] çıxdı, hələlik üç qardaş camahat içində xətir-hörmətnən dolanırıx.

**94.**

Qarabağa gedəndə bəyin biri deyir ki, Hajalı Yoldaş, bir toy işimiz var, elə yaxşı gəlmisiniz. Bizim toya gəlin. Hajalı qardaşdarını çağırır yanına. Deyir, biz dörd qardaşıx, dördümüz də gəlmişik bu Qarabağ camahatında toya. O toyda elə hərəkət eləyin ki, bizim adımıza bir xələl gəlməsin. Deyirlər, a qardaş, biz neynədik ki? Deyir, gəlin bir-birimizin ayıbını deyax, o məclisdə təkrar olmasın. Deyir, birinci elə mənim ayıbımı deyin. Qardaşdarı deyir, Hajalı Yoldaş, sən xanlar, bəylər məclisinin yaraşığı bir adamsan, sənin nə eybin olar ki. Deyir, yox, mənim eybim var, siz demirsiniz. Onda mən sizin eybinizi deyim. Deyir, Hajı Bəşir, sən bir söhbət eləməmişdən qabax əlini əlinə vurub şakqanax çəkib gülürsən. Saa baxan adam da bilmir ki, sən nəyə gülürsən. Söhbətini çatdır, əgər gülməlidirsə, gördün camahat gülür, sən də qoşul onlara gülginən. Deyir ki, Hajı Mehdi, sən də durduğun yerdə başını əsdirirsən. Başa papax qoyursan, birdən papax düşər yerə, gədənin biri sənin papağını ayaxlıyar. O zaman gərək sən onu atasan. Həmin adəti tərgit, gördün tərgidə bilmirsən, papağı al əlində saxla, ya yana qoy. Onnan sonra deyir, Kalbay Fərəc, sən də Hajı Bəşirin, Hajı Mehdinin, Hajalı Yoldaşın qardaşısan. Camahat nə bilir ki, sən oğurruxnan məşğulsan. – Oğurruğu da bu özü eləmirmiş, öz adamlarına gördürürmüş. – Özün də Kərbalaya getmisən. Harda bir söhbət başdıyırsa, oğurruxdan danışırsan. Səni tanıyan da, tanımıyan da elə bilir ki,

[5] Vej – cərgə

sən oğurruxnan məşğulsan. Sən də bu məsələni yığışdır. Deyir, mənim eybimi demirsiz, onda mən deyim. Mən də elə bir kopoğluyam ki, əgər kişiliyi olan adam varsa, mən danışanda ağzımdan atmalıdı.

**95.**

Bərdə rayonunda Mator Qılışdısı deyilən kənd var. O kənd o devrdə min qəmərən ev imiş. Qəmərən ev o deməkdi ki, yüz qonağın çayın-çörəyin verməyə qab-qacağı, yüz qonağı yola salmağa yorğan-döşəyi, yüz qonağı yatırtmağa yeri olmalıdı. İndi burda toydu, Hajalı Yoldaşı da dəvət eliyiflər bu toya. Bunun da Qılışdı Savalan addı bir dostu varmış. Savalan gəlif bəylərə deyir ki, ə, hər kəs danışığına fikir versin, bu toyu məyus eləməyin. Bir namərt varmış. Deyir ki, Hajalı Yoldaş, sizin camahatda da qabağa çıxan adam olmadı, Gəncəli Şəfi bəyi sizə pristav qoydular. Deyir, düz deyirsən. Şəfi bəy mənim dostumdu, özü də seyiddi, qeyrətdi-namusdu adamdı. Amma sizin bu Qılışdı camahatı özünə bir minbaşı tapıb qoya bilmədi, Bajıxanım ağanı gətdilər sizə minbaşı qoydular. Siz də belə kişisiniz.

Toyun haqqın verməyə gələndə qardaşdarına deyir ki, sizin işiiz yoxdu. O vaxdı toyun haqqını belə yığırmışdar: bir nəfər məzəkər bir camı alırmış əlinə, gəlirmiş birin qabağına, o bir onnux qızıl qoyurmuş, o birinin qabağına o onnux qızıl atırmış. Cam gələndə Hajalı Yoldaş dörd qardaşın yerinə dörd kisə qızıl atır. Bir kisə də on altı dənə qızıl tuturmuş. Bəylər də bunun qabağında sınmaz axı. Kimin üstündə var, dörd kisə qızıl verir, olmuyanlar da nökərə deyir, qaç, kisəni gətir. Hajalı Yoldaşın hesabına həmin sünnətdə hardasa otuz-qırx kilo qızıl yığılır.

## 96-99. HAXO PƏHLİVAN

Bir gün Haxoynan qardaşı Mehdi Göyçəyə gedillər. Göyçədə böyük toy gedir. Toyda deyillər ki, belə bir işə düşmüşük. Bir dizi aynalı pəhlivan gəlif. Deyir, mana qənim çıxmıyınca toy dayanmıyajax. Onlara güj göstərəniniz olar? Deyillər, olar. O vaxdı bunların

kasıb vaxdıymış. Öküznən getmişmişlər buğda, arpa gətirməyə. Gedillər ki, dizi aynalı pəhlivan meydanın ortasında oynuyur. Haxo canlıymış. Qardaşına deyir ki, mən girsəm ortaya, o pəhlivan məni görüf meydannan çıxajax. Sən gir, onnan güşt tut. O pəhlivanın gözü qızan vaxdı mən sənə deyəjəm çıx, mən özüm girəjəm.

Pəhlivan hərrənir, gəlir, əl atır Mehdinin əlinnən tutur. Dartır, Mehdiyə zor göstərə bilmir. Pəhlivan çəkilir geri. Deyir ki, ya bu ekiztay tayıdı, ya pəhlivan nəslidi. Davam eliyillər. Pəhlivanın gözü qızan vaxdı Haxo girir. Haxoya yerdən deyillər ki, o dizi aynalı pəhlivandı, fənd-feil bilir, səni yıxar. Haxo girən kimi tənbəllik eləmir, bir əliynən bunun boğazınnan tutur, bir əliynən qıçınnan, qaldırır göyə. Deyir, qardaş indi fənd-feilini işdətsin görüm. Ordan atır yerə. Öküzdəri yüklüyüllər, çıxıf gəlillər.

**97.**

Dərələyəzdən bir dizi aynalı pəhlivan Haxobiçən yalnan gəlirmiş. Haxo da yalda ot biçirmiş. Deyir, qardaş, hara gedirsən? Deyir, qardaş, bura Armuddu kəndidi? Deyir, bəli. – “Mən Haxogilə gedirəm”. Deyir, nəyə gedirsən? Deyir, mən gəlmişəm, ya onun adı söylənməlidi, ya da mənim. Deyir, qardaş, axşam düşür. Azdan-küşdən çörəyim də var. Burda bulağın üstündə çörək yeyək, mal ayağına gedəjeyik. Bu gejə mənim qonağım olarsan. Sabah onun qardaşı oğlunun toyudu. Gedərik toya, orda sən onnan güştü tutarsan.

Nəysə, gətirir evə. Yoldaşı Mercahana deyir ki, mənim adımı demə bu qonağın yanında. Qonaq yatanda gejə durur – ev damının da tiri dörd dirəyin üstündə durur, onun üstündə bəlkə tonnarnan ağırrıx var – çiynin verir, tiri qaldırır, pəhlivanın çarığını qoyur dirəyin gəzinə. Deyir ki, bizim toyumuzdu, bu da mənim qonağımdı. Mən bunnan güləşsəm, düz çıxmıyajax. Qoy bunu sınaxdan çıxarım.

Səhər durur, malı Ağbulağın üstüynən aparır. Görürsən ki, Geştəyə yaxın kəndlər deyillər ki, Geştəklilər palıd burandı. Bu söz hardan gəlir? Baxır ki, iki palıd ağacı qoşa qalxıb qayanın dibinnən. Nejə gərməşov burarsan ha, bu, palıd ağacını belə burur. Ona görə də Geştəklilərə palıd buran Geştəkli deyillər. Ağacı burur, aparır

qayanın oyuğuna salır. Deyir, əgər çarığını ordan çıxara bilsə, gətirim buraya. Bunun yoğun tayın mən burmuşam, nazik tayın da o bursa elə pəhlivandı ki, pəhlivandı. Arvadına da deyir ki, Mercahan, sən əlini sal xamıra. Özünü o qədər yubat ki, pəhlivan yuxudan ayılsın. O sənnən başmaxlarını istiyəndə onda adımı de. Denən qadan alım, qonşuda üzdən irax var. Haxo qorxdu ki, çarıxları apara, tirin altına qoyuf. Mənim əlim xamırdadı, dur özün yendir.

Bu, duruf baxır ki, bu tiri qaldıra bilməz. Bu minvalla Haxo gələndə dizi aynalı pəhlivan düşür bunun əlinə-ayağına. Haxo çiynini verif tiri qaldırır, çarığı verir. Deyir, qardaş, indi gəl gedək. Aparır burduğu ağacı buna göstərir ki, mən bunu belə eləmişəm, gör bunun nazik tayını da sən bura bilərsənmi? Bu pəhlivan düşür Haxonun əl-ayağına. Deyir, qardaş, sən Allahın şirisən. Deyir, Dərələyəzdən bura gəlmisən. Gedəjeyik toya, mən də çıxajam qabağına, amma sən mana üstün gələssən, gedərsən Dərələyəzdə adın söylənər. Deyir, qardaş, mən o işi tuta bilmərəm. Neynir, pəhlivan çıxmır. Kalba Haxo deyir ki, mən bu qəmər maydanı bağışdıyajam sənə, sən piyada getmə. Get öz yerində denən ki, mən Haxonu yıxdım, bunu da aldım. Deyir, qardaş, mən də mərdəm. Atı qəbul eliyəjəm, amma o adı qəbul eləmiyəjəm.

**98.**

Geştək kəndində iki nəfər həddindən artıq güclü pəhlivan olub. Onlardan birinin adı Haxo, digərinin adı isə Nəbi olub.

Haxo pəhlivan həm bədəncə böyük, cüssəli, həm də çox qüvvətli olub. Ancaq varlı olmayıb. Haxonun qardaşı isə çox varlı-dövləti olub, qış aylarında Məşədi Xələf binəsində mal saxlıyarmış. Bir gün durub baxır ki, tozax qar yağıb. Tövləyə iri ləpirli bir nəfər gəlib və qayıdıb. Tövləyə girib baxır ki, dörd yaşında bir cöngə yoxdur, kimsə aparıb. Ancaq qarda insan ləpirindən başqa heş bir iz yoxdur. Bu izlə Geştəyə tərəf gəlirlər. Yolun qırağındakı bulağa çatanda görüllər ki, bulağın hər iki tərəfinə cöngənin ayaq izləri düşüb. Bunu görən qardaşı bilir ki, cöngəni Haxo çiynində aparıb. Burada isə

əyilib su içəndə izi düşüb. Qardaşı gəlib görür ki, Haxo cöngəni kəsib, doğrayıb qazanda bişirir. Qardaşı soruşanda Haxo deyir:

– Bildim ki, istəyəndə verməyəcəksən, ona görə də gizlin gətirdim. Uşaqlar çoxdandı ətə tamarzı idi.

Qardaşı "sən ki beş kilometr yolu o yekəlikdə cöngəni çiynində gətirmisən, halal xoşun olsun" deyərək oturub özü də ətdən yeyir. Sonra isə dinməzcə çıxıb gedir.

**99.**

Haxonun sədası hər tərəfə yayılıbmış. Bir gün yenə bir pəhlivan deyir ki, gedib Haxo ilə güləşəcəm. Bu məqsədlə Geştəyə gəlir. Haxogildə qonaq olur. Məqsədini açıb deyəndə Haxo deyir, çox xoş gəlmisən. Yemək ye, dincəl, sabah gücümüzü sınıyarıx. Haxo gələn pəhləvanı pisikdirib yola salmaq istəmir. Bir süfrədə çörək yediyinə görə ona yazığı gəlir. Pəhləvana deyir, kəndin qabağında olan meşənin içində yolayrıcı var. Yolun qırağında bir palıd ağacı var. Onun iki haçasından yoğun tayını əlimlə burub ucunu yerə sancmışam, nazik tayı durur. Əgər həmin tayı mənim kimi burub yerə sancsan, gəl güləşək. Əgər bacarmasan elə ordan da getsən yaxşıdır.

Haxo ilə razılaşan pəhləvan gəlib görür ki, palıd tirini elə burub yerə sancıb ki, elə bil çubuğu burub. İnana bilmir ki, bu yoğunluqda tiri insan bura bilər. Pəhləvan dinməz-söyləməz ordan çıxır gedir.

## 100-102. NƏBİ PƏHLİVAN

Nəbi də Haxo kimi olufdu. Dayım deyirdi ki, Ələsgər mənə toy eliyirdi. Toy gedir, Nəbi əmim də qojalıf. Deyir, Nəbi əmim durdu oynadı. Nəbi də oynuyanda şişirmiş. Mejmaha vardı o vaxdı. Qojamın adı Güləbətin idi. Deyir, Məşədi Güləbətin, sənəhlərin ikisin də doldur, gətir qoy mejmahıya. Qojam iki dənə sənəyi doldurur, gətirir qoyur mejmahıya. Nəbi oynuyur, oynuyur, gəlib bir əlli mejmahının qırağınnan tutur, əyir sənəyin birinnən içir, sonra da o birinnən içir, qaytarır yerə qoyur. Deyir, içənnən sonra Nəbi durdu oynadı. Məşədi Salman babam Kalbalı xanın oğludu. Kalbalı xan da

Behbudalının nəvəsidi. Babam deyir, mən Nəbiynən güləşəjəm. Deyillər, a kişi, Nəbi qızıf, ayna dur. Deyir, nətər? İki əl onda, iki əl də məndə. Güləjəm. Deyir ki, əmi, mən sənnən güləşmağ istiyirəm. Deyir, dedi ki, Məşədi Salman, qızışıram, özümü bilmirəm. Əlimə keçəssən səni öldürəjəm. Çıx get, nə istiyirsən mənnən. Deyir, iki əl səndə, iki əl məndə. Deyir, a kişi, ged o yana. Deyir, olmaz. Deyir, gəl. Aşığa deyir, çal. Babam, deyir, bir də onda gördüm ki, məni aldı qoltuğuna. Qojam baxır ki, Nəbi bunu öldürür. Tez nəmər götürür cumur ki, Nəbi əmi, öldürmə. Nəməri alır, babamı buraxır.

**101.**

Kəlbəcər çaylarının dəlilik eliyən vaxdı olur. Dağların qarı əriyif çayların suyunu artıranda iki qardaş – Geştəkli Nəbiynən Kalbalayı Ağaxan Çəpərxanadan gəlirdilər. Kalbalayı Ağaxan o vaxdı yüzbaşıymış. Vəzifəli olduğundan ona yaxşı kəllə qənd vermiş-mişdər, atın tərkinə bağlamışmış. Onun kəhər atı elə at idi ki, səhər Kəlbəcərdə minirmiş, axşama Çəpərxanada olurmuş. Həmin atnan Çəpərxanadan gəlirmiş. Kalbalayı Ağaxan qardaşına qıymır. Deyir, sən gözdə, mən atnan vurum çayı keçim. Əgər keçə bilərəmsə gələrsən, keçə bilmərəmsə, elə deyil ki, Dəli Tərtərin, Dəli Tutqunun sana güjü çata. Qoymarsan axam. Atı vurur, çay onu aparır. Kalbalayı Ağaxanı çıxardanda – axı var insan üçün tamahdı da, – Nəbi atı da tutur, Kalbalayı Ağaxanı da tutur, qəndi yığdığı xurcun da qırılıf keçmişmiş ayağına. Suyun ortasında deyir ki, Kalbalayı Ağaxan, de görüm atını çıxardım, səni çıxardım, yoxsa xurcununu? Deyir ki, özün bilərsən. Nəbi özünü atır, atı və qardaşını qəndnən bərabər salamat çıxardır, amma qənd ələ gəlmir. Suda islanmışdı.

Nəhayət, vaxt-vədə gəlir, Kalbalayı Ağaxan xəstələnir, ölüm ayağındaymış. Nəbi də içəri girir, fırranır çıxır. Ağaxan deyir:

– Ə Nəbi, Nəbi, niyə çıxdın? Ə, niyə çıxdın?

Qayıdıf deyir ki, məni niyə dağlıyırsan? Tutqu çayı döyül ki, qardaşdığımı göstərəm. Buna mənim zorum çatmır.

## 102.

Nəbinin Şəkər addı qızı oluf, Göyçə mahalına ərə gedir. Bu da atası kimi qoldan qüvvəli adamdı. Bunu da həmin kənddə sınamaq qərarına gəlillər. Səhər-səhər dəyirmanda növbə tuturdular. Bu, dağarcıxda taxıl gətirir dəyirmana üyütməyə. Kişilər də bunu sınamaq üçün buna qəsdən növbə vermillər. Bu ajıxlanır, gedir, dəyirman işlədiyi yerdə onun daşını tutur saxlıyır. Sonra dəyirmanın daşını qaldırır, altını silirlər, yenidən qaytarıf qoyur yerinə.

## 103. SLO PƏHLİVAN

Milli kəndini Vedi mahalından köçüb gələnlər salıb. Milli kəndində Süleyman adında həddən artıq qoçaq və cəld bir adam olub. Ona cəldliyinə görə camahat içində Dəli Slo deyirmişlər. O qədər cəld adam olub ki, onu at ilə qovub tutmaq mümkün deyilmiş. Xam atların sıçrayıb üstünə minərmiş, at nə qədər çalışsa da, ondan yaxa qurtara bilməzmiş. Axırda yorularaq Sloya təslim olarmış.

Bir gün Slo öz yaxın adamlarına deyir ki, Geştəkdə Haxo pəhləvanla güləşəcəyəm. Slonun yaxın adamları Haxonun güclü pəhlivan olduğunu deyib onu fikrindən daşındırmağa çalışırlar. Slo heç kəsi eşitmir. Geştək kəndinə gəlib Haxonun evinə gedir. Əvvəldən bir-birilərini yaxşı tanıyırmışlar. Salamlaşdıqdan sonra Haxo onun nə iş üçün gəldiyini soruşanda Slo deyir, gəlmişəm sənlə sınaşam. Görək sən qüvvətlisən, yoxsa mən. Haxo bir qədər gülür. Bilir ki, Slonun gücü ona tay deyil. Bir yerdə çörək yeyəndən sonra deyir, Slo, gələsən sənə bir məsləhət edim. Meşədə ağac tir kəsmişəm. Yeri rahat olmadığına görə öküzün ora getməsi mümkün deyil. İndi gəl gedək bir ucundan sən götür, bir ucundan da mən. Rahat yerə çıxaraq, öküzə qoşaq gətirək. Əgər mənimlə o ağacı götürə bilsən, bilərəm ki, sən məndən güclüsən.

Slo razılaşır. Hər ikisi meşəyə gəlir. Slo görür ki, uzunluğu on, eni iki metrə yaxın olan bu ağacın ağırlığı tondan artıqdı. Haxo ağacı nazik başını qaldırıb Slonun çiyninə qoyur, yoğun başını isə özü qaldırıb çiyninə qoyur. Beləliklə ağacı rahat yerə çıxarırlar.

Amma bundan sonra Slo möhkəm xəstələnir, bir aya kimi yorğan-döşəkdə yatır. Bundan sonra Slo bilir ki, Pəhləvan Haxoya heç kəsin gücü çatmaz.

## 104. KEÇƏL BAXIŞ

Keçəl Baxışın cöngələri ətrafda məşhur idi. O vaxt yüz cöngə alana on cöngə artıx verirmişdər. Ona şişdik deyirmişdər. Beş-on söödayar gəlir. Bunun da malı çayın qırağında högüldəşif otduyurmuş. Heyvanı nökərə umud olmurmuş, özü qırağında olurmuş. Söödayarlar gəlif deyillər, salam-məlöykü. Deyir, əlöykü-salam. Keçəl Baxış elə geyirmiş, nökərdən seçilmirmiş. Deyillər, biz Keçəl Baxışın yanına gəlmişik, onnan cöngə alajeyih. Onu harda tapa bilərik? Deyir, gedin evə, harda olsa gələr. Nökərrər bunları aparır evə. Alt-üst evi vardı. Bunlar elə soruşullar Baxış niyə gəlmədi. Axşam Baxış gəlir, heyvanı rahatdıyannan sonra içəri girir. Görüllər heyvanı otaran həmən pamuxlu[6] kişi girdi içəri. Deyillər, ay kişi, biz axı Baxış kişidən ötrü gəlmişik. Deyir, gələr. Bu, pamuxlusun çıxarır, yuyunur-eliyir, gəlir oturur. Deyir, çörək yeyin, gələr. Deyir, yox ey, bizi mətləbdən halı elə, sonra yeyərik. Deyir, Baxış kişi mənəm. Nədən ötrü gəlmisiz? Deyir, əşi, biz bilsəydik sən bu libasdasan sənin yanına gəlməzdik. Deyir, yox, düz eləmirsiz. Mən o heyvanın içində özüm olmasam, özüm rəhbərlik eləməsəm, sən Gəncədən onun sonrağına gəlməzsən. Baxış mənəm, nə deyirsiz deyin. Səhər gedillər heyvanı otardığı yerə. Yüz cöngə verif pulun alannan sonra on cöngə də ayırır. Deyir, bu da sizin şişdiyiniz. Götürün gedin.

## 105. KƏRBƏLAYİ ŞƏLDİ

Bir gün kəndə güləşməyə pəhlivan gəlir. Gəlir Kəlba Şəldinin yanına ki, səni güjdü deyillər, gəlmişəm sənnən güləşəm. Deyir ki, nolar, sabah güləşərik. Pəhlivanı aparır evinə, axşam buna bir

---

[6] Pamuxlu – sırıxlı

qonaqlıq verir. Yer salırlar, yatır. Pəhlivanın da ayağında çarıq vardı. Kalba Şəldi obaşdannan durur, çiyninnən tiri qaldırır, pəhlivanın çarğını qoyur altına. Arvada deyir ki, sabah çarığını gəzəndə denən qoyuf tirin altına. Pəhlivan səhər durur. Çarığını soruşanda arvad deyir ki, kişi qoyuf tirin altına. Gedir nəkqədər eliyir tiri qaldıra bilmir. Deyir:

– Yox ey, Kəlba Şəldiyə denən gəlsin ayaqqabımı versin, mən onnan güləşə bilmərəm.

## 106-107. VERGİLİ ADAMLAR

Göyçənin Çaxırrı kəndi varıdı. Orda Hajı Nağı vardı. Mən onun oğlunu gördüm. Yara çıxanda, çiban çıxanda, sınığa, qırığa kömək eliyirdi. Oğlu deyir ki, babamız danışırdı ki, iki dənə cavan oğlan gəlir o kəndə. Hajı Nağını tapıllar. O da cavan oğlanmış da. Deyillər ki, oğlan, sən özünnən bir dənə qəsdrulka[7] götür, bir az odun götür, gedəjeyih o çınqıla, orda balıx tutajeyih. Bu deyir, balıx suda olar, çınqıllıxda balıx nə gəzir.

Nəysə, deyir, gedif baxım da, görək yalandı, gerçəhdi. Buna da deyiflər ki, sana bir belə pul verəjeyih. Nağı da bunlarnan gedir.

Göyçə camahatı o çınqıllığın adını bilir, bizdən uzağ olduğuna görə mən deyə bilmirəm. O çınqılın bir qırağında gedif oturullar. Ciblərinnən bir kisə yanmış kül çıxardıf ojax qəliyillər. Hərdənbir kisədəki məmulatdan atır ojağa, nəsə oxuyur və çağırır:

– Ey filankəs, gəl, gəl.

Çox əzab-əziyyətdən sonra birdən bir ağ ilan çıxır. Bir yol kruq vurur, çıxır daşın üstündə fıştırıx çalır. Ağ ilan çıxanda bunlar həmən sinini qoyur ortaya, bu küldən onun içinə tökür. Bir də oxuyanda ilan gəlir, qıvrılır tavanın içində yatır. Yatanda biri makqaşnan ilanın başınnan tutur, bir qarış başınnan bir qarış da quyruğunnan kəsir. Nağıya deyir:

– Oranı qaz, basdır.

---

[7] Qəsdrulka – qazan

Bunları basdırır yerə. İlanı tikə-tikə doğruyullar. İlanın ətini yeyillər. Nağı baxır ki, bunlar ilanın ətini elə yeyir... Deyir, yəqin yeyilir ki, yeyillər da. Bu qabın yağınnan bir-iki qırıx-quruğu qalır. Deyillər, biz daha yeyə bilmirik, gəl ala bunu da sən ye. Hajı Nağı onun yağını, bir-iki qırıx-qurux tikəsini yeyifdi. Onnan sonra ona elm verildi. İlanın ətini yeyən oğlannar bayaxdan sərbəst danışırdı, gülürdü, indi içki içən adam kimi gözləri alajalanır, özünnən çıxır, göyə tullanıllar. O çiçəyə cumullar, bu çiçəyə cumullar, çiçək yığıllar. Hajı Nağı da bir az fikirrəşif ki, görüm bu çiçəyi neyniyillər. Görür çiçəkləri yumurruyuf, bağlıyıf, meşoğa yığıllar. Deməli, ilanın ətini yeyənnən sonra Hajı Nağıya da heylə haqq vergisi verilmişdi. O bütün yaraları, zobları, sınıxları bitkilərnən müalicə eliyirdi. Dillərdə söylənən həkim olmuşdu.

**107.**

Bizim kənddə Həsənqulu kişi olur. Altmış dörd yaşında buna vergi verilir. Her-herdə Bulaxlar kəndində Şərəbanu adında təzə toyu olan gəlin buna buta verilir. Çilənin oğlan çağıdı. Durur gejəynən çıxır evdən ki, getsin Dərələyəz mahalına. Oğlannarı oyanır deyir ki, ata, nə iş görürsən? Deyir, Dərələyəzə gedirəm. – Təndir kosavı olurdu. Təndiri qalıyırdılar, kosavnan qarışdırırdılar. – Kosavı saz yerinə sinəsinə basıb Əlinin şəninə şeirlər deyirdi. Bir gün bu kişini mundarrıyıllar. Öz sidiyini çaya qatıf ona içirdillər. Kişinin səbbi alınır[8].

Aradan iyirmi gün keçir. Deməli, ayda bir dəfə insanın bütün orqanizması dəyişir. Bu dəyişif qutaranda sağlam qana gələndə bir də buna vergi verilir. Dərələyəznən bizim aramız əlli yeddi kilometr idi. Siçan çörəyə dəyməsin deyə çörəyi xurcuna qoyuf xananın üstünə aşırardılar. Gejə durur, çarıxlarını geymağa imkanı olmur, tələsir. Çarıxları qoyur xurcunun gözünə, xurcunu da atır çiynınə, ayaxyalın on səkgiz kilometr qarda yol gedir. Orda Sarı bulax vardı, Molla Bayramlı kəndinin örüş yeri idi. Həmin örüşün axırında əlinin birini o taya qoyur, birini bu taya, bulaxdan doyunca

[8] Səbbi alınır – hirsi alınır

su içir. Başın qaldıranda baxır ki, bir ayı oturuf qarın üstündə buna baxır. Ağajı götürür başdıyır çalıb-çağırmağa.

Bu işdəri quran qulların quludu,
Bu sözü deyən Hasanquludu.

Bu əlin xurcuna salır ki, iki bütöv, bir para çörək var. Bunun birini atır, ayı çörəyi göydə tutub udur. İkincisin atır, paranı özünə saxlıyır. Baxır ki, çarıxları da xurcundadı. On səkgiz kilometr qarın içində ayaxyalın gəlir, amma soyuğu hiss eləmir.

Dərələyəz mahalında həmən evin qonşusunda bir arvad olurmuş. Gəlin gəlif ona deyir ki, xala, buraya Hasanqulu addı bir kişi gələjəh, nə hörmət eləsən ona elə, mən əvəzin verəjəm. O mənim adıma gəlir. Bu da bunu dannıyır ki, təzə toyun oluf, ərin-filan.

Sözümün canı ondadır ki, səhər gün qalxanda camahat malın örüşə çıxardan vəxti çatır oraya. Görür evin bajasınnan tüstü çıxır. Deyir, o evə gedəjəm. Gəlir həmin arvada qonax olur. Arvad gəlini çağırır, bunlar ikisi bir-biriynən görüşür. Bilir ki, bu evlənif, özünün də altmış dörd yaşı var. Deyir ki, xanım, mənə sənnən, sənə mənnən xeyir yoxdu. Amma gəl bir iş eliyax. Qoy barmağını qanadım, qanın sümürüm. Deyir, onda ikimiz də eliyax. İynəynən barmağların başın dəlir, gəlin kişinin barmağının qanın sümürür, kişi də arvadın barmağının qanın sümürür. Deyir, bir molla çağırtdırax, olax qardaş-bajı. Amma bu işi gizdətmiyax. Gəlinin qayınatası rəhmdil adam oluf. Deyif, a kişi, bunu verən Allahdı. Kəlbəcərin dağıynan Dərələyəz mahalının arasında Sarı yer deyilən yerdə qışda sərçədən başqa heş nə görükmür. Sən bu dağı ki, bu qiyamatlı gündə aşıf gəlmisən, səni gətirən gətirif. Nə sən bizi tanımırsan, nə biz səni. İndi gəl bir molla çağırax, bu gəlinin kəbinin geri oxusun, mən oğluma ayrı bir qız alım. Gəlini də verax sana. Bu da türkəçarə adamdı. Deyir, evdə iki oğlum, arvadım var. Bunu hara aparıram. Mana lazım döyül. Olax qardaş-bajı. Orda Molla Cəfər varmış. Bunu çağırıllar. Mola Cəfər oxuyur, bunları siğə qardaş-bajı eliyir. Kişini də iki ay orda saxlıyıllar, martın axırında gətirillər Daşkənd kəndinə. Bir ay orda Qoşnəli məəllimgildə qalır, qar yatannan sonra oğlanları gedif aşırır Kəlbəcərə.

## 108. AĞSAQQAL MƏSLƏHƏTİ

Bizim yerdə çoxlu qayalar, daşdar vardı. Özü də bizdə çöl heyvannarı çox olur. Bir dəstə adam Ala qayaya ova gedillər. Gedəndə bir nişannı oğlan da gedir. Gedillər çıxıllar Ala qayanın başına. Bilillər ov hardadı, atıllar-eliyillər. Hamı düşür, bu oğlan çıxdığı yerdən düşə bilmir. Nəkqədər eliyillər, hamı düşür gəlir evə, bu oğlan qalır orda. Üş günnən, dörd günnən sonra da bunun toyudu. Alaçıx çubuğuna çörəyi, suyu bağlıyıllar, qaldırıllar veril-lər, orda yeyir. Nəkqədər deyillər, oğlan gəlir, çıxdığı yerdən düşə bilmir. Evdə də bir ağsakqal kişi varmış, gözü də kormuş, qulağı da karmış. Amma görür ki, burda nəysə ağlaşma var. Deyir:

– Məni də başa salın, görüm bu nə işdi.

Deyillər:

– Əşi, sən nə bilərsən.

Deyir:

– Yox da, deyin.

Deyillər:

– Sənin nəvən gedif qalıf Ala qayanın başında, toyuna da az qalıf. Qalmışıx belə.

Deyir:

– Mən bir şey deyim, onu eliyin.

Deyir ki, onun nişannısını aparın, özüynən də çörək aparsın. Nişannısı qayanın aşağısında otursun, desin "çörəyi gəl burda ye, mən sənə çörək çıxardan deyiləm". Kişi deyəni eliyillər. Nişannısı gedir qayanın dibində oturur (Söyləyicinin gözləri dolur - top). Onun bir kəlmə sözüynən gədə nətər cürət komalıyırsa, ordan düşür gəlir. Bir də görüllər nişannısıynan əl-ələ verib gəlir. Onnan sonra deyillər, doğurdan, ağsakqal sözü, nəsihəti çox dəyərlidi.

## 109. ÜRƏK DOSTU

Biri özünə ürək dostu axtarır. Neçə-neçə insannarı dəvət eliyir ki, döşünə yatan təmiz-sədaqətli bir adamnan dostluq eləsin. Oturub yeyiv-içillər. Dəvət olunan adam bilir də bunları nə məqsədə çağırıf. Biri duruf deyir, gedirəm, arzu eliyirəm həmişə sənin evinə xeyir işə gələm. Belə deyəndə deyir, get, sənnən dost olmaz. Neçəsini belə-belə yola salır. Buna deyillər, hamı xoş söz deyir, yaxşı danışır, sən niyə onlardan birini dost seçmirsən? Deyir, yox, mənim ürək sözümü deyən olmuyuf. Nəhayət, bir cavan kasıb oğlan gəlir. Oturuf yeyillər, içillər. Deyir ki, ey dost, bu badəni o sağlığa qaldırıram ki, Allah-taala sənin xeyrin olanda, şərin olanda məni sənin yanında üzüqara çıxartmasın. Arzu eliyirəm ki, bu evin xeyri də, şəri də mənsiz keçməsin. Belə deyəndə deyir otur, sən mənim dostumsan. Qəbul elədim dostluğa. Deyillər, a kişi, axı bu pis danışdı. O biriləri deyir bura xeyir işə gəlim, amma bu deyir şər işinə də gəlim. Deyir, mənə o dost lazımdı ki, xoş günümdə də, pis günümdə də mənim yanımda olsun. Bax bu mən deyən adamdı.

## 110. CAMIŞIN ƏMƏLİ

Bir rəvayət danışırdılar, bizim öz kəndimizdə olan şeydi. Bizim yaylağımız qonşu kənddə olurdu, yayda gamışlar ora gedirdi. Bizim kənddə Sarı kişinin beş-on gamışı varmış. O vaxtı xırman döyürdülər, samanı yığırdılar mərəyin içinə heyvan yeməkdən ötrü. Kişi hər səhər görür ki, günü günnən bunun samanı azalır. Beş gün gözdüyür, on gün gözdüyür, görür saman yarısınnan qalıb. Barmağın yarır, duz doldurur. Deyir, görüm bu nə sirdi, kimdi mənim samanımı aparan. Bürünür yapıncıya, gözdüyür. Bizim kənddə də Sarı kişinin beş-on gamışı varmış. Gamışı qatır dama, o vaxtı qapının ortasınnan qatma düzəldirdilər, ortasınnan da ağac keçirdirdilər. Bu kişi görür kü, o tərəfdən gurhagur səs gəlir. Özün vurur yuxuluğa. Görür beş on dənə gamış gəlir kəndin ayağınnan. Gamışın içində bir böyüyü vardı. Gəldi buynuzuynan atmacanı çıxartdı,

girdi içəri. Samannan yeyif doyannan sonrasına bir-bir hamı çıxdı çölə, – and olsun Allaha bu olan işdi, bunu bizə danışıflar, – buynuzuynan qapının qatmasın vurdu yerinə, gamışdar başdadı getməyə. Atı yəhərriyir, gamışdarın dalıycan gedir. Deyir, qoy görək hara gedir. O kəndnən də bizim aramız bir kilometr olar. Görür gənə həmən başcı gamış buynuzuynan tövlənin qapısın aşdı, girdilər içəri. Gamış yiyəsinin də xəbəri yoxdu, amma görürmüş gamış həmişə tox olur, boşduyan kimi gedif su içir. – "Salam-məlöykü". Kişinin də adı Əmirquluymuş. – "Ə, Əmirqulu, səhər-səhər xeyir ola". Deyir, elə-belə. Çay-zad içənnən sonra deyir, Sarı kişi, sənin neçə gamışın var? Deyir, on gamışdı. Deyir, Sarı kişi, bir aydı mənim başıma bir hadisə gəlir. Mənim bir samannığım var, yarıdan keçifdi. O qonşu qalmıyıf onnan qannı olmuyam. Bu gejə barmağımı yarıf duz basdım. Sabah ertə baxdım sənin on dənə gamışın gejə gəlir mənim potuğamın [9] qapısın açır, samanı yeyir. İndi də dalına düşüf gəlmişəm. – "Ə, – deyir, – nə danışırsan?" Girillər ki, gamışdar gəvşək vurur. Atalar misalıdı, deyir gamışın əməli bütün heyvannardan çox olur. Görürsən bəzi arvatdar haqda deyillər filankəs gamış əməllidi. Altdan-alta bir iş görən adama gamış əməlli deyillər.

## 111. QİSMƏT HAQQINDA

Babam qismət barədə bir dənə rəvayət danışırdı. Deyirdi ki, bir ərəb atnan gedir Yəmənə. Bu, həm də imkannı adam olur. Atı nallatmax lazım olur. Atı nalladanda atın ayağını tutmax lazımdı axı. Bu da əlində qızıl oynadırmış. Atın ayağını tutmax lazım gələndə yəqin cibi yoxuymuş, qızılı götürüf atır ağzına. Atın ayağını tutur, nalbənd də atı nallıyıf qutarır. Qayıdıf gələndə yolda yadına düşür ki, bunun qızılı vardı, qızıl nejoldu. Ora qızıl, bura qızıl, qızılı tapmır. Qayıdıf gəlir.

Vaxt gəlir atın ayağını bir də nallamax lazım olur. Nallayanda gərək köhnə nalları sökəsən axı. Sökəndə baxır ki, atın ayağının

---

[9] Potuğa – mərək, ot yığılan yer

içində yarığ olur, qızıl bunun ağzınnan düşüf o yarığa; nə bunu nalbənd görmüyüf, nə də özü. Atın nalını sökəndə qızıl ordan çıxır. Orda kişi deyir ki,

Qismətdə olmasa, düşər dəhannan
Əgər qismət olsa, gələr Yəmənnən.

## 112. NƏBİYƏ DƏ BÖ, ALLAHVERDİYƏ DƏ BÖ?

Dəmirçidamınnan Feyzallardan, bir də Boz Məmmədlilərdən üç nəfər – Potaş, Kələş və Alı qoyun otarırmış. Bunlar gəlif çıxıllar Nəbi kişinin yerinə. Nəbi babamız da yeddi qardaşın ən kiçiyi olur, boydan çox xırda olur. Bir az da qorxax olur. Yeddi qardaşın içində ən qorxağı olur. Bu oduna gedəndə Dəmirçidamının cavanları deyir ki, ay əmi, oduna kömək eliyəkmi? Deyir, hə, bala, nolar. Çox sağ olun. Nəbi odunu doğruyur, gətirəndə bunlar qaratikannan şişdiyif öküzə bö eliyillər. Bö eliyəndə öküz qaçır.

Bir gün, iki gün, Nəbi odun gətirə bilmir. Kalbay Hakverdi babam deyir ki, ay boynu yerə soxum. Öküz niyə boş gəlir? Deyir, ay lələ, demə, demə. Dəmirçidamınnan miskinnilərin zinaları mənə imkan vermillər öküzü yüklüyəm. – "Ədə, kimlərdi? Deyir, Potaşnan, Kələş. Deyir, yaxşı, papağı mənə ver. Bunun papağını qoyur başına, sifətdən də bir-birinə oxşuyur. Öküzə belə qınılır, cibində də armud qaxı aparır. Gedir çıxır. Deyillər, əmi, kömək eliyəkmi? Deyir, hə, qadanızı alım. Bu dəfə imkan verin öküzü yüklüyüm, qoymuyun öküz qaça. Sizə qax da gətirmişəm. Bunlar qaratikanı şişdiyirlər. Öküzə yaxınnaşıllar ki, bö eliyərlər, öküzü soncuxladarlar. Bu kişi özünnən iki çatı aparır, çatıları atır Potaşnan Kələşin başına. Alı kişi qaçır. Bu cavannarın ikisini də ayağınnan asır armuddan. Malakan baltasıynan odunu doğruyur, qaldırır şələni öküzün belinə qoyur, çatını ayağına doluyur. Bunların ikişini də əlinnən bağlıyır öküzün quşqununa. Öküzü qatır qabağına. Öküzə ho deyir, gəlir qapıya. Qoyunu da ürküdür çaydan addadır. Səsləyir ki, qoyunuzun qabağına gəlin. Deyir, allahsızlar, Nəbiyə də bö, Kalba Hakverdiyə də bö. Şallağı çəkir bunların belinə vurur. Bunlar

yalvarır, ay baba, səyf eləmişik. Deyir, yox, sizi ulağın axuruna bağlıyajam. Bir axşam siz orda qalmalısız, bilməlisiz qoja kişini narahat etmək nə deməkdi. Sonra valideynləri gəlib uşaqları aparır. Onnan bizə misal qalır: Nəbiyə də bö, Kalba Hakverdiyə də bö? Yəni məni başqasıynan dəyişik salma. Mən Nəbi deyiləm.

## 113. MƏN ÇƏKƏN KÖŞƏDİRSƏ, QIRILMAZ

İstisu zonasında yaxşı çarıx tikən oluf. Kəndin cavannarı gedir çaşır yığmağa, bu kişinin oğlu da qoşuluv onlara gedir. Çaşır yığdığı yerdə, bunun ayağı sürüçür qayadan asılı qalır. Elə qalır ki, ordan qutarsa, xış-xış olar. Deyirlər ki, asılı qalan kimdi? Deyirlər ki, filankəsdi. Kişi sürətnən gedir. Deyirlər:

– Nətər asılı qalıf?

Deyir:

– Köşə ilişifdi arduş ağacına, asılı qalıfdı.

Kişi sürətini azaldır, lap yavaş gedir. Deyir:

– A kişi, oğlun asılı qalıb ey.

Kişi deyir:

– Arxeyin gedin, mən çəkdiyim köşədisə, qırılmaz.

## 114. AĞDABAN FACİƏSİ

Qabaxkı öydə biz olurdux, dalkı öydə də baldızımnan uşaqları olurdu. Obaşdan idi. Mənim yoldaşım da həmən gejə posda getmişdi. Yerli adam da, əsgər də hamısı gedif yalda posta dururdu. Yalın o üzü erməni idi, bəri üzü biz idik. Gördüm ki, bir güllə atıldı. Baldızımgil də ermənininin əlinnən çıxmışdı, bunlara bələd idi. Çölə çıxdı dedi, Həzrət Abbas haqqı, erməni gəldi. Dedim, aaz, sən nə danışırsan, uşaqlar postdadı. Gördüm ki, yal tutuldu. Ayağı tutan hamı qaçdı. Mən də qızımnan öyün o tərəfinə qaçırdıx, baxırdıx görək Surxay (söyləyicinin əri – top.) gəlirmi. Gördüm ki, hardansa Surxayın səsi gəldi, dedi ki, ay boynuu yerə soxum, qaçın. Qoyun erməni sizi öldürsün, amma əsir almasın. Öyün küncünnən belə baxdım ki, biznən ermənin arası yüzcə metrdi. Evin üst tərəfinnən ermənin tankı da sallandı, əsgərlər də töküldü. Dedim ki, vay, erməni gəldi. Baldızımgil bilirdi, bunlar zəhəri yalamışdı. Bunlar qaşdılar, qıznan ikimiz qalmışdıx. Evdə də qoşalülə vardı, ayrı tüfəhlər vardı. Birini də əlimə ala bilmədim.

Kəndi gejə üzük qaşı kimi mühasirəyə alıflar. İsfəndiyar, İrayət görür ki, erməni çatdı, özlərini dərəyə atırlar. Qorxmaza deyirlər ki, ə, sən də özünü dərəyə tulla. Deyir, ə, kişisiniz, ermənin qabağınnan oğul qaçar? Gəlin döyüşək. Öləndə də torpağ uğrunda öləjeyik. Bunlar üçü də girillər daşın dalına, başdıyıllar erməniynən döyüşməyə. İsfəndiyar gülləni atanda qardaşım oğlu Qorxmaz deyir ki, sən öl, bir erməni öldü. Erməni öldü deyəndə ermənilər bunları mühasirəyə alır. Bunlar daşın dalında duruflarmış. Əgər o üç oğlan orda atışmaseydi, and olsun allaha, Qorxmazın şəhid canı üçün ordan bir insan sağ çıxmıyajehdi. Bunlar burda erməniynən atışmada gördük bizim evin qabağındakı xırmandan atəş açıldı. Çıxdım qapıya, gördüm aftamatın gülləsi həyətdə paltar məftilini qırdı saldı. Qızım çığırdı ki, mama, görmürsən, sənə atırlar. O biri qardaşım

oğlu Abbasəligilin öyüynən qabax-qabağadı. Baxdım ki, erməni töküldü bunların evini aldı. Çığırdım ki, Abbasəli, özünüzü dərəyə tökün, erməni doldu öyə. Ordan da Sadıx dayımgilə çığırdım ki, onların öyü də meşənin içində idi, erməni sizi tutdu. Sadıx dayımgilin qapısını erməni kəsdi. Bizim öy qanşardı deyə bunları görürəm. Gördüm ki, bunlar pəncərədən töküldülər dərəyə. Yenə deyirəm, bu üç oğlan əgər atışmaya başlıyıf erməninin qabağını kəsməsəydilər, Ağdabannan bir nəfər olsun sağ çıxmıyajaxdı. Aprelin səkkizi saat altıda çox adam ayaxyalın, anabülbül, bu qayda qaşdıx. Əjdər müəllimin arvadıynan ikimiz bir qaçırdıx.

Öyümüzün yanı düzdü. Qızı qabağa tutdum, dedim ya Həzrət Abbas, səni çağırmışam. Bu qız uşağıdı, bizi erməninin əlinə verme. Bəlkə mana yüz aftamat gülləsi atdılar. Qız dedi, mama, ona bax ey, donuna dəyif tökülür güllə. Dərəyə düşdüx qaşdıx. Biz meşəynən getdik. Kim ki yolnan getmişdi, onların qabağını kəsif hamısını qırmışdılar. Meşəynən bircə qırıx cığır vardı, oraynan getdik. Kürəyimi ağaca söykəmişdim, ağacdan belə-belə budaxlar düşürdü. Kamilənin qolunnan bir güllə dəydi, o biri tərəfdən çıxdı. Çığırdı. Dedim, az, səs eləmə, bizi qırajaxlar. Qılçamda rezin vardı. Tez çıxartdım bunun qolunu boğdum, qoymadım qan gedə. Kamal həkim vardı, onun oğlunun belinnən dəydi.

Nəysə, Poladdının yalı vardı, getdik ora çıxdıx, kəndə baxırıx. Baxdım ki, öylərə odu vuruflar, yalo göyə qalxır. Bizim öy maşın yolunun qırağındeydi. Bizim öyün dalında mağar vardı, mərmi yeşiyini onun altına yığmışdılar. Həbib dedi ki, ay Müxək, sənin öyünün aloyu düz buluda dəyir. Belə baxdım gördüm Surxay titrəyir. Dedim, toxtax dur, Allaha şükür salamat çıxmışıx. Sənnən savayı gör neçə öy yaner. Sən demə, bunu burda infakt vurur, biz başa düşmürük.

Nəysə, yığıldıx bir yala. Onnan da üç gün qabax yuxuda görmüşdüm ki, bir qara sel gəldi talanın başınnan aşdı. Əlimi dizimə döyürəm: “Allah, kəndi sel apardı, Allah, kəndi sel apardı”. Bizim öydən on metr belədə armud ağacı vardı. Görürəm bu armudun dibində durmuşam, bu halda Qəmbər müəllim yanıma çıxdı.

Dedi ki, ay mama qızı, qorxma, tək bizi yox, bütün Azərbaycanı sel apardı. Amma bu işin axırı aydınnıx olajax. Sabah Sadıx dayım yala çıxanda dedim, ay dayı, belə bir yuxu görmüşəm, gəl qızdarı, Tamam nənəni, bir də hərəmizə ikicə gəvəni maşına qoyax, Gəncədəki oğlumun yanına yol salax. Dedi, bajı qızı, işıxlı olajax ey.

Nəysə, getdik bulağın başına komalaşdıx ki, görək kim var, kim yoxdu. Bura komalaşanda gördük ki, mənim bajım yoxdu (söyləyicini ağlamaq tutur), çox adam yoxdu. Dedim, ay Sadıx dayı, sənə dedimmi, Tamam nənəni, qızları çıxardax. Dedi, Allah mənim boynumu qırsın, ay bajı.

Yığıldıx ora. Gejə düşdü. Kişilər dedilər ki, biz qayıdax kəndə. Dedim ki, mənim bajım yoxdu, tikə-tikə olam töküləm, mən genə geri qayıtmalıyam. Mən gedim görüm bajım nejoldu.

Nəysə, kəndə qayıtdıx. Gəncə batalyonu gəldi, ermənini qovuf çıxartdı. Kəlbəcəri bizimkilər özləri verdilər. Dedim, ay bala, ona bax, erməni malı apardı, kəndi dağıtdı. Niyə imkan verirsiz, ikicəyini də siz atın, qoyun qaşsınlar. Dedi, ay ana, bizə deyiflər ki, başarın silahı çıxardın, silahı çıxarda bilməsəniz özünüz qaçın, silah harda qalır qalsın. Başına dönüm, ay ana, bizə demiyiflər axı gələni atın. Dedim, bə nəşə bura gəlifsən? Dedi ki, bizə belə tapşırıflar.

Nəysə, qayıtdıx kəndə, gəldim girdim içəri ki, öyü yandırıflar, bajım da onun içində yanıf. Bir belə sümüyün yığdım ağın arasına, almanın dibinə basdırdıx. Dedim, ay İsmayıl, bəs niyə Fatmeyi çıxarmadın? Dedi, az, Quranı başı üstündə tutmuşdu, dedi Quran məni saxlıyajax, mana erməni dəyməz. – İtə Quran neyniyəjəh? – O qayda öyü yandırmışdılar, özü də içində yanıf kül olmuşdu. Allah o günü heç kimə göstərməsin.

Nəysə, qaçan qaçdı, çıxan çıxdı, o üç uşağın hesabına qalan salamat çıxdı. Ermənilər açıxda kimi görüflər, hamısın öldürüflər. And olsun allaha, iri-iri ağacların dalına girirdik, pulamyotnan belə-belə budaxları xışdıyıf başımıza tökürdülər.

Qayıtdıx gəldik, bu üç oğlanın meyidi tapılmadı. Salatın Gəncə qoşununun ayağının altına yıxıldı. Dedi ki, mənim oğlum gəlmədi. Əsgərlər dedi, ana, dur. Ya hamımız qırlajeyih, ya da o üç meyidi

tapajeyih. Qapıda durmuşdux. Gördük maşın gəldi. Yüyrüşdük maşının qabağını kəsdik. Öldürmüşdülər öldürməyinə, amma tankı İsfəndiyarnan Rayətin üstünnən sürmüşdülər. Elə bil ki, bir torba ət idi. Yuqat yerində yuyan Yaqub idi. Dedim, ay Yaqub, Quran haqqı, Qorxmazı mən görməsəm, özümü qayadan atajam, qoyun girim onnan görüşüm. Girdim içəri. O qırmızı yanaxları elə soluf. Daldan gülləni atıflar, güllə beynini aparıf. Başının yarısı yoxuydu.

# ETNOQRAFİK MƏTNLƏR

## 115-116. XIDIR NƏBİ

Xıdır Nəbini fevralın dokquzunda keçirirdilər. Xıdır peyğəmbərin anadan olan günüdü. Həmin gün axşam yığışırdıx bir evə, üç nəfəri bəziyirdik. Biri tülkü olurdu, biri kosa, bir də Xıdır olurdu. Xıdır onların böyüyü olurdu. Bu il mən Xıdır olurdumsa, gələn il başqası olurdu. Xıdırın başında şiş papaq olardı, ortasınnan qurşaq bağlıyardılar. Xıdırın papağı qoyun dərisinnən olurdu, kosanınkı keçi dərisinnən olurdu. Keçinin yunun kəsib ondan kosaya sakqal düzəldirdik. Tülkünün də başında papax olurdu, arxadan da quyruq bağlıyırdılar. Dovşan, tülkü vuranda onun quyruğun quruduf saxlıyardıx, tülküyə quyruq yerinə onu bağlıyardıx. Əyinnərində nə paltarı vardısa, hamısın tərs üzünə geyərdilər. Qapı-qapı gəzərdilər. Üçü də sifətin kömürnən rəngliyirdi, heç biri tanınmırdı. Uşaqlar da yığılırdı Xıdırın başına, topa gəzirdilər. Görürdün azı iyirmi-otuz uşaq yığılıb Xıdırın başına, Xıdırnan bir gəzirlər. Qapıdan içəri girəndə Xıdır oxuyardı.

Xıdır Nəbi, Xıdır İlyaz
Bitdi çiçək, oldu yaz.
Xıdır gəlir haynan,
Yeddi qulun daynan.
Day batdı palçığa.
Yağ gətirin yağlıyax,
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzeydim,
Saç bağıma düzeydim.
Qardaşımın toyunda
Sındıra-sındıra süzeydim.

Mahnını Xıdır oxuyurdu, kosaynan da tülkü oynuyurdu. Kosa əlinə bir qıyıq alırdı, iynəynən ev yiyəsini qorxudub pul tələb eliyirdi. Arvaddar da yalvarırdı ki, məni bizləmə, nə istəsən verəjəm. Ev yiyəsi də nəyə imkanı çatırdı verirdi: un verən olurdu, yağ, alma, kanfet verən olurdu. Kosaynan tülkünün çiynində xurcunu olardı, yığılan payı onun içinə qoyardılar. Ev yiyələri bilirdi ki, bu gün Xıdır gələjək, Xıdırın payını ayırıb qoyurdular. Yığılan paydan qabaxca hansı evə yığılmıyacaxlar, aparıf ora verirdilər, onnan Xıdır Nəbi xaşılı bişirilirdi. Daldan yığılan payın da yeyiləni yeyilirdi, artığı qalırdı ev yiyəsinə. Elə olurdu bir kənddə altmış ev olurdu, altmışı da gəzilirdi. Axşam da bir evə yığılıf gejə sabaha qədər oynuyardılar. İynə-iynə, dirədöymə oynuyurdular. Kəlbəcərdən çıxana qədər həmin ənənəni saxlıyırdıx.

**116.**

Balaca çilədən on gün keçənnən sonra Xıdır Nəbi keçirilir. Hətta o vaxt vədə küləkləri baş qaldırır, biz ona Xıdır Nəbi küləyi deyərdik. Qovurğa qovurardılar, fəsəli, əyirdək bişirərdilər. Qovurğanı qovurardılar, bir az da ötürərdilər. Onu kirkirədə üyüdərdilər, qovut çəkərdilər. Tək Xıdır Nəbidə yox, uzax səfərə gedən adamlar da qovurğanı qovuruf qovut götürərdilər yola. Qovut, fındıq ləpəsi, qoz ləpəsi, küncüt, kişmiş, üstünə də bəhməz, bal töküb yeyərdilər. Çox şeyi bir-birinə qarışdıranda deyirdilər “sən öl, bunu lap Xıdır Nəbi xaşılına döndərdin".

Xaşılın suyun qoyursan bir az ilıx kimi olur. Onnan sonra qovutun tökürsən buluyursan. Maşına verilmiş fındıq ləpəsi, qoz ləpəsi də atırsan. Xamır kimi bərkləşirdi, onda bilirdin ki, bişif. Onu çəkirsən boşqablara. Onu üstünə baldan, bəhməzdən töküb yeyirdin.

Xıdır Nəbidə torba sallıyardılar. Xıdırı qapıda qarşılayan adam oxuyardı:

Mənim tülküm bomboz olar,
Gedəndə yollar toz olar.
Tülkülər oyunbaz olar,
Tülkü, səni səfa gördux.

## 117-118. QODU-QODU

Hava açmıyanda, nəmişdik olanda deyirdilər ki, qodu gəzdirmək lazımdı. Adət də beləydi ki, gərək hər iki adamın adı eyni ola, ikisi də anasının ilki olar, onda onnar gəzdirər. Yekə çömçənin ortasınnan qaşığı qoyurdular, üstünnən qırmızı parça atırdılar, muncuxnan bəziyirdilər. Həmin qodunu götürüf gedərdilər qapılara. Oxuyurdular.

Qodu-qodunu gördünüzmü?
Qoduya salam verdinizmi?
Qodu gedənnən bəri
Heç gün üzü gördünüzmü?
Qara toyux qanadı,
Kim vurdu, kim sanadı?
Gedirdim elçiliyə
Qara it baldırmı daladı.
Yağ verin yağlıyım,
Dəsmal verin bağlıyım.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu gül bağlar.
O gülün birin üzəydim
Saç bağıma düzəydim.
Oğlunuzun, qızınızın toyunda
Dərə aşağı, dərə yuxarı süzəydim.

Biri xurcunu götürürdü, biri də qodunu. Yığılan payı uşaqlar arasında bölürdük. Səhərisi həqiqətən hava açılırdı.

### 118.

Qaşığın birini dik tuturdular, digərini onun ortasına bağlıyardılar. Üstünə qırmızı salırdılar, boynundan muncux asırdılar. Qapı-qapı gəzdirirdilər.

Qodi-qodi gördünüz
Qodiyə salam verdiniz.
Qodi gedənnən bəri

Heş gün üzü gördünüz?
Qodiyə qaymax gərək
Teşdərə yaymax gərək.
Hər kəs qodinin payın verməsə,
Gözdərin oymax gərək.

Onu yetim-yesir gəzdirərdi. Elə adam olmalıydı ki, Allah-taala onun səsini eşidə. Kimi yağ verərdi, kimi qənd verərdi, yumurta verərdi, kimi pul verərdi, corab, dəsmal verərdilər. Yığdığı payı evlərinə aparardı.

## 119. TOY QARDAŞLIĞI

Oruclu kəndində Babaş kişi oluf. Tələb eliyillər ki, mənim babam Məmməd kişi Babaş kişiyə toy qardaşdığı gəlməlidi. Babaş kişi də güllə atanmış. O vaxdı keçinin köhərinə[10] ləzgi malı deyirdilər. O vaxdı ətdiyin yanında bir köhər də göndərərdilər. Kəndin cavannarı köhəri qoyardılar qənşərə, ona güllə atarmışdar ki, görək kim onu vura bilər. Mənim babam atama bir yaxşı inək, iki dənə erkək, bir dənə çəpiş ayırır, deyir, apar ver Babaşgilə ki, bunu mən gətirmişəm toy qardaşdığına. Oruclu kəndinin ağsakqalları gəlif baxıflar, deyiflər yox, biz buna qane döyülux (Mənim babamın bir öküzü oluf, adı da Xına oluf. Rəhmətlik Xannar deyirdi, nə qədər şum olurdu, bərkdə qalan ağacı Məmmədin Xına öküzü çıxardırdı. Deyir, o insan kimi dil bilirdi. Harda görür gücü çatmıyajax, dizdərin qoyurdu yerə, boyunduruğu onnan çəkirdi). Rəhmətdik Novruzalı deyir, Məmmədin Xına ökzü gəlməsə, biz bu toya qardaşdıx istəmirıx. Çəpişi, erkəkləri qatıllar içəri, Xına öküzün anasını qoşullar mənim atamın qabağına, qaytarıllar Ağca kəndinə. Atam deyir, inəyi gətdim çıxartdım qapıya. Kişi çıxdı çölə, dedi, oğul, bu inəyi niyə qaytarmısan? Dedim, Novruzalı kişi deyir, Xına öküz gəlməsə bu qapıya, onun qardaşdığı bizə lazım döyül. – Mənim dədəmi yola salanda bu ağsakqallar deyir, nə olur olsun, Məmməd

[10] köhər – çəpiş

Xına öküzün verməz. – Dedi, oğul, get pəyədən Xına öküzü çıxar. Xına öküzü də çıxart, həmən inəyi də qaytar. Deynən mənim atam Məmməd bu inəyi, bu öküzü toy qardaşdığı göndərif. Özü də tapşırıf ki, siftə öküzü kəsin.

Ağsakqallar məşvərət eliyirmiş ki, sən öl, öküzü vermiyəjək Məmməd. Baxıllar, Xına öküz də gəldi, Xına öküzü doğan inək də gəldi. Rəhmətdik Novruzalı deyir ki, bu kişilikdən döyül. Tutun inəyi kəsin, Xına öküzü qaytarın getsin. Ordan Xına öküzü qaytarıllar.

Mənim toyum olanda onlar bizə bir toy borclu idi. Axı mənim babam onlara toy qardaşdığı gedif. İnək aparıf, iki erkək, bir çəpiş aparıfdı. Mənim atam ölüm ayağında məni çağırdı evə. Dedi, oğul, sənə bir məsləhət eliyəjəm. Axı onlar əli yuxa idi[11]. Dedi, nabədə ha, birdən toy eliyərsən, onları toy qardaşdığı çağırarsan. Onda mənim əməyim sənə haram olar. Onların əli yuxadı. Camahatı nətər dəvət eləsən, onları da heylə dəvət elə. Birdən ad çəkərsən ki, siz mənim atama toy qardaşdığı borcdusuz.

Elə də oldu. Mən özümə toy eliyəndə anam dedi, atanın vəsiyyəti yadındadı? Dedim, bəli. Mən onu camahatnan bir yerdə dəvətnaməynən çağırajam. Da demiyəjəm, mənim atam sizə toy qardaşdığı gəlif, siz də mənə toy qardaşdığı gəlin.

Toy qardaşdığı odur ki, tutax ki, mən toy eliyirəm, mənim imkanım o qədər geniş döyül ki, həm qız evinin, həm də oğlan evinin toy xərcini ödəyəm. Gedir bir imkannı adama ağız açır, deyir ki, mənim oğluma toy qardaşdığı gəl. Qız evinnən nəkqədər hak-hesab gedirsə – cehizin yüklənməsi, qızın evdən çıxarılması, oğlan evinə gətirilməsi, tay bəyin qapısına qədər olan xərci toy qardaşdığı çəkir. Qız tərəfdə nə qədər heyvan kəsilirsə, toy qardaşdığı verir. Toy qardaşdığı özü də bəyin sağdişi olur. Mən özüm toy qardaşdığı getmişəm. Onda mən özüm evli-eşikli idim, oğlumu bəyin sağında oturtdum. Toy qardaşdığının qolunda da qırmızı sarğı olurdu.

---

[11] Əli yuxa – kasıb

## 120-122. TOY ADƏTLƏRİ

Qız istəməyə gedəndə birinci qapıda itə baxardılar. Deyirdilər, evdə əgər arvad yaxşıdırsa, it yaxşı olar. İt düşmən qoruyandı. Onnan sonra baxırdılar ər arvadnan, bajı qardaşnan, ata oğulnan, ana qızınnan münasibəti nətərdi. Əgər xoşlarına gəlirdisə, gəlif deyirdilər ki, onların münasibəti yaxşıdı, ordan qız almaq olar. Yox, gedif görürdülər qapısı zibillidi, iti zəyifdi, evə girəndə oğul atanı eşitmir, bala ananı tanımır, deyirdilər yox, burdan qaçax. O vaxtı qızı nəsilnən alırdılar. Deyirdilər, oğul, mən o ayləni bəyənmişəm, onun əjdadı yaxşı olub.

Ayləni bəyənənnən sonra əvvəlcə arvatdar gedirdi. Deyirdi, icazə verirsiz bura gəlməyə? Deyirdi, nəyə? Deyirdi, o gejə sizə gələn oğlanın atası idi, anası idi. Razı olsanız, sizə elçiliyə gələk. O da deyirdi, qoy mən də gedim oğlan tərəfini tapım, görüm kimdi, haralıdı. O da gedirdi baxırdı, razılığını verirdi. Elçiliyə gedilən qız qənşərə çıxmazdı. Qız gizdənərdi, oğlanın bajısı, ya qohum-əqrabası gedif baxardı. Bir badnosda bir kilo kanfet, ya şirni olurdu, bir üzük, bir də qırmızı yaylıq. Aparıf üzüyü taxırdı barmağına, yaylığı da atırdı başına. Onnan sonra oğlanın nə hünəri var o kəndə gələ. Ya bir ayrı atdı gələndə qız burdan boylana ki, mənim nişannım gəlir, ola bilməz.

Elçilikdə, adətən qızın əmisini, ya da dayısını qabağa verirdilər, danışığı o aparardı. Danışığı o aparırdı, qızın "hədiməsin" də (həsini – top.) ya əmisi verirdi, əmi olmasa, dayısı verirdi. Kim ki, "hə" deyif oğlan tərəfi də ona hədimə verərdi. Hədimə ya bir qızıl üzük olurdu, ya da min manat pul olurdu, ya qızıl saat olurdu, çıxardıf qoyurdu onun ovcuna.

Oğlan evi toydan bir neçə gün qabax "istəcəy"ə gəlirdi. İstəcəyə oğlanın atası, əmisi, dilavar ana, bibi gəlirdi. Qız tərəfi də öz qohum-əqrabasını çağırırdı. Şəxsən mən böyük oğluma toy eliyəndə özü də qaynım qızını alırdım, yaxın adam idi, istəcəyə gedəndə qızın əmisi dedi ki, mana bir inək, yanında iki dənə erkək, o vaxdı da qənd az idi, bir meşox başı bağlı qənd, bir meşox başı bağlı düyü, beş kilo

çay gətirərsən. Onda da oğlan tərəfi qızın atasına, anasına, əmisinə, dayısına xələt aparırdı. Ataya kastyum aparırdı, əmiyə qızıl üzük, kiminə saruşka, belə-belə xələtdər apardı. Kənd yeri idi, qaz yoxuydu, qız tərəfi deyirdi iki maşın odun gəlməlidi. Üç maşın odun qırdırırdın, birin əmisinin qapısına tökürdün, ikisini də qızın atasının qapısına. Qızın anasına başdıx üçün atrez alırdın, əmisinə saruşka, atasına kastyum aparırdın.

Toy olanda aşıq gəlirdi bir sutka oğlan evində çalırdı, səhər saat doqquzda, maşın olsa maşınnan, maşın olmasa atnan gedirdilər qız evinə. Bir sutka da qız evində çalırdı, səhər-səhər də gəlini götürüf gəlirdi. Gəlini bəziyirdilər, başına bir qırmızı şal atırdılar, ata mindirib oğlan evinə yola salırdılar. Gəlin aşmasın, ya da kimsə gəlif gəlinə qurd yağı eləməsin deyə atın üzəngisini də bir adam tuturdu. Xələtini alıf gəlini içəri salırdı. Bəy ortaya çıxmazdı. Sağdiş bir qolunda, soldiş bir qolunda bəyi qoruya-qoruya şamnan gətirif gəlinin otağına qatırdılar.

Gərdəyi oğlan evi alırdı. Qız evində onu tuturdular, gərdəyin dalında qızı bəziyirdilər. Gəlinin başını sınanmış adam bəziyərdi. Sınamax da beləydi ki, vaxtilə sən birinnən əşya almısan, o sənə xeyir verib, yaxud yol gedəndə düşəri oluf. Ona başıbütöv adam deyirdilər. Gedif qayıtmış, uşağı olmuyan, ya xeyirsiz adam bəzəməzdi. Gəlin gəlif oturanda sınanmış bir adamın uşağını onun qujağına qoyurdular ki, bu sınanmış adamdı. Onun oğlunu qoymuşam, oğlu olsun. Gəlini bəziyənnən sonra gərdəyi bir oğlan doluyurdu qoluna, atdı olseydi atnan, maşın olseydi maşınnan apardı. Gərdəyi aparana da oğlanın atası xələt verirdi. Xınayaxdı gejəsi əvvəl yoxuydu. Toya gedən gejəsi üç-dörd adam yığılırdı, dırnaqlarına acca xına qoyulurdu. Xınayaxdı indi dəbə minib.

Gəlin üç gün qalırdı pədənin dalında. Qayınataya deyirdilər ki, ay qayınata, o gəlinə nə verirsən, çıxsın qabağa. Ona "üzə çıxdı" deyirdilər. Yığılırdılar bir yerə, deyirdilər bu gejə gedək gəlini üzə çıxardax. Oğlanın atası da bir heyvan kəsirdi, yeyif içib gedirdilər. Ya deyirdi, bir buzoylu inək verirəm, ya barmağına üzük salırdı, ya deyirdi arıxanamda iki dənə arı nişanalıyıram, saa verirəm. Bir

hədiyyə verirdi, gəlinin qolunnan tutuf gətirirdi içəri. Gəlin də başı örtülü, ağzı yaşmaxlı olurdu. Qayınata olan yerdə çörək yemirdi, nə onnan danışmırdı. Deyirdilər, gəlin bizə çay gətirsin. Gətirəndə çay nəlbəkisinə kimi on manat, kimi əlli manat, kimi əlinnən nə gəlirdi qoyurdu. Həmin pullar da gəlinə çatırdı.

Gəlini gətirməyə gedəndə kəndin cahılları, qız yiyələri aşıxların qabağını kəsirdi. Deyirdilər, nəmərinizi verin, sizi buraxaq. Nəməri verib gedirdilər. Gəlin ata evinnən çıxanda qız tərəfin adamı qapını kəsirdi, deyirdi pulumu ver. Oğlan tərəfi də çalışırdı ki, qız evinnən nəsə oğurlasın. Gül qabını, güzgünü, duzu oğurlamağ olmaz. Onnan savayı əllərinə nə keçirdi oğurlayırdılar. Gəlin qapıdan çıxanda başı üstündə çörək bölürdülər ki, qoy ruzulu olsun. Həmin çörəyin yarısını oğlan evinə verirdilər, yarısı da qız evinə qalırdı ki, burda da bərəkət qalsın, oraya da bərəkət getsin. Quranın altınnan keçirirdilər. Qızın atası və ya qardaşı onu üç dəfə çırağın başına hərriyir, ona xeyir-dua verir. Deyir, bu çıraq kimi həmişə çırağın yansın, işığın gəlsin. Çırağın başına üç dəfə hərriyir, ortasına da qırmızı bağlıyır, deyir:

Anam-bacım qız gəlin,  
Əl ayağı düz gəlin.  
Yeddi oğul istərəm  
Birjə dənə qız gəlin.

İrəlidə “toy qardaşdığı” olardı. Kim kimnən dost olurdusa, deyir sana toy qardaşdığı gələjəm. Oğlan evinnən qız evinə nə gedirsə, hamısın xərcini qardaşdıx çəkirdi. Qapı kəsdi olanda, yol kəsdi olanda hamısının xərcini qardaşdıx verirdi. Mənim həkim qardaşımın toyu olanda qardaşdığı bir inək, altı dənə erkək toya gətirmişdi. Qızı rayonnan Ağcakəndə gətirəndə maşının harda qabağını kəsdilərsə, toy qardaşdığı pul verirdi. Oğlanı kim istiyirdi, toya bir erkək gətirirdi. Həmin qardaşımın toyunda and olsun allaha, otuz altı erkək yığıldı. Bəyin də cibinə qırmızı qoyurdular, qardaşdığın da qoluna qırmızı bağlanırdı.

Yuxa bişirərdilər. Toy qardaşdığı gəlini gətirməyə gedəndə qız evinnən biri yuxanı atır oxlavın üstünə, tutur toy qardaşdığına ki, xələt ver. O da çıxardıf yuxanın üstünə pul qoyardı, o yuxadan kəsib yeyərdi.

Qızın yengəsi bir xonça sağdişə aparır, bir xonça soldişə, birini də bəyə. Hərəsinin içində bir saroşka, corab, dəsmal olurdu. Yengə öz puluynan alıf qoyurdu onları. Bir böyük ləyən bişinti olurdu: qatdama, peçenye. Toyda nəlbəki-nəlbəki qohum-əqrabaya paylıyırdılar, yengəyə pul yığırdılar. Yengəni də yaxın adamdan tuturdular. Ya xalası olurdu, ya da əmisi, dayısı arvadı olurdu. Bəyin də qabağına böyük bir şax bəziyif qoyurdular. Şaxı yengə gətirirdi, bəy tərifində qoyurdu bəyin qabağına. Yengə xonçanı verəndə bəy yüz manat qoyurdusa, sağdiş əlli manat, soldiş əlli manat qoyurdu.

**121.**

Təhlifçini çox vaxt subay adamdan tuturdular. Oğlan evinə yaxın adam olurdu. Bir atı bəziyirdilər, boynuna qırmızı kalağayı bağlıyırdılar. Təhlifçi həmin atı minirdi, kəndin ayağınnan düşürdü, deyirdi filankəsin toyuna səni təhlif eliyirəm. Hansının ki, qohumu olur, yaxını olur, çıxırdı o atın boynuna qırmızı kalağayı bağlıyırdı. Hamını o formu dəvət eliyirdi. Oğlan tərəfi də təhlifçiyə xələt verirdi. Əl dəsmalı, bir cüt corab, xonça bağlayıf verirdilər. Atın boynuna bağlanan kalağayılar da hamısı təhlifçiyə qalırdı.

Kənddə yaxşı yuxa yayannar olurdu. Ağcakənddə Saşdı, Gök-çək xala, Qönçə xala, Zəhra xala yaxşı yuxa yayannar idi. Toydan bir gün qabax onları dəvət eliyirdilər, bir toyun yuxasını bişirirdilər. Səhərisi sajı qoyurdular üstə, toya gələn adamlar birinci sajın yanına dönürdü, yuxa yayannara xələt verirdi. Axşama qədər bir dünya pul yığılırdı. Arvaddar çox vaxt sabın atırdı, məhrəba, parça, əl dəsmalı, corab atırdı.

Qohum-əqraba toy evinə bir erkək aparırdı. Erkəyi bəziyir-dilər, boynuna da qırmızı kalağayı bağlıyırdılar. Oğlanın bacılarını, əmisi qızlarını, xalası qızlarını padcah çağırıb cərimə eliyirdi. Deyirdi ki, hərəniz iki ayaxlı erkək gətirirsiz. Gəlirdıx qırmızı çol-

paları tuturdux, ağ lentnən bəziyirdıx, ağ çolpanı qırmızı lentnən bəziyirdıx. Cücələrim mahnısı çalınırdı, otuz-qırx gəlin hamısı əlində çolpa girirdi mağara, oynuyurdu. Çolpanı da gərək əlində bərk tutaydın. Kim əlinnən qaçırtsaydı padcah onu cərimə eliyirdi. Axırda da o çolpalar yığılırdı, padcaha verilirdi.

Yemək bişirən kəsilən heyvanın iri sümüklərini ayrı bişirirdi, kənddə sayılan-seçilən adamlara əlavə boşqabda həmin sümükdən göndərilirdi. Həmin adam onu yeyirdi, o boşqaba nəmər salırdı. Həmin pul yemək bişirənə çatırdı. Yemək bişirən yeməyi bişirirdi, nəmər verilməsəydi, qazanın ağzını açmırdı. Çayçı samavarın lüləyini lentnən bağlıyırdı ki, samavarın lüləyi paslanıb işləmir. Filankəs gəlsin nəmərin versin, pasını açax.

Toyda bəyin yaxın adamlarına, sayılan adamlara ikirəng çay verirdilər. Əvvəl ağ suyu tökürdülər, üstən də qaşıxnan nəzik dəm tökürdülər, çayın rəngi qarışmırdı. Samavarı qaynadan iki-üç nəfər olurdu. Onlar qəşəh padnosu bəziyirdi, iki rəng çay düzəldirdilər, kişilər mağarına, imkannı, sayılan adamlara həmin çaydan paylıyırdılar. İçən də, içməyən də çıxarıb nəmərini qoyurdu.

**122.**

Atam deyərdi ki, oğlunuz oldu, evlənmək vaxdı çatdı. Bir qız istəməyə gedəndə birinci evin həyətinə fikir verin, görün evin həyəti təmizdimi. Sonra hərrənin o tərəfə, bu tərəfə. Üzdən irax, itə fikir verin, görün iti yaxşı saxlıyıflarmı. Bir də içəri girəndə yükün yığılış qaydasına fikir verin. Əgər o yük nizam yığılıfsa, üzünə pərdə düz çəkilifdisə, bu dediyimin üçü də varsa, o evin qızın almağ olar.

## 123. KİRVƏLİK

Bizdə bir misal var, kirvə kirvənin damının üstünnən getməz ki, torpax tökülər. Kirvə kirvədən inciməməli idi. Sünnət olanda kirvə bir mal gətirirdi, dəlləyin pulunu verirdi. Uşağın da üş günnüyünə "kül görümü" deyirdik, ona gəlirdilər. Uşağa paltar, şirniyyat gətirirdilər. Sonra deyirdilər kirvənin böyük görümünə gedək. Böyük

görümə daha dəbdəbəli gedirdilər. Beş-altı qohumnan gəlirdilər. İmkana baxırdı, kimi bir aydan sonra, kimi bir ildən sonra gəlirdi. Ataya kastyum, anaya paltar, uşağa qızıl üzük gətirirdilər, evin bütün üzvlərinə xələtlər aparardılar. Uşaq yiyəsi də ona ya bir gəvə bağışlayırdı, ya bir mal bağışlayırdı.

Kimin kimnən münasibəti yaxşıdı, onu kirvə tuturdu. Ya özü təklif eliyirdi, ya o deyirdi sənin uşağına kirvə gələjəm. Uşağı kəsənnən sonra kirvələr əllərini uşağın qannı əysisinə buluyurdular, əli əlin üstə yuyurdular. Sünnət zamanı uşağa lazım olan şeyləri kirvə gətirirdi. Üzünə qırımızı atırdı, altına qırmızı sərirdi, dəlləyə əlini yumağa sabın, silməyə məhraba gətirirdi. Aşıqlı olanda aşığın açılışını kirvə verirdi, dəlləyin siftə pulunu kirvə verirdi. Kirvədən qız almazdılar, kirvəyə qız verməzdilər.

## 124-125. ZƏRGƏRİN NAĞILI

Şahın zərgarrarı olur. Bir gün şah vəzirin çağırır, deyir:
– Vəzir, zərgarrarın birin çağır, xəzinədən qızıl burax, bir dənə qoç fiquru zakaz verdir.
Deyir:
– Baş üstə.
Çağırır zərgarı. Deyir ki, gəl xəzinədən qoç fiquru düzəltmək üçün qızıl götür, şaha bir qoç düzəldəjəhsən. Bu gedir on kilo qızıl götürür. Gətirir elə bir qoç düzəldir ki... Amma qızıldan bir az özü üçün götürür. Elə bir metal qatıb qarışdırır ki, patcah neçə zərgar çağırtdırır ki, yoxlayın görək buna ayrı metal qarışmıyıf. Heş kim baş tapmır. Patcah qoç fiqurunu görəndə çox şövqə gəlir, o qədər dil-ağız eliyir ki. Zərgar deyir:
– Patcah aləm sağ olsun, bu mənim sənətimdi. Bir belə dil-ağız eləməyə dəyməz. Maldı, vermisən, mən də düzəltmişəm.
Deyir:
– Bir xoruz da düzəldə bilərsənmi?
Deyir:
– Baş üstə.
Genə çəkiynən qızıldan verir, bir xoruz düzəldir. Çəkiynən də xoruzu bunnan götürür. Zərgər xoruzun da materialınnan bir az götürür, amma aparmır evə. Deyir: “Bunu apardım evə, arvad bilsə bir gün bu açılajax, patcah məni qılınca çəkəjəh, nəslimizi kəsəjəh”. Fikirrəşir ki, mən nətər eliyim, bunu harda gizdiyim, kimə verim. Deyir, yox ey. Bu sirri heş kimə verə bilmərəm. Bu sirri gərək bir mən biləm, bir də Allah bilə. Öz dəzgahının altında bir metr yer qazır, dəmirdən qəşəh bir mücrü düzəldir ora qoyur, durbanı da ordan çıxardır çölə. Durbadan qızılları bir-bir buraxır qutunun içinə. Elə düzəldir ki, kim nə bilər o dəzgahın altında nə var.

Bir gün belə, iki gün belə. Zərgara material verən vəzirin könlünnən keçir ki, mən də şahın vəziriyəm da. Bir fiqur da mənə olmalıdı. Bu dizin bərkidir gedir patcahın yanına. Deyir ki, patcah-aləm sağ olsun, belə bir fikrə düşmüşəm. Xəzinədi da, icaza ver mən də bir dənə qoç, bir dənə xoruz düzəltdirim özümə. Deyir:

– Get apar.

Aparır çəkiynən bir xoruzun materialın, bir qoçun materialın verir zərgara. Zərgar düzəldir. Vəzir gəlir aparır, baxır ki, eyni material versə də, bu qoçun patcahın qoçuna oxşarı yoxdu. Patcahın qoçunda olan gözəllik vəzirə düzəltdiyi qoçda yoxdu. Vəzir gedir zərgara sual verir ki, ay zərgar, axı bunun materialı birdi, amma bunların bir-birinə oxşarı yoxdu. Deyir:

– Bilirsən o nədi?

Deyir:

– Nədi?

Deyir:

– Sana düzəltdiyim qoç patcaha düzəltdiyim qoç kimi eyni olsaydı, onda sənnən patcaha nə tafotu vardı? Mən sizin fərqinizi qoymuşam.

Vəzir ürəyində xayanatçılığ eliyir ki, ay zargar, bu hayfı sənnən çıxaram. Çox fikirrəşir mən nətər eliyim ki, bu hayfı zərgardan alım. Da gejə yatanda, günüz gəzəndə bu fikirdə gəzir. Bir gün vəzir fikirrəşir ki, belə açılmıyan düyünnəri köhnə qarılar həll eliyər. Yeddi sort qarı var. Qarı var iman quran nəsibi, qarı var ilan-qurbağa nəsibi, qarı var ləpək qarı, qarı var köpək qarı. Hər cür qarı var. Vəzir şəhəri ələk-vələk eliyir, köhnə dünyagörmüş bir qarının yanına özünü yetirir. Deyir:

– Qarı nənə, sənə yaman işim düşüf.

Deyir:

– Oğul, Allah-taala xeyir işdən uzağ eyləsin, şər iş olsa mənim ovcumun içində yumuludu, belə açajam, həll olunajaxdı. De görüm nədi?

Deyir:

– Bax belə bir iş var. Sən o zargarın elə bir ləkəli işin, bir nöksanın tapıf mənə desən səni dünya malınnan qane eliyəjəm.

Dedi:

– Sən o zərgarın adın, familyasın, evinin nömrəsin, məhləsin mana tuşut, sənin işin olmasın. Qarı nənənin əlində nə şeydi?

Göstərdi. Qarı bir gün tumanın balağın çəkə-çəkə getdi, zərgarın evin tapdı. Darvazanı döydü. İndi darvazalar bağlı olur, o vaxdı hamısı açıx olurdu. Zərgar özü işdə idi, amma yoldaşı evdə idi. Dedi:

– İcaza olar evə gəlməyə?

Dedi:

– Qarı nənə, niyə olmur? Ev sənindi, gir içəri, ağbirçək arvadsan.

Yer görsətdi, oturdu. Qarı eşdi tökdü köhnəni, təzəni, qatdı bir-birinə. Dedi:

– Ay qızım, sən bajım qızısan. Soraxlamışam ordan-burdan. Vaxt belə gəldi, bir az qat-qarışıxlığ oldu, bajımın adı yadımnan çıxıfdı.

Qız dedi ki, anamın adı filankəsdi. Dedi:

– Gör naxantara mən sizdən soyumuşam, siz mənnən soyumusuz, aralaşmışıx ki, bajımın da adı yadımnan çıxıfdı.

Qarı bir az üzün-gözün yolmacladı, axşam çıxıf getdi. Dedi:

– İndi elə belə səni tapdım, Allah qoysa genə gələjəm.

Vəzir bir-iki gün araya saldı qarını tapdı.

– Qarı nənə, neynədin?

Dedi:

– Kələfin ujun tapmışam. – Axı qadınnar ipi alır, ujun tapır, yavaş-yavaş yumağı sarıyır. – İnşallah yaxşı olar.

Vəzir çıxartdı bir dənə onnux qızıl qarının ovcuna basdı, dedi:

– Hələ bunun dalı var, sən işi düzəlt.

Dedi:

– Mənim gözüm üstə, bu nə işdi ki. Ta ki belə işdərdən yüzü olsun, iki yüzü olsun.

Qarı zərgarın uşaqların da görmüşdü, bu qızılnan hərəsinin boyunun ölçüsündə paltar aldı, gəlinə aldı. Mer-meyvədən yığdı

gənə getdi. Darvazanı döydü girdi içəri. Gəlin baxdı ki, xalası – indi xala oldu ha, – elə bir şələynən gəlir ki, güjü çatmır. Tez özün çatdırdı:

– Ay xala, bu nə əziyyətdi?

– Baa, bajı qızı, biz təzə tapışmışıq. Hələ bu azdı, bunun dalı da olajax. Gələjəm, gedəjəm.

Qarı aşdı gətdiyini. Gəlin götürdü ayana-bayana. Dedi ki, ay bajı qızı, sənin bu yoldaşın zərgardı. Özü də eşitmişəm ki, bu şəhərdə onun kimi qabiliyyətdi zərgar yoxdu. Axı onun nişanalarınnan səndə yoxdu. Nə yaxanda yoxdu, nə barmağında yoxdu, nə qulağında yoxdu. Bə bunun qazandığı haraya gedir? Bajısı qızı deyir ki, ay xala, vallah kasıb adamıx. Elə gündəlik gətirdiyidi, ancax uşağı dolandırır. Deyir:

– Yox, heylə deyil. Bu qazandığın harayasa buraxır.

Qarı durur gedir öz işinin dalınca. Axşam zərgar gəlir evə. Gəlir baxır ki, uşaqların əynindəki libas həmişəki libas deyil. Yoldaşınnan soruşur ki, bu nədi, pulu hardan aldın? Dedi:

– Bir xalam tapılıfdı. Gəzə-gəzə gəlif məni tapıfdı. Siftə gələndə sənə demədim. Dedim bu qarı xala olmaz, siyasət olar, başıma bəla olar. Amma özgə adam bir belə gətirməz. Bu qarı xalamdı ki, bir belə gətirifdi.

Zərgar da bir az fikrə gedir, deyir ola bilər da. Zərgar yoldaşıynan danışanda baxdı ki, burun-damağ eliyir, qabaxkı kadın deyil. Dedi:

– Sən niyə belə dəyişilmisən?

Dedi:

– Mən dəyişilmiyim, neyniyim? Sən bu boyda şəhərin qadınnarının kiminə bilərzik, kiminə yaxalıx, kiminə sırğa düzəltmisən. Axı onlardan mənim üstümdə bir nişana yoxdu. Baxan heç bilmir ki, mən zərgar yoldaşıyam, ya fəhlə yoldaşıyam.

Zərgar əlbəəl başa düşdü ki, qarı bunu azdırıfdı. Yoldaşına dedi:

– Fikirrəşmə, o da düzələr.

Qarı çıxdı getdi. Vəzir dedi:

– Qarı nənə, neynəmisən?

Dedi:

– Yavaş-yavaş.

Çıxartdı bir ovuc qızıl tökdü cibinə. Dedi:

– Qarı nənə, gözdüyürəm səni.

Dedi:

– Arxayın ol, iş düzələjək.

On-on beş günmü, iyirmi günmü araya saldı, qarı genə bir ağır xələtnən getdi bajısı qızının evinə. Genə baxdı ki, dünyanı yığıf gətirif. Bu da fikirrəşdi ki, axı yad adam belə hörməti eləməz. Dedi ki, gör neynirsən. Dedi:

– Arxayın ol, məlumat verəjəm, gələrsən.

Genə axşam zərgar gələndə yoldaşı çay da tökmədi, çörək də qoymadı, çox naz elədi. Zərgar yoldaşına dedi:

– Sən dərdini de, görax sən niyə belə eliyirsən?

Dedi:

– Sən mana denən görax sən qazancını haraya axıdırsan?

Dedi:

– Ay arvad, qazancımı haraya axıdajam? Verirəm çaya, çörəyə, qəndə. Ancax əysiklikdi.

Dedi:

– Yox, mana deməsən bu sənin uşağın, bu da sən. Mən çıxıram gedəm.

Xülasə. Dedi ki, arvad, aramızda qalsın. Bir mən bilim. Bir sən bilginən. Dedi:

– O nə sözdü, sənin sirrini yayajam şəhərə?

Dedi:

– Məndə qızıl var.

Dedi:

– Bə harda saxlıyırsan?

Dedi ki, onu soruşmasan yaxşıdı da. Bir gün gətirif tökəjəm istolun üstünə, lap sənə qızıldan başmax da tikəjəm, ayağında parıldasın. Dedi:

– Yox ey, mana nağdı de görax kim saxlıyır?

Dedi:

– Ay arvad, aramızda qalsın, onu öz tükanımda dəzgahımın altında (bayax danışdığım kimi) quyuda saxlıyıram.

Gəlin bildimi qızılın yerini? Genə zərgar getdi özü işinə. Ara bir az çəkəndə qarı bir də gəldi.

– Neylədin? Yoldaşın sənin əyninə o bəzəkdən, düzəkdən söz verifdi?

Dedi:

– Söz verifdi, hələ gərək bir az gözdüyəm.

Deyir:

– Bə ələ gətirdiyin harda saxlıyır?

Deyir:

– Filan yerdə.

Qarı yükün yığdımı təpəyə. Özün çatdırdı evə. Vəzir özün çatdırdı:

– Qarı nənə, neyləmisən?

Dedi:

– Hal-nağrı belə.

Vəzir getdi şahın yanına. Dedi:

– Şah, mana kəmisyə ver, mən zərgarrarın tükünnarın yoxlatdırım. Çoxdan bəri yoxlamamışıx: kimin artığı var, əysiyi var, üzə çıxmır. Hər kəs öz bildığın eliyir.

Deyir:

– Kimi ürəyin istiyirsə, götür get.

İki dənə polis yanına alır, gedir zərgarın tükanının ağzına. Deyir ki, şah bizi yolluyuf, tükanını yoxlamalıyam. Deyir:

– Buyur.

Gedir o küncə dəyir, nə var ki. Gəlir bu küncə dəyir, nə var ki. Gəlir ayağın dəzgahın yanında vurur yerə, polislərə deyir ki, buranı qazın. Zərgar o saat duyur ki, arvad bu sirri aşdı xalasına, xalası da məni satıfdı vəzirə. Qazdılar, qızıllar çıxdımı, mücrü çıxdımı? Vəzir apardı qoydu şahın qabağına. Dedi:

– O vaxdı bizim fiqurları düzəldəndə götdüyü qızıllardı.

Şah baxdı ki, doğrudan da, öz peçatı olan qızıllardı. Dedi:

– Zərgarı çağırın buraya.

Zərgarı çağırdı. Zərgar bunu dana bilməz, əldədi hər şey. Çağırdı cəlladları, dedi aparın bunu dar ağajının divində ortadan bölün, yarsın bu tərəfdən, yarsın o tərəfdən asın. Üstünə də yazın ki, şaha xayanatçılıx eliyif. Şahın bir ağıllı vəziri vardı, adın qoymuşdular Sirri-Sübhan vəzir. Hamısı onun sözün eşidirdi. Özün irəli verdi, dedi:

– Şah, bu cavandı, yaxşı da sənətkardı. Heç qanın şəhərə tökmə.

Dedi:

– Bə neyliyağ?

Dedi:

– Verginən cəllatdarın ixtiyarına, aparsınnar kənarda öldürsünnər.

Həmən bu vəzir ki, fiqurların yaxşı düzəltmiyif, özün verdi qabağa, dedi:

– Şah sağ olsun, ver mana, bunun cəzasın mən verim.

Dedi:

– Verdim, apar.

Şəhərdən bir xeyli kənarda qırx mərtəbədən də qəlbi bir bina vardı. Ora getmək, gəlmək elə-belə şey deyil. Gərək pillakan qoyasan, çıxasan, düşəsən. Vəzir fikirrəşdi, dedi ki, şah sağ olsun, bunu aparajam o binanın üstünə qoyajam. Orda günnən gün vursun, yağışdan yağış vursun. Elə o binanın üstündə də dünyasın dəyişsin, qarğa-quş ətin, qanın ordan götürsün aparsın, heç şəhərə də düşməsin. Şah fikirrəşdi ki, yaxşı məsləhətdi. Dedi:

– Apar, verdim sana.

Apardı. Çağırdı vəziri-vəkili, cəllatdarı, köməkçini. Zərgarı qaldırdılar qırx mərtəbənin üstünə, pilləkəni çəkdi. Vəzir dedi:

– Sən bilmirdin o fiqurları belə düzəldəndə o hayıf səndə qalmıyajax. Di orda qalginan. Günnən gün vursun, yağışdan yağış vursun, qarğa-quş ətini aparajaxdı.

Bunu dedi, qayıtdı. Axı zərgar iki-üş gündü evə getmir. Yoldaşı fikirrəşdi ki, elə xalam düz deyirmiş, – bilmir axı ərini tutuflar, – o kimə uyufmuşsa elə gedif orda qalır. Başı alovlu qaçır şahın yanına. Şah deyir ki, xeyirdimi, nə gəzirsən? Deyir:

– Belə-belə. İki axşamdı yoldaşım gəlmir evə.

Deyir:

– Bəxtəvərin qızı, yoldaşını şah tutufdu, filan binanın başındadı. Böyünə-sabahadı. Günnən gün, yağışdan yağış vurur orda bir heylə dözə bilməz, öləjəhdi. Cinayat eliyifdi.

Bu düz getdi imarətin dibinə. Binanın dibinnən çağırdı zərgarı. Dedi:

– Nə deyirsən?

Dedi:

– Sənin evin yıxılmasın, sən nətər çıxmısan oraya?

Deyir ki, heç orasın soruşma. İndi sən mənim yanıma çıxmax istiyirsən, yoxsa mənim ölümümü istiyirsən? Dedi:

– Mən sənnən ötrü ölürəm. And belə, müsət belə, mən sənnən qabax özümün ölümün istiyirəm.

Deyir:

– Onda mənim dediklərimi elə, səni çıxardajam yanıma. Mən düşəjəm, sonra da səni endirəjəm.

Dedi:

– Bə neyniyim?

Dedi:

– Getginən yüz metirrik xayati sap[12] al, sonra getginən əlli-altmış metr şirit kəndir al, sonra bir yoğun kəndir al, bir də mana yemək. Üş gün, dörd gün burda aj-susuz qalmışam. Sonra bir uzun qarğını elə eləginən – axı qarğıların arasında buğum olur, – onu içdən-içə deş, bir az uzun olsun. Bir dənə də get malda hərrənir ey göygöyün – biri var balaca, biri də var mozalan sarılı, alalı, adamın böyrünnən keçəndə vıjıltıynan keçir, mal da onun səsinnən qaçır, – birin də onnan tut ipişkada gətir binanın ayağına. Binanın da işıxlığı var da. Binanın ayağına gətirəndə xayatı sapı bağla mozalağın ayağına, altdan qarğının ayağınnan burax, qarğını da dik tut. O işığa çıxajax. Yanımnan keçəndə mən onu tutajam, xayatını onu ayağınnan açajam.

---

[12] Xayati sap – tük kimi nazik sapa deyilir.

Gedir gətirir, heylə də eliyir. Çıxanda tutur. Sapı açır, mozalanı buraxır. Elə açır ki, mozalanı əzmir ki, bu məni ölümdən xilas eliyif. Arvada deyir ki, şirit kəndiri bağla sapın ayağına. Onu da çəkir çıxardır yanına. Deyir:

– İndi yoğun kəndiri bağla.

Onu da yanına çıxardır. Deyir, indi bağlaginan xurcuna. Axı iki gözündə su da var, yemək də var. Onu da çıxardır. Arvada deyir:

– Binanın ayağında sən bir neçə gün nəfəs al, mən neçə gündü ajam. Mən bir az su içim, əl-üzümü yuyum, çörəyimi yeyim, tokqamın altını bərkidim, səni çıxardajam yanıma.

Bu yeyir tokqanın altını bərkidir. Deyir:

– Kəndiri bağla ortana, möhkəm yapış.

Zərgar çəkir, arvad da bir az çəkidən yumuluymuş da, dartadart, dartadart çıxardır yanına. Zərgarnan görüşür. Zərgar buna üzün də turşutmur ki, bu heş zaddan şübhələnməsin. Dedi, şah mənim əlimdə əyrilik tapdı, məni qaldırdı bura. İndi mən kəndiri ortama bağlıyajam. Sən bu binanın qırağınnan möhkəm tut, bu gətdiyin xurcunu qoy bura, bu daş kəndiri kəsməsin. Sən burdan ipi burax, mən yerə enənnən sonra səni endirməyə nə var ki. Yoldaşı da fikirrəşir ki, bu məni çıxartdı buraya, bu əməlin yiyəsi məni düşürdər də. İpi bağladı ortasına, ha-ha-ha yendirdi. Zərgarın ayağı yerə çatanda qəflətən çəkdi kəndiri, yoldaşının əlinnən çıxdı. Dedi:

– Ay belə şülənin qızı, ora sənin yerindi, mənim yerim deyil. Mən getdim, sən salamat qal.

Zərgar qoyur üstünə. Haraya getdiyin bilmir. Qorxulu-qorxulu qaçır da. Qadın orda qalır sızıldıya-sızıldıya. Vəzir deyir ki, şah sağ olsun, bir adam apardıx qoydux sənin göstərişiynən. İcaza verirsən bir gedim görax ölüfdü, qalıfdı. Deyir ki, get.

Səhər tezdən vəzir gedir. Gedir görür ki, orda bir nəfər ağlıyır, kadın səsidi. Bu bir az gözdüyür, deyir gedif deyərəm ordakı kadındı, şah boynumu vurdurar ki, sən zərgarı buraxmısan, oraya kadın çıxartmısan. Bir az gözdüyür, baxır ki, həqqi də kadındı. Saç

sallanıf, özün döyür, ağlıyır. Kadına heç-zad demir vəzir. Vəzir qayıdır şahın yanına. Deyir:

– Şah sağ olsun, bir söz sana demək istiyirəm, amma çəkinirəm. Qəzəbin tutmasa, deyərəm.

Deyir:

– De.

Deyir:

– Apardığın zərgar orda kadın olufdu.

– Ə, nə danışırsan?

Deyir:

– Vijdan haqqı?

– Nətər kadındı?

Deyir:

– Saşdı, bayatı deyif ağlıyır.

Şah əmr verir, vəzir-vəkil pilləkəni aparıllar, baxıllar ki, kadındı. Qaldırıllar pilləkəni, düşürüllər. Deyillər ki, kimsən sən, buraya nətər çıxmısan? Deyir:

– Mən zərgarın ayləsiyəm.

Deyir:

– Biz onu çıxartmışdıq buraya, sən necə çıxdın, o necə düşdü?

Mən sizə danışdığım kimi danışır ki, bunları dedi, mən də gətdim elədim. Kəndiri çəkdi, mən qaldım burda. Haraya getdiyin bilmirəm. Şah deyir ki, aparın bunu evinə qoyun, bir az da puldan, yeməkdən verin uşaxların saxlasın, görək zərgarı nətər tapırıx.

Zərgar okqədər gedir ki, patcahın torpağınnan çıxır. Baxır ki, böyük bir bağ var. Elə bir bağdı ki, ürəyin istiyən meyvə ağacı hamısı var. Öz-özünə fikirrəşir ki, mən özümü verim bağın yiyəsinin yanına, burda məni heç kim tapmaz. Heylə də gedir salam verir ədəb-ərkannan.

– Oğul, kimsən?

Deyir:

– Vallah, kimliyimi neynirsən. Mənə bir iş lazımdı ki, gündəlik yeməyim ola. Aylə yox, uşax yox, öz başımı dolandırım.

Kişi fikirrəşir ki, mana bir köməkçi lazımdı, elə bunu bağda işdədim. Bağmanın adı Əhməddi. Deyir:

– Əhməd kişi, soruşan ola-eliyə, nəbadə məni deyəsən.

Əhməd kişi fikirrəşir ki, bunun mana ziyanı nədi? İşdiyajax, bağımı düzəldəjax, mana köməkdarlıx eliyəjax.

Bir gün şah baxıcını, vəziri-vəkili yığır ki, zərgarı nətər tapax. Sirri-Sübhan vəzir gəlir, baxıcılar gəlir. Heş kim bir yana çıxarda bilmir. Sirri-Sübhan vəzir deyir ki, şah sağ olsun, bunun ayrı çarəsi yoxdu. Mən sana bir məsləhət verim, o məsləhəti eləsən, zərgarı tapmax olar. Deyir:

– Neyliyim?

Deyir:

– Sən əmr ver, torpağında nəkqədər kişi var hamısı yığılsın bura. Onnan sonra mən deyəjəm.

Əmr verir. Qabax raykom deyirdilər, indi başçıdı. Həmin əmri başçılara verir, o tərəfə, bu tərəfə paylıyıllar. Səhər hərə bir at minir gedir şahın qəbuluna. Deyir:

– İndi neyliyim?

Deyir:

– Denən ki, qayıdın evinizə. Sabah hərəniz bir dənə quzu gətirərsiz. Quzunu gətirin, qalanını onda deyəjəm.

Şah əmridi, səhər hərə bir quzu götürür gedir. Zərgar da bağda çalışır. Əhməd kişinin də evdə həddi-buluğa çatan qızı var. Deyir, yaxşı olar da bu qıznan bağda işdiyəllər, tutarsa, qızımı da verərəm buna, baş-başa verif dolanarıx.

Quzunu aparıllar. Şah Sirri-Sübhan vəzirə deyir ki, bə indi? Deyir:

– İndi də sən qapan gətir qurdur, bu quzuları çək. Hər kəsin öz quzusun siyahıynan ver. Denən bir aydan sonra quzunu siyahıynan qaytarın gətirin. Bu quzular nə arıqlasın, nə kökəlsin. Hansı çəkidə vermişəmsə, o çəkidə də gətirin maa təhvil verin.

Bunlar dağılışır. Nətər olur, ot vermiyəjax arıxlıyajax, verəjək kökələjax. O cümlədən Əhməd kişi quzu qujağında boynu düşür da. Şah da əmr verir ki, vay o adamın halına, ya ağır gələ, ya əysik gələ.

Ağır gələnin də boynun vurajam, əysik gələnin də. Bax bu çəkdiyim çəkini versin. Bunu kim eliyə bilər.

Zərgar baxdı ki, Əhməd kişi çox peşmandı. Dedi:

– Baba, bu nə gündü, bu nə saatdı? Sən dəyişilmisən.

Dedi:

– Bala, hal-nağıl belə. Ay tamam olanda nəkqədər kişi varsa, patcah boynun vurajax.

Deyir:

– Niyə?

Danışdığım kimi. Deyir, quzunu çəkifdi, gəlif iyirmi kilo. Bir aydan sonra aparajax hamı, iyirmi kilo gəlməsə, boynun vurajaxdı. Zərgar gülür. Deyir:

– Baba, bu nə şeydi sən bunnan ötrü qəmginsən. O mənim əlimdədi, yummuşam, açajam, düzələjəh.

Deyir:

– Nətər?

Deyir ki, böyün bağın hər yerin gəzmişik qızınnan. Lap o ujqarda... Sən neçə ildi bu bağdasan, bəlkə də oranı heç bilmirsən. Orda canavar dəməyi var. Orda iki-üç dənə küçük vardı, oynuyurdu bir-biriynən. Gedif onun birin tutajağıx, qəşəh ona səbət hörəjağıx. Quzunu gətirəjəyik, gündə üşcə dəfə canavar balası onun üstünə atılajax, qatajağıx yerinə. Sən südün də ver, arpasın da ver, yemin də, xamın da ver. O nə kökəlmiyəjək, nə də arıxlamıyajax. Nətər çəkmisən, heylə də durajax. Deyir, bə onun adı nə olajax? Deyir, bilirsən nədi, ay baba. Mənim bilməyimə görə mənə Minəsaz adını veriflər. Minəsaz da çox bilən deməkdi. Əgər quzunu apardılar çəkdilər, düz gəlsə mənim adımı demə ha. Mənim adımı deyən kimi şah boynumu vurajaxdı. Məndə ağır cinayətlər olufdu. Belə deyəndə Əhməd qorxuya düşür. Deyir, indi eliyim da, görək nə nəticə verir.

Ay gəlir, vaxt tamam olanda bunlar aparıllar. Çəkillər, biri ağır gəlir, biri yumul gəlir. Ağırı o tərəfə yığır, yüngülü bu tərəfə. Ağır gələn deyir, bizi öldürəjəh. Yüngül gələn deyir ki, bizim boynumuzu vurajax. Yüngül gələnnər ağır gələnnərə deyir ki, sizinki

kökəlif sizi öldürməz. Xəta bizdədi, bizimki verdiyi çəkidən də az gəlif. Onnan sonrasına Əhmədin quzusunu çəkəndə çəkini ki düz verir, Sirri-Sübhan vəzir deyir:

– Şah sağ olsun, buraxma.

Saxlıyır bunu. Deyir, görürsən bunun quzusu iyirmi kiloydu, elə iyirmi kilo da gəldi. Denən bunu sənə kim örgədif.

Nə qədər döyüllər boynuna almır. Da görür kü, öldürəjəhlər, dar ayağıdı. Deyir:

– Şah sağ olsun, əlinizi saxlayın, mən deyim.

Deyir:

– Qara yolnan bağa belə bir adam gəldi, bax o örgədifdi mana.

Deyir:

– Bəs onun adı? Bir aydı sənin evində olur, sən örgənməmisən?

Deyir:

– Niyə, örgənmişəm. Deyir ki, mənim adım Minəsazdı.

Hər şeyi örgəndimi. Vəzir cəllatdardan qoşdu. Əhmədin yanında getdilər, bunu qandaxladılar, qaytardılar şahın hüzuruna. Şah dedi ki, indi sən mana denən görüm sən nəyə görə mənim materialımı götdün? Sənin tutulmağının səbəbi nədi? Arvadı nətər çıxartdın ora? Sən nətər düşdün? Bunun hamısını danışdırannan sonra zərgar deyir ki, vəziri çağır bura gəlsin, onda mən danışajam. Çağırtdırır, oturullar üz-üzə. Deyir ki, şah sağ olsun, bax məni bu işə salan, bu oyunu başıma açan sənin vəzirindi. Deyir:

– Niyə?

Deyir:

– Mən sənə düzəltdiyim qoçdan birini də ona düzəltdim axı. Material bir olsa da, onunkun bir az çirkin düzəltdim. O da mana sual verdi ki, material eynidi, amma bunlar bir-birinə oxşamır axı. Mən də dedim ki, vəzir, mən onu eyni düzəltsəm onda sənnən şaha fərq olmur. Gərək aranızda fərq ola. Mən aranızın fərqin qoymuşam. Vəzir də mənnən əydi, bax bu oyunu başıma gətirən sənin o

vəzirin oldu. Yoldaşım gəldi ora, onu bu vəziyyətdə çıxartdım ora. Yoldaşımı da bir qarı gəlif razdarrıx[13] eliyif ki, xalanam, filanam.

Deyir:

– Qarını da gətirin.

Həmən günnən şah vəzirə deyir ki, səni öldürmürəm, get. Vəzirriyi verir zərgara. Deyir:

– Zərgar, həm zərgarrığı eliyirsən, həm də mənim sıkladçım olursan. Xəzinənin ixtiyarın verirəm sənə.

Cəllatdara da deyir ki, qarını da aparın bir dənə həfkir[14] qatır var, bağlıyın qatırın quyruğuna, buraxın qaratikannığa. Qatır bilər, qarı bilər. Bunun da cəzasın belə verir.

Söz tamama yetir. Sağ olun. Allah canınızı sağ eləsin. Həmişə gəlif belə bal qabağında, çay qabağında olan stollarda oturarsız. O vaxdan bizdə bir məsəl var. Deyirlər Minəsazın quzusu kimi nə kökəlirsən, nə arıxlıyırsan.

## 125[15].

Bir dənə patcah olur, bir dənə də zərgər olur. Bu zərgəri çağırır yanına, deyir ki, ay zərgər, sənə qızıl verəjəm, mana elə bir qoç fiquru düzəlt ki, dünyada onnan olmasın da. Baş üstə deyir. Gedir xəzinədən qızılı götürür, gəlir. Öz dəzgahının qabağında oturur, başdıyır bu qoçu düzəltməyə. Beş gün, on gün, nəysə bu qoçu o qədər gözəl düzəldir ki... Bu vəzir də gündəlik gəlif buna baş çəkirmiş ki, görə nətər düzəldir, neyniyir. Bu qoçu o qədər gözəl düzəldir ki, bütün el tamaşasına çıxır. Gəlif təntənəynən patcaha aparanda bu vəzirin xayınnığı tutur. Deyir, mən baş vəzir olam, o gözəllikdə qoç düzəldə, mən də qalam belə. Bu, zərgərə deyir ki, zərgər, sana qızıl verəjəm xəzinədən, maa helə bir qoç düzəlt. Deyir:

---

[13] Razdarrıq – şpiyonluq etmək, ara vurmaq

[14] Həfkir – ürkəyən

[15] Bu nağıl "Zərgərin nağılı"nın bir variantıdır. Birinci variant Aşıq İsmayıldan qeydə alınıbsa, ikinci variant onun qızından yazıya alınıb. Atadan övlada ötürülərkən nağılın hansı dəyişikliyə uğradığını izləmək üçün həmin variantı burada veririk.

– Baş üstə.

Vəzir qızılı buna verir. Gətirir qoçu düzəldir, amma yaxşı düzəltmir, fərq qoyur. Vəzir gəlir bunu aparır, amma fərq qoyduğu üçün ürəyində zərgərə qarşı bir xayınnığı var bunun.

Bir gün qonşu arvatdar yığılıf bulağın üstündə söhbət eliyirmişdər. Zərgərin arvadı da ordaymış. Qonşu arvatdarın biri deyir ki, ay balam, sənin yoldaşın patcahın zərgəridi. Nujenni sənin nə üstündə bir qızılın var, nə qulağında bir qızıl var. Yəqin sənin ərin hardasa arvad saxlıyır. Bu arvadı dəli eliyillər. Arvad da o qədər mehribanmış ki, zərgər gələndə qapıda qarşılıyırmış ki, işdən gəlir, yornuğdu.

Zərgər axşam evə gələndə görür ki, arvad bozdu[16]. Deyir:

– Ay arvad, niyə belə eliyirsən?

Deyir:

– Heş nə.

Çörəyi tulluyur qabağına, deyir:

– Çörəyini ye, get yat.

Kişi görür ki, vəziyyət dəyişikdi. Deyir:

– Ay arvad, qarnının ağrısın de da, görüm nə vəziyyətdi.

Orasın demədim. Axı zərgər vəziri yandırıfdı, vəzirə düzəltdiyi qoç fiquru yaxşı döyül. Vəzir də bir arvad tapıfdı, o bu arvadı dəli eliyir. Bir axşam uşağı döyür, qabı qırıxlıyır. Zərgər deyir:

– Ay arvad, nə deyirsən eliyim, bu külfəti batırma.

Deyir:

– Sən neçə ildi zərgərsən. Niyə camahatda var, amma mənim üstümdə, qulağımda qızıl yoxdu. Hamı mana deyir ki, zərgərin arvadısan, heş zadın yoxdu.

Deyir:

– Ay arvad, səbr elə.

Axı zərgər qızılnan işdiyir. Körüyün altında bir quyu qazıfmış, hər dəfə o qızıllardan bir qıram, iki qıram, gücü nəyə çatırsa, atırmış oraya. Orda xeylax qızılı varmış. Üstün örtüfmüş. Zərgər

---

[16] Bozdu – hirslidi, qaşlı-qabaxlıdı

çar-naçar qalır. Deyir: “Mən arvada qızılın yerin desəm, patcah bilər, boynumu vurar. Deməsəm evim dağılır. Mən neyniyim?” Bir gün arvadı yasalıyır[17], deyir:

– Ay arvad, sənin də qızılın var, amma hələ aça bilmərəm da. Vaxtı gələndə açajam, tələsmə.

Kənddə bir dənə küpəgirən qarı varmış. Vəzir gedir ona bir ovuc qızıl verir. Deyir:

– Ay qarı, sana qurban olum, get zərgərin arvadın yoldan çıxart, o zərgər mana dağ çəkif.

Bir gün bu qarı paldan-paltardan alır. Örgənif zərgərin neçə uşağı var, evi hardadı, arvadı nətərdi. Bir gün haynan gəlir zərgər gilə. Gəlir ki, arvad evdə yoxdu. Soruşur bə zərgərin arvadı hanı? Qonşu deyir:

– Sən kimsən?

Deyir:

– Bəs mən zərgərin arvadının xalasıyam. Neçə ildi bajım ölüfdü, bu da yetim qalıfdı. Mən də indi yerini örgənmişəm, gəlmişəm bajım qızına dəymağa.

Hay düşür, arvad gəlir evə ki, evdə bir qoja arvad oturufdu.

– Xalan ölsün, bə səni nə vaxdandı axtarıram?

Burda görüşüllər, arvadın rəngi-ruhu açılır. Bu pay-pülüşü qoyur, bu dəfə heş nə demir. Zərgər gəlir evə. Deyir:

– Ay arvad, nə yaxşı rəngin-ruhun açıxdı?

Deyir ki, bəs xalam gəlmişdi, uşaxlara da ayın-oyun alıf gətirmişdi. Zərgər barmağın dişdiyir, üstün vurmur. Bir həftədən sonra xala bir də pay-pülüşüdü gəlir. Oturullar söhbət eliyillər. Deyir:

– Ay xalan ölsün, sənin ərin zərgərdi, nujenni sənin bir qızılın yoxdu, əynin-başın, libasın yoxdu?

Deyir:

– Xala, var ey (söyləyici səsini alçaldır – top.), amma hələ evə gətirmir.

Deyir:

---

[17] Yasalamaq – könlünü almaq

– Bə harda onu gizdiyif? Birdən aparallar-eliyəlllər, ay bala. Yerin yaxşı örgən.

Deyir:

– Körüyün altında bir quyu qazıf, qızılı orda gizdiyifdi.

Qarıya da bu lazımdı da. Nəysə, xala burdan quyruğun alır belinə, düz vəzirin yanına. Hər dəfə də vəzirdən bir ovuc qızıl alırmış. Deyir ki, vəzir, mənim payımı ver, qızılın yerini örgənmişəm.

Elə olur bir gün vəzir patcaha deyir ki, zərgəri yoxluyajağıx. Patcah vəziri qoymur, özü adam göndərir. Gəlif yoxluyullar hər yeri, təmtəraqlı çıxır. Vəzir deyir:

– Yox ey, mən özüm gedəjəm.

Vəzir özü gəlir, deyir oranı qaz. Qazıf qızılı çıxardıllar. Patcah deyir ki, öldürax. Vəzir deyir ki, yox, öldürmüyax, patcah. Sən bunun ixtiyarın ver mana. – Axı bu vəzirə dağ çəkif, onun fiqurun yaxşı düzəltmiyif. Vəzir buna cəza verajax. – Patcah deyir:

– Baş üstə, apar öldür.

Şəhərdə də hündür bir minarə varmış, yüz əlli metrmiş hündürrüyü. Vəzir zərgəri aparır çıxardır minarənin başına. Yayın istisi, cırhacır, minarənin başı, aj-susuz. Pilləkəni götürür ki, zərgər ordan qaça bilməsin. Zərgər bir gün evə getmir, iki gün, üç gün, həftə tamamında arvad deyir ki, gedim bir patcahın yanına, deyim zərgər evə gəlmir, mənim uşaqlarım ajınnan qırılır.

Gedir patcahın qəbuluna. Qapıda elçi daşı varmış, onun üstündə oturur. Patcah deyir ki, gedin o arvadı gətirin içəri, görağ o kimdi? Gəlir deyir ki, patcah-aləm sağ olsun, zərgər bir həftədi evə gəlmir, balalarım ajınnan qırılır. Patcah deyir:

– Zərgər qızıl oğurramışdı, boynu vurulajaxdı, vermişəm vəzirə. Get gör vəzir neyniyif onu.

Nəysə, sirrini ver xalana, yayılsın aləmə. Gedir vəzirin yanına. Vəzir deyir ki, gəl səni aparım, göstərim sana. Arvadı aparır minarənin yanına. Arvad baxır ki, kişi minarənin başında, haldan düşüf, ölüm ayağındadı. Vəzir zərgəri göstərir, özü çıxır gerdir. Zərgər ordan deyir:

– Arvad, mana bir az çörək, bir az da su.

Deyir:

– A kişi, mən çörəyi ora nəynən gətirim?

Deyir:

– Arvad, get bir dənə yoğun qamış qır, bir dənə də göygöyün tut. Qamışı yuxarı qaldır, onu qamışın içinnən burax mana sarı. O işıxlığa çıxajax, onda mən tutajam onu.

Arvad o dediyi kimi eliyir. Göygöyünü tutur, sapı ayağına bağlıyır, göygöyünü buraxır. Zəgərə deyir ki, indi bu sapa bir dənə yoğun ip bağla, elə ip bağla ki, qırılmasın. Ona bir ip bağlıyır, çəkir yuxarı. Deyir:

– İndi get evə, ayınnan-oyunnan yığ xurcuna, gətir buraya. Bir dənə də yoğun sijim gətirərsən.

Arvad gedir ayınnan-oyunnan gətirir. Yığır xurcuna, sijimi də qoyur xurcuna, kişi çəkir yuxarı. Yeyif toxduyannan sonra deyir:

– Ay arvad, yaman yadıma düşmüsən. Gəlsana sijimi bağlıyım ortana, səni çəkəm buraya.

Deyir:

– Yaxşı olar.

Sijimi bağlıyır ortasına, arvadı çəkir oraya. Danışıllar, söhbət eliyillər. Deyir:

– Arvad, mən sijimi bağlıyajam ortama, sən tut, mən düşüm.

Deyir:

– Bəs mən?

Deyir:

– Mən səni düşürəjəm, hasantdı.

Arvad da bir az ağıldan az olur axı. Arvad sijimdən tutur, zərgər düşür yerə. Yerə düşən kimi sijimi çəkif arvadın əlinnən alır. Deyir:

– Arvad, salamat qal, mən getdim.

Başqa bir ölkəyə çıxıf gedir. Vəzir deyir ki, arvad da gəldi mənnən zərgəri soruşdu. Bir gedax baxax, görək bu zərgər orda ölüf, qalıf. Vəzir adam göndərir. Gəlillər ki, ordakı arvaddı. Gedif deyillər, ay vəzir, ordakı arvaddı. Deyir:

– Başınız xarab olmasın, mən oraya kişi çıxartmışam.

Vəzir, patcah – hamı gedif baxır ki, həqiqətən də, zərgərin arvadıdı, kişi yoxdu. Arvadı ordan endirillər pis vəziyyətdə, pis gündə. Bir az ayınnan-oyunnan verillər, yeyif özünə gəlir. Deyillər, bə hanı zərgər? Deyir, hal-qəziyyə belə-belə[18]. Patcah əmr verir ki, mənim ərazimdə nə qədər adam var, hamısı yığılmalıdı buraya.

Hamı yığılıf gəlir. Patcah hərəsinə tərəzidə çəkib bir quzu verir. Deyir, aparın bu quzunu, qırx günnən sonra gətirin: nə kökəlməsin, nə də arıxlamasın, həmin çəkidə olsun.

Zərgər bir dənə qoca kişinin evində yaşıyırmış. Görür ki, budu, kişi kor-peşman gəldi, həyətdə oturdu. Elə bil dünyanın varın-dövlətin bunun əlinnən alıflar.

– Ay kişi, niyə belə eliyirsən?

Deyir ki, bəs patcah hərəmizə bir quzu verif, deyir ki, bir aydan sonra gətirajaxsız quzu eyni çəkidə olajax. Eyni çəkidə olmasa, boynuzu vurdurajam. Deyir:

– Sən qorxma, mənim adımı heç kəsə vermə, mən saxlıyaram.

Həyətin o başı meşəymiş. Meşədə bir canavar yuvası varmış. Canavarın körpə balaları varmış. Zərgər arabir əlinə düşən ətdən aparıf atırmış ora. Canavarın balaların zərgər oğurruyur gətirir, başdıyır setkada saxlamağa. Hər gün iki dəfə gətirir canavara o quzunu göstərir. Canavar da qoyunun düşmənidi axı. Balaların boşduyur, quzu hürkür bir divə qısılır, ətin tökür da. Elə olur ay tamam olan günü genə quzunu göstərir canavara, verir kişiyə, aparır. Millətin quzusunun çəkisi düz gəlmir, bu kişinin quzusu elə iyirmi kilodu. Patcah kişini buraxmır. Deyir:

– Bu sirri mana deyəjaxsan. Deməsən boynu vurdurajam. Sana üş gün vaxt verirəm. Get evə, fikirrəş.

Gəlir evə. Bu kişiyə deyir ki, ay zərgər, patcah mana üş gün vaxt verdi, neyniyim? Deyir ki, ayrı çarəsi yoxdu, get patcaha de. Öldürür qoy məni öldürsün.

---

[18] Söyləyicinin əri yoldaşını nağılı qırıq danışmaqda günahlandırır və düzəliş verir: Vəzir gedir görür ki, kişi yoxdu, ordan düşmək də mümkün döylü. Gəlif patcaha deyir ki, patcah sağ olsun, mən ora zərgəri çıxarmışdım. Zərgərin arvadı orda, zərgər yoxdu.

Üçüncü gün gedir patcahın yanına. Deyir:

– Patcahı aləm sağ olsun, gəlmişəm. Bizdə bir kişi var, qonaxdı. Hardan qaçıf, hardan gəlif bilmirəm, elə bizdə olur neçə illərdi. O saxlıyıf bu quzunu.

Deyir:

– Get onu çağır bura.

Gətirillər ki, zərgərdi. Patcah deyir:

– Ay zərgər, səni ölümə göndərmişdik, bu nədi? Sənin boynu vurdurmuyajam. İki sözü düzgün boynuna alajan. De görüm arvadı nətər çıxartdın, özün nətər endin?

Deyir ki, patcah-aləm sağ olsun, kasıb adam idim, tamah güj elədi mana, hərənizin qızılınnan bir az götürmüşdüm ki, sonra özümə bir şey eliyim. Sizdən sonra sənin vəzirin mana qızıl gətirdi. – Vəzir də oturuf söhbətə qulağ asır. – Dedi ki, mana da qoç fiquru düzəlt, amma patcahın qoçunnan seçilməsin. Patcah aləm sağ olsun, siz patcah, o vəzir. Mən də fərq qoydum, onu sizin qoçunuza tam oxşatmadım. Ona görə də vəzir mənnən hayıf alırdı. Filan qarını göndərdi mənim evimə. Mən sirrimi arvadıma demişdim, o da sirri xalasına verdi. Xala gəldi vəzirə verdi. Vəzir də gəldi, qazdı quyudan qızılları çıxartdı. Ona görə məni oraya çıxatdı. Dedi:

– Bunu bildik. Bəs sən ordan nətər düşdün, arvadı nətər qaldırdın?

Qamış məsələsin danışır. Patcah deyir:

– O cəza sana verilmişdir, sən niyə arvadı ora çıxartdın?

Deyir:

– Ona görə ki, arvad məni satdı xalasına, vəzir də onun qoçuna fərq qoyduğum üçün mana cəza verdi. Mən də arvadı elmnən oraya çıxartdım ki, bura mənim yerim döyül, sən ağılsızın yeridi. Mənim cəzam sənin qoçunun üstündə oluf.

Patcah deyir:

– Bəs quzunu nətər bəslədin ki, çəkisi dəyişməyif?

Deyir:

– Patcah aləm sağ olsun, bunu bilməyə nə var. Qoyun canavardan qorxur. Mən o quzunu qəşəh bəsdiyirdim, hər gün də iki dəfə canavara göstərirdim. Ona görə quzu qorxurdu, ətin tökürdü.

Dedi:

– Bu günnən sən mənim baş vəzirim oldun.

O vəziri də iki şakqa elətdirir, vurur darvazanın çölünə ki, görk olsun hamıya. Arvadı da boşatdırır. Deyir, onnan sana arvad olmaz. Özünə götürür baş vəzir, orda qəşəh dolanıllar. Hak-divan gəldi yerini tapdı.

## 126. ƏSL DOST

Amerikada bir nəfər xəstələnir. Amerika da özün bilirsən da kapitalist ölkəsidi, orda varrı adamlar olur. Bu xəstə Amerikanı, İngiltərəni, Fransanı, İranı, Türkiyəni nə qədər gəzirsə, deyillər sənin dərdə çarə yoxdu. Çalış nə qədər ömrün varsa, yeyib-içib gəzəsən. Hara gedir, hamı eyni sözdəri deyir. Belə-belə bütün ölkələri gəzir, gəlir çıxır Bakıya. Bir professorun yanına gəlir. O da addı-sannı professormuş. Məktəbi təzə qutarmış bir cavan oğlan da bu professorun yanında çalışırmış. Bu kapitalist deyir ki, mən Amerikadan gəlmişəm. Adın-zadın deyir. Deyir, mənim şikayətim filandı. Bu professor da o biri həkimlərin dediyin deyir. Bu danışdıxca məktəbi təzə qutaran həkim buna fikir verir. Bunda şübhə əmələ gəlir. Professorun yanında buna bir söz demir. Xəsdəni yola salanda deyir, sizə mən bir söz desəm, inanarsızmı? Deyir, niyə inanmıram. Deyir ki, əgər bu professordan icaza alsanız, mən sizi müalicə eliyərəm. Deyir, niyə almıram. Gəlir professora deyir, sizə nə qədər deyirsiz hörmət eliyim, icaza verin bu həkim mənnən məşğul olsun. Bu da qeyri-ixtiyari deyir, olur-olsun da. Bilir ki, bu mümkün deyil. Gəlir, deyir, icaza aldım. Deyir, gəl gedək. Bu da təzə məktəbi qutarıf, kvartirant bir evdə qalır. Öz puluynan buna bir dənə çarpayı alır. Deyir ki, sənnən bir dənə şərtim var. Səni mən müalicə eliyəjəm, amma sənin qəlbinnən iynənin ildızı qədər nə söz

keçirsə, gərək maa deyəsən. Mənnən söz danma ha. Bax sənnən danışığımız budu. Bunu eləsən, mən səni müalicə eliyəjəm.

Bir aydan sonra xəstə özü də görür ki, artıq yaxşı oldu. Bu cavan həkim də təzə məktəbi qutarıf, özü də nişannıdı, toy eliyəsidi. Gündə bir dəfə bunun nişannısı gəlir, oğlannan gedir gəzməyə. Oğlan bir də görür ki, xəstədə genə ağırraşma var. Deyir ki, de görüm sənə noluf? Dünən belə deyildin. Bu demək isdəmir. Deyir, yox ey, qəlbin nə isdiyirsə de, mən ad almalıyam, məni professor birtəri eliyəjəh. Getdikcə də bu geriliyir. Deyir, indi ki, məni məjbur eliyirsən, deyəjəm. Məndə sənin bu nişannına qarşı meyillilik əmələ gəlif. Onu da saa deyə bilmirəm.

Sabah iş saatı qutarannan sonra oğlanın nişannısı gəlir. Oğlan deyir, mənim şərəfimi, ləyaqətimi saxlıyırsanmı? Deyir, hə. – "İstiyirsənmi mən gələcəkdə böyük bir ad qazanım?" Deyir, əlbətdə. Deyir, onda sən bu günnən mənim yanıma bir bajı kimi gəlif gedərsən, bunun yanına bir nişannı kimi gələrsən. Səbəbin də soruşma, mən saa belə deyirəm. O günnən qız kapitalistin yanına bir nişannı kimi gəlif gedir.

Bu minvalnan bir ilə xəsdə olur normal bir adam. Oğlan bunu evləndirir, toyun eliyir, bunların bir qız uşağı da olur. Kapitalist deyir, qardaş, mən yaxşıyam, mana icaza verərsən mən gedim? Deyir, öz işindi, gedə bilərsən. Aparır bunu gəmiynən yola salır.

Bütün dünyaya xəbər yayılır ki, filan həkim professorların müalicə edə bilmədiyi xəstəni sağaltdı. Professor bunnan daş-tərəziyə düşür. Bu yazığı müflis eliyir. Bu kapitalist də ona adres verif ki, qardaş, nə vaxt gəlsən, öz evindi.

Bir gün deyir, mən niyə bunun yedəyinə düşmüşəm. Çıxım gedim Amerikada yaşıyım. Bu, gəmiyə bilet alır, bir çamadan götürür, diplomun götürür, gedir. Yolda fırtına olur, gəmi batır. Çamadanı, pulu-zadı, nəyi vardı batır, özü tək sahilə çıxır. Baxır ki, həmən adres cibindədi. Deyir, Allaha şükür ki, adres burdadı. Baxır ki, filan ştatda filan küçədə yaşıyır. Gedir həmən küçəni tapır. Qapını döyəndə görür ki, bunun nişannısı qucağında bir qız uşağı, bir oğlan uşağı gəldi. Deyir, bura filan kapitalistin evidi? Deyir, yox. Deyir,

sizin adınız filankəs deyil? Deyir, yox. Bunu çox sorğu-suala tutanda, deyir: “Məni çox danışığa tutma ey, çıx get, yoxsa polis çağıraram”. Oğlan fikirrəşir ki, bəlkə yoldaşı evdə yoxdu deyə məni evə buraxmır. Axşam gedim bir də onun qapısına. Kişi gələr, bəlkə o məni qarşılayar. Axşamacan gözdüyür. Gedir qapını döyən kimi kişi gəlir. Deyir, sizin adınız filankəsdi? Deyir, xeyir. Deyir, siz filan kapitalistsiniz? Azərbaycanda olmusuz? Deyir, yox, mən anadan olannan burdan kənara çıxmamışam. Deyir, sizi müalicə eliyən həkim olmuyuf? Deyir, yox, ay kişi, məni çox danışdırma. Uzaqlaş burdan.

Çıxır gəlir. Fikirrəşir ki, mən neyniyim. Baxır ki, cibində otuz-qırx qəpik pul var. Gedir bir kəndir alır. Deyir, hambalçılıx eliyim, genə qayıdım gedim. Çağırıllar, o aparır beş köpük verir, bu aparır beş köpük verir. Bir az pul topalıyır. Sabah görür bir kişi gəldi. Dedi, hambal, bu çamadanı apar, gəlirəm. Bu yazıq çamadanı götürür küçəynən gedir, gözdüyür kişi gəlmir. Dala baxır, gözdüyür, kişi gəlmir. Qabağa baxır, gözdüyür, kişi gəlmədi. Deyir, yad ölkədi, məni burda dolaşdırallar. Yaxşısı budu çamadanı aparım polisə verim. Polisə gələndə görür kişi burdadı. Deyir, sən mənim çamadanımı götürüf hara gedifsən? Deyir, əşi, mənə sənin beş köpüyün lazımdı, neynirəm çamadanı. Deyir, tök, o qızılı sanıyajam, görüm onnan götürmüsən. Götürür sanıyır ki, hamısı yerindədi. Deyir, mən görürəm sən yaxşı oğlansan. Polisin qarşısında saa deyirəm, sən ki belə düz oğlansan bu qızılı verdim saa. Köməksiz adamsan, get özünü dolandır. Deyir, a kişi, mənə ordan nə çatajaxsa, onu ver. Deyir, mənim bir dünya qızılım var. Sən ki o etibarın yiyəsisən, o qızılı verdim saa.

Bu, qızılı götürür gəlir. Deyir, mən Azərbaycana niyə qayıdıram, bir belə qızılım var. Qabaxca ev alım. Gedir ev satılan yerə baxır ki, burda beşgözdü ev var, yüz əlli minə, iki yüz minə gedən evi on minə verir. Nəysə, bu qızıldan verir, beş otaqlı ev alır, içinin də hər bir şeyi var. Başdıyır burda həkimlik etməyə.

Bir il, para il işdiyir, tanınır. Qapısında oçiret oçiret dalınca. Bir axşam oturuf kitab oxuyurmuş, görür qapı döyüldü. Görür ki,

bir nurani arvad gəldi. Dedi, ana, şikayətin nədi? Deyir, oğul, şikayətim yoxdu. Yanına bir xayişə gəlmişəm. Səni çox insaflı deyillər. Əgər razı olsan sənə bir ana kimi qulluğ eliyərəm, mənim heş kimim yoxdu. Deyir, ay ana, yaramaz axı sən maa qulluğ eliyəsən. Deyir, heş kimim yoxdu. Evlənənə kimi sənə qulluğ eliyim.

Bir il buna ana kimi qulluğ eliyir. Bir gün oturmuşmuşlar. Deyir, oğul, gəl səni evləndirim. Deyir, ana, axı mən burda yad adamam, buranın adətin bilmirəm. Bilmirəm qızı harda görüm. Deyir, oğul, burda su hovuzu var, oğlannar qız bəyənmək üçün gedillər ora. Sən də mənnən get, orda hansı qızı desən, mən buranın adətin bilirəm, onu saa alım.

Nəysə, anasın eşidir, gedillər hovuzun yanına. Bir qəşəh qız bunun gözünə sataşır. Deyir, ana, icaza versən o qızı alardım. Deyir, oğul, mən də o qızı bəyənmişəm. – "Bəs ana, nətər eliyək?" Deyir, oğul, buranın adətin mən bilirəm. Sən toy tədarükü gör, nə müddətdir burda işdiyirsən, nə qədər adam tanıyırsan, dəvətnaməni yaz. Gəlini mən gətirəjəm.

Bu, dəvətnamə yazır. Birdən ağlına gəlir ki, kapitalist dostuma da birin yazım, bu gəlsin, onu utandırajam camahatın içində.

Məclis qurulur, toy başlayır. Bunun dostları gəlif oturur. Bu bir də görür ki, həmən kapitalist də gəldi. O içəri girəndə bunun qonaxları ayağa durdu. Bunun ajığı tutur. Bunlara deyir, siz niyə onun ayağına durursuz? Deyillər, o hörmətdi adamdı. Hamı onun başına dolanır. Bunun da içi yanır-tökülür. Tamada durur məclisi açır, bütün sağlıxlar deyilənnən sonra bu oğlan deyir, icaza versəniz mən də bir söz deyim. Deyillər, hə, niyə demirsən. Dedi, mən xayiş eliyirəm, sizin başa keçirdiyiniz o hörmətdi adam dursun ayağa bir az söhbət eliyək. O da durur. Deyir, qulaq asın mən danışım, bu kişiyə siz qiymət verin, mən bir söz demirəm. Başdıyır hamısın danışanda bunlar da bunun üzünə tərs-tərs baxıllar. Deyir, axırda getdim qapısına, məni rədd elədi. – Yoldaşı da gəlif. – O qadın da dursun, o da mənim nişannım oluf. Onun ujunnan professor mənim başıma oyun açdı, qaçdım bura gəldim. Hambalçılıx eliyif başımı

dolandırdım. Allah-taala yaxşı adamlara kömək olsun, mənə kömək oldular, bura gəldim. Bax buna deyin ki, bu nə üznən gəlif burda oturuf? Bu da deyir, o nə danışır hamısı düzdü. Mənim yaşamağımın səbəbkarı budu. Deyillər, bəs bu nə əhvalatdı? Deyir, mən getdim, görməzə-bilməzə o mənə belə bir yaxşılıq elədi. O da bura gəldi. Mən onun gəldiyin də bildim. Mən də dedim ki, ona elə bir yaxşılıq eliyim ki, özü bilməsin. Ona bir çamadan qızıl verən mənim atamdı. On minə aldığı ev mənim evimdi. İl yarımdı ona qulluğ eliyən mənim anamdı (söyləyicinin gözləri dolur – top.). Bu gün də köçürdüyünüz qız mənim bajımdı. Mən ona görə belə elədim ki, o mənə görməzə-bilməzə yaxşılıq eləmişdi, qoy mənim də yaxşılığımı o bilməsin. Deyillər, afərin ikinizə də. Yaxşılığın qədrin bilmək lazımdı.

*Bərdəli dostu yolda nağıl eləyəndə ondan eşidib.*

## 127. ŞIX SƏYAD

Tarixdə Şıx Səyad olufdu, o da savatdı adam oluf. Hər yeri gəzif qadınnarın əməlinnən kitab yazır, qırx qəflə-qatır yükü kitab bağlayır. Tək bircə qadın qalıfmış. Qəflə-qatırı qapıda bağlıyır ki, burda axırıncı kitabı bağlasın. O vaxdı arvatdar tuman geyinirmişdər. Bu arvad tumanın bağın açır, xamır yoğurur. Qadının da yaxşı oğlannarı olur, onlar da çöldədi da. Şıx Səyaddan soruşullar, hara gedirsən? Deyir, ananızdan bir kəlmə söz soruşajam. Deyillər, get. Qapını açanda deyir, bajı, olar sənnən bir söz soruşam? Üzün belə çöyürür deyir, qardaş, sən də axirət-dünya mənim qardaşım, mənim tumanımın bağın bağla. Üzün yana tutuf tumanın bağlayanda arvad qışqırır oğlannarını çağırır ki, bu kişi kimdi buraxmısınız mənim yanıma. Kişini orda döyüllər. Qırx qəflə-qatır yükün orda yandırır. Deyir, bu qadınnardan baş açmaq mümkün döyül.

Gedir evdə fikirrəşir, bu qərara gəlir ki, elə bir qadınnan evlənsin ki, bu dünyanın işin heç bilməsin. Gedir bir qadının bətnində uşağı behliyir. Deyir, bu uşaq anadan olanda qız uşağı olsa, bunun

çəkisinin iki qatı qədər qızıl verəjəm, verərsən maa. Bu da çoxuşaqlı ayləymiş. Deyif, verərəm.

Nəysə, hərrənir gəlir bir qızı olur. Bunu götürür. Bunu aparır verir bir dayəyə. Yerin altında ev tikdirir, bu qızı orda saxlıyır. Bunu on beş il orda saxlıyır, heş kim bilmirmiş. On beş, on altı yaşı olanda Səyad bunnan evlənir. Şıx Səyadın da iki karavatı varmış: birində özü yatırmış, biri də qonax üçün imiş. Şıx Səyad hər gün gedirmiş mütaliə eləməyə. Bir gün Şıx Səyad gənə çıxır gedir. Toyuğ evin damını eşir, ordan iynənin ildızı qədər işıq düşür içəri. Bu qız onnan süpürrəşə-süpürrəşə qapını açır çölə çıxır, görür dünya var burda. Arvad qızın dalına düşür, bunu qaytarana qədər bir dənə cavan oğlan görür ki, bir dünya gözəli var burda. Arvad qızı qaytarır, qapının da dalın vurur.

Bunlar burda qalmaxda olsun. Oğlan düşür təşvişə. Damxanın yerin də örgənir. Küpəminən qarılar olur. Gədə gedir bu qarının yanına. Deyir, qarı nənə, saa bir sirr verəjəm, mənim bu dərdimə əlaj eliyə bilərsənmi? Deyir, nədi? Deyir, filan yerdə bir damxa var, yerin altındadı, orda bir dənə nazeyi-sənən var. Onun yiyəsi kimsə bilmirəm, içəri buraxmıllar məni. Nətər eliyək məni ora salasan. Qarının da ağzında heç dişi yoxmuş. Deyir, qarı nənənin ağzın doldursan qızılnan mən ona bir əlac taparam. Deyir, əşi, bir nədi ey. Lap sənə bir kilo qızıl verim. Deyir, onda get özün boyda bir dənə sandıx düzəlt. Düzəldif gətirərsən mənim məhləmə. Qızılı da gətirərsən. Gerisiynən sənin işin yoxdu. Şıx Səyad da həmişə gedif axşamlar gəlirmiş. Bu qarını da tanıyırdı, qonşusuydu. Oğlan sandığı bağlatdırıf gətirir. Qarı deyir, gəl uzan sandığın içində. Uzanır, ağzın da kilitdiyir, açarı qoyur cibinə.

Şıx Səyad gələndə bu bir ax-nala çəkir, bu bir sızıltı salır. Ağlıyır, başın cırır, tükün yolur. Şıx Səyad deyir, aaz, noluf, ay bala? Deyir, nolajax maa. Oğlannarım belə getdi, nəvələrim belə getdi. İndi də neçə ildi qalmışam belə. Gorum-kəfənim bu sandıxdı. Bir oğru gəlif onu əlimdən alıf aparmaq istiyir. Bir insaflı adam yoxdu ki, onu qoyam evinə. Öləndə məni o gor-kəfənnən götürəllər. Yazıq insaflı adammış. Deyir, aaz, axşam o sandığı gətir qoy bizim evə.

Qarı axşam gətirir ağlıya-ağlıya, sızıldıya-sızıldıya sandığı qoyur onların qapısının ağzına. Açarı da qoyur bu gəlinin avcına. Deyir, həmən oğlan burdadı. Yoldaşına da amanatdıyır ki, sandıxda gözün olsun. Şıx Səyad gedəndə oğlan sandıxdan çıxır. Özləri bilir neyniyir, nətər eliyir. Şıx Səyad gələndə ağzın bağlıyır.

Belə-belə bir müddət gedənnən sonra bu gedə lap azğınnıyır. Şıx Səyad yeyiv-içənnən sonra gəlif karavatında uzanırmış. Bu da gəlinnən kef eliyənnən sonra gedir Şıx Səyadın karavatında arxası üstə uzananda xayxırıx gəlir, tüpürür, yapışır tavana. Şıx Səyad axşam gəlir. Çörək-zad yeyir, arxası üstə uzananda baxır ki, tavanda tüpürcək var. O saat başa düşür ki, bu sandığ əhvalatıdı. Dinmir. Yoldaşına deyir ki, mən beş-altı günlük səfərə gedəjəm, mənə çox yemək qoyarsan. Tezdənnən durur gedir. Arvad da sandığın ağzın açır, oğlannan burda kefdə-damaxda olur.

Şıx Səyad kəntdərinnən aşağı gedir, görür bulax var. Görür ki, hələ qarannıxdı. Namaz qılır, çıxır orda arduş ağacına ki, bir az hava işıqlaşsın. Elə bir az gözdəmişdi, görür ki, dərviş gəldi bulağın üstə namaz qıldı. Qutarannan sonra cibinnən bir alma çıxartdı, oxudu elədi bir gəlin. Gəlinnən burda başdadı söhbət eləməyə-neyməməyə özü bilir. Dərvişi yuxu tutdu, başın qoydu gəlinin dizinin üstə, burda yuxuya getdi. Qadın baxdı ki, dərviş yuxuya getdi. Dərvişin başın saldı daşın üstünə, yaxasınnan bir iynə çıxartdı, elədi bir oğlan. Bu da bu oğlannan başdadı kef eləməyə o vaxta qədər ki, bu dərviş qurdalandı. Tez oxudu oğlanı elədi iynə, taxdı yaxasına. Dərviş də oxudu, qızı elədi alma, qoydu cibinə. İstədi gedə, Şıx Səyad dedi, ağa dərviş, ayağını saxla. Mən sənnən qabax gəlmişdim, burda namazımı qıldım, bir az yuxuya getmişdim. Bir gedərik. Dedi, sən kimsən? Dedi, mən də dərvişəm, qayıdax bizdə çay içək, sabah gedərik.

Dərviş bunun sözünə baxır, qayıdıllar evə. Uje sabah açılıf. Qapını döyəndə yoldaşı deyir, bəs sən deyirdin bir həftəlik gedirəm? Dedi, qonağ oldu, getmədim, aç qapını. Qız da tez oğlanı salır sandığa, kilitdiyir, açarı qoyur cibinə. Şıx Səyad yoldaşına deyir ki,

altı nəfərrik yemək hazırra. Dərviş deyir, neynirsən altı nəfərrik yeməyi? Deyir, ayrı qonax da gələjəhdi.

Altı nəfərrik yemək bişirilir, altı nəfərrik süfrə açılır. Şıx Səyad yoldaşına deyir, sən də gəl böyrümdə otur. Deyir, dərviş, bilirsən mən Şıx Səyadam? Deyir, yox, bimirəm. Deyir, mən Şıx Səyadam, mənnən söz danmaq olmaz. Cibindəki almanı çıxart. Deyir, nə alma? Deyir, sənə deyirəm almanı çıxart. Almanı çıxardır. Deyir, oxu. – "A kişi..." Deyir, sənə deyirəm kəlamını oxu. Oxuyur, eliyir bir gəlin. Gəlinə deyir, sən də yaxandakı iynəni çıxart. Deyir, nə iynə? Deyir, saa deyirəm çıxart ey. İynəni çıxardır, bir oğlan da ordan olur, üçü süfrənin bir tərəfində oturur. Yoldaşına deyir, sandığın açarını gətir bura. – "Yox, qarının amanatıdı". Deyir, sənin işin yoxdu, gətir. Gətirir açır, oğlan çıxır. Deyir, qorxma, sənə bir şey eləmiyəjəm, sən də burda otur. Deyir ki, mən Şıx Səyad oldum, qırx il qadınnarın əməlin yazdım, axırda bir dul arvad mənim başıma bu oyunu açdı. Belə qərara gəldim kişi üzü görməyən qadınnan evlənim, genə başıma bu oyun gəldi. Dərviş, qadınnar sənin başına o oyunu açıf, mənim başıma bu oyunu. Ona görə gəl ikimiz də bu ölkədən çıxax gedək.

## 128. ADAM ŞEYTAN

Dünyada iki cür şeytan var: biri adam şeytanı, biri həqiqi şeytan. Adam şeytannan həqiqi şeytan ispor eliyir. O deyir, mən çox mərdimazarrığ eliyərəm, ara vuraram. Həqiqi şeytan da deyir, mən çox eliyərəm. Bunlar meşədə bir kolun dibində danışıllar. Deyillər bir-birimizə qırx gün vaxt verək, sonra gəlif nə iş görmüşüksə, bu kolun dibində söhbət eliyərik. Bunlar çıxıb gedillər.

Adam şeytan da cavan oğlandı. O vaxtı padşahın qapısında elçi daşı olarmış, gedif orda oturarmışdar. Orda çağırarmışdar ki, niyə gəlmisən? O da gedif məqsədin deyərdi. Bu da gedir oturur elçi daşının üstündə. Deyillər ki, padşah sağ olsun, elçi daşının üstündə bir cavan oğlan oturuf. Deyir:

– Gəlsin yanıma.

Gəlir. Deyir ki, əlinnən nə iş gəlir? Deyir:

– Padşah sağ olsun, nə olsa.

Deyir:

– Onda sən qabaxca bu çölü süpür, görək nə iş bacarırsan, sonra baxarıx.

Nəysə, bu, həyət-bacanı nətər süpürürsə, özün nətər qələmə verirsə... Hələ padşahın həyətinnən başqa gedif o biri həyəti də süpürür, gül kimi eliyir. Yolnan gələn deyir, bu gözəlliyi yaradan kimdi? Hamı gəlif padşaha xeyir-dua verif ki, nə yaxşı bunu gətirmisən. Padşah bunu keçirir içəri. İçəridə də başdıyır belə gözəl işdiyir, divarlara qədər hər yeri təmizdiyir. Padşah görür ki, bunun qabiliyəti var, hər şeyi bacarır. Padşahın da bir atı varmış, özünnən çox isdiyirmiş. Deyir, elə buna tapşırım həmin ata baxsın. Aparır deyir ki, bax atımın xasiyyəti budu, gündə bu qədər xurma yeyir. İndi buna sən baxarsan.

Bu nətər ata baxırsa, günü-günnən at gözəlləşir.

Padşahın özünün hovuzu varmış. Hər gün səhər gedirmiş hovuzun başında gəzirmiş. Mehtər hər səhər atı tumarrıyır-eliyir, aparır o hovuzda suluyur. Atı sulamaq üçün fıştırıx çalıllar ki, at yaxşı su içsin. Bu da başdıyır fıştırıx çalmağa. Padşahın da bunun fıştırığınnan xoşu gəlir. Deyir, hər səhər buna qulaq asmaq üçün hovuzun başına gedəjəm. Oğlan nətər padşahın gözünə girirsə, padşah arvadına tapşırır ki, bu oğlana mənim surfamda yemək verirsən. Arvad da bunu o qədər çox isdiyir ki, öz uşaqlarınnan ona fərq qoymur.

Artıq vaxtdan da gedir. Bir ay gedifdi, müddətin tamam olmasına iki gün qalıf. Deyir, axı mən bir iş görməliyəm, vaxt da azalır. Otuz səkkizinci gündü. Səhər atı aparır hovuzun başında fıştırıx çala-çala suluyur. Padşah da gəlif əlin yuyur. Özü də bu oğlan həmişə bu padşahdan yarım saat qabax gəlif yemək yeyirmiş. Fıştırıx çalır, deyir ki, ay at, sən yaxşı atsan, yiyən də yaxşı adamdı. Heyif ki onun arvadı... Dalın demir. Padşah fikirrəşir ki, bu nə sözdü. Nə üçün bu deyir heyif onun arvadı?

Oğlan atı bağlıyır yerinə, yemin verir. Gəlir ki, arvad gözəl bir surfa açıf. Çörəh yeyəndə deyir ki, sən ki belə gözəl aylısən, belə qənirsiz gözəlsən da. Heyif sənin yoldaşın... Deyir:

– Neyniyif yoldaşım?

Deyir:

– Vallah, demirəm ey.

Belə deyəndə arvad artıq huylanır. Padşah həmişə gələndə surfa açığ olurdu, oturuf yeməyin yeyirdi. Arvad surfanı dağıdır. Deyir, gəlsin görüm bu nə iş görüf ki, nökər belə deyir. Nökər özü çıxıf gedir.

Padşah gəlir ki, surfa həmən surfa deyil. Surfa dağılıf.

– Aaz, bu surfa niyə belədi? Çayın hanı, çörəyin hanı?

Arvad deyir:

– Get çayı saa kim verərsə, o bilər.

Belə deyəndə padşah barmağın dişdiyir ki, axı çoban maa dedi hayıf sənin arvadın. Yaqın bir iş var ki, bu sözü deyir. Deyir:

– Aaz, nə danışırsan sən?

Deyir:

– Özün bilirsən sən kimə qulluğ eliyirsən.

Ağacına "tfu" deyif arvadını döyür. Mehtər qaçır arvadın qardaşdarının yanına ki, a kişi, niyə oturmusuz burda. Bəs padşah gəldi ki, arvad çayı bir-iki dəyqə gejikdirif, arvadı salıf ağacın altına öldürüf ey. Bunlar da gəlillər ki, arvad belədi. Bunlar ağaca "tfu" deyif başdıyıllar padşahı döyməyə. Oğlan bu səfər qaçır padşahın qardaşdarının yanına.

– Ə, – deyir, – niyə oturmusuz? Ər arvadını döyür deyə gəlinin qardaşdarı yığılıf gəliflər. Qardaşınızı öldürüllər.

Burdan qaçır arvadın əmisi oğlunun yanına, ordan gedir padşahın əmisi oğlannarının yanına. Elə hesab elə ki, bir dəyqədə yüz adam gəlir, böyük bir qırğın olur. Da bunların imkanı olmur ki, bu işin əslini araşdırallar. Bu da papağın belə qaldırır, fıştırıx çala-çala gedir düz həmin kola. Görür ki, həqiqi şeytan ordadı. Bu oxumaq istədikdə şeytan buna deyir:

– Dinmə.

Dinmə dedikdə deyir:

– Ə, nə dinmə ey. Nə iş görmüsən?

Deyir:

– Sən dinmə, gəl bura.

Səssiz gedir oturur şeytanın yanında. Deyir:

– Bilirsən mən nə iş görmüşəm?

Deyir:

– De görüm nə iş görmüsən?

Deyir ki, yarım saatın içində qırx adam bir-birini qırıf. Deyir:

– Hə, görərsən.

Deyir:

– İndi sən nə iş görüfsən? (Söyləyici söhbətə qulaq asan gəlnindən çölə çıxmağı xahiş edir – top.)

Deyir ki, sən qulaq as mən deyim neynəmişəm. Bir dəfə iki adamı başdan çıxartdım, gəlif bu kolun dibində zina elədilər. Onnan sən əmələ gəlmisən. İndi iki adamı yoldan çıxartmışam, onlardan əmələ gələn bir dəyqədə yüz adam qırdırajax. Səni mən yaradıram. Həqiqi şeytan mənəm.

## 129. MUSA PEYĞƏMBƏR VƏ QARA QUL

Musa peyğəmbərin oğul-uşağı yoxuydu. Amma onun minik xalçası vardı. Xalçanı minirdi, səyahət eliyirdi. Ömrünün yaşlı vaxtlarında Allah-taala buna bir qız bəhş elədi. Mamaçalar gəldi peyğəmbərdən ənam istədi ki, bir qızın oluf. Oğul da, qız da züryətdi. Verən Allahdı, amma oğul qızdan bir az şərafətdi olur da. Peyğəmbər xalçanı mindi, çıxdı göy aləminə. Dənizin ortasıynan gedirdi. Gördü dənizin ortasında bir balaca tala var, talada minarə görükür. Dedi: “Mən buranı görməmişəm indiyə qədər, nətər bura gözümə dəymiyif?” Xalçanın puçun burdu, yönəltdi həmən imarətin yanına. Düşdü getdi imarətə ki, bir cavan qız başı aşağı yazır. Salam verdi. Qız başın işdən ayırmadan əleykət salam aldı. Buyurdu ki, ya peyğəmbər, xoş gəldin. Dedi ki, qızım, sənə maşat eliyirəm? Dedi:

– Yox, ay peyğəmbər, söylə. Niyə maşat eliyirsən.

Dedi ki, bir söz soruşum. Sən kimsən? Dedi:

– Mən yazıları yazanam, qismətləri yazanam.

Dedi:

– Saa qurban olum, elə onda yaxşı oldu, mənim bir aş bişirimi – bunnan qabax vaxt aş bişirimiynən gedirdi – bir qızım olufdu. Örgənmağ istiyirəm ki, o qızın talehi nejə olajehdi, kimə yazırsan? Elə olsun özümə uyğun, sözümə uyğun adam olsun.

Nəysə, dedi ki, qızın qismətini yazdım evində bir qulluxçu var qırx beş yaşında Qara qul, ona. Dedi:

– Ay qız, dəli eləmə məni. Bu uşax təzə olufdu, sirdən-sifətdən göyçək adama yazsan ayrı şeydi. Bu Qara qula mən razı deyiləm.

Dedi:

– Ya peyğəmbər, razı olsan da, olmasan da yazıya pozu, təqdirə tədbir yoxdu.

Dedi:

– Yox, mən Allahıma gedif deyəjəm ki, mənim qızım ona qismət olmasın.

Gəldi evə. Hirssəndi. Arvad bildi ki, kişinin qəlbində nəysə toxunmalı söz var. Bir az ara verdi, soruşdu ki, ay kişi, nolar qız olanda. Niyə nuruzunu[19] sallamısan? Dedi:

– Qız olmağına qızdı ey. Mən çıxmışdım səyahətə, yazı yazannarı gördüm. Qızın yazısını evdə bizə qulluğ eliyən Qara qula yazıfdı. Qız indi anadan olur, bunun da qırx beş yaşı var.

Dedi:

– Ay kişi, həfsələ elə, Allahdan kömək dilə. Onda belə elə. O Turi-səna dağına gedif çıxannar bəlaya düçar olur, gün yandırır. Bir namə yaz, möhürü də vur, ver qula. Getsin, orda gün onu yandırsın. Nə sən pis ol, nə də mən. İlahi qüdrətinnən məhv oluf gedəjəh, qız da irilənəndə bir başqasına gedər.

Dedi:

– Sən düz deyirsən.

---

[19] Nuruzunu – sifətini

Aləmi-röyada hər təbəqənin bir hökmdarı var. Peyğəmbər gətirdi Günnər padşahına bir namə yazdı. Nə yazdı özü bilir, bu məhvi qaldı. Naməni verdi Qara qula və tapşırdı ki, mənnən çörək kəsmisən bir yerdə. Oğlum, naməni götür. Harda bərkə düşsən mənim möhrümü qabağa göstər. Çünki bu möhürü görən sənə xələl yetirməz. Amma mütlax naməni yiyəsinə çatdır. Söylədi yaxşı.

Həmin şəxsi yol aldı getdi. Bir meşənin cəzirəsində qarannıx yerdə gedəndə gördü ki, bir maral yıxılıfdı, inildiyir. Döşdəri də süd doludu. Yaxınnaşdı buna, gördü ki, qaçmır. Dedi:

– Ay allahın heyvanı, dil ol danış görax sənin dərdin nədi?

Dedi ki, mən cavan ovçuları allatdım, çox qaçırdım. İndi ayağıma bir qələmə girif irinniyif, ayağ üstə dura bilmirəm. Sən haraya gedirsən? Dedi:

– Mən gedirəm Günnər padşahının yanına, ağamnan namə var.

Dedi:

– Sən allah, gedirsən, mənim də dərdimi de görax Allahıma, mən neynəmişəm? Öz canımı qaçırmışam da. Bu qələməni ayağıma batırıf məni niyə şikəst eliyifdi?

Bu koramıxı çəkdi, yerinə əlinnən gələnnən sarıdı, bağladı. Dedi:

– Deyərəm, Allah-taala nə buyursa onu eliyarıx.

Getdi bir dəryanın kənarına çatanda gördü ki, yox, bu dərya çox böyükdü, burdan keşmək mümkün döyül. Sağa-sola fikirrəşdi, çıxartdı dəstərxanın. Dəstərxanı aşdı çörək yedi, birdən dərya təlatümə gəldi. Su qalxdı qabarma nəticəsində, bir dənə nərə balığı ayannan hüjum çəkdi bunun üstünə. Ləpə bunu alanda naməni çıxartdı göstərdi. Dedi:

– Ey allahın heyvanı, mən Musa peyğəmbərin elçisiyəm.

Balığ geri qayıtdı, çırpındı və dedi:

– Səni and verirəm, Allahın allahlığına və peyğəmbərin vəxtinə. Kimsən, haraya gedirsən, mənnən daldalanma?

Dedi ki, mən bu naməni aparıram Günnər padşahına. Deyir:

– Gedirsən, o Allahına de ki, ayda bir, həftədə bir başımdan bir ağrı tutur, bu dəryanı alıram başıma, qatıram, qatışdırıram, neçə

balıx leşgər varsa hamısın təlatümə gətirirəm. Amma birdən də yaxşı olur, səbbim alınır, gəlif sərbəst öz yerimi tuturam.

Deyir:

– Məni quyruğunun üstünə al, bu dəryadan o taya addat, gələndə mən bu sözü sənə deyəjəm.

Balıx lələyinin üstündə buna yer verdi. Çıxdı üstündə uzandı. Dedi:

– Bərk tut mənnən.

Süzdü dəryanı eninə, keçirtdi o taya. Bir az getmişdi, gördü ki, bir dəyirman var, bunun püştəsinin üstündə bir çinar var, onun kölgəsində üş dənə qoja oturuf söhbət eliyillər. Salam verdi.

– Əleykət-salam.

Soruşdular:

– Oğlum, hardansan? Qərib adama oxşuyursan.

Dedi ki, baba, mən filan şəhərdənəm. Şamnan gəlif məkana gedirəm. Günnər padşahına namə aparıram. Dedi:

– Oğlum, ora ölüm yeridi. Oraya gedif çıxmax çətindi. Sənə yol göstərərıx, onu eliyərsən, amma bizim də bir dərdimiz var. Allahdan xayiş elə ki, bizim də dərdimizə əlac eləsin.

Dedi:

– Nə dərdidi?

Dedi:

– Üç qardaşıx. Atamızdan qalma bu torpağı üç yerə bölmüşux. Bu su da gəlir dəyirmanın püştəsinnən gedir, həmi dəyirmanımız işdiyir, həmi də sahəni suvarırıx. Meyvəcat, əkin-biçin yetişən məqamı çatanda quruyuf hamısı məhv olur. İndi yeri dəyişirik, o mənim yerimi əkir, mən onun yerini, yenə əmələ gəlmir. Allahımıza de bu qismət niyə bizdən uzax gəzir? Gələndə burdan gəl. Qaldı sənin oraya getmağın, gəl sana bir söhbət eliyax. Gün gəlir günorta namazında bir dəyqə, iki dəyqə göydələndə durur. Günün duran vəxti deyillər. Onda sən yeri qaz. O ağacın putaxlarınnan qır onun üstünü döşə, içəri kölgə olsun. Sən gir o ağacın altında qəbrə. Naməni çıxart göstər, orda səs-səda gələjəh sənnən sorğu-sual

eliyə. Nə desələr ona əməl elə, yoxsa günün altında dursan səni yandırıf külə döndərəjəh.

Oğlan işıqlaşanda çatdı həmən məkana. Tez bir yer qazdı, özünə bir yer düzəltdi ağac qırıntılarınnan. Nəfəsin alanda gün çıxdı. Gün gəldi günorta məqamına çatanda səda gəldi:

– Ey qul, xoş gəlif səfa gətirmisən. Nə ərzin var?

Bu altdan naməni çıxartdı bir balaca yerdən tulladı çölə ki, Şahı Musadan sizə namə gətirmişəm. Naməni tulladı çölə. Səda gəldi ki, çıxma çölə, səni şüam yandırar. Musaya deyərsən yaradan nə lazımdı ona verifdi, qismətin, ruzusun verifdi. Ayrı sözün? Deyir:

– Vallah, gələndə bir maral yaralıydı, ayağına tikan batmışdı. Çıxartdım. Sim eliyif qıçını, yerimağa imkanı yoxdu.

Gün deyir ki, cavan qəlbini o qədər qırıf, cavannarı alladıf, onların qarğışı tutuf. Cavan qarğışı pis olar. Get denən bir də heylə iş görməsin. Quyudan çıxanda bu ağacın yarpaxlarınnan yığ bir dəstə bağlaginən. Apar onu məhləm elə, sıx suyunu çıxart, onun yaralarına, qıçına vur. O həmən günü olajax sapbasağ. Ayrı dərdin?

Deyir:

– Bir də gələndə Ağ dənizdə belə bir balıx çıxdı qarşıma.

Deyir:

– Onun burnunda bir ləl var. Qırx dənə padşahın varidatı onu ödəmir. O ləl yerindən tərpənəndə nejə öd kisəsində daş tərpənə, o təlatümə gəlir, dəryanı qatır bir-birinə. Bu tayda yox, sən onu allat o taya keç. Özü səni düşürtmağ üçün bir az çıxajeh qırağa. Desə ki, dərdim nədi? Yumruğunnan burnuna möhkəm vur. Pısqırajeh, ləl sıçrıyajeh qırağa. Onda ləli götür, qırağa qaç. İstiyəjəh ki, səni sor-sun, onda naməni çıxart ona göstər. Onda qayıdajeh. O ləl sənə ömürrük bəsdi. Onun başının ağrısı odu. Onnan da ağrıdan qutarajeh.

Dedi:

– Bəs o üç qardaşa nə deyim?

Dedi:

– O qardaşdarın yanında beş dənə xum[20] var. Onlar bir-birinə bağlıdı. O dəyirmanın püştəsindəki su gəlir o qızılın içinnən axır. O su şəfayətin itirir. Onun çölləri sulamağa, şirə vermağa ixtiyarı yoxdu. Ona görə qazıf o püşdədəki qızılı çıxartsınnar, su sərbəst axsın sahəyə. Quru torpax suyu sorajeh, məhsul verəjəh. Bunların da varı budu.

Onnan sonra dedi:

– Qisməti Allah versin. Sənin də qisməti vermişıx. Yerinnən çıxmazsan, ancax gün qürub eliyəndə yerinnən çıxarsan.

Eləjə də oğlan günbatanı gözlədi. Gün batanda durdu dağdan dığırrandı, gəldi yendi dəyirmana ki, həmin kişilər həmən yerdə bunu gözdüyüllər. Gəldi bunlarnan öpüşdü, görüşdü. Əl-üzün yudu, bunlarnan çörək kəsdi yedi. Dedi:

– Oğlum, indi dərdini de da, səhər açılır. Allaha bizim dərdimizi dedinmi? Nə dedi, bizə bildir.

Dedi:

– Baba, bu su gəlif ki püştədən axır, bu hörgünün altında beş dənə xum var. Bu su o qızıla dəyir, sürtünür gedir dəyirmana, ordan da çıxır sahəyə. Siz adam tutun, yeri qazın, qızılları götürün. Suyun qızılnan əlaqəsi kəsilsin, onnan sonra sərbəst işizi görün.

Dedi:

– Qal biznən, qazax çıxardax, yarı bölax da.

Dedi:

– Yox, maa Allah nə verifsə odu. Mən nə şələ götürən döyüləm, nə də qızıl aparan.

Bir əl xəşdığı buna verdilər, oğlan yola düşdü. Gəldi həmin dəryanın qırağına. Çağırdı, balıx gəldi bunun qabağına. Dedi ki, ey balıx, məni o taya addat, onda sana deyəjəm. Dedi:

– Burda de da nolur, ürəyim darıxır.

Dedi:

– Yox. Maa tapşırıflar ki, o tayda deyim.

---

[20] Xum – çəllək

Balıx lələyin çevirdi, oğlan çıxdı lələyin üstə. Balıx süzdü gəldi bu taya. Bu tayda yerə düşdü. Çırpdı, üst-başın düzəldəndə dedi:

– Yaxın gəl.

Balıx bir xeylax çıxdı torpağa. Dedi ki, sənin başının ağrısı... Yumruğun cəmlədi vurdu balığın burnuna, bax bu burnundakındadı. Burnuna vuran kimi balıx pısqırdı, ləl sıçradı getdi. Balıx qıvrıldı suya təlatüm elədi, su köpükləndi. Buna hüjum çəkəndə naməni tez çıxartdı buna qənşər tutdu. Balıx xof elədi, qayıtdı. Dedi:

– Ey insan, o ləli qaytar mana ver, nə istiyirsənsə gətirim sana verim. Dənizin altınnan mərcannar gətirim verim.

Dedi:

– Yox, mənə çatan çatıf. Mənə elə o ləl bəsdi. Səni ağrıdan, dəryanı təlatümə salan, ömrünü gödək eliyən bu ləldi.

Balıx sakitləşdi getdi. Bu ləli qoydu qoltuğuna gəldi, çıxdı maralın yanına. Maralın yanında baxdı ki, şişif qıçdar əndazadan çıxıf. Bir qab tapdı, yarpaxları əzdi, suyun tökdü qabın içinə. Suyunnan yaralara tökdü. Qalan yarpaxları əzdi məhləm qayırdı. Köynəyinin bir qolun çıxartdı, kəsdi, bunu sarıdı. Bir az istirahət elədi. Özü də yatdı, maral da yatdı. Günün də saralan vaxtıydı. Maral oyandı ki, qıçası sapbasağdı. Dedi ki, ay maral, sən cahılları allatmısan. Cahıl qəlbini qırmax çox günahdı. Onların da duasıynan sən belə zarıncı olmusan. Bir də belə eləmə. Dedi:

– Ay bəni-insan, sən ki mana bu hörməti elədin, mən insannardan kənar qaçırdım, indi qaçmıyajam. Amma indi gəl min mənim belimə, səni aparajam o gölə ki, Yusif peğəmbərnən Züleyxa o göldə çimif.

Axı Züleyxanın qırx səkgiz, əlli yaşı varıydı, Yusifin də iyirmi-iyirmi iki yaşı. O vaxtı onlar o çayda çimif on beş yaşında qız-oğlan oluflar. Apardı o gölə atdı. Oğlan bir az çimdi, yuyundu-elədi. Baxdı ki, belə şafaqda bir gözəl oğlan buna baxır, adamın xoşu gəlir. Da bayaxkı qara quldan bir əsər-əlamət yoxdu. Oluf on beş yaşında cavan bir oğlan.

Ordan hərrəndi gəldi həmin şəhərə ki, Musa peyğəmbər şəhərdə hərəkətdə, qız da irilif, uje həddi-buluğa çatıf. Nəysə,

tacirlərnən müqavilə bağladı ki, hissə-hissə ləlin xırdasın gətirsinnər. Ləli tacirlər götürdü Şam, Bəsrə, Macarıstan, Tatarıstan – hər yanı gəzdirif xırdalıyıllar. Hissə-hissə xırdalıyıllar. Tükan malı gətirillər: qırmızı xara, məndulə, küçə mənə dar gəlir, qonşu çatdadan, bağır yaran parçalar gətirillər. Bu da tükanda topaynan satır. Səs yayılır hər tərəfə ki, bir cavan tacir yaranıfdı Şam şəhərində, əvəzi olmayan tükan malı satılır.

Bir gün Musa peyğəmbərin qızı padruqalarıynan gəlif burdan keçəndə qırmızı xaradan paltarlığı görəndə yaxınnaşdılar. Oğlanı görəndə xara yaddan çıxdı, xaranı görəndə oğlan. Aşığ oldu oğlana. Nə alajam, nə almıyajam. Bunu göstərdi, onu göstərdi, gözü oğlandaydı. Axırı qıznan çıxdılar gəldilər. Dedi:

– Ay qız, get ana de, hansı parçanı istiyirsə, gəl de onnan verim.

Qız evə gələndə parça yadınnan çıxdı. Dedi:

– Bir oğlan yaranıf burda, onsuz bir gün nəfəs ala bilmərəm.

Axırı arvad durdu, bunnan gəldi tükana baxdı ki, doğurdan da, bu bura adamı deyil, amma gözəl, paki-müntəzər, Yusifin şiklindədi. Burdan gəldi kişini yavaş-yavaş yavaşıtdı. Dedi:

– Kişi, bilirsən nə var?

Dedi:

– Nədi arvad, gənə yaxınnaşırsan mana?

Dedi ki, şəhərdə bir tacir əmələ gəlif. O Qara quldu, kimdi, o gəlməmiş dur qızı apar orda parça almağa, özün də bax, qızı ver o tacirə. Dedi:

– Arvad, kartof xijikidi[21] aparıf pay verəm?

Dedi:

– Bax gör də, bir evə təhlif elə.

Nəysə, getdi.

– Salam.

– Əlöykət-salam.

Görüşdülər.

– Oğlum, xoş gəlmisən bizim şəhərə.

---

[21] Xijik – balaca kartof

Bunun Qara qul olduğun bilmir. Sifət, iqlim tamam dəyişilif. Amma oğlan peyğəmbəri tanıyır. Dedi:

– Baba, burda otur.

Çay gətirtdi. Tükanda çay işdilər. Qızın da çağırdı. Dedi:

– Get ananı da gətir, hansı parçadan deyirsən sana paltarrıx alım.

Yaşıl xaradan, qırmızı xaradan hərəsinnən bir donnux aldı, arvadnan qıza verdi ki, siz aparın evə, bir qonax tədarükü də görün tacirnən evə gedəjeyih. Tacir dedi ki, əbo, sən get, evin yerin mana de, mən axşam inşallah gələrəm. Sən burda oturuf niyə əziyyət çəkirsən. Dedi:

– Bu gözəl sözdü, oğul. Evimiz filan yerdə, filan döngədədi.

Eləysə, bu gəldi qonaxlıx tədarükünü görəndə tacir bir sini də daş-qaş, ləli-gövhər yığdı, həmən naməni də qoydu örtüyün altına. Qoydu bir qulun başına, özü də yanında, tacir libasında getdi peyğəmbərin evinə. Salam, əleykət-salam. Xoş-beşdən sonra oturdular. Bunnan iki qul-qarabaş gəlmişdi, gətirdikləri ləvazimatı döşəməyə qoydular. Peyğəmbər baxdı ki, qiymətsiz hədiyyələri var və öz möhürüynən imzalanmış məktub burdadı. Belə baxdı, ayna baxdı, arvada baxdı. Arvad dedi:

– Gözü niyə döyürsən?

Dedi:

– Arvad, o məktubu götür görüm, o mənim möhürümdü deyəsən.

Dedi:

– Kül başına, gör harda qarıxmısan. Möhürünü tanımırsan?

Dedi:

– Aç oxu görüm.

Qızı çağırdılar ki, bunu aç oxu görax. Qız açdı ki, yazılıb yazıya pozu, təqdirə tədbir yoxdu. Dedi:

– Oğlum, sən kimsən? Bu naməni mən bizim evdə yaşayan Qara qula vermişdim.

Dedi:

– Ya peyğəmbər, həmən Qara qul mənəm. Verdin, getdim ölümə. Qismət dəyişdirdi, gəldim varrandım, tacir oldum. İndi gəlmişəm, sənin qarşında acizəm. Ya oğulluğa götür, ya qızını ver mana qohum olax.

Dedi:

– Oğul, ilahinin dedığıdı. Yazıya pozu, təqdirə tədbir yoxdu.

Onnan sonra oğlunu verdi həmən tacirə. Allah hamının subaylarına toy qismət eləsin, sizin də istəyinizi yerinə yetirsin. Cəmi eşidənlər, oxuyanlar, ərsəyə gətirənlərdən də Allah razı olsun, onların da marağın artıq eləsin siznən bir yerdə.

## 130. COMƏRD QƏSSAB

Babam söhbət eliyirdi ki, Qazax mahalında bir kişinin xeylax qızılı olur. Kişi simic adam olur: nə yeyir, nə arvada xəşdiyir. Bunun da üç oğlu olur. Qızılın yerin heç kimə demir, özü də ölür gedir. Bir günnəri bir abid gəlir o kəndə. Hərə öz ölüsünə Quran oxudur. Bu uşaxlar deyir ki, baba, bizim atamızın varı varıdı, amma harda basdırdığın anamıza demiyifdi. Biz də uşağ olmuşux. İndi kasıbıx, üzümüz qaradı, atamıza Quran oxuda bilmirıx. Deyir:

– Oğul, get Gəncə mahalına, orda ürcah olarsan.

Altıncı imamızın nəvəsi İbrahimin qəbri ordadı. Çox vaxt ordakı İmam Hüsöynün qəbridi deyillər. Amma İmam Hüsöyn Gəncəyə gəlmiyif, Əli gəlif. Əli gəlif Kürün körpüsünü keçəndə bu tərəfdə Kolayır kəndi var. Bir çinar var, on iki metr onun dövrəsinə ancax çatır. Mən orda olanda ağsakqallara sual verdim ki, niyə qol-putağın putamırsız, qırılanın götürüf yandırmırsız? Dedilər, oğul, onun bir putağını aparanın yeddi arxa dönəninə ölüm qismət olur. Əli o vaxtı Düldülü bağlıyıf o çinara. Həmin uşaxlar – İmam Həsənlə İmam Hüseyn də yanında oluf.

O vaxtı Comərdi Qəssabın uşağı olmurdu. Burda qəssablıx eliyirdi, ət satırdı. Gordaynan əti elə vururdu ki, deyir Əli başı üçün nə artığ istəmirəm, nə əysik vermirəm. Elə vurardı, qoyardı tərəziyə, neçə kilo istəmişsə, o qədər gələrdi.

Şəhər yəhudi icmasının idi. Əli bunları islam dininə döndərif müsəlmançılığı yaymaq fikrinə düşmüşdü. Comərdi Qəssabın yanına bu uşağın birini göndərdi ki, get üç girvəngə ət al. Əti alır gətirir. Əli ətin o üzünə baxır, bu üzünə baxır. Deyir ki, apar qaytar, öz pulumuzu al gətir. Bu gəlir deyir ki, qəssab, ala ətini, ağamın xoşuna gəlmədi. Deyir:

– Ayrı ət verim.

Deyir:

– Yox, lazım deyil.

Pula baxanda görür puldan nur iyi gəlir, həmi də parlaxdı. Mücrədə pulu dəyişdirir. Oğlan pulu gətirir Əliyə verəndə Əli deyir ki, yox, bunu apar, denən öz pulumuzu ver. Bu pul bizim döyül. Əli yanındakı oğluna deyir ki, qardaşın orda gedif mübahisə eliyəjəh, gəl gedax onu qutarax. Gəlir ki, bunlar deyişir. Qəssab deyir ki, bir belə pulun hamısın saa verirəm, amma o pulu istəmə. Əli deyir:

– Qəssab, niyə uşağı incidirsən?

Deyir ki, başına dönüm ağa, bir qəpikdi, verdi, atdım mücrənin içinə. Amma haraya düşüfsə, tapa bilmirəm. Bir belə pulun hamısın verirəm, götürmür. Deyir:

– Çünki o sənin döyül, sahibinindi.

Deyir:

– Sahibinə də qurban olum, onun adına da. Mən bir ev tikdirmişəm onun adına. Mənim züryətim yoxuydu. Allah-taala bir züryət verdi mana, adın da qoymuşam Əli. İndi o Əlini gözdüyürəm ki, otağın birində oğlum Əliynən mən olurux, birinin də ağzı qıfıllı durur. O gözəgörünməz Əli gələjehdi, oraya qonax olajax.

Deyir ki, yığışdır ayın-oyununu, gedax. Gələr inşallah. Qəssab tez əl-ayağını yığışdırır. Qonaxnan gəlirlər evə. Gələndə arvada deyir ki, arvad, bu qonaxdan ağlım bir şey kəsmir. Bunu bizim otağa aparax da, Əlinin otağına getməsin. Deyir ki, qonax qardaş, gəl buyurax bu yana. Deyir ki, yox, ora gedəsi deyiləm, mən bu evə düşəjəm. Deyir:

– Oranın açarın uşax hara qoyufsa tapmıram, kilitdidi.

Deyir:

– Açar lazım döyül.

Mübarək barmağın qıfıla yaxınlaşdıranda qıfıl öz-özünə açılır. Qapıların ikisin də açır, uşaxlara deyir, gəlin içəri. Gəlif oturullar. Bu durur yemax hazırratdırır.

Goranın padşahı tip xəstəliyinə düşür. Elçi gəlir ki, ey Comərdi Qəssab, padşah cüzam xəstəliyinə düşüfdü, sıldırrıyır tökülür yarası. Ona müsəlman qanı deyillər. Sən də Əli müsəlmanısan. Oğlunun başın kəs, qanın ver bizə. Arvadnan məsləhətdəşir, uşağı aparır evin dalında başın kəsir, qanın tutullar şüşəyə, verir həmən Gorana, aparır. Cənab Əmirin burda fikri nədi? Həm Goranı ələ gətirmək, həm də Gəncəni müsəlman eləmək. Oturullar çörəh yemağa. Deyir:

– Bala, Əlini çağır biznən çörək yesin.

Deyir:

– Qadan alım, uşaxdı da, oyunuyur, hara gedifsə yoxdu.

Deyir:

– Yox ey, ölüdü ölüsün gətir, diridi dirisin.

Deyir ki, mən Əli düşkünüyəm, Cənab Əmirin adına bu evi tikdirmişəm. Goranın hökmüdarı cüzam xəstəliyinə düşüf. Haqqın qapısı açıxdı. Mənim qapıma Əli qanı, şiə qanı üçün gəldi, mən də Əlinin yolunda kəsdim verdim. Deyir:

– Dur uşağın nəşini gətir bura.

Gətirdi. Uşağın başını bədəninin üstünə qoydu, yönün tutdu hak dərgahına, yeddi rükət namaz qıldı, yön çevirdi Allaha. Dedi, ya rəbbi, səbəb mənəm, verən sənsən. Cənab Cəbreyil zühr oldu ki, ağzının liğavın boğazına çək, yara bitişsin mən nəfəs verəjəm. Əmirəlmömin ağzının liğavınnan kəsik yerləri birrəşdirdi, Cənab Cəbreyil uşağın ağzına üfürdü, uşax cana gəldi. Gözün açanda Cənab Əmir dedi ki, Əli, hardaydın, niyə gej gəldin? Dedi:

– Ya Əmir, Məhəmməd babam behişdə mana alma vermişdi, onu yeyirdim. Əlimdən aldı ki, səni adaşın çağırır, get.

Onnan sonra qəssabın tərəfdarları da döndü Əli dininə din gətirdi, uşaxları da. Əli atasının qızıllarını axtaran qardaşlara deyir ki, gedin siz də filan qəbirstannığa. Ordan köş gəlif gedəjəhdi.

Atanız onun dalında bir qara it şiklində axsıya-axsıya gələjəh. Onda sən atannan soruş. Denən ay gorbagor kişi, pulun yerin də maa demədin ki, səni də bu zülümdən qutaram, özümü də. O sana yerini deyəjəhdi. Burda mən desəm gedif tutaşarsız. Onlar ataların tapdılar, çönüf müsəlman oldular. Xudabəndi aləm hamının üstə yar olsun. Qəssabın oğlu dirildi, özü hakimiyyətə gəldi. Bir müddət oranın sahibi oldu.

## 131. QƏŞƏMŞƏM

Tərtərnən Bərdənin arasında beş dənə kənd var. Onların arasında Püştər meşəsi vardı. Bu meşədə Cənab Əmir zühr olur. İmamətdıx, gözəgörünməzdər yiyəsiz yerdə görükür. Gəlir ki, bir dənə pəhlivan cüssəli adam ağlıyır. Əli bu adama yaxınnaşdı.

– Ərbab, niyə ağlıyırsan?

Dedi ki, sənnən mana nə yağ damar ki, məni ağlamaxdan hifz eliyəsən? Dedi:

– Mən sana çox şey bağışdıya bilərəm, canımı da qurban verərəm.

Dedi ki, Şəhri-Bərbərin bir kralı var. Kral pul verir, neçə gün də vaxt qoyur. Gün doğan kimi pulu da, oğlumu da gətirməliyəm. Pulun ödədim oğlumu buraxır, pulu ödəyə bilməsəm, oğlumu verirəm də. Öldürər, itirər, ya özünə saldat eliyər özü bilər. İndi oğlum ölüf, pul da xəşdənif. Heş nəyim yoxdu. İndi də vəxt tamamdı, getməliydim onun qəbuluna. Dedi ki, gəl məni apar oğlun əvəzinə sat ona. Dedi:

– Axı günortadan keçif, gün əyilif.

Əli yeddi rükət ayət namazı qıldı, yön tutdu hak dərgahına ki, ya rəbbim, saili borcdan qutarax. Amma mənim burda başqa məqsədim var. Bərdəni də, Goranboyu da müsəlman eliyirəm. Allahtaala buyurdu ki, müstəcəbdi, neynirsən elə. Onda kişiyə dedi məni apar, adım da Qəşəmşəmdi. Dedi ki, yaxşı. Dedi, onda günortadı, günü günortadan qaytar. Barmağıynan işarə eylədi, gün qayıtdı dala. Getdilər kralın yanına. Kral dedi ki, yox ey Goran, gövdən pəhli-

vana oxşuyur. Özün də ki, ipə-sapa yatmırsan. Borcu gətirmisən, yoxsa yox? Deyir, borcu gətirməmişəm, oğlumu gətirmişəm. Satıram, pulunu çıx, qalanını da ver özümə. Dedi, oğlun hansıdı? Dedi, budey Qəşəmşəmdi. Baxdı ki, ortaboylu bir adamdı, şimşək baxışları var. Amma Əli Gorana demişdi ki, tərəzinin bu tayını ayağınnan basarsan, nəxarta artıq götürə bilərsən götür. Əli çıxdı, Əlinin də ağırrığı oldu, bu ayağıynan da basdı. Gördü iki-üç at yükü qızıl gəldi, xəzinə boşaldı. Onda işarə elədi ki, bəsdi. Tərəzi düzələndə qalanını yığıf qaytardılar. Kral əhəmiyyət vermədi ağırrığına, yumulluğuna. Dedi:

– Bir belə qızıl aparırsan, Qəşəmşəm. Sənin əlinnən nə iş gəlir?

Deyir:

– Ey hökümdar, on beş nəfər bir gündə nə iş görürsə, mən onu tək görürəm.

Dedi:

– Lap yaxşı.

Goranı yola salanda at verdi yükləməyə. Əli buna demişdi ki, harda olsa sən Əliyə sığınginən, mən sənnən də görüşəjəm, o tayfanı çevirək müsəlman eliyax. Cüzam xəstəliyinə onu saldı, Comərd Qəssab oğlunun qanıynan onu sağaltdı ki, Əliyə ürəkdən vurulsun.

Səhər əmr elədi ki, Qəşəmşəmi çağırın buraya. O biri fəhlələr də gəldi. Dedi, gedin Kürün meşəsinnən odun gətirin, burda qonaxlıx olajax, ehtiyat görax. Əli Əleyhsalam zülfüqarın götürdü meşəyə sarı getdi. Belə baxdı, biri ip götürüf, biri balta götürüf, biri araba sürür. Əli meşəyə yaxınnaşanda nərə çəkdi, bütün vəşi heyvannar yaxına gəldi. Hərə öz dilində çağırdı la-ilahə-illallah. Əli buyurdu ki, hərə bir odun ağaj aparsın Şəhri-Bərbərə. Bütün vəşi heyvannar nə başarırsa, götürdü gəldi. Kral bir də baxdı ki, bir belə ağajı saray tutmaz.

Bir günnəri bunlar su korruğu çəkirdi. Kəlbəcər dərəsinin ağzı birrəşmişdi, dağ bir-biriynən baş-başa gəlmişdi. Su iki dağın arasındakı deşikdən axırdı. Bir əjdaha da gedif burnun salmışdı oraya. Bir qızı geyindirif-kejindirif, qırmızı bəziyif gətirərdilər. Əjdaha çıxıf onu sorardı, gedərdi kənarda bir çinar ağajı vardı,

çinara dolanıf onun sür-sümüyün qırardı, gedif bir saat, iki saat yatardı. O yatdığı zaman ordan nə su götürsələr o idi. Onnan sonra bir də gəlif burnun soxurdu oraya. Heş kim də qorxusunnan öldürə bilmirdi. Kralın birjə dənə qızı vardı, öz bajısı oğluna da deyikli idi. Kral Əliyə dedi ki, sən su qablarını götür, mənim qızımın bu gün nööbəsidi. Qızı da apar özünnən, ver əjdahaya, amma qabları doldur gətir, içməli su yoxdu.

Eləcə də elədilər. Yaxınnaşanda əjdaha baxdı ki, qız gəlir. Əli də bunun yanınca gedir. Yaxınnaşanda əjdaha burnun deşikdən çıxartdı bunları sordu. Sonranda Əli dedi ki, qız, dayan sən. Ağajdan tut, irəli çıxma. Qılıncını yanı üstə tutdu, əjdahanın ağzına verdi. Əjdahanı yarı böldü, gəldi quyruğunun yanına. Əjdahanın qanı bir yannan, su da bir yannan. Dərə yenişə qannı su axırdı. Camahat cumur. Kimi qabın doldurur, kimi qanınnan götürür. Elə bilirlər əjdaha genə tutajax oranı. Amma qız əlin qana basdı, bu oğlanın kürəyinə nişan qoydu. Ara qarışdı, dəftər itdi. Bu səfər su zülallaşannan sonra, əjdahanın öldüyü bilinənnən sonra cəngavərlər muştuluğa qaşdı ki, əjdahanı mən öldürmüşəm. Kiminə ənam verdi, kimə vermədi. Şah buyurdu ki, qız salamatdısa, onu gətirin. Qız özü biləjəh. Gələn deyir mən öldürmüşəm. Bunu bir adam öldürüf, yeddi adam öldürmüyüf. Qızı sorğu-sual eliyəndə dedi:

– Ateyi-mehriban, onu öldürən adamın kürəyinə əlimi qan eliyif basmışam.

Qəşəmşəmi çağırdılar, kürəyinin arasında qızın əlinin şikili. Dedi:

– Bax bu oğlandı.

Onda həmin kral təhlif elədi.

– Ey Qəşəmşəm, sən gələn gündən mən sənnən şübhələnmişəm. Həmi qızılı çox çəkdin, həmi də sənin işini on iki adam yox, iyirmi iki adam da görə bilməz. Ən axırda ki, bu qızı maa verdin, indi səni nejə razı salım? Qız sənindi: istiyirsən aylə qur, istiyirsən apar.

Dedi:

– Ya hökümdar, bircə kəlmə sözüm var. Dinimə din gətir. Şəhri-Bərbəri döndər Məhəmməd dinini qəbul eləsin.

Bunu da car elədi, ay camahat, bizə zərəl gətirməyən belə xeyirxah adamın dinin niyə qəbul eləmiyəh? Hamı "urra" çəkdi ki, bu suyu ki bizə bəhş eliyif, bizə o bəsdi. Dedi, hələ suyu açajam. Onda gəldi dərəni zülfüqarnan çapdı, suyun qabağını aşdı. Hər şeyi qutaranda dedi:

– Şah sağ olsun, qızını da ver bajın oğluna. Mana verdiyin qızılı da ona cehiz ver. Gorannan da əlaqə saxla. Həmən sail indi şahdı. Sənnən şahlıq iddiası olmuyajax, müsəlmansınız, bir-birinizə kömək durun.

## 132. SƏXAVƏT YAXŞIDI, YOXSA İBADƏT

İmam Hüsöyn uşaq vaxtı gəlir anasının yanına. Deyir, ana, mənə yaxmac ver. Anası inəyin kərə yağını çörəyin bir diliminin üstünə yaxır, verir uşağa. O biri qardaşıynan çöldə qabaxlaşır. Deyir:

– Qardaş, səxavətin olsun, onnan bir tikə də ver mən yeyim.

Deyir:

– Ə, nə səxavət. İbadətin olsun. Səxavət olsa da olar, olmasa da.

Hər ikisi qayıdır analarının yanına ki, ana, səxavət yaxşıdı, ibadət yaxşıdı? Mən qardaşım Hüsöynə dedim ki, çörəkdən kəs mən də yeyim, vermədi. Onda deyir ki, mənim yox, babanızın yanına gedin.

Yaxmacın da verir, bunlar yeyir. Hər ikisi gülə-gülə gedir. Məhəmməd peyğəmbər deyir ki, mənim balalarım, niyə mübahisə eliyirsiz? Deyir ki, əbo, Hüsöynə anam bir yaxmac vermişdi, mən də istədim. Dedim səxavətin olsun. Hüsöyn dedi ibadətin olsun, səxavətin olmasa da olar. Amma mən də deyirəm səxavət yaxşıdı. İndi bizim dedığımızın hansı yaxşıdı? Baxdı iki tər gül, ikisi də balasıdı. Bunun sözün desə bu inciyəjək, onun sözün desə o birsi inciyəjək. Dedi ki, yaxmacdarı yemisiz? Dedilər:

– Hə.

Dedi:

– Qarnınız toxdu?

Dedilər:

– Hə.

Dedi:

– Onda gedax qəbirstannığa.

Uşaxları aldı yanına, getdilər qəbirstannığa. Üç qəbir keşdilər, dördüncü qəbirdə çağırdı:

– Ya əbə əbdüllahi.

Qəbir yarıldı, səda gəldi:

– Ya Məhəmməd, eşidirəm səni.

Dedi ki, bizi bu gejəliyə qonağ elə. Dedi:

– Ya Məhəmməd, səni qonağ eliyə bilmərəm. Yerim sudu.

Dedi:

– Niyə yerin sudu?

Dedi:

– Yer üzündə su bizim evin dalınnan gəlif gedirdi. Mənim bir anam vardı. Həmişə suyun qabağını kəsirdi, mən də ona qoşulurdum: arxı dağıdırdım, su bizim məhləyə axırdı. O biri qonşuya su vermirdıx.

Dedi:

– Deməli səxavətin yoxuydu da. Anan nə iş görürdü?

Dedi:

– Anam da namaz qılan idi, Quran oxuyan idi.

Dedi:

– Uşaxlar, eşidirsiz?

Dedi:

– Eşidirıx baba. Əlbəttə, onun səxavəti də olsaydı, ibadəti qəbul olardı.

Dedi:

– Yaxşı, sakit olun.

Getdi yeddinci qəbrin ağzında bir də çağırdı. Bir nəfər bunun çağrışına gej gəldi. Dedi:

– Sən niyə gej gəldin çağrışa?

Dedi:

– Ya Məhəmməd, daxil olanda bir fatihə surəsi verdin. Onun uçretindəydih. Yerin altında bu saat yetmiş min ölən var. Sənin bir fatihəni yetmiş min yerə bölürdük, mən də öz payımı gözdüyürdüm.

Dedi:

– Payına nə düşdü?

Dedi:

– Payıma dörd dəvənin yükü nur düşdü.

Dedi:

– Bə bir besavat adam fatihə versə nejə?

Dedi:

– Onun yarısı qədər.

Onda dedi ki, mənim balalarım, gördünüzmü, bu da bizim səxavətimizdi. Biz evdə nə iş görürux görürux, amma burda səxavət göstərməsəx bunlara pay çatmaz.

Eləcə də gəldilər üçüncü qəbrə səsləndi, gözəl-göyçək bir oğlan çıxdı. Dedi:

– Ya peyğəmbər, xoş gəlmisən bizə.

Dedi ki, əleykət salam, xoş günün olsun. Adın nədi, oğlum? Dedi:

– Adım Əlidi.

Dedi:

– Əli, adına qurban. Olar ki, bizi bu gejə qonağ eliyəsən?

Dedi ki, ya Məhəmməd, eliyərdim, amma aylə üzvünnən xəjalətəm. Dedi ki, niyə? Dedi ki, yerim var, amma sözü boldu. Dedi:

– Amması yoxdu, bizi apar içəri, gerisiynən işin yoxdu.

Gəldi üçü də oturdu, uşaxlar da Məhəmmədin yanında. Belə baxdılar ki, bir kirkirə daşı var küşdə. Bir iti bağlıyıflar ora. Bu it səsləndi. Oğlan ajıxlandı ki, dinmə. İt səsini kəsdi. Peyğəmbər dedi ki, Əli, o kimdi, nədi? Onun nə işi var burda? Dedi:

– Ya Məhəmməd, sana agahdı. Mənim bu anam bir molla qızıdı. Evə qonax gələndə başımı-beynimi aparır ki, bu qonağı evə niyə gətirmisən. İndi mən sənin yanında xəjalətəm. Allahdan dua

elədim, qonax yanında belə xəjalətdi olmamax üçün anamı belə bir it elədi, o daşa bağlamışam. O yannan belə güzaran keçirdirıx.

Dedi ki, yox, icazə ver mən daxıl düşüm[22], ananı öz şiklinə qaytarax.

– Sənə qurban olum, ya peyğəmbər, sən yola gedərsən, bu uşaxların yanında xəjalət olaram.

Dedi:

– Heş nə olmaz.

Yeddi rükət ayət namazı qıldı, baş əydi. Allah-taala tərəfinnən rüsxət verildi, ana öz şiklinə düşdü. Öz şiklinə düşən kimi yerdən peyğəmbərin çəliyini götürdü, kürəyinə ilişdirdi.

– Saa kim deyif gəl bura girginən. Yer var gəlmisən?

Oğlu tez irəli durdu, anasının qolun tutdu. Peyğəmbər dedi ki, Əli, anaya rüsxət ver, günahı yoxdu. Arvad dedi, mən molla qızıyam. Dedi:

– Molla qızısan ibadət eləməlisən. Səxavəti olmuyanın ibadəti nəyə lazımdı ki.

Onnan sonra dedi ki, balalarım, gördünüz? İkisi də təyin elədi ki, baba, səxavət olan yerdə ibadətə ehtiyac yoxdu. Bir kəsin ki evinə qonax gəlmiyə, əlinnən bir manat xərc çıxmıya, yeri gəlsə birinə xeyir vermiyə, Quran oxusa da, lap Quranı şələli gəzdirə xeyri yoxdu. Onnan sonra dedi, balalarım, durun gedax. Əlbət ki, səxavəti olmuyan mollanın ibadəti caiz döyül.

## 133. MUSA ALLAHI QONAQ ÇAĞIRIR

Bir gün Musa peyğəmbər Allah-taalanın yanına gedir. Deyir:

– Ya ilahə-illallah, bütün peyğəmbərlərin sahibi sənsən, amma heş kimə qonax getməmisən. Mən istiyirəm mana qonax gələsən. Deyir:

– Ya Musa, yeyən döyüləm, içən döyüləm, heş kimə görükməmişəm. Get millətini dolandır. Tohit dininə amin de.

---

[22] Daxıl düşmək – xahiş etmək

Deyir ki, yox. Mən istiyirəm sən mənə qonax gələsən, camahat görə, fironnar bilə ki, Musa nə cür peyğəmbərdi. Deyir:

– Get, şənbə günü sana qonağam.

Gəldi milləti, qohum-əqrəbəni çağırdı, qazanı asdılar, bildirçin ətinətən kabab bişirən, aş dəmləyən. Sara adında bir qız burda qulluğ eliyirdi. Bu eynidə yaxında bir evdə bir zahı gəlin varıydı. Bağışda, ifadəmə görə üzr istiyirəm. Evdə heş nə yoxuydu. Gəlin uşağı doğuf, uşağ ağlıyır. Ananı hal aparıf, qüvvəsizdıx əldən salır, yemağın da iyi gəlir. Bu dəkkədə abuşkənin altına bir dilənçi gəlir. Dilənçi abuşkəni tıkqıldadır, deyir:

– Ay bajı, kim var evdə?

Bu zarıyır, deyir:

– Mənəm ay bajı, kimsən?

Deyir:

– Mən dilənçiyəm.

Deyir:

– Vallah, sənin genə ayağın yeriyir, gedirsən. O iy gələn tərəfə get. Mən təzə zahı yatmışam, halım pisdi, durmağa imkanım yoxdu. Qarnım da ajdı.

Deyir:

– Bajı, onda gedim, bir şey tapsam sana da gətirərəm.

Bu yaxın gəlir. Kimə deyirsə, heş kim bunu yaxına buraxmır. Həmin Sara qulluğ eliyirdi burda. Buna yaxınnaşır, deyir:

– Bacılı, Allah verdığı o bərəkətdən bir avıc bir yarpağa bük ver mana, Allah əvəzin verər.

Deyir ki, mənim ixtiyarım çatmır, mən qulluxçuyam. Qoy gedim aşpazın yanına. Aşpazın yanına gedir. Deyir, get peyğəmbərin yanına. Mana deyif ki, qazanın ağzını Allah gələnə kimi aşma. Bu dəkkədə peyğəmbər yaxınnaşır:

– Sara, nə iş görürsən?

Deyir ki, ya peyğəmbər, bir qab yemağ istiyirəm, bir dilənçi var ona verəm, bəlkə savaba yetər. Deyir:

– Dilənçi-milənçi yeri döyül bura. Allah gəlməmiş qazannarın ağzın heş kim aça bilməz.

Bir az ayana gedir. Deyir:

– Ya peyğəmbər, bir ayağını saxla.

Saxlıyır. Deyir ki, Allah məni sana nökər yaratmıyıf ki? Deyir:

– Yox.

Deyir:

– Özün çağırmısan. Mən burda yeməliyəm, axşam da beş dinarımı verməlisən?

Deyir:

– Hə.

Deyir:

– Yemağımı indi ver. Bəlkə Allah gəlmiyəjehdi.

Deyir:

– Ay xanım, qoy qazanın ağzı açılsın, onnan sonra.

Deyir:

– Mən nə xanım döyüləm, nə də Allahı gözdüyən döyüləm. Mənim payımı ver özümə.

Qayıdır deyir ki, aşpaz, bişmişlərdən bir qab düzəlt, ver bu Sara yesin. Ağanın malı gedir, nökərin canı. Aşpazdan nə gedir? Bir qabı doldurur verir. Sara bir turp yarpağını qoyur yemağın üstünə, gətirir dilənçiyə verir. Deyir:

– Ay bajı, ala apar. İmkan ola qabı gətir, olmaz da mən xəjalət qalajam.

Deyir ki, yox, qabı gətirəjəm, amma bu yemağı çatdırım zahıya. Gətirir abuşkəni döyür. Gəlin deyir ki, gəl içəri, qapı açıxdı. İçəri gedir-getmir, dilənçi yeyir-yemir, buna sözüm yoxdu. Bu gəlin yeyir, yedıxca özünə gəlir. Qarnı doyannan sonra əllərin silir ətəyinə, deyir:

– Xudabənd aləm, aləmləri yaradan Allah, qiyamətin günündə, aləmin dibində peyğəmbər nəslinə hesabat verəndə bu qadını orda şəfaətçi elə, bütün müsəlman xalqına şəfaətçi olsun. Mənim qarnımı doyurdu, Allah, sən öz nurunnan bu gəlinin savabını müstəcəb elə.

Boşqabı da gətirif verillər Saraya. Dilənçi də çıxır gedir, zahı da uşağın əmizdirir yatır.

Gejə peyğəmbər də, Sara da yuxuda görür ki, qırx dəvə ləngər salıf, nurnan yüklüdü. Bir körpüdən keçir, körpü ləngər verir. Bir tacir çıxır qabağına ki, bu dəvələrin qiyməti nədi, onu mən verim, dəvənin avsarın burax getsin. Deyir ki, yox, bu dəvələrin qiymətin ancax Sara öz savabıynan ala bilər. Yoxsa bir belə qızıl, ləl-cəvahir versəniz heç birinin qiymətin ödəmir. Bunu peyğəmbər də yuxuda görür. Sara şükür eliyir Allahın varlığına ki, ey xudabənd aləm, mən bir öynə aj qaldım, yemədim, o saili boş qaytarmadım, o zahının qarnın doyurdum, mana o bəsdi.

Səhər Musa gəlir. Deyir ki, Sara, yaxın gəl. Gəlir. Deyir:

– Sara, bu gejə yuxuda görmüşəm...

Deyir:

– Ya peyğəmbər, gördüğunu mən də görmüşəm, heç ağzı açma.

Deyir:

– And olsun yaradanın qüdrətinə, bütün varidatımı, bütün nəsilləmə nə xərcim var son qəpiyinə qədər verirəm sana. Tək bircə dəvənin yükü savabı ver mana.

Deyir:

– Ya peyğəmbər, istiyirsən yeddi arxa ölənlərimi də qaytarıf təzdən dirildəsən, genə verməərəm.

Səhər yol alır peyğəmbər Turi-Sənaya. Min danışır, min birdə səda gəlir:

– Ya Musa, nəyə gəlmisən?

Deyir:

– Ya xudabənd aləm, ola bilərmi ki, sizdə də yalan olsun. Bəs sən dedin qonax gələjəm, niyə gəlmədin?

Deyir:

– Ya Musa, gəldim. Həmin o dilənçi kim idi? Mən idim da. Gəldim, vermədin.

Deyir ki, əşi, bir heylə əziyyətnən qazannar asdırdım, filan. Bəs onun savabı? Deyir:

– Savabını sana yuxuda bəyan elədim. Savabı Sara qazandı. Öz qarnın aj saxladı, payın verdi sailə. Sail də çatdırdı zahıya.

İndi hər adam ehsan verir. O ehsanatın hamısı qəbul olmur. Yüz tikədən bircəciyi qəbul olur, o da kimin bəxtinə düşə.

## 134. SÜLEYMAN VƏ QOCA DÜNYA

Süleyman peyğəmbərin özünün xalçası vardı. Şahi Süleyman xalçaynan gəzirdi. Gördü dəryanın ortasında bir minarə var. Getdi düşdü. Gördü gözəl, həddi-buluğa çatmış bir qız var. Salam verir. Deyir ki, səni alsam gələrsənmi mana? Deyir ki, məni sevənnər peşman olur. Deyir:

– And olsun Allahın allahlığına, mən peşman olmaram. Nə cür olsa mən səni qəbul eliyərəm.

Deyir:

– Onda üzüyü ver maa.

Şahi Süleyman üzüyü verir həmən qıza. Qızın böyründə yeşik vardı. Atır ordakı üzüklərin içinə. Deyir ki, gedim hərrənim, axşam üstü gəlif gejə burda qalajam. Deyir:

– Məslahat sənindi.

Gedir gəzir, səyahətini qutarannan sonrasına gəlir ki, bir qoja qarı oturuf burda. İrəli düşür salam verir, ədəb-ərkanın yerinə yetirir. Qarı deyir:

– Xeyirdi oğlum, nə istiyirsən?

Deyir ki, ay nənə, üzr istiyirəm, bağışda, səhər burda bir qız oturmuşdu, onu gəzirəm. Deyir ki, elə qarşındadı. Deyir:

– Yox, məni allada bilməzsən.

Deyir ki, and olsun Allahın varlığına, peyğəmbərin ümmətinə, elə səhər oturan qızam. Biz vəxt, zəmanəyıx. Səhər tezdən qız olurux, günorta gəlin olurux, axşam da qarı olurux. Deyir:

– Onda mənim üzüyümü qaytar verginən.

Deyir:

– Get yeşikdən çıxart.

Getdi əl atdı ki, bütün üzüklərin üstünə Süleyman yazılıf. Deyir:

– Ay nənə, bunun hamısı Süleyman adınadı.

Deyir:

– Oğul, dünya yaranannan indiyənə kimi o yeşik dolusu Süleymanlar gəlif gedif. Sənin o üzüyü gəzginən ki, üstünə Davud oğlu Süleyman yazılıf.

Onnan sonra öz üzüyünü götürür, vidalaşıllar.

## 135. ÜÇ QARDAŞ

Üç qardaş olur, bir də bir bacı. Kiçik qardaşın adı Musa olur. Musa o biri qardaşdarın hamısınnan ağıllı olur. O biri qardaşdar bir az utancaq olurlar, çəkincək olurlar, küt olurlar, amma bu cəsarətli, bilkli bir cavan olur. Amma bunların bacıları da hədinnən çox xəsis olur. Elə olur ki, qardaşdarı işdiyirmiş, bacılarının əli gəlmirmiş öz qazancından bunlara doyunca yemək verməyə. Elə olur qonşu kənddən bu qıza elçi düşür. Qızın fikrin soruşullar, ərə verillər, gedir. Toyu olur.

Aradan bir xeylax keçir. Bir gün üç qardaş işdən evə gəlir. Ortancıl qardaş böyük qardaşa deyir ki, bacımızı ərə verdik. İndi yol böyüyündü, sən hamımızın böyüyüsən, ata əvəzisən. Get bacımızdan bir xəbər gətir, gör onun vəziyyəti nətərdi.

Nəysə, oğlan səhər yol çörəyi götürür, düşür yola. Gedir çatır. Er[23] gəlir, günortadan gəlif. Deyir ki, qardaş, bilirəm yol gəlmisən, acmısan. Qoy yeznən də işdən gəlsin, bərabər çörək yeyərik. Yeznə də bacıdan betər xəsisdi. Axşam yeznə gəlir. Əlin-ayağın yuyur, girir içəri.

– Salam-məlöyküm.

– Əlöykümət-salam.

– Qardaşım gəlif. Xoş gəlmisən.

Süfrə açanda yoldaşı deyir ki, mən indicə çörək yemişəm. Yoldaşdarnan biçində çörək yemişəm, ac döyüləm. Yəqin qardaşın da ac olmaz. Yerlərimizi açax, yatax. Qardaşı da utancaxdı. Deyə bilmir ki, mən yol gəlmişəm, acmışam.

---

[23] Er – tez

Gejəni birtəhər səhər eliyir. Gözləmir bunların yuxudan durmasını. Deyir, nə qədər ki dizimdə taqət var, gedə bilirəm, gedim. Yol boyu otdan-pencərdən yeyə-yeyə gəlir çıxır evə.

Qardaşdar işdən gəlir. Görüllər ki, qardaşdarı dilxordu.

– Ayə, nədi, nolufdu? Danış bizə.

Bu heş nə danışmır ki, mən gördüyümü gördüm, qanım qaraldı, dilxor oldum. Qoy bunlar da dilxor olmasınlar. Deyir, lap yaxşıdı. Kefi kök, dolanışığı yaxşıdı.

– Bəs niyə qanın qaradı?

Deyir:

– Uzax yol gəlmişəm. Nolacax?

Aradan bir on gün keçir. Ortancıl qardaş deyir ki, növbə mənimdi, indi də mən gedim. Böyük qardaş deyir ki, ə, neynirsən, getmə. Deyir:

– Yox ey, gedəcəm.

O deyir, bu deyir. Balaca qardaş deyir ki, ə, nə istiyirsən, qoy getsin dana. Hələ növbə maa çatasıdı.

Nəysə, bu da yola düşür gedir. Böyük qardaşın başına nələr gəlirsə, daha təkrar eləmirəm, bunun da başına gəlir. Qayıdır dilxor gəlir. Böyük qardaş bilir bu niyə dilxor gəlir, amma kiçiyin xəbəri yoxdu axı.

– Əyə, noldu, sən niyə belə eliyirsən?

Deyir:

– Heç nə, yorulmuşam.

Bir müddət keçir, balaca qardaş bir axşam deyir, indi növbə mənimdi. Gedib indi bacımnan mən görüşüm. Bu iki qardaş deyir, biz böyüyük, heş olmasa birtəri yola verdik, ürəyimizə salmadıx da. Buna da açıx demədik ki, özünə dərd eliyər. İstəklimiz budu, bunu nətər qaytarax yoldan? Nə illah eliyillər, nə fənd eliyillər, olmur. Qardaşdarı deyir ki, mən gedəcəm. Daha qardaşdarının əlacı kəsilir, yola salır. Yola düşür, gedir çıxır bacısının evinə.

– Ay bacı, nətərsən, necəsən?

Deyir:

– Lap yaxşı.

– Hə, bacı, qadan alım. Yol gəlmişəm, yorulmuşam. Gör nəyin var.

Deyir:

– Ə, bir az səbr elə, yeznən gəlsin. Yeznənnən bərabər yeyərsən.

Deyir:

– Aaz, başın xarab olub? Yeznəm bəlkə gec gəldi, ya gəlmədi, ya çöldə yedi. Mən oturuf ajınnan burda qarnımı qujaxlıyacam ki, yeznəm gələcəh.

– Əyə, qardaş, səbr elə.

Deyir:

– Nə səbr elə ey.

Durur evi gəzir, əlinə düşənnən oturur döşüyür, yeyir-içir. Dirsəklənir. Öz-özünə fikirrəşir ki, qardaşdarım bunun üçün dilxormuş. Ardan bir az keçir, yeznə gəlir. Deyir, qoy hələ fikir verim, görüm bu neyniyəcəh. Süfrə açıb ortaya çörək gətirəndə yeznə deyir ki, mən aj döyüləm, yemişəm, yəqin qardaşım da aj olmaz. Yerimizi aç, yatax. Deyir:

– Ə, bəri bax. Sən ajsan, aj döyülsən mana nə. Bajı, mən yeyəcəm.

Süfrədə olannan silir-süpürür, başın atır yatır. Öz-özünə deyir, qoy bir az da fikirrəşim. Yeznə yorğanın altınnan gizlin deyir:

– Aaz, bax gör qardaşın yatıf?

Deyir:

– Deyəsən yatıf.

Deyir:

– Bax gör yeməyə çörək var?

Deyir:

– Allah haqqı, olan çörək o idi. Çörək yoxdu evdə.

Deyir:

– Aaz, dur bir kömbə sal külə.

O vaxdı da ortaocağ idi. Musa gözdüyür. Yorğanın altınnan baxır. Bacısı kömbəni salır, üstün basdıranda kül kömbəsi deyirdilər, Musa yerinnən dik qalxır. Deyir:

– Bacı.

Deyir:

– Nədi?

Deyir:

– Bacı, bu gecə bir yuxu görmüşəm.

Deyir:

– Nə yuxu görmüsən?

Olxavı alır əlinə. Bax üç qardaş yerimizi bölürdük. Burdan belə düşdü böyük qardaşıma. Kömbənin ortasınnan bir xətt çəkir. Burdan belə düşdü ortancıl qardaşın payına. Bax bu orta da mənim payıma. Olxavın ucuynan kömbəni külə qarışdırır.

– Ayə qardaş, neynədin? Ora kömbə salmışdım.

Deyir:

– Kül sənin başına. Gecənin bu vaxtı kömbə salarlar? Yeznən aj idi, aj idi. Yeyərdi da, əlinnən almışdım?

Bir az keçir aradan. Deyir:

– Aaz, bax gör qardaşın yatıf.

Deyir:

– Hə, deyəsən bu dəfə yatıf.

Deyir:

– Əlac yoxdu. Dur get inəyi sağ gətir. Heç olmasa süd içim, ölürəm axı.

Bu yavaşcaca gedir inəyi sağır, gəlmək istiyəndə Musa yavaşca durur. Yeznə deyir:

– Ə, hara gedirsən?

Deyir:

– Havamı dəyişməyə çıxıram da.

Gedir durur pəyənin qapısında. Görür bacısı əlində sərnic qapıdan çıxdı. Çıxanda yavaşca deyir ki, evə aparsan qardaşın əlimdən alar, bəri ver, bəri ver. Qız da elə bilir bu əridir. Deyir:

– Ala.

Südü çəkir başına, sərnici verir. Deyir:

– Get.

Arvad əlində boş sərnic girir içəri. Əri deyir:

– Aaz, hanı süd?

Deyir:

– Verdim içmədin?

Deyir ki, aaz, sənin başın xarab olub, mən çölə çıxmamışam axı. Sən öl, qardaşın çölə çıxdı, o səni alladıf. Girir içəri deyir:

– Noluf ey sizə, niyə yatmırsız bu gecə?

Nəysə, aradan bir az keçir. Payız vaxdıdı, kələmin yetişən vaxdı. Əri deyir:

– Aaz, acınnan ölürəm, neyniyim?

Deyir:

– Ə, əlac yoxdu, get bostanda kələm ye.

Artıq səhərə yaxındı. Musa gözdüyür. Əlinə bir zopa alır. Elə ki yeznələri kələm ləklərinin arasında başdıyır xımır-xımır yeməyə, bu haray salır:

– Bajı, özü yetir, eşşək girif bostana kələmi yeyir.

Bunu bir kökə qoyur. Sürüyür gətirir evə. Səhər açılır. Səhər açılanda deyir ki, indi mən bildim qardaşdarım niyə dilxor oluflar. Bu xasiyyətinizi indən belə dəyişin. Gedirəm, and olsun allaha, eşitsəm ki, xəsislik eliyirsiz, gələn qonağın qabağına süfrə açmırsız, genə gələrəm ha.

## 136. TACİR QIZI

Bir tacir olur, tacirin çox gözəl bir qızı olur. Bu qız hədinnən çox dindar olur, qapalı şəraitdə böyüyür. Həm də gözəl olduğunnan tacir onu heç hara çıxartmır. Bir gün qız çıxıb həyətdə gəzirmiş. Görür ki, kimsə buna çox diqqətnən baxır. Baxanda pis gəlir qıza. Çox pəjmürdə olur. Tacir gəlir soruşur:

– Qızım, niyə belə dilxorsan?

Deyir ki, ata, bu gün bir səhvə yol verdim. Üzüm də açıx, sinəm də açıx, həyətdə mən dayanmışdım. Sən demə, yolnan keçən varmış. Mənim bədənimi gördü. Mən böyük günah elədim. Bu gün məni aparırsan məscidə, məni verirsən ərə.

– Ay qızım, səni hansı şərtdərnən ərə verim?

Deyir:

– Bircə şərtim var. Mən geyinəcəm, özü də köhnə geyinəcəm. Üz-gözümü də bürüyəcəm, apararsan məscidə. Məscidin axundunu çağırıf deyərsən ki, mənim bu qızım iki gözdən kordu, iki qulaxdan kardı, keçəldi, ağzı əyridi, həm də ayağı axsaxdı. Mən qoja kişiyəm, varım-dövlətim, heş nəyim yoxdu. Bunu saxlamağa mənim güjüm yetmir. Bir Allah bəndəsi buna sahib çıxsın.

– A qızım, dəli olmusan, başına hava gəlif, sən nə danışırsan? Səni şah oğlu istiyər verərəm, tacir oğlu istiyər verərəm. Bu nədi?

Deyir:

– Yox, ola bilməz. Mən bu şərtnən ərə gedəcəm.

Deməli bu şəhərdə hədinnən çox yarlı-yaraşıqlı bir cavan oğlan var. Çox kasıb yaşıyır. Evlənmək vaxtı çatır. Ata-anası bunu evləndirmək istiyir. Deyir, yox, mən savab yolnan evlənəcəm. Heç olmasa, bir savab iş görüm, bir kimsəsizə yiyə durum, bəlkə ilahi maa rəhm eliyər, ruzu verər. Bu oğlan da gəlir çıxır bu məscidə. Oğlan burda namaz qılırmış. O devrdə hamı namaz qılırmış. Oğlan namazdan varid olan vaxtı tacir qızıynan girir içəri. Axund moizə eliyirmiş. Moizəni qutarannan sonra deyir:

– Sualı olan, dərdi olan?

Tacir durur ayağa. Qızın qoluna girir, axsaya-axsaya aparır qabağa. Deyir ki, bax mən bir qoja kişiyəm, yaşlı bir adamam, varım-dövlətim, heş nəyim yoxdu. Qız tapşırdığı kimi həmin şərtdəri deyir. Elə bir mömin müsəlman istiyirəm ki, mənim bu qızıma sahib çıxsın: saxlıya bilmirəm, imkanım yoxdu. Allaha xoş gedər. Həmən oğlan yeriyir qabağa. Deyir:

– Onu mən allam.

Alıram, al. Tacir bunu gətirtdirir evinə. Oğlan görür ki, bu varrı adamdı. Burda nəsə sirr var. Üstünü vurmur. Tacir deyir ki, madam ki, biz qohum oldux, sən gəl niyə belə elədiyi mənə de. Deyəndə oğlan deyir ki, kişi, heş nə soruşma. Qızın atası deyir ki, mənim bir əhdim var. Mən qızımın adına bir saray tikdirmişəm. Mən əhd eləmişəm ki, kim mənim qızımı qəbul eləsə, onların toyu o sarayda olajax. İndi daxmadan köçün gəlin ora. Bu da həmin

məscidin axunduna agah olur. Bunlar çıxannan sonra məscidin axundu deyir ki, toy gejəsi bunların hər ikisin ilan çalıb öldürəcəh.

Səs düşür ətrafa. Bunların toyu olur, toyda gəlif iştirak eliyillər. Orda kişi açıb danışır ki, məsələ nə yerdədi. Oğlan baxır ki, bu qız bir dünya gözəlidi. Oğlan sevinir, Allaha şükür eliyir. Toy başdıyır. Toy qutarannan sonra iki xonça gəlir. Biri oğlanın adına, biri qızın adına. Bunlar xonçaları açıb yeyib içməlidirlər, sonra keçməlidirlər gəlin otağına. Gəlin gətirif bu xonçaları qoyur mizin üstünə ki, oturuf yesinnər. Çöldən səs gəlir. Gəlin oğlana deyir ki, bax gör kimdi. Baxıllar ki, cındır libasda bir dilənçidi. Deyir:

– Nədi?

Deyir:

– Bəs belə-belə. Dilənçidi, gəlif pay istəməyə.

Qız deyir ürəyimdən bir şey keçir. Oğlan da deyir mənim də ürəyimdən keçir, amma sənə deməyə ehtiyat eliyirəm. Deyir:

– Niyə, evin kişisisən, sən de.

Deyir:

– Mənim ürəyimdən keçir ki, bu xonçaları verək o dilənçiyə.

Qız deyir:

– Mənim də ürəyimdən o keçir. Gətir hərəmiz öz xonçamızı alax əlimizə, aparax verək o dilənçiyə.

Xonçaları verillər dilənçiyə. Dilənçi gedir evə. Xonçaları qoyur evin bir küncünə, özü də yıxılıf yatır. Dilənçi səhər durur, öz-özünə deyir ki, toy xonçalarıdı, açaram, tamahım düşə yeyərəm. Aparım bunnarı bazara, satım. Xonça əlində bazara getdiyi yerdə bəynən gəlin, bir də atası gəlillər məscidə. Məscidə girəndə hamı məscidin axunduna deyir ki, axund, sən deyirdin bunnar öləjək. Budey gəldilər. Deyir:

– Dayanın, burda bir iş var.

Deyir ki, deyin görüm keçən gejə neynəmisiz? Deyir:

– Bizə iki xonça gəlmişdi. Bir dilənçi gəldi istədi, biz xonçaları açmadıx, verdik o dilənçiyə.

– Ay aman, axtarın dilənçini tapın.

Camahat çıxır məsciddən. Görüllər ki, dilənçi yolnan gedir, əlində də xonça. Ayə bura gətir. Gətirillər bəri. Axund deyir:

– Açın.

Açıllar ki, hər xonçanın içində bir dənə əfi ilan yatıf. Rəvayətə görə axund dua oxuyur, ilanlar çəkilir gedir.

Deyillər ki, axund, bu möcüzəni bizə sən belə demişdin. Dedi:

– Bilin və agah olun, mən bilirdim o qız kor deyil, şikəst deyil. O oğlan onun üzün görmədən, Allahın yolunda, Allahın savabına qəbul elədi, apardı evinə. Kəbinin də mən kəsdim. Onnar bəy otağında olanda onnara gələn xonçanı özdəri açmadı. Onnar o qədər əli açıq, savab işlər görən, Allaha yaxın adamlardı ki, öz xonçaların dilənçiyə verdilər. Ona görə Allah-taala onnara ömür bəhş elədi. Dilənçi də fikirləşdi ki, aparım bunları satım. Dilənçinin də əcəli çatmıyıf axı hələ. Bizə rast gəldi ki, dua oxuyum ilanlar çıxıb getsin, o xata sovuşsun.

## 137. PEYĞƏMBƏR VƏ DƏYİRMANÇI

Bir nəfər bir vilayətə qonax gedir. Qışın günüdü. Kənd çayın o tayındadı, çayın da bu tayında bir dəyirman var. Dəyirmannan da kəndin arası çox uzaxdı. Gələn qonax peyğəmbərdi. Girir içəri, dəyirmançıynan görüşür. Deyir ki, ey dəyirmançı, mən kəndə gedəjəm. Ora necə gedim ki, mənə xətər dəyməsin. Deyir, dəyirman olsa da, bura da sığınacax yeridi. Bu gejə qal mənim yanımda, səhər gedərsən.

Dəyirmançı süfrə açır, Allah verənnən yeyiv-içillər. Deyir:

– Kimsən, nəçisən, hardan gəlif hara gedirsən?

Deyir:

– Allahdan gizdin deyil, sənnən nə gizdin. Mən peyğəmbərəm, Allah-taala məni bu vilayətə peyğəmbər göndərif.

Belə deyəndə deyir:

– Ya peyğəmbər, xoş gəlmisən.

Deyir ki, ya peyğəmbər, gejə keçir. Allah verənnən yerə salır (bir cındır mitildi də, dəyirmanda nə olacax), deyir ki, sən yat, mən

dənimi üyüdürəm. Yatır. Yatan vaxtı deyir ki, ey dəyirmançı, səhər sübh namazının vaxtında məni yuxudan oyadarsan ki, sübh namazını qılım. Deyir:

– Baş üstə.

Nəysə, gejənin bir aləmi dəyirmançı görür ki, it qapını cırmaxlıyır. Qapını açır, köpək gedir küşdə quyruğunu qısır, yumurlanıf yatır. Dəyirmançı gətirir peyğəmbərin üstünə kürk salır. Peyğəmbər deyir:

– A kişi, neynirsən?

Deyir ki, gejə qar yağacax, bərk şaxta olacax, üşümüyəsən. Deyir:

– Mən peyğəmbərəm bunu bilmirəm, sən hardan bilirsən?

Deyir:

– Ya peyğəmbər, yat, hökmən yağacax. Qar yağacax, özü də bərk şaxta olacax.

Səhər tezdən kişi peyğəmbəri oyadır. Peyğəmbər oyanır. Qapını açmaxnan baxır görür ki, qar dizdən də yuxarıdı. Bir sırsıra, bir qar var, aləm dağılır. Namazın qılır, oturuf səhər çörəyini yeyirlər. İndi peyğəmbər gedəsidi kəndə. Dəyirmançı yolu başa salır. Bunu yola salmaq istəyəndə deyir:

– Ey dəyirmançı, sənə iki sualım var.

Deyir:

– Nədi?

Deyir:

– Sən məni iki yerdə təəccübləndirdin.

Deyir:

– Harda?

Deyir:

– Axşam sən üstümə kürk atdın, dedin ki, qar yağacax. Mən inanmadım. Səhər durdum ki, sözün düz çıxıf, qar yağıf. Bir də mən sənə dedim ki, məni sübh namazının vaxtında oyat. Məni elə vaxtda oyatdın ki, heç azançı o vaxtda dəqiq oyatmır. Bu nədəndi?

Deyir:

– Ya peyğəmbər, axşam yadındadırsa, köpək qapını cırmaxladı. Aşdım, gəldi küncdə yatdı. Onda bildim ki, qarrıyacax, hava şaxta olacax. Bir də ki, sübh namazının vaxtında burda çakqallar ulaşır. O çakqallar ulaşanda bilirəm ki, sübh namazının vaxtıdı. Onda səni oyatdım. Ayrı sözün?

Peyğəmbər gəldiyi yolnan ağzı geri qayıdır. Dəyirmançı çağırır:

– Ya peyğəmbər, hara gedirsən?

Deyir:

– Yox, yox, yox. O yerdə ki, köpəklər münəccimdi, çakqallar da azançı, mənim orda peyğəmbərlik eləməyim tutmaz.

## 138. ALLAHA PƏNAH

Musa peyğənbər yolnan gedirmiş. Görür ki, üç nəfər taxıl yerinin qırağında oturuf quru çörək yeyillər. Gəlir.

– Salam-məlöyküm.

– Əlöykət-salam.

– Allah iş uvantdığı versin.

Bunlar buna təhlif eliyir ki, sən də çörək ye. Bunlar soruşur ki, haraya gedirsən, ya Musa. Deyir ki, mən Tursənaya gedirəm Allahnan kəlmə kəsməyə. Deyir:

– Ya Musa, saa bir tapşırıx deyajağıx, Allahnan kəlmə kəsəndə min kəs, min birdə bizim də dərdimizi ona deginan. Biz neçə il bu yahudiyə qulluğ eliyəjeyih? Əkirıx, biçirıx, döyürux, quru çörək yeyirıx. Havaxatan?

Deyir:

– Yaxşı.

Gedir, min danışır, min birdə deyir:

– Xudavənd aləm, sənin o bəndələrin belə dedi.

Dedi:

– Ya Musa, gedif deyərsən ki, o bəndələrim hələ qırx il də o yahudiyə qulluğ eliyəjəh.

Gəlir ki, genə həmən yerdə bunlar çörək yeyir.

– Salam-məlöyküm.

– Əlöykət-salam.

– Ya Musa, Allah-taala nə dedi?

– Vallah, mən Allahın elçisiyəm. Mənim dilimə yalan gəlməz. Allahın da sözünü mən nəh eliyə bilmərəm. Allah dedi ki, onlar hələ qırx il o yahudiyə qulluğ eliyəjaxlar.

Kişi də qayıtdı dedi, Allaha pənah. Oğul da qayıtdı dedi, Allaha pənah, arvad da dedi, Allah pənah. Musa peyğənbər getdi həmən kənddə qonax qaldı. Qırx saat tamam olanda yahudi can verdi. Bunnar gəldi dedi:

– Ya peyğənbər, axı səndə yalan olmaz. Sən bizi niyə allatdın? Axı sən söz vermişdin ki, qırx il.

Dedi:

– Allahdan səda gəldi mana ki, onlar indiyətən mənə biyət gətirməmişdilər. İndiyətən mənim adımı çəkməmişdilər. İndi üçü də mana pənah gətirdi. Ona görə o qırx ili qırx saat elədim.

## 139. SUYNAN YANAN ÇIRAQ

Bir gün bir kişi dəyirmana dən aparır. Çilənin oğlan çağıdı. Peyğənbər zəmanəsiydi. Peyğənbər dedi ki, ay oğul, sən bu dəni üyüt, onnan sonra öz dəni başda. Ala bax bu da lampa. Bu lampanı apar, o donuzduxda suynan doldur, gətir abuşkəyə qoy, yandır, yanajax. Əgər icazə verirsənsə, mən bu gejə gedif irahat olum. Səhər gəlif hər şeyi sənnən hazır götürərəm.

Peyğənbər gedir. Bu, üstəki dəni üyüdür, sonra öz dənin başdıyır. Lampanı doldurur suynan, gətirir qoyur ora. Yandırır, yanır.

Səhər açılır. Üstüzə şaddıxnan açılsın. Peyğənbər gəlir ki, dəyirmanı yaxşı nizamlıyıf, təmizdiyif. Deyir:

– Oğul, lampanı yandırdın?

Deyir:

– Hə.

Nəysə, gedir. – Elə bilginən bu insanlara bir tövsiyədi. – Gedir evə. Deyir:

– Arvad, ajmışam.

Arvad çay-çörək verir. Axşam tərəfi deyir ki, ay kişi, nolar lampanı apar qonşulardan bir az nöyüt al gətir. Da mən okqədər getmişəm, indi gedə bilmirəm, utanıram. Deyir:

– Ay arvad, arx qapımızdan axır, lampanı apar doldur suynan, gətir qoy.

Deyir:

– Ay kişi, su yanar?

Deyir:

– Arvad, sana deyirəm apar doldur.

Deyir:

– A kişi, qaldın dəyirmanda sətəlcəm oldun. Başına hava gəlif. Su da yanarmı?

Deyir:

– Ay arvad, apar doldur gətir, yanajax.

Arvad deyir:

– A kişi, uzax deyil, aparım doldurum gətirim.

Gətirir qoyur, yanır. Bunlar bu minvalnan bir müddət belə dolanır. Bir səhər bu kişi çıxır çölə ki, bir az tozax düşüf[24]. Deyir:

– Allah, neyniyajağıx, qar yağıfdı.

Axşam nəkqədər eliyillər lampa yanmır. Nə fənd eliyillər lampa yanmır. On dəfə aparıf doldurullar, iyirmi dəfə aparıf doldurullar yanmır. Səhər tezdən kişi qaçır dəyirmana.

– Ya peyğənbər, başıma belə bir iş gəlifdi. Bu gejə lampa yanmadı. Nə vaxtdan bəri sən deyən kimi sudan dolduruf qoymuşux yanıf, amma bu səhər doldururux yanmır.

Deyir:

– Səhər yuxudan duranda neynədin?

Deyir:

– Heç zad.

Deyir:

– Neynədin, düzün de.

---

[24] Tozax düşüb – yağan qar yeri ancaq ağardır.

Deyir:
– Vallah, heç zad eləməmişəm.
Deyir:
– Kimin xətrinə dəydin?
Deyir:
– Heç kimin.
Deyir:
– Könlündən nə keçdi?
Deyir:
– Yola çıxdım ki, bir az qar yağıf. Dedim ki, Allah, neyniyajağıx.
Deyir:
– Allahın işinə niyə qarışırsan. Öz yeridi, yağır yağır, sana nə. Ona görə də lampan yanmıyıf.

## 140. MALYEMƏZİN NAĞILI

Bir tacir varmış, bunun çox malı-dövləti varmış. Bunun dəvəsi, qoyunu, malı, nökər-naibi əndazədən çıxmışmış. Amma bir tikə ətə həsrət imişdər. Bunun da, bağışda, üzr istiyirəm, gəlini hamilə imiş. Gəlin nökərə deyir ki, sana bir söz deyəjəm. Deyir, bəs Allahdan gizdin deyil, bənddən nə gizdin. Mənim eynimə ət düşüf. O itin qüçüyün kəs, onu bişir ver mana. Nökər gəlir bunu gəlinin qayınanasına deyir. Qayınanasına deyir ki, gəlin belə dedi. Allah götürərmi bir belə dövləti ola, onun da tamahı qüçüyə düşə.

Kişi gəlir evə. Arvad kişiyə deyir ki, a kişi, heç utanırsan. Sənin gəlinin ət istiyir. Bir belə bizim malımız, qoyunumuz var. Birin kəs, verək gəlinə. Deyir:

– Arvad, başına söz qəhətdi?

Nökərə deyir, atı gətir buraya. Filan yerdə tükanlar var, ciyər satırlar, gedif bu saat alıf gətirəjəm. Bərdən gedir ciyər əlli qəpik, qarın filan qiymətə. Lap axırda bir tükan tapır, bağırsağı, qarını on qəpiyə satır. Alır qoyur xurcuna. Bu qayıdan vaxtı görür ki, bir ağ ilan qaçır, bir qara ilan bunu qovalıyır. Bu vurur qara ilanı yaralıyır.

Aradan bir az keçir, ilanlar bunu alır dövrəyə. Biri dil açıb deyir ki, ilanlar padşahı məni sənin dalınca yolluyuf. Yolda buna deyir ki, sana bir söz deyəjəm. İlanlar padşahı deyəjək ki, mənim qızımı qara ilanın əlinnən qutarmısan. Qara ilan vəzirin oğludu, ağ ilan mənim qızımdı. Ona sataşmağ istiyirmiş, sən onu qutarmısan. İndi mənnən nə istiyirsən de verim. Desə dünya malı. Dünya malını istəmə. Sən deynən ki, anaan südünə and iç ki, nə istiyirəm verəjaxsan. Onda deynən ki, mənim öz malımın ixtiyarın özümə ver.

Nəysə, bular gəlir. Qızıl tac başında ilanlar padşahı oturuf taxtda.

– Salam-məlöyküm.

– Əlöykət-salam.

– Xoş gəlmisən. Sən bu gün mənə bir yaxşılıx eləmisən. İndi mənnən nə istiyirsən?

Deyir:

– Sən ananın südünə and iç ki, mən nə istəsəm sən verəjaxsan.

Deyir:

– Anamın südü haqqı nə istəsən verəjəm.

Deyir:

– Mən sənnən onu istiyirəm ki, mənim öz malımın ixtiyarın mənim əlimə ver.

Deyir:

– Məni çox çətin yerə buyurdun.

Deyir:

– Nətər səni çətin yerə buyurdum? Nə böyük şeydi ki, onu vermək bu qədər çətindi.

Deyir:

– Yox, sənin malın mənim anamın mehrinə yazılıf. Gedək, anam icazə versə, yaxşı.

Gedillər ki, pambığın içində bir qoja ilan.

– Ana, ana.

– Oğul, xoş gəlmisən. Nədi mənnən təmənnan?

Deyir:

– Ana, bəs filankəs qızımı vəzirin oğlunun əlinnən alıf. O mənnən öz malının ixtiyarın istiyir, o da sənin mehrindədi.

Deyir:

– Oğul, verdim. O mal da sana qurban, mən özüm də sana qurban. Onun öz malının ixtiyarını özünə verdim.

Bu yola düşür gəlir. Bir az aralanmışdı, deyir ki, bu nə qarındı mənim tərkimdə. Mənim az malım var, az qoyunum var? Qarını tulluyur gedir.

– Arvad, nökəri çağır.

Arvad nökəri çağırır. Tapşırır ki, get filan cöngəni gətir kəs, get filan erkəyi gətir. Arvad deyir:

– A kişi, başına nə gəldi, noldu sana?

Deyir:

– Arvad, indiyətən malımın ixtiyarı məndə deyildi. Malımın ixtiyarın böyün almışam.

Malyeməzdərin malı bax heylədi. Bizim kənddə də vardı.

## 141. YAZIYA POZU YOXDU

Şah Abbasnan Vəzir Allahverdi xan dərviş libasında ölkələri gəzirdilər. Camahatın maddi vəziyyətiynən tanış olurdular, görüm nə danışır, neynirlər. Yorulmuşdular, gəldilər bir kəndə. Şah dedi:

– Vəzir, bu kəndin qırağındakı ev kimin olur-olsun, dilənçi də olsa burda qalajeyih. Elə yorulmuşam bir addım da atmağa təərim yoxdu.

Gəldilər qapını döydülər, bir qadın çıxdı.

– Bajı, biz haqqın dərvişiyıx, olar bizi bu gejə Allah qonağı eliyərsiniz?

Dedi:

– Allaha da qurban olum, dərvişə də. Xoş gəlmisiniz.

Bunun əri də kəndin malına gedirmiş, naxırçıydı. Naxırçı gəldi, əlini çəkdi yerə, üzünə çəkdi: "Xudabəndi aləm, sənin varlığına şükür ay Allah, bizim ev də qonax görərmiş". Surfa aşdılar. Allah verənnən nə vardısa təam elədilər. Şah dedi:

– Vəzir, elə yorulmuşam, elə yorulmuşam. Mən yatajam, sən keşiyimi çək.

Getdi yuxuya. Bunun da bir evi vardı. Vəzirin yerini qapının ağzınnan saldılar, onlar o birsi evdə. Naxırçının arvadı da barihəmli idi. Gejə bunun bir oğlu oldu. Gejənin bir aləmi idi. Vəzir gördü ki, bir adam qoltuğunda kitab-dəftər özünü vurdu içəri. Bu çıxanda bunun ətəyinnən yapışdı. Dedi:

– Dayan görüm, sən kimsən, burda nə axtarırsan?

Dedi:

– Mən yazı yazanam.

Dedi:

– Nə yazı?

Dedi:

– Şah Abbasın filan hərəminin bir qızı olufdu, naxırçının da oğlu. Bunların yazısını bir-birinə yazdım.

Səhər durdular, əl-üzlərini yudular. Naxırçı gənə Allah verənnən nə vardı gətdi surfaya. – "Taam eliyin, qonaxlarım". Pismillah deyəndə vəzirin dodağı qaşdı. Şah dedi, vəzir, dodağın qaşdı. Yoxsa xəyalın dəyişildi? Dedi:

– Şahım, xəyalım dəyişilməz. Sən mənə çörək vermisən, o çörək Qurannan irəli gəlif dünyaya. O çörək haqqı, mənim xəyalım dəyişilməz, amma bu gejə belə bir işə düşmüşəm. Gördüm bir adam qoltuğunda kitab-dəftər özünü vurdu içəri. Dedi bunun bir oğlu olufdu, şahın da bir qızı olufdu, bunların yazısını bir-birinə yazdım.

Dedi:

– Naxırçı?

Dedi:

– Bəli.

Dedi:

– Naxırçı, biz haqqın dərvişiyıx. Bizim sonumuz, safımız yoxdu. Gəlsənə onun ağırrığında qızıl verim o uşağı ver mənə.

Arvada dedi. Arvad dedi:

– Əşi, onlar haqqın dərvişidi, onda bu uşaxdan heş xeyir də görmərix, gətir verax.

Uşağı qoyullar tərəziyə, onun ağırrığında qızıl verdi, uşağı götürdü. Vəzirə dedi, şəllə. Aldı qucağına. Bir qayanın başıynan yol gedirdi. Şah dedi ki, vəzir, dayan. Xəncəri çıxartdı, uşağın qarnını yardı, qayadan atdı. Dedi:

– Vəzir, yazını pozdum?

Dedi:

– Hə, pozdun.

Xudabəndə təbarük Allah tərəfinnən əmr olundu (balalı ceyran varıydı, balasını əmizdirirdi): "Ya Cəbrayıl, onu sal ceyranın döşünə". Ağzının liqabınnan vurdu yarasına, saldı ceyranın döşünə. Ceyranın oldu iki balası. Ceyran bunu əmizdirdi. Bu əndazəyə düşdü, səkgiz-dokquz yaşına gəldi çatdı.

Bir Ovçu Əhməd vardı, bunun da sonu-safı yoxuydu, ov ovluyurdu. Gəldi ceyranı gördü. Oxu götürdü ki, ceyranı atsın, ceyran qaçanda balası onun dalına düşəndə gördü bir uşax da bunun dalınca qaçdı. Köhlən atı vardı. Saldı bunun dalına, kəmənd atıf uşağı tutdu. Ceyran südüynən böyümüş uşax, bir gözəl uşaxdı. Dedi: "Allah mənimkin yetirdi". Gətirdi bunu ayləsinin köynəyinnən keçirtdi. Dedi: "Bu da oldu bizim oğlumuz. Allah bizim evladımızı verdi".

Oğlan gəldi on dörd, on beş yaşına çatdı. Genə şahnan vəzir ölkəni seyrə çıxmışdılar, bu səfər Əhməd ovçuya qonax oldular. Səhər ertəydi, oğlanın qolları açıq idi. Gəldi vəzirin əlinə su tökə. Şah da bunun qoluna bir peçat vurmuşdu. Birdən vəzirin gözü sataşdı bunun qolundakı peçata. Dedi:

– Oğlum, sənnən bir xayiş eləsəm olar?

Dedi:

– Buyur, baba dərviş.

Dedi:

– Köynəyi yuxarı qaldırasan bura kimi.

Köynəyini qaldırdı ki, qarnında tikiş var. Gəldilər, çörəyə oturuf bismillah eliyəndə, vəzirin dodağı qaçdı. Dedi:

– Vəzir, bunnan ikinci dəfədi sənin dodağın qaçır. Sənin xəyalın dəyişilif.

Dedi:

– Şahım, Allah haqqı yox. Deyəsən yazını poza bilməmisən.

Dedi:

– Nədi?

Dedi:

– Uşax həmin uşaxdı.

– Elə şey olmaz.

Dedi:

– Allah haqqı.

Dedi:

– Bala, qolu belə aşginən.

Qolunu aşdı ki, peçat burdadı. Köynəyi yuxarı qaldırıf baxdı ki, tikiş burdadı. Şah dedi, oğul, mənim xoşuma gəldin. Sənə bir namə yazajam, aparıf Şah Abbasın Qara vəzirinə verərsən, səni dünya malınnan qəni eliyəjəh. Qara vəzirə bir namə yazdı ki, vəzir, bu adam oraya çatan kimi bunu nimşakqa eliyərsən, hər şakqasın darvazanın bir tərəfinə yapışdırarsan, gəlif səni dünya malınnan qane eliyəjəm.

O vaxdı naməni papağın qabağına taxırdılar ki, bu elçidi, buna zaval yoxdu. Gəldi, yorulmuşdu, düşdü şahın bağına çarhovuza, yuyundu-elədi. Çarhovuzun qırağında yuxuya getdi. Şah qızı da qızlarnan çıxmışdı seyrə. Baxdı ki, burda bir oğlan yatıfdı. Allahdandı hər şey. Bir könüldən min könülə buna vuruldu. Baxdı ki, burda bir namə var. Naməni aşdı ki, atası yazıfdı ki, Qara vəzir, bunu nimşakqa eliyif asdırarsan. Dedi, sənin taxtın tarac olsun. Bu naməni doğradı. Şahın öz peçatdı kağızını gətdi, öz dəsti-xəttiynən yazdı ki, Qara vəzir, bu oğlan oraya çatan kimi mənim qızımı verirsən ona, toyunu eliyirsən, gəlif səni dünya malınnan qane eliyəjəm. Qara vəzir oxuyan kimi hay vurdu. Aşıq Xalıqverdi, sən də gəl. Başdadı toyu. Toyu elədilər.

Qırx gün tamam oldu, şah gəlirdi. Vəzir furqonu bəzətdirdi, dedi getginən qayınatanı qarşıla. Oturdular furqona. Gedəndə vəzir belə baxan kimi oğlanı tanıdı. Tanıyanda əlini əlinə vurdu, şakqa çəkdi güldü.

– Vəzir, nəyə gülürsən?
Dedi:
– Yeznən, qızın gəlir səni qarşılamağa, ona güldüm.
Baxdı. Gəldi qırmızı geyindi taxta çıxdı.
– Əyə kopoğlu vəzir, mən sənə nə yazmışam?
Dedi:
– Nə yazmısan?
Dedi:
– Mən sənə yazdım ki, bunu iki şakqa elə as darvazadan.

Vəzir gətdi naməni verdi şaha. Şah baxdı ki, yazılıf bu oğlan oraya çatan kimi qızımı ver, toyu eləginən, gəlif sənə ənam verəjəm. Dedi ki, bu da mənim yaxşılığım, ənamımdı? Dedi, hə, yazıya pozu yoxdu, təqdirə tədbir yoxdu.

## 142. NAXIRÇI QIZI

Şahın bir vəziri var idi, çox artıxtamah idi. Özü də vəzir qüvvəli vəzir olduğuna görə şah onun boynun vurdurmaq istiyirdi, amma buna bir bəhanə tapmırdı. Bunu göndərdi bir səfərə. Başında qalan əyyannara dedi:

– Gəlin buraya. Gəlin, – dedi, – yazı vasitəsiylə bir lövhə yaradax, vəzir onnan baş tapmayanda boynun vurdurax.

Bir kağızın üstünə cüt çəkdilər. Üç boyun öküzdü, majqaldı. İndi bu öküzün beşi qabağa çəkir, biri arxaya. Bir dəyirman qurdular. Dəyirman işdiyir, unnux cırıxdı. Dən üyündühcən suya gedir. Bir kümbəz çəkdilər, kümbəzin yanında bir qoz çəkdilər.

Vəzir gəldi. Şah dedi, bunları təyin elə. Sənə neçə gün vaxt verirəm, eləməsən boynu vurdurajam. Bu kimə apardısa, hərə bir şey dedi. Gəldi bir axşam naxırçıya qonağ oldu. Bunun bir qızı varıydı, bir qızı varıydı, dünya gözəliydi. Qızın gözündə bir balaca çaşlıx varıydı. Odu çatmışdılar, buxarıydı. İndi vəzir də özünü oda verir, qız da özünü oda verir. Vəzir nə bilir ki, qız bunu tanıyır. Belə baxdı, dedi ki, bu evi yaxşı tikiblər, buxarı da yaxşı buxarıdı, amma kərpicin bir yerində kəjdik var. Qız dedi:

– Vəzir sağ olsun, kərpicin kəj olmağına baxma, buxarı tüstünü yaxşı çəkir.

Vəzirin eyni açılmırdı. Bilirdi ki, sabah bunu öldürəjəhlər. Dedi ki, niyə danışmırsan, niyə eynin açılmır? Dedi:

– Açılmır eynim, açılası da döylü.

Dedi:

– Niyə?

Dedi:

– Hali-keyfiyyət belə-belə.

Çıxartdı həmin kağızı. Gördü bir kağızın üstünə çəkiblər, beş öküz qabağa çəkir, biri geri çəkir. Su gəlir, dəyirman işdiyir, dən üyünür, amma unnux cırıxdı, burdan suya gedir. Bir kümbəzdi, yanında da bir qoz var. Dedi ki, bunnan ötəri qalmısan aciz? Dedi:

– Bəs bu azdı? Bütün dünyanı gəzmişəm, bunun mənasını bilən yoxdu. Sabah da vaxtımdı.

Dedi:

– İndi mən deyim, get canını qurtar. Dedi, ey vəzir, sən çox artıxtamah adamsan. Sənin tamahın Murtaza Əlinin qılıncından itidi. Öküzlər onu bildirir ki, sarayda altı nəfərsiz, onun beşi bir tərəfə çəkir, sən bir tərəfə çəkirsən. O beşi səni aparır. Bax bu cütün mənası odu. Dedi, vəzir, şah çox çalışıb ki, səni bu yoldan çəkindirsin. Sən buna qane olmamısan. O kümbəz sənin başındı, bu qoz deyilən sözdü. Dəyir başına, tık eliyif yerə düşür. Sana kar eləmir.

Dedi:

– Unnux nədi?

Dedi:

– Bilirsən o nədi? O sənin qazancındı. Yırtıx unnux sənin arvadındı. Sən nə qədər qazanırsan, gətirirsənsə, o yırtıx unnuxdan suya tökülür, su aparır.

Vəzir gəlir.

– Vəzir, tapdın.

– Bəli, qibleyi-aləm sağ olsun.

Qız necə təhlil eləmişdi dedi. Dedi:

– İndi bunu deyəni deginən. Deməsən boynu vurdurajam.

Dedi:

– Hali-keyfiyyət belə-belə, şah sağ olsun.

Şah edi:

– Vəzir, məni aparırsan oraya.

Genə bunlar təqdiri-libas oldu, gəldilər həmin evə. Qız o saat başa düşdü. Bildi ki, şahnan gəlifdi. Şah dedi, vəzir, sən nə dedin buxarıya? Deyir, dedim ki, kərpici bir balaja kəjdi. Qız dedi ki, kəj olmağına baxma, tüstünü yaxşı çəkir. Şah dedi:

– Vəzir, yaxşı çəkir ki, canı da qutardı.

Naxırçıya elçi göndərdi, qızı istədi. Qızı şah aldı. Dedi ki, naxırçı qızı olanda nolar. Səndə ki bu elm var, Allahın ən əziz bəndəsisən.

## 143. MƏHBUBƏ XANIM

Bir tacir olur. Bu tacirin tək bir oğlu olur Murad adında. Elə olur ki, bu tacir ticarətə gedəndə köç yerində bir körpə uşax tapır. Bunu götürür gəlir evə. Uşağın da adını qoyur Tapdıx. Özünün də tək bir oğlu varımış, adı Murad. Bunlar ikisi də doğma qardaş kimi başdıyıllar yaşamağa. Elə olur ki, bunların evlənmək vaxtı olur, həddi-buluğa çatıllar. Tacirin də yoldaşı rəhmətə getmişimiş. Bu iki oğul baxırmış buna. Elə olur uşaqlar böyüyür, ərgənlik vaxtı olanda atası deyir ki, gedin kənddi, camahatdı, axtarın tapın, sizi evləndirim. Tapdığ deyir ki, yox, qabaxcan Muradı evləndir, onnan sonra məni.

Bunlar gedillər bulağ başına ki, qız-gəlin hər səhər-axşam suya gəlib-getdihcən baxsınnar, seçsinnər. Hə, gedillər qavaxcadan bulağın yolunda kolluğda gizdənillər. Qızdar gəlif getdihcən bunlar diqqət eliyillər. Qızdar, məsələn, yiyəsiz yoldu da, danışa-danışa, gülə-gülə, bir-biriynən zarafat eliyir, bunlar da hamını dinniyir, diqqət yetirillər. Elə olur ki, iki qız gəlir. Bunlar dinməz-söyləməz, başaşağı gəlillər, sənəhlərin doldurullar, gedillər. Bu qızdar bunların xoşuna gəlir ki, bunlar belə sakit, dinməz gəldi, getdi. Bu qızdarı

gizdincə izdiyillər ki, yerin bilsinlər, görsünlər bunlar hansı həyətə getdi. Böyük obadı, böyük kəntdi.

Hə, bunlar gedir qızdarı izdiyir, bunların getdiyi həyəti tanıyıllar. Qayıdıf gəlillər evlərinə. Gəlillər atalarına deyillər ki, bəs filan həyətdə iki qız var. Onların birin alaram. Murad deyir. Atası adam göndərir həmən həyətə. Bu da bir kasıb kişinin həyəti olur. Bu kişi deyir ki, bəs filan tacirin adamlarıdı, gəliflər. Ev yiyəsi deyir ki, axı siznən mənimki tutmaz. Mən belə kasıb, filan. Bu da filan tacirin oğlu. Bu olmaz.

Bunlar gedir, tacirə xəbər verillər ki, bəs bəhanə elədi ki, mən kasıb, imkansız bir adamam. O da varrı-hallı tacirdi. Onnan mənim uyğunnuğum gəlməz. Tacir deyir ki, mən onun həyətin, bacasın, evin nizamlıyaram. Mənim oğlum o qızı bəyənib. Mən onu almalıyam.

Tacir də çox dünya görmüş, ağıllı, sanballı bir insanımış. Öz imkannarınnan isifadə eliyir həmən kişinin evinə ayınnan-oyunnan, vardan-döylətdən, puldan, nə bilim ev əşyalarınnan göndərir, bunun evin düzəltdirir-eliyir ki, gələn qonaxlar bunu yaxşı görsün. Nəhayətdə bunlar gedillər. Bəli, təzdən ikinci dəfə bu tacir adam göndərir. Bu qıza elçi düşüllər, bəyənillər, alıllar, gətirillər. Qızın adı olur Məhbubə, tacirin də evinə gələndə olur xanım.

Bu Məhbubə xanım o qədər ağıllı, kamallı, tədbirri bir gəlin olur ki, bu evin nə ağırrığı, nə işi, nə məsləhəti olsa, kişi bunnan məsləhətdəşir. Görür kü, bu çox təmkinni bir insandı. Elə olur ki, kişinin yaşı keçir, qocalır. Özünə agah olur ki, bir gün öləcəh. Bu, gəlinin, oğlannarın çağırır vəsiyyət eliyir. Evinin haçarın, pulunu, malını – hamısını verir bu gəlinə. Oğlannarına da tapşırır ki, bu gəlin nə tapşırsa, nə məsləhət eləsə, nə tədbir görsə, onnan çıxmazsınız. Sonra da oğluna yenə öyüd-nəsihət verir, vəsiyyət eliyir ki, mən öləjəm, gedəjəm. Ticarətnən məşğul olun ki, ticarət peyqəmbər işidi, kasıb düşmüyəsiniz. Amma sizə bir vəsiyyətim var. Nə getdiyiniz düşərgələrdə tək düşməyin, camahatın içinə düşün. Bir də heş kəsnən mərc gəlmiyin, mərc gələn həmişə uduzar, ziyana gedər. Sonra, içkidən uzağ olun. Bunları mən sizə vəsiyyət eliyirəm.

Nəysə, vaxt keçir, tacir dünyasın dəyişir, bunu dəfn eliyillər, yola salıllar. Ölənnərə rəhmət. Bunlar qalır iki qardaş, bir gəlin. Aradan bir müddət keçir. Tacirrərin ticarətə getmək vaxtı olur. Bunlar hazırraşıllar, hər kəsin özünün qəflə-qatırı, atı, karvanı-filanı. Muradnan Tapdığ da hazırraşır. Özdərinin qəflə-qatırını, ticarət əşyalarını götürüllər, gedillər. Axşama qalıllar. Bir düşərgə yerində düşüllər. Düşəndə görüllər ki, bunlardan bir beş yüz metr aralıda da bir dəstə düşüfdü. Qardaşı buna deyir ki, burda düşmüyək. Atamız axı bizə deyib ki, tək düşməyin. Gedək o camahatın içinə.

– Əşi, – deyir, – nə fərqi var. Oraynan buranın arası beş yüz metr yoldu da. Nə var orda? Tay bura rahatdı. Bura düşmüşük.

Bunların da özünün yanında nökəri, naibi, bir dəstə də bunlardı. Nəysə, burda düşüllər. O biri dəstənin adamları görür ki, burda tək köç düşdü. O vaxt ticarət başçısı olardı, tacirbaşı olardı. Tacirbaşı adam göndərir ki, gedin görün onlar kimdi. Qonax dəvət eləyin, gəlsinnər biznən bir yerdə çörəy yesinnər. Onlar da ticarətə gedillər, biz də.

Bunları çağırıllar. Tapdıx da, Murad da nökər-naibə tapşırıllar, bunlar burda gözdüyür, özdəri iki qardaş gedillər məclisə. Yeməy-işməy gəlir-eliyir, hazırranır. Bunlara şərab gətirillər. Şərabı süzüllər, bunlar işməy istəmir. İşmillər. Bunların içində bir lotubaşı varmış. Deyir ki, bəs biznən bir yerdəsiniz, bir gedirik. Niyə içmirsiz? Bu deyir ki, atam vəsiyyət eliyifdi, mən içə bilmərəm. Lotubaşı deyir ki, ə, bəlkə arvadının qorxusunnan işmirsən?

Deyir:

– Yox, atamın vəsiyyətidi.

Deyir:

– Yox ey, atan rəhmətə gedif. Bu arvadın qorxusudu. Sən indi burda işmirsən, amma arvadın orda bəlkə stakan-stakana vurur başqasıynan, – deyəndə bu bunun xətrinə dəyir. İstiyillər dalaşalar-eliyələr. Deyir:

– Mərc gələk. Mən gedim sənin arvadınnan bir nişana gətirim.

Bu deyir:

– Ola bilməz.

Deyir:

– Mərc gələk də.

Yenə bu Tapdığ deyir ki, mərc gəlmə. Bu içifdi, ağlı gətirmir, nə danışdığını bilmir. Mərc gəlmə, uduzarsan. Nəysə, olmur. Bu lotubaşı əl çəkmir, mərc gəlir. Deyir ki, adın, ünvanın... Bunun adın, ünvanın örgənir. Deyir:

– Tacirlər qayıdana qədər mən gəlif çatajam. Sənin yoldaşınnan sana nişana gətirərəm. Onda görərsən ki, mən deyəndi, sən deyəndi. Mən dedim, yoldaşın indi stakan stakana vurur, sən inanmadın.

Nəysə, bunun ünvanın götürür, gedir. Bunun qapısın döyür:

– Hə, kimsən?

Deyir:

– Qonağam, ticarətdən qayıtmışam. Murad söz tapşırıfdı, məytuf verifdi. Qapını aşginən, onu verim.

Qız içəridən deyir:

– Qapının ağzında məytuf qutusu var. Məytuvu at ora. Sonra özüm götürərəm.

Deyir:

– Yox e, söz tapşırıfdı. Həm məytuf verif, həm də söz tapşırıf. Qapını aş, bircə kəlmə sözümü deyim, gedim.

Belə deyir ki, bəlkə bunun üzünnən bir nişana görə də. Deyir:

– Nə sözün var, de, eşidirəm. Məytuf da verifsə, qoy ora.

Bu oğlan nəkqədər çalışır, neyniyir, – bayaq dedim axı, bu elə bir kadındı, – bu qapını açmır. Bu olur kor-peşman. Qayıdır. Görür ki, qonşuluxda bir damxa var, bir qarı oturuf damxanın ağzında. Tacirnən də bu qarı qonşudu. Yaxınnaşır bu qarıya. Deyir:

– Qarı nənə, bu evi tanıyırsan?

Deyir:

– Hə, mənim qonşumdu.

Deyir:

– Bunlar kimdi, nəçidi, nətəər adamdı?

Deyir:

– Tacirin ayləsidi, evidi, eşiyidi. Mən onların çörəy bişirəniyəm, qulluxçusuyam.

– Hə, qarı nənə, səni Allah yetirifdi.

–Nə məsələdi?

Deyir ki, bəs bu gəlinnən mana bir nişanə verəsən, səni dünya malınnan qəni eliyərəm. Deyir:

– Ay bala, mən sana nə nişana verəjəm?

Deyir:

– Elə bir şərait yaradasan, elə bir imkan yaradasan ki, mən onun üzün görəm.

Deyir:

– Axı ola bilməz, mümkün döyül.

Nəysə, çox fikirrəşənnən sonra, qarılar axı əməlbaz olur, pula tamahlanır, qızıla tamahlanır, deyir:

– Hə, bir çarə taparam.

– Nədi?

Deyir:

– Bəs sabah, biri gün qonşudan, camahatdan ziyarətə gedənnər var, filan yerdə, filan pirdə, filan mömin bəndənin ziyarəti var, ora gedillər. Mən evimin ağırrığı adına bir sandığa səni qoyuf ötürərəm içəri ki, bu mənim evimin ağırrığıdı, heş kəsim yoxdu, sən də mənim gəlinimsən. Mənim sandığım burda dursun, gələrəm, götürərəm. Gəlmərəm, qalsın sana nə varsa.

Bu oğlan bu qarıya istədiyi qədər qızıldan, puldan verir. Qarı gedir dülgərə bir dənə bu ölçüdə sandığ düzəldir ki, bu adam bunun içinə yerrəşsin. Sandığa içəridən göz yeri qoyur. Onnan sonra içəridən də, məsələn, kilid qoyur.

Bu oğlanı qoyur sandığın içinə, bir hambal gətirir, sandığı alır belinə, gətirir qapının ağzına.

– Məhbubə xanım, Məhbubə xanım. Bəs mən ziyarətə gedirəm. Arvad-uşax, camahat gedir ziyarətə. Mənim gor-kəfənim, nə varsa, hamısı burdadı. Qapını aç, hambal qoysun bu sandığı içəri. Mən gedim, gələndə götürərəm. Gəlmərəm də, qalsın sənə.

Bu yenə də qapını açmır ki, içəri girmək lazım döyül. Sandığı qoy ora, mən özüm itəliyif salaram içəri. Hambal sandığı qoyur yerə. Bunlar çıxır gedir. Bu qapının arasınnan baxır görür ki, heş kəs yoxdu. Sandığı itəliyir, qoyur içəri. Yiyəsiz evdi, özüdü. Elə olur ki, gejə vaxtı bu gəlin başın-gözün açır, başın yuyur. Başın yuyanda bu əyninnən çıxardığı paltarı bağ var, bağın üstünə atır. O vaxtı da, indiki kimi yubka geyinməzdilər də. Gen balax tuman geyirmiş. Bu tumanın atır bağın üstünə. Bu da içəridən görür. Qız başın yuyur, başını yuduğu suyu aparır ki, həyətdə kənara töksün. Bu namərd sandığın ağzın açır, o tumanın bağın qırır, götürür. Gəlin də başın yuyan vaxtı bunun sinəsinin üstündə görür ki, bir qara xal var. Bunu da qeyd eliyir. Tuman bağını da götürür. Qarıynan da sözdəşifdi ki, mən orda bir gejə qalsam, bəsdi.

Səhər olur, qarı qayıdır gəlir ki, bəs hə, gedən olmadı. Bir bəhanəynən sandığı götürür. Yenə Məhbubə xanım sandığı itəliyir çölə. Hambal sandığı götürür, gedir qarının evinə. Sandığı açıllar, cəhənnəm olur, çıxır gedir bu namərd. Məhbubə xanım da qalır evdə. Hə, bu da sevinir axı, mərci udufdu. Mərci də nədən gəliflər? Kim uduzsa, bütün qəflə-qatırın, yükün də, mülkün də, nəyi varsa verəjəh, yeddi il də kim uduzsa, o birisinə qulluxçu olajax.

Hə, ta bu uduf. Gəldi arxadan nə mənzil getmişdilərsə, çatdı.

– Ay göyçəy oğlan, nişanəni gətirmişəm, razısanmı?

Deyir:

– Ola bilməz.

Deyir:

– Gətirmişəm.

– Nədi?

Deyir:

– Bu sənin yoldaşının tumanının bağı, bir də sənin yoldaşının sinəsinin üstündə yekə qara xal var. Düzdümü?

– Bəli, düzdü.

Nəysə, bu uduzdu. Qardaşı Tapdığa deyir ki, ta mən uduzdum. Sən getginən o ləçəri öldür, onun qannı köynəyin mən ticarətdən qayıdana qədər gətir mana göstər, heç olmasa ürəyim toxtasın.

Biz buna ehtibar eləmişik, umud olmuşuğ, bu da belə hərəkət eliyifdi. Mən uduzdum.

Ta bu yeddi il nökər olasıdı. Qəflə-qatırın da hamısın verdi bunlara, uduzdu. Bu Tapdığ elə ordan bir boş at mindi, qayıtdı gəldi. Gəlini çöldən başdadı hədələməyə:

– Ay belə-belə olmuş, ay naxələf, ay ləçər. Aç qapını, səni öldürəcəm.

– Axı nədi? Niyə?

– Aç qapını, bilərsən.

O dedi, bu dedi. Nəysə, Tapdığ sözün, məqsədin dedi:

– Bə biz getmişik ticarətə, sənin yanına adam gəlif, sənnən nişanə götürüf. Bu nə haqq-hesafdı?

Deyir:

– Hə, maa aydındı. İndi səbrini bas, gəl içəri. Sözümü deyim, onnan sonra qanım halaldı sana.

Qapını aşdı, qardaş-bacı kimi, bu bunun qaynıdı, gəldi içəri. Bu söhbəti buna dedi. Dedi ki, bəs bir nəfər gəldi, nəkqədər çalışdı, neynədi, mən qapını açmadım. Sonra qarı bura bir sandıx gətirdi qoydu, tez də apardı. Əngəl o sandıxdadı, mənim heş bir günahım yoxdu. Bu olduğu kimi buna danışdı. Dedi:

– İndi neyniyək, nə çarə qılax?

Dedi:

– Mən yenə tədbir bilərəm. Sən heç narahat olma.

Evdən qızıldan, puldan verdi, dedi:

– Qırx qəflə-qatırın gedifdi, get bazardan qırx qəflə-qatır al, onun əvəzinə gətir tövləyə bağlaginən. Camahat görməsin, bilməsin ki, sən ticarətdən düşmüsən, qüvvədən düşmüsən, maldan, mülkdən düşmüsən. Allaha şükür, pulumuz var, qızılımız var. Gətir onların hamısını bağla yerinə, sonra da mən tədbir görərəm.

Ticarətçilər ticarətdən qayıdanda, onların gömrük postu var idi. Dardanel deyərdilər o vaxtı. Hə, indi bu ticarətçilər qayıdanda gömrüy postunda bunları qarşılayacax, işi quracax.

Bu getdi, aldı gətirdi, qəflə-qatırın yerinə tövlüyə təzədən bağladı. Öyrəndilər ki, beş günnən, üç günnən sonra ticarətçilər qayıdıf gələjəhdi. Dedi:

– İndi getginən, bu obadan, bu şəhərdən, camahatdan bir iyirmi-otuz nəfər ağlı kəsən, bişmiş ağsakqal adam tapginən ki, üç günnük onları özümnən aparajam həmən gömrük postunda bu işi araşdırmağa.

Bu getdi, böyük şəhərdi, axtardı iyirmi-otuz nəfər ağsakqal, ağlı kəsən adam tapdı. Bunların da hərəsinə bir at aldı. Hərəsinin yeməyini, işməyini hazırratdı, hər kəsin atının tərkinə bağladı, getdilər həmən gömrük postuna – Dardanel boğazına. Orda gözdədilər, ticarətçilər gəldi bir-bir. Məhbubə xanım özü bir kişi paltarı geydi, başına dəbilqə qoydu. Getdi həmən postun rəisiynən ikilihdə söhbət elədi ki, icazə ver, bu gün gələn tacirrəri mən qəbul eliyim, mən danışdırım.

Bu məqsədin rəisə anlatdı. Rəis buna icaza verdi, bu başdadı gələn tacirrəri qəbul eləməyə. Tacirrər gəldi. Həmən bu tacir də gəldi, həmən bu Murad da gəldi. Gəldi ki, Murad bir aydı burdan gedifdi, üzün sakqal basıbdı, eybəcər, kirri-pasdı. Hə, Məhbubə xanım bunları qəbul eliyəndə, dedi ki, bəs bu kimdi?

– Bu da bizim nökərimizdi.

– Bu nə nökərdi? Bu hardan belə? Bunu niyə bu sifətdə saxlıyırsınız?

Elə oldu mətləb açıldı, söhbət elədilər, danışdılar ki, bu belə olufdu. Bilindi ki, bu mərc gəlif, uduzuf, belə söhbət oluf. Dedi:

– Əvvəla, bunu bir insan kimi aparın dəlləyə-filana. Bunun üzün-gözün təmizdiyin, paltarın dəyişin. Gəlsin bir insan kimi otursun burda, onnan sonra danışarıx, söhbət eliyərik.

Bunu apardılar, üzün-başın qırxdırdılar. Əyninə təzə paltar geyindirdilər. Gəldi o da oturdu orda. Bunları da – həmən o ağsakqalların, tacirrərin başçıların gətirdi yığdı otağa. Qarını da özüynən gətirif. Qarı da burda oturufdu. Söhbət açıldı. Lotubaşına dedi ki, mana məsələ aydın olufdu, bura söhbət gəlif çatıfdı. Sizdən material veriflər. Sizin bu mərciniz, uduşunuz nə cürdüsə, yazılı şəkildə

bura gəlifdi. İndi düzgün nə olufsa, düzgünün danışdın, azadsan. Danışmadın, başın fərmandadı.

Bu elə oldu ki, məjburiyyət qarşısında nə olmuşdu, mərc gəldiyinnən, evə getdiyinnən, qarıdan – hamısın boynuna aldı danışdı. Allah dilləndirir də. Tapdığ da oturuf qulağ asır, Murad da. Otuz nəfər gətdiyi ağsakqal da qulağ asır, bu tacirrərin adamları da qulağ asır.

– Belə olufdu?

– Bəli, belə olufdu.

Dəbilqəni başınnan götürdü, saşdarın töhdü, dedi:

– Həmən Məhbubə xanım mənəm. Üzümü görmüsən, alçax?

Dedi:

– Yox, bağışda.

Yıxıldı Məhbubə xanımın ayaxlarına. Dedi:

– Məni bağışla, ölənə qədər sənin nökərinəm, qulunam. Məni öldürmə.

Dedi:

– Sənin cəzanı postun öz rəisi verəjəhdi, xalq məhkəməsi verəjəhdi.

Gətdilər, qarının bir əyağın bir qatırın əyağına, o biri əyağını o biri qatırın əyağına bağladılar. Bu namərdin də hər əyağını bir atın əyağına. Hərəsin bir istiqamətə sürdülər, elədilər iki parça. Burdan Muradı da götürdülər, qəflə-qatırın da aldılar mərc yiyələrinnən. Gəldilər evlərinə, başladılar ömür-gün sürməyə.

## 144. QAŞIQÇININ NAĞILI

Bir arvad və bir kişi var imiş. Kişi çox varlı imiş. Amma çox göy-xəsis imiş. Bir gün arvad deyir ki, a kişi, nə olar bir ciyər al gətir, yeyək. Kişi durur, gedir bazara. Deyir:

– Ciyər neçəyədi?

Satıcı deyir ki, üç manat. Kişi baha olduğunu düşünüb başqa ucuz ciyər axtarır. Kimdən soruşursa, deyirlər ki, bir az get, qabaqdadır. Kişi gedib yenə başqa bir ciyər satandan soruşur ki, ciyər neçəyədi? Deyir:

– İki manat.

Yenə baha olduğunu düşünüb başqa ucuz ciyər axtarır. Nəhayət, az gedir, çox gedir, gedib bir manata ucuz ciyər tapır. Ciyəri alıb evə qayıdır. Kişi o qədər uzaq gedir ki, gəlib evə çıxana kimi ciyər iylənmiş olur. Arvad deyir:

– A kişi, niyə belə aldın?

Deyir:

– Nə bilim. Ucuzunu axtardım, axırda da bunu tapdım.

Arvad kişiyə hirslənib deyir ki, sənin bu qədər qızılın var, amma sən ondan bir manat xərcləyə bilmirsən. Gəl gedək molla yanına, görək bu qızıl axırda kimə qalacaqdı. Kişi razılaşır və molla yanına gedirlər. Mollaya hər şeyi danışırlar. Molla onlara deyir ki, bu qızıl özünüzə qismət deyil, kənddə qaşıq düzəldən İbrahimə qismətdir. Kişi ilə arvad kor-peşman evə gəlir. Kişi fikirləşir ki, axı mən bu qızılı niyə qaşıq düzəldənə verməliyəm ki?!

Qapılarında böyük bir tut ağacı varmış. Gedib ağacı kəsir. Qızılı içinə doldurur, ağzını da bağlayır və çaya atır. Deyir, İbrahimə niyə qismət olsun ki?! Mənə qismət olmadı, ona da olmasın.

Aradan bir ay, iki ay keçir. Bir gün kişi deyir:

– Ay arvad, xurcunuma çörək qoy, gəzə-gəzə gedim görüm, o qızıl hara yox oldu, hara gedib çıxıbdı.

Durur gəzə-gəzə gedir. Görür ki, tapmır. Sonra fikirləşir ki, gedim kəndə bir soraqlayım, görüm İbrahim hardadır. Bəlkə elə qızılı o tapıb. Soraqlaya-soraqlaya gedir çıxır İbrahimin qapısına. Gedir ki, qapısında çoxlu odun var. Kişi İbrahimlə tanış olur və başlayır onunla söhbət etməyə. Deyir:

– Ay İbrahim, bu kötükləri hardan gətiribsən?

İbrahim isə cavab verir ki, mən gətirməmişəm. Qonşuda bir kişi var. O kürəyə odun gətirməyə gedəndə görüb ki, çayın qırağında bu kötüklər var. Yığıb gətirib ki, uşaxlarına qaşıq düzəldəm.

Kişi deyir:

– Yaxşı. İndi bu kötüyü götür qoy içəri və onun içini aç.

İbrahim nə baş verdiyini anlamır. Kişi isə başına gələn əhvalatı ona danışır və kötükdən çıxardığı qızılların onun olduğunu

deyir. İbrahim qəbul etmir. Kişi isə deyir ki, bu sənin qismətindi, özü gəlib çıxıbdı ayağına. İbrahim bir şərtlə qəbul edəcəm deyir. Gəl onda qızılı yarı bölək. Kişi yenə də razı olmur.

Nəhayət, İbrahim arvadına deyir ki, gəl elə bir şey edək ki, bu qızılın yarısını ona qaytaraq. Arvad təklif edir ki, çörək bişirim və qızılın yarısını çörəyin içinə qoyub kişinin özünə qaytarım. İbrahim razılaşır.

Səhər duran kimi, arvad dörd çörək bişirir və kişinin xurcununa qoyur ki, o aparsın. Kişi yola düzəlib evə qayıdır. Yolda görür ki, bir dəlləkxana var. Deyir, elə yaxşı oldu, gedim bir üzümü qırxdırım. Gedir qırxdırır, amma pulu çatmır. Dəlləyə deyir:

– Ay qardaş, pulum azdı, amma bu dörd çörəyi verim sənə.

Dəllək razı olur. Kişi çörəyi qoyub gedir. Dəllək isə çörəkləri götürüb evə gətirir. Deyir:

– Arvad, bu gün bir müştəri gəldi, pulu olmadı, bu çörəkləri qoyub getdi.

Arvad sevincək deyir ki, Allah sənə kömək olsun. Bəs bu gün qonaq gəlmişdi. Gedib qaşıq düzəldən İbrahimin arvadından dörd çörək aldım. Elə yaxşı ki, bu çörəyi gətirdin. Aparım elə ona verim. Arvad çörəkləri aparıb deyir:

– Bəs bu gün kişinin müştərisi gəlib, pulu olmayıb, bu çörəkləri qoyub gedibdi. Elə dedim təzə çörəkdir. Bir də səhər kürəni odlamayım.

Qaşıqçının arvadı çörəkləri götürüb evə qoyur. İbrahim gələndə deyir ki, evin yıxılmasın, ay kişi, çörək qayıtdı gəldi özümüzə, qızıl da içində. Bunu, doğrudan da, Allah sənə qismət edibdir.

## 145. PADŞAH VƏ AĞILLI QIZI

Biri var imiş, biri yox imiş, bir padşah var imiş. Bir gün padşah düşünür ki, görəsən arvadın dəlisini kişi qəbul edər, yoxsa kişinin dəlisini arvad? Vəziri çağırır yanına. Deyir ki, vəzir, de görək arvadın dəlisini kişi qəbul edər, yoxsa kişinin dəlisini arvad? Amma doğru deməsən, boynunu vurduracağam. Vəzir deyir:

– Şah sağ olsun, mənə üç gün möhlət ver, gedim fikirləşim.

Şah razı olur. Vəzir düşür yola, gəlib şah qızının imarətinin önündən keçir. Bu vaxt qız da eyvanda çölü seyr edirmiş. Görür ki, vəzir çox fikirli adama oxşayır. Qız deyir:

– Vəzir, nə sıxıntın var?

Vəzir deyir ki, xanım sağ olsun, vallah, atanız bir sual verib mənə, tapa bilmirəm. Qız deyir:

– Sual nədir?

Vəzir sualı deyir. Qız gülümsəyib deyir ki, vəzir, get üç gün hərlən, axırda şaha de ki, arvadın dəlisini kişi saxlamaz, amma kişinin dəlisini arvad saxlayar.

Üç gün keçir, vəzir şahın hüzuruna gedir. Şah soruşur ki, vəzir, nə oldu? Deyir:

– Şah sağ olsun, arvadın dəlisini kişi saxlamaz, amma kişinin dəlisini arvad saxlayar.

Şah deyir ki, de görüm sənə bunu kim deyib? Bax düzünü deməsən, boynunu vurduracağam.Vəzir deyir ki, şah sağ olsun, bunu mənə qızın deyib. Şah bir az düşünüb deyir ki, get qızımı gətir hüzuruma.Vəzir gedir, qızı gətirir şahın hüzuruna. Şah deyir:

– Qızım, indi sən de görüm arvadın dəlisini kişi saxlayar, yoxsa kişinin dəlisini arvad saxlayar?

Qız deyir ki, şah atam, arvadın dəlisini kişi heç vaxt saxlamaz. Kişinin dəlisini isə arvad saxlayar. Şah vəzirə əmr edir ki, get kəndə hamının tanıdığı Dəli Əsgəri gətir hüzuruma. Vəzir baş əyib çıxır. Gedib Dəli Əsgəri gətirir. Şah qızının əlini Əsgərin əlinin üstünə qoyub deyir ki, götür, get Dəli Əsgəri saxla. Amma mənim imarətimdən, torpağımdan çıxın. Nə istəyirsən götür get. Qız da öz üstündəki daş-qaşdan savayı heç nə götürmür və çıxıb gedir. O torpaqlardan çıxırlar. Gəlib bir yerdə çadır qururlar. Bir beşlik verib deyir ki, Əsgər, get bazara. Bazara girəndə birinci nə görsən, nə satsalar onu alarsan. Ondan başqa heç nə alma.

Əsgər yüyürərək bazara gedir. Görür ki, bir kişi oturub. Deyir ki, nə satırsan? Kişi deyir ki, söz. Əsgər soruşur ki, neçəyə? Kişi

deyir ki, bir beşlik qızıla. Əsgər beşliyi verib sözü alır. Evə qayıdanda qız deyir:

– Əsgər, nə aldın?

Deyir:

– Söz aldım.

Qız deyir:

– Nə sözdü?

Əsgər cavab verir ki, könül sevən göyçək olar. Qız heç nə demir. Yenə bir beşlik verib deyir ki, get bazara, yeməyə bir şey al. Əsgər yenə yola düzəlir. Gəlib görür ki, camahat bir quyunun yanına toplaşıbdı. Quyunun içinə kim düşürsə, yandım deyib geri qayıdır. Əsgər deyir ki, məni sallayın, nə qədər yandım desəm çəkməyin. Əsgərin belinə ip bağlayıb sallayırlar. O nə qədər qışqırsa da, geri çəkmirlər. Gedir quyunun dibinə düşür. Qarşısına bir qapı çıxır. Qapını açıb içəri girir. Görür ki, bir div oturub, əlində bir qurbağa var. Elə hey div bu qurbağanı öpüb sığallayır. Div Əsgəri görüb deyir:

– Sən kimsən, bura niyə gəlibsən? Bu saat sənin tikəni qulağın boyda edəcəm. Amma bu şərtlə ki, bir sual verəcəyəm, tapsan səni dünya malına qane eləyib çıxardacağam. Bilməsən, parça-parça eləyib yeyəcəyəm. De görüm, mən yekəlikdə div bu balaca qurbağanı niyə əlimdə oynadıb öpürəm?

O an Əsgərin yadına bazardan aldığı söz düşür. Deyir:

– Div qardaş, könül sevən göyçək olar.

Div deyir:

– Ay sağ ol, indi bu qızıldan nə qədər bacarırsan ağırından qoy yüngülünə, yüngülündən qoy ağırına, nə bacarırsan şəllə, min belimə.

Əsgər bir şələ qızıl yığıb çıxır divin belinə və div də onu qaldırır yuxarıya. Qız görür ki, budu, Əsgər belində şələ ilə gəlir. Deyir:

– Ay Əsgər, nə oldu? Bu nədir?

Əsgər başına gələni danışır. Qız deyir ki, lap yaxşı, onda gəl özümüzə bir imarət tikək. Yaxşı ustalar tapıb gözəl bir imarət

tikdirillər. Qız da imarətin üstünə adlarını – Əsgər və Züleyxa yazdırır ki, atası bir gün bunları axtaranda tanısın.

Ay keçir, gün keçir, bu Əsgər elə bir bəy olur ki, onun vəziri, nökəri olur. Qızın var-dövləti atasından çox olur. Bir gün şah vəziri çağırır yanına və deyir ki, mən sənin sözünlə qızımı Dəli Əsgərə verib yola saldım. İndi hardadır, nə edir bilmirəm. Əsgər dəlinin biri idi. Bəlkə də qızımı boğub öldürdü. Gəl gəzək, görək hardadılar. Sağ olsalar, taparıq. Bunlar çox ölkəni gəzirlər. Axırda gəlib görürlər ki, gözəl bir imarət var. Üstünə də ad yazılıb. Şah vəzirə deyir:

– Gəl gedək, görək bu nə məsələdir.

Gedəndə onları nökərlər qarşılayır. Şah onlara deyir, biz burda qonaq qalmaq istəyirik. Nökərlər gedib Əsgərə deyir. Qız deyir ki, həmişə atam dərviş libasında ölkələri gəzir. Gəl bu gecəlik onları qonaq edək. Əsgər qonaqları qəbul edir. Şah ev yiyəsi ilə tanış olmaq istəyir. Qız və Əsgər pərdənin arxasında qonaqları qəbul edir. Şah onlara əhvalatı danışır və qızını axtardığını söyləyir. Qız dözə bilmir, pərdəni açır. Deyir, mehriban ata, dəli Əsgər budu. Tanış olun. Bu vaxt padşah hər şeyi başa düşür. İndi qız deyir ki, ata, gör arvadın dəlisini kişi belə xan edə bilərdi, yoxsa kişinin dəlisini? Mən Əsgəri bəy etmişəm. Şah öz padşahlığını Dəli Əsgərə verir.

# LƏTİFƏLƏR

## 146-148. BƏHLUL DANƏNDƏ

Bəhlul Danəndə Bağdad xəlifəsi Harun ər Rəşidin böyük qardaşıdı. Bəhlulun atası rəhmətə gedəndə Bəhlul Danəndəni şah tikillər. Bəhlul Danəndə də hədinnən çox bilikli olduğunnan müəllimi ona deyirmiş ki, özünü divanəliyə vur. Bu devrdə səni yaşatmazdar. Ona görə Bəhlul divanəlik eliyirmiş. Bəhlul şah tikiləndə günüz şahlıx işləriynən məşğul olurmuş, özünün çəkdiyi əziyyət qədər özünə nə düşürsə, o qədər xəzinədən var götürürmüş. Gecələr də həsir toxuyurmuş. Həsiri də nökərlərə satdırırmış bazarda, o puldan nökərlərin də hakqını verirmiş.

Bir gecə Bəhlul paltarın dəyişir, şəhəri gəzməyə çıxır. Görür ki, bunun qardaşı Rəşidin daxmasından işıx gəlir. Bu da naxırçıdı. Öz qardaşıdı deyə bunu gətirif vəzifəyə qoymur. Görür ki, içəridən nəsə pis iy gəlir. Yaxınlaşır bir az. Qapını açır, baxır görür ki, uşaxlar oturuf, qardaşı şişdə ojaxda nəsə bişirir. Deyir:

– A qardaş, nədi gejənin bu vaxdı?

Deyir:

– Vallah, uşaq ajdı. Mal ölmüşdü, onun bağırsağınnan bir az gətirdim ki, bişirim, uşaqların qarnın doyurum.

Bəhlul orda ağlıyır. Deyir ki, qardaş, bilirsən nə var? Sən bilirsən ki, mənnən şah olmaz. Gəl səhər mən öz taxt-tacımı sənə təhvil verim, heç olmasa bu körpələrin qarnını doydur. Amma adil ol, zülümkar olma. Beləliknən Bəhlul öz şahlığını qardaşına verir, özü başlıyır divanəliyə.

### 147.

Atam danışır ki, bir dənə kasıb kişi olur, adı Fərəc olur. Camahat Haca gedirmiş. Bu da əlli manat pul yığıfmış. Deyir, bir problemim olar, bunu xəşdiyərəm. Verim Hajı saxlasın. Əlli manat da düzəldim bir at alım, gələn il zəvvarlara qoşulum mən də ziyarətə gedim. Bəhlul Danəndə də qıraxdan duruf baxırmış. Görür

Fərəc kişiynən Hajı söhbət eliyir. Baxır ki, Fərəc kişi əlli manat pulu çıxartdı verdi Hajıya. Deyir, bunun öyünü Allah yıxsın, bu neynədi. Fərəc kişi gələndə dedi:

– Ə, neynədin?

Dedi:

– Bəs belə-belə. Əlli manat pulum vardı, verdim Hajıya ki, saxlasın. Gələn il əlli də düzəldərəm, yüz manata at alıf gedərəm.

Deyir:

– Vallah, o pulu sana vermiyəjək.

Deyir:

– Nətər vermiyəjək? İndicə vermişəm.

Deyir:

– Qayıt pulu istə. Əgər o pulu sana versə, mənə söyərsən.

Fərəc kişi qayıdır, deyir:

– Hajı, başına dönərəm, fikrimi dəyişdim. At alası olmadım, əlli manata bir eşşək də ala bilərəm. Mənim əlli manatımı ver.

– Ə, əlli manat nədi, pul nədi? Dəli olmusan, başına at təpif, a kopoğlu?

Ağacı çəkir, Fərəc kişi qaçır. Bəhlul deyir:

– Ə, noldu?

Deyir:

– Vallah, Hajı məni qovaladı, pulu vermədi.

Deyir:

– Onda sən belə elə. Bir kənarda dur, mənə fikir ver. Mən gedirəm Hajının yanına. Əlimin birini aşağı, birini yuxarı eliyif nə vaxt dedim Hajı, bu boyda, bu boyda, onda özü çatdırarsan, gəlif pulu istiyərsən.

Deyir:

– Baş üstə.

Bəhlul gəlir Hajının yanına.

– Salam-məlöykü.

– Əlöykət-salam.

– Hajı, nətərsən, nejəsən?

Deyir:

– Lap yaxşıyam.

Deyir:

– Hajı, bilirsən də maa dünya malı lazım döyül. Başıma bir əhvalat gəlif, onu sana söhbət eləməyə gəlmişəm ki, görüm bu nə əhvalatdı.

Deyif:

– Ə, nədi?

Deyir:

– Hajı, bilirsən də, mənim atım büdrüyən at döyül. Elə qarğı atımnan ayana-bayana çapırdım. Qəfil atım büdrədi, atın ayağının altdan bir dənə kərpiş çıxdı. Düşdüm yerə, bu kərpici götürdüm baxdım, ayə baxdım ki, kərpic qızıldandı. Bu boytda... – deyəndə Fərəc kişi özünü çatdırır:

– Hajı, başına dönərəm, mənim əlli manatımı ver, daha at alası olmadım.

– Ə, cəhənnəm ol burdan. Kişi gül kimi söhbət eliyir.

Bəhlul işarə eliyir, Fərəc kişi gedir. Bu dəfə Bəhlul gənə başdıyır ki, Hajı, sən bilirsən ki, mənə dünya malı, pul lazım döyül. Mən belə şeylərdən uzaq bir adamam. Mən öz dünyamı yaşıyıram. Bu qızıl kərpici gizdəmək üçün bir dənə zağa vardı, özümü ora verdim ki, bu kərpici gizdiyim, heç kim görməsin. Deyir, Hajı, içəri girdim ki, mağarada hər yerdə bu boytda, bu boytda küpələr içi doludu qızılnan, – deyəndə Fərəc kişi özünü çatdırır.

– Hajı, başına dönərəm, mənim əlli manatımı ver.

– Ə kopoğlu, nə əlli manat, qaç burdan, görmürsən bu kişi söhbət eliyir.

Bəhlul deyir:

– Hajı, ayana baxdım hər tərəfdə qızıl bu boytda, bu boytda... – deyəndə gənə Fərəc kişi özünü çatdırır. Hajı deyir: “Ə, bu dəli sonra söhbəti eləmiyəjək, qoy bunun pulun verim cəhənnəm olsun, qızılın yerin örgənim”. Deyir:

– Əyə, pulu hara qoymusan get götür, cəhənnəm ol get.

Fərəc kişi tələsik pulu götürür qaçır. Bəhlul deyir:

– Hajı, bəs bilirsən də dünya malı maa lazım döyül. Baxdım ki, mağaranın o tərəfinnən işıq düşür. Orda bir dənə qəşəh qız oturuf, barmağında da üzük. Yaxınnaşdım buna. Deyir, bu qız barmağınnan üzüyü çıxartdı verdi mana. Dedim, bu dəlidi nədi, mən üzüyü neynirəm axı. Deyir, üzüyü keçirtdim barmağıma, üzük genəldi. Gətirdim biləyimə, ordan çiynimə, üzük o qədər genəldi ki, başımı da əydim saldım içinə. Hajı, qəfil üzük daralmadımı? Qəfil üzük daraldı, daraldı. Onda gördüm boğuluram, çığırdım yuxudan oyandım. Hajı, gəlmişəm mənim bu yuxumu yozasan.

– A kopoğlu, sən əlli manatı əlimnən çıxartdın.

Ağacı çəkir ki, Bəhlulu vura, Bəhlul qaçır. Bəhlul Fərəc kişinin pulunu heylə qaytarır.

**148.**

Bir gün Bəhlul Danəndənin evinə bir qonax gəlir. Oturullar, yeyillər, içillər. Axşamı şahın fərraşı gəlir ki, bəs şahın axşama qonağı var. Harun ər Rəşidin belə bir xasiyyəti vardı. Qardaşı özünü nə qədər dəliliyə vurursa vursun, kim gəlirsə gəlsin, hansı ölkənin şahı olursa olsun, qonağı gəldi Bəhlulu çağırarmış. Adam göndərir ki, qardaşım Bəhlula denən qonağım var, axşam gəlsin saraya. Deyir ki, şaha denən ki, Bəhul dedi ki, məni bağışdasın. Mənim özümün də qonağım gəlif, mən qonağı qoyuf gələ bilmərəm. Nökər gedir, bir də qayıdır. Deyir ki, Bəhlul, şah deyir ki, qonağın da götürüf gəlsin. Deyir:

– Sən get, biz gəlirik.

İndi bu, Harun ər Rəşidin zalımlığın da bilir axı. Deyir:

– Qonax qardaş, indi gedirik şah məclisinə. O mənim qardaşım olsa da, yeri gələndə zalımdı. Çünki zamana heylədi. Zalımlıx eləməsən insannar bir-birini yeyər. Bax səndən nə soruşsalar, sorulan sözə cavab ver. Dindirsələr dillən, dindirməsələr heç nə danışma. Bir şey istiyərlər olmaz, səndə olar. Nəbadə çıxardıf deyərsən məndə var. Sənnən söz soruşanda lalsan, karsan, korsan. Mənnən gedif, mənnən gəlirsən.

Deyir:

– Baş üstə.

Gedillər. Gedillər ki, bu qonaxlıx şahın imarətindədi. Yeyillər, içillər, süfrə yığışılır. Bu dəfə ortaya meyvə gəlir. Meyvə gələndə şah baxır ki, pıçax yoxdu. Meyvənin yanında pıçax olar axı. Qəzəblənir ki, pıçağı kim gətirmiyif? Əl atır qılınca ki, cəllad, cəllad. Qonax tez civinnən bir pıçax çıxardır, deyir:

– Şah sağ olsun, pıçax var, qəzəblənmiyin.

Bəhlulun acığı tutur. Şah pıçağı götürür əlinə. Baxır ki, bu okqədər əntiq əşyadı ki, misli-bərabəri yoxdu. Bu belə deyəndə deyir:

– Vəzir, o gün mənim xəzinəmdən oğurranan pıçax deyil?

Deyir:

– Şah sağ olsun, həmin pıçaxdı.

– Cəllad, cəllad.

Bəhlul qalxır ayağa. Deyir:

– Şah sağ olsun, əlini saxla.

Deyir:

– Nədi?

Deyir:

– Sən özün bilirsən ki, mən Bəhlul Danəndəyəm, özü də sənnən böyüyəm. Əyan-əşrəf də burda oturuf. Qəzəbini saxla.

Deyir:

– Nətər qəzəbini saxla. Hamı təsdiq elədi.

Deyir:

– Mən nə deyirəm ki.

– Bəs nədən narazısan?

Deyir:

– Bu mənim qonağımdı, özü də allah qonağıdı. Bu gejə mənim qonağımdı. Sən mənim qonağımı gətirif burda öldürtdürə bilməzsən. Mən qonağımı aparacam evə, gejəni evimdə yatacax. Səhər mən bunu yola salanda evimdən ki, çıxdı getdi, bu bilər, sən bilərsən.

Deyir:

– Bəhlul, bir şərtnən buraxıram. Gərək burda qazının qarşısında Qurana and içəsən ki, heş nə örgətmiyəcəhsən.

Quranı götürür, deyir:

– Ey həzarat, hamınızın hüzurunda bu Qurana and içirəm. Mən bu qonağa heç nə demiyəcəm.

Qurana and içir, padşah bunları buraxır. Qonax ölür, ölüsü gəlir. Qonağı aparır tövləyə. Üzdən irax, küncdə bir eşşək bağlıyır. Tutur eşşəyin qullağınnan ki, ay eşşək, mən sənə dedimmi əlini farağat saxla. Sənə nə tapşırmışdım, qulağında qalmadı? Bax sana deyirəm, ay eşşək. Şah səhər səni çağıranda denən yeddi il bunnan qabax bu pıçaxnan mənim qardaşımın başını kəsiflər meşədə. Qəsdən bu pıçağı hər məclisdə çıxardıram ki, görüm yiyəsi kimdi. Mənim qardaşımın qatili, şah, sənsən. Qardaşımın qan bahasın ver. Ay eşşək, qulağında qaldı? Sənə deyirəm. Qonağın ağlı yerindədi axı, bilir ki, buna deyir.

Qayıdır gəlir evə. Yatıllar. Səhər qonax deyir:

– Maa nə deyirsən?

Deyir:

– Mən sənə heç nə deməmişəm, Qurana da and içmişəm. Mən nə demişəm eşşəyə demişəm. Eşşəyə dediyimdən bir şey götürdünsə get.

Çıxır gedir. Çölə çıxan kimi fərraşdar bunu yoldan götürüllər. Bunu şahın məclisinə aparanda divanxana quruluf, cəllad oturuf, dar ağacı, hər şey hazırdı. Deyir:

– Bəhlulu da çağırın.

Şah deyir, Bəhlul, qonağa bir söz demədin ki? Yenə Qurana and iç. Bəhlul Qurana and içir ki, mən ona heç nə deməmişəm. Belə deyəndə şah qonağa deyir ki, səni dar ağacına göndərirəm. Deyir:

– Göndərirsən göndər, şah sağ olsun. Amma mənim bir kəlmə sözüm var.

Deyir:

– Buyur, axır sözü de.

Deyir:

– Ay camahat, hamınız bilirsiz ki, yeddi il bunnan qabax meşədə mənim qardaşımın başını kəsiflər bax bu pıçağnan. Başını kəsiflər, pıçağı da qoyuflar meyidin üstünə. Mən yeddi ildi çöllərdəyəm, hər məclisdə həmin pıçağı çıxardıram ki, qardaşımın qati-

lini tapam. Şah, mənim qardaşımın qatili sənsən. Qardaşımın qan bahasını ver.

– Qan bahası nədir?

Deyir:

– Özü ağırrığında qızıl.

Şah buna o ağırrıxda olmasa da, xeylax qızıl verif yola salır. Qonax Bəhlulun qapısına dönür ki, buna minnətdarlıq eləsin. Deyir, çıx get, a kişi, təzədən məni xataya salarsan, amma pəyədə dediyim qulağında qalsın.

## 149-150. ŞEYX SƏDİ

Şeyx Sədi arvatdarın əməy əməlin yazırmış. Bir dəvə yükü kitab yazmışmış. Gəlir bir kənddə bir qapıya ki, burda qala. Tanıyırmışdar bunu. Arvad deyir ki, qardaş, gəl çaydan-çörəhdən ye, mən də xamır yoğuracam. Oturur. Kişi də yoxuymuş. Arvad bundan soruşur ki, neynirsən?

Deyir:

– Arvatdarın əməy əməlini yazıram.

Deyir:

– Sən onu yaza bilməzsən.

Deyir:

– Yox, mən yazıram.

Xamır yoğurduğu yerdə arvad tumanının bağını açır. Deyir:

– Şeyx, üzüm ayağının altına, gəl bunu bağla, əlim xamırrıdı.

Gəlif əyiləndə qışqırır ki, ay haray, gəlin, şeyx məni tutdu. Şeyxin ürəyi gedir qorxusunnan. Qonum-qonşu çığırtıya gəlir.

– Ə, noldu?

Arvad deyir:

– Dedim kişi ölər, qalar qanı üstümdə. Sizi çağırdım ki, buna şahıd olasız ki, ürəyi dayandı.

Ayıldır bunu. Şeyx Sədi deyir ki, hə, düz deyirsən, məni öldürdün də, diriltdin də. Onnan sonra tərgidir kitab yazmağı.

**150.**

Şıx Sədin qadınların əməlinnən çox sözlər yazır. Gəlir bir evə qonağ olur. Görür canlı bir gəlin xamır yoğurur. Gəlin deyir ki, nə işə baxırsan, ay qoja? Deyir ki, mən şeyxəm, qadınnarın xeyir-şərinnən yazıram. Deyir:

– İnanırsan o kitaba?

Deyir:

– Hə.

Deyir:

– Allaha inanırsan?

Deyir:

– Hə.

Deyir:

– Abitdıx eliyirsən?

Deyir:

– Hə.

Deyir:

– Biri bəlkə dəlidi, ağıllıdı, sana söydü. Götürərsən?

Deyir:

– Olan işdi da. Baxır işə, güjə.

Deyir:

– Bir evdə çörək kəsirsən, ona xayanatdığın?

Deyir:

– Ola bilməz.

Bu məqsədnən gəlin əli xamırda – o vaxtı tuman bağları olurdu, – yavaşca üst tumanının bağını açır buraxır. İrəli-geri tərpəndihcən tuman düşür aşağı. Deyir:

– Ya şeyx, sən də mənim qardaşım. Əlim xamırdadı, günahdı əlimi tumana vuram.

Deyir:

– Düzdü, bala, olmaz.

Deyir:

– Onda gəlginən mənim tumanımı bağla, sən də mənim qardaşım.

Deyir:

– Yaxşı.

Gəlin şeyxi qujaxlıyır. Hay salır:

– Ay haray, şeyx məni ələ salır.

Şıx Sədin yalvarır ki, amanın günüdü, məni burax. Deyir ki, kitabı öz əlinnən ojağa at onnan sonra. O vaxtı biz tərəfdə təndir evin ortasında olurdu. Kitabı götürür atır ojağın içinə, onnan sonra onu boşduyur. Şıx Sədinin neçə ilə topladığı elmi bir gəlin heylə yox eliyir.

## 151-163. KƏRBƏLAYİ FƏRƏC

Bizdə Kəlba Fərəc olur, çox güjdü oğru olur. Bir dəfə Haja gedirmişdər. Bu da deyir, mən də gedəjəm. Deyillər, sən camahatı süng eliyirsən. Deyir, nolar, mən də gedəjəm. Bu da bunlara qoşulur gedir. O vaxdı da atnan gedirmişdər da. Düşərgə salanda bunlarnan qalmır. Gedir ki, kənarda bir dənə damxa var, qapıda bir arvad var. Deyir, a bajı, Allah qonağı istiyərsiz? Deyir, Allaha da qurban olum, qonağa da. Nolar, sən də mənim axirət dünya qardaşım, gəl qal. Görür ki, içəridə iki-üç uşaq ağlıyır. Deyir, o uşaqlar niyə ağlıyır? Deyir, qardaş, sən də mənim axirət dünya qardaşım. Sənnən nə gizdin. Bax o qazan qaynıyır ey. O daşdı, asmışam, qaynıyır. Onları umutdu eliyirəm ki, qoyun bişsin, onda sizə verəjəm. O saatı Kəlba Fərəc fikirrəşir, deyir risqə getməliyəm. Baxır ki, uzaqdan bir işıq gəlir. Deyir, ay bajı, o nə işıxdı ordan gələn? Deyir, qardaş, fermadı. Ağacı vurur belinə, gedir. Arxacdan bir dənə saz erkək götürür gəlir. Kəsir, doğruyur, doldurur qazana. Arvada deyir, uşağı durğuz ayağa. Uşağa da yedirdir. Bu çıxır gedir.

Ziyarata gedəndə Kəlba Fərəci bunlardan qabax qarşılıyıllar. O vaxdı, deyir, qulf yenirmiş. Hamı deyirmiş ki, Kəlba Fərəc, sən neynəsən də o qulf yenmiyəjək. Birinci Kəlba Fərəcin qabağına yenir. Deyillər, sən neynəmisən? Deyir, neynirsiz. Qayıdıf gələndə gənə arvada qonaq olur, bir-iki heyvan gətirir. Deyir, bunu da yeyərsən, mən genə gələjəm.

Bunlarnan gəlir, Laçın dağınnan gedəndə görür bir dənə yaxşı at otduyur, atın da üstündə şirəki[25] olur. Atdan sıçrıyır şirəkini alır, gəlir. Deyir siftəsi çuldan, ya İmam Mirzə. Deyillər ki, sən de görək nə əməlin yiyəsisən ki, qulf birinci sənin qabağına yendi? Deyir ki, ay bədbaxt uşağı, siz elə belə getdiz. Mən getdim ki, o yazığ arvad qazanda daş asmışdı, qaynadırdı. Dedim, ay arvad, nə qaynadırsan? Dedi, heş nəyim yoxdu, uşağı alladıram. Getdim bir heyvan gətdim kəsdim, gələndə də ikisin kəsdim verdim. Mən bu səxavətə görə ona layiq olmuşam.

**152.**

Kərbala Fərəc ölürmüş, can üstəymiş. Oğlannarını çağırır yanına, deyir:

– Gedin çöldən beş-altı dənə nazik çubux gətirin.

Gətirəndə oğlannarına deyir ki, çubuğu kom tut, bur. Kom eliyif burullar, qırılmır. Deyir:

– Oğul, bir-bir əyin.

Bir-bir əyəndə qırılır. Deyir:

– Oğul, bilirsən nə var. Sözünüz bir olsa, aranızda inciklik olmasa, heş kəs sizə bata bilməz. Amma təkləşəndə sizi məhv etmək daha asan olur.

**153.**

Kərbala Fərəc bir evə qonaq gedir. Arvad inəyi sağır, südü süzür, süddü aş bişirir. Arvad gətirir bir ovuc duz səpir. Sonra gəlin gəlir, bir ovuc da gəlin səpir. Bu görür ki, bu aş yeyiləsi deyil. Gəlin çölə çıxanda bu da bir ovuc duz səpir. Yemək bişib ortalığa gələndə arvadın yoldaşı deyir, bu niyə belə duzludu? Arvad deyir:

– Vallah, mən bir ovuc duz tökmüşəm.

Gəlin deyir:

– Bir ovuc da mən tökdüm.

Kərbala Fərəc deyir ki, vallah, elə bildim sizin yerdə adətdi, bir ovuc da mən tökdüm.

---

[25] Şirəki – çul

**154.**

Kərbala Fərəc oğluynan bir evə qonaq gedir. Ev yiyəsi də düyüynən süddü aş bişirir. Süddü aş axı bir verməşilnən bişirilir, bir də düyüynən. Düyüynən bişən süddü aş gej soyuyur. Boşqabın üzü qaymaq tutanda oğlu qaşığı vurur. Kərbala Fərəc də qaşığı vurur, birbaşa aparır ağzına. Ağzı yanır, gözünnən yaş gəlir. Oğlu deyir ki, ata, niyə ağlıyırsan? Deyir:

– Sənin kimi bivej oğula ağlıyıram.

Deyir:

– Niyə?

Deyir:

– Sənə baxdım qaşığı apardım ağzıma, ağzım yandı.

**155.**

Bir gün bayram ağzıymış, elə bil on gün qalıfmış bayrama. Kərbalayi Fərəc arvada deyir ki, qoyun tövləsini süpürərsən, təmiz zənbil tikərsən, hərəsinə bir kilo, iki kilo qoyun qığınnan yığarsan. Deyir, kişi, onu neynirsən? Deyir, bayram ağzıdı da, gedim ayın-nan-oyunnan, ərikdən alım gətirim.

– A kişi, sən nə danışırsan, uşaq döyülsən. Qoyun qığıynan nə etmək olar?

Deyir:

– Ay arvad, mən dedim, sən yerinə yetir.

Xülasə, bu beş-altı torbanı doldurur, gedir Ağdam bazarına. Püştaxtanın arxasında oturuf, indi torbanın ağzını açır. Gəlif gedən soruşur ki, baba, bu nədi? Deyir, ağıl dərmanıdı. Deyillər, sən öl, bu kişi dəli oluf. Bir bəyin oğlu gəlir.

– Baba, bu nədi satırsan?

Deyir:

– Ağıl dərmanıdı.

– Əşi, nə danışırsan?

Deyir:

– Ay oğul, mən sana deyirəm ki, ağıl dərmanıdı, məni incitmə.

– Neçəyə verirsən?

Deyir ki, bir həbi bir qızıl onnuxdu. Bir qızıl onnux verir, birin alır. Atır ağzına, udur. Deyir, yox baba, bu bekara şeydi.

– Ay oğul, məni incitmə, yolunnan çıx get.

Deyir:

– Yox, birin də alajam.

Bir onnux qızıl da verir, birin də alır. Ağzında bir az çeyniyir, deyir:

– Yox baba, sən məni allatdın. Bu ağıl dərmanı döyül.

Deyir:

– Oğul, özünü yığışdır, mən sənə uşax döyüləm ha. Aldın, çıx get.

Bu, bir az gedir, bir də qayıdır. Deyir:

– Baba, atalar üçdən deyif. Gələsən birin də verəsən.

Deyir:

– İstiyirsən hamısın al. Pulun ver, verim.

Verif birin də alır. Atır ağzına, udur. Deyir:

– Aha, baba, tapdım.

Deyir:

– Nəyi tapdın?

Deyir:

– Bildim bu nədi?

Deyir:

– Nədi?

Deyir:

– Qoyun qığıdı.

Deyir:

– Gördün, ağlın başına gəldi. Dərman sənə güc elədi, ağlın başına gəldi.

**156.**

Kərbalayi Fərəc çox hazırcavab adam olub, möhkəm oğru oluf. Ağsakqal, qarasakqal yığılıllar ki, ay Fərəc, sən çox gözəl insansan, xeyirxah insansan, ac qarını doyurursan. Paltarsıza paltar verirsən,

amma əlin dinc durmur ey. Niyə oğurrux eliyirsən? Gəl bunu eləmə. Deyir:

– Nətər eləmiyim? Nə sirdisə bunu tərgidə bilmirəm.

Deyillər:

– Yox, gəl sənə yolunu örgədək.

Deyir:

– Vallah, nə desəniz eliyərəm, təki bu xasiyyəti mənə tərgirtdirəsiz.

Deyillər:

– Onda sən Kərbalaya get.

Atı minir, qoşulur zəvvarlara Kərbalaya gedir. Kərbalanı ziyarət eliyillər, qayıdıf gələndə düşərgənin birində Kərbalayi Fərəc baxır görür ki, karvanın içində bir atın üstündə yaxşı çul var. Fikirrəşir ki, mən neyniyim, Kərbalaya getmişəm, olmaz. Deyir, yox, bunu mən götürsəm də gərək üstünü örtəm, görən olmasın. Nəysə, gejə qarannığında gedir çulu oğurruyur gətirir. Atın belinə qoyanda əlin qaldırır göyə, deyir ki, ilahi, əvvəlin çuldan yaz.

**157.**

Bir gün bu gəlir çıxır erməni dostunun evinə. Ajdığ illəridi, taxıl yox, filan yox. Bu gəlir, deyir ki, ay dost, mən ordan bura gəlmişəm, evdə aylə ajdı. Bəlkə mənə bir dağar arpadan, buğdadan verəsən. Erməni deyir, Pəraş, məndə də yoxdu.

Gejəni qalır burda. Səhər bu yuxudan durmamış görür ki, erməniynən arvadı söhbət eliyir. Erməni arvada deyir ki, Pəraş kirvə durmamış tez məni yola sal, çıxım gedim. Fərəc şübhələnir. Tez durur geyinir, pusur ki, ermənінin yaxşı bir yük atı var. Erməni atı alıxlıyır, gətirir buna on puta qədər taxıl yüklüyür, yedəyini alır əlinə. İndi taxılı dəyirmana üyütməyə aparır. Axı buna and içif, sən öl, yoxdu deyif. Fərəc deyif, dayan gör sənin başına nə oyun açıram. Buralara da bələddi da. O vaxt maşın yolu olmuyuf, araba yolu olmuyuf. Hər yer dolanbac yollar, kolluq-zad. Erməni hansı yoldan keçəsidirsə, Fərəc qabaxcadan ayrı yolnan gəlir. Atını meşədə bağlıyır, özü gəlir. Paltarını soyunur, lüt-çıplax girir bir

qara palçığın içinə. Bütün bədənin qara palçığ eliyir. Gəlir yolda kolluxda gizlənir. At gəlif keçəndə yavaşca fıştırıx çalır at bunu görür. Ata yaxınnaşır yavaş-yavaş. Erməni də başını salıf aşağı gedir, atı da yedəhliyir dalınca. Fərəc atı tumarrıya-tumarrıya cilovu atın başınnan çıxarır, keçirir öz başına. Atı üstündəki yüknən buraxır meşəyə. Bir döngə keçir, iki döngə keçir, xeylax keçənnən sonra Fərəc ayağını diriyir. Erməni qayıdıf dala baxanda bircə dəfə "vah" eliyif yıxılır. Fərəc tez qayıdıf gəlir, yuyunur, paltarın geyinir, o atnı da yedəyini alır əlinə, düz Kəlbəcərə.

Aradan bir az keçir, deyir, gedim görüm onu. Atı minif gəlir. Gəlir görür erməni yerdə döşəkdə yatır.

– Əyə noluf?

Deyir:

– Pərəş kirvə, sənə nə danışım. Atı yüklü bax belə aparırdım. Birdən gəlmədi, döndüm baxdım ki, at dönüf oluf pəriştə.

Deyir:

– Ay dost, heç nə olmaz. Dua oxuyaram, keçif gedər.

Fərəc atı minir gəlir. Aradan bir az keçəndə eşidir ki, erməni ölüf.

**158.**

Fərəc ən çox da ermənilərə kələk gələrmiş. Yenə bir dostu gəlir. Baxır görür ki, ermənin atı maydan atdı, bunun altında bir qulun var, qardaş, dünyaya dəyər. Ayə, neyniyim, nətər eliyim? Gejə bu yatanda tez qonşudan üç-dörd cavan oğlan çağırır. Qulunu tutullar. Gətirif göbəyinin altınnan iki barmax aşağıdan üç dəfə dərin dağ vurur.

Aradan üç il keçir. Atı minif ermənin qapısına gələndə erməni deyir:

– Ay camahat, bura gəlin, bu at mənimdi.

– Ə kişi, nətər yanı mənimdi. Mənim atımın öz balasıdı.

O deyir mənimdi, bu deyir mənimdi. Bütün aləm yığılır. Deyir:

– A kişi, atın nişanın de.

Deyir:

– Heç nə, nə nişanı olajax.

Fərəc deyir:

– Qulun vaxdı o yaman çıxartmışdı, göbəyinnən üç barmağ aşağıdan şişnən üç dənə dağ vurmuşam. Yıxın baxın. Dağ varsa, at mənimdi, yoxdursa, onda nə deyirsən verim.

Baxıllar ki, qarnının altında dağ var.

**159.**

Kərbalayi Fərəc bir arxaca oğurruğa gedir. Gözdüyür ki, camahat yatsın bu girif oğurruğun eləsin. Bu obada da günüzdən bir toy oluf. Siz də məni bağışdıyın, gəlin yatan vaxtı çarğatını atıf çətənin üstünə, yaylığın bir uju qalıf çöldə. Bir dənə sarı gamış gəlif başdıyır bu çarğatı yeyir. Çarğatı yeyəndə Kərbalayi Fərəc gəlif gamışın quyruğunu kəsir. Çarğatdan da bir qarış gamışın ağzında çöldə qalmışmış. Onu da kəsif qoyur cibinə, gedir. Deyif:

– Gedələr, səhər filan obada qan olajax, o qanı mən yatızdırajam.

Deyillər:

– Kərbalayi Fərəc, nə bilirsən o obada qan olajax?

Deyif:

– Bilirəm da.

Səhər açılır, üstünüzə xeyirriknən açılsın. Həqqətən gedillər ki, uje adam ölür. Gəlini qoyuflar atın üstünə ki, sənin bu gejə çarğatını kim aparıf? Yəqin ki, sənin, siz də məni bağışdıyın, ayrı adamın var, o götürüf aparıf. Gəlin and içir, aman eliyir, heş kəs inanmır. Kərbalayi Fərəc əlin qaldırır, deyir:

– Əl saxlıyın, o gəlini göndərməyin heç hara. Gedin orda quyruğu kəsik gamış var, onu gətirin.

Civinnən də çarğatın qalanını çıxarır. Deyir:

– Mən bu obaya oğurruğa gəlmişdim. Mən gözdədim ki, oba yatsın, mən oğurruğumu eliyim gedim. Oba yatannan sonra mən bu hadisəni gördüm. Gamışı kəsin, onun haqqın verirəm. O çarğat onun qarnınnan çıxmasa, onda bu gəlini göndərin atasıgilə.

Yığılıllar gamışı kəsillər. Həqiqətən də çarğat gamışın qarnındadı, bir qarışı da Kərbalayi Fərəcin civindədi. Gəlinin atası Kərbalayi Fərəcə yəhərri-yüyənni bir at bağışdıyır, gəlin özü öz cehizinnən bir dənə ladı xurcun, bir cüt toxunma corab, əlinnən gələni bir xurcuna doldurub verir Kərbalayi Fərəcə.

**160.**

Kərbalayi Fərəc bir obaya oğurruğa gedir. Görür nəkqədər oba var, hamı yatdı, obanın kənarında bir alaçıx var, alaçığın işığı sönmür. Deyir, vallah, yaxınnaşajam, görüm bu alaçıxda nə hadisə var, burda işıx sönmür? Yaxınnaşır ki, arvadnan kişi nəyin üstəsə spor aparıllar. Kişi oturuf qapının ağzında sajayağın üstündə, arvad da oturuf yerin üstündə. Kərbalayi Fərəc annamasa da görür ki, bunların arasında spor gedir. Bu da gəlif ki, burdan heyvan apara axı. Yaxınnaşır kişiyə, deyir:

– Tfu sənin üzünə, niyə yatmırsan?

Belə deyəndə kişi nətər qorxursa, dalı üstə yıxılır. Yıxılanda Kərbalayi Fərəc sajayağı götürür qoyur atın tərkinə, gedir. Kilsə günöyünün yanında şumu qazır, orda gizdiyir.

Arvad bu kişinin üzünü görür, bunu tanıyır. Arvad durur atı minir, bir dənə erkəyi qoyur atın tərkinə, düz gəlir Kilsə günöyünə. Gəlir ki, kişi yerin o biri hissəsini şumluyur. Deyir:

– Kərbala, səni and vermişəm o getdiyin Kərbalaya, bu heyvanı gətirmişəm, sən o sajayağı qaytar. Mana ayıfdı ki, mənim çörək bişirdiyim sajayağı sən gəlif mənim ərimin altınnan götürüf aparasan. Mən xayiş eliyirəm, bu erkəyi götür. Lazımsa gəl heyvanımızın içinnən genə oğurra, halalın olsun. Amma o sajayağı qaytar.

Deyir:

– Sən ki, bu cəsarətin yiyəsisən...

Yeri qazır sajayağı verir. Arvad götürür gedir.

**161.**

Kərbəlayı Fərəc bir kəndə qonaqçısının evinə gedir. Qonum-qonşu gecə onun başına toplaşıb duzlu-məzəli söhbətinə qulaq

asırlar. Məclisdə oturan bir qadın yanındakı qadına deyir, oy, başıma xeyir. İnəyimiz kəndin səmtindəki meşədə qalıb. Canavar onu yeyər, ərim səfərdən gələndə məni öldürər. Gedirəm inəyi gətirəm qapıya. Qadın ona belə məsləhət görür ki, gecdir, hara gedirsən? Kərbəlayıya deyək, dua oxuyub qurdun ağzını bağlasın. Kərbəlayıya bir bıçaq verirlər. Qurdağzı duasını bilməsə də, bıçağı ağzına tərəf aparıb pıçıldaya-pıçıldaya onun ağzını bağlayır. Öz-özünə düşünür: "Canavar elə bu gecə gəlib həmin inəyi tapıb yeməyəcək ki?"

Arvad ağır-arxayın oturaraq söhbətə qulaq asır, camahat dağılışanda evlərinə gedir. Səhər meşəyə gedib görür ki, inəyi canavar yeyib, cəmdəyinin bir hissəsi və başı qalıb. Arvad özünü çırpa-çırpa, ağlaya-ağlaya Kərbəlayının yanına gəlib deyir:

– Allah evini yıxsın, bəs qurdun ağzını necə bağlamısan ki, inəyi dağıdıb yeyib?

Kərbəlayı Fərəc halını pozmadan ona cavab verir ki, gecə camahat o qədər məni söhbətə tutdu ki, karıxıb qurdun ağzı əvəzinə, arxasın bağlamışam. Qorxma, onsuz da yediyi qarnında qalıb öləcək.

**162.**

Kərbəlayı Fərəc çox zirək adam idi. Bir gün harasa gedəndə daşan çayın qırağında dayanan çoxlu adama rast gəlir və onlardan soruşur:

– Niyə burda durmusunuz?

Ona deyirlər ki, qonşu kəndə toya gedirik, amma çaydan keçə bilmirik. Kərbəlayı deyir ki, hərəniz beş qəpik versəniz, mən sizin hamınızı çaydan keçirərəm.

Toya getmək istəyənlərin hərəsi beş qəpik pul toplayıb ona verir. Kərbəlayı ortasına bağladığı ipin ucunu adamların birinə verib möhkəm tutmasını tapşırır. Bir nəfər ipi tutan adamdan və hamı bir-birinin əlindən tutur. Kərbəlayı Fərəc çayın dayaz yeri ilə addımlayır və adamlara tapşırır ki, bir-birinizin əlindən bərk-bərk tutun, arxamca gəlin.

Çayın ortasından gedəndə birinin əli o birisindən üzülür və sel onu aparmağa başlayır. Qışqırırlar:

– Kərbəlayı, birimizi sel apardı.

Kərbəlayı Fərəc halını pozmadan hamı eşitsin deyə ucadan səslənir:

– Heç eyb eləməz, qoy aparsın. Hərənizin qiyməti beş qəpikdi. Neçənizi sel aparsa, zərərə düşməzsiniz, beş qəpiklərinizi qaytaracağam.

**163.**

Kərbəlayı Fərəc oğluna nəsihət edib deyir ki, oğul, heç vaxt çiy söz danışma, sözü ağzında bişir, sonra de.

Bir gün evə qonaq gəlir. Odun üstündə qazanda nəsə bişirmiş. Elə bu vaxt oğlu deyir:

– Ata, bişib, deyimmi? Ata, bişib, deyimmi?

Qonaq düşünür ki, uşaq acıb, qazandakı xörəyin bişdiyini bildirib yemək istəyir. Qonaq uşağın atasından xahiş edir ki, xörək bişibsə, uşaq dözmür, verin yesin. Kərbəlayı Fərəc qonağa bildirir ki, uşağın bişib dediyi xörək deyil, başqa şeydir. Buna görə dillənir:

– Oğul, bişirmisənsə de.

Oğlan deyir:

– Ata, bir bax, qonağın saqqalı bizim qara keçinin saqqalına oxşayır.

## 164-170. RƏFİ KİŞİ

Bizdə bir katib oluf Verdiyev Səfər, çox mədəni adam oluf. Mərkəzi komitədən bir nəfər gəlif, bunnan rayona gedirmişdər. Verdiyev Səfər görür ki, Rəfi gedir yolnan, eşşəyi də yüklüyüf odunnan. Bu, qonağına deyif ki, o kişi zarafatcıl kişidi. Maşını saxladajam, ona deynən ki, baba, bizə bir az benzin ver. Maşını saxlıyırlar.

– Baba, salam-məlöyküm.

– Əlöykət-salam.

– Ay baba, bəs saa işimiz düşüb.

Deyir:

– Oğul, buyur, o nə sözdü. Raykom qardaşı da yaxşı tanıyıram, nədən utanırsız? Nə lazımdı deyin, deyim.

Deyir ki, bəs belə-belə. Maşınımın benzini qutarıf, qaldıx burda. Eşşəyin quyruğunu qaldırır, deyir:

– Başın haqqı, bu da noldadı.

**165.**

Yuatda[26] söyüdün nazik çubuğun biri salır ölünün qulağına. Molla oxuyur, bu da çubuğu tərpədir. Rəfi gəlif görür ki, biri çubuğu diriyif ölünün qulağına, molla da nəsə oxuyur. Deyir:

– Uy allah, molla qardaş, kalxoz sədri onu ağacla başa sala bilmiyif, sən onu çubuxla nejə başa salassan?

**166.**

Bir gün Rəfi bir hinduşka satırmış. Hinduşka da xəsteymiş, başın yerə qoymuşmuş. Biri deyir ki, hinduşkanı neçəyə verirsən? Deyir:

– Otuz manata.

Deyir:

– Bəs başın yerə niyə qoyuf?

Deyir:

– Uy allah, qiymətinnən utanır.

**167.**

Bir gün Rəfi görür ki, Ala göllərdə dörd-beş adam çayın içində nəsə axtarır. Deyir:

– Nə axtarırsız?

Deyir:

– Əmi, elmi iş yazırıx.

Deyir:

– Ay bala, elmi iş yazası olsaydı, qurbağalar sizdən qabax yazardı.

---

[26] Yuat – yuqat

**168.**

Rəfi, üstünüzə sağlıx, xəstəymiş, yatırmış. Qızı çolpa suyu gətirir. Deyir:

– Ay ata, ay ata.

Deyir:

– Nədi, ay qızım.

Deyir:

– Ay ata, çolpa suyu gətirmişəm.

– Uy ay bala, – deyir, – təzədən xoruz oluf bannamıyajam ki.

**169.**

Komunistin müxbiri Kəlbəcərə ezam olunuf. Qılışdı kədinnən yuxarıda göy xırrıx vardı. Ora çatanda Rəfi kişi qabağında uzunqulax gedirmiş. Aftobus bura çatanda uzunqulax qaçır yoldan çıxır, amma Rəfi qarıxdığınnan yoldan çıxa bilmir. Müxbir deyir ki, a kişi, sən nə iş görürsən, bizi xataya salmışdın. Eşşək yoldan çıxır, sən də çıx dana, aftobus səni vurmuşdu. Deyir ki, qadan alım, o da sizin kimi ali savaddıdı da. Mən besavad adamam, neyniyim. Belə deyəndə bunun bərk ajığı tutur. Gedir Kəlbəcərdə deyir, dünyanı dağıdajam. Raykom katibi deyir:

– Ə, yolda gələndə bir hadisə olmuyuf ki?

Deyillər, belə oluf. Bilir ki, bunu Rəfi deyif. Bir dəst kostyum alır, gedir Rəfigilə, orda da onları barışdırır.

**170.**

Rəfi İstibulax kəndinnəndi. Ora gedənin hamısına ad qoyurdular. Bu ağır xəstə olur, Halay da bunun xalası oğludu. Halay buna baş çəkməyə gəlir.

– Salam-məleyki.

– Əleykimət-salam.

– Rəfi xaloğlu, nətərsən?

Deyir?

– Görürsən də xəstəyəm, ölürəm.

Deyir:

– Rəfi xaloğlu, məni tanıyırsaaan?

Deyir:

– Ə, niyə tanımıram. Raykom deyilsən, rayspalkom deyilsən, Kor Halaysan dayna.

## 171-174. DƏLI BAVIŞ

Məşədi Cəmilin bir dənə nökəri varmış, adı Bavışmış. Bavış da mənim kimi məlumatdı, söz bilən adammış. Məşədi özü nə cür paltar geyinseymiş Bavışa heylə paltar geyindirərmiş. Hansı məclisə getsə yanında otuzdurarmış.

Bir gün Məşədi Cəmil Bavışnan bəylərə sovqat göndərir. Qarabağ bəyləri deyir ki, Bavış aşıxdı, çala-çala gəlif, çala-çala da gedəjəhdi. Bunu gərək elə rahat yola salax ki, gedəndə Məşədi Cəmilə bizdən deyicilik eləməsin. Bizim Qarabağ camahatı ən hörmətdi qonağa plov bişirər. Plov da erkəynən də bişər, amma çolpeynən daha ləzətli olar. Deyir, gətirin buna çolpa-plov bişirək. Plovu da o vaxtı məjmahıda verəllərdi. Bəylər Bavışa çolpa-plov bişirtdirillər. Yeyir, yatmaq vaxtı deyillər, Bavışa güllü yorğan-döşək salın. Bəyin biri deyir ki, Bavış, bilirsən də, biz həmişə hörmətli qonağa çolpa-plov bişirtdirərik. Gedəndə Məşədiyə bildirərsən ha. Deyir ki, bəy sağ olsun, düz deyirsən, biz dağ camahatı həmişə qonax gələndə erkək kəsərıx, kabab bişirtdirif soyutma eliyərıx. O ki qaldı toyux-cücəyə, bu tülkü-çakqal işidi.

### 172.

Kəlbəcərdə iki kənd davakün olufdu: biri Kürdoğlu Məhəmmədin kəndi Qaraçannıdı, biri də Geştək. Bu iki kəndin arasında dava düşür. Məşədi Cəmilnən Məşədi Salax gedirlər qanı yatızdırmağa. Bunları sakitləşdirillər, qaydaya qoyurlar. Məşədi Cəmil deyir ki, Bavış, saa bir sual verəjəm, amma sən haqqı-salamımız, düzü nədi onu de. Deyir:

– De görüm Geştəy camahatı yaxşıdı, yoxsa Qaraçannı?

Deyir:

– Məşədi, onların ikisi də bir şeyə dəyməz, Millidən yaxşı camahat yoxdu.

**173.**

Biz tərəfdə Məşədi Cəmil oluf, bir də Məşədi Salax oluf. Biri Məmmədușağı kəndindən olub, biri də Ayrım binəsindən idi. Bunlar yolda mübahisə eliyirmişdər. Biri deyirmiş Ayrım yaxşıdı, o biri deyirmiş Məmmədușağı yaxşıdı. Dəli Bavış da yolnan gedirmiş. Deyillər, aha, sözün düzünü desə bu deyər. Gəl çağırax, bunnan soruşax. Çağırıllar:

– Ə Bavış, bura gəl.

Deyr ki, nədi? Deyir ki, sənnən bir söz soruşajağıx, düzünü de. Biri çıxardır bir abbası buna pul verir. Bu birisi baxır ki, bu, abbasını aldı, bu da bir abbası verir. Bavış abbasıları qoyur cibinə. Deyir, indi soruşun, nə deyirsiz? Deyir ki, de görək Məmmədușağı yaxşıdı, yoxsa Ayrım binəsi? Deyir, əşi, ikisi də bir şeyə dəyməz, Şapılarnan Milli hamısınnan yaxşıdı.

**174.**

Bir gün Bavış Qarabağ bəylərinin birinə sovqat gətirir. Pendirdən, yağdan, Allah verənnən sovqat gətirir ki, ay bəy, sənə pay gətirmişəm. Bavışın da hazırcavab olduğunu bəy yaxşı bilir. Tez bir xoruz kəsdirir. Əl altdan o biri bəy dostlarına xəbər eliyir ki, xoruz kəsdirmişəm, gəlin yeyək.

Bavış oturub bəyin böyründə. Bəylər bir-bir içəri girdikcə Bavış yavaş-yavaş sürüşür aşağı, gəlir düşür stolun axırına. Xoruzu gətirif qoyullar bəylərin qabağına. Bavışın əli çatmır yeməyə. Yeyillər-eliyillər. Bəy birdən baxıf deyir:

– Ə, Bavış, sən niyə yemədin?

Deyir:

– Eybi yox, canın sağ olsun.

Deyir:

– Qoy bir xoruz da kəsdirim sənin üçün.

Deyir:

– Yox ey, istəmirəm. Mən gətirdiyim pendirdən var?

Deyir ki, var.

– Çörək də var?

Deyir:

– Var.

Deyir:

– A bəy, o toyuq-cücə ki var ey, o tülkü-çaqqal yeməyidi, kişininki pendir-çörəydi. Pendir-çörəyi gətirin, onu yeyim.

## 175-180. KALVALI

Kalvalı Göyçəyə getmişmiş, yük aparırmış. Oralarda da gavalı-zad çox olurdu. Gedir çıxır Göyçəyə. Bunnan soruşullar ki, ay kişi, haralısan? Deyir:

– Alçalı.

Deyir:

– Adın nədi?

Deyir:

– Kalvalı.

Deyir:

– Nə satırsan?

Deyir:

– Gavalı.

Elə bilillər bunları araya qoyur, kişini möhkəm döyüllər. Tanıyanlar deyir, vallah, bu Alçalı kəndinnəndi, adı da Kalvalıdı. Yükün açıllar görüllər yükü həqiqətən gavalıdı. Onnan sonra onu boşduyullar, çıxıf gəlir.

## 176.

Kəlbalı Bakı şəhərində yaşayan qohumuna dəyməyə gəlir. Ona demişdilər ki, qohumun Bakının yuxarısında beşmərtəbəli bir evdə olur. Kəlbalı Bakıda qatardan düşür, yolda tanış olduğu bir nəfəri də qohumunun evinə aparmaq istəyir. Bir «taksi»yə əyləşirlər. Sürücü gedəcəkləri ünvanı soruşur. Kəlbalı cavabında deyir:

– Ay oğul, maşını sür Bakının yuxarısındakı beşmərtəbəli binaya.

Sürücü üzünü bozardaraq:

– A kişi, adresi de, nağıl danışma, – deyir. Kəlbalı yoldaşına deyir:

– Gəl düşüb ayrı maşına minək, görürsən də, bu yazıq şofer Bakıya nabələddir.

**177.**

Kəlbalı ilk dəfə qatara minib Bakıdan Yevlaxa gəlirmiş. Altda oturanlardan soruşur:

– Hara gedirsiniz?

– Yevlağa, – deyib cavab verirlər. Üst mərtəbədəki bir nəfər deyir ki, mən də Moskvaya gedirəm. Kəlbalı mat-məhəttəl qalıb dillənir:

– Sən insanın ağlına bax, başına fikir ver. Gör necə maşın düzəldib? Maşının alt mərtəbəsi Yevlağa, üst mərtəbəsi Moskvaya gedir.

**178.**

Kəlbalı yaşayan Alçalı kəndindən bir nəfər televizor alır. O vaxta kimi kənddə heç kəs televizor görməmişdi. Qonşular axşam toplaşıb televizora baxırlar. Xokkey göstərirmişlər. Hamı görür ki, bir dəstə adam əlinə ağac alıb balaca bir şeyi qovur. Heç kim nəyin qovulduğunu aydınlaşdıra bilmir. Bir nəfər deyir:

– Çox gəzən çox bilər. Kəlbalını çağırsanız, nəyi qovduqlarını tanıyıb bizə deyər.

Kəlbalını bura gətirirlər. O, diqqətlə baxır, çox fikirləşəndən sonra dillənir:

– Həzərat, o qaçan nədirsə onu öldürmək istəmirlər, yəqin diri tutmaq istəyirlər.

**179.**

Kəlbalı ömründə qatara minməmişdi. Bir dəfə Bakıdan qatarla Yevlağa qayıdası olur. Kəlbalı doğma Alçalı kəndinə çatan kimi arvadına dedi:

– Ay arvad, yetim-yesirə nəzir payla və sevin ki, evə sağ-salamat gəlib çıxmışam.

Arvadı həyəcanla ondan soruşur:

– A kişi, başına nə müsibət gəlmişdi?

Kəlbalı tələşla dillənir:

– Arvad, çox uzun evlərin birinə mindim. 20-30 uzun ev hamısı birdən yerindən tərpəndi. Dədənin goruna and olsun, evlər uzunasına yox, eninə Yevlağa girsəydi bütün şəhəri süpürüb apardı və mən də o dünyalıq olardım. Yaxşı ki, evlər uzunasına yeridi.

**180.**

Kəlbalı Aranın istisində bir qoz ağacının altında oturur. Başını açıb dəsmalla tərini silir. Gözü yaxındakı qarpız bostanına sataşır. Öz-özünə deyir:

– Vallah, tanrının işinə mat qalmışam. Nazik bir tağın üstə gör nə boyda qarpız yaradıb, amma nəhəng qoz ağacının üstündə xırda-mırda yumru qozlar bitir.

Elə bu vaxt qoz ağacının hündür yerindən bir qoz düşüb Kəlbalının açıq başına dəyir. Kəlbalı üzünü göyə tutub dillənir:

– Xudaya, kəræminə şükür. Məni bağışla, sənə nahaqdan irad tutdum. Əgər qoz ağacının üstə qarpız boyda meyvə bitirsəydin, başımı yarıb məni o dünyalıq edərdi. Mənim sözlərimə fikir vermə. Necə bitirirsən bitir. Özün bilən yaxşıdır.

## 181. DƏDƏSİNİN QİYMƏTİNİ QOYUB ÜSTÜNƏ

Atam qəlyan çəkən idi. Kəlbəcərdə – şəhərin özündə böyük bir unvermaq var idi, orda cavanlar yığılıf atamın başına. Atamı görmək istiyən, atama zarafat etmək istiyən adamlar söz atırdılar, zarafat eliyirdilər ki, kişi gülməli bir söz desin. Heç kim onun zarafatınnan incimirdi. Bir gün atam unvermağın qabağında cavanlarnan söhbət eliyirmiş. Həmin vaxt da atamın qəlyanı köhnəlmişdi, təzə qəlyan axtarırdı. Amma səliqə-səhman sevən idi, yaxşı qəlyan axtarırdı. Bu cavanların biri deyir, Mehralı əmi, bir söz demək

istiyirəm. Görürəm qəlyanın köhnədi. Deyir, hə, köhnədi, axtarıram, bir layıxlı qəlyan tapa bilmirəm. Deyir, budu, unvermağa təzə qəlyan gəlifdi. İstədim gedif alam, qorxdum maa ağır söz deyərsən, xətrimə dəyər. İcazə ver gedim onnan birin alım, gətirif sənə hədiyyə verim. Deyir, yox, ay bala. Elə hədiyyən odu ki, qəlyanın yerini mənə nişan verdin. Deyir ki, onda mən çıxım bir dənə qəlyan alım gəlim. Burda işliyən də cavan oğlandı. Belə baxır şüşənin altınnan, deyir, oğlum, o qəlyanı ver görüm. Çıxardır baxır, çox xoşuna gəlir. Deyir, alırsan, Mehralı əmi? Deyir, hə, alıram. Bunu neçəyə verirsən, qiyməti nədi? Deyir, Mehralı əmi, heç nə, bir eşşəyə. Kənddən bir eşşək gətir, qəlyanı verim sənə. Deyir, ala qoy yerinə. Çıxır gəlir cavannarın yanına. Deyir, noldu, Mehralı əmi? Niyə almadın qəlyanı? Deyir, almadım, baha dedi. Dedi, nə dedi? Dedi, dədəsinin qiymətini qoydu üstünə, nətər alım. Gəlif deyillər, ə, Mehralı kişiyə nə demisən, gəlif deyir dədəsinin qiymətini qoyuf üstünə. Həmin oğlan Mehralı kişidən əl çəkmir. Deyir, məni bağışla, qəlyanı sənə bağışlıyıram. Bu söz burda qalsın. Atam istiyirmiş deyə qalsın ey, nə deyirəm. Çöldən biri qışqırır, deyir, Mehralı əmi, alma, alma, dədəsinin qiymətini qoyuf üstünə. Deyir, ə, ağızdan çıxıf, mən onu nətər yox eliyim.

## 182. MOLLADAN QAÇ, LOTUYA MAÇ

Yeddi qız olur. Bunlar yolnan gedirmişdər, yeddi mollaya rast gəlillər. Mollalar deyir:

– Salam-məlöykü.

– Əlöykümət-salam.

– Hara gedirsiz?

Deyillər:

– Filan məkana gedirik.

Mollalar deyir:

– Biz də ora gedirik.

Qızdar bir-birinə deyir ki, bu mollalar bizi sarıyajehdilər. Neyniyax? Hərə bir mollanın qoluna girir ki, sən mənim qardaşım.

Mollalar deyir, hə, yaxşı. Mən sənin qardaşın, sən də mənim bacım. Bunlar gəlillər. Yolda oturuf çörək yeyəndə baş molla deyir ki, ay bacı, qayda budu ki, bacı qardaşın yanında həmişəlik qalmır. Qardaş bacını birinə verir ki, getsin aylə qursun. Mən sənin siğəni bu mollaya verirəm. Bunlar hamısı öz bacılarını bir-birinə paylaşdırıllar. Belə olanda qızdar qaçır. Yeddi lotuya rast gəlillər. Qızdar girir bu lotuların qoluna ki, sən mənim qardaşım. Lotu deyir, sən də mənim bacım, bir adam sənin xətrinə dəyə bilməz. Lotular onları gətirillər məkana çatdırıllar. Ona görə deyillər ki, molladan qaç, lotuya maç.

## 183. SƏN QAPIDA QONAĞI, ARPADA QATIRI TANIMIRSAN

Köhnə kişilərin dediyinə görə, Şuşanın taciriynən Laçının taciri dost olur. Bunlar bir-biriynən ticarət əlaqləri qurullar. Elə olur ki, Şuşanın taciri satılası malı yığıb aparıb laçınlı tacirin həyətinə tökür, orda öz evi kimi qalır rahat. Orda alverin eliyir, bunu yola salıllar, gəlir Şuşaya. Şuşanın taciri deyir ki, sənin nə matax satılası şeyin varsa, gətirərsən Şuşada satarıx, mən də səni yola salaram.

Elə olur ki, Laçınlı tacir gəlir. O vaxdı Şuşanın bir girəcəyi, bir çıxacağı varmış. Hər tərəf hasar imiş. Qapıçıya deyir ki, mən filan tacirin yanına getməliyəm. Qapıçı buraxmır içəri. Deyir, sən gözdə, mən bir halı bilim, görüm tacir evdədimi, ya yox. Gedir tacirə deyir ki, ay tacir, Laçınnan sənin bir tacir dostun gəlif. Deyir ki, məni buraxsın, gəlim içəri. Deyir, get deynən ki, tacir yoxdu evdə.

Nəysə, bunu Şuşanın taciri içəri buraxdırmır. Bu Şuşada karvansarada qalır, qayıdır Laçına. Ordan Şuşalı dostuna sifariş göndərir ki, burda sənin satılası şeylərini camahat zakaz verifdi, vaxtıdı, oları götür gəl bura. Bu ayın-oyunun yükləyir, gəlir qalır Laçında həmin tacirin evində. Laçınlı tacir də öz heyvannarı üçün arpa əkdirmişmiş. Bunun qatırın aparır arpanın içinə hörüklüyür. Gejə aydınnığ imiş. Şuşanın taciri də yaman güllə atan imiş. Deyir:

– Ə, belə bir işə düşmüşəm, ay qardaş.

Deyir:

– Nədi?

Deyir:

– Əkin əkirik, bir çöl qabanı dadanıfdı taxıla. Gəlif eşənək atır, taxılımızı batırır. Sən də güllə atansan. Nətər eliyək bu gejə aydınnığa gedək, bəlkə vura bilərsən.

Deyir:

– Ə, o mənim əlimdə iki vur ikidi. O nə şeydi.

Könhə mauzeri varmış. Doldurur hazırrıyır, qatarın nizamlıyır. Qatırı harda hörüklüyüf ora səmtləşdirir. Da qatırın yanına aparmır ki, qatırı tanıya. Qatır arpanı otdadığı yerdə deyir, görürsənmi, eşir arpanı. Bu götürür mauzeri üzünə, atan kimi qatır yıxılır. Öz qatırın öz əliynən atdırır. Gəlillər evə. Səhər deyir, ayın-oyunumu satdım, hər şey qutardı. Qatırı gətir, mən yüklənim gedim. Gedir baxır, deyir:

– Allah öyünü yıxsın, axşam atdığın donuz döyülmüş, qatırmış.

– Ə, – deyir, – sən öz əlimnən öz qatırımı atdırmısan.

Deyir:

– Sən qapıda qonağı, arpada da qatırı tanımırsan. Sənnən dost olmaz. Sən ehtibarsız adamsan.

## 184. ÜZÜMÜ BİR-BİR YEYƏRLƏR

Bir kürd Qarabağa gedifmiş. Bu da üzüm görmüyüfmüş. Bazarda yaxınnaşıf üzüm satana. Deyif ki, qardaş, ciyərim yanır. Bu üzümnən olar bir-iki dənə yeyim? Deyər ki, olar. Bu götürər üzümün salxımın dişinə çəkər, qoyar yerə, dişinə çəkər, qoyar yerə. Üzüm satan görür ki, üzüm qutarır. Bu bir yeşik üzümü dişinə çəkif qoyur yerə. Naəlac qalır, bilmir indi nətər desin. Deyir:

– Qardaş, bu üzümü bir-bir yeyəllər.

Deyir:

– Ə, bir-bir yeyilən armuddu, bunu belə yeyəllər.

## 185. LOĞMAN VƏ OĞLU

Loğmanın bir oğlu varmış. Bunun oğlu yaman xəstələnir. Nə qədər çalışır, vuruşur, uşağı sağalda bilmir. Baxır görür oğlunun vaxtına üş gün qalıf. Deyir, evdən gedəjəm məni görməsin, mən də oğlumun ölümünü.

Üş gün qalır, dördüncü gün gəlir ki, uşaq qapıda oynuyur. Loğman gedənnən sonra ana durur nehrə asır, qatıx çalxıyır. Ayranı tökür qazana. Uşaq iməkliyə-iməkliyə gəlif bu ayrandan o qədər içir ki, arvad gəlir ki, qazan boşdu. Uşaq tərriyir, ayılır. Loğman gəlir deyir ki, arvad, düzün de bu uşaq kimnəndi? Deyir:

– Allahdan gizdin deyil, bəndədən nə gizdin. Sənin uşağın olmuyuf. Sənin kürd dostun vardı, bu uşaq o kürddəndi.

Deyir:

– Allah öyünü yıxsın, bunu deyəydin, elə o vədə ayranı verəydim uşağa, heş bir belə zəhmət çəkmiyəydi.

## 186. SƏKSƏNDƏNDİR[27]

Biri həkimə gedir. Deyir ki, həkim yaman ağrıyıram. Deyir ki, haran ağrıyır? Deyir, filan yerim. Deyir:

– Neçə yaşın var?

Deyir:

– Səksən.

Deyir:

– Səksənnəndi.

Deyir:

– Həkim, axı filan yerim də ağrıyır.

Deyir:

– O da səksənnəndi.

– Ay həkim, axı filan yerim də ağrıyır.

---

[27] Söyləyicinin qulağı yaxşı eşitmirdi. Ona görə də kimsə ondan bir söz xəbər alanda nə dediyini dəqiq bilmək üçün həmin sözü ona bir neçə dəfə təkrarladırdı. Öz halına uyğun olaraq bu lətifəni misal çəkdi.

Deyir:
– O da səksənnəndi.
Bunun həkimə ajığı tutur, başdıyır onu yamsılamağa:
– Seksennendi, seksennendi.
Deyir:
– O da səksənnəndi.
İnsan qojaldıxca yaş öz işini görür. Biri bir şey soruşanda təkrar xəbər alıram ki, dəqiq nə deyir.

## 187. BİZDƏN ADAM OLMAYACAQ

Bizim kənddə camahat dağda otu biçirdi tayaya vururdu, qışda gedif onu ata, öküzə, eşşəyə yüklüyüf gətirirdi. Ona da həm kömək lazım idi, həm də heyvan lazım idi ki, yüklüyüf gətirsin. Biri elə bil ki deyir, sabah gedif otun başını açıf gətirəjəm. Birinə deyir ki, sabah mən dağa otun başını açmağa gedirəm, eşşəyini ver, aparım. Bir də köməkçi verərsən.
Deyir:
– Yaxşı, imkan olsa verəjəm.
Səhər tezdənnən oğlunu göndərir, deyir:
– Get filankəsə deynən ki, dünən eşşək demişdim, o noldu? Bir də bir adam da demişdim, gör o noldu.
Bunun oğlu çağırır, onun oğlu çıxır. Deyir:
– Ayə, sabahın xeyir.
Deyir:
– Hər vaxtın xeyir.
Deyir:
– Dünən dədəm dədənə eşşək demişdi, o noldu.
Deyir:
– Ayə olajax.
Deyir:
– Adam da demişdi, o noldu.
Deyir:
– Bizdən adam olmuyajax, amma eşşək olajax.

## 188. BOZ MAYDAN

Gəncəyə atnan, öküznən gedif alver eliyif gəlirmişdər. Gedillər, qayıdanda yolda birinin atı xəstələnir. Bu da atın dərisini soyur, bir ağacın başına doluyuf çiyninə alır. Camahat atnan gəlir, bu da piyada. Gəlillər, elə kəndə yaxınnaşanda bunun ürəyi qübar eliyir, kövrəlir. Deyillər:

– Ə, noluf, niyə ağlıyırsan?

Deyir:

– A uşaqlar, bilirsiniz nə var?

Deyir:

– Ə, nə var?

Deyir:

– Keşgə qayıdıf görərdim ki, boz maydan öyün qabağındakı o göylükdə otduyur.

Dərisi çiynindədi ey.

## 189. QILINC GÖRDÜM, QINDA GÖRMƏDİM

Bir qoca kişi olur. Hamı onu sayıb-sayarmış. Bu qoca düzgünlüyü, halallığı ilə ad qazanmışdı. Bir gün bir dəsdə gənc deyir ki, gəlin bu qocanın doğru-düzgün adam oluf-olmadığını yoxluyax. Sınayax, görəh, həqiqətən bu belə adamdı, yoxsa yalannan elə ad çıxarıfdı. Qocanı sınamax üçün cavannardan biri oğlan, o biri qız paltarı geyinir. Qocanın gəldiyi yolun qırağında dayanıf başdıyırlar bir-biri ilə danışıf, öpüşüf gülüşməyə. Qoca onların yanından sakitcə keçif gedir.

Kənd meydanına gələn cavannar danışırlar ki, bəs filan adamı filan adamla filan yerdə görüflər. Qoca dimmir. Cavannardan biri qəsdən qocadan soruşur ki, bəs sən o yolla gəlirdin, bir şey gördünmü? Qoca deyir ki, gördüm, ay bala. Qılış gördüm, amma qında görmədim. Qocanın bu sözündən sonra cavannar etdiyi hərəkətdən utanıllar.

## 190. ŞƏFİ BƏY GÖRÜNMÜR?

Şəfi bəy onun tabeçiliyində olan mahallara gedərkən öz əsabələrinə tapşırardı ki, camahata elan edin, mən gələndə heç kəs çölə çıxmasın, gözümə görünməsin. Camahat da bəyin bu xəbərdarlığını eşidəndən sonra o gələndə çölə çıxmazdı.

Günlərin birində Xanbaba adlı birisi Şəfi bəyin gəlişinə məhəl qoymur. "A kişilər, mənim Şəfi bəylə nə işim var, ot biçininə gedirəm", – deyib yoluna davam edir və Şəfi bəylə qabaqlaşır. Şəfi bəy deyir:

– A kişi, sənə deməyiblər ki, Şəfi bəy gələndə çölə-bayıra çıxmaq olmaz?

Xanbaba deyir:

– Başına dönüm, a bəy, ot biçininə gedirəm.

Şəfi bəyin tapşırığı ilə onu o qədər döyürlər ki, bir ay Xanbaba yoğan-döşəkdə yatası olur. Bir az özünə gələndən sonra üzünü evdəkilərə tutub deyir:

– Ay uşaqlar, çölə çıxmaq istəyirəm, görün Şəfi bəy görünmür?

## 191. SƏNDƏN MƏHƏMMƏD OLMAZ

Molla Məhəmməd həm savaddı, həm də ağsakqallığına görə kənddə ən hörmətli bir adam idi. Adəti üzrə hər səhər aftafasını götürüb yaxınlıqdakı kalafaya gedərdi. O, dünyasını dəyişdikdən sonra oğlu onun yolunu getmək istəyir. Bir səhər atasının aftafasını götürüb atasının getdiyi cığırla kalafaya yolanır. Bir qoca uzaqdan onu görüb çağırır:

– Ay İbrahim, ay İbrahim, səndən Məhəmməd olmaz, gedib kalafalığı xarab eləmə, belə qayıt.

## 192. BU Hİ O HİDƏN DEYİL

Ağayar Ağcakənddə qırmızı boyun Şirinin atasıynan güləşir. Özü də şərt qoyullar ki, kim kimi yıxsa başın kəsəjək. Siftə Şirinin

atası Ağayarı yıxır. Ağayar görür ki, yox, zarafatın yeri deyil. Bu həqiqətən bunun başını kəsmək istəyir. Altdan hi-hi-hi eliyəndə bunun əli boşalır, durur ayağa. Yenə güləşillər, bu dəfə Ağayar o kişini yıxır, buraxmır. Bu nə qədər hi-hi-hi eliyirsə, buraxmır. Deyir:

– Bu hi o hidən deyil. Nə qədər hi eləsən də səni buraxan deyiləm.

## 193. BİR ÜFÜRƏ, BİR SƏBİRƏ

Bir nəfər bir evə qonaq gəlir. Ev yiyəsi yayma bişirir, oturullar yeməyə. O biriləri üzdən alıb üfürə-üfürə yeyir, amma qonaq qaşığı yaymaya batırıb ağzına aparır, ağzı, dili yanır. Başını qaldırır yuxarı, deyir:

– Bu damı neçəyə tikmisiz?

Ev yiyəsi deyir ki, vallah onu biz tikmişik bir üfürə, bir səbirə. Yəni səbrin olsun, üfür, sonra ye.

## 194. METİS QOYUN

Kəlbəcərdə zurnaçı Salman var idi, yaxşı zurna çalan idi. Deyillər ki, ə, Salaman, Aşıq Sadıx Qızıllı Bayramın oğlu Bəhmanın toyunu eliyəndə erkək sürüsü Xaş daşdan aşırdı. Aşıq Sadıx zurnaynan çaldı, erkək töküldü kəndə. Sən də bir çoban ovşarı çal, görax o qoyun qayıdırmı. Salman nə qədər çalır, çalır, çalır, qoyun qayıtmır. Deyir ki, Ataxan kişi, vallah, qaytara bilmədim. Deyir:

– Bə niyə Aşıq Sadıx o vaxdı qaytara bildi?

Deyir:

– Aşıq Sadığın devrində qoyunlar hamısı yerri qoyun idi, onlar qoyun havasını başa düşürdü. İndiki qoyunlar metisdi, qoyun havasını bilmir. Ona görə qayıtmır.

## 195. AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ[28]

Aşıq Alı Noraşendə molla məktəbini qutarır. Camahatın dağa çıxan vaxtıydı. Yaylaxda Çamurlu Niftalı bəyin çadırı qurulmuşdu. Bu da Noraşendə məktəbi qutarıf gəlir evlərinə. Elə bilir indi atasıgil yurda çıxıfdı. Gəlir ki, atasıgil yurtda yoxdu. Görür burda bir alaçıx var. İstiyir bu alaçığın yanınnan sığal verif keçsin. Bəyin anası Mehricahan burdaymış, Bəsti xanım da onun yanındaymış. Deyir, ay oğul, bir bəridən gəl görüm. Gəlir. – “Salam-məlöykü”. – “Əlöykət-salam”. Deyir ki, kimsən, nəçisən? Deyir ki, mən Qızıl-vəngli Mirzənin oğluyam. Deyir, bu alaçıx Niftalı bəyin alaçığıdı. Elə biz də təkik, köç hələ gəlif çıxmayıf. Bu gejə qalginan burda, sabah gedərsən. Qabax torandı, səni qurd-quş yeyər. Qalır burda. İnsan məhəbbəti gözdədi. Bəsti xanıma baxan kimi alışıllar bunlar. Alı çay içirmiş. Arvad deyir ki, bala, qıza niyə baxırsan? Qıza göz yetirərsən. Alı utanır. Deyir ki, oğul, zarafat eliyirəm ha, birdən inciyərsən. Gejəni yatır orda, sabahısı yola düşəndə Bəstixanım bunun arxasınca bir tayqulp su atır.

Alının atası sevinir ki, oğlu molla məktəbini qutarıf, bunun başı sarınajax, Göyçə mahalında axund olajaxdı. Alı deyir, yox, ata, mən, deyəsən, bu sənəti işlədə bilmiyəjəm. Bu mənlik döyül. Mən telli sazımdan ayrılan döyüləm. Başdıyır bu yazmağa, oxumağa. Bunun əmisi qızı varmış, Şeyx Qəribin qızı Leyla. Leylanı gön-dərillər ki, sən getginən bunun dərdinnən bir halı bilginən. Leyla gəlir ki, Alı yazıb oxuyur. Yazır ki:

Əldən alıb ixtiyarım,
Bir boyubəstə öldürür.

---

[28] Aşıq Alının kitaba daxil edilmiş rəvayətləri Aşıq Xalıqverdi Mahmudovdan yazıya alınmışdır. Amma aşıq iyirmi ildən artıq bu sənəti işlətmədiyindən şeirləri əzbər deyə bilmirdi. Rəvayətin nağıl hissəsini hafizəsindən söyləyir, şeirləri isə konspektdən oxuyurdu.

Həsrətini çəkən mənəm,
Düşmüşəm xəstə, öldürür.

Kərəm tək ocağa düşdüm,
Fərhad oluf dağa düşdüm,
Sənanam, sorağa düşdüm,
Məjnun həvəsdə öldürür.

Əsil Leyli odur düzü,
Dinə gətirir dinsizi.
Lalə yanax, şəhla gözü
Yoxdu bir kəsdə, öldürür.

Alı qəfil düşdü oda,
Leyli-nahar[29] gəlir yada.
Can alandı mələkzada,
Düşübdü qəsdə, öldürür.

Deyir ki, Alı, əmin qızı sana qurban, kimdi səni öldürən? Deyir ki, deyəjəm.

Bir quzu ceyranın mübtəlasıyam,
Sanki yanağına lala düşübdü.
Şəbi səhərin intizarın çəkən mən,
Gözümə nəm, dilə nalə düşübdü.

Gözlə qəlb arası yarandı dava,
Bemürvət cananım yetmədi hova[30].
Bu sevdada sərim oldu binəva,
Canım öz cismimdə qala düşüfdü.

Deyir, nədi? Deyir, qulağ asginən.

---

[29] Leyli-nahar – gecə-gündüz
[30] Yetmədi hova – kara gəlmədi, köməyə gəlmədi

Lelyli bu sayaxsa, Məjnun neyləsin?
Əsli bu təhərsə, Kərəm göynəsin,
Sənanı beləsə, Xumar söyləsin,
Alı da biz düşən hala düşübdü.

Deyir ki, sənin bu sözünnən mən bir şey anlamadım. Bir dərdini mana deginən. Deyir ki:

Eşit ərz eyləyim, a Leyla bajım!
Artırıbdı Bəsti düzü dərdimi.
Neçə-neçə aşiq, məşuq yaransa,
Çəkə bilməz əsla yüzü dərdimi.

Huridi, pəridi, xilqəti nəsə,
Onsuz hər bir anım ömürdən kəsə.
Üz-üzə dayanıb diliylə desə,
Azaldar bir sevdim sözü dərdimi.

Alı illərinən nə dincəli, nə yata.
Gələrmi eyninə fani sursatı?
Artırır dəmadəm boyu, busatı
Lalə üzü, şəhla gözü dərdimi.

– "Əyə, nədən ötəri"? Deyir ki, Çamurlu Niftalı bəyin qızı Bəsti xanımdan ötəri divana olmuşam mən. Deyir, o əmin qızının əlindədi. Mən Bəsti xanımı gətirərəm bulağın üstünə.

Alı həm də çox mahir tütək çalan olufdu. Camahat yaylağa çıxanda sabah-sabah xayiş eliyirmişdər o dağın döşündə çıx bir tütək çalginan feyziyab olax. Alı təbabət elmini loğman kimi bilirmiş. Alı həm də şairmiş. Leyla deyir ki, əmoğlu, mən onu gətirəjəm bulağın başına, orda könül verib könül alarsız.

Alı döşdə tütək çalırdı. Görür ki, Bəsti xanımnan Leyla gəlir bulağın üstünə. Yenir yola tütək əlində. Bunlar bunun yanınnan sığal verdi keçməyə. Dedi ki, bir ayax saxlayın.

Hərdən gəlsən bulağ üstə,
Deyim dərdim sizə, Bəsti.
Qız, Allahı sevər olsan,
Ürvənd tutma üzə, Bəsti.

Nə fitnə, nə şər deyilsən.
Amma sevənə qənşər deyilsən.
Hürisən, bəşər deyilsən,
Görünmürsən gözə, Bəsti.

Ziyarətgah çeşmə başı,
Ay qabaxlım, olma naşı.
Mən ağlayım, sən sil yaşı
Göz toxunsun gözə, Bəsti.

Söz olmasa deyilərmi?
Dərd çəkməyən əyilərmi?
Bir qəbahət sayılarmı,
Əgər gəlsəm sizə, Bəsti?

Alı sizə deyil ki yad,
İnad etmə, ey pərizat.
Eyləmə sən qəlbini şad
Çətin dərdə dözə, Bəsti.

Bunlar istiyir gedə. Deyir, yox. Ayaq saxlayın. Sizi and vermişəm mevlaya.

Xilqəti pakizə, huri-qılmanım,
Zahirdə insanım, bir dayan görüm.
Umudum, pənahım, cismidə canım
Səxalı soltanım, bir dayan görüm.

Tədbirim, taqətim, vuran biləyim,
Səadət sabahım, arzu-diləyim,

Yerdə ahu-bərim[31], ərşdə mələyim,
Düzlərdə ceyranım, bir dayan görüm.

Gecələr ayımsan, gündüz günəşim,
Qərq olum ziyana, qoynunda bişim.
Ay nurlu sabahım, çarxı gərdişim,
Ömürdə sükanım, bir dayan görüm.

Dövrün bəzəyisən, sərrast nəqqaşım.
Kabeyi-beytullah ziyarat daşım.
Ruhumun nəğməsi, könül sirdaşım,
Mehri-mehribanım, bir dayan görüm.

Kahkaşan soraqlı gözəl səviyyə,
Dilimin dühası cəlil tərbiyə,
Səni and verirəm alı nəbiyə,
Tükanda imkanım, bir dayan görüm.

Alının əfqanı deyildi əbəs,
Din-danış, ruhumdu o sehirli səs.
Səjdəsi namümkün beytəl müqəddəs
Ayətim, imanım, bir dayan görüm.

Bəsti deyir ki, ağız, ona de nənəmin yanında mən ona könül vermişəm. Bir tayqulp su atmışam onun arxasınca. Məni çox yerdən istiyirlər, amma mənim sevdicəyim Alıdı. Mən heç kəsə gedəsi deyiləm. Vaxtında elçi göndərsin, məni atamdan alsın.

Bu söz bir anda yayılır dünyaya ki, Aşıq Alı Çamurlu Niftalı bəyin qızını istiyir. Mirza deyir, ay arvad, mən gedəjəm Nifalı bəydən qızı alam. – "Ayə, – deyir, – Niftalı bəy sənə qız verməz, sən dəli olma". Deyir, yox, alajam. Bunun da bir xənçəli varmış. Çıxardanda qınnan çıxmırdı, basanda da qınına girmirdi. Bunu da belinə bağlıyır, düşür yola. Niftalı bəyin qapısını döyür.

[31] Ahu-bərim – ceyran balası

– Əyə, kimdi?

Deyir ki, Mirzadı.

– A Mirza, xoş gəlmisən, nə yaxşı bizi yad eləmisən?

Deyir:

– Bəy, ömrün uzun olsun, Allah razı olsun səndən yernən göyün arası qədər. Bir sirri ki Allahdan gizdin deyil, bəndədən onu gizdətməyin yeri yoxdu. Mənim oğlum Aşıq Alı sənin qızın Bəstixanıma aşıqdı. Gəlmişəm onun həəsini verəsən.

Axı bu bəydi. Özünnən çıxır.

– Ə, sənin nə güjün var, sən kimsən? Mən bəy, sən rayət. Sən özünü dolandıra bilmirsən, bəy qızı alırsan?

Deyir:

– Gəlmişəm da.

Bunun anası Mehricahan çox dünyagörmüş adam oluf. Mehricahan bəyi çağırıf deyir:

– Oğul, buraya gəl. Sənin çalışdığın, vuruşduğun, yetirdiyin-bitirdiyin tək bircə dənə qızın var. Sən bilirsənmi bunlar da şeyxdi, nəfəsi ağırdı. Gəlginən ona elə tənqah deginən ki, ona güjü çatmasın. Onnan sonra qızı kimə verəjəhsən verginən. Onun qəlbinə dəymək olmaz.

Deyir:

– A Mirza.

Deyir:

– Bəli.

Deyir ki, a Mirza, sənnən yaxşı kişi gəlmiyəh ki. Gəlmisən, verdim.

Deyir:

– Bəy, Allah mübarək eləsin, təxtin rəvan olsun.

Deyir:

– Yox da, mən mirzələrimi çağırım, yazsın. Tənqahları nə vaxt gətirsən, gəl qızı apar.

Deyir:

– Yaxşı.

Deyir:

– Üç min qızıl pul gətirəjəhsən. Bir dəvə gələjəh yanında köşəh, əlli erkək gələjəh, əlli şişək gələjəh, nə qədər mal gələjəh.

Deyir:

– Bəy, Allah xeyir versin.

Mirzələri bunu yazır. Kağızın birini Mirzaya verir, birini də bəy götürür. Deyir, bu tənqahları nə vaxt gətirsən, həmin gün gəl toyunu elə. Mirza tənqahı taxır döşünə, sevinə-sevinə, fıştırıx çala-çala düşür yola.

Alı anasına deyir, gör atam gəlir? Deyir, atan fıştırıx çalır. Deyir, sən öl, qızı vermiyif, o qəm fıştırığıdı. Gələn kimi – bunun bir kürkü vardı, – kürkü əyninnən soyundu atdı evin ortasına, kürkün üstündə uzandı, qılçasını qılçasının üstünə qoydu. Dedi:

– A kişi, bir işə getmişdin, bir de görüm nətərdi.

Dedi:

– Ay arvad, neçə ildi burda süpürgəçi işdiyirsən?

Dedi, iyirmi beş ildi. Deyir, sən bilirsən ki, Mirza hara gedir orda qan bağlanır. Aldım qızı, özü də oğul kimi aldım. Alı dedi, ata, nətər aldın? Dedi, oğul, kəsmətin də kəsdi. Aparıf toyu eliyə-jeyih. – Nə aparajax. Boş ələk, boş xəlbir. Nə vardı ki, apara. – Dedi, ata, kağızı ver mana. Aldı kağızı oxudu ki, bəy bunnan yeddi arxadönəninin qanını tələb eliyifdi. Dedi, ata, vermiyif ey qızı. Dedi, nətər vermiyif? Bəs o kəsəmət nədi? Dedi, ana, sazı mənə gətir. Alı sazı aldı döşünə. İndi bəyin dilinnən deyir.

Elçi bəylər, xatirinizə dəyməsin,
Bu adətnən elin işin istərəm.
Əbrudan, ipəkdən, tirmədən, şaldan
Xarə parçaların başın istərəm.

Gətir başlığına üşcə min manat,
Cüt qızıl bilərzik, bir qızıl saat,
Bircə hə sözünə iki köhlən at,
Almazdan üzüyün qaşın istərəm.

Bir dəvə gətirin yanında köşək,

Qalan töyfələr olduqca qəşəng,
Damazdığa gəlsin əlli baş şişək,
Əlli də erkəyin leşin istərəm.

Put yarım çay gətir, iyirmi put şəkər,
Simavar qaynasın hər axşam-səhər,
Bu toyun müddəti qırxca gün çəkər,
Qısır inəklərdən beşin istərəm.

Şeyx Alıyam, budur sözümün yeyi,
Çağırram bu toya irayət, bəyi.
Put yarım çay gətir, qırx beş put düyü,
El yeməyə əppək-aşın istərəm.

Dedi, gör qızı verib vermiyib. – "Ayə, bu kopoğlu orda desəydi, sən öl, onu elə doğruyajaydım heş cəmdəyi kilimin arasında durmuya. Orda bunu deyərdi da mana". Anası ağladı: – "Anan ölsün bala, onun yarı borcu cəhrəynən mənim boynuma. A Mirza, sən də on haraba ot bişmə iyirmi haraba ot bişginən, yarı xərcin də sən ver". Dedi, yox arvad, vallah o mənnik döyül. Alı güldü. Dedi, ana, o harabaynan-zadnan düzələn şey döyül. Gedim əmim Şeyx Qəribin yanına.

Şeyxin də devləti həddən aşırdı. Getdi Şeyxin yanına, salam verdi. – "Oğul, mənim üçün nə qullux?" Dedi, əmi, icazə ver sinəmə bir neçə xarə söz gəlib, onu deyim. Sazı basdı sinəsinə.

Eylə mərhəməti, yetir murada,
Şad olar mətləbin alan, babacan.
Üz çevirdim, pənah qıldım bir ada,
Aman istər darda qalan, babacan.

Tənha evladınam, tərk etmə məni,
Gəl bülbülsüz ağlar qoyma çəməni.
And verirəm xudaya, mövlaya səni,
Yaşamaz Bəstisiz balan, babacan.

Peymana bağlandım, ağardı saçım,
Mübtəla cünunam, səhraya qaçım.

İrəhm et Alıya, bir ehtiyacım,
Qoyma məni dili-nalan[32], babacan.

Babacan nə dedi: "Oğul, allah mübarək eləsin. Xeyir-dua verərəm. Bunnan başqa mənim ayrı şeyə gümanım çatmaz". Alı qayıtdı. Anası bunun belə gəldiyini görüb ana ürəyidi ağladı, naleyi-fəryad elədi. Dedi, ana, ağlama. Deyillər Türkiyədə aşıqlıq moddu. Gedəjəm Türkiyəyə. Gedib ordan tənallah gətirif Bəstini alajam. Bəsti xanıma bir məktub yazdı.

Gedər oldum nazlı yarım,
Əmanətdi canım səndə.
Həsrətinə tabanım yox,
Alışmışam yanım səndə.

Yola gəlsin nainsafı,
Qoyma məskən edim Qafı.
Pərvanəyəm şam ətrafı,
Ataşına yanım səndə.

Alı gələr bircə ilə,
İnkar sözün alma dilə.
Güzarım var Leyla gilə,
Bir zəhmət çək xanım, sən də.

Gəldi. Baxdı ki, Bəsti ağzına yaşmax vurub. Alı dedi qulaq as. Sazı köynəkdən çıxartdı.

Əbru[33] çəkmə bədirlənmiş ayə sən,
Qəm yaradan o yaşmağı tərk elə.
İnsaf elə sal üstümə sayə sən,
Tez ürbəndə yanaşmağı tərk elə.

Giryanam gözəllər xası ucunnan,
Qəhərləndim, tutdum yası ucunnan.

[32] Dili-nalan – ağlar
[33] Əbru – yaşmaq

Bir busənin təmənnası ucunnan,
Mərhəmətlə savaşmağı tərk elə.

Alını qəm canda bidar edəndə,
Qəlbi xoşhal olar şikar edəndə,
Könül təmənnasın aşkar edəndə,
Gülə-gülə o qaşmağı tərk elə.

– "Bəsti xanım, atan bu qədər tənqah istiyifdi. Mən gedirəm Türkiyəyə. Məni bir il gözdüyərsən". Bəsti xanım dedi ki, üç il sərasər səni gözdüyəjəm. Məni heç kim zornan ərə verə bilməz. Barmağımda bir üzük var, onun qaşı süleymanıdı, zəhərdi. Hər kim məni məjbur eləsə, bir istəkan sudu, mənim canımdı, onnan qutardıx.

Alı gəldi. Anası bunun xurcununu hazırladı. Sazın götürdü Selim yolu gəldi. İndi gedir Dərələyəzə, ordan gedəjəh Türkiyəyə. Gəldi ki, Naxçıvannı Kalbalı başının dəstəsiynən Sarı yerdə yurd salıf. Bunlar gördülər bir cavan aşıxdı. – "Ay cavan aşıx, bizim üçün oxuyarsan?" Dedi, oxuyaram. Alı burda yaxşı oxudu. Oxuyannan sonra Kalbalı xan buna otuz manat pul verdi, bir yəhərriyüyənni at verdi ki, mən qıymaram sənin kimi bir sənətkar piyada getsin. Sənə yaxşı yol.

Atı mindi gəldi. Alı Kolanıya gələndə beş-altı uşaq dirədöymə oynuyurdu. Dedi, a kişi, aşıqsan? Dedi, bəli. Dedi, Kolanıya getməginən. Orda bir aşıq var Aşıq Duraxan, o sənin sazını əlinnən alajehdi. Alı əvvəl fikirrəşdi ki, ata bir qamçı vurum qaçım burdan. Olar ki, ona xəbər verəllər, bir köhlən atnan düşər dalıma, üstümü gəzər, pulu çıxardar, sazımı əlimdən alar. Sonra dedi, yox, kişi oğlusan, gəl elə özün onun qapısına getginən. Dedi, Duraxanın evi hansıdı? Dedilər, budu. Gəldi atdan düşdü. Atı bağladı, girdi içəri ki, bir şəlpeysər, nərin biri bardaş quruf oturufdu. Bu dizinin üstündə bir ipək dəsmal, o biri dizinin üstündə bir ipək dəsmal. Düyü həlimi içir. – "Salam-əlöyküm, usta". – "Əlöykət-salam". Belə baxdı. – "Oğul, kimsən, nəçisən, nə karəsən?" Dedi, ay usta, aşıqlıq eləmək istiyirəm. Sənin kimi bir mərifətdi usta eşitmişəm. Gəlmişəm sənnən beş

kəlmə söz yazam, aparam pərakəndə eliyəm, özümə pul qazanam. – “Hə, yaxşı eləmisən, oğul, gəl otur”. İndi bu düyü həlimi içir. Dedi ki, olarmı sən sazını çıxardıf birin oxuyasan, bir baxam sənə görüm qabiliyyətin nətərdi. Alı sazı çıxartdı. Osmanlı divanisi oxudu. Nətər oxudusa, dedi, bah, bah, bah. Ay bala, bu səsi hardan almısan? Dedi, usta, gəldim ki, bazarda satırlar, pul verdim mən də aldım. – “Yaxşı, yaxşı, ustanın üzünə ağ olmaginən”. Bu əhvalatı danışdı buna. Dedi, hali-keyfiyyət başıma bu qəza gəlifdi. Dedi, mən gedirəm Türkiyəyə. Mənim dəstələrim var: keçi-keçi, kosa-gəlin oynadan. Onları aparıram, orda mətə yerimiz var, bölürəm o çayçılara. Bir vədə günü qoyurux. Vədə tamam olanda gəlirik oraya, kim nə qazanıfsa qardaş malı kimi yarı bölürux. Sən getginən Sarvannara, mən də dəstəmi götürüf sabah gəlirəm.

Alı gəldi Sarvannara. Gəldi ki, bunların kəndinnən Ramazan kişi çəltik aparır. Dedi, kəndə gedirsən? Dedi, hə. Dedi, bir namən var, onu versəm, verərsən Bəsti xanıma? Dedi, cannan-başnan verərəm. Yazdı:

Qasid, gedər olsan bizim ellərə,
Ver naməni o canana, deynən.
Qohum-qardaş, dost müsahib olannar
Göz dikməsin başqa yana deynən.

Bu tozlu yollara varannan sonra,
Sən bizim elləri görənnən sonra,
Bu dilsiz naməni verənnən sonra,
Dil-cavabı yana-yana deynən.

Soruş əhvalın, necədi halı,
Yarı cida saldı dünyanın malı,
Sədaqət yolunda aşiqin Alı,
Üz tutubdu Alosmana, deynən.

Bunu dedi, getdi Sarbannara. Qaldı burda. Sabahısı Duraxan gəldi başının dəstəsiynən. Alı gördü ki, bu keçi oynadandı, o filan

oyunçudu, o filandı, bu cavan oğlan kimdi? – “Qardaş, adın nədi?” Dedi, Əsəddi. – “Əsəd, sənin sənətin nədi?” Dedi, mən Duraxanın qəlyanın doldururam, yandırıram, verirəm çəkir. Ayda mənə otuz lirə verir. Alı dedi, vay, orda bilsəydim deyərdim ki, elə qəlyanı mən yandırım o pulu mana verginən.

Türkiyəyə gəldi. Duraxan dəstəni böldü. Bunların dəstəsində Əsəd oldu, Alı oldu, Duraxan oldu, gəldilər bir çayçıya. Dedilər ki, yanşaxsınız? Dedilər, bəli, yanşağıx. – “Yanşıyarsız?” – “Yanşıyarıx”. Fərşi salıllar, bunun üstündə bunlar dövran eliyir. Alı gözünün qulağıynan baxdı ki, hər gələn dəsmalın üstünə bir axça atır. Burda o qədər pul var ki. Ürəkdən sevindi. Allah, sənin varlığına çox şükür. Gördü bir nəfər gəlir, bunun əynində aşıx paltarı var. Bazdıburutdu bir aşıxdı. Vallah, bunun əynində bir qəlfeyi şalvar ki, üçaylıx uşağı salsan cibinə gördüm deməz. Gəldi pulun qırağında oturdu. Pulu saydı. Dedi ki, sonra mənə şər atarsız. Üş yüzdən beş manat əysikdi. Dəsmalı bağladı, götürdü yola düşdü. Alı dedi, usta, bu kimdi? Dedi, bu, paşanın aşığıdı, səs eləmə. Dedi, nolsun paşanın aşığıdı, mənim pulumu haraya aparır? Ay getmə, geri dön. Düşdü bunun dalına.

Getdi bir saraya daxil oldu. Bura da paşanın sarayıdı. Saraya daxil olanda Alı bu aşığı itirdi. Getdi bir qapını açdı ki, üş dənə paşa oturufdu, qabaxlarında qızıl istəkan, çay, əllərində qızıl çərəkə. – “Mərhaba, paşam”. Başın qaldırdı ki, bir cavan uşaxdı, əlində sazı var. – “Mərhaba oğlum, nə işin sahibisən?” – “Paşam, mən bir az para toplamışdım, sənin aşığın mənim paralarımı qaçırıf”. Dedi, mənim aşığım paralarını qaçıra bilməz. Ola bilər ki, bir köntöyün söz deyif, əlində aciz qalmısız, ona görə paralar çatır mənim aşığıma. Deyir, hélədisə gəlsin bu paşaların qarşısında desin, mən çunqurumu da verim.

Əmr eylədi ki, İqbala deyin gəlsin. İqbal gəldi. Dedi, paşam sağ olsun, onlar mənim icazəm olmadan gedif çayxanada meydan açıflar. O pullar mana çatır. Dedi, yox, bunlara köntöyün söz demisən? Dedi, demişəm. Alı dedi, paşanın yanında niyə yalan danışırsan? Hansı sözü demisən deginən. İqbal dedi:

Gəndinə aşiqəm deyən, aşıqsan, meydana gəl.
Namərd gəlməz bu meydana, mərd ilə mərdanə gəl.
Gəndi[34] olan gəndisini öyməyə layiq deyil,
Al sazını al əlinə, bu cəngi-devrana gəl.

Duraxan da gəldi çıxdı buraya. Duraxan paşanı görəndə lopa bığları vardı, necə ki öküzün bığları sınır, Duraxanın lopa bığları da sındı düşdü çənəsinin altına. Paşa dedi, ya mənim aşığımın cavabını ustan desin, ya da sən de. Ustanın halı özündə döyüldü, özünü itirmişdi. Alı dedi ki, paşam sağ olsun, icazə versən mən deyərəm.

Alı dedi:

Dərya mənəm, damla sənsən, axıban ümmana gəl.
Mən ərz edim, sən qulağ as, mərifətə, kamala gəl.
Sən satansan, mən alanam, açginan mətahını,
Ləli sat məhər-mədana, xiridarı alana gəl.

İqbal dedi:

Təriqətdən var savadım, vacibi sünnət qanıram,
Əlif Allahın adıdı, beylə peyğəmbər tanıram.
Tey təbarək, qəni Allah, ona səjdə qılıram,
Xilqətimdi Adam ata, seyxaki ehsana gəl.

Alı dedi:

Arifsən salam verim, soruşum halın görüm.
Hikməti kimdən öyrəndin, söylə kəmalın görüm.
İncil, Zəbur, Söfi-tövrat, göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən, bu narı-nirana[35] gəl.

İqbal dedi:

İsayiyəm, Musayiyəm, hər nəyəm öz yolumda.
Həqiqətdən kəlamım var, mərifət kamalımda.

---

[34] Gəndi – özü
[35] Narı-niran – cəhənnəm odu

İqbal paşa qulluğunda, sədr-əzəm yanında,
Sənə bir divan tutajam, ədalət divana gəl.

Alı dedi:

Mən Alıyam, söz ümməti, anlamışam təriqəti.
Bir qətrədən yaradan var yetmiş iki milləti.
İsayisən "İncil"i sev, musayisən "Tövrət"i,
Gər Məhəmməd ümmətisən boyun əy "Quran"a, gəl.

Paşa ərz eylədi: – "Cocuğum, nə istəyirsən?" Dedi, Paşa, icazə ver mən deyəjəm. Alı dedi:

Bir mərdə qonaq gələndə gülə-gülə nam verə,
Namərd bir mehman görəndə istəyir ki yan verə.
Hanı Hatəm kimi Hatəm, sürfə açıb ad ala,
Hanı Loğman kimi Loğman xəstələrə can verə.

Dedi, İqbal! Dedi, bəli, paşam. Dedi, sözün cavabı var? Dedi, paşam sağ olsun, neçə ildi sənin çörəyini yeyirəm. Əgər sözün cavabı olmasa qılıncın iti, boynum nəzikdi. Vurmalısan. İqbal dedi:

Eldə ustad ölməyif ki, yetənə devran verə.
Qərib keçə qürbət elə, mərifətnən san verə,
Yolun azan xərac verə, mərd meydanı sulamaz,
Öz xoşuna verməsə də, zulumnan danan verə.

Alı dedi:

Bir kimsəyə Allah versə, onun baxtı ucadı.
Bir kimsədən Allah alsa, gündüz ona gecədi.
Bir kimsəyə qarğış keçsə, çalışdığı becadı.
Bir kimsəyə xalıq versə, istər hər yan verə.

İqbal dedi:

Bir kəs ki, elin atar, həsrət qalar camala.

Bir kəs ərkanı bilməyə, çata bilməz kamala.
Bir kəs gəc rəftar ola, dərdi satıf qəm ala.
Bir kəs ki həddini aşar, qəza tutar, qan verə.

Alı dedi:

Davud kimi Nəbi hanı, qəmləri dəm eyləyə.
Həmzə kimi igid hanı, rəqibi ram eyləyə.
Süleyman tək Süleyman yox, aləmi cəm eyləyə.
Kişi gərək el yolunda canını qurban verə.

İqbal dedi:

Bir kəs hakdan əl üzməyə, aqibətdə şad ola.
Bir kəs eldən ayrı düşə, birdəfəlik yad ola.
Bir kəs qaça nairzayə[36], xanası bərbad ola.
O kimsə Qasım dostudu, ruzusun asan verə.

Alı dedi:

Gəl biçarə Aşıq Alı, sığın haqqın adına.
Əda eylə namazını, xaliqi sal yadına.
Sidqilən səsləsən onu, yetişər imdadına.
Mətləbini Qul Qəmbər, o Şahi-Mərdan verə.

İqbal dedi:

Bir kəs özün şah bilə, haqda görsün əməli.
Bir kəs eldə məğrur ola, tez ucalar təməli.
Əsl sözüm kütah olmaz, xeyri vardı deməli.
O haqq ki İqbal dostudu, dərsin nihan verə.

Paşa dedi, mətləbə keçginən. Aşıq İqbal:

O nədi ki, otuzunda cavandı,
On beşində qocalanar, uludu?
O nədi ki, dili ayrı, sözü bir,
Hansı dərya hər dəryadan durudu?

---

[36] Nairzayə – icazəsiz

Dedi, ya ustan cavabını versin, ya özün. Usta hardan versin? Usta o dünyalıxdı. Alı dedi:

O aydı ki, otuzunda cavandı,
On beşində qocalanar, uludu.
O qələmdi dili ayrı, sözü bir
O elmidi hər dəryadan doludu.

İqbal dedi:

O nədir ki səbr ilə görülər?
O nədir ki məhəbbətnən hörülər?
Nə cannıdı əmanətə verilər?
Hansı hikmət əmanətin quludu?

Alı dedi:

Hak tədbiri səbr ilə görülər.
Könüllərdi məhəbbətnən hörülər.
Ruh cannıya əmanətə verilər.
İlqar, iman əmanətin quludu.

İqbal dedi:

O nədir hak yanında nahakdı?
O nədir ki, yerdən göyə dayaxdı?
O kimdir ki, yatmayıfdı, oyaxdı?
Aşıq İqbal hər elmidən halıdı.

Alı dedi:

Şərri-şərrat[37] hak yanında nahakdı.
Hak nəzəri yerdən göyə dayaxdı.
Xaliqimiz yatmayıfdı, oyaxdı.
Bu sözləri açan Aşığ Alıdı.

Paşalar dedi ki, paşam sağ olsun, iki yumurux bir başa çataldı. İndi də o cocux desin, sənin aşığın cavab versin. Dedi, cocuğum, de. Dedi ki:

---

[37] Şərri-şərrat – pis danışan

Təriqətdən kamilsənsə, ay aşıx,
Şəriyəti nə ilə eylərsən aşkar?
Bey altında o noktanı bəyan et,
Mənasından məni eylə xəbərdar.

Yeddi damu, səkkiz cənnət yəqin var.
Yerdədi, göydədi, hardadı ənnar?
Ərşdə iki quş var, müdam dən dənlər,
Gahdan pünhan olur, gahdan da aşkar.

Dedi, paşam, bildim. Dedi, nədi? Dedi ki, aynan günü deyir. Dedi, nətaras oğlu nətaras, o sənə qafiyəynən deyir, qafiyəynən ver cavabı. Alı dedi, paşam, mən hamısını deyim, o birdən açar.

Təriqətdən şəriyətə gəlmişəm,
Həqiqətdə doğru yolu bilmişəm.
Alıyam, özüm də məətdəl qalmışam
Çərhi-dəvvarədə neçə elm var?

Paşanın aşığı qaldı belə. Sazı təqdim elədi Alıya. Bu səfər Duraxan tutulur, tutulmur. Dedi, paşam sağ olsun, bu nətaras oğlu nətaras, neçə səfər bizim pulları aparıfdı. Qoymuyuf balalarıma pərakəndə eliyəm. Tutulur, tutulmur. Nərə dönüfdü. Alı dedi ki, mən paşanın aşığının sazını almıram. Ona görə ki, paşam qojalıfdı, bu saznan başını alladır. Paşa Aşıq İqbala dedi, bunların nə qədər pulunu aparmısan? Dedi, üş yüzdən beş manat əysik. Dedi, altı yüz manat pul gətirirsən. Altı yüzü gətirif saydı. Dedi, oğul, halalındı.

Bu səs bir anda yayıldı Türkiyə mahalına. Muş şəhərində Əsmər xanım vardı. Əsmər xanım da bir neçə aşığı bağlamışdı. Elə bir şairə idi ki, yer üzündə onun misli-bərabəri yoxudu. İki sərraca bir namə yazdı. Tapşırdı ki, bunu aparın, Aşıq Alı yerdə də olsa, göydə də olsa tapın verin ona.

Duraxan mətə yerinə gəldi ki, dəstəsi burdadı. Alı pulları çıxardı. Duraxan qardaş malı kimi böldü bunlara. Bölənnən sonra

sərrac gəldi ki, burda Aşıq Alı kimdi? Alını göstərdilər ki, budu. Naməni verdilər ki, Əsmər xanım yazıfdı. Yazıf ki:

Alanda naməni, ay Aşıq Alı,
Götür sazı, bu meydana durma, gəl.
Gəlməsən gətirrəm, gəlsən həp gözəl,
Yana qaçıb heç özünü yorma, gəl.

Söyləynən aşıqsan, yoxsa naçarmı?
Şəmsi varkən səyyarə nur saçarmı?
Ər oğlu ər zənanadan[38] qaçarmı?
Ağlayıb-sızlayıb boynu burma, gəl.

Adım Aşıq Əsmər, bir nazanı gənt[39],
Meydanımda tab etməyib bir həpənt.
Neçə-neçə aşıq eyləmişəm bədzat,
Zatı, paki ünvanımı sorma, gəl.

Aşıq Alı dedi, usta, gedax Əsmərin cənginə. Dedi, oğul, üçətən toba, sənnən qan iysi gəlir. Alı dedi, onda mən getdim. Dəstəni götürdü bu Dərələyəzə gəlməkdə olsun, Əsəd dedi ki, Alı. Dedi, nədi? Dedi, Alı, xoşuma gəlirsən. Mənim məvacibimi artırsan mən sənnən qalaram. Dedi, nə alırsan? Dedi, ayda otuz manat. Dedi, mən sənə ayda altmış lirə verdim.

İndi bunlar gəldilər Əsmərin cənginə. Gəldi ki, Əsmər elan vurubdu ki, Göyçə mahalının Qızılvəng kəndinnən Aşıq Alının divanına kim qulağ asmaq istiyirsə gəlsin. Kim dayanardı? Millətə baxırsan ki, göyə torpaq atsan yerə düşməz. Meydanı bəzətdirifdi. Neçə aşıq bağlıyıf, neçə şəyirdi var. Şəyirdlər burdadı, qan-qan deyillər. Meydan sulanıbdı.

Aşıq Alı gəldi, meydana daxil olanda salam verdi, camahata baş əydi. Yer göstərdilər ki, keç əyləşginən. Baxdı ki, Əsmər xanım qızılnan bəzədilmiş stolda oturuf, gümüşnən bəzədilmiş stolu da

---

[38] Zənanadan – qadından
[39] Gənt – seçilmiş adam

Alıya təhlif elədi. Dedi, xanım, sənnən bir xayişim var. Atalar deyifdi qoç olan yerdə qoyunnan qurban olmaz. Keç yerində əyləş. Bu yer sənindi, o yer mənimdi. Oturdu. Əsmər həfsələsin basammadı. Sazı aldı döşünə. Heç buna sorğu-sual eləmədi.

Aşıq oluf tərki-diyar olanın
Elmi dərin, əməlləri düz gərək.
Qəhr eyləyif nə daldada gəzirsən,
Rəqib rəqib ilə üzbəüz gərək.

Alı sazı çıxartdı. Əsəd dedi, aşıq, paşanın aşığına dediyinnən buna deginən. Alının qulağına dedi, sənin nişannın var, amanın günüdü bunu bağla, bunu da mənə al. Dedi, ə kiri, səs eləmə.

Alı dedi:

Nahaq zövq eylədim canan cənginə,
Behünər cənginə behünər gərək.
Maya tab eyləməz nər meydanında,
Nərin meydanında nərə nər gərək.

Əsmər dedi:

Fərzənd[40] xar olarsa, çəkər dərd ana.
Ha cəhd edə, ola bilməz nər dana.
Arif olan sözün deyər mərdana,
Sinəsində qıfılbəndi yüz gərək.

Alı dedi:

Məqamını, məramını bil ağa,
Mürvət eylə, düş qoluma, gəl bağa.
Şahin kimi göydə qanad çalmağa,
Havada süzməyə balı-pər gərək.

Əsmər buna gözaltı baxdı ki, Aşıq Alı bir cavan aşıqdı, bunnan keçiləsi döyül. Ürəyinnən keçirdi ki, İlahi-pərvərdigara, məni buna qismət eləginən. Dedi:

---

[40] Fərzənd – evlad

Əsmərəm, hakqımı hakdan umaram,
Sədaqətdə Sənan üçün Xumaram.
Bir qəvvasam, dəryalara cumaram,
Nabələdə bəhri ümman, üz gərək.

Alı dedi:

Camalın şövqünnən dilim oldu təng,
Çayda balıq olar, dəryada nəhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı bu meydanda bir gərək.

Urra-hay qalxdı, aləm qarışdı bir-birinə. Əsmər düşdü qabağa:

Qərib kəssən, bil yerini, düz otur,
Verəsən dilinə qadağa, sən gəl.
Bir neçə aşığı bəndə salmışam,
Olarsan onlara sadağa, sən gəl.

Alı dedi:

Bəsrə, Bərgüşad, Bağdad dolandım,
Olmadı dilimə qadağa, sən gəl.
Ləblərin şəhdinin divanasıyam,
Düşmüşəm Leylisiz bu dağa, sən gəl.

Əsmər dedi:

Üzbəüz meydanda basmışam şiri,
Saldım köhləninnən çox cahangiri.
Divanidə, təcnisdə bir-birimizi
Çəkək ya arana, ya dağa, sən gəl.

Alı dedi:

Qafiyə, qıfılbənd, tilsim bəhriyəm,
Dənanda fikirli, Loğman təhriyəm,
Kaşkaşanda viranalar şəhriyəm,
Sam[41] kimi əsərəm, bad ağa sən gəl.

---

[41] Sam – Aşığın dediyinə görə, Sam küləyi elə bir küləkdir ki, əsəndə dünyanı viran eləyir.

Əsmər dedi:

Düşün sən Əsməri mahi-münəvvər,
Titrəyər zərbindən əflak sərasər.
Yaxşı-yaman nə anlıyar südəmər,
Tifilsən, cocuxsan, adağa[42] sən gəl.

Alı dedi:

Alı bir ümmandı, dərsi dərindi,
Hünərin var dərməlisən, dər indi.
Təngiyərsən, basar səni dər indi,
Çıxar nəzir-niyaz, sadağa sən gəl.

Əsmər havalanmış at kimi başın alıfdı. İmkan vermir danışana. Sazı götürdü.

Çəkil meydanımdan, ay cavan aşıx,
Səni bir bahasız pul eylərəm mən.
Hey qalarsan xəcalətin içində,
Qumru dillərini lal eylərəm mən.

Alı dedi:

Səbr eylə, əl saxla, ay Əsmər xanım,
Sən sayalısan, al eylərəm mən.
Divani, təcnisə tutaram səni,
Qovğa törədərəm, qal eylərəm mən.

Əsmər dedi:

Əl-qol atma bu meydanda nə bada,
Çəhdiyin zəhmətin tez gedər bada.
On iki şəyirdim var, hammı bəyzada,
Səni də onlara qul eylərəm mən.

Alı dedi:

Yaxşı düşdün bu sərrafın əlinə,

[42] Adağ – iməkləmək

Cəhd eyləsən dilin çatmaz dilinə.
Üz tutaram İrəvanın elinə,
Əl tutub əlinnən yol eylərəm mən.

Əsmər dedi, sən öl, Allah mənimkin verifdi.

Nələr gəldi bu Əsmərin sərinə,
Hədyan deyif sözü salma dərinə.
Minərəm belinə köhlən yerinə,
Arpa-samanını bol eylərəm mən.

Alı dedi, qulaq as.

Aşıq Alı, duva qıldı pirinə,
Cəhd eyləyif acı qatma şirinə.
Küçühləmiş qancıx kimi hürmə,
Səhər-axşam sənə yal eylərəm mən.

İndi keçdilər qıfılbəndə. Əsmər dedi:

Səndən xəbər alım, ay Aşıq Alı,
O nədir ki, onda dürlü hal olur?
O nədir ki, hey dolanır nəm üstə,
Nə sayax düzəlir, dalbadal olur?

Əsəd dedi, ayə, sənə qurban olum, paşanın aşığına dediyinnən deginən. Alı dedi, qulaq as.

Al cavabın deyim, ay Əsmər xanım!
Dünyamızdı, onda neçə hal olur.
O günnərdi hey dolanır nəm üstə[43],
Həftələr, aylar dalbadal olur.

Əsmər dedi:

---

[43] Nəm üstə – ad üstə

Neçə gün üstündə dağları aşır?
Neçə mənzilində karvanı düşür?
Neçə qazanında xörəyi bişir?
Neçə məjmehidə payimal olur?

Alı dedi:

Yeddi gün üstündə dağları aşır,
On iki ayında karvanı düşür,
Dörd fəsil içində xörəyi bişir,
Üç yüz altmış altı payimal olur.

Əsmər dedi:

O nədir ki, yendi göydən qarasız?
O nədir ki, tədbirlanıb[44] çarasız?
De Əsmərə, nə şəhərdi darğasız?
Cavabını bilən pürkamal olur.

Alı dedi:

O kağızdı, göydən yendi qarasız.
O ölümdü, tədbirlanıb çarasız.
Məzarxana bir şəhərdi, darğasız.
Alı cavab verir, qalmaqal olur.

Yerdən dedilər ki, Əsmər xanım, bu dəfə Aşıq desin. Dedi, yox, qulaq asın.

Söylə Aşıq Alı, kimlərə hakdan
Dörd şöhrət verildi əbədi barat?
Hansı qəza gəldi, keçdi aradan,
Neçəsi şad oldu, neçəsi qarət?

Alı dedi:

Fatma, Zülfüqar, Düldülü Qəmbər,

[44] Tədbirlanıb – tədbiri yoxdur

O şahı-mərdana verildi barat.
Kərbala söhbəti keşdi aradan,
Şümrü şad, xaneyi Fatmeyi qarət[45].

Əsmər dedi:

O kim idi handan hana atdılar?
Saxla deyə kimə əmr etdilər?
O kim idi cismin oda tutdular?
O kim idi ona qıldı iltifat?

Alı dedi:

Adəmi Həvvaynan xakə atdılar,
Saxla deyə yerə əmr etdilər.
İbrahimin cismin oda tutdular,
Saraydı, ona qıldı iltifat.

Əsmər dedi:

Hək nədən yaratdı qızıl öküzü?
Hardadı ayağı, hardadı gözü?
Əgər deyə bilsən tükünün düzün,
Hesabla Əsmərə, sən eylə isbat.

Alı dedi:

Hak oddan yaratdı qızıl öküzü,
Məğrubda ayağı, məşruqda gözü.
Alı dəqiq desin tükünün düzü,
Ulduzların sayına bərabər isbat.

İndi növbə Alıya gəldi. Alı dedi:

Səndən xəbər alım, ay Əsmər xanım,
Haqqın qüdrətinnən sirr nədən oldu?

---

[45] Yəni Şümür İmam Hüseynin başını kəsdi şad oldu, Fatma talan oldu.

Pərdeyi-hicabdan bir dəsti gəldi,
O dəstin üstündə sirr nədən oldu?

Bir nəzər eylədi, gövhər tərlədi,
Neçə qətrəsinnən timman eylədi,
Xışma[46] gəldi, Cəbrayıla söylədi,
Şapəri yandıran nar nədən oldu?

Aşıq Alı duva eylər pirindən,
Baş aşmadı çərxi-dəvvar sirrindən.
Neçə dürrü xəlq eylədi dürründən,
Nurdan nur yarandı, dürr nədən oldu?

Əsmər xanım bağlı qaldı. Dedi, sənə mənim sözüm var.

Əhdim var, yar olam sən tək aşığa,
Gəl al məni diyarına var, Alı.
Tədbir olmaz amalımın tərsinə,
Mən də olum sən aşığa yar, Alı.

Alı dedi:

Dolanım başına, ay Əsmər xanım,
Mətləb aşdın, qəlbim oldu yaralı.
Əhdə xilaf olsam, peymana qarşı,
Yəqin əldən tərlanımı sar alı.

Əsmər dedi:

Gövhər gəlib, dürr məqamın alıbdı,
Səni görcək gözüm səndə qalıbdı.
Eşq ataşı məni dərdə salıbdı,
Yanar cismim, qalar külüm qaralı.

Alı dedi:

---

[46] Xışma – qeyzə

Qəlbdə ataş, can evində talan var,
Yubanmaram, gözü yolda qalan var.
Cismi-giryan məni yada salan var,
Apardım sənin kimi maralı.

Əsmər dedi:

Ağlar Əsmər, gözlərinnən gedər yaş,
Göz qoymaz yollarda vəfalı sirdaş.
O dünya, bu dünya sən mənə qardaş,
Axıracan ilqarında dur, Alı.

Alı dedi:

Peyğəmbər mehrabdan gətirdi tacı,
Zülfüqarın sahibi aldı xəracı.
O dünya, bu dünya sən mənə bacı,
Sən qalma Alıdan qəlbi qaralı.

Əsmər xanım dedi ki, Aşıq Alı, bilirsən nə var? Dedi, nə var. Dedi ki, mən bilirəm sən puldan ötəri çöllərə düşmüsən. Toyun xərci mənim boynumadı. Əsəd dedi ki, bəri bax, qadam onun özünə də dəysin, puluna da, mən getmirəm. Onun özü mənə qismət olmuyannan sonrasına onun pulun neynirəm. Əsmər xanım sazın üst örtüyün götürdü, sazın çanağı tutduxcan qızıl-gümüş yığdı buraya. Bağlatdırdı qoydu üstünə. Dedi, yollar qorxuludu, qaçax-quldur əlinnən alar. Bunlar xudafizləşdilər ki, biz qiyamətə qədər oldux qardaş-bajı. Əsmər xanım elan vurdu ki, bu mənim qardaşımdı. Bunlar çıxıf gəldilər.

Ötüşdü zimistan, gəldi nobahar,
Keçdi qərinələr, sənələr keçdi.
Dəli könlüm gündə yüz xəyal eylər,
Qəmli ürəyimnən bə nələr keçdi?

Mən sənə nə dedim, ey şahi-şonqar,
Apardı ağlımı bir çeşmi-xumar.

Olmadı könlümə bir münasib yar,
Gəldi məleykələr, sonalar keçdi.

Aşıq Alı, bu qəm səni bürüdü,
Eynim yaşı sel-sel oldu yeridi,
Fağır canım bu qürbətdə çürüdü,
Neçə çərşənbələr, cumalar keçdi.

Gəldi Ağrı dağına. Ağrı dağında qaçaxlar bunları gördü. Qaçaxlar doldular daşa. – "Tərpənmə, tərpənmə. Nəyiniz var tökün yerə". – "Ay haray". Alı sazın qulpunu bunlara sarı uzatdı. Gördülər bunlara sarı bir silah uzanıfdı bunun beş-altı tətiyi var. Bunu görəndə dedilər, təslim olurux. Dedi, üstünüzdə nə varsa tökün. Hamısın tökdülər yerə. Gəldilər baxdılar ki, sazdı. – "Allah evi yıxsın aşıq, bizim bağrımızı yardın. Biz dedik görax bu nə silahdı. Aşıq Alı, əgər Ağrı dağına bir tərif desən, sən öl, pulunun üstünə pul qoyuf səni yola salajeyih. Deməsən əlində nə var alajeyih". Dedi:

Havalanıf ərş üzünə qalxmısan,
Dağların soltanı nər Ağrı dağı.
Neçə əyamların zimistan keçib,
Əysilməz sərinnən qar, Ağrı dağı.

Ormanında xan atlanar, xan düşər,
Leşkər gələr, mahallara qan düşər.
Cümlə dağda günəş sənə dan düşər,
Səhər açılanda hər Ağrı dağı.

Genə yada düşdü cənnətin bağı,
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Neçə min sirlərin var, Ağrı dağı.

Ərimək buz dağın, il üstən keçər,
Neçə oylağın var, gülüstan keçər,

Sərinnən açılmaz zimistan keçər
Ətəyində baxça-bar, Ağrı dağı.

Müəmman var, Alı üçün sirridi.
Şamdan əvvəl bir tərəfin yeridi.
Tozun qalxdı, İrəvanı bürüdü,
Eylədi Axurəni[47] xar, Ağrı dağı.

Qaçaxlar Alının pulunun üstünə pul qoydu. Bunu izzətnən-hörmətnən yola saldılar ki, qorxub eləmə, əgər qaçax-quldur üstünüzə düşsə bizim adımızı verginən, sizə zaval yoxdu.

Gəldilər. Dağlara çıxanda Alı baxdı bu dağlara, cavan uşaq idi, ağladı. Dedi, necə bizim dağlara oxşuyur bu dağlar. Dedi:

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylax, bizim yaylaxlara bənzərsən.
İçən ölməz abi-kövsər suyunnan,
Bulax, bizim bulaxlara bənzərsən.

Əyricə, Verst dağı, Xan kert[48] baxarı,
Ağ sürülər Sarı yerdən yuxarı.
Gözəllər seyr edər o oylaxları,
Oylax, bizim oylaxlara bənzərsən.

Alı seyrangahı, üş gözəl dərə,
Şaqayıb çiçəkli, xoş gözəl dərə,
Əyricə, Verst dağı, baş gözəl dərə,
Üş dağ, bizim üş dağlara bənzərsən.

Əsədin pulun verdi. Əsəd öz evinə getməkdə olsun, Aşıq Alı gəldi. Gejənin bir aləmi gəldi qapını döydü. Burda da Bəsti xanımı almaxdan ötəri şayələr yaymışdılar ki, haramılar Alını öldürüblər. Gəldi qapını döydü. – “Kimdi?” Dedi, ana, mənəm, aç qapını. Anası

[47] Kənd adı
[48] Xankert – Xankeyti

aşdı. Aşıq Alı gəldi. Çırağı yandırdılar. Arvad özünü öldürür. Mirza bu dəmdə dedi, oğul, de görüm bir şey gətirmisən? Dedi, qorxma, bəs deyincə gətirmişəm. Səs yayıldı bir anda ki, bəs Aşıq Alı gəlifdi. Kəndin cavanları gəldi. Qoymadılar Alını ayağını yerə qoya, əllərində götürdülər toya. Bəsti xanım da qızlardan eşitdi ki, Aşıq Alı gəlif. Dedi, aaz, gəlin qənşərdən gedax Aşıq Alıya tamaşa eliyək. Aşıq Alıya dedilər, sənin səsinin həsrətiyix. Bizim üçün bir şey oxuyarsan? Onda bu şeiri yazır:

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş gətdi qəm leşkəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü közə.
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Sən eyləmə bağrımı qan.
Əldən uşdu tülək tərlan,
Sar da kəklik alan oldu.

Cavanlar girdi ortaya. Dedilər, bəy, bilirsən nə var? Siftə sözü vermisən, qız Aşıq Alınındı. Burda elə eləmə, qan baş apara. Nə tənqah istəmisən o da gəlifdi. O vaxt dünyagörmüş ağsakqallar vardı. Alının bajısın verdilər həmin oğlana, Bəsti xanımı gətdilər buraya. İndi Alı neylədi? Gəldi evə. Gördü Bəsti xanım evdədi.

Min civri-cəfaynan yarıma çatdım,
Ömrümə nəqş olan sanə yetişdim.
İqbalımı xab evindən oyatdım,
Vəsli yarnan bir zamana yetişdim.

Sərvi-qəddi, gül-camalı tamaşa,

Şəhla göz yaraşır hilali qaşa.
Kəsirsiz yaranıf ayaxdan başa,
Kamilli kamilə, cana yetişdim.

Bəstidi Alının həyat növrağı,
Bəyaz sinəsi var, cənnətin bağı.
Açıldı üzümə vüsal otağı,
Sanki Taxtı-Süleymana yetişdim.

Səhər erkən idi. Bəsti xanım evi yığışdırırdı. Alı baxırdı buna. Boya-busata baxdı, könlü qübar eylədi. Sazı götürdü:

Başına mən dönüm, a nazlı dilbər,
Can içində cana verməram səni.
Aləmin varını cəm eyləsələr,
Qoysalar bir yana, verməram səni.

Boyun sürahıdı, əndamın şüşə,
Sorağın mahaldan mahala düşər.
Fərhada, Şirinə yüz möhnət keçə,
Behiştdə qılmana verməram səni.

Dağlarda maralsan, düzlərdə ceyran,
Dərələyəz, Naxçıvan boyuna heyran.
Gəncə, ol Qarabağ, Şamaxı, Şirvan
Küllü-Gürcüstana verməram səni.

İqbalda Sənanı, Xumarı seçək,
Peymanda Kərəmi, Əslini keçək.
İmana, ilqara bahəm and içək
Təxti-Süleymana verməram səni.

Alı qurban o qamətə, o boya
Baxdıxcan çöhrənə, çətin doya

Təbrizə, Tehrana, Mərəndə, Xoya,
Tamam o İrana vermərəm səni.

Allah onların ruhun şad eləsin. Onlara rəhmət olsun, sizə can sağlığı olsun.

## 196. AŞIQ ALININ İRAN SƏFƏRİ

İranda Aşıq Allahverdi olufdu, Aşıq Zəki olufdu. Aşıq Zəkinin qohumu, əqrabası, arxası, köməyi çox olufdu. Elə olur ki, Aşıq Allahverdini bu yanıyır. Yəni orda-burda bunun haqqında şayələr yayır ki, o mənim yanımda heş şəyirt də deyil. Bunu çox pisikdirir. Allahverdi baxır görür ki, bunun tayfası çox qüvvətlidi, burda davam gətirə bilmiyəjəhdi. Köçür gəlir Göyçənin Kərkibaşı kəndinə. Aşıq Allahverdi özü də sarı olufdu, ona Sarı Aşıq deyiflər. İki Sarı Aşıq var. Biri bayatılar ustası. Bu o deyil. Aşıq Allahverdi sarı olufdu, onun sümüyü şirmayı olufdu. Onda Aşıq Alı gedir Allahverdiyə şəyirt. Aşıq Alı bunnan dərs alır. Aşıq baxır ki, paho, bu nəkqədər məktəb qutarıbsa Aşıq Allahverdi bəlkə də bu məktəbdən iki dəfə qüvvəli aşıqdı. Alı çox başaratdı olur. Bunda nə var yığır. Bu səfər Allahverdi Alıya deyir ki, bilirsən nə var? Deyir, nə var? Deyir, üş günnük mənim qonağımsan. Deyir, usta, nəyə görə? Mən elə sənin yanındayam. Deyir, yox, heylə döyül. Mən səni imtahannan keçirəjəm. Səni o qənimimin üstünə göndərəjəm. Mən onun arxasına görə dayana bimədim. Yoxsa elmə qalsaydı mən onu aparardım. Qaçax Rəhim vardı. Bunu da çağırdı. Qaçax Rəhimin üş dənə addı-sannı yoldaşı vardı, bunları da çağırdı. Allahverdinin xətrini çox istiyirdilər. Bu, Aşıq Alını imtahan elədi. Aşıq Alı bu imtahannan beşnən çıxdı. Beşnən çıxannan sonrasına dedi, oğul, bilirsən nətərdi? Bax bu üç qaçax yanında olajehdi, bunlarnan bərabər gedəjəhsən Zəkinin meydanına. Gərək Zəkidən mənim qisasımı alasan. O qisas mənnən qiyamata qalmaz. Dedi, yaxşı usta. Dedi, sən də bu qüdrəti mana söyləginən. Aşıq Alı sazını götürdü.

Laçın yuvasında ərsə çatmışam,
Tərlanın ovunu sar ala bilməz.
Zərb ilə mərdanə meydan açanın
İstər min yerinnən yarala, bilməz.

Basılmaz mərd əlində olarsa sükan,
Dayanmaz sərvana haqq verən təkan,
Bir tufandı, səngi[49] eylər biməkan,
Təlatüm yerini qar ala bilməz.

Təhlil olunmaz bir kəs haqqı ucaltsa,
Namərd mərd yanında xabnaz[50] yatsa,
Şahinlər qaldırıb səmadan atsa,
Əlimdən canını mar ala bilməz.

Zatında, pakında yox, ağlar ana.
Neçə cəngə düşə, bir neçə qana.
Məşuquna canın qıya mərdana,
Eşq əhlin bəndabənd arala, bilməz.

Alıya duva qıl, ey məğrur insan,
Səfil mənəm, sərgəndaram, biməkan.
Xalqın sevəndi səbr ilə susan,
Səməndər yanıbsa, nar ala bilməz.

Alını alqışladılar. Xonaşendə Alı molla məktəbini qutarmışdı. Gedəndə dedi, mən o mədrəsəni gərək ziyarət eliyəm, sonra gedəm. Gəldi həmin mədrəsəni ziyarət elədi. Onda Alı sazını çıxartdı dedi, məni kamala yetirən sənsən, ey ulu mədrəsə, mən sənə öz duvamı demək istəyirəm.

Ömrümün növrağı gözəl mədrəsə,
Bir də yad eylədim, xoş gördüm səni.

---

[49] Səng – daş
[50] Xabnaz – pis, narahat

Mənə təlim verdin, cəfamı çəkdin,
Sərdarı Fəhminə rəhmət qəni.

O məqama çatmaq niyyətim vardı,
Quranı məsçidə biyyətim vardı,
Düşmana tükənməz küdrətim vardı,
Quru xak bilərdim adsız öləni.

Alısız aləmdə toy-büsat olmaz,
Amansız dənanda təmiz zat olmaz,
Hakdan gələn ruzu heç kasad olmaz,
Mürğü yaranmışdan kəm olmaz dəni.

Bunlar getdilər çıxdılar İrana. Alının oraya gəlişini Aşıq Zəki eşitdi. O saat barmağını dişlədi. Dedi, hə, Allahverdi bunu mənnən ötrü göndərif buraya. Aşıq Zəki sazsız gəldi. Məclis qurmuşdular, Alı burda oxuyurdu. Aşıq Zəki o zaman düşdü içəri ki, Alı qəzəl oxuyur.

Yeri-göyü xəlq eyləyən, mövsümü məvayə gəl.
Hak ilə nahak arası düşüb sevdayə gəl.

Eşq elə bir aləmdi cümlə cahan mübtəla,
Nə Məcnuna təna elə, gülmə Züleyxaya, gəl.

Könül sevən gözəl olar, babalardan qalan söz.
Çatmaq üçün öz yarına imkan ver Leylaya, gəl.

Sevilməkdə bu aləmdi, hamı ona mübtəla,
Gündüz şəmsi ziyarət et, gecələrsə ayə gəl.

Öz xoşumla əl çəkmərəm bu cahannan, agah ol.
Əzrayıl can alandı, bacarırsan hayə gəl.

Yanlarında üzüm ağdı, şəfakardı cahar de,
Həm can alır, həm can verir, haqq ilə sevdaya gəl.

Pak Qurandan var savadım, ağı qaradan seçirəm,
İsbat üçün izah eylə, neçə çətin ayə gəl.

Xuda sənin qəlbindədi, cida salma üzünnən
Bircə anım olmaz onsuz, səbb etmə[51] xudaya, gəl.

Alı, xuda qəlbindədi, cida salma özündən
Hey çağırıram min bir adı, sal üstümə sayə, gəl.

Aşıq Zəki əmr eylədi ki, mənim sazımı gətirin. Sazı gətirən kimi heç Alıya nə salam verdi, nə səfa eşitdi, girdi meydana. Alı o saat başa düşdü ki, Zəki budu. Onda bu başladı. Dedi:

Qəza tutub, sən İrana gəlmisən,
Görkəz zərbi-dəstin, giridar eylə.
Veşsiz mətahını çəkmə bazarə,
Kim dedi təhlifsiz xanə dar eylə.

Alı sazı basdı sinəsinə.

Satma mətahını naşı tüccara,
Arif məclisində xridar eylə.
Mətahın hər nədi gəl tök ortaya,
Nə çəkin, nə utan, nə də ar eylə.

Aşıq Zəki:

Neçələri imtahana gəlibdi,
Əlimdən amana, cana gəlibdi,
Pərişanlıq sən insana gəlibdi,
Qəmnak et ömrünü, ahu-zar eylə.

---

[51] Səbb etmə – asi düşmə

Aşıq Alı:

Hak məhşərin bir anıdı bu meydan,
Fəzil əhlin bil tanıdı bu meydan,
Ölüm-dirim meydanıdı bu meydan,
Ya şikar ol mənə, ya şikar eylə.

Aşıq Zəki:

Zəkiyəm, sənətdə nər oğlu nərəm,
Amana gəlsənə, etmərəm kərəm.
Elmidə dəryayam, helmidə dərəm,
Baş vur bu xananı tari-mar eylə.

Aşıq Alı:

Elmi mən Alıya müntəzir oldu,
Kamaldan kasadlar dəstigir oldu,
Alim-ülamalar müntəzir oldu,
Sına qüdrətini, aşikar eylə.

Aşıq Zəki:

Əbcət ilə səni sallam hesaba,
Sorağını günü qarə aparar.
Nadan cəm eyliyər küllü-sərvəti
Vurar sinəsindən dara aparar.

Aşıq Alı:

Ərəbi əbcətlə çəkəm hesaba,
Gəc yol səni hardan hara aparar?
Bərq olaram hurri-xudbin sərində,
El cəsədin parə-parə aparar.

Aşıq Zəki:

İstəmərəm gətirdiyin sursatı,
Alaram əlinnən külli-baratı.

Tufana baş əyər devrin afəti,
Bimar aşıq sənnən çarə aparar.

Aşıq Alı:

Həfti-səma, həfti kişvərdən dərsim,
Çərxi dəvvar elmindədi həvəsim.
Hikmətim əladı, Davutdan səsim,
Zərbim səni ahu-zarə aparar.

Aşıq Zəki:

Ləngə çəkmə işlərimi düyünə,
Mat qalarsan şahin-şonqar qıyına.
Müqəvva cəsədin çəkərəm sinə[52],
Mur[53] çəkər əzanı, marə[54] aparar.

Aşıq Alı:

Ər kişidən ər oğlu ər törənir,
Aman verməz, kəsər bəndi-bərəni.
Çallam cəngi, ucaldaram narəni,
Anan səni bağrı yarə aparar.

Aşıq Zəki:

Düşdün xam xəyalə, keşdin Arazı,
Hasil olmaz ağlı kəmin mürazı.
Səmtsiz gəzən ömrü boyu yol azı,
Ruhunu bəd əfkarə aparar.

Aşıq Alı:

Nadan qeyli-qaldan zövqü qazanı,
Zülüm islah eylər yoldan azanı.

---

[52] Quruca cəsədi çəkərəm qəbrə
[53] Mur – qarışqa
[54] Mar – ilan

Puli-sirat qurram qaynar qazanı,
Əzabını sən biçarə aparar.

Aşıq Zəki:

Zəkiyə dərsini bərabər tutma,
Zövq eyləyif qiyaməti unutma.
Dərdə sallam, nə dincəlib, nə yatma,
Bu yol səni zülümkara aparar.

Aşıq Alı:

Behudə bilməsin aləmi xalı,
Qarışar əhvalı, dəyişər halı.
Səni qaynağına götürər Alı,
Bu diyardan o diyara aparar.

Hərbə-zorba qutardı, Zəki məqsədə keçməyi lazım bildi.

Söylə cavabını ay Aşıq Alı,
Hansı gifti-gudu kalamda yoxdu?
Sirri nə məqamda aşkar olundu,
Səndə var, məndə var, aləmdə yoxdu.

Aşıq Alı:

Kamil ustad, mətləbinin canı bu,
Mehrac əhvalatı kəlamda yoxdu.
Yarandı sirrilər, aşkar olundu,
Ruh səndə, məndə var, aləmdə yoxdu.

Aşıq Zəki:

Hansı kar bicadı mən inanmıram?
Əqlimdə yox, əsla onu danmıram?
Hansı mötəbərdi ona yanmıram,
Şəninə göz yaşı, naləm də yoxdu?

Aşıq Alı:

Devran becadı, heç usanmıram.
Ölüm əqlə gəlməz, əsla danmıram.
Mehdi zuhr eyliyər, ona yanmıram,
Şəninə göz yaşı, naləm də yoxdu.

Aşıq Zəki:

Neçə xilqət tutuşdular əl-ələ?
İbtida kim düşdü fənd ilə felə?
Məhşər yaranajax neçə min ilə?
Zəkiyə de nədi, sələmdə yoxdu?

Aşıq Alı:

On səkkiz min aləm verdi əl-ələ,
Havvaydı düşdü ilk fəndi-felə.
Məhşər olmağı alınmaz dilə,
Alıda xumsu var, sələm də yoxdu.

Dördüncü deyişmə:

Aşıq Alı:

Aşıqsan, söylə çərxi-dəvvarın
Nə qismilə pür dəryası neçədi?
Nə sinidə bəni-insan yaratdı,
Ol çərxilən təmənnası neçədi?

Aşıq Zəki:

Al cavabın deyim, ay cavan aşıq,
Müqabildə cahar adı bilirəm.
Bəni-insan qırx sinidə cəm oldu,
Ənsarda təmənnasın bilirəm.

Aşıq Alı:

Kim nəqş etdi lohi-qələm libası?
Nə sirridi Şahi-Cəmşid kasası?

Harda cana gəldi Musa əsası?
Dərkiyatın müəmması neçədi?

Aşıq Zəki:

İdris idi əməlləri işlətdi,
Cəmşidin kasası sirri-xilqətdi.
Musanın əsası xudadan qəddi,
Cümlə karı müəmmadır, bilirəm.

Aşıq Alı:

Nuh köşdü fənadan neçə yaşında?
Qərar tutdu hansı cüdun[55] başında?
Neçə qəm var xaki-zülmət daşında?
Həqiqətdə həm xülyası neçədi?

Aşıq Zəki:

Nuh köçdü fənadan həzər yaşında,
Qarar tutdu Cüd dağının başında.
Bir qəm vardı xaki zülmət daşında,
Peşman oldu, zər tanıdı bilirəm.

Aşıq Alı:

O kimdi ki xalq olannan ucadı?
Hansı Qaf yaranmışdan qocadı?
O kimdi ki kafi-gürzü haçadı?
Xəyalların pür dəryası neçədi?

Aşıq Zəki:

Ərşi-əla xəlq olannan ucadı,
Can tayfası yaranmışdan qocadı.
Firudunun oxu, gürzü haçadı,
Doğruyar dörd yana yadı bilirəm.

---

[55] Cüd – dağ

Aşıq Alı:

Asimanın nə saydadı dünyası?
Özünə bax hardan oldu ziyası?
Sən düşünmə bu Alının röyası,
Nəbilərin söylə xası neçədi?

Aşıq Zəki:

Asimanda yeddi aşkar guya var,
Qüdrətin şəmsi var, ziyasın boyar.
Zəki müəmmana heç qiymət qoyar
Nəbilərin altı xasın bilirəm.

Beşinci deyişmə:
Aşıq Zəki:

Süvari səməndi minən tez düşər,
Mürdə cismim hansı kanə qatıram?
Sarvanı əylərəm öz məqamında,
Necə karə gəlim, necə yatıram?

Aşıq Alı:

Səməndi yel qanad, sən də süvari,
Sən çalış ki dörd fəsildə satasan.
Üş yüz altmış altı mənzil sahibi,
Bəhş edən var, sən birində yatasan.

Aşıq Zəki:

Şah sərinə yek ziyası dolanır,
Hansı şamdı öz-özünə qalanır?
Şam ahusu ovlağında yalanır,
Alan gəlsin, mətahım var, satıram.

Aşıq Alı:

Aydı, yer başına müdam dolanır,
Şəmsin qüdrətindən şamı qalanır.

Altı ulduz ziyasına yalanır,
Mədarın xak, cəsədini satıram.

Aşıq Zəki:

Qəmər-şəms hesabı necə itirdi?
Nə zamana kəsri salı bitirdi?
Abi-həyatı kim zülmətdən gətirdi?
Zəkiyəm, ruzini şama qataram.

Aşıq Alı:

Qəmər Şəmsidən on bir itirdi,
Qərinədə kəsir salı bitirdi.
Xıdır İlyas abi-həyat gətirdi.
Alı bildi öz sərinə xatasan.

Alı dedi:

Ruzi bəxş olundu neçə xilqətdən,
İzhar eylə, dürüst sadala tək-tək.
Əshabi-kəf söylə nə məkandadı,
Oxu, adlarını sadala tək-tək.

Kahkaşanda nə sayda var səyyarə?
Qızıl misə qovuşmadı səyy arə.
Nə vaxt çıxır karvan qıran səyyarə?
Dərsin ila ilə sadala tək-tək.

Nə məqamda yerə gəldi ayinə?
Nafileyi rükəti neçə ayinə?
Hansı gündə beş səadət ayi nə?
Alı itaətdə sə dala tək-tək.

Aşıq Zəki dedi ki, sən məni təcnislə bağladın. Bizdə təcnis yoxdu. Aşıq Alı dedi, Aşıq Zəki, siz böyük elmi sahibisiz. Bu xayiş ustam Allahverdinin xayişidi. Zəki özünü bağlı hesab etdi.

## 197. BƏSTİNAMƏ

Aşıq Alı gəlir çıxır Kəlbəcərin Milli kəndinə. Milliynən bunlar bir sülalə oluflar. Bunlar Türkiyədən gəliflər, səpələniflər, dünyaynan bir oluflar. Yarısı Göyçədə Qızılvəngdə oluf, yarısı da gəlif Kəlbəcərin Milli kəndinə. Alının atası ölüfdü, onu əmisi saxlıyıfdı. Bəsti xanımnan evlənənnən sonra onu da götürür gəlir əmisigilə. Burda yeddi qat döşək qoyulur, mitəkkə qoyulur. Bu dirsəklənir mitəkkəyə. Bunun bir qızı olur Sənəm adında. Sənəmə deyir ki, bala, get mana bir bəsti[56] su gətir. Qız gedif suyu dolduruf gətirədə evin ortasında bəsti əlinnən düşüf qırılır. Bunun anası Bajıxanım başdıyır qızı döyməyə. Bəstixanım buna harayçılıx eliyir ki, uşağı niyə döyürsən? Arvadın əri Məşədi Səfəralı girir içəri.

– Aaz, Alı burdadı, Bəsti xanım burdadı, bu nə biabırçılıqdı eliyirsən?

Tükürür ağaca, nə yemisən, turşulu toyuq əti, döşüyür arvada. İndi Bəsti xanım da bunlara harayçılıq eliyir, bunları birtəri sakitləşdirir. Alı Bəsti xanıma deyir, get mənim sazımı mana gətir. Bəsti xanım dedi, nədi, dəliliyin tutufdu? Dedi, nə dəliliy, burda bir səhnə yarandı. Mən bunu deməsəm, bağrım partdıyar.

Zulm etmə uşağa, a Bacıxanım,
Harayçı olufdu da Bəsti, bəsdi.
Alırsan uşaxdan a bacı, xanım,
Zay oldu, düzəlməz da bəsti, bəsdi.

Görməyifdi gözlərini kimsənəm,
Söylə sənə zulm eylədi kim, sənəm?
Əziz balam, yoxdu qeyri kimsənəm,
Nala yetər, tərk et, da bəsdi, Bəsti.

Əsl insan tənə bir Səfəralı,
Evdə qalı yaratdı bir Səfəralı,

[56] Bəsti – saxsıdan hazırlanan tay qulp su qabı

Gördü qeyri-qalı bir Səfəralı,
Sevməyir kədəri da bəsdi, Bəsti.

Bajıxanımnan Səfəralı əmoğlu, əmiqızı olufdu. İndi bunları barışdırır.

Qohum-evlad, dalaşdınız, barışın,
Görüşümüz rast oluf nəs ilən.
Musfata buyuruf yadnan qarışın,
Xəstəlik keçirir nəsil nəsilə.

Əbcət ilə hesab verirəm hey yüzə,
Qəvvas batmaz bu dəryada hey üzə.
Üz qarasın nə çəkirsən hey üzə,
Ağarmaz kim nə süpürə, nə silə.

Ziyarat et, tut qulpunnan hey dərin,
Bu suvalda məna vardı hey dərin.
Alı tutar ətəyinnən Heydərin,
Heç bir işi sona çatmaz nəs ilən.

## 198. AŞIQ ƏLƏSGƏRNƏN AŞIQ QURBANIN GÖRÜŞÜ

Ələsgər Zor kəndində toyda imiş. Dağın o üzü Zor kəndi imiş, bu üzü Dəmirçidamı. Bu kəndlər bir-birinə yaxın idi. Deyillər ki, Ələsgər, icazə verginən Dəmirçidamından Qurban da gəlsin, iki aşıq oxuyun. Ələsgər şaqqa çəkif gülür. Deyillər, nəyə gülürsən? Deyir, ayə, kürddən də aşıq olarmı? Bu sözü çatdırıllar Qurbana. Qurban iyirmi səkgiz hərifin üstündə, çal düyünnərin üstündə bir divani yazır, göndərir Ələsgərə. Ələsgər savadsız olufdu, amma hakk aşığı oluf. Çal düyünnən bunun başı çıxmır. Codda Mirzə bəylər olufdu, gedir bunun yanına. Bu da baş tapmır. Deyir, onda gedif Qurbanı tapajam, görüm o kimdi.

Atı minif gəlir. Dəmirçidamda atı sürür bir qapıya:

– Ay bajı, Qurbanın evi hansıdı?

Belə göstərillər ki, o ev Qurbanındı, qapıda inək sağan arvad da Qurbanın yoldaşıdı. Gəlir:

– Bajı, bərəkətdi olsun.

– Xoş gəldin.

Deyir:

– Bajı, Aşıq Qurban hardadı?

Deyir:

– O dey quzeydə ot çalan Qurbandı.

Ələsgər atın boynunu burur gedir buraya. Qurban da ot çalır. Buna yaxınlaşanda deyir:

– Salam-məlöyküm, Aşıq Qurban.

Qurban belə başını qaldırır, deyir:

– Əlöykət-salam, Aşıq Ələsgər.

Deyir:

– Mən gəldim evdən xəbər aldım səni, dedilər ot çalan Qurbandı. Sən nə bildin mən Ələsgərəm?

Dedi:

– Üç gün bunnan qabax mən bilirəm ki, sən gəlməlisən.

Düşdü atdan, bunlar görüşdülər, söhbət elədilər. Bu çənə söhbətində Ələsgər baxdı ki, Qurban, doğrudan da, mükəmməl adamdı. Onnan sonra Ələsgər dedi ki, bu dolaşma nədi yazmısan? Dedi, bu çal düyünlərdi. Dedi, Qurban, bir siğə oxu. O bunun qolunnan qan aldı sümürdü, bu da onun qolunnan qan aldı sümürdü. Deyir, ərəsət məhşər olajeh, ata, ana, qohum-qardaş, heş kim görüşmüyəjehdi, bir siğə qardaş görüşəjəh. Siğə bir o qədər yaxşıdı. Sonra Ələsgər öz törəmələrinə dedi ki, hara getsəniz yol sizə açıxdı, amma Qurban törəməsinə yaxınlaşmayın.

## 199. SƏMƏD VURĞUNUN KƏLBƏCƏR SƏFƏRİ

1955-ci ildə Səməd Vurğun Kəlbəcərə gələndə əzəl gəlifdi Turş bulağın üstə. Onda Verdiyev Səfər katib idi. Bilir ki, Səməd gəlifdi. Verdiyev Səfər yoldaşdarınnan gəlir perevalda şairi qarşılamağa. Tapşırıllar ki, İstisuyun üstündə yemək-içmək düzəlsin, biz

sürfə əsnasına gələk. Gəlillər, Turşsuyun üstünə çatanda Səməd belə baxır ki, əyə, gəbələri gətiriflər, buranı bəzəyiflər. Burda bir dəm-dəzgah yaranıfdı. Erkəy bir tərəfdə kəsilif asılıfdı ağaşdan, cöngəni bir tərəfdə kəsiflər, qırqovulu bir tərəfdə, filan-bəhmən. Burda bir dəm-dəzgah yaranıfdı ki, heç tarixdə belə dəm-dəzgah olmuyufdu. Deyir ki, Səfər müəllim! Deyir, nədi? Deyir, bir aşıx ola, bizim ruhumuzu oxşuya! Onda, mənim Aşıx Əliş addı bir şəyirdim vardı. Bunu gətirillər. Bu da Səmədi görəndə çəkinir, uşağıdı, qorxur, yaxşı oxuya bilmir. Deyir ki, Səfər müəllim, mənə bir ləyaqətdi aşıx gətir! Şoferi çağırır yanına, deyir:

– Əyə, buraya gəl! Get Dədə Şəmşiri quş qanadında olsa, bu saat götürüf gəlirsən.

Oraynan da Ağdabanın arası filan qədər yoldu. Gedəndə, Səməd deyir ki, oğul, dayan, sana bir sözüm var. Deyir, nədi? Deyir ki, bala, mənim adımı vermə. Nə badə, nə badə, mənim adımı verərsən! Vermə qəti! O Şəmşir haqqında mən eşitmişəm, şair Qurbanın oğludu. Onu təmkinli adam deyillər, çox da hazırcavab deyillər. Onu bir yoxluyajam, görüm deyilən qədər var, yoxsa yoxdu.

Şofer gedir ki, Şəmşir biçindən gəlif. Qoymur paltarını dəyişməyə. Sazı götürür, kişini basır maşına. Deyir, Səfər deyir bu dəqiqə burda olmalıdı.

– Ayə, qoy paltarımı dəyişim.

– A kişi, – deyir, – səni paltarnan tanımıllar.

Gəlir. İndi çayın qırağında düşəjəhlər, körpüdən addıyajaxlar Turşsuyun üstünə. Birdən şofer deyir:

– A Şəmşir əmi!

Deyir:

– Nədi?

Deyir ki, birdən şeir-zad yazıf məni biyabır eliyərsən ha! Səni hüzuruna çağırtdıran Azərbaycanın görkəmli oğlu Səməd Vurğundu. Dayandı belə:

– Ayə, ay bala! Allah sənin öyünü alt-üst eləsin!

– Usta niyə, səni nayrahat gətdim?

Deyir:

– Yox, məni tədarüksüz gətdin.

– Əşi, tədarük nə gətirəjən oraya? Dünyanın dadı-ləzzəti ordadı ey! Baxajehsən!

Deyir:

– Onu sən başa düşməzsən.

Yazın təravətdi vaxtıydı. Yolun altınnan, üstünnən, çayın qıraxlarınnan güldən-çiçəhdən bir çələng bağlıyır. Çiçək əlində gələndə Səməd baxır ki, bir aşıx gəlir. Bunun geyiminə-kejiminə baxanda bunnan gözü bir şey almır. İndi özü-özünə deyir ki, ə, mən dedim mənə aşıx gətir. Mən demədim ki, yetəni mana gətirginan. Nəysə, demir, üzə vurmur. Şəmşir gəlir.

– Azərbaycanın görkəmli oğlu Vəkilov Səməd gəlibdi, xoş gəlibdi bizim Kəlbəcərə, xoş gəlibdi.

Bu gül çələngini buna təqdim eliyir. Səməd deyir ki, usta, gəl əyləş. Deyir, yox, mən əyləşməyə gəlməmişəm ha! Sazı köynəkdən çıxardır. – Şəmşirin sazını heç kim çala bilməzdi, nə də onun oxumasını heç kəs oxuya bilməzdi. Onun o qədər zil səsi vardı ki. – Sazı götürür.

Elimin, günümün böyük şairi,
Gətirib dağlara səfa, xoş gəlib!
Gözlərdik yolunu biz intizarla,
Bağlayıb əhdinə vəfa, xoş gəlib!

Minnətdarıq kamil söz ustadına,
Şan-şöhrət yaraşır onun adına.
Bizim Kəlbəcəri salıb yadına,
Çəkibsə yollarda cəfa, xoş gəlib!

Alqışladıq mahalnan, elnən,
Qarşıladıq çiçəknən, gülnən,
Saz ilə, söz ilə, şirin dilnən
Şəmşir deyər bu sərrafa, xoş gəlib!

Birdən Səməd oturdu.

– Aşıx Şəmşir!

Dedi:

– Bəli!

– Aşıx Şəmşir, sən o Səfərin canı, de görüm, bunu bədahətən deyirsən, yoxsa evdə yazmısan?

Deyir ki, Səfərin canı üçün, bədahətən deyirəm. Səməd qalxdı, Şəmşiri qucaxladı, öpdü.

– Usta, gəl əyləş.

Kəlbəcərdə nə qədər ziyalı var yığılıfdı bulağın başına. Dedi:

– Yox!

Kəlbəcər elləri şad oldu tamam,
Yaxın dostu, mehribanı gələndə.
Bayram etdi obalar, ellər,
Sözün, şeirin süxəndanı gələndə.

Etmiş bu dağlarda laçın şikarı,
Düşüb bulaxlara yeni güzarı,
Könlümün vüqarı Vurğuna sarı,
Qaynadı qəlbimin qanı gələndə.

Mənə yol göstərdi ustadım, pirim.
Gördüm məhəbbətdi meyli, fikri.
O zaman açıldı qəlbimin sirri,
Şəmşir, bu gövhərin kanı gələndə.

Səməd bir daha Şəmşiri basdı bağrına, öpdü.

– Sana qurban olum, əyləş!

Əyləşdi. Zarafat elədi. Dedi:

– Aşıx Şəmşir!

Dedi:

– Bəli!

Dedi ki, meşəni xalı görmə. Kəlbəcər rayonunun bir Ceyran bulağı var. O Ceyran bulağının üstündə sənnən deyişərəm, onda görərsən ki, analar nə oğul doğufdu.

İstisuda gecəni keçirtdilər. Sonra Şəmşir şagirtdərinə xəbər göndərdi ki, sazdarınızı götürün, gəlin Ceyran bulağına. Sizi inandırıram ki, Kəlbəcər rayonunda nə qədər ziyalılar vardı, katib, naçalnik, milisyə, prokuror, məhkəmə – hamı gəlifdi Ceyran bulağının üstünə. Tərəkəmə xalqı nə sayalı gəlifdi? Onlar cöngə gətiriflər, əmlik quzu gətiriflər burda yeyib-içmağa. Qazannar asılıf, dəmdəzgah. Balaca qız uşaxların bayramsayağı bəziyiblər, onlar camahata bulaxdan su çəkif paylıyır.

Kəlbəcərin Geştək kəndi var. Qabaxda maşın yolu yoxuydu. O kəndin qavırsannığının arasınnan yol gəlirdi. Əlnən ölənin qəbiri əcəlnən ölənnən çoxuydu. Dəli Geştək deyillər onlara. Bunlara deyillər ki, İrandan bir aşıx gəlib, Dədə Şəmşirnən deyişir Ceyran bulağının üstündə. Elə bunu deyəndə deyillər, ayə, abomun goru haqqı, kimin nəyə gümanı gəlirsə piştoyu-zadı götürsün, atdandıx. Bir dəstə atdı Geştəkdən çıxıb gəlillər Ceyran bulağının üstünə. Şəmşirnən də Səməd oturublar Ceyran bulağında daşdarın üstündə, Səməd bundan dağları xəbər alır.

– Aşıx Şəmşir!

Dedi:

– Bəli!

Dedi:

– Aşıx Şəmşir, o dağa nə deyillər?

Dedi:

– Dəlidağ.

Yazır dəftərinə.

– Ona niyə Dəlidağ deyillər?

Deyir ki, hörmətdi şair! Əsrlərdən bəri onun başınnan qarboran əysiy olmuyubdu, çovğun əysiy olmuyubdu. Ona görə atalar onun adını dünya yarananan qoyublar Dəlidağ.

– O birisinə nə deyillər?

– Soltan Heydər dağı.

– Bu birisinə nə deyillər?

– Gəlin qayası.

Bunun mənasını yazır. Keyti dağı, Sərkarın düzü, filan bulağ, filan bulağ. Bunların hamısını yazdı. Elə o dəmdə, Geştəhlilər bir dəstə atlı çıxdı buraya. Şəmşir dedi:

– Ayə, mənim Dəli Geştəyim.

– Ay usta, burdasan?

– Burdayam. Ayə, mənim Dəli Geştəyim, burda nə axtarırsız?

Deyir:

– Eşitmişik ki, bir aşıx gəlib, sənnən deyişəjəhdi. Abomun goru haqqı, o, sənə zor gəlsə ha, onu elə doğruyajayıx ki, cəmdəyi yükün arasında durmasın.

Səməd əlini əlinə vurdu:

– Bəh, bəh, bəh. Allah, belə xalqa qurban olum! Aşıx Şəmşir! Belə xalqın arasında yaşıyan ölməz! Belə xalqa qurban olum, ayə, belə də xalq olarmı! Belə xalqa mənim canım qurban!

– Ayə, – dedi, – mənim Dəli Geştəyim! Aşıx deyil e! Gələn bilirsiz kimdi? Səməd Vurğundu, Azərbaycanın görkəmli oğlu, şairi Səməd Vurğundu!

İndi götürüb Səmədi atıllar bir-birinə. O götürür buna atır, bu ona. Şəmşir qışqırır ki, əyə, xəstədi, amanın bir günüdü. Ə, bunu öldürməyin, sizə qurban olum! İnanırsan ki, Səməd hamının üzündən öpdü.

Gəldi camahat. O məqam oldu ki, yemək-içmək məqamıdı. Camahat hamısı əyləşifdi, sürfələr açılıbdı. Hamı xahiş elədi ki, hörmətli şair, görürsənmi bu camahatı, Qarabağdan ziyalılar gəlib-di, Göyçədən Aşıx Ələsgər törəməsi gəlib, hamı sazlı-sözlü gəlib. Bu camahat deyir ki, şair başda əyləşsin, bizimlə bir qismət çörək kəssin. Qoyginan tarixi bir yadigar qalsın ki, biz 1955-ci ildə Ceyran bulağında Səməd Vurğunnan bir yerdə çörək kəsmişıx. Bu, tarixi bir yadigardı da. Gəldi əyləşdi. Dedi ki, amma Aşıx Şəmşir oxuyajaxdı. Dedilər ki, bunun yeddi-səkgiz şagirdi var burda. Qoy şagirtdəri oxusun da. Şəmşir oxuyur:

Ceyran bulağında, səhər çağında,
Görüşümə şairin sədası gəldi.

Əziz qonaxlara ömür sağlığı,
Dilimə məhəbbət duvası gəldi.

Vurğun gəlib dəyib bizim mahala,
Çəmən müjdə verdi, sevindi lala.
Cəmi dostlar ələ aldı piyalə,
Məclisinə şirin badəsi gəldi.

Şəmşirin dilində Vurğunun adı,
Bir şadlıq başladı, ellər oynadı.
O şeir dəryası coşdu, qaynadı,
Məclisinə min bir ədası gəldi.

Bəlkə min qələmtutan gəlmişdi. Səməd Vurğun dedi:

– Aşıx Şəmşir!

Dedi:

– Bəli!

Dedi ki, söz dəyirmandakıdı. Axı sana dedim ki, sənnən deyişərəm Ceyran bulağında, onda görərsən, analar nə oğul doğufdu.

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni.

Şəmşir əlin gətirdi alnına. Sonralar mən xəbər aldım ki, ustad, Səməd Vurğunla deyişəndə niyə belə elədin? Deyir ki, fikirrəşdim Səmədə bir zirvənin adını vermək lazımdı ki, onu bütün dünya tanısın.

– Hörmətdi şair! Görərsən bir meydanda iki aşıx qabax-qabağa oxuyur, onun dadı, ləzzəti, lətafəti bambaşqadı.

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni.
Azərbaycanımın böyük şairi,
Bilirik şeirdə bir mayak səni

Səməd Vurğun:

Hay çəkib, qıy çəkib, səs sal dağlara,
Gözəllər oylağı xub yaylaqlara.
Mənim bu dərdimi de oylaqlara,
Sinəmdən oxlayıb bir maral məni.

Aşıq Şəmşir:

Kamil sənətkarsan, söz ustadısan.
Fəhmin, fərasətin öz ustadısan.
Bir mahir sərrafsan, göz ustadısan.
Dəryasan, arzular min bulaq səni.

Səməd Vurğun:

O ceyran baxışın baxdı uzaxdan,
Canımı odlara yaxdı nahaxdan.
Yüz il də dolanıb keçsə bu vaxtdan,
Unutmaz aləmdə əhli-hal məni.

Aşıq Şəmşir:

Şair, yeni güllər açıb Vaqifin bağı,
Bir çox şairlərin ana torpağı,
Səmədin məskəni, şeirin ocağı,
Çatdırıb kamala o Qazax səni.

Səməd Vurğun:

Gəlmişəm gəzməyə sizin dağları,
Baxım yaylaqlara doyunca barı,
Bu yerə şairin düşdü güzarı,
Əcəb qarşıladı xoş iqbal məni.

Aşıq Şəmşir:

Əzəldən başında cəm olub kamal,
Sevir oğul kimi səni el, mahal.
Azad ölkəmizdə hər zaman ucal,

İstəyir könlümüz bu sayaq səni.

Səməd Vurğun:

Baxt məni bu yerə qonax göndərdi.
Gedirəm, yamandı ayrılıq dərdi.
Demə Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz aləmdə əhli-hal məni.

Aşıq Şəmşir:

Şəmşirlə görüşün qalsın yadigar,
Unutmaz canında nə qədər can var.
Səndən dərs almağa diyarbədiyar,
Gəzərəm əlimdə şam-çıraq səni.

Zal müəllim maarifin müdürüydü, buna söz verdilər. Zal müəllim durdu ayağa. Millətə baxırsan, o düzdə millətdən göz qaralır.

Vurğun gəlib şana mehman,
Aydın olsun gözün, dağlar.
Güllərindən bağla çələng,
Ver əlinlə özün, dağlar.

Sinəndə kişnəsin Qırat,
Çeşmələrindi abı-həyat.
İndi gəlsin Şirin, Fərhad,
Olsun oğlun-qızın, dağlar!

Zal qocalır, keçir dövran,
Əcəl, bir gün verməz aman.
Bizi yada sal o zaman,
Hər gələndə yazın, dağlar.

Aləm qarışdı biri-birinə. Bu dəmdə bir cavan oğlan belə bir teleqram gətdi, verdi Səmədə. Səməd baxdı, oxudu, sarsıldı. Xəbər aldılar:

– Hörmətdi şair! Nə üçün sarsıldın? Nədi o?

Dedi:

– Xəstəliyimlə əlaqədar Pekin xəstəxanasında mana yer ayrılıfdı. İndi məni təcili çağırıllar Maskvadan. Amma mən gəlmişdim ki, bu üç ay yayı bu yaylaxlarda, xalqımla həmrəy olum. Mən İstisuda qalam, xalqımla həmrəy olam. O da ki, əfsuslar, mənə nəsib olmadı.

Səmədi yola saldılar. Yola saldılar, getdi. Pekində Səmədin xəstəliyi şiddətləndi, bunu qaytardılar Maskvaya. Dədə Şəmşir oğlu Yusifdən bunun nömrəsini aldı, Maskvaya bir məktub yazdı.

Çəkir həsrətini bizim Kəlbəcər,
Böyük şair, bu dağlara bir də gəl!
Dedim demə Vurğun gəldi-gedərdi,
O verdiyin düz ilqara bir də gəl!

Gəl, səni gözləyir Ceyran bulağı,
Şeirinlə bəzənsin ellər oylağı.
Sən ol İstisuyun əziz qonağı,
Əməl eylə etibara, bir də gəl!

Nizami yurdunun yadigarısan,
Könül məhəbbəti, el vüqarısan.
Sazın da, sözün də sənətkarısan,
Minnətdarıq sənətkara, bir də gəl!

Dağların lalası sənə gəl deyir,
Coşqun şəlaləsi Səməd, gəl deyir!
Şəmşirin naləsi Səməd, gəl deyir!
Salma bizi ahu-zara, bir də gəl!

Bu məktub gedib çatır Səmədə. O vaxtı da sestraya tapşırıllar ki, buna yazmağ olmaz, qəti qadağandı! Deyir, mənim qələm-dəftərimi gətir buraya. Deyir ki, axı, sana şair, icaza yoxdu. Deyir:

– Yox! Qardaşımdan mənə bir məktub gəlibdi, ona bir cavab yazmasam, olmaz.

Aldım məktubunu aşıq qardaşım,
Gələrəm, darıxma, imkanım olsa.
Bir zalım xəstəlik üz verib mana,
Yaram sağalardı, dərmanım olsa.

Mən cavab verirəm, sənə doğrudan,
Həmin o ilqardı məni ağrıdan.
Düşüb qüssələrə olma bağrı qan,
Uçaram göylərə, saz canım olsa.

Oxudum məktubu, ürəkdən şadam,
Kür üstündə ceyran vuran səyyadam,
Külüng çalıb dağlar yaran Fərhadam,
Şirin tək istəkli cananım olsa.

Dost-dostu görəndə, o günü olar kam,
Vurğun da gözləyir belə bir məqam.
Sənnən görüşməyi eylərdim bayram,
Əlimdə bir belə zamanım olsa.

Məktub gəldi Dədə Şəmşirə çatdı. Səməd Maskvanın havasını götürə bilmədi. Bunu gətdilər Bakıya. Son çağlarıydı. Dədə Şəmşir getdi Səmədnən görüşməyə. Getdi ki, Səməd dünyasını dəyişibdi. Orda deyir ki,

Devrin Nizamisi edib əlvida,
Yenidən bu aləm səs tutub ağlar.
Sənin ətəyinə əl atan aşıq
Kimin ətəyindən bəs tutub ağlar?

Yeddi-səkgiz qatar şeir yazır orda. Allah, xudabənd-aləm hər iki sənətkara, Səmədə, Şəmşirə rəhmət eləsin!

## 200. AŞIQ HƏMİDİN QARABAĞ SƏFƏRİ

Atam söhbət edirdi ki, 1918-20-ci illərdi. Erməninin genə qızışan vaxtı olufdu. Göyçənin Daşkəndində bir dənə kişi olufdu Kərbalayı Novruz adında. Kərbalayı Novruz oğlunu təzə evləndirmişmiş. Bunun oğlunu ermənilər vurur. Qaça-qaçdıx düşür. Bunlar gəlir Kəlbəcərin Çırax kəndinə. Kərbəlayı özü qojalıfdı. Ayləsidi, bir gəlinidi, bir də beş yaşında bir nəvəsidi. Atam deyirdi ki, and olsun Allahın varlığına! Deyirdin Xudavəndi təbarək Allah qüdrət qələminə tapşırıfdı ki, bu gəlini mənnən ötəri yarat. Bu gəlin dünya gözəlidi. Mənim də cavan vaxtımdı. Bunnan ötəri dəli olmuşam. Gejə-gündüz mənim naləm kəsilmir, mənim oxumağım kəsilmir. Deyir, qışı qaldılar bizim kəntdə. Bizim camahat yığıldı kərbalayıya yaxşı ev verdi, yaxşı paltar-palaz verdi. Buna heyvan, devlət verdilər. Da bu, başın götürüb qaçıfdı. Kərbəlayı, deyir, beş kişidən biri oldu burda.

Yazdı. Bizim yaylax var, Çınqıllı yaylağı. Oraya çıxıblar, alaçıx qurublar. Əli Bayramlı aşıqları, Aşıq Mirzə də burdadı. – Atam deyirdi ki, Aşıq Mirzə mənnən eyni səs oxuyurdu. Deyir ki, Bozalqannı Söyün baxdı ikimizin oxumağına. Dedi ki, qayçı kəsifdi, bunun ikisi bir səsdi. – Deyir, bunlar toydan gəlirlər. Çınqıllı bulağın üstündə surfa açıblar, yemək yeyillər. Deyir, mən də atamın qoyunundayam. Qoyunu gətdim bulağın qənşərinə. Məni görən kimi çağırdılar.

– Ayə, əmoğlu, gəl burya.

Gəldim. Mirzədi, Aşıq Mehdidi, Aşıq Xudadatdı, Aşıq Əlidi – bunlar hamısı toydan gəlillər. Deyir, öpüşdük-görüşdük. Mirzə dedi ki, əmoğlu, sənin Həcərnən olan əhvalatın nejə oldu? Deyir, dedim ki, a Mirzə, elə heylə durur. Deyir, əlini əlinə vurdu, dedi ki, vah, balan ölsün ay Mirzə, evin yıxılsın ay Mirzə! Atam İmanqulunun goruna and olsun, əgər sən qabaxda olmuyaydın ha, on adam ölsəydi də indi mən onu aparmışdım kəndə. Deyir, dedim ki, nətər aparım? Əmim Dəli Bəşir məni gülləynən vurar. Buna heç söz yoxdu ha.

Heç qoymaz ayağımı ayağımın üstə qoyam. Deyir, balabançıya dedi:

– Ə, sazımı mənə gətir, ürəyim yandı.

Deyir, Mirzə sazını götürdü, dedi ki:

Eşitmişəm bir tərlanı
Gətirmisən yola, Həmid.
Baxtın tuta ətəyinnən,
Tale sənnən ola, Həmid.

Deyir, çomağı basdım sinəmə. Dedim, ə, bəri çön. Balabançıya dedi, ayə, bunu yazginan. İndi deyir, o biri yoldaşı əlinə qələm götürübdü, yazır bunu. Deyir, dedim:

Qan ağlarsan əhvalıma,
Ötmə mənnən yan, ay Mirzə!
Bir yaxın gəl, bax halıma,
Alovlanır can, ay Mirzə!

Aşıq Mirzə:

Onu sevən olar bixab[57],
Ürəyi köz, dili kabab.
Yüz min tümən sayar sərraf,
Üzündəki xala, Həmid!

Aşıq Həmid:

Bu süsənbər hardan gəlib,
Baxsa qan ağlar əndəlib[58].
Kaman kirpik bağrım dəlib,
Sinəm olub şan, ay Mirzə!

Aşıq Mirzə:

Aşıq Mirzə əhli-dildi,
Oxusun, şeyda bülbüldü.

[57] Bixab – yuxusuz
[58] Əndəlib – bülbül

Dodaxları qızılgüldü,
Yanaxları lala, Həmid!

Həmid ölsün, neyləsin Həmid. Deyir:

Qardaş, bu nə dərdi-sərdi,
Vallah yüküm qəm-kədərdi.
Fağır Həmid bir nökərdi,
O baxtavar xan, ay Mirzə!

Deyir, bunu deyənnən sonrasına durdular, öpüşdux, görüşdux, bunlar yola düşdü. Obaynan da bulağın arası heç olmasa, deyir, beş-altı yüz metr var. Bir də gördüm həmin gəlin sənəyi götürüb gəlir suya. Deyir, gördüm ki, bu tayqulpnan sənəyə su doldurur. Gəldim dedim ki, Həcər, mana bir içim su ver. Belə qayıtdı mana baxdı, məni süzdü. Dedi, ayə, çırası sönmüş, sənin bu ah-nalan niyə qoymur biz yuxu yatax? Dedim, ay zalım balası, Allah rəhmət eləsin, sənin yoldaşını ermənilər öldürüfdü. Sən subay gəlin, mən də subay oğlan. Sənin eşqinnən dəli olmuşam. Az qalır ki, divanə olub dağlara düşəm. Deyir, baxdım ki, tayqulpun arxası suya gedir dəyir, sənəyin ağzına boş gəlir. Bu da mən düşən oda düşüfdü. Əlimi qulağımın dibinə qoydum:

Bu qəmli bülbülü tükənməz bilin,
Naleyi-əfqanı gəl bulağ üstə.
Çin-çin olub qan ağlayan tellərə,
Bir təsəlli versin əl bulağ üstə.

Qaynar çeşmə bu vüsala sevinsin,
Zəmbur[59] cəhd eyləsin, bala sevinsin,
Ya ovud qəlbimi, ala sevinsin,
Ya odu bağrımı dər bulağ üstə.

Qulac qollar qoy boynuna dolansın,

---
[59] Zəmbur – arı

Həmid bu həsrətə kül olub yansın,
Ay xəcalət çəksin, günəş utansın,
Desinnər düşübdü ləl bulağ üstə.

Deyir, bu, bir də məni süzdü. Dedi, sənin o naleyi-fəryadını mən görürəm. Get, əyər öldüm, qara torpağın malıyam. Qaldım, səninkiyəm. Amma, əmin Dəli Bəşirin tüfəyi kəntdə qalıbdı, gedib gətirə. Gəlif bizi görsə, ikimizi də öldürəjəh. Dedim, qulağ asginan:

Gəlir xoş səsindən, tər nəfəsindən
Baharın ətirli küləyi, Həcər!
Sənəmlər vüqarı, Savalan qarı
Sənsən ərş üzünün mələyi, Həcər!

İncitmə bu qəmli sinədəftəri,
Yaqutun tilası[60], sərrafın zəri.
Baxışın yubadır şəmsi-qəməri
Mat qoyur əflakı, fələyi, Həcər!

Sordum nakam aşiqlərin çeşməsin,
Dinlədim fəryadın, eşitdim səsin.
Tavaqqa eylərəm yerə düşməsin,
Həmid Bağırlının diləyi, Həcər!

Bir də gördüm ki, əmim, budu, atın belində böyrümdə hazır oldu. Dedi:

– Ay beli sınmış, ə, burda neynirsən?

Dedim:

– Əmi, gəlmişəm su içməyə.

– Ə, – deyir, – su içməy nədi? Bu gəlinə eşqnamə oxuyursan. Atam, Mirzə Bağırın ojağı haqqı! Tüfəy kəntdə qalmışdı, onu gətirirəm. Badron alaçıxdadı. Üstündə olsaydı, atamın goru haqqı, ikinizə bircə güllə vurajeydim.

[60] Yaqutun tilası – yaqutunu doğranıb tökülən parçası

Belə deyib, bu ata vurub getdi. Amma bu qoyun da əmimnən dədəmin qoyunudu. Büyün bu qoyunu gətmişəm otarmağa. Deyir, gəlin sənəyi doldurdu-doldurmadı, sənəyi götürdü belə getməydə olsun, mən üz tutdum Tatallara – Hajı Nəsir oğlu Qaçaq İslamın yanına, xaloğluyux. Onun üstünə qaşdım. İndi gedirəm. Deyir, hər-dən baxıram, elə ağlıyıram, elə ağlıyıram. Deyir, inanginan ki, gözümün yaşı gəlib davanımı istadıbdı. Özümü öldürürəm. Yolnan ağlıya-ağlıya qaçıram, gedirəm. Belə çönnəm ki, bu, sənəyi götürüb gedir.

Gəlişinə canım qurban,
Gedişinə dözüm yoxdu.
Cəllad olub canım alsan,
Bircə kəlmə sözüm yoxdu.

Nə eşqimi, nə məni qına,
Tufanlara gərdim sinə.
Çarəsi yox beş-on günə,
Külüm qalır, közüm yoxdu.

Həmid Bağırlıyam deyim,
Səhər şehli tər çiçəyim,
Sənsən mənim öz istəyim,
Qeyrisində gözüm yoxdu.

Getdim Hajı Nəsir oğlu Qaçaq İslamın yanına. Dedi ki, ayə xaloğlu, xeyir ola? Bir danış görüm nədi? Deyir, bu əhvalatı danış-dım. Bu da muxru qurub, muxrun içindədi. İndi bu aşır, özü üçün keyf eliyir. Deyir, bir də görürsən böyrü üstə aşır, birdən dombalax aşır, nə oyun çıxardır, özü üçün bir keyf eliyir. Dedi ki, bütün qornı tərəkəmə mənim əlimdən qan ağlıyır. Mən Nəsir oğlu İslam olam, o da Dəli Bəşir ola. Onun anasını ağlatmaq bu xalan oğlunun borcudu. Dedim ki, Bəşir də giriləsi kol döyül. Allahın ölümünə rast gəlsin onu, xaloğlu. Dedi, ə, onnan mana bir söhbət elə. Dedim,

o sinini mənə verginan. İndi sinini qaval kimi tutmuşam əlimdə. Dedim ki:

İlham pərisindən ayrı düşməyin
Səbəbi bir bulağ, bir əmim oldu.
Məclisin aşığı, el ağsaqqalı,
Hər acı kəlməsi dür əmim oldu.

Şirin təbəssümlü, xoş ünsiyyətli,
Səxalı, süfrəli, Hatəm niyyətli,
Əzrayıl zəhmli, Əli qeyrətli,
Cəsur-cəsarətli şir əmim oldu.

Həmid Bağırlının pənahı, püştü,
Könlüm səməndəri od aldı uşdu.
Qızılquş qaynaxlı, şahin vuruşdu,
Koroğlu güştülü kür əmim oldu.

Dedi, indi mana de görüm, məqsədin nədi? Dedim ki, da mən əmimin üzünə qayıda bilmərəm. Gəlmişəm sənnən Qarabağa gedim. – Gör o vaxtkı kişilər nə müqəddəs kişilər olufdu. – Dedi, mana sən öl de. Dedim, sən öl, gəlmişəm yanında qalmağa. Deyir, bir də gördüm ki, yazıx anamı göndəriblər. Hüseyn adında balaja qardaşım var, əmim bunu mənə minnətçi göndərifdi ki, o dəliyə deynən gəlsin. Dedim ki, yox. Da mən gedəsi olmadım. Bu şeiri orda oxudum:

Dərdə giribtəla, eşqə mübtəla,
Nə qalım, alışıb ay anam məni.
Əlvida qardaşım, gəl halallaşaq
Yola sal mehriban, ay anam məni.

Bu qatarı oxudum, anam da getdi, qardaşım da getdi. İndi, elin də köçhaköç vaxtıdı. El Kəlbəcərdən gəlir İstisuyun yanınnan Bağırsağa enirdi. İndi, xalam oğlu neylədi? Mana bir at verdi. Dedi, xaloğlu, bilirsən sənin sənətin nolajax? Dedim, yox. Dedi, sənətin

budu ki, Hajı Bayramalı oğlunun bir çobanı var, Uğurlu adında. Balaban çalır. Onun balabanına o qəbirin ölüsü oxuyar. Bayaz arvad var, bax, sən necə oxuyursan, Bayaz da helə oxuyur. Harda ki düşəjeyik, harda ki kefimiz kök oldu, orda məclis qurajağıx, heyvan kəsiləjək, yeyib-içəjeyik, orda oxuyub bizim kefimizi açajaxsan. Bax bu at da sənin.

Bir at verib mana, minmişəm. Qardaşım məndən ayrılanda dedi:

Bu həsrətə mən özüm yox,
Sevən qəlbi daş ağlayar.
Əli əldən üzən fələk,
Sirdaşa sirdaş ağlayar.

Polad sınar, əyən olmaz,
Sınıq qəlbə dəyən olmaz.
Yaddan-yada həyan olmaz,
Qardaşa qardaş ağlayar.

Hüsöyünəm, qardaş, bil məni,
Hər tərlana öz vətəni.
Hərdən yada salıb səni,
Anan süzər, yaş ağlayar.

Deyir, da gördüm, əl əldən üzülür.

Sevib-sevilməyin çağı gəlibdi,
Qızlar bulağından necə ayrılım?
Nazlı bir sənəmin mübtəlasıyam,
Lala yanağınnan necə ayrılım?

Mən ki, aşiqiyəm qövsü-quzeyin,
Kəkliyin səsinə səs verən neyin.
Amansız fəryadın, haqlı gileyin,
Titrək dodağından necə ayrılım?

Bilən varmı Həmidoğlu, ağların,
Bağbansız gülşanın, solan bağların,
Qartalın məskəni qoca dağların,
İsti qucağından necə ayrılım?

Deyir, el Taxta düzdən yenib Bağırsağa addıyır. Baxdım ki, əl əldən üzülür, burda bunu yazdım:

Xəyalımdan o yar kimi,
Gəlin qaya, salamat qal.
Ötüşər qış, gələr bahar,
Altı aya salamat qal.

Çox aşıqlar deyib nə çox,
Qayıtmaz atılan bir ox.
Nə ömürə etibar yox,
Nə dünyaya, salamat qal.

Dəli anam dözər yəni,
Solmasın ömür gülşəni,
Bağışlasın atam məni,
Bir xudaya, salamat qal.

Həmid, səni bilən duyar,
Uçub tərlan, düşüb qıya,
Üz tuturam İstisuya,
Tər-tər çayı, salamat qal.

El gəldi çıxdı Taxtabaşına. Taxtabaşına gələndə muxronu qurdular. Mən Bəyazı görməmişəm, Uğurlunu görməmişəm, tanımıram. Bir də gördüm ki, məşədi, kərbəlayı, hajılar yığıldılar. Yeməkiçmək başdadı. Bir də gördüm Uğurlu da gəldi, Bayaz da gəldi. Gəldilər, mənnən də görüşdülər. Görüşəndə deyir, burda başdadılar. Gördüm, Bayaz çadranı saldı başına, elə oxuyur, mənnən bir addım olsun geri qalmır. Deyir, mana növbə gəldi:

Xəyalım hər yanı gəzdi-dolandı,
Baxdım qohum-qardaş, el yada düşdü.
Qartallı qayalar, sonalı göllər,
Ürəy sızıldadı, tel yada düşdü.

Həsrətnən yollara bir an baxdı,
Sızıldadı eynim yaşı, gur axdı,
Qara gözdən sırğalandı yaş axdı,
Bahar leysanı tək sel yada düşdü.

Yaxasına inci-sədəf düzən yar,
Həmid səni oğrun-oğrun süzən yar
Sübhün çağı şux ormanda gəzən yar,
Çəmən təravəti, çöl yada düşdü.

Köç gəldi çatdı Ağdama. Ağdamda, deyir, bunlar bazara getdilər, heyvan aparıllar satmağa. Mən də dedim ki, gedim mən də gəzim Ağdamı. Gəldim Ağdamın məscidini ziyarət elədim. Ağdamın məscidini ziyarət eliyəndən sonrasına bir şeir yazdım:

Şuşa bir qızıl tac, Xan bağı cənnət,
Ağdamın nə gözəl xoş havası var.
Məscidi, mənbəri, Allah Əkbəri,
Övliya, övsiya, mir babası var.

Hər elmi mükəmməl toplayıb sərə,
Əhsən alqış sahibidi min kərə,
Səjdə qıllam bu torpağa, bu yerə,
Şikəstə Valehi, binəvası var.

Həmid biçarəni dərk edib düşün,
Ruhu şad babaların keçmişin.
Şahinin, şahbazın, hər qərib quşun
Yəqin ki, öz yurdu, öz yuvası var.

Köç gəldi Arazın qırağına çatdı. Arazın qırağına çatanda getdim Arazın qırağını gəzməyə. Bu dağlara baxdım, Araza baxdım. Görmədiyim yerlərdi. Deyir, qəriblik mənə elə əl verdi ki, gəl görəsən.

Araz mənim göz yaşımdı,
Hey çağlayıb Nilə dönsün.
Hər kim kimə dilər qarğış,
Bircə günü ilə dönsün.

Bu nə haydı, bu nə həşir,
Dərd oyub bağrımı deşir.
Alovlansın Dəli Bəşir,
Yanıb, yanıb külə dönsün.

Sən adilsən, ey Zülullah!
Diyarbəkir, çəkirəm ah!
Nə mürvətdi Allah, Allah!
Xanın meyli gülə dönsün!

Ürəyimə çatıb zədə,
Saralıb soldum bivədə.
Sənə xoşmu yad ölkədə,
Miskin Həmid qula dönsün.

Köçəri camahat arasında yaxşı hörmətim var. Kimin məclisi olur, məni çağırıllar. Bəyaz gəlir, Uğurlu gəlir, bunlarnan yola salırıx. Deyir, gördüm ki, Kərbala zəvvarı gəlir. Camahat bu zəvvarları əylədi. Kimi nəzir göndərir, kimi heyvan kəsir, kimi qurban deyir, kimi niyaz verir. Mən də bir dəvə sahəsinin üstündə oturmuşam. Ona kimi xalam oğlu İslam gəldi.

– Xaloğlu, niyə burda oturmusan?

Dedim ki, mən də getmək istiyirəm Kərbəlaya. Dedi, at məndə, pulunu da verirəm. Gedirəm bu saat çovuşun yanına, sənə icazə alam, qoşam zəvvara, gedəsən. Baxdım, at İslamın, pul İslamın,

getməy İslamın, ziyarət İslamın. Mənim getməyim hədərdi. Dedim ki, yox. Ta mən gedəsi olmadım, amma mənim bir ərz-bəndəçiliyim var oraya:

Əhməri-hilalın susuz bir halın,
Tənhasız qalanın qurbanıyam mən.
Əkbər-məlalın, o xətti-halın,
Zeynab-nalanın qurbanıyam mən.

Həsənəm müştəba[61] kəskin nəfəsin
Və Allah amanı, ucalan səsin,
Haki Xurasanın, qərib bikəsin,
Qurbanı olanın qurbanıyam mən.

Hüseyni şəhidin, təşnə cigərin
Müslümü əqilin, bağlanan dərin,
Tifil Səkinənin, Əli Əsgərin,
Heyməz talanın qurbanıyam mən.

Qumlar üstə qalan cismi üryanın,
Kəsilən başların, tökülən qanın,
Qolsuz ələmdarın, şahı-mərdanın,
Dərdə mübtəlanın qurbanıyam mən.

Həmid Bağırlıyam, bir kəminə[62] qul,
Yarəbbi, iltimasım sən eylə qəbul.
Pənci ali-əba, cəddi ya rəsul,
Haqqı bir talanın qurbanıyam mən.

Qıraxlı Məşədi Məhəmmədəli var. Bunun çobanları gətirib Tatalların yatağını otarıfdı. Burda dava düşüfdü. Dava düşəndə bu çobanların vuruf başını-gözünü əziflər, qolunu qırıflar. Biri qışqırıf ki, sağ olsun kürd oğlu, kürd oğlu vurdu. Halbuki kürd oğlunun

---

[61] Müştəba – evliya
[62] Kəminə – sağır

burda nə malı var, nə qoyunu var. Hajı Bayramalı oğlunun evində oturmuşux, çörək yerik. Bir də gördük, iki dənə strajnik gəldi. Dedi, burda kürd oğlu kimdi? Məni göstərdilər ki, budu. Dedi, səni pristav İmişlidə çağırır.

– Ay balam, mənim pristavnan nə işim? İmişli hara, mən hara?

Deyir, məni qatdılar atın qabağına. Atın qavağında obadan bir az aralanmışdıx. Pah, el yada tüşdü.

El gərək,
Qohum-qardaş, el gərək.
Qərib idi yad ölkə,
Bu gün sana el gərək.

Əlimi verdim qulağıma, bir bayatı oxudum. – "Ayə, ayə, bunu atın tərkinə al". Dedi, oxuyansan? Dedim, hə. Dedi, mən pristavın sağ əliyəm. Pristav oxumağı sevir. Başına pərvanə tək dolanajaxdı. Amma səni çağıranda denən ki, ağa pristav sağ olsun, mənim orda malım yox, qoyunum yox, mən qərib aşığam. Mən elnən dolanıram. Mənim nə işim var ki, Məşədi Məhəmmədəlinin adamını vuram, neyniyəm.

Deyir, gətirdi məni qoydu İmişlidə bir dənə mollanın yanında. Dedi, mən gedirəm, pristavnan söhbət eliyəm. Deyir, gördüm ki, bu molla yerində eşir oraya-buraya.

– Əmi, niyə elə eliyirsən?

Dedi ki, oğul, mən də qəribəm. Ehtiyat edirəm ki, qaçarsan, məni döyüb öldürərlər. Dedim ki, yox. Anamın südünə and olsun, a kişi, mən qaçmaram. Deyəndə, deyir, genə el gözümün qabağına gəldi:

Mahalım Cavanşir, elim Kəlbəcər,
Özüm kürdəm, ulu babam kür dəmir
Şahin-şonqar ayrı düşüb vətəndən
Bu həsrəti eyləyibdi birdə, əmi.

Ülfətim var qoca ilə, gənc ilə,

Nəğməkar bülbüləm xoş ahəng ilə
Polad zindanıyam, qəm qılıncı ilə,
Qorxum yoxdu fələk vura birdəmi.

Kimdi düşünməyə nə sir olubdu,
Həmid kimdi bir müqəssir olubdu,
Yadlar pəncəsində əsir olubdu,
Nabələddi bu oylağa qurd əmi.

Deyir, bir də gördüm ki, strajnik gəldi. Dedi ki, papağını əyri qoy. Dedim, nədi? Dedi ki, axşam mənim məclisim olajaxdı, çalğıçılarım gələjəhdi. Sən oxuyansan, gələrsən bizim üçün oxuyarsan.

Deyir, məni çağırdı. Pristavın yanın getdim. Dedi, bala, o adamı niyə vurmusan? Dedim ki, ağa pristav, mən elin sənətkarıyam. Mənim orda nə malım var, nə qoyunum var. Məşədi Məhəmmədəli kimdi, mən kiməm? Mən onnan düşmən döyüləm. Kimsə, indi İslama görə deyifdi ki, sağ olsun kürd oğlu! Kürd oğlu vurdu.

Pristav dedi, Məşədi Məhəmmədəlini çağırın. Deyir, Məhəmmədəlini çağırdıllar. Bir də gördüm ayağında çəhmə, başında buxara papax, əynində gümüş məznəli çuxa elə bil bir xan girdi içəri. Dedi, sən bu elin aşığına şər atmısan. Səni beş manat cərmə elədim. O vaxtı, deyir, bir saz inək beş manata getmirdi. Məhəmmədəli, deyir, burdan bir beşdik çıxartdı stolun üstünə atdı. Nə salam, nə safa, qapıdan çıxdı. Məhəmmədəli belə getdi. Məni gətirən dedi ki, mənim adım Muxtardı. Axşam məclisim qurulajaxdı.

Axşam, deyir, narodnı sud gəldi, pristav gəldi, aləm tökülüf, bunu istiyənnər gəlifdi. Bunun çalğıçıları gəldi. Deyir, qəriblik mənə əl verifdi, oxuyuram,

Müşkülüm var, ayağına gəlifdi,
Bir haqqın aşığı dərbədər bu gün.
Mərhəmət sahibi ali hökümdar,
Olsun ədalətin bir qədər bu gün.

Heç bir kəsə qalmayıfdı bu cahan,

Baş kəsib, ev yıxıb axıtmayın qan,
Hanı Cəmşidi-cəm, hanı Nuşirəvan,
Zal oğlu Rüstəm, Zülqədər bu gün.

Həmid, yazıb qəmli dastan, bağla sən.
Çağlayırsan sellər kimi, çağla sən.
Əgər ölsəm, yazığ anam, ağla sən.
Qohumdan, qardaşdan bixəbər bu gün.

Deyir, pristav durur aradabir yoldaşıynan oynuyur, gəlir üzümdən öpür, gediv oturur. Dedi ki, Muxtar, sənə eşq olsun! Mən göndərmişdim, sən get dustax gətirginan. Sən gedif bir bahar bülbülü gətirmisən buraya. Deyir, bu narodnı sud bir dənə əlliliy çıxartdı qoydu sazımın üstünə. Dedi ki, qorxub eləməginan, papağını əyri qoy. Mən ki, burda varam, sən qorxma. Deyir, indi sazı vurdum sinəmə, bunun qavağında dayanmışam.

Fələyin əlindən amana gəldim,
Bilmirəm üz tutum hara, sud baba?
Qərib quşam yad budağa sığınmış,
Neyləmişəm mən füqara, sud baba.

Süzüb gəlir eynim ilə yaş niyə?
Kimsə atır mən fağıra daş niyə?
Qohuma-qardaşa, dosta-aşnaya,
Əlim çatmır o diyara, sud baba.

Öz-özümə mat qalmışam oynuma.
Yalan desəm qorələnsin qoynuma.
Suçum varsa sal kəməndi boynuma,
Hököm verib çəkdi dara, sud baba.

Həmidin harayı çatmadı elə,
Üz tutub səhraya, düşübdü çölə.
Süzgəcdən keçirib ələkdən ələ,

Hər bir işi sən aşkara, sud baba.

Deyir, indi yeyib-içillər. Bu səfər içillər Muxtarın sağlığına ki, Muxtar gedib bunu hardan tapıf gətirifdi. Muxtarın sağlığına deyir, dedim:

Köməysizə köməy oldu,
Buluddu Muxtar bu yerdə.
Qanı coşdu, gözü doldu,
Buluddu Muxtar bu yerdə.

Dedim bu yol hansı yoldu?
Bağ saraldı, çəmən soldu,
Bir aşığa qardaş oldu,
Buluddu Muxtar bu yerdə.

Aşığam çəkib devran,
Can qutarıf ahu-zardan.
Bağlayıfdı şahı-mərdan,
Belinə kəmər bu yerdə.

Bunun yoldaşı dedi ki, anan var? Dedim, var. Mən daşdan olmamışam ki...

Əhvalı pərişan, xəyalı çaşqın,
Dəmadəm ağlayar bir ana mənsiz.
Kirpiyinnən Araz boyda qan ələr,
And olsun Allaha, Qurana, mənsiz.

Qılıncdan kəskindi babam nəfəsi,
Çünki Allahına tez çatır səsi.
Qəmli görünməsin atam didəsi,
Qoyar könül-şəhri virana mənsiz.

Həmid Bağırlıyam, bir nişanəm var,
Məsum mələyim var, nazlı sonam var,

Bulud tək kişnəyən dəli anam var,
Üz tutar Təbrizə, İrana mənsiz.

Pristav dedi ki, lap adamı öldür, gəlginan bu qapıyı təpiknən aç. Bunnan beləsinə, sən oldun mənim qardaşım. Dedim ki,

Zəmini-Allahsan qibleyi-aləm.
Daim tac-təxtin bərqərar olsun.
Yerdə müşküllərin pənahı sənsən,
Kəməri qurşayan kilidi yar olsun.

Nə üçün bağlanıb bülbülün dili,
Yatıb kür talehi, gözü mürgülü.
Qoyma intizarda qala bülbülü,
Nə mürvətdi dar qəfəsdə zar olsun.

Həmid biçarənin bax fəqanına,
Əl açıb göylərin asimanına.
Namərdi qərq olsun Nuh tufanına,
Mərd igidə şahı-mərdan yar olsun.

Belə oldu ki, gün qapıya vurdu, söhbət burda tamam oldu. Pristav neylədi? Durdu, deyir, çəngaldan bir dəst mahud paltar endirdi. Dedi, çəkənsən? Dedim, hə. Səkkiz dənə İran tütünü bağladı öz əlinnən. Məşədi Məhəmmədəlinin verdiyi beş manatı saldı cibimə. Dedi, Muxtar, aşığı hardan götürmüsən, aparıb orda qoyursan.

Elə çıxdıx, o mollanın yanına gələndə, bir də gördüm Qaçax İslam budu gəldi.

– Ayə, xalan oğlu ölsün! Mən evdə yoxuydum. Səni veriblər bu namərtdərin əlinə.

Bunlar qucaxlaşdı, öpüşdülər. Muxtarı götürdü gəldi İslamgilə. Təzdən, deyir, burda erkəy kəsildi, bir devran başdadı. Burda çaldıx-oynadıx, filan-bəhməkan. Onnan sonrasına köç başdadı, gəldix Çilgəzə. Tatallarda İbrahim var. Bunun bir çobanı var Qara

Çoban. Orda mana deyiflər ki, İbrahimin bir çobanı var, Həmid, yaman şairdi. Dedim, şairdi özünə, sağ olsun. Neynim şairdi.

Çilgəzə gələndə Qara Çoban Hajı Məmməd Cəfərə, Hajı Məmməd Hüseynə deyir ki, bu axşam İslamın xalası oğlunun, o kürd oğlunun anasını ağladajam. Deyir, neyniyəjən? Deyir, deyişəjəm onnan. İndi bilən deyir ki, Qara Çoban, o mükəmməl adamdı. Çox özündən demə. Dedi, çox helə mükəmməllərin dizin yerə qoymuşam mən.

İndi bunlar mərc eliyillər. Deyillər, əyər sən kürd oğlunu bağlasan, İslamın iki dənə öyəjini kəsəjeyih. Yox, kürd oğlu səni bağlasa, sənin ağan İbrahimin iki öyəjini kəsəjeyih. Mənim də Kəlbəcərin hansısa kəndində qohumlarım vardı, onlarnan görüşməyə getmişdim. Qayıdanda dedilər ki, Həmid, belə bir iş var. Qara Çoban dedi ki, bu axşam mən kürd oğluynan deyişəjəm. Getdim ki, bu, qoyunu haylıyıf tökür yamacdan. Buna yaxınnaşdım, dedim ki, ayə, Qara Çoban, belə demisən? Amma, deyir, bu kopoğlu elə zəhmli adamdı, bunun üzünə şəstnən baxa bilməzsən. Adam öldürüfmü, adın dəyişif gəlif burda çobanlıx eliyirmi, bilinmir. Dedi, hə, demişəm. Dedim, mana bir nalayiq söz deginən. Dedi ki, deyəsən indidən geri verirsən? Bu söz mənim ürəyimə dəydi. Dedim ki, ya babamın ojağı, ya dədəmin ojağı! Əgər o məclisə gedib mən xar olajamsa, mənim ruhumu qəbz eləginan, mən heç gedib o məclisə çatmıyım. Sana pənah gətirirəm, mən buna neynəmişəm ki, bu deyir, mən bunnan deyişəjəm.

Deyir, axşamdı. Bir də gördüm dalımcan adam göndəriblər. Getdim ki, muxru qurulufdu. Tatalların adamı, Aşıxlının adamı, inanginan, tərəkəmədə nə qədər möhtərəm adamlar var, hamısı gəlif oturublar. Elədi ki, bu muxrunun iki çubuğunun arasında dörd arvadın başı bir yerə düşüb. Da içəridə yer yoxdu. Belə baxdım, getdim ki, Qara Çoban oturufdu altında mütəkkə. Bayaz da oturufdu, Uğurlu da oturufdu. Bayazın yanında mana yer verdilər. Dedilər ki, Aşıx Həmid, bilirsən nə var? Dedim, yox, bilmirəm. Dedi ki, Qara Çobannan mərcimiz var. Deyir ki, mən Aşıx Həmidnən deyişəjəm. Dedim ki, ay hajılar, məşədilər, kərbalayılar, ey dünyagör-

müş adamlar. Biz iki cavanı üz-üzə niyə gətirirsiz? O da şeirindən desin, mən də deyim. Dastan deyax, söhbət eliyax, məclisimizi yola salax. Dedilər, yox. Mərcimiz var. Mana da yer verdilər, oturdum. Oturandan sonrasına, dedi, indi deginan kim başdıyajax. Qara Çoban dedi ki, mən onu meydana çağırmışam, mən deyəjəm. Deyir, götürdü burda bir söz dedi ki,

Havalanma, səməndinnən salaram birdən səni.
Atılaram şahmar kimi, çalaram birdən səni.
Şahı-mərdan nökəriyəm, əlimdə var zülfüqar.
Əgər olsan babi-Xeybər, talaram birdən səni.

Deyir, ə, baxdım ki, bu kopoğlu şairdi. Gördüm, İslam oturufdu üçatılan qucağında. Vurasan, bir qaşıq qanı dammaz yerə. O dünyaynan çalışır. Dedim ki, Qara Çoban, nahaq bu yola düşdux. Heç gəlginan bu yola düşmüyax. Sən də cavansan, mən də cavanam. Sən məni bağladın bu camahat şad olajax özü üçün, kef eliyəjək. Mən səni bağladım, bu camahat genə özü üçün şad olajax. Gəl bu yoldan əl çəkax. Dedi, yox. Ver sözümün cavabın. Dedim, yaxşı. Qulağ as.

Bir çilləsən, bax ataram fələyə birdən səni.
Qərq olasan tufanlara, küləyə birdən səni.
Bir Allaha sığınmışam, imdad ondan istərəm.
Salar qəza kəməndinə, tələyə birdən səni.

Ayə, urra-hay düşdü. İndi camahat iki yerə bölündü. Kimi oldu Qara Çobanın tərəfi, kimi oldu mənim tərəfim. Qara Çoban dedi:

Mükəmmələm, dərsi mənə Əleyi İmran verib.
Müxənnətə qətli-fərman, mürdələrə[63] can verib.
Cəsarətli qızılquşam, yaradan imkan verib.
Cilvə polad qaynağıma alaram birdən səni.

[63] Mürdə – ölü

Aşıq Həmid:

Sən gəl mənə qarşı qorxu-hədə yaşatma,
Yaralanmış dəli şirə əlin saxla, daş atma,
Dəryalara kəllə vurub bəhrilərə baş atma,
İlişərsən, kotan çəkməz kələyə birdən səni.

Qara Çoban:

Əslim-nəslim Şahsevənni, özüm Kərimzadə mən.
Neçə-neçə dəryaları eyləmişəm adə mən.
Qara Çoban səngi-saldı[64], alışmaram oda mən.
Çataram sönməz alova, qalaram birdən səni.

Aşıq Həmid:.

Hər qılıncın öz kəsəri, hər sözün sərhəddi var.
Bir o qədər baş aparma, şişməyin də həddi var.
Tanı məni, bil babamın dağ titrədən cəddi var.
Həmid dolar barmağına, biləyə birdən səni.

Deyir, bu anda gördüm ki, Bayaz qadın bir bayatı çəkdi,

Bada verməz,
Doldur iç, bada verməz.
Kamil olan sərbazım
Ağlını bada verməz.

Camahat urra-hay elədi. Dedilər, indi kim deyəjəh? Qara Çoban dedi, dayan, mən hələ nə demişəm. Mən deyəjəm.

Düşərsən huşyar əlinə,
Bərkə-boşa qoşar, aşıx.
Meydanımdan can qurtaran
Yaşadıxcan yaşar, aşıx.

Gördüm sən öl, kopoğlu şairdi ki, şairdi.

---
[64] Səngi-saldı – sal daşdı

Aşıq Həmid:

Lələm, sərraf seçib məni,
Lovğalanma ayə, Çoban.
Şahmar oluf çallam səni,
Elin gələr haya, Çoban.

Qara Çoban:

Qaç salamat qutar canı,
Babam şirdi, içib qanı.
Başlıyaram Nuh tufanı,
Ağlın-huşun çaşar, aşıx.

Aşıq Həmid:

Sənətimdi cəngeyi-devran,
Dayanmarsan qəti bir an.
Arxan yağı, tiqi-üryan,
Qənşərimdi qaya, Çoban.

Qara Çoban:

Qara Çoban çəkər zilə,
Qarışqa neyliyər filə.
Hay düşüncən eldən-elə,
Qaçıb yaldan aşar aşıx.

Aşıq Həmid:

Həmid yoğrulmuş poladdı,
Kim bilir ki, neçə qatdı.
Dəryalara əl uzatdı,
Kəmənd atıb aya, Çoban.

Alqış ucaldı iki tərəfdən. – "İndi kim deyəjək?" Qara Çoban dedi, mən deyəjəm.

Qara Çoban:

Şirtək pəncə çallam sənə,
Əhvalını xan eşidər.
Od ələrəm bu gülşana,
Olar bağrın qan, eşidər.

Aşıq Həmid:

Toxunma əfi şahmara,
Sancar səni, xan eşidər.
Adəm, Hatəm, Nuh bekara
Xıdırı devran eşidər.

Qara Çoban:

Əsib coşma birdən birə,
Əli əhsən deyif şirə.
Qoçu Cəlal, Cəllad Cürə
Eyliyər üsyan, eşidər.

Aşıq Həmid:

Süzülər eynindən yaşın,
Talar şəhrin, qalmaz daşın.
Dəli Geştək çəkər qoşun
Nəbi pəhlivan eşidər.

Qara Çoban:

Yollarını alar duman,
Olar-olmaz halın yaman.
Şuşadan gələr Natəvan,
Zülfü-pərişan eşidər.

Deyir dedim ki, mənim də zülfü-pərişanım var.
– Kimdi?

Aşıq Alı çəkər nərə,
Daşqın selə nə dağ, dərə.

Xəbər çatar Ələsgərə,
Ayrımda Qurban eşidər.

Qara Çoban:

Qara Çoban qaçır qana,
Tel vurub Türkə, Tehrana.
Salar səni burulğana,
Cəmi-Gülüstan eşidər.

Aşıq Həmid:

Həmid səni salar səngə,
Əl atmaz topa, tüfəngə.
Səs düşər Hində, Firəngə,
Xoy bilər, İran eşidər.

– Ayə, indi kim deyəjək? Qara Çoban dedi, mən nə demişəm ki.

Baxdım ayə, bu kopoğlu sən öl, şairdi ki, şairdi. Ya babamın cəddi, sənə pənah gətirmişəm.

Qara Çoban:

Naşı qəvvas, boğularsan dərində,
Çəkərəm dəryadan tornan səni.
Sönməz odam köhnə ojax yerində,
Bükərəm alovlu qornan səni.

Aşıq Həmid:

Nə işin var çəmən-çayır yerində,
Qoşaram ambula[65] xarnan səni.
Bir dəli tufanam, dağlar sərində,
Bükərəm girdəli qarnan səni.

Qara Çoban:

Oxuyaram ismi-əzan duvası,
Oynuyarsan ləzgi-həngi havası,

---

[65] Ambul – boyunduruq

Başlıyaram şiri-yazdan davası,
Salaram cəngimə zornan səni.

Aşıq Həmid:

Döyüşdə qələbə olmayıb sarın,
Tülək-tərlan göydə ovlar şikarın.
Yapış ətəyindən o xilaskarın,
Çataram baş-başa narnan səni.

Qara Çoban:

Qara Çoban ortalığa salar qan,
Dəli nərəsinnən titrər asiman.
Düşər söz davası, olar imtahan,
Sataram qiymətə şornan səni.

Aşıq Həmid:

Həmid demiş, inadından bir əl çək,
Bərqi[66] tək şığaram, çaxaram şimşək.
Dilə tutub ovudaram uşax tək,
Saznan, söznən, tarnan səni.

İndi deyillər ki, yox, mətləbə keçmək lazımdı. İndi, Çoban düşdü qabağa, mana qıfılbənd deyir.

Sualımın canı budu, birinci,
O nədi ki, bədəni var, canı yox?
Torpaxdan doğulur, daşdan kəsilir,
Doğruyullar tikə-tikə, qanı yox?

Aşıq Həmid:

Hər yaranmış onun həvəsindədi,
O tüfəngdi, bədəni var, canı yox.

---

[66] Bərqi – ildırım

Qurğuşundu, əsl daşdan doğulur,
Doğruyullar tikə-tikə, qanı yox.

Qara Çoban:

Hansı Qafda iki dəniz qoşadı?
Onlar kimin həvəsi ilə yaşadı?
O nədir ki, çək əlindən haşadı?
O nədir ki, surfası var, nanı yox?

Aşıq Həmid:

O gözlərdi, iki dəniz qoşadı,
Bir-birinin həvəsi ilə yaşadı.
O əcəldi çək əlindən, haşadı,
Yalandı, surfası var, nanı yox.

Qara Çoban:

O nədir ki, rəng deyil, qaradı?
O nədir ki, bulud yudu, daradı?
O nədir ki, hey qovuşar, paradı?
O nədir ki, yenər, nərdivanı yox?

Aşıq Həmid:

O gecədi, rəng deyil qaradı.
O çəməndi, bulud yudu, daradı.
O paxladı, hey qovuşar, paradı.
O ömürdü, yenər, nərdivanı yox.

Qara Çoban:

Qara Çoban susmaz alim yanında.
O kimlərdi, qorxu yoxdu canında?
O kimlərdi, haqqın imtahanında?
Şərməndə xəcalət, din-imanı yox?

Aşıq Həmid:

Sən damlasan bir dəryanın yanında.
Əzrayılın qorxu yoxdu canında.
Həmid gülər haqqın imtahanında,
İblisi-xənnasın din-imanı yox.

Deyir, gurultulu alqış aləmi bürüdü. – "Çoban, indi Həmid deyəjək". Dedi, yox, mən Həmidə nə demişəm ki. Qulağ asın:

Haqqı bir Tәlayә qul olan kәsin,
Qeyrisinə ehtiramı qaldımı?
Kim dərgaha xain çıxdı, əl üzdü,
Özlüyündə bir inamı qaldımı?

Deyir, dedim, bunu uşax da bilər.

Xilqəti pak olan halal bəndənin,
Əbədi silinməz nişanı qaldı.
Adəmi aldatdı şeytanı ləyin[67].
Qovuldu dərgahdan, bir anı qaldı.

Qara Çoban:

Səbəbi nə oldu, başladı tufan?
Qərq oldu dəryaya neçə bədgüman?
Kimə aşiq oldu Həzrəti Süleyman,
Arzusu, istəyi, kamı qaldımı?

Aşıq Həmid:

Yol azdı məxluqat, din zayə getdi.
Canlı da, cansız da dəryaya getdi.
Süleyman qul oldu, dünyaya getdi.
Məhəmməd yarandı, Quranı qaldı.

[67] Ləyin – lənətdik

Qara Çoban:

Hardan oldu bu qurğunun nizamı?
Kim nakam yarandı, kim aldı kamı?
Qara Çoban bax aldı ilhamı,
Fizuli, Firdovsi, Cami qaldımı?

Aşıq Həmid:

Baxıram, ay Çoban, verifsən boya.
Baxarsan Həmidin tutduğu toya.
İstər çapar göndər Mərəndə, Xoya,
İstəyir üstümə İranı qaldır.

Deyir, indi növbəni mana verdilər. Dedim buna elə bir şey deyim ki, bu mat qalsın yerində.

Dünya binnət olan gündən,
Bir kəlam var, səri yoxdu.
Hansı quşdu yaranmışdan
Gəzir, balı-pəri yoxdu?

Deyir, Çoban şaqqa çəkdi güldü. Dedi, onu uşağa deginan. Belə deyəndə dizim sındı. Dedi ki,

Elmi-helmi cəm yarandı,
Yox kəlamdı, səri yoxdu.
O xəyaldı yaranmışdan gəzir
Balı-pəri yoxdu.

Aşıq Həmid:

Hansı Qafda nə məna var?
Söylə kimdən nişanə var?
Bax müqəddəs bir ana var,
Evladı var, əri yoxdu.

Qara Çoban:

Ağrı dağda bir məna var,
Qoca Nuhda nişana var.

Məryəm adlı bir ana var,
Evladı var, əri yoxdu.

Aşıq Həmid:

Görmüsənmi, kəlin qurdu,
Hansı rahda[68] qoşun qırdı?
Həmid, kimlər xana qurdu,
Caxar bağlı, dəri yoxdu?

Qara Çoban:

Pənci-rahın kəlin qurdu,
Səflər pozdu, qoşun qırdı.
Çoban, baramanın qurdu,
Cahar bağlı, dəri yoxdu.

Dedim, Hajı Məmməd Cəfər, bu çoban mənə iki qıfılbənd deyifdi, ikisin də mən deyəjəm. Deyir, əl vurdular ki, deginən. Dedim ki:

Arifi-aqilə bir sualım var,
Ərşdəki ulduzun sayı bilinsin.
Kərbala söhbəti keçdi aradan
Hansı günü, hansı ayı bilinsin.

Təbrizdi, Bağdatdı, Mərəndi Xoydu,
Dünyanın məhvəri harda nə qoydu?
Çərxi-dəvvarəyə kim qədəm qoydu?
Kim aldı mükəmməl payı bilinsin.

Həmid Bağırlının artdı kədəri,
Hansı bir kəlamdı Quranın dəri?
Xırdan-nırdan qəti yoxdu xəbəri,
İsaydı, Musaydı bilinsin.

Çoban qapıdan çıxdı. Dedilər ki, İbrahimin öyəjdərini gətirin. İbrahimin iki öyəjin kəsdilər. Xalam oğlu Qaçaq İslam xod verdi

[68] Rah – yol

beşatılana. Atır, kef eliyir. Dedilər, yox, Həmid, bunnan qane olmurux. Nəcəf xanın nağılını gərək bizə deyəsən. Nəcəf xanın nağılını deyib qutarmışdıq ki, gün qapıya vurdu. İndi köç burdan gəldi Kəlbəcər oylağına, Tatallar yurduna. Üç gün burda qalannan sonrasına xalam oğlu məni yaxşı sovqatnan yola saldı, gəldim atamnan görüşməyə. Anam ağladı. Dedim, ana, niyə ağlıyırsan? Dedi ki, bəs Həcəri zornan on beş yaşındakı qaynına kəbin elədilər. Zulum-zulum ağladım. Mənim gəlişimi eşidif Aşıq Mirza gəldi. Dedim:

Yaradanım, yar ol bizə,
Dərdimizə çara sən ver.
Bülbül çəkir gül həsrəti
Xəcaləti xara sən ver.

Bəxtiyardı tayım-tuşum,
Çaşır ağlım, itir huşum.
Bu naməni könül quşum,
Öz əlinlə yara sən ver.

Fərhad oluf saldım dişə,
Həsrət qaldım bir gülüşə.
Heç olmasa gəl görüşək,
Köksü bəyaz qara sən ver.

Dodaxları beçə balı,
Qaşları ayın hilalı,
Verdiyi corab-dəsmalı,
Apar beilqara sən ver.

Qəm qoşunu keçib səddi,
Kür talehin üzü bəddi.
Həmid nakam öldü getdi,
Heş olmasa ara sən ver.

Mirza sazı basdı sinəsinə, dedi:

Həmid, sənnən görüşməyə min alqış,
Elə bil qardaşın ziyarat oldu.
Çəmənlər bülbülsüz qaldı, sızladı
Qan içmək cəllada bir adət oldu.

Öz əliylə öz başına döyülmüş,
Söymə kəsə, qəti olma söyülmüş.
Çınqıllı bulağın üstə deyilmiş
Kim uduzdu bu oyunda, mat oldu.

Dilində var Nuh tufanı, incimə.
Bəs hanı sənəmlər xanı, incimə.
Sən olan Mirzənin canı, incimə.
Bir az aramızda zarafat oldu.

Dedim, Mirza, bunnan qutarrıx ki:

Üzü qara olsun bivafa yarın,
Verifdi meylini xara, gedifdi.
Nə tez unudufdu əhdi-ilqarı,
Xayın çıxıf etibara, gedifdi.

Şahiddi bulaxlar, o yer, o sular,
Şahiddi gəl sayım birbəbir bunlar,
Şahiddi bir-birin duyan duyğular,
Bülbül ölüf, gül əğyara gedifdi.

Tovladı saçları o şahmar məni,
Yersiz boğdu namus, qeyrət, ar məni,
Yarı yolda qoydu nazlı yar məni,
Nə dağ çəkif sənətkara, gedifdi.

Sanki bir kələfdi düşdüyüm oyun.
Oynadıb, fəxr edib sevəsən boyun.
Ax fələk, xəcalət, müxənnət, xayin,
Yol veribdi ol şikara, gedifdi.

Həmid, sənnən çəkən varmı bu qəmi,
Nə yamandı ayrılığın sitəmi.
Zəhərli xəncərlə oydu sinəmi,
Vurubdu qəlbimə yarə, gedifdi.

Bu dəmdə əmim Dəli Bəşir girdi içəri. Boynumu qucaxladı, üzümdən öpdü. Dedi, oğul, mən günahkaram, sən əmini bağışlaginən. Dedim, ay əmi, hər şey sənin qeyrətinə qurban olsun. Atamın əlimdən öpdüm, əmimin əlindən öpdüm, bunnan da söhbət tamam oldu.

## 201. NÖVRƏS İMANLA AŞIQ SADIĞIN DEYİŞMƏSİ

Növrəs İman Göyçə elindəndi, Aşıx Ələsgərin qardaşı oğlu oluf. Deyilənə görə, o itkin düşüf. Ələsgər rəhmətə gedənnən sonra ara vurannar İmana deyillər ki, sənin adın İman, Ələsgərin də qardaşı oğlu. Sənin əmin rəhmətə gedənnən sonra qaraqoyunnu Aşıq Əsəd – Əsəd də elə-belə aşıq olmuyuf, dizdi aşıq oluf, – məclislərdə əminin şeirlərini öz adına bağlıyır. Bir gün İman hazırraşır, deyir gərək gedəm Əsədin yanına. Sazı götürür, yola düşür. O tərəfdən də Əsədə xəbər verillər ki, İman səni hədəliyir. – Öz aramızdı, Əsəd İmanın qabağında bağlama deyə bilməz axı, amma səsli aşıq oluf. Ona ordenni Aşıq Əsəd deyillər. – O tərəfdən də Əsədə deyillər ki, İman gəlif üstünə düşsə nəfəsini kəsəjaxdı. Əsəd qardaşdarına deyir ki, biz ayrı cür canımızı qutarammarıx, ancax köşmax lazımdı. Hara köçax, neyliyax. Əsəd deyir ki, gedax Tiflis tərəfə.

Gəlillər Yevlağa. Yevlaxda poyezə minillər, gedillər. İman gəlir bunların kəndinə. Sorağ alır ki, bəs Əsədgil köçdü. Haraya köçdü? Bunlara axı Tiflis deyif. Deyillər, getdi Tiflisə. İman da

bunların iziynən düşür yola. Gəlir çıxır Yevlağa. Yevlaxda poyezd ayağında yornuğ adamdı, gedir istalavoya çörək yeməyə. Padavatçı görəndə deyir ki, qardaş, görürəm cavan oğlansan, sənətkarsan. Elə gəl içəridə çal, mənim də bazarım yaxşı getsin. Deyir, qardaş, mən istalavoy aşığı deyiləm, burda bir kısmat çörək yeyərəm. Deyir ki, sən yanı qaraqoyunnu Aşıq Əsəddən artıq aşıxsan istalavoyda çalmıyasan? Özünü niyə çəkirsən? Deyir, onlar hardeydi? Deyir iki günüydü istalavoy onlara zanit idi. Deyir, bə hara getdi, nejoldular? Deyir, onlar getdi Tiflisə.

Bu da bilet alır, səhər oturur poyezdə. Tiflis durma, gəldim. Amma Əsədgil əslində Tiflisə getmir, dönürlər Qazağa. İman keçir Tiflisə. Nabələd adamdı, həm də çox cavanmış. On yeddi-on səkgiz yaşındaymış. İndi bu ajıfdı, susuyufdu, amma yeməkxananın yerin tanımır. Bir nəfərə yanaşır, deyir ki, dayı, mənim bərk ajdığım var, burda məni bir yeməkxanaya tuşudasan. Deyir, oğul, çayxana da var, yeməkxana da var, amma mənim hayfım gəlir sən oraya gedəsən. Deyir, niyə hayfın gəlir mana? Deyir, burda bir sənətkar var, saz aşığıdı. Onun neçə padavatçısı, qulluxçusu var, nəkqədər çiynində saz gələn olur, bağlıyır sazın əlinnən alır, özün də beuzum[69] sıfatında yola salır. Deyir, indi sən mana de görüm nətər bağlıyır. Zoruynan bağlıyır, sözüynən bağlıyır? Deyir, qıfılbənd deyir, heş kim aça bilmir. Sazın da alır, beuzum sıfatında yola salır. Deyir, məni apar onun çayxanasına. Deyir, axı cavan oğlansan, vallah qıymıram sana. Deyir, sən apar da. Mən ona neyliyəsiyəm, bir az çay içəjəm, yemək versə yeyəjəm. Deyir, gəl gedək.

İçəri girillər. İman baxır, saz asılıfdı ordan, üstünə də yazılıf Aşıq Sadıx. Aparır sazı həmən sazın üstünnən asır. Padavatçı qız deyir ki, ay sənətkar, o sazı nahaq ordan asdın. Vallah, o sazın yiyəsi bilsə ki sən sazı ordan asmısan, elə burda səni şakqalıyajax, sazı da alajax. Səni beuzum sıfatında yola salajax. Deyir, sazı nətər alajax? Deyir, onun dediyi qıfılbəndi heş kim aça bilmir. Deyir, nolar, gələr bağlıyar, sazdı verərəm. Deyilənnərə görə, Aşıq Sadığın

[69] Beuzum – pis sifətə salmaq, biabır eləmək

da sazının bəlkə bəzəyində yarım kilo qızıl var. İçəri girən kimi deyir, elə bu sazı bağlıyıf aparsam bu bəsimdi. Deyir ki, yox, sazı düşür, gəlif sazı sazın üstə görməsin. Deyir, yox, düşürmüyəjəm. Mən asmışam, saz yiyəsi gəlsin mənim sazımı düşürsün. Sən bir çay ver.

Çay gətirir. Bu çay içənə kimi Aşıq Sadığa xəbər verir ki, bir cavan oğlan gəlif, özüynən danışmax mümkün deyil, sazı da sazı üstünnən asıf. Nəkqədər elədim düşürmədi. Sadıx fikrə gedir ki, bu işi tutan ya Aşıq Qurbanın nəslinnən olar, ya da Ələsgərin nəslinnən Növrəs İman olar. Növrəs İman hara, Tiflis hara. Saz sazın üstə, mən burda, o orda. Durum gedim görax kimdi.

Gedif içəri girəndə salam verir, bu qalxır salamın alır. Deyir, oğul, haralısan, kimsən? Deyir, əmi, İrannanam. Deyir, adın nədi? Deyir, adım Xeyrullahdı. Xeyrullah deyəndə Aşıq Sadıx fikirrəşir ki, bu düz deyir, irannı olar. İranda addar qoşa gedir: Xeyrulla, İbadulla, Seyfulla. İrannı mana neyliyəjəh, bu dünənki uşaxdı. Deyir, sazı ordan niyə asmısan? Sazı endir. Deyir, yox əmi, mən asmışam, sən endir. Mən yorulmuşam, çox yol gəlmişəm. Deyir, bə sazı sazın üstə asmaxda məqsədin nədi? – İndi sənətkarlardı, danışıb biz eşitmişik. – Deyir, əmi, bu onu göstərir ki, sazım sazını minif, inşallah, mən də özünü minəjəm. İndi tata nə gələ, türkə də o. Belə deyəndə bu hirsdənir da. Deyir ki, Sadıx kişi, imkan ver, mən yol gəlmişəm, nabələd adamam. İrannan bura yaxın yol deyil. Bir az çörək yeyim, çay içim, onnan sonra nə desən eliyərik. Allah verənnən yeyir, tokqanın altını bərkidir.

Tiflisə yayılır ki, İrannan bir uşax gəlif Sadıxnan deyişmək istəyir. Deyilənnərə görə gödək adamlar uzun adamlara pul verir, onun çiyninə çıxıf bunlara baxır. Aşıq Sadıx sazı götürür, deyir, indi sən qabağa düşürsən, yoxsa mən qabağa düşüm? İman deyir, yox, biz firsəndi qabaxcan namərdə veririk. Sən düş qabağa, mən də dalınca gəlim. Amma İman deyir ki, kimdən desən hər kəsin şeirin öz üstünə bağla. Mən də kimdən desəm, onun üstünə bağlıyajam. Aşıx Sadıx sazı götürür düşür qabağa. Xəstə Qasımın divanisin başdıyır. Deyir:

Adəmdən Hatəmə natiqi Quran mənim.
Din mənim, məzhəb mənim, yol mənim, ərkan mənim.
Gül mənim, bülbül mənim, sünbülü-reyhan mənim,
Yerdə insan, göydə qılman, ərşdəki aslan mənim.

İman deyir ki, hamısın dedin mənim, mənim, da mənə nə qaldı? İman da deyir:

İbtidadan intəhaya gərdişi-devran mənim,
Nuri-əhməd xəlq olandan axır-əz zaman mənim.
Heydər mənim, Səfdər mənim, ol şahi-mərdan mənim.
Nuri ənvər, Şəmsü Qəmər, rakini-iman mənim.

Sadıx deyir ki, mən də dedim mənim, sən də dedin mənim. Eyni qafiyədə çıxdı. Dedi, sən sözun dalın davam elə. Sadıx dedi, mənim qabağımda nə deyə bilər. Xəstə Qasımın bağlı qıfılbəndidi, indiyə qədər bunu açan olmuyuf. Orda Sadıx götürür deyir ki,

Yeddi eyvan, səkkiz seyvan, qırx sütun bir ləngəri,
Yeddi molla, yeddi dərviş, yeddi keşiş, yeddi pust,
Yeddi min qırxdan irəli, səkkiz yüz dörddən bəri,
Pir mənim, ustad mənim, yol mənim, ərkan mənim.

İman deyir:

Yeddi eyvan cəhənnəmdi, səkiz rizvan səda.
Evliyalar, qibliyalar, qırx sütun ləngər bir xuda.
Yeddi min keçən tarixdi, səkkiz yüz dörddən cida.
Həm səfasız, həm vəfasız söylənən elan mənim.

İman deyir ki, düz aşırammı? Deyir aşırsan. Sadıx fikirrəşir ki, neçə ilin qıfılbəndi indiyətən açılmıyıf. Bu nətər bunu açır. Götürür o biri bəndin.

Xəstə Qasım Tikmədaşlı, sahibi cümlə xəta.
Var ümüdüm mehracı tacıdarı əl əta.

İki Qaf günahın olsa, keçər günahınnan.
Əl mənim, rəhman mənim, yol mənim, ərkan mənim.

İman deyir:

Növrəs İman Göyçə elli, sidqi şahı Heydərə.
Ərşi-əladan səda gəldi, biz də yazdıx dəftərə.
Hak özü şəfakardı yazdıx ruzəl məhşərə,
Qorxum yoxdu qurulanda ədalət, divan mənim.

Deyəndə Aşıx Sadıx deyir, oğul, sən deyirdin İrannanam, adım Xeyrullahdı. Axı sən Növrəs İman dedin. Dedi, Sadıx kişi, sən Xəstə Qasımın şeirin örgənmisən, mən də İmanın şeirini. Qəbahət deyil ha. Sən belə dedin, mən də belə dedim.

Gənə bunlar bir-birinə hədə-qorxu gəlillər. Bu səfər belə qərara gəlillər Xeyrullah düşsün qabağa, Sadıx kişi, sən aşginən.

Böyün səfər etdim bir xanə gördüm.
Beş qapısı bağlı, bu dərindi bu.
Beş qapısı bağlı, beşi açılmış
Beşi cavab verdi bu dərdindi bu.

Sadıx təzənəni bir o başa çəkir, bir bu başa. Deyir, olarmı, oğul, deyəsən, axırda mən açaram. Deyir, nolar. Mən deyəjəm sən aç.

Beş alim əyləşmiş beş məqam üstə,
Beşi ayaq üstə, beşi bir dəstə.
Beşi var qocalmış, beşi növrəstə
Beşi cavab verdi bu dərindi bu.

Beş mənbərdi, hər birində beş ayə,
Beş yerində mən oxudum beş ayə,
Beş yerində zikr oldu beş ayə,
Beşi ism eylədi, bu dərindi bu.

Beşi ləldən bahalı, beşi anbarı
Beşi zərdan mətahı, beşi xridarı,
Beş tərəfdə olur beş çeşmə carı,
Beşini boyladım, bu dərindi bu.

Beşi ağayana, beşi mərdanə,
Beşidi divanə, beşi məstanə,
Beşidi İmana, beşi hər yanə,
Beşi nalə edər, bu dərindi bu.

Sadıx aça bilmir. Ağsakqallar deyir ki, Sadıx, sazı təhvil verginən Xeyrullaha. Növrəs İman dediyi qıfılbənddə özün istinad verir. Verəndə Aşıx Sadıx fikirrəşir ki, məsul adamlardan çağırım bir qonaxlıq təşkil eliyim, bunu yedirdim-içirdim, bəlkə çörəkdən keçib sazı aparmaya. O formu da eliyir. Amma padavatçını çağırır. Deyir, getginən filan həkimdən bir adamın norması qədər zəhər al gətir. Zəhəri yeməkdə verim ona, zəhər öldürsün, mənim sazımı aparmasın.

Heylə də eliyir. Padavatçı zəhəri gətirir. Yeməyi çəkəndə deyir ki, İmanın qabın manşırrı elə, onu qoyarsan İmanın qabağına.

Hamı yığılır. Yemək gəlir, İmanın qabağına yeməy ayrı gələndə İman yeməyə baxır, onun iyinə baxır, o tərəfə baxır, bu tərəfə baxır. İman əlin uzatmır yeməyə. Hamı yeməyə başdıyır. Deyillər, niyə pismillah demirsən? Deyir ki, mənə icaza verin. Deyillər, buyur. Deyir:

Hamı xalq olunuf bir qətrə sudan,
Hər yetən gədəyə xan demək olmaz.
Yatmısan, qəflətdən təzədən oyan,
Nalayiq insana can demək olmaz.

Hamı bir-birinin üzünə baxır. İman götürür deyir ki,

Gün xoş keçsə, ömür başın tacıdı,
Taleh bəd gətirsə, bəxt qıyqacıdı.

Bu xörəyin zəhirmardan ajıdı,
Alışıf ləhsə də, yan demək olmaz.

İman qürbət eldə cannan usanır,
Müxənnəslər etdiyinnən utanır.
Bu xörəyinizi yesəm cəsədim yanır,
Namard surfasında nan yemək olmaz.

Belə deyəndə o saat bunlar başa düşür. Yeməyi yoxluyullar ki, yeməyə zəhər qatıf. Sadığı tutuf aparıllar. İman sazın da götürür, səhər yola salıllar, qayıdır. Gəlif çıxır Qazağa. Baxır ki, yaz vaxdıdı; hamı bəzənif altdan-yuxarı daşdanıllar. Yanaşır bir cavan oğlana deyir ki, camahat hara gedir? Toydu, bayramdı, nə işdi? Deyir, zalım oğlu, sən biri dura-dura iki saz şəlləmisən. Sən bilmirsən ki, böyün Sovet hökumətinin ən əziz bayramıdı. Biri may günüdü böyün. Deyir, bəs camahat. Deyir, camahat hamısı qluba gedir. Deyir, orda aşıq kimdi? Deyir, Göyçə mahalınnan Qaraqoyunnu kəndinnən Aşıx Əsəddi, Nəcəfdi, Məhəmmətdi. İki aydı Qazaxdadılar, camahat gündə onlara balet eliyir. Deyir, Allah sənə şükür, gəzdiyimi tapmışam. Məni apararsızmı o məclisə? Deyir, niyə aparmırıx. Bu dey, camahat altdan yuxarı qluba gedir. Sən də qoşul bu camahata.

Gedir qluba. Qlub doludu. Qapını açır, iki saz çiynində ayaxdan oturur. Pərdəni çəkillər, aşıxlar üçü də çıxır meydana. İman baxır ki, Əsəddi, qardaşdarıdı. O saat Əsədin gözü İmanı çalır. Bunlar oxuyur. Qlub müdiri çıxıf etiraz eliyir. Deyir ki, üç nəfər aşıxsız, burda bir saat oxuyursuz, biri may bayramına münasib bir şeir demədiniz. Mən sizdən narazı qaldım. Orda İman bir nəfərə deyir ki, qlub müdirinə deyin burda bir sənətkar oturuf, o deyir ki, mən biri may bayramına şeir deyərəm. Söz çatır, əlbəəl çağırıllar. İman sazın ikisin də götürür çıxır. Öz sazın söyküyür oraya, Sadığın sazın çıxardır. Baxıllar yazılıfdı Aşıx Sadıx. Ağsakqalın biri duruf deyir ki, cavan oğlan, axı bu saz Aşıq Sadığın sazıdı. Deyir, Aşıx Sadıx da mənnən gəlirdi. Yolda dedi filan kəddə işim var, ora dəyif gəlirəm. Mən də gözdədim, gəlif çıxmadı. Həvsələm

tutmadı, yola düşdüm gəldim. Hələ bu başdamamış Əsəd durur qlub müdirinnən icaza alır. Deyir, icaza ver mən sözümü deyim, sonra bu cavan aşıq oxuyar. Deyir, mən bilirəm ki, cavan oğlan mənim dalımca gəlifdi, Ələsgərin qardaşı oğlu İmandı. Bunu and vermişəm Sovet hökumətinin böyünkü əziz bayramına, biznən işi olmasın. Camahat hamısı xayiş eliyir, İman sazı götürür, deyir:

Geşt eylədim, dünyanı hərrəndim gəldim,
Murğ ruhum tutdu cövlan Qazağa.
Axtarırdım, tapım yaxşı, yamanı,
Gəldi mənim kimi oğlan Qazağa.

Elə bu şeiri deyəndə müəllimlər tələbələrnən dəstə tutuf girillər qluba.

Müəllimlər dəstəsi, tələbələr səsi,
Müəllimlər onlarnan tutufdu bəhsi.
Bu şövqə baxanın gəlir həvəsi,
Gör necə yaraşır dastan Qazağa.

Biri may günündə oldu bir parad,
Bu şövqə baxannar hamı qaldı mat.
Alsınnar nəzərə, qalmasın həsrət,
Növrəs İman gəldi loğman Qazağa.

Loğman Qazağa deyəndə qlub müdirinin qolunda qızıl saatı varmış, açır İmanın qoluna taxır. İman qalmır burda. Əsədgilnən barışdırıllar, düşür yola. Gejəymiş, bir balaca kənddi Tomaxlı kəndi, ordan keçmək istiyir. Bir nəfər deyir ki, aşıq qardaş, gəl bu gejəlik bizə qonağ ol. Elə bu da Allahdan istiyir, nabələd adamdı. Qayıdır orda qonaq qalır. Amma bunların kənd soveti başqa bir kəndə gedibmiş. Orda eşidir ki, Ələsgərin qardaşı oğlu gedif Tiflisdə Aşıq Sadığı bağlıyıf, sazın da əlinnən alıfdı.

İman gəlir Tomaxlıda qonax qalır. Camahat eşidir aşıq gəlif, yığılıllar başına. Bu da çoxdan çıxıf evdən, bir az da səsi çallaşıfdı. Elə başdıyır bir ağız oxuyur, iki ağız oxuyur. Camahat deyir, ə, bu

aşıq deyilmiş. Məclis dağılmaq isdiyir. Dağılanda sovet sədri özünü çatdırır ki, nədi, niyə dağılırsız? Deyillər ki, belə bir aşıq gəlifdi. Avaranın biridi, nə çala bilir, nə oxuya bilir. Deyir, ə, o Növrəs İmandı, Aşıq Sadığı bağlıyıfdı, ordan da Tiflisə gəlifdi, indi də buraya gəlifdi. Qayıdıf təzədən oturullar. Məclis qurulur. Orda İman deyir:

Layiq deyil sizə hədyan demağa,
Bircə ərzi-halım var, tomaxlılar.
Bu mərifətinizə insan demərəm,
Olsun sizin üçün ar, tomaxlılar.

Dilimi açaram hərcayı sözə,
Oğul gərək mənim həcvimə dözə.
Qərib idim, qonax gəlmişdim sizə,
Eylədiz dünyanı dar tomaxlılar.

Mərd iyitdər çörək verif ad alar,
Namərd süfrəsinin nə dadı olar.
Yazaram, bu sözdər dünyada qalar,
Olarsız aləmdə xar tomaxlılar.

Həmi dərd əhliyəm, bir növ cavanam,
Qanmıyan nə bilir yaxşı-yamanam.
Şahi-mərdan quluyam, Növrəs İmanam
Gəlməz ürəyimə bar tomaxlılar.

İman gejəni orda qalır. Səhər sovet sədri bir at təşkil eliyir. Deyir ki, İman, mən də yoxuydum, bunlar da tanımıyıb. Sənə göstərilən pis münasibətin qarşılığında mən bu atı sənə bağışlayıram. İman ordan ayax götürür, sağ-salamat gəlib Göyçə mahalına çıxır. Sağ olun, kefiniz kök olsun.

## 202. GƏLMƏDİN

Ağdamın Abdal Gülablı kəndində Həmaya xanım oluf. Onun əmisi oğlu olur İsa bəy. İsa bəy bir az topal olur. Həmaya xanımı verillər İsa bəyə. O vaxdı verillər ki, köç vaxdı olur. İsa bəy evlənənnən sonra bunu qızdırma xəstəliyi tutur. O vaxt da belə adət idi ki, yaylağa gərək hamı çıxardı. Yazıx bu Həmaya qəflə-qatır tutur. Camahat da kömək eliyir. Gedir yurtda çadırın qurur ki, əmoğlusu yaxşı oluf gələjək. Nəkqədər gözdüyür, İsa bəy gəlmir. Götürür ordan buna bir namə yazır. Deyir:

Əmoğlu, mənnən heç utanmadın,
Üç ay keşdi, bir yaylağa gəlmədin.
Yüz min cəfa ilə bir köç elədik
Köçdük düşdük Ağ bulağa, gəlmədin.

Mən səni istərdim hamıdan əziz,
Mən səni istərdim qul kimi kəniz,
Ətri can bəslədim hər güldən təmiz,
Bülbül oluf qoxlamağa gəlmədin.

Hər kəs öz yarıynan edəndə söhbət,
Onları görəndə çəkirəm həsrət.
Mən sənə neynədim, ay gedə xislət
Şamama dərməyə tağa gəlmədin.

Mənim adım Həmayadı, Həmaya,
Ləfzim bənzər həm ulduza, həm aya.
Bir sinə bəslədim bənzər humaya
Zalım oğlu, düz ilqara gəlmədin

## 203. LAÇINA

Kəlbəcərin mədəniyyət evindən bizi göndəriflər ki, gedin Şəmşiri gətirin, Laçına tədbirə gedəjeyix. Aşıx Qardaşxannan biz

getdik ki, Dədə Şəmşir yatır, xəstədi. Dedix ki, bəs sənnən ötəri gəlmişik. Dedi ki, gəlin əlinizi salın qoynuma. Belə əlimizi saldıx qoynuna ki, and olsun bizi yaradan Allaha, deyirsən ki, oddu, adamın əlini yandırır. Belə hərarət var bunun canında. Dedi, mənim əhvalımı görürsüz, gedə bilmiyəjəm. O qələm-dəftəri mana gətir. Bir şeir yazdı.

Nəbiyə səngərdi, Eldara yaylax,
Bu ad qalıb bir yadigar Laçına.
Kəpəz, Murov, Keyti, Lilpər, Çalbayır,
Bir torpaxdan axar, baxar Laçına.

Könlümüzün qəlbi bir vurur hamı,
Çöküf torpağına qüdrətin kamı.
Kəlbəcər xalqının qardaş salamı,
Unudulmaz, həmişə var Laçına.

İstisu əmirik ana südü tək,
Təmizdi bizdəki gül kimi ürək.
Aşıxlar əlində gətirib çiçək,
Dəlidağ veribdi, apar Laçına.

Qazanıb dünyada ləkəsiz bir ad,
Səs salıb dünyaya Həkəri, Bərgüşad.
Qarğa gəzə bilməz, sar çalmaz qanad,
Şahin, şahbaz, laçın qonar Laçına.

Çoxdan o yerlərin mən sorağında,
Gedəm məclis quram Turş bulağında.
Bu Aşıx Şəmşirin qoca çağında,
Qəlbi bir quş kimi uçar Laçına.

Dedi, bunu aparınız. İnanırsan, bir ay Laçının kənddərində gəzdıx. Hara gedirdıx, onu zakaz verirdilər.

## ŞAİR NƏBİ[70]



Nəbi Kərim oğlu Nəcəfov 1886-cı ildə Cavanşir qəzasının Milli kəndində (İndiki Kəlbəcər rayonunun Milli kəndində) ziyalı ailəsində anadan olub. Nəbinin atası Molla Kərim dövrünün savadlı və tərəqqipərvər adamlarından biri idi. Molla Kərim İranın Qum şəhərində 13 il dini təhsil almış, şəriyət elmi ilə yanaşı, fizika, riyaziyyat elmlərini, ərəb və fars dillərini yaxşı mənimsəmişdir. Molla Kərim Kəlbəcər şəhərində, eləcə də Zarda, Yanşaq kəndlərində müəllimlik etmiş, dini dərslərlə bərabər rus dilini də tədris etmişdir.

Şair Nəbi təhsilini atası Molla Kərimdən almış, ərəb, fars dillərini gözəl öyrənmişdir. 1920-1935-ci illərdə əvvəl Sınıq Kilsə sovetliyində, sonralar Kəlbəcər maarif şöbəsində, Kəlbəcər rayon milis şöbəsində katib işləmiş, həmçinin sığorta və tədarük idarələrində çalışmışdır.

Ömrünün son illərində hipertaniya xəstəliyinə tutulur və uzun sürən xəstəlikdən sonra 1969-cu il mayın 6-da vəfat etmişdir.

Nəbi şairliklə yanaşı bir çox sənətləri də gözəl bilirdi. Onun hazırladığı qəlyanlar rayonda əl-əl gəzirdi. Düzəltdiyi qəlyanların üstünə qəşəng naxışlar çəkər, tünd-qırmızı rəng alması üçün qaratikan kolunun kötüyü ilə onu boyuyardı. Mir Cəfər Bağırov 1947-ci ildə İstisuya gələndə Şair Nəbi öz xəttiynən yazdığı bir bazubəndi və özünün düzəltdiyi qəlyanı ona bağışlamışdı. Şairin oğlanları bu hadisəni belə nağıl eləyir: Atamın dediyinə görə, qəlyan çəkmək üçün Mir Cəfər Bağırov evin eyvanına çıxır. Şair Nəbi qoltuq cibindən qəlyanını çıxardanda Bağırov qəlyanı onun əlindən

---

[70] Şair Nəbinin kitaba daxil edilmiş şeirləri oğlu Novruz Nəcəfovdan yazıya alınmışdır.

alır. O üzünə, bu üzünə baxıb deyir, bunu hardan almısan? Nəbi qəlyanı özü düzəltdiyini danır. Deyir ki, bizim rayonda düzəldilib. İkinci dəfə Mir Cəfər Bağırovla görüşəndə özünün düzəltdiyi qəlyanı cibindən çıxardıb deyir, Cəfər müəllim, bunu sizə pay gətirmişəm. Bağırov xəbər alır ki, qəlyanı özün düzəltdiyini niyə o vaxdı demirdin? Deyir, ola bilər düzəldə bilməzdim, sözüm yalan çıxardı. Amma indi etiraf edirəm ki, mən düzəltmişəm.

Şair Nəbi həm də gözəl sazbənd idi və dövrünün bir çox məşhur aşıqları onun düzəltdiyi sazdan istifadə edirdi. Oğlanlarının dediyinə görə, bir dəfə Aşıq Şəmşir toya gedəndə at ürküb Şəmşiri yıxır, sazı da yerə çırpılıb paramparça olur. Şəmşir onun parçalarını torbaya yığır, oğlu Ələsgərə verir ki, bunu Nəbi qağaya çatdır. Evdə sazı olsa, onu götür gəl, denən düzəldə bilirsə mənim sazımı düzəltsin. Aşıq Şəmşir Şair Nəbinin sazıynan həmin gün məclisi yola salır. Məclis qurtarandan sonra sazın dalınca Şair Nəbigilə gəlir. Sazının divardan asıldığını görüb gözlərinə inanmır ki, o cür hissələrə bölünmüş sazı yapışqanla yapışdırıb əvvəlki görkəminə qaytarmaq olar.

Şair Nəbi müxtəlif janrlarda yazdığı şeirlərlə yanaşı dörd dastanın müəllifidir. Həmin dastanlardan biri "Dilsuz və Xəzəngül" dastanı beş cildik "Azərbaycan dastanları" kitabında çap olunmuşdur. Dastanın mövzusu şairin şəxsi həyatından götürülmüşdür. Palitbüro Ələkbər Abdullayev Kəlbəcərdə NKVD-yə rəhbərlik etdiyi vaxt Şair Nəbi də onun katibi işləyirdi. Onda Nəbinin Məşədi Salaxın qızı Xuraman xanıma aşiq olduğu vaxtlar idi. Ələkbər Abdullayev qızın atasını kulak adıyla sürgün eləyir və Xuraman xanımla evlənir. "Dilsuz və Xəzəngül" dastanı həmin nakam sevgiyə həsr olunur. Sonradan Şair Nəbi Xuraman xanımın adını öz nəvəsinə verməklə bu adı yaşadır. "Fizz və Məxluqa" dastanı da sevgi-məhəbbət mövzusunda yazılıb. Şairin digər iki dastanı isə itibdir. Onlardan biri avtobioqrafik dastandır və şairin şəxsi həyatından bəhs edir. Digər dastan isə "Dağların gül ətri" adlanırdı və Sovet quruculuğuna həsr olunmuşdur.

## BAXTIN OLMASA

İstəsən dünyanı sərbəst gəzəsən,
Düz yolun gəc olar, baxtın olmasa.
Xalqın dəhanına şəkər əzsən də,
Zəhər tək acı olar, baxtın olmasa.

Süleyman tək olsa şövkəti-şanın,
Harun kimi olsa dövləti varın,
Bir gün gələr sənin əhli əyalın,
Nana möhtac olar, baxtın olmasa.

Nəbi, mərd yolunda sərdən keçsən də,
Hatəm kimi geniş süfrə açsan da,
Dost boyuna ağır xələt biçsən də,
Qiymətsiz tuğ olar, baxtın olmasa.

## DÜŞƏNDƏ

A bimürvət, məni salma nəzərdən,
Bu pünhan dərdimi ara, düşəndə.
Təbibimsən, məlhəm eylə əlinlə,
Dərdindən sinəmə yara düşəndə.

Arif gərək hər mətləbi qanmağa,
Yaxşını, yamanı seçib sanmağa.
Pərvanə aşiqdir oda yanmağa,
İnciməz yansa da nara düşəndə.

Ağlı olan baxmaz hərcayı sözə,
Yaman söz hər zaman çəkilər üzə.
Gözəl ləkələnsə bənzər kağıza,
Ha pozsan silinməz qara düşəndə.

Dost gərək danışa dostun özüynən,
Hər sözü eşidə, görə gözüynən.
Vəfalı yar müxənnəsin sözüynən
İlqarından dönməz dara düşəndə.

Nəbi mərdi vəsf eyləyər dilində,
Şeyda bülbül xarı qoymaz gülündə.
Aşiq olan məşuqunun yolunda
Sərdən keçər namus-ara düşəndə.

## OLMAZ

Namərd ilən ülfət qılma dünyada,
Dar günündə sənə mədədkar olmaz.
Süfrə üstə laf eyləyər dost kimi,
Dosta piya olar, xoş əfkar olmaz.

Əhdinə gəc olar, düz olmaz sözü,
Dünyanın malından heç doymaz gözü.
Gözləməz hörməti, çörəyi, duzu,
Sirrin yada verər, vəfadar olmaz.

Şair Nəbi, ha gəz dayaz-dərini,
Sadiq dost taparsan yüzdə birini,
Axtarıb tap dostun vəfadarını,
Boş deyil bu dünya, sənə dar olmaz.

## OLA BİLMƏZ

Naşı bağban qulluq etsə bir bağa,
Yetişib həddində bağ ola bilməz.
Toplanılsa əgər həddən ziyada,
Heç bir vaxt küllükdən dağ ola bilməz.

Mərd igidlər qatarından üzülsə,
Taleyi bəd gəlib pərgar pozulsa,
Yaxşı ad axırda yaman yazılsa,
Müqəvvası gəzər, sağ ola bilməz.

Zəlil olar o kəs bəxti yatanda,
Dərd barkeş olub qəmə batanda,
Bir kimsə ki, davasız dərd tapanda,
Yüz təbib gəlsə də cağ ola bilməz.

Desələr dünyada namərd mərd olar,
Müxənnətə yaman sözlər dərd olar.
Söyləsələr əbləh meydan gərd olar,
Nəbi bu sözlərə ağ ola bilməz

## NƏ PİS OLARMIŞ

Baxtın tərəqqi edib, yüksəlsə işin,
Tənəzzül edəndə nə pis olarmış.
Əldə dövlət olsa, ucalar başın,
Var əldən gedəndə nə pis olarmış.

Varı olan çörək verər, ad alar,
Olmayanda dost-aşina yad olar.
Üstündə nanəcib, dılğır gədalar
Aslana dönəndə nə pis olarmış.

Əhli-bəsirətlər yaxşı bilərlər,
Alçağa, yoxsula müddəm gülərlər,
Dostlar salam verməz, ötüb gedərlər,
Gəc baxıb güləndə nə pis olarmış.

Qafil olma Nəbi, əl üzmə haqdan,
Qismət verən haqdır, küsənmə baxtdan.
Yaran, şərməsər etmə qonaqdan,
Qonaqdan şərməndə nə pis olarmış.

## OLMASA

Mərd igidlər qovğa günü xar olar,
Vətəni, arxası, eli olmasa.
Gen dünya başına müdəm dar olar,
Vətəni, arxası, eli olmasa.

Arxalının heç vaxt malın yeməzlər,
Arxasızın qonça gülün dərməzlər,
Salam verib nə də halın sormazlar,
Vətəni, arxası, eli olmasa.

Arxalı sayılar eldə, obada,
Arxasızlar heç vaxt düşməzlər yada,
Şah olsa da bir kəs, sayılar gəda,
Vətəni, arxası, eli olmasa.

Arxalının sözü heç yerə düşməz,
Arxasız qaynasa, hədindən aşmaz,
Hörməti tutulmaz, nə sözü keçməz,
Vətəni, arxası, eli olmasa.

Nəbi, sən də gəl arxalan xudaya,
Hər yerdə çağırsan yetər haraya,
Dar günündə ömrün gedər fənaya,
Qohumun, qardaşın, elin olmasa.

## GƏRƏK

Mən sizə söyləyim igid nişanın
İgidlərdə namus, qeyrət, ar gərək.
İmran dilli ola, gövhər kəlməli
Behbazarı, etibarı var gərək.

Hatəm kimi ola açıq süfrəli,
Həqiqət sözlərə söyləyə bəli.

Çalışıb razı edə özündən eli,
Hər babətdə ola bəxtəvər gərək.

Dosta şirin ola, düşmənə acı.
Hər nakəsə uyub verməyə bacı.
Cəhd edib olmaya düşmən möhtacı,
Dosta həmdəmilən bərabər gərək.

Mərdlərin körpüsündən keçməyə,
Beynamusun şərbətini içməyə,
Gördüyü sirlərin birin açmaya,
Saxlaya canında canı var gərək

İşi müdəm ola yaxşı sənətlər,
Pis ilə yaxşıya qoya qiymətlər,
Həqiqi dost ilə çəkə ləzzətlər,
Arada sərf ola dövlət-var gərək.

Eyib olmaya gərdişində, işində,
Əqli müddəm düzgün ola başında.
Nəbi deyər on dörd, on beş yaşında
Özünə bab bir növcavan yar gərək.

## BAŞINA DÖNDÜYÜM

Səndən ayrılalı üzüm gülmədi,
Məndə yoxdur can, başına döndüyüm.
Hicrin atəşinə bu cismim yandı,
Qəddim oldu dal, başına döndüyüm.

Axdı gözüm yaşı, döndü sellərə,
Leylasız Məcnuntək düşdüm çöllərə,
Bir qədəm bas, gəl bizim ellərə,
Gülşan olsun gül, başına döndüyüm.

Haçan girdim yar bağına gül dərdim,

Fəraqında qəddi nuna döndərdim.
Göz yaşımla namə yazıb göndərdim,
Sən də halım bil, başına döndüyüm.

Nəbiyəm, sevdadan odlara düşdüm,
Əl götürüb başı-canımdan keçdim.
Alışdım, tutuşdum, odlara düşdüm,
Yandım, oldum kül, başına döndüyüm.

## İNDİ

Təbib yoxdu, yaralarım sızıldar,
Məlhəm edə, bəlkə sağalam indi.
Bu pünhan dərdimi pünhan yazmağa
Nə kağız tapılır, nə qələm indi.

Yönüm düşdü bu yolların tərsinə,
Fələk yazdı mənim baxtım tərsinə.
Müştaq oldum namərdlərin tərsinə,
Bilmirəm ki, gedim, ya qalam indi.

Ürcah oldum yarın beilqarına,
Cəhd etdim, çatmadım bir kənarına.
Dərdli Nəbi, dayan eşqin narına,
Cismi atəşlərə de qala indi.

## OLMADI

Bir ildi yatıram tamam sərbəsər,
Davasız dərdimi bilən olmadı.
Can deyən qohumdan, can deyən dostdan,
Heç gəlib halımı soran olmadı.

Mənimlə oturub mənlə duranlar,
Məhəbbət bəsləyib məclis quranlar,

Dostluqdan bəhs edib, dəmlər vuranlar,
Çox çəkdim intizar, gələn olmadı.

Hər kəs sürür dövranını, dəmini.
Qardaş çəkmir qardaş dərdi-qəmini.
İmtahan eylədim dostun cəmini,
Canı yanan, qayda qalan olmadı.

Xəstə könlüm su tək axır hər yana,
Arayır dostları, seçir bir yana.
Dost yolunda deyim mərdi-mərdana,
Mənsim kimi möhkəm duran olmadı.

Nəbi, sən küsənmə dost-aşnadan,
İmdad istə kərəm kami-xudadan.
Nicat versə qurtararsan bəladan,
Ondan qeyri mətləb verən olmadı.

## DÖNDÜ, NƏ DÖNDÜ

Çərx dolandı, bəxtim tapdı tənəzzül,
Xoş günüm ah-vaya döndü, nə döndü.
Xudam kəsdi məndən nəzər, iltifat,
Gözüm yaşı çaya döndü, nə döndü.

Bu fani dünyada çox çəkdim cəfa,
Çox heyif ki, mən də görmədim səfa.
Dostlarım bəd oldu, yarım bivəfa
Yazıq ömrüm zata döndü nə döndü.

Gələcək nə yaman gəldi üzümə,
Qohum-qardaş bədəks oldu sözümə,
Dərd əlindən yuxu getməz gözümə,
Əlif qəddim yaya döndü nə döndü.

İşrətim dünyada oldu zəhrimar,
Qalmadı cismimdə namus, qeyrət, ar,
Tükəndi taqətim, əldən getdi var,
Əməyim bivaya döndü nə döndü.

Mənə həmdəmimdi bu telli sazım,
Dostlara yetişmir ünüm, avazım,
Qohuma dediyim nəsihət sözüm,
Eşidilməz haya döndü nə döndü.

Mən Nəbiyəm soran yoxdu əhvalım,
Müttəsir dolanar sər-sər xəyalım,
İdrakım, fikrim, əqli-kamalım,
Müxtəsərki suya döndü nə döndü.

### SİZİN OLSUN

Yaylağın seyrinə gedən gözəllər,
Süsənlər, sünbüllər, gül sizin olsun.
Bir dəyqə əylənin sizə sözüm var,
Yenə rəvan olun, yol sizin olsun.

Yaylağa gedirsiz siz vara-vara,
Saldınız cismimi atəşə, nara,
Hicran fərağında geyinnəm qara,
Bölənin yaşıla, al sizin olsun.

Tərlan ovlağında rəva deyil sar,
Yaxşılara qismət olsun yaxşı yar.
Müxtəsər, mən sizə ollam xidmətkar,
Layiqdi bu Nəbi, qul sizin olsun

### MƏNİ

Fələk səndən kimə qılım şikayət,
Etmisən sərgərdan, avara məni.

Sığışmaz kağıza etsəm hekayət,
Yandırdın atəşə, a nara məni.

Təbiblər, alimlər dərdim bilmədi,
Qəmli könlüm mətləb, murad almadı.
Gözüm yolda qaldı, həmdəm gəlmədi,
Necə həsrət qoydun o yara məni.

Nəbiyəm, qəm evi olub məskənim,
Nə halım soran var, nə də həmdəmim.
Ya yetir mətləbə, qurtarsın qəmim,
Ya öldür, qoysunlar məzara məni.

**DÜNYADA**

Mən sizə söyləyim, əziz yoldaşlar,
Yaxşılıq bir güldür solmaz dünyada.
Həqiqət sarsılmaz, möhkəm qaladır,
Ədaləti danmaq olmaz dünyada.

Çoxları aldanıb çərxi gərdişə,
Arzusuna həsrət qalıb həmişə.
Heç kəs bu dövranla getməyib başa,
Yəqindi bir kimsə qalmaz dünyada.

Mərd adam namərdə möhtac olanda,
Müşkülü həll olmaz, düşər kəməndə.
Möhkəm saxla əldə qabın dolanda,
Məsəldi tökülən dolmaz dünyada.

Nəbi, daha sözün yetir tamama,
Namərd sayəsində yetməzsən kama.
Dərdini söylə bir dərdimənd adama,
Naəhli qaydına qalmaz dünyada.

## AYRIM ƏHMƏD[71]



Nəbiyev Əhməd Abbas oğlu 1905-ci ildə Kəlbəcər rayonunun Seyidlər kəndində anadan olub. Atası Abbas arıçılıqla məşğul olduğundan kənd arasında Ağbal Abbas adıyla tanınırdı. Ailənin üçüncü oğul övladı olan Əhməd kiçik vaxtlarından çobançılıq edir. Bir gün quzu otaranda çobanlar Əhmədin çubuqla yerə Quranca yazı yazdığını görüb onun bu istedadı haqqında ailəsinə xəbər verirlər. Ondan sonra valideynləri onu Güney pəyəyə babası Molla Əlvəndin yanına aparırlar. Əhməd iki il onun yanında dini təhsili alır. Növrəs İman Seyidlər kəndində sovet sədri olduğu vaxt onun katibi işləyir. Sonralar üstünə şər atılır, kolxozun malını dağıtmaqda günahlandırılıb həbs edilir. Bir müddət Mingəçevirdə həbsxanada qaldıqdan sonra yenidən azadlığa çıxır. Şairlikdən əlavə, həm də mollalıq edib, nehrə düzəldib. 1982-ci ildə dünyasını dəyişir və Seyidlər kəndinin qəbirstanlığında dəfn olunub.

Şairin əlyazmaları günümüzə gəlib çatmamışdır. Nəvələrinin dediyinə görə, şairin sarı qənd meşoğu ilə bir əyazmaları vardı və evin damında saxlanırdı. Kəlbəcərin işğalı vaxtı həmin əlyazmaları orda çıxartmaq mümkün olmur. Şairin əldə olan şeirləri sonralar övladları, qohumları tərəfindən Yanşaqlı Zümrüddən, Cahangir, Bəhrəm, Musa adlı yaşlı adamların dilindən toplanmışdır. İrsi vaxtında toplanıb çap olunmadığında bir çox şeirləri Məzahir Daşqının, Kürdəmirli Əhmədin adına söylənilir. Şarin bədii irsindən şeirlərdən əlavə Növrəs İmanla, Şair Əbülfətlə deyişmələri, bir dodaqdəyməzi və divanisi qalıb.

---

[71] Ayrımlı Əhmədin kitaba daxil edilmiş şeirləri Əfqan Əliyevdən və şairin qardaşı oğlu Azay Nəbiyevdən yazıya alınmışdır.

## NƏ MƏNASI VAR

Taleh tərəqqidən salsa insanı,
Atılıb düşməyin nə mənası var?
Bir bulaq ki lap gözündən qurusun,
Yüz yerdən eşməyin nə mənası var?

Yüz cürə naxış vur, min cürə bəzək
Sabah köhnələcək bugünkü təzə.
Fələyin hökmü ilə tutulan gözə
Qızıldan çeşməyin nə mənası var?

Əhməd, gəl eşid el misalın sən də,
Yük əyilər daş qürbətə düşəndə.
Zərdə şeş istəyib yek gətirəndə
Qovrulub bişməyin nə mənası var?

## AY ATA MİNDİ

Cocuq tək qayğısız yatan çağımda
Qoymadın yetişəm, ay ata mindi.
Nə qədər qaçdımsa çatam dalından,
Qəza qədərləşdi, ay ata mindi.

Kəm talehim kim tərəfdən yad olub,
Qazan daşıb, ya qaynayıb, ya dolub.
Dost üz döndərib, qohum yad olub,
Çatmır harayıma ay atam indi.

Əhmədəm, yazıram çarxı əlimə,
Almadım qılıncı, çarxı əlimə.
Keçəydi bu fələyin çarxı əlimə,
Qoparıb yerindən ay atam indi.

**NƏ PİS OLARMIŞ**

İnsanın gedəndə huşu başından,
Ağılı səyləşəndə nə pis olarmış.
Tərlan tək göylərə uçan talehim
Yorğun əyləşəndə nə pis olarmış.

Sənətli sənətdə çıxsa taxtına,
Hər şey ilahidən gəlsin nıxtına,
Açıq talehimə, küsmüş baxtıma,
Düyün düylənəndə nə pis olarmış.

Namussuz bir kişi dəyməz qadına,
Çoxlarını aldadıb salır oduna.
Kişinin dalınca böhtan atanda
Yalan söylənəndə nə pis olarmış.

Özünə münasib gəz bir bəşərlə,
Şah da olsan, düz əyləş naib-nökərlə.
Təhqirli məzəmmət, böhtanlıq şərnən
Dost gileylənəndə nə pis olarmış.

İnsan oğlu, dünyanı gəz vaxtında,
Ruh verib cisminə məzə vaxtında,
Hər şey gözəldi təzə vaxtında,
Qalıb köhnələndə nə pis olarmış.

Kişinin olmasa bir mərd atası,
Yüz də cəhd eyləsə olmaz binası.
İstər Hatəm olsa getməz səxası,
Namərd bəyləşəndə nə pis olarmış.

Ayrım Əhmədəm, besavad kimi,
Sözlərim dolaşıq zarafat kimi,

İnsan kölgəsindən həfkir at kimi,
Ürküb küylənəndə nə pis olarmış.

## YAŞAYIB DOLANMAQ OLMUR

Hələ başa düşmür mənim təkisi,
Barsız da yaşayıb dolanmaq olmur.
Vurmuşam özümü mən cünunluğa,
Arsız da yaşayıb dolanmaq olmur.

Qocalıq üz verib, qəddimi əyir,
Namərd xoryatlar qəlbimə dəyir.
Ona gücüm düşmür, başıma döyür,
Zorsuz da yaşayıb dolanmaq olmur.

Uşaq oynuyanda qəlbimi açır,
Deyib-güləndə könlümü açır.
Döyüb dalaşıram, arvad da qaçır,
Yarsız da yaşayıb dolanmaq olmur.

Sən sevmiyənin mehmanı olma,
Nə də ara vuran şeytanı olma.
Namərd baxçasının bağbanı olma,
Barsız da yaşayıb dolanmaq olmur.

Əhməd, az gülərsən arın olmasa,
Nə satarsan xridarın olmasa.
Bir yandan gəlirin, varın olmasa,
Karsız da yaşayıb dolanmaq olmur.

## VAR

Vəfasız dünyadan küsüb gedirəm,
Bilmirəm xeyirim, ziyanımmı var?

Kimsəsiz bəşərəm, yoxdu bir kəsim,
Yolumda canına qıyanımmı var?

Düşmüşəm atəşə, yanıram nara,
Fələk də oxunu atıb dübarə.
Talehim də məndən qaçır kənara,
Vurucu ilanım, çayanımmı var?

Kimdi söz danışan Əhməd əvəzdən,
Fələk qurğu qurub, pozarmı təzdən?
Çıxmışam yadlardan, düşmüşəm gözdən,
Məni cərgələrdə sayanımmı var?

## AĞLAMA

Yaman günün ömrü azdı deyirlər,
Sürüb karvanını keçər, ağlama.
Qisas qiyamətə qalmaz dünyada,
Hər kəs əkdiyini biçər, ağlama.

Necə olub çingizlər, pərvizlər, xanlar?
Onların qoyduğu qanun-nizamlar?
Zülmət sarayında xoflanan şamlar,
Bir gün ədalətnən keçər, ağlama.

Heç olarmı Əhməd kimi ağlayan,
Coşqun çaylar kimi çoşub çağlayan,
Zülmət qıfı ilə qapı bağlayan,
Nüsrət açarı ilə açar, ağlama.

## YAZIRAM

Abbas babamın Molla dərəsində tövləsi olub. Əhməd əmi o tövlədə malın yanında qalır. Qar o qədər bərk yağır ki, kəndlə əlaqə kəsilir, kəndə qayıtmağa imkan olmur. Orda belə bir şeir yazır:

Ərənlər mövlası, qul pənahına,
Sığınmışam o sübhana, yazıram.
Yovuncu-yovuncu şahlar şahına,
Naləm çıxıb Alosmana yazıram.

Söyüdlü qobunun göy yaylaqları,
Çəpli yurdundan axan buz bulaqları,
Salmışam yadıma keçən vaxtları,
Od tutmuşam, yana-yana yazıram.

Getdi əldən ixtiyarım, kəsildi.
Dost-qohumdan etibarım kəsildi.
Meyvəsiz baxçayam, barım kəsildi,
Sözlərimi mən əfsanə yazıram.

Qəlp çıxdı dostlarım, gəlmədi kara.
Əhmədəm, mən hara, ayrılıq hara.
Məcnun tək salıbdı viran dağlara,
Nə bir dosta, mehribana yazıram.

## İNSAN

Səni də tapacaq axır əvvəli,
Eyləmə böhtan, nə şər, ay insan.
İxtiyar əlində kim çatdı başa,
Eləmirmi sənə əsər, ay insan.

İşrət oyuncaqdı, çoxdu əməllər,
Sənə dar gələcək səhralar, çöllər.
Solduran gülləri xəzanlı yellər
Eləcə də sənə əsər, ay insan.

Ayrım Əhməd deyər sən ehtiyatdan
Xeyli kənar dolan fitnə-fəsaddan.

Ənşəri-mənşərsiz puri-siratdan,
Nə ayaq geçəcək, nə əl, ay insan.

## İNSANIN

Qalmayacaq, yuvasından uçub gedəcək,
Sanki bir təşbehi quşdu insanın.
Kim bilir başına nələr gələcək,
Axırda əməyi puçdu insanın.

Kimi ətlas geyir, əlvan libası,
Kiminin cırıqdı çulu-çuxası.
Kiminin virandı yurdu-yuvası,
Axirətdə əli boşdu insanın.

Mənə rast gəlibdi belə bir sayı,
Məcbursan namərdə sən yıxıl, əyil.
İşrət heç kimsəyə qalan şey deyil,
Görərsən əlindən uçdu insanın.

Əhmədəm, qəmlərim həddən ziyada,
Yoruldu səməndim, qaldım piyada.
Yaxşılıq yaxşıdı sənə dünyada,
Namərdlik boynuna suçdu insanın.

## GETDİ

Nə qədər ki tacir gəldi cahana,
Axır dedilər xanimanın mələsi getdi.
Köç etdi dünyadan mülki-Süleyman,
Dedilər şeytanın fəhləsi getdi.

Şöhrətli görünür baxça barınan,
İnsana xoş gəlir dünya varınan,

Keçirdim günümü ahu-zarınan,
Kor oldu, gözlərimin şöləsi getdi.

Hicran aşiqiydim, ha düçar oldum,
Əl verib dünyada bəxtiyar oldum.
Əhmədəm, nə vaxt səhlənkar oldum,
Tay-tuşlarımın məndən zəhləsi getdi.

## DEYƏN OLSUN

A dostlar, qocalıb haldan düşmüşəm,
Lazımdı bir məni gözləyən olsun.
Evlad yola gəlmir, arvad bəyənmir,
İstərsə sözümə düz deyən olsun.

Gülərlər insana o qocalanda,
Fəhmi, fərasəti, huşu azalanda.
Onlar sözbir olub mən tək qalanda
Deyərəm qağa, siz deyən olsun.

Ayrım Əhməd, batma dərdə, qəmlərə,
Dürdanə çürüməz düşsə nəmlərə.
Bivec, fərasətsiz, ağlı kəmlərə,
Nəsihət kar etməz yüz deyən olsa.

## DEMƏDİM

Dedim dost yolunda qurbandı canım,
Vədə də demədim, vaxt da demədim.
Gəlib gedənlərə bələdçi oldum,
Doğru yol göstərdim, saxta demədim.

Sir verməyə öz sirdaşın lazımdı,
Fəhmin, fərasətin, huşun lazımdı,

Dedilər dostuna başın lazımdı,
Olmaz da deмədim, yox da demədim.

Çoxlarını özümə dost eylədim,
Həqiqi dost seçib sirdaş eylədim,
Varımı onlara peşkəş eylədim,
Qiymət də demədim, hak da demədim.

Dostum, dünya olub hədələr kimi,
Gön yaralar kimi, zədələr kimi.
Saxasız, çörəksiz gedələr kimi,
Pay verib başıma qax da demədim.

Meylimi salmışdım bir dosta yenə,
Uymuşdum felinə mən dönə-dönə.
Anatək qucaqla, layla de mənə
İncit də demədim, sıx da demədim.

Qara saçlarımı sən ağ eyləmə,
Bunu da sinəmə bir dağ eyləmə,
Qocaldıb Əhmədi lağ-lağ eyləmə,
Yandırıb odlara yax da demədim.

## DAĞLARA

Hamı köçüb binələrə. Əhməd kişi o vaxt gəlib çatır ki, hamı köçüb, yoldaşı tək qalıb. Götürüb orda yazır ki,

Keçib ömrüm kimi yay da qutardı,
Vədəsiz düşübdü yönüm dağlara.
Gedərgi qonağam, qala bilmərəm,
Bircə gecə mehman olum dağlara.

Yaz vaxtı olanda novbahar olur,
Yay vaxtı olanda çəmən-zar olur,
Payız yetişəndə boran-qar olur,
Nə dedim bozardı zalım dağlara.

Əhməd, çox çalışma, qalmaz haqqı-say,
Kef çəkib axıracan kim olubdu bay.
İtdi cavanlığım, getdi ay haray,
Qoy ah-naləmi salım dağlara.

## HEY YANAR-YANAR

Nadanlıq eyləyib dost küsdü məndən
Yandırar cismimi, hey yanar-yanar.
        Mən aşiqəm hey yanar,
        Piltə şamda hey yanar.
        Namərd dosta sirr verdim
        Bağrım başı hey yanar.
Bevəfa dost elədiyi səhvləri
Sonradan düşünər, hey yanar-yanar.

İnsan gərək dost qəlbinə dəyməsin,
Dost da gərək dost qəlbinə dəyməsin.
        Mən aşiqəm dəyməsin,
        Hicran qəlbə dəyməsin.
        Qoy namərdin yüzü ölsün
        Dostlarıma dəyməsin.
Bir kişiyə haqdan bəla dəyməsin,
Sönməz çıraqları, hey yanar-yanar.

Ayrım Əhməd dost yolunda qalandı,
Məhəbbətlər ürəklərdə qalandı.
        Mən aşiqəm qalandı,
        Dünya kimə qalandı.

İnsan oğlu, yaxşılıq et
O da sənə qalandı.
Çoxları var yığdı, oda qalandı,
Yemədi malını, hey yanar-yanar.

## DÜŞDÜ, NƏ DÜŞDÜ

Nəsihətli sözləri yeri gələndə
Atalar yadıma düşdü, nə düşdü.
Bir zaman gəzdiyim mehriban ellər,
Obalar yadıma düşdü, nə düşdü.

Gün kimi, ay kimi işıqlı şamlar,
Günəşli gündüzə dönən axşamlar,
Qəlbim sizə qarşı yazır salamlar,
Duvalar yadıma düşdü, nə düşdü.

Gözəllər Əhməddən uzaqlaşdılar,
Ürküşüb görəsən hara qaçdılar?
Göllərdə çırpışan yaşılbaşlar,
Sonalar yadıma düşdü, nə düşdü.

## DƏYMƏZ

Talehsiz insanlar quru ağacdı
Qaçıb kölgəsində durmağa dəyməz.
Yaltağın, nadanın ikiüzlünün yolunda
Heyifdi canını yormağa dəyməz.

Göy söyüdə calaq vursan almanı
Söyüd yarpağına çevrilər tamı.
Gədəni eyləsən dünya sultanı,
Taxtına min bəzək vurmağa dəyməz.

Əhməd, tap insanı, insanla dost ol,
Bağ olub bar verməz hər tikanlı kol.
Qızıldan bədənə qondarılan qol
Sınıb əyri bitən barmağa dəyməz.

## XOŞ ZAMANDAYAM

Şair Mehdixan, Ələmdar Geştəhli, Şücayət Şair Əhmədnən rastlaşırlar. Deyirlər, Əhməd əmi, bizə qonaq ol. Deyir, yox, bala. Deyir, bə neyniyək, sənlə deyişmək istiyirik, sənin yükünü yoxlamaq istiyirik. Deyir, onda gəlin bizim kəndə. Deyirlər, yox Əhməd əmi, sən allah, bizi ora aparma. Gəl qastinsiyada yer alax, yeməyi də gətirək ora, səhərətən deyişək. Hərəsi cavanlıqdan bir şeir deyir. Əhməd əmi də demək istəyəndə deyirlər, sən qocalıbsan, sən neynirsən gözəli, zadı. Onda yazır ki:

Dünya məni tutub, mən də dünyanı,
Bir şirin həvəsdə, canhacandayam.
Zərrəcə gözümə görünmür ölüm,
Səfalı işrətdə, xoş zamandayam.

Yaşım çox olsa da, qocalmamışam,
Düz ilqar yolunda külüng çalmışam.
Əzəldən elimdən ilham almışam,
İndi xoş gündə, firavandayam.

Nə olsun qocalıb Nuhu görmüşəm,
İlqarıma təzə vüsal vermişəm.
On yeddi yaşında bir qız sevmişəm,
Ölürəm dərdindən, əl amandayam.

Ayrımlı Əhmədəm, başı bəlalı,
Ah-naləm yandırar eli, mahalı.
Tamam yüz yaşında, Məcnun sevdalı,
Xalqım özü görür nə gümandayam.

## ƏLÖVSƏT SALDAŞ



Məmmədov Əlövsət Sarı oğlu 1957-ci ildə Kəlbəcər rayonunun Çərəkdar kəndində anadan olub. Orta təhsilini Çərəkdar və Aşağı Qılınclı kəndlərində alıb. 1978-ci ildə Xankəndi Pedaqoji Universitetinin Riyaziyyat fakültəsini bitirdikdən sonra təyinatla Nadirxanlı kəndinə müəllim göndərilir. Kəlbəcərin işğalına qədər həmin kənddə fizika-riyaziyyat müəllimi işləyir. Hazırda Qobustan rayonunun Təhlə kəndində məskunlaşıb. "Məni unutmağa tələsmə hələ", "Çətindir bu yurdun şairi olmaq" (2009) kitablarının müəllifidir. Kitaba müəllifin, əsasən, indiyə qədər çap olunmamış yeni şeirləri daxil edilmişdir.

### SÖYÜD[72]

Allah bu məkanı yaddan çıxarıb,
Necə yaşayırsan bu yerdə, söyüd?
İnsan gücü yetməz, fələk gərəkdi,
Sənə nəfəs verib göyərdə, söyüd.

---

[72] Bakıdan Qobustana gedəndə yolun sol tərəfində yağış sularının yığıldığı noxur var, noxurun qırağında da söyüd ağac bitib. Qobustan çölü, susuz yer, ətrafda həmin söyüddən başqa ağac yoxdur. Bu hadisə şairin diqqətini cəlb edir. Sonradan öyrənir ki, həmin söyüdü ora əkiblər. Əvvəl üç ağac olub, ikisini sındırıblar, biri qalıb. Noxur quruyanda həmin ağac da yanır, noxura su gələndə bir az göyərir. "Söyüd" şeiri bu hadisə ilə əlaqədar yaranır.

Sənin ki məkanın çay kənarıdı,
Saçağın sallanıb suda yuyuna.
Yalqızlardı dünyanın ən fağırı,
Çoxmu darıxırsan, qurban boyuna?

Yaşıl möcüzəsən bu boz səhrada,
Bilirəm boy atmaq, bitmək çətindir.
Yaxşı ki səhv düşüb yerin dünyada,
Minlərin içində itmək çətindir.

Bəs niyə quruyub qolun-qanadın?
Çatışmır havanmı, suyunmu, söylə?
Yaşamaq uğrunda bu tərs inadın
Müthiş taleyinlə oyunmu, söylə?

Sən qərib, mən qərib, elə bənzərik.
Bəlkə bir ev tikim gəlim yanında?
Çətin ağrılara birgə dözərik,
Bir doğmalıq olur qərib qanında.

Burda sərçə yoxdu, bülbül oxumaz,
Budağın həsrətdi quş yuvasına.
Çiçək çiçək olub ətir qoxumaz,
Dörd yanın qərq olub qış yuxusuna.

Ay səhra gözəli, bəxtəvər söyüd,
Tənha yaşamaq da çətin peşədir.
Barı heç olmasa pöhrələr böyüt,
Bir də gəlim görüm yanın meşədir.

Çəkdi dincliyimi yenə duyğular,
Bilmirəm hardayam, yernən göy nədir.
Uyumur gözümdə daha uyğular,
Sənin bu təkliyin məni göynədir.

## PAPAQNAMƏ[73]

Müqəddəs yaşayıb bizim babalar,
Tutublar qeyrətnən qoşa papağı.
Papağın bahası, ucuzu olmaz,
Uyğun seçibdilər yaşa papağı.

Çəkinir uşaqdan, qorxur arvaddan,
İndi nə umasan evi bərbaddan?
Kişi tanıyıram salıb urvatdan,
Salamat qalmasın qışa papağı.

Tanıda bilmədik qurdu, quzunu,
Bəs necə əridək bunun buzunu?
Kişi tanıyıram ömrü uzunu
Günə yandırıbdı boşa papağı.

İşin əyiləndə, düz gələndə də,
Bəla yan keçəndə döz, gələndə də.
Hörmətin uca tut köhnələndə də,
Hörmətdən salarsan haşa, papağı.

Qazanlar qaynayıb qapağın altda,
Gör kimlər uyuyur torpağın altda.

---

[73] Şairini dediyinə görə, kolanının ağsaqqalı Məşədi Məhəmməd bir gün başının dəstəsiylə qonşu kəndə toya gedir. Meşədən keçəndə buxarı papaq məşədinin başından düşür yerə. Cavanlardan biri tez atdan sıcrıyır ki, papağı yerdən götürsün. Məşədi deyir, sən dəymə, özüm götürərəm. Düşür atdan. Çəkmənin boğazından qamçını çəkir, başlayır papağı çırpmağa. Tozlu yer, vurduqca papaqdan toz qalxır. Deyirlər, əşi, papağı niyə çırpırsan? Deyir, a kişilər, mənim bədənimdə başdan yuxarı yer var? Deyirlər, yox. Deyir, bu azmış kimi çıxıb atın üstündə oturmuşam ki, onun yeri bir az da hündür olsun. Ona dərs verirəm. Deyirəm ki, səni yuxarı qoymuşam, orda dur. Atın ayağının altında, tozun içində nə işin var. "Papaqnamə" şeirinin mövzusu burdan doğur.

Hər kim gizlənibsə papağın altda,
Dönsünmü başında daşa papağı?

Anlamaz dərdimi naşı olanlar,
Ağlasın halıma yaşı olanlar.
Dara çəkilməli başı olanlar,
Gəzdirir ki, gəlsin xoşa papağı.

Kişi tanıyıram köksü doludu,
Getdiyi hak yolu, iman yoludu.
Kişi tanıyıram qarınquludu,
Dəyişə doyumluq aşa papağı.

Kişi var çatıbdı ahıl yaşına,
Qar yağıbdı saçına, enib qaşına.
Çəpərdə keçirib oyuğ başına,
Hərdən salva atır quşa papağı.

Oyatmaq çətindi vicdan yatırsa,
Batsın o kimsə ki adı batırsa.
Kimin gəzdirməyə haqqı çatırsa,
Endirsin gözü üstə qaşa papağı.

Müqəddəs and yerin, dayağın kimi,
Əyilmə, enməsin bayrağın kimi.
Qoru vətən kimi, torpağın kimi,
Yaşat adın kimi, yaşat papağı.

Əlövsət, lap yolun uzaqlıq olsun.
Yerin isti olsun, sazaqlıq olsun.
Çalış ki, əməlin papaqlıq olsun,
Əgər qoymusansa başa papağı.

## BİLMİRƏM

Bu həsrət haradan düşdü araya,
Bilmək istəyirəm, bilə bilmirəm.
Yolların o qədər uzaq olub ki,
Gəlmək istəyirəm, gələ bilmirəm.

Gücüm qalmayıb ki, döyəm dərdimi.
Sındıram bir yolluq, əyəm dərdimi.
Əhli-hal gəzirəm deyəm dərdimi,
Bölmək istiyirəm, bölə bilmirəm.

Oxşamır çəmənlər, bağlar gözümü.
Çəkmir zirvəsinə dağlar gözümü.
Əlim sözə baxmır, ağlar gözümü
Silmək istəyirəm, silə bilmirəm.

Doyurmaq çətindi sevgi acını,
Ümidim yol üstə yolur saçını,
Qovub ürəyimdən ağrı-acını
Gülmək istəyirəm, gülə bilmirəm.

Etmədi Əlövsət, bəxtiyar məni,
İntizar içində qoydu yar məni.
Yorubdu bu çətin ruzigar məni,
Ölmək istəyirəm, ölə bilmirəm.

## GƏZİRƏM

Ay ağalar, bir itiyə düşmüşəm,
"Əlim çatmır ələ" – deyib gəzirəm.
Mən bu yolda olanımdan keçmişəm,
"Zülüm olmaz belə" – deyib gəzirəm.

Öz əlimlə düşər oldu öz daşım,
Di indi gəl bu ağrıya döz, başım.
Leysan kimi yuyur məni göz yaşım,
“Qərq olmuşam selə” – deyib gəzirəm.

Çox gözlədim, gətirmədi dəm dəmi.
Küsdü könlüm, üstələdi qəm dəmi.
Yandı canım, yetişmədi həmdəmi,
Dərdlərimi telə deyib gəzirəm.

Şum şumladım, toxum əkdim, bitmədi.
Nəs ömrün xəzan fəsli ötmədi.
Taleyimdən umduqlarım yetmədi,
“Ümidim var hələ” – deyib gəzirəm.

Ulu tanrım, hər sınağa çək məni,
Unluq elə, dəyirmana tök məni.
Ərzurumda boran tutub tək məni,
Əlövsətəm, lələ deyib gəzirəm.

## VERİR

Dərmanım tapılmır, ağır xəstəyəm,
Köhnə yaralarım hələ qan verir.
Mən diri şəhidəm, ayaq üstəyəm,
Vətənsiz ölənlər necə can verir?

Əlim ki bir qaşıq aşına çatır,
Başım tez fələyin daşına çatır,
Gücüm gözlərimin yaşına çatır,
Ürəyim dözümdən imtahan verir.

Döyür qapımızı qəhər o başdan,
İçirdir doyunca zəhər o başdan,

Oyadar yuxudan səhər o başdan,
Dərddərim xoruznan birgə ban verir.

Cəlladım müntəzir, əldə kiriş var.
Vaxtsız bir ölümlə vaxtsız görüş var.
Bir haqsız divanda bir çətin iş var,
Fağırın fərmanın qudurğan verir.

Vədə küləkləri əsdi, Əlövsət.
Bəllidi zamanın qəsdi, Əlövsət.
Çalışdın, vuruşdun, bəsdi, Əlövsət.
Sahilə tələs ki, gəmi yan verir.

**MƏNİM**

Ürəyim də düzdü, qəddim də düzdü,
Əyilməklik yoxdu şəstimdə mənim.
Halal yaşayıram, halal qalardım,
İmkanım olsaydı dəstimdə mənim.

Ötən aşiqləri bir-bir anıram,
Aşıqlər mələkdi, belə sanıram.
Mən elə aşiqəm, elə yanıram,
Nəsillər isinər istimdə mənim.

Qışda od nəfəsli, yayda sazağam,
Belə qərar qoyub mənə öz ağam.
Mən sözdən hallıyam, meydən uzağam,
Nöqsan axtarmayın məstimdə mənim.

Əlim gətirmədi, zəri qoşadım,
Bu mənim daş bəxtim, bu da daş adım.
Mən şəhid olmadım, şəhid yaşadım,
Şəhidlik sonu var qəsdimdə mənim.

Atdın mənə tərəf daşı, bilmədi.
Min bəla çəkəcək başı, bilmədi.
Anlatdım, Ələvsət, naşı bilmədi,
Haqqın nəzəri var üstümdə mənim.

## LAY-LAY

O şirin ləhcələr, kəlmələr itir,
Sehrli naxışlar, ilmələr itir.
İtir o müqəddəs nəğmələr itir,
İndiki analar lay-lay demirlər.

Niyə biz bu qədər başqalaşırıq,
Kökümüzdən qopub uzaqlaşırıq?
Vallah, tükənirik, sısqalaşırıq,
İndiki analar lay-lay demirlər.

Ruhumuz qocalır, yaşlaşır belə,
Dönür baxışımız, çaşlaşır belə.
Soyuyur qəlbimiz, daşlaşır belə,
İndiki analar lay-lay demirlər.

Yadıma salıram ötən dəmləri,
Nənə-babaları, bir də kimləri.
Sınıb könlümüzün sarı simləri,
İndiki analar lay-lay demirlər.

Nə corab, nə də ki halı toxuyur,
Onunçün bu mühit zəhər qoxuyur.
İndiki analar bəs nə oxuyur?
İndiki analar lay-lay demirlər.

## SAZBƏND SÜLEYMAN



Süleymanov Süleyman Mehralı oğlu 1946-cı ildə Kəlbəcər rayonunun Ağcakənd kəndində sənətkar ailəsində anadan olub. Atası Mehralı kişi qeyri-adi istedada malik şəxs idi. Dəlləklik, dərzilik, sazbəndlik, türkəçarəlik kimi bir çox sənətləri bilməklə yanaşı, həm də gözəl nağıl ustası idi. Uzun qış gecələrində kəndin camaatı Mehralı kişinin evinə toplaşar, onun maraqlı söhbətlərinə qulaq asardılar. Təəssüflər olsun ki, övladları onun söylədiyi "Qabaq Abdulxan ağa", "Gecə çırağı", "Ağtüləyin nağılı" kimi bir çox maraqlı nağılların yalnız qısa məzmununu xatırlaya bilirlər.

Süleyman Mehralı kişinin ikinci oğludur. İncəsənətə, şeirə maraq ona atasından keçmişdir. Hərbi xidmətdə olduğu zaman hərbi hissədə bədii özfəaliyyət kollektivi yaradıb maraqlı səhnələr təşkil etməklə özünün sənətə bağlılığını bir daha göstərmişdir. Əsgərliyini başa vurduqdan sonra Ağcakənd kəndində mədəniyyət evinin müdiri təyin olunur və bu gün də həmin vəzifəni icra edir.

Kilimarası, Maral oyunlarını yaşadıb bu günkü günə çatdırılmasında onun böyük xidmətləri olmuşdur. Ona qədər atası Mehralı kişi bu sənəti yaşatmış, həm Ağcakənddə, həm də qonşu kəndlərdə toylarda həmin oyunları nümayiş etdirmişdir. Mehralı kişi yaşlaşandan sonra həmin sənəti davam etdirməyi oğlu Süleymana vəsiyyət edir. Məhz onun sayəsində vaxtilə Azərbaycanın müxtəlif bölgələrində oynanılan kilimarası, maral oyunu bu gün ancaq Ağcakənddə qorunub saxlanılır. O, bu oyunları yaşatmaqla yanaşı, onları təkmilləşdirmiş, həmin oyunları yaşadacaq yeni nəsil yetişdirmişdir.

Süleyman müxtəlif janrlarda yazılan bir çox şeirlərin, "Sazbənd Süleymanın Yevlax səfəri" adlı yığcam bir dastanın müəllifidir.

## QALDI

Sərin sulu bulaqların
Çeşməsində gözüm qaldı.
Əl çirkidi dünya varı,
Yal-yamacda izim qaldı.

Cənnət misal göy meşələr,
Boynu bükük bənövşələr,
Anasından ayrı mələr
Körpə əmlik quzum qaldı.

Həsrət gördüm bu bahardan,
Əl çəkdim dövlətdən, vardan,
Qurtara bilmədim dardan,
Zil-bəm köklü sazım qaldı.

Qar bürümüş çölün, düzün,
Külə dönmüş odun, közün.
Cücərməmiş tər yarpızsız
Açılmamış yazım qaldı.

Süleymanam, varım getdi,
Vətən getdi, arım getdi,
Baxçam getdi, barım getdi,
Mənə təkcə dözüm qaldı.

## SAZIM

Sızlayırsan qəmli-qəmli,
Ərşə qalxıb nalən, sazım.
Niyə belə pərişansan,
Qərib-qərib çalan sazım?

Hanı çəmənin, çiçəyin,
Soldu gözəlin, göyçəyin.
Ağsaqqalın, ağbirçəyin
Yad ellərdə ölən sazım.

Zümzüməli dağ çaylısan,
Aranlısan, yaylağlısan,
Dədə Şəmşir soraqlısan,
Yurdda tənha qalan sazım.

Pərdələrdə dilə gələr,
Alı-Ələsgərli günlər.
Sən gördüyün toy-düyünlər
İndi olub yalan, sazım.

Elimin daş yaddaşında,
Cavansan Qorqud yaşında,
Süleymanın göz yaşında
Rəngi-ruhu solan sazım.

## ÇALIRAM

Aman ellər, qəmli hicran sazında
Dəlidağın laylasın çalıram.
"Şəhid balam, girov balam vay" deyən
Anaların naləsini çalıram.

Namərdə tuş oldum addım başında,
Gözü yaşnan dolur qəlbi daşın da.
Xan Tərtərin gözlərinin yaşında
Dədə Şəmşir havasını[74] çalıram.

[74] "Güllü qafiyə" havasını nəzərdə tutur.

Süleymanın soldu arzu-murazı,
Çarx çevrilib, pozulubdu tarazı.
Kəlbəcərdə qaldı sənətin sazı,
Qərib eldə cürəsini çalıram.

## QAFİL OLMA, KAMİL İNSAN

Qafil olma kamil insan,
Haqq yolunu çaşmaginən.
Biri sənə can deyərsə,
Öz həddini aşmaginən.

Baxma ürək yarasına,
Dərmanı yox, çarəsi nə.
Onun-bunun qarasına
Həcvi-hədyan qoşmaginən.

Ay Süleyman, axsın qanın
Yolunda qanan insanın.
Tək bircə yaradanın
Nəzərindən düşməginən.

## QANMAYANIN KEFİDİR

Dünya yaman gündədir,
Qanmayanın kefidir.
Haqq nahaqq əlindədir,
Qanmayanın kefidir.

Şir düşübdü tələyə,
Tülkü gəlir köməyə.
Qarğa gülür mələyə,
Qanmayanın kefidir.

Çirkab içində itən
Deyir, billur bədənəm.
Neyniyim qananam mən,
Qanmayanın kefidir.

Günahım qanmağımdır,
Haqqı danmamağımdır,
Doğru danışmağımdır,
Qanmayanın kefidir.

Ay Süleyman, bəs oldu,
Əl saxla, kasa doldu.
Qananın dərdi boldu,
Qanmayanın kefidir.

## SİN AYƏSİ

Əlif beydən ilkin alıb dərsimi,
Oxudum, yetişdim sin ayəsinə.
Höküm xudadandır, buyruq rəsuldan,
Möhtacdır aləmdə sin a yasinə.

Ah-nalə eylədi, Leyli yar dedi.
Məcnun fəğan etdi, Leyli yar dedi.
Xəncər al bağrımı, Leyli, yar dedi.
Sonunda yetmədi sin ayə sinə.

Tez ötüşür illər, yetmir sayə sin[75]
Dar ayaqda yoxla dostun sayəsin.
Ağam aça köksün, sala sayəsin
Biçarə Süleyman sin ayə sinə.

---

[75] Yəni illər o qədər tez keçir ki, insan öz yaşının da sayını bilmir.

## CAN

Vəfalı cananın yolunda can ver,
Layiqdi sədəqə olsa cana can.
    Yox aşıq cana can,
    Canın qıya cana can.
    Tanrıya da xoş gedər
    Yetişəndə cana can.
Canan can deyəndə can ilə dindir,
Xoş əhvala yaraşıqdı cana can.

Canan dinə, canan gülə, can ala,
İşvə ilə qaş oynada, can ala.
    Yox aşıq, can ala,
    Can eşidə, can ala.
    Əzrayıl, o yana dur,
    Canan gəlir can ala.
Son nəfəsdə canan gələ can ala,
Yetirə özünü, çata cana can.

Ay Süleyman, köklə sazın, eylə saz,
Ustadlardan yaraşıqdı elə saz.
    Yox aşıq, elə saz,
    Çal sazını elə saz.
    Canan sazını çalanda
    Ruhun olur elə saz.
Xoş əhvalla dostun halın elə saz,
Elə din ki, canan desin can, a can.

## OF

Aman allah, zülm ərşə dayanıb,
Yaman gəldi hər tərəfdən bəla, oof!
Ayrı düşdüm qohum, qardaş, elimdən,
Yönüm düşdü yal-yamaca, çölə, oof!

On səkkiz gün körpələrlə süründük,
Uçurum keçdik, zirvə qalxdıq, dağ endik,
Altı nəfər bir ədyala büründük,
Gecələri gəldik keçdik belə, oof.

Qohum gedib, qardaş gedib, elim hey!
Sizə çatmır harayım hey, hayım hey!
Harayıma haray verin, gəlim hey!
Yaralıyam əlim çatmır ələ, oof!

Saz götürüb bir Kərəmi çalardım,
Qisasımı misriynən alardım,
Bir basılmaz, bir möhtəşəm qalaydım,
Necə döndüm bircə nazik telə, oof!

## VAXTIDIR

Əlim çatmır, ünüm yetmir bilirəm,
İndi dağlar özünü əyən vaxtıdır.
Açılıb çöllərdə min-bir çiçəklər
Baldırğanın özəkləyən vaxtıdır.

Duman gəlir, çəmənlərə şeh düşür,
Axşam-sabah baxça-bağa meh düşür.
Çiyələk qızarır, moruğ yetişir,
Kəkotunun çiçəkləyən vaxtıdır.

Süleymanam, vətən dərdi, el dərdi,
Baxça dərdi, bülübül dərdi, gül dərdi.
Qaçqın deyib acılayan dil dərdi
Yuvasız qəddimi əyən vaxtıdır.

## İNANCLAR

1. Hanada vərəngələn ağacı olur. Xalçanı toxuyuf qutarannan sonra onun ipini kəsirsən. Hananı kəsən kimsə vərəngələni at əvəzinə minir, çıxır çölə. Niyyət tutur ki, filankəs boyludu. Oğlan görsəm oğlu olajax, qız görsəm qızı olajax. Mən özüm onu sınamışam, düz olub.

2. Baş-ayax bişirəndə qoyunun çənəsini aralıyırdılar, alt çənənin sümüyü başı saçax kimi ətdi olardısa, deyirdilər ki, filankəsin qızı olajax. Yox, əgər əti yoxdusa, çılpax sümükdüsə, deyirdilər oğlu olajax.

3. Yun darıyanda gərdək asırdılar. Taxtanın üzünə qəpeh qoyurdülər, kişi patarı geyindirirdilər, üstdən də yunu doluyürdülər. Qızı da həmin formada taxtaya qız paltarı geyindirirdilər, üstdən də yunu doluyürdülər. Qırmızı parçadan gərdək qururdular, oyuğları da gərdəyin içində stolun üstünə qoyurdülər. Guya bəynən gəlindi oturuf gərdəyin içində. Biri deyirdi bəynən gəlini tağdan asmışam, misalçün, Mələk gəlsin düşürsün. Mələk də yaxşı yemək bişirir, orda işləyən qız-gəlinə yemək verirdi. Onda da hamı həvəslənirdi, yunu yaxşı darıyırdı.

4. Payız oldu, yun daramaq üçün bizdə iməcilər keçirilirdi. Bir gün qabaxcadan ev sahibi deyirdi ki, sabah axşam bizim evə gəlin. Yun daranardı, yığılardı əlçəklərə. Kimin əlçəyi çox olardısa, şirniyyatın çoxunu da ona verərdilər.

Yun darayanlardan biri gərdək qurur qırmızı kalağayıdan. Ağ yunnan qız fiquru düzəldirdilər, qara yunnan oğlan, oğlana qara bığ qoyurdular. Qız guya yun darıyannarın birinin olurdu, oğlan da ev yiyəsinin olurdu. Gərdəyi düzəldib bəynən gəlini qoyurlar onun arxasına. Qız yiyəsi oğlan yiyəsinə deyir ki, nəmərimi ver qızı ordan götürüm. Ev yiyəsi nəmər verir, biri qızını götürür, o biri oğlunu, barışdırıllar, gərdəyi düşürüllər.

5. Bir tikə ov əti insanı qırx gün pak saxlıyır.

6. Elə oluf ki, mən səhər ova gedənlərin qabağına çıxmışam, axşam bir də görürdüm ki, bizə pay ət gəldi. Deməli, belə bir qayda var idi. Ova gedəndə də, gələndə də qabağına kim çıxsa, vurulan heyvandan onun hamısına pay verilməlidi. Bir də ovçuluxda belə bir qayda vardı. Beş nəfər ova gedirdi. O beş nəfərin hansı ovu vursa, o əti böləndə onun döş hissəsini vurana verirdilər. Kəsif qabaxcadan ayırırdılar ki, bu sənin payın. Qalan hissəni bərabər bölürdülər.

Belə bir qanun da vardı. Ov ətini böldüyün yerdə ovunun üstünə bir adam çıxsa, ətdən ona da pay verməlisən.

7. Mən bir güllə atdım, qırmanın biri dəydi: bu heyvan bu yaradan öləsidi. Mənnən keçənnən sonra o biri ovçu onu vururdusa, ov onun deyildi. Çünki mənim gülləmnən qan düşübdü. Bu, danışıq törəməsin deyə dədə babanın qoyduğu qaydadır. Mənnən sonra atan baxırdı, əgər güllə atdığı yerə kimi qan izi varsa, o ov mənim idi.

8. Ovçuluqda müəyyən qadağalar vardı. Əvvəla, suya gələn heyvanı vurmaq günahdı. Şornax bulaxlar olurdu, onlar özüynən ağ ərp gətirirdi. O ərpin tərkibində mineral duzlar olurdu. Bitkilərdə duz olmadığından ov heyvanları gəlib həmin ərpləri yalayardı. Namərd ovçular çölü-bayırı axtarmazdılar, gedib şornax bulağın yaxınlığında bir ağacın daldasına girib bulağın gözünü gözdüyürdülər. Orda ov atmaq Allah yanında qəbul olunmaz. Bajarırsan qov vur, amma su üstündə heyvanı vurmazlar. İkinci, ovu mövsümdə eliyərlər. O vaxt ki bala gətirəcək, artım verəcək, o vaxt ova güllə atmaq olmaz. Heylə ovçuların da əksəriyyəti pis aqibət yaşadılar. Bir çoxunu mən öz gözümnən gördüm. Mənim Zülfü əmim vardı, məşhur ovçu idi. Bizim məhləmizin böyründə Xırrı günöy deyilən bir ərazi vardı, ora tez-tez cüyür, əlik gəlirdi. Bu kişi də tüfəy çiynində fırrananda görür ardışdığın arasında bir qızartı var. Bilir ki, əlikdi. Tətiyi çəkir, atılan kimi əlik çapalıyır. Gəlir ki, altında iki balası var. Əslində bu əlik qaçardı ey, onlar həddən artıq ayıq heyvandı. Amma balasına

görə qaça bilmir. Əmim gəlir evə, deyir ki, mənim və balalarımın aqibəti çox pis olajeh. Elə də oldu. İki oğlu vardı. Biri öz velosipediynən maşının altda qalmışdı. O biri oğlunun da övladı dağda qar uçqununa düşür. Atası nə qədər çalışır, onu qurtara bilmir, özünü də orda öldürür. Zülfü kişinin özü də ağır xəsdəliyə tutulur, onnan dünyasını dəyişir.

9. Ov hər yerdən keçməz. Onların cığır elədiyi, qaçıb qutardığı bir yol var. Həmin yerə bərə deyirlər. Suya ordan gələrlər, ota ordan gedərlər. Ovçular da axtarıf həmin bərələri tapar, orda gizdənəllər. Sürəkçilər ovun ola biləcəyi örüşü səsnən-küynən, daş-dəmiri bir-birinə çırpa-çırpa, ovu sürəkliyə-sürəkliyə onların qarşısına gətirəllər.

Vurulan ov qardaş malı kimi tən bölünərdi. Ovu da istənilən adam deyil, ən ədalətli adam bölməlidi. Bir neçə dəfə ovu gətiriflər, ovçular özləri duruflar qıraxda, məni çağırıflar. Getmişəm ki, bir dənə cüyür vuruflar. Deyiflər, Əlövsət müəllim, sən halal adamsan, bu əti bizim aranızda böl. Onlar beş nəfər olub. Mən beş yerə böləndə deyiflər, dayan, altı elə. Artıq sən buna şəriksən.

10. Ovçular adətən ova gizdin gedəllər. Kiminsə ova getdiyini heş kəs bilməzdi; onun düşəri-düşməzi olardı. Ona görə ova gedəndə gejə çıxar, gejə də qayıdardılar. Kimsə yatıb qalırdısa, parolla ona xəbər verirdilər. Məsələn, razılaşardılar ki, üç dəfə fıştırıq çalanda sən durmalısan. Ov vaxtı bir-birini adnan çağırmazdılar. Keçəl, Çəvəl, Axsax, Çaşqrih kimi bir-birinə adlar qoyardılar, o adnan çağırardılar.

11. Tüfəyin bağlanması, yəni çilləyə düşməsi vardı. Mahir bir ovçunun tüfəyi atdığı ova dəyməzdi. Buna tüfəyin bağlanıf deyirdilər. Bu iki halda ola bilirdi: Birinci ovçu yüz ov ovladıxda tüfəy çilləyə düşürdü. İkinci isə ov ətinnən hamilə, yaxud da zahı qadın yeyirdisə, həmin ovçunun tüfəyi çilləyə düşürdü.

Tüfəyi çillədən çıxarmax üçün ayrıca tədbirlər görürdülər. Birincisində həmin ovçu tüfəyini dəyişməli, yaxud başqasına satıf

sonra geri almalı, ya da tüfəyi axırıncı ovunu vurduğu yerdə qırx gün torpağa basdırmalı idi. Ekiz uşağı olan ananın iki hörüyünün arasından üç dəfə keçirəndə də tüfəy açılırdı. İkincisində isə ovçunun tüfəyi ov ətini yeyən hamilə, ya zahı qadının köynəyinin içindən keçirilərdi. Bunları etdikdən sonra tüfəy açılardı, yəni ovçunun atdığı güllə boşa çıxmazdı.

12. Yüz ov vuran ovçunun qarşısında ovu omba dururdu. Söyləyicinin dediyinə görə, ovun omba durması ovçuya xəbərdarrıxdı. Ovların hamısı ovçuya xəbərdarrıx edir ki, artıx ov vurmax həddini aşıfsan. Ovçu bu ovu nəxarta etsə, vura bilməzdi. Bəzən bu ov qucağında körpəsi olan qadın cildində, ya da ağ paltarrı, uzun saşlı qız cildində görsənirdi. Belə olduxda ovçuluqdan əl çəhməli idi.

13. Ovun əsas mövsümü payız ayları olardı. Bəzi ovçular hər vaxt ova çıxırdı, amma ovun balalayan vaxtdarında heç bir ovçu ova güllə atmazdı. Bu böyük günah sayılardı, həmçinin də cəzası ağır olurdu. Həftənin birinci günü ova çıxmazdılar. Həmin gün ağır, uğursuz gün sayılırdı. Adətən həftənin cümə günü ova çıxırdılar. Hər ovçunun sınammış günnəri olurdu. Bu günnərdə ova çıxmax onlara uğur gətirirdi.

14. Şər vaxdı suya gedəndə, su nənə, Fatma nənə məni suya göndərib. Suyumuz qurtarıf. Gəlmişəm səndən su almağa. Bunu deyif, sonra su götürməh lazımdır.

15. Çərşəmbə günü çimməh olmaz. Suya hurilər, pərilər gəlir. Bilmərsən, ayaqlayarsan, itələyərsən, əzərsən, yıxarsan və onlar da sənə zərər yetirə bilər.

16. Çərşəmbə günü baş yumax olmaz. Başında ağrı yaranar.

17. Nehrəni çərşəmbə günü çalxalayardılar.

18. Bıçax yerə düşəndə deyərlər ki, guya çörəyin kəskin olmur, ruzin, bərəkətin azalır.

19. Bıçağın yerə düşüb ağzı dik duranda qurban istiyir.

20. Qayçını ağzı açıq göydən asmamalısan. O vaxt sənin sözünü danışan adamın ağzı açılır, çox danışır.

21. Süpürgəni qapının ağzında dik qoymayın, onda düşmən dikəlir. Yan üstə durmalıdır.

22. Çaydanı çox qaynatma. Səni deyən, çeynəyən çox olar. Bir-iki buğum qaynadısa, götürməlisən.

23. Sınıx bir şeyi evdə saxlamaq olmaz. O evdə səs salar və evə şər ruhlar gələr.

24. Hana toxuyanda içəri ayağı yüngül adam gəlməlidi. Onun ayağının altına kirkirə atmax və şirniyyat verməh lazımdır. Hana qurtaranda "düşmənin ömrü kəsilsin" deyərdik.

25. Adna, yəni cümə günü hana toxumazdar, çünki hana artmazdı.

26. Kim kimə nehrəsini verirsə, onu qaytaranda bir ovuc duz gətirməlidi ki, tamın özünün olsun.

27. Qatıx çalmax üçün qonşudan maya gətirəndə yerinə mütləh şirinlih qoymalı idin. Yoxsa düşərri olmazdı.

28. Çörəh bişirəndə sajla dördayax arasınnan keçməh günahdı.

29. Oxlovun ujunu yandırmax günahdı.

30. Sajı kim ocağa qoysa (sac asmaq), o da götürməlidi. Yəni asanda günah etdiyinə görə götürəndə savab qazanar.

31. Saj çörəyinin ortasına barmaxla deşih açırlar. Bu çörəyin sərin bişməsini təmin edir. O deşiyi nə qədər böyüh açsan, bir o qədər savaf qazanarsan. Çünki o biri dünyada çörəhdən aşdığın deşih boyda yerdən ən istəhli, əziz adamını görürsən.

32. Çörəyin ilkini yeməzlər. Onu ya itə atıllar, ya da dul adama verillər. Çünki kim yesə dul qalır.

33. Çörəyi süfrədən qaldırmamış durmax günah sayılır.

34. Deyirlər ki, hamilə qadın gözəlləşsə, onun oğlu olacaq, çirkinləşsə qızı olacaq. Qadının kürəyi ağrısa oğlan, böyrü ağrısa qız olar. Göbəyi yuxarı qalxarsa oğlan, aşağı düşərsə qız olacağına inanırdılar.

35. Hamilə qadın yuyunanda qarnının ölçüsünü alar, sonra yuyunardı. Yuyunub qurtardıqdan sonra bir də ölçər, kiçik olarsa qız, böyük olarsa oğlandı demək.

36. Bir söyləyicinin dediyi mətndə hamilə qadın yerikləyirmiş. Onun ürəyi ilan əti çəkir. Bir ilan tutub gətirir, onun başını və quyruğunu kəsib gizlicə ocaqda bişirməyə çalışır. Gəlinə göz qoyan qayınata gedib bir mal kəsir, onun bağırsağını kəsib təmizləyir və şişə taxır. Gəlini bir bəhanə ilə çölə çağırır və ocaqdakı şişlə əlindəki şişi dəyişdirir. Gəlin gəlib bişən əti yeyir. Aradan xeyli keçir, gəlin yükünü yerə qoyanda baxırlar ki, onun qarnındakı qurbağa imiş. Gəlin göldən su içəndən qurbağa sürfəsi onun bədəninə keçib və böyüyüb. Onun üçün də ilana yerikləyibdir.

37. Qırxlı uşağın üstünə adam gələndə uşağı çıxardırdılar çölə, sonra evə keçirərdilər və qapı ağzına dəmir atardılar ki, gələnin ağırlığı orda qalsın.

38. Qırxı çıxan uşağın qırx gününü keçirmək üçün ayrı qabda qırx suyu hazırlanır, içinə qırx ədəd daş qoyulur, ya da qırx ədəd arpa atırlar, qırx qüsulunu verib təmizləyirlər. Bundan sonra uşaq olur pak, üstünə kim istəsə gələ bilərdi.

39. Bizdə cifti yəni ananın "sonunu" aparıb basdırardılar. Özü də onu təmiz yerdə, ağacın, kolun dibində basdırardılar. Basdırmasan, it-pişik yesə, o uşaq böyüyəndə yaxşı uşaq olmaz idi. Naxələf uşaq olardı.

40. Uşağın ciftini çayın kənarında basdırmaq, axar suya atmaq olmaz idi. Əgər atsa idin, hal anası xəbər tutub gələr və anaya zərər yetirərdi. Gül kolunun dibində basdırardıq ki, uşaq gül kimi təmiz olsun.

41. Gec dil açan uşağa ilan əti verərdilər. İlanın başını və quyruğunu kəsib, onu şişdə bişirib uşağa yedizdirərdilər. Uşaq bir müddətdən sonra danışardı. Söyləyicidən niyə məhz ilan ətinin verilməsini soruşduqda maraqlı bir müqayisə etdi: "Ona görə ki, ilan Ovçu Pirimə dil öyrədib. Dilinin altındakı sehirli daşı Ovçu Pirimə verib, onun sayəsində Ovçu Pirim bütün dünyadakı nə canlı var onlarla danışa bilibdi".

42. Oğlan tərəfi qız evindən heç kimə bildirmədən bir daş, yaxud ağac budağı gətirərdi. Daşı həyətə torpağın üstünə qoyardılar, ağac budağını da torpağa basdırardılar. Əgər o qızın ayağı düşərlidisə, daşın altında ot cücərtisi olardı, ağac da kök alardı. Bu ona işarə idi ki, bu qızın ayağı ruzi-bərəkətli olacaq. Belə düşünüb qıza canlabaşla elçi düşərdilər. Əksinə olsa, onda "o qız sınanmışdı" deyib fikrindən daşınardılar.

43. Oğlan anası bəyəndiyi qızın adına evdə bir çömçəni bəzəyib gəlincik kimi saxlayardı. Deyərdi ki, görüm bu qız evimizdə olanda evin varı-bərəkəti artır, yoxsa azalır. Xeyir iş baş verir, yoxsa şər iş. Əgər bu sınaq yaxşı olardısa, qıza elçi gedərdilər. Yox, olmazdısa, getməzdilər.

44. Oğlan tərəfi almaq istədiyi qızın yolunun üstünə yun qırıqları tökərdi, əgər qız o yunu gedə-gedə yığardısa, bu qızın evdar, yığımcıl olmasına işarə idi.

45. Xınanın içinə hamı bir əşyasını-üzüyünü, sırqasını, düyməsini atardı. Subay qızlar əlini salıb birini götürərdi. Əgər götürdüyü əşya evli, nişanlı qıza aiddisə, o qızın həmin il qisməti açılacaq demək idi. Əgər subay qıza aid olsa, hələ evdə oturacaq demək idi.

46. Gəlini adətən atla üzü bağlı aparardılar. Başına qırmızı örpək atardılar. Atın yedəyini oğlanın qardaşı tutardı, yaxud da ən yaxın adamı. Belə bir inanc var idi ki, gözü götürməyən adamlar həmin atın üzəngisindən daş atsa idi, o qız sonsuz olardı. Başqa bir inanca görə isə qızın dalınca lax yumurta atsa idilər, o qız xoşbəxt olmazdı.

47. Gəlin subay qızların başına sağ əlini çəkir, konfet dişləyib verərdi. Bunun mənası o idi ki, belə xoş gün sənə də qismət olsun.

48. Gəlin əlinə bir ovuc düyü alar, evdən çıxanda subay qızların adlarını bir-bir çəkərək düyünü dalınca yerə atardı. Bu o demək idi ki, ardımca onlar da gəlsin, yəni evlənsinlər.

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Ağrımayan başa buz bağlamazdar.

2. Aran tutdan oldu, dağ da tamarzı qaldı.

3. Babam Hajı İsmayıl ölüm ayağında yoldaşı Məşədi Səkinəni yanına çağırır, ona vəsiyyət eliyir. Deyir, Mozdan əkinini kəsmə (oranın torpağı çox barrıdı), külfətin aj qalar. Kilsədən də binəni kəsmə, qatıx tapmarsan. Səfiyarrıynan da uşağını ehsan yeməyə qoyma, dili azar.

Səfiyar da elə adamdı ki, bir dəfə bunu ağsakqallığa aparıllar ki, iki aylə arasında qanı barışdıra. Səfiyar orda deyir ki, o ölən elə adamdı ki, onun saçının hər tükünə görə bir adam ölməlidi.

4. Balta sapı sınar, bir ayrısın sapılıyarsan. Amma ata-ananı tapa bilməzsən.

5. Bir aj güləyən olar, bir yalan aj[76].

6. Bir qadın yoldaşın bəyənmirmiş. Qadının anası deyir, qızım, bilirsən nə var? Sən ərə gəlmisən. Süpürgəyə ər deyiflər, qadın ona baş əyif. Sən ərinə baş əy, onu dilə gətir, ərin yaxşı olsun.

7. Bir qadının oğlun da tutullar, ərin də, bir də qardaşın tutullar. Məhkəmə qurulur. Deyillər ki, birin sənə veririk, birin götür, ikisinin məhkəməsi qurulsun. Deyir, eh, ər eldən gələr, oğul beldən gələr, ələ düşməz qardaş. Qardaşımı ver. Məhkəmə deyir, sən ki belə qadınsan, üçün də sana bağışdıyıram. Yəni ərə gedərsən, ərin olar, uşağın olar, amma qardaşı tapa bilməzsən.

8. Biri qanan olur, biri qanmaz olur. Qanan qanmaza borcludu.

9. Çırpını manqaldan ayıran kababı çiy yeyər.

---

[76] Yalan aj – yalavac, həm qarnı ac, həm də paltarı olmayan adam

10. Çox danışan dil döyənək olar.

11. Dağa çən gəlməsə, külək əsməz.

12. Dağarcıq çuvaldan böyük olub.

13. Dəyirmançı olmağını danırsan, bəs başının ununa nə sözün?

14. Diş sormaqla qarın doymaz.

15. Donun darlığı parçanın qıtlığındandır.

16. Dost məni arasın bir çürük qoznan.

17. Doşab var ki bal kimi, doşab var ki yal kimi.

18. Erməninin tamahgiri keşiş olar, müsəlmanın tamahgiri dərviş.

19. Fındıq elə bilir qozda ləpə yoxdur.

20. Haknan nahaqqın arası dörd barmaxdı. Göz hakdı, qulax nahakdı. Çünki qulaxnan eşitdiyini bəziyillər, qurraşdırıllar. Ona görə də atam deyərdi ki, qulağnan eşitdiyin nahakdı, ona inanma.

21. Hörmət istəyirsənsə zəhməti sev, pul istəyirsənsə qənaəti sev.

22. Xainin sındırdığı qoz kor çıxar.

23. İpin uzunu yaxşıdı, dilin gödəyi.

24. İşləyəndə elə işlə ki, yüz il yaşayasan, yeyəndə elə ye ki, sabah öləcəksən.

25. İtimiz it olsaydı özgənin dovşanı bizim samanlıqda balalamazdı.

26. Kolanılar haqqında məşhur bir deyim var: deyir kolanının içi cənnət, çölü cəhənnəmdi. Çöldən kolanı çox narahat görükür, amma içinə düşürsən ki, heylə döyül. Kolanılar çox çörəkli camahatdı.

27. Qayınatam deyərdi, bala, kim ki gəlif toyuq istəsə kürt yatırmağa, verin. Yazda əkməyə qartof toxumu istəsə verin, lobya toxumu istəsə verin. Amma payızda istəsə, vermə. Onda adam ələbaxımlı olur, dilənçi olur. Toyuqdu verirsən, kürt basdırır, bala çıxardır, toxumdu əkib məhsul götürür, amma payızda verəndə hazıra nazir olur.

28. Qaytar borcu, ödə haqqı,
Son mənzilin keçir vaxtı.

29. Qurd sürüyə təpdi, vay birinin dərdi.

30. Nə ki yeyirsən dadındı, nə ki verirsən adındı. Ömrünü puç eliyən naxələf evladındı, düşmənin evindəki arvadındı.

31. Rəhmətdik atam deyərdi ki, iki şeyi yadında saxla. Birinci, çöldən evə əliboş qayıtma. Pul gətir demirəm, meyvə gətir demirəm, bir odun parçası da olsa, ağac parçası da olsa, hər nə olsa gətir. Kişi çöldən evə əliboş gəlməz. İkinci, həyətə çıxanda geyin çıx. Qapıya gələn yad adamdı, nə bilir ki, bu evdə yaşayan kimdi. Yaxası açıq, ayaq yalın, şulum-şortdax çölə çıxma. Çölə çıxanda əlinə istidən-soyuxdan bir yarax al. Deyirdik ki, ay dədə, bizim axı düşmənimiz yoxdu. Deyirdi, bala, qonşunun iti açılar, düşər üstünə. Bir şey tapa bilmərsən, başından papağı çıxarıb iti qovluyarsan. Bir oğru gələr, əlində bir şey olsun ki, özü qoruyasan.

32. Sirr bağlı qapıdı. Aşdın onun qulusan, aşmadın, o sənin qulundu.

33. Siçan dağarcıq dələr.

34. Sonradan çıxan buynuz qulağa batar.
35. Su olan yerdə oddan qorxma.
36. Toyuğun başı kəsiləndə də gözü eşənəkdə qalar.
37. Uşağ evin gülüdür, giley-güzarı kiridir.
38. Uşaq dil açar, ana gül açar.
39. Ürək ağrısı qiyamətə gedər.
40. Yaxşı saxla aşığı, bednamçıdı, el gəzir.
41. Yara onqat olsa, ilan zəhəri də dərmandı.

## TAPMACALAR

1. Dağda dalaman gördüm,
Suda süleyman gördüm,
Yatar gəvşər daş gördüm,
Duzsuz bişmiş aş gördüm.
**(gicitkan, balıq, dəyirman, bal)**

2. Ağacda var bağırsaq,
Yel babanı çağırsaq.
Ağzın açıb ney çalar
Süleymanı çağırsaq.
**(kamança)**

3. Qaraca-qaraca qarğalar
Bizdən sizə yorğalar.
**(sac)**

4. Balaca mezər, obanı gəzər.
**(ələk)**

5. Babam bir fənd eylədi,
Zülfü kəmənd eylədi.
İyirmi dörd ulduzu
Dörd aya bənd eylədi.
**(At nalı və mıxları. Atın dörd nalı, hər nalda da altı mıx olur, başı da ulduz.)**

6. Əzizim üş gül açar,
Üşgülü müşgül açar.
İldə bir, ayda iki,
Həftədə üç gül açar[77].
**(...............)**

7. On iki qızıx bir bağda,
On iki meyvə budaxda.
Hərəmiz birin üzdü,
On biri qaldı budaxda.
**(Hərəmiz qızın adıdır. Bir almanı üzür, digərləri budaqda qalır.)**

8. Sursalar, ha sursalar,
İçi qırmızı, qırağı yaşıl sursalar.
**(qarpız)**

9. Mən aşiqəm sərvəri,
Doqquz igid sərvəri.
Ayağı var bir qucax,
Başı nazik sərvəri.
**(saz)**

10. Eləmi nədəndi,
Nə yarmadı, nə dəndi?
Fikrimdə qəm yeyirəm,
Doğramacı nədəndi?
**(şüur, beyin)**

---

[77] Söyləyicinin dediyinə görə, tapmacanı Oruclu kənd sakini Qasım kişidən eşidib. Qasım kişi tapmacanın açmasını ona deyəcəyinə boyun olsa da, sonradan dünyasını dəyişdiyindən cavabını öyrənə bilmir.

11. Əfəndi, ha əfəndi,
Qurbana atdılar kəməndi.
Ətindən qurban paylandı,
Ayaqların yerə basdırdılar.
**(dəvə)**

12. Eləmi cəngi var,
Həm topu, kəməndi var.
Tutar olsam dəstindən,
Qırx yerdən çələngi var.
**(cəhrə)**

13. Eləmi göydədir,
Göy elə göydədir.
Burnu yerə dirənib,
Ayaqları göydədir.
**(göy dana göy otlaqda)**

14. Eləmi narda var,
Nardan şirin narda var.
Əl tutmaz, bıçax kəsməz,
Ondan şirin harda var?
**(yuxu)**

15. Qoyun şumda mələr,
Dolu düşəndə mələr.
Yaxasız köynək geyib,
Bacasız damda mələr.
**(qəbirdə ölü)**

16. Eləmi qan ağlar,
Qan açılar, qan ağlar.
Səyyah tor qurub qayada,
Qartal görüb qan ağlar.
**(tələ)**

17. O tayda duran qoç,
Buynuzdarın buran qoç.
Gələn qoşunu məhv eyləyər,
Yenə öz yerində durar qoç.
**(dəyirman)**

18. Tutdu, tutdu tuvulğa,
Tutda bitər tuvulğa.
Tutdum, bir şiv ayrıldı,
Nə tutdu, nə tuvulğa.
**(qatır)**

19. Mən aşığam Xalaca,
Yolum düşər Xalaca,
Miniyim var, yol getmir
Atdan böyük, itdən balaca.
**(yəhər)**

20. Bir öküzüm var,
Çulluyanda kökəlir,
Soyunduranda, arıxlayır.
**(alaçıq)**

## BAYATILAR

1. Ox mənim, lələ mənim,
Ox bağrımı dələ mənim.
Yaman yerdə axşamladım,
Kimsəm yox gələ mənim.

2. Əynimdə çuxa mənim,
Qolumu sıxa mənim.
Görsəm ki pis günündür,
Gözlərim çıxa mənim.

3. Sorağım dosta gedər,
Dolanar dosta gedər.
Dünya necə dünyadır,
Sağ gələn xəstə gedər.

4. Başımdan saçaq düşdü,
Bilmədim haçaq düşdü.
Tapılmadı dərmanım,
Loğmanım qaçaq düşdü.

5. Əzizim, nar dilini,
Tutubdu nar dilini.
Öləni yar ağlasın,
Yar bilər yar dilini.

6. O da sən,
Saldın məni oda sən.
Gülzarı bəyənmədin,
O qara torpaq, o da sən.

7. Bağında badamı var,
Əkmişəm, badamı var.
Dar gündə yetiş,
Desinlər adamı var.

8. Göy bağlar,
Göy bağçalar, göy bağlar.
Dərdi çox olan kəslər
Qara geyər, göy bağlar.

9. Qəbirstanlıq kənd oldu,
Gör necə erkən doldu.
Orda nə hikmət varsa,
Gedən getdi bənd oldu.

10. Eləmi iki yerdən,
Bir yerdən, iki yerdən.
Təzə yara qövr eylər,
Yenə o ilki yerdən.

11. Eləmi buyün burda,
Dağ burda, düyün burda.
Dərdli insan axtarsan,
Taparsan buyün burda.

12. Eləmi aşıqlara,
Dili dolaşıqlara.
Dərd əlindən saz aldım,
Qoşuldum aşıqlara.

13. Dağlar səni əndərim,
Yönü bəri döndərim.
Düşmənlər yolu tutub,
Qoymur səndən gül dərim.

14. Dağlar, dağlar, dur dağlar.
Sənə yağır nur dağlar.
Getdim, kimsə tapmadım,
Lələ köçüb, yurd ağlar.

15. Eləmi, yarı düşmən,
Yarı dost, yarı düşmən.
Muradın hasil olub,
Gəl ağla barı, düşmən.

16. O dağlar kömürdəndi,
Keçən gün ömürdəndi.
Dərdlərə dözən canım,
Ürəyim dəmirdəndi.

17. Əzizim, boz dağları,
Tutubdu toz dağları.
Mənə imdad lazımdı,
Aşginən tez dağları.

18. Maralam, oxla məni,
Qanımdan qoxla məni.
Al tay-tuşu yanına
Hərdənbir yoxla məni.

19. Maralın izi qanlı,
Topuğu, dizi qanlı.
Kəlmə verib söz alma,
Tutaram sizi qanlı.

20. Yaşım üzüm kimidi,
Axıb, üzüm kimidi.
Səbr eylə yazıq canım,
Çoxu bizim kimidi.

21. Sən məni al eylədin,
Dərdimi bol eylədin.
Açdın bağrım çəpərin
Gələnə yol eylədin.
= Gəl məni al eyləmə,
Dərdimi bol eyləmə.
Açma qaçqın çəpərin,
Gələnə yol eyləmə.

22. Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Açar dəstin itirdin,
Qapını bağlar qoydun.

23. Əzizim, qara bağrım,
Ağ bağrım, qara bağrım.
Dünya dərdin çəkməkdən
Olubdu yara bağrım.

24. Başa düz,
Qara zülfün başa düz.
Yurdu dağılanların
Ağlı gəlməz başa düz.

25. Bişirdim aşım səni,
Tökdüm göz yaşım səni.
Götürüm hara qaçım,
Bəlalı başım, səni?

26. Bir daş tapdım yazılı,
Dörd tərəfi şirazılı.
Çıxdım əcəl dağına
Gördüm qəbir qazılı.

27. Burdan bir paşa getdi,
Boyu tamaşa getdi.
Yığdı dünya malını
Vurdu bir daşa getdi.

28. Gözlərin balxı-balxı,
Qaşların kaman arxı.
Köçüb getdin dünyadan
Zülümdə qoydun xalxı.

29. Qaşın üçün ağlaram,
Gözün üçün ağlaram.
Yaman gündən qorxuram,
Özüm üçün ağlaram.

30. Eləmi, üzüm qara.
Yeməyə üzüm qara.
Dərmanını tapmadım,
Yanında üzüm qara.

31. Eləmi, əsən yellər.
Səbrimi kəsən yellər.
Açım qoynuma dolsun
Üstündə əsən yellər.

32. Dağlar mənə qar göndər,
Əsirgəmə, var göndər.
Düşmüşəm qəm dəryasına,
Üzgüçünlə tor göndər.

33. Eləmi, meşəli yerdə,
Tər-bənövşəli yerdə.
Ömrümün qönçə çağı
Qaldım döşəli yerdə.

= Araz meşəli yerdə,
Güllü bənövşəli yerdə.
İgidlərimiz elə qırıldı, elə vuruldu,
Qaldı döşəli yerdə.

34. Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Nəşi getdi torpağa,
Acısı bizdə qaldı.

35. Qalıb naçar ağlama,
Gündü keçər, ağlama.
Qapı bağlayan tanrı
Bir gün açar, ağlama.

36. Bu yol karvansız oldu,
Dəvə sarvansız oldu.
Loğman yanına getdim,
Loğman dərmansız oldu.

37. Girdim bağa, olmadı,
Dərdim, qoynum dolmadı.
Çox diləklər dilədim,
Heç birisi olmadı.

38. Haray yetim əlindən,
Yol ver ötüm əlindən.
Qaçdım, qurtara bilmədim,
Qayıdım tutum əlindən.

39. Eləmi necə dağlar,
Gündüzmü, gecə dağlar.
Yetim yanağı bilər,
Göz yaşı necə dağlar.

40. Yetim qara qaş olar
Gözü dolu yaş olar.
Yetimə söz deməyin
Yetim bağrı daş olar.

41. Əzizim sənə dağlar,
Göy geymiş sənə dağlar.
Gileyim yazılı qaldı,
Qoynumda sənə, dağlar.

42. Bu dağlar pəri dağlar,
Bir dön bax bəri, dağlar.
Düşmənə yol verdin,
Bir utan, əri, dağlar.

43. Eləmi, dağlar səni,
Qar yağar, bağlar səni.
Elə zamana dəyişib,
Hər görən ağlar səni.

44. Balaca daşdı dağlar,
Səndən yol aşdı dağlar.
Adımız köçkün oldu,
İmanım qaçdı, dağlar.

45. Ovçu, ovçu, yad ovçu
Olmayasan şad ovçu.
Ov sənin, ovlaq sənin
Ovlamasın yad ovçu.

46. Burdan bir ağa getdi,
Sallandı bağa getdi.
Qaşından, qabağından
Qar yağa-yağa getdi.

47. Elə sənəm səsinə,
Səs ver sənəm səsinə.
Nə olaydı çıxaydım,
Bir kimsənəm səsinə.

48. Fələyin ay əlindən,
Heç düşmür yay əlindən.
Öləydim qurtarardım
Dünyamın vay əlindən.

49. Dağlar başı boz ala,
Duman gələ tez ala.
Gedib yurdumu görsəm,
Bəlkə dərdim sağala.
= Dağlər başı boz alə,
Duman gələ tez alə.
Girov qəbirsdannıxlər deer,
hərə bir ağız ağlasın,
Bəlkə dərdimiz azələ.

50. Bağımda var gavalı,
Başım olub havalı.
Əzrayıl ova çıxıb,
Bizə verib zavalı.

51. Eləmi, baş kəndə,
Orta kəndə, baş kəndə.
Yağılar yandırıb yurdu,
Nə var gedək boş kəndə.

52. Gerdərəm Gilan sənə,
Oxuyub bilən sənə.
Qarışqalar yol eylər,
Dadanar ilan sənə.

53. Bu gələn alma yükü,
Qoy gəlsin alma yükü.
Mən bir aciz bəndəyəm,
Boynuma salma yükü.

54. Sənin ala gözlərin,
Başa bəla gözlərin.
Qorxuram yarğan uça,
Altda qala gözlərin.

55. Əzizim, el gələnə,
El gələ kölgələnə.
Açma üzün pərdəsin,
Göstərmə hər gələnə.

56. Eləmi, hov eylərdim,
Çaxmağı qov eylərdim.
Əyər köçkün olmasam,
Mən sənə hov eylərdim.

57. Eləmi, gəz indi,
Qara bağrım əz indi.
Düş çöllərə Məcnun tək
Gəzməlisən, gəz indi.

58. Eləmi, yaralar məni,
Xalın yaralar məni.
Üstümdən örpəyi qaldır,
Örpəy yaralar məni.

59. Gəlmişəm görəm səni,
Sökmüşdüm hörəm səni.
Nə qapın var, nə bacan,
Bir açam görəm səni.

60. O tayda mal mələdi,
Necə də kal mələdi.
Qaçqın yolun itirib,
Bunlara yol bələdi.

61. Yüz məni[78],
Əlli məni, yüz məni.
Yavaş-yavaş öldürmə,
Birdəfəlik üz məni.

62. Dara bacı,
Telini dara bacı.
Küsüb namərd dünyadan
Gedirsən hara, bacı?

63. Gül üzünə,
Gülab çək gül üzünə.
Namərdlərin əlindən,
Həsrətəm gül üzünə.

64. Dar ayi,
Toxunubdu dar ayı.
İstəmirəm özgə vaxt,
Köməyə gəl dar ayı.

65. Şeh damdı,
Gül üşüdü, şeh damdı.
Çox gözlədim yolunu,
Gözlərindən şeh damdı.

[78] 61-dən 66-dək bayatılar söyləyicinin özünün müəllifi olduğu bayatılardır.

66. İlimdəsən,
Ayımda, ilimdəsən.
Sağlığımda çatmadın,
Barı gəl ilimdə sən.

67. Dağlardan yenənə bax,
Evinə dönənə bax.
Muradına çatmamış,
Çırağı sönənə bax.

68. Gedirdim dərəynən,
Bir dərin dərəynən.
Fələyin işi nədi
Mən günü qaraynan?

69. Aşıq, a indi gələr,
Xalı a indi gələr.
Oğlan görsə peşmanam
Durmaz, a indi gələr.

70. Aşıqdı sənə dağlar,
Sənət ver sənə dağlar.
Kaş erməni yol verə,
Gələm çıxam sənə, dağlar.

71. Qardaşdarım, qoşa gəl,
Qarrı dağlar aşa gəl.
İki bajı qardaşsızdı
Ağlaşa-ağlaşa gəl.

72. Eləmi ay ağa,
Başda qurban ayağa.
Qəmbər kimi qul olmaz
Əli kimi ay ağa.

73. Qalyanın qoru yandı,
Çəkdikcə qoru yandı.
Mən qəlyan çəkən deyiləm,
Qəlyan qəm qoruyandı.

74. Qəlyanın özü gəlsin,
Dalınca közü gəlsin.
Nəyə lazım özgəsi,
Yarımın özü gəlsin.
= Qəlyanın özü gəlsin,
Yanınca közü gəlsin.
Bizdən söhbət eliyən olmaz,
Atamın özü gəlsin.
= Kababın özü gəlsin,
Qoynu dolu közü gəlsin.
Hamı çəkilib kənarda dursun,
Anamın özü gəlsin.

75. Qəlyanı çəkənə ver,
Doldur, çəkənə ver.
Mən bu dərdi çəkə bilmənəm
Apar bir çəkənə ver.

76. Qəlyanı çək ujunnan,
Doldur ver, çək ujunnan.
Nə namərdə yoldaş ol,
Nə bəla çək ujunnan.

77. Qəlyanı çəkən bilər,
Dolduruf çəkən bilər.
Yar-yoldaş qədrini
Qara gün çəkən bilər.

78. Qəlyanın qəşəngi var,
Çəkməyə qəşəngi var.
Nə qaş-gözünü oynadırsan,
Sənnən də qəşəngi var.

79. Bu qəlyan çaşı qəlyan[79]
Mərəkə başı qəlyan.
Mərəkəsi pozulmuş
Tökür qan-yaşı qəlyan.

80. Əzizim yüz qanadı,
Bülbülün yüz qanadı.
Yel əsdi, zülf tərpəndi
Tel dəydi, üz qanadı.

81. Ha belə Murov qaldı,
Qar qaldı, qırov qaldı.
Əlli ilimin cəfası
Ermənilərə girov qaldı.

82. Pərri-pərri bulaxlar,
Üstü lülpərri bulaxlar.
Birdən qaçqınnarın ayağı düşər
Qoymayın köçə, bulaxlar.

83. Bulağın başı yandı,
Divinin daşı yandı.
Vətən elə yadıma düşdü
Ürəyimin başı yandı.

84. Əzizinəm simsarı
Sitayimə sim sarı.
Başım cəllad əlində
Gözüm gəzir simsarı.

85. Ha belə sarı qardaş,
Sarıdı sarı qardaş.
Bajın burda can verir
Gəl cinazəsin sarı, qardaş.

86. Qardaşdər, ay qardaşdər
Yağış yağar, qar başdər.
Cinazəm əyri gedər
Yapışmasa qardaşdər.

87. Sən mənim ağa bala,
Sallan gəl bağa, bala.
Sən duman ol, mən çiskin
Çəkilək dağa bala.
= Arxalığı qədəh yar,
Boyu boydan gödək yar.
Sən duman ol, mən çiskin,
Göyçə deyib gedək yar.

88. Əziziyəm Ərzuruma,
Ərzə ver Ərzuruma.
Vətənnən oluf canım
Qoy düşsün hər zuluma.

89. O toy bu toya baxar,
Arasınnan çay axar.
Kor olsun mənim gözüm
Sənsiz dünyaya baxar.

90. Ələmin od apara,
Ay doğdu, o da para
Varmı bir odu sönmüş
Canımnan od apara.

91. Bir ev tikdim özümə,
Kilim çəkdim üzünə.
Tikdim tikə bilmədim,
Axırı verdim özünə.

[79] Çaşı qəlyan – sulu qəlyan

92. Maral oxlu gedibdi,
Qanı qoxlu gedibdi.
Ellərdən bircə-bircə,
Kəlbəcərdən çoxlu gedibdi.

93. Bulaxda qıjı ollam,
Kəlmədən ajı ollam.
Kimin balası ölübsə,
Mən ona bajı ollam.

94. Bülbül bağa boylanar,
Səkər sağa boylanar.
Balası girov qalan
Hər yana boylanar.

95. Dərd məni əzəcəkmi[80],
Ürəyim dözəcəkmi?
İlahi, kəndimizdə
Erməni gəzəcəkmi?

96. Xudaya, öldür məni,
Qılıncla böldür məni.
Demədim qaçqın edib
Düşmənə güldür məni.

97. Olmuşam bədhal, qurtar,
Çəngəlini çal, qurtar
Qadan alım, Əzrayıl,
Gəl canımı al, qurtar.

98. Adımı dəli qoyun,
Arxaca zəli qoyun.
Dəm-dəzgahın itirənin, çöl-
lərə tüşənin,
Adını dəli qoyun.

99. Bu qoyun mələməzmi?
Duz versən yaləməzmi?
O göy yaylaxlərin itirən, sərin
bulaxlərin itirən, qız-gəlini
bulaxlərin üsdə görmiyən,
Mələr, bəs mələməzmi?

100. Aşıx nə deyif ağlər,
Sümbül su deyif ağlər.
Elinnən-obəsinnən olannərin
yanına get,
Görüm, nə deyif ağlər.

101. Eləmi, dərd əkərəm,
Bağlanıb dərd əkərəm.
Dağlərdəkilər deer, qoşmuşux
qəm kotanın, ay Sərvinaz nənə,
Səninçün dərd əkərıx.

102. Atım atdar içində,
Nalı pərrər qıçında.
Göz gəzdirrəm, o girov
qəbirsdannıxləri görmürəm,
cavannərim yoxdu
Bu ellərin içində.

103. Qaşın mənnən irazı,
Gözün mənnən irazı.

[80] Kəlbəcərin işğalı vaxtı kəndi tərk edən yaşlı bir qadının qar qalağının üstündə oturub dediyi bayatılar.

Halınızı soruşa bilmirıx a qəbirsdannıxlər, sizə İradənin anası qurbən,
Siz olun mənnən irazı.

104. Ay kimə daldalansın?
Gün kimə daldalansın?
Qəbirsdannıxlər deer, bizi tərk etdiniz, getdiniz
Bəs biz kimə daldalanax?

105. Gedən boz atdı, getmə
Yolun uzaxdı, getmə.
Gözümnən axən qan-yaşım, ay İradəm,
Sana tuzaxdı, getmə.

106. Ana, mana fağır ağlə.
Fağır dur, fağır ağlə.
Get çıx o qəlbi dağlərin üsdünə,
Adımı çağır ağlə.

107. Ağlər, Kərəm ağlər.
Gülü yox, dərən dağlər.
Gediv o dağləri görməsəm, o qəbirsdannıxləri görməsəm,
Ürəyim vərəm bağlər.
= Bu dağlar, dərəm dağlar,
Gülü yox, dərəm dağlar.
Kəlbəcər alınmasa,
Ürəyim vərəm bağlar.
= Əzizim kərəm dağlar,
Gülü yox, dərəm dağlar.
Günüm belə keçsə,
Ürəyim vərəm bağlar.

108. Çiçəhliyəm, çiçəhli
Üsdüm dolu mirçəhli.
Girov qəbirsdannıxlərim deer, şəhitdərim deer, altım torpax, üsdüm daş,
Mən nejə yatım çiçəhli?

109. Əzizim birdə mən,
Doldur içim birdə mən.
Ömür keçdi gün keçdi,
Kəlbəcəri görmərəm bir də mən.

110. Bağımızda sarı ərik,
Sarı əriyi dərərik.
Allah qoysa gələcəkdə,
Kəlbəcər, səni görərik.

111. Yük üstə kilim yandı,
Əl vurdum əlim yandı.
İyirmi il vətən, vətən deməkdən,
Ağzımda dilim yandı.

112. Eləmi arpa səni,
Görəydim arpa səni.
Biləydim axır gedişindi,
Çəkərdim sarpa səni.

113. Aldı bu yara məni,
Gətirdi cana məni.
Olaydı öz bacım, qardaşım,
Salaydı məzara məni.

114. Eləmi bət-bət məni,
Ağrı tutub bət-bət məni.
Gələydi Zabil addı balam,
Gəzdirəydi kət-kət məni.

115. Arazın gəmisiylə,
Üstünün zəmisiylə.
Heç qaradan qara bəndə,
Qalmasın əmisiylə.

116. Göylə gedən qazdımı?
Qanadı sazdımı?
Ay Allah, bir də mənə yara vurdun,
Mənim dərdim azdımı?

117. Dağların lalasıyla,
Gülüylə, lalasıyla.
Ana, odun məni elə yandırır,
Yanının balasıyla.

118. Ay doğsun, ayan olsun,
Gün doğsun, ayan olsun.
Mənim belə günlərim,
Bala, sənə ayan olsun.

119. Yazaram öz aramda,
Pozaram öz aramda.
Bir balaca sirrim var,
Özümlə öz aramda.

120. Əzizim, keşgə sən,
Daşqın çayla keş gəl sən.
Belə ömrügödək olejeydin,
Yaranmıyeydin keşgə sən.

121. Qanlı çayı keçərdimmi?
Özgə eli seçərdimmi?
Məni zorla köçürdülər,
Heç könüllü köçərdimmi?

122. Sular arxeyin axsın,
Axsın arxeyin olsun.
Ana, mən gedər oldum,
Ürəyin arxeyin olsun.

123. Başı bəlalı yetim,
Üzü saralı yetim.
Dayaq duran olmasa,
Günü qaralı yetim.

124. Qızılgül ləçək-ləçək,
Bağladım göyçək-göyçək.
Deyillər vətən qayıdır,
Ay Allah, olsun gerçək.

125. Bənövşə açıq gözəl,
Qızlar telinə düzər.
Özüm qürbətdə qaldım,
Ruhum vətəndə gəzər.

126. Əzizim qara baxtım,
Qar yağdı, qara baxtım.
Həyat güldü üzümə,
Açıldı qara baxtım.

127. Eləmi gülə dəydi,
Mey əsdi gülə dəydi.
Namərdin atdığı daş,
Bu yazıq elə dəydi.

128. Əzizim gözüm qaldı,
Deməyə sözüm qaldı.
Ayrı düşdüm vətəndən,
Yollarda izim qaldı.

129. Elsiz qalıb dağlar,
Gülsüz saralıb dağlar.
Yağılar səndə gəzir,
Şair, ürəyim dağlar.

130. O yana bax, o yana,
Dağda bitən boyana.
Yarım məni axtarır,
Yolu düşüb o yana.

131. Bulağın daşı mənəm,
Üzüyün qaşı mənəm.
Gedib özgə axtarma,
Qızların başı mənəm.

132. Qəlbimə od düşübdü,
Yadıma yurd düşübdü.
Vətən dərdi çəkməkdən,
Ürəyimə dərd düşübdü.

133. Pəncərədə quşa bax,
Gözdən axan yaşa bax.
Cavanlar həlak olub,
Başa gələn işə bax.

134. Başında şalı bunun,
Üzündə xalı bunun.
Vətən, vətən deməkdən,
Çıxıbdı canı bunun.

135. Əzizim şam olsun,
Otda, yerin şam olsun.
Sən qapıdan girginən,
Oturum, gün axşam olsun.

136. Saranı sel ağladı,
Bülbülü gül ağladı.
Öləni öz anası,
Kəlbəcəri el ağladı.

137. İlmə bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Gəzdiyim günlərin hamısı,
Yadıma bir-bir düşər.

138. Əzizim ağla torpaq,
Yaramı bağla torpaq.
Qoynuna şəhid gəldim,
Əzizlə, saxla torpaq.

139. Ağlar kimi,
Dərdim var dağlar kimi.
Kaş bir dəfə güləydim,
Əvvəlki çağlar kimi.

140. Yaralarım göz-gözdü,
Ovruğ-ovruğ, göz-gözdü.
Əgər doğru həkimsən,
Gəl yarama göz gəzdir.

141. Əlim əlimdə deyil,
Ətək belimdə deyil.
Mal verib can qurtarmaq,
O da əlimdə deyil.

142. Yaxanda ilgək olmaz,
Üzündə gülmək olmaz.
Qardaş, gəl görüşək,
Səfərdi, bilmək olmaz.

143. Oğlan gedir ləziyə,
Dağıstana, Ləzəgiyə.
Bu oğlanlar elə qeyrətlidi,
Yarın verməz özgəyə.

144. Dərdimi daşa deyim,
Qaynaya, coşa deyim.
Ellər bir-bir deyəndə,
Mən ikisin qoşa deyim.

145. Bu oğlan adlı oğlan,
Şəkərdən dadlı oğlan.
Ay kimi şölə verdi,
Gün kimi batdı oğlan.

146. Yaşım üzümdə qaldı,
Axdı, üzümdə qaldı.
Nə qədər ümid etdim,
Dediyim gözümdə qaldı.

147. A belə çığırqandı,
Bir quş var çığırqandı.
Vətəndən elə didərgin düşdük,
Yollarımız, cığır qandı.

148. A belə sarı qardaş,
Sarı bığ, sarı qardaş.
Cənazəm əyri gedər,
Gəl özün sarı, qardaş.

149. Mənim dərdim bilinməz,
Gözdə yaşım silinməz.
Yaram köynək altdadı,
Açmayınca görünməz.

150. Fələyin ay əlindən,
Vur düşsün yay əlindən.
Bu fələk elə zalım oldu,
Heç almadıq pay əlindən.

151. Anam bulağa gəlsin,
Çaya, bulağa gəlsin.
Anam məni elə ağlasın,
Səsi qulağa gəlsin.

152. Atamın ilki qardaş,
Süleyman mülkü qardaş.
Sən hay ver, çatmasam,
Ölərəm bil ki, qardaş.

153. Boya girdim olmadı,
Dərdim, qoynum dolmadı.
Allah, nə qədər yalvardım,
Diləyim hasil olmadı.

154. Mən aşiq gül biçərəm,
Gülü güldən seçərəm.
Vətənimin yolunda,
Gözlərimdən keçərəm.

155. Bu yola yol salaydım,
Karvanını bol salaydım.
Belə çöllərə düşməkdənsə,
Gözümə ağ salaydım.

156. Görükən qara dağdı,
Ağ dağdı, qara dağdı.
Qardaş qardaşa söykənsə,
O da bir qara dağdı.

157. Əzizim üzəsən can,
Zülfündən üzəsən can.
Biləsən dost vəfalıdı,
Yolunda üzəsən can.

158. Əzizim məzələndim,
Hey sənlə məzələndim.
Vəfalı dostu gördüm,
Ürəyim təzələndi.

159. Əzizim, ya ilahi,
Yet dada, ya ilahi.
Bəndədən həkim olmaz,
Özün ol ya ilahi.

160. Mən aşiq, gəlməyəsən,
Gedərsən, gəlməyəsən.
Eləcə yad olarsan,
Gəlməyə-gəlməyə sən.

161. Mən aşiq, hayıf hanı?
Dərd səndən hayıf alır.
Bir gün olar mən ölərəm,
Deyərlər hayıf, hanı?

162. Aşiq qarşıma gələ,
Xalın qarşıma gələ.
Könlümün istədiyi,
Nə olar qarşıma gələ.

163. Əzizim qan iyi var,
Dünyada qan iyi var.
Bu qazan heç qaynamır,
İçində çox çiyi var.

164. Bağı bürümüş alma,
Bağda bürüşmüş alma.
Mən ta səni neynirəm,
Böyrü çürümüş, alma.

165. Maral bu dağa çatdı,
Bülbül budağa çatdı.
Ləblərin sorum bir az,
Dodaq dodağa çatdı.

166. Ay dağlar, uca dağlar,
Ucunu əy, uca dağlar.
Hey baxıram cavannığıma,
Marallı qoca dağlar.

167. Əzizim odu keçdi,
Qəlyanın odu keçdi.
Əlin qurusun ovçu,
Maral odu, keçdi.

168. Lələyəm azmamışam,
Hərfə qələm yazmamışam.
Quyu qazan özü düşsün,
Mən ki quyu qazmamışam.

169. Naxışın qaralıdı,
Əyridi, qaralıdı.
Gedirik ya toya, ya vaya,
Heç bilmirik haralıdı.

170. Dağlar başı qarmış,
Dibi bərham qarmış.
Əzəli gəlhagəl dünyanın,
Axırı yaman zəhrimarmış.

171. Gəzər evi tikə-tikə,
Kəs bağrımı tikə-tikə.
Məni anam ağlayırdı,
Kəfənimi tikə-tikə.

172. Atam sözü hər kəsin üzünə deyərdi, onda qorxu-zad yoxudu. Rayon icra komitəsi, rayon partiya komitəsinin katibi, şöbə müdirləri gəlirlər bizim kəndə. Bizim də ev yolun üstündə idi. Kişi də istol qoyuf qapıda oturmuşmuş. Katib deyir, salam-məlöyküm, ay Məhəmməd kişi. Buralarda elə bir ev olarmı oturax çay içək, bir də camahatı çağırax söhbət eliyək? Deyir, niyə olmaz, oğlum, bəlkə elə bilirsən kasıbçılıxdı. Deyir:

Əzizinəm qonaxlar,
Xoş gəlmisiz qonaxlar.
Demə babam qojadı,
Yüz sizin kimisin qonaxlar (söyləyicinin gözləri dolur – top.)

Atdan düşüflər, rəhmətdik anam da heyvan kəsir bunlara, çörək verir. Deyir, kişi, bağışla. Deyir, siz elə bilmiyin burda qonağa münasibət pis olar. Burda hansı evə gedirsən get orda qonağa hörmət çox böyükdü.

173. Bir oğlan gedirmiş. Gedir ki, ağacın dibində bir qəşəh gəlinnən bir oğlan oturuf çay içillər. Baxır ki, gəlin dünya gözəlidi, oğlan da çirkindi. Deyir, ay gəlin. Deyir, nədi, ay qardaş? Deyir:

Gədikdən aşan gəlin,
Xayati eşən gəlin.
Yarın çirkin, özün gözəl
Gəl bundan boşan, gəlin.

Deyir:

Gədikdən aşan mənəm,
Xayati eşən mənəm.
Yarım çirkin, özüm gözəl
Bəxtimdi, boşanmaram.

# OYUNLAR

## 1. KİLİMARASI

Kilimarası oyunu aylə-məişət mövzusundadır. Məzmunu belədir ki, ər-arvad olur, bir də başqa bir kişi olur. Qadın ərinə xəyanət eliyir, kişi də bunu götürmür, arvadını öldürür. O toy olmazdı ki, orda kilimarası oynanılmasın. Gəlini gətirərdilər. Gəlini atdan düşürdərdilər, bəyi də gətirərdilər, qövsvari durardılar. O tərəfdə gəlinin ayağının altında kəsməyə qurban hazırlıyırdılar. Bəy sağdiş, soldişnən o tərəfdə durardı, gəlin də üzündə örpək burda. Gəlinin qarşısında əvvəl maral oynuyardı, sonra kilimarası oynuyardı. Bunlar kilimarasına baxannan sonra keçərdilər evə. Onnan sonra qurban kəsilərdi, digər ayinlər icra olunardı.

Kilimarasını oynatmax o qədər çətin oluf ki... Taxtanı ipnən barmağa bağlıyırdılar, o da barmaxları doğruyurdu. Taxtanın başına pambıx qoyardılar, üstünnən parça atıf sarıyardılar barmağa. Sonra uşax paltarın geyindirirdilər. Qadına yaşmaq vurardılar, kişilərin başına papax qoyardılar. Kilimarasını hazırlamaq bir saat çəkirdi. Bir neçə adam ona gərək kömək eliyərdi. Həddinən artıq əzablı oluf.

Kilimarası üç oyuğnan oynanılır. İkisi kişi fiquru olur, biri qadın fiquru. Oyuğların ikisini ələ geyinirsən, üçüncü oyuğu da ayağa. Əvvəl qadın səhnəyə çıxır. Əlindəki ağ dəsmalnan əl eliyir, camahatı salamlıyır, çalğıçıları salamlıyır. Onnan sonra zurnada heyvagülü havası çalınmağa başlayır, qadın rəqs eliyir. İndi kilim əvəzinə pərdədən istifadə olunur, amma keçmişdə kilimin arxasında oynanılırdı. Camahat da ona əl çalırdı. İki nəfər hərəsi kilimin bir tərəfindən tutuf qaldırır, onun arxasında həmin oyun oynanılırdı. Bir xeylax oynuyannan sonra gəlinin əri çıxır böyürdən. Bunlar ikisi oynuyullar, rəqs edillər, qucaqlaşıllar. Danışıq olmur, ancaq hərəkətlərnəndi. Okqədər canlı ifa olunur ki, hətta tamaşaçı onların ürəyinnən keçəni də duyur. Kişi arvadını camahatın gözü qabağın-

da qucaxlayıf öpür, qadının acığı tutur, dalaşıllar. Kişi acığ eliyir gedir, yıxılır yatır. İşarə eliyir, zurnaçılar kəsir. Bu başdıyır ərin oyatmağa. Görür daş kimi yatıf ey, oyanmır. İşarə eliyir, çalğıçılar çalırlar, bu səfər o birisini oyadır. Həmin oyuğu da ayaxnan idarə eliyirik. Bunlar xeylax oynuyullar. Bunlar qucaxlaşıf öpüşəndə kişi böyürdən çıxır, xəncəri çəkib ikisin də öldürür.

İndi kilimarasına tamam fərqli məzmun verilir. Çünki sonradan məsləhət gördülər ki, adam öldürmək yaxşı deyil, sonluğu dəyişilsin. Onnan sonra sonlux dəyişdirilir. Qadın əri yatannan sonra məşuquynan oynayır, kişi oyananda arvad əriynən birləşib məşuqunun təpəsinə döyür.

## 2. MARAL OYUNU

Gəlin gələndə birinci kilimarası göstərilirdi, sonra maral oyunu oynanılardı. Oynuyuf qutarannan sonra maralı çıxarıf yerə qoyarlardı, camahat onun üstünə nəmər atardı. Keçmişdə maral fiquru oraxdan düzəldilərdi. Orağa qaşıxdan buynuz düzəldərdilər, üstünə qırmızı örtük atardılar.

Maral oyunu əfsanə deyil, olmuş hadisədən götürülüb. Bir bəy olur, bəyin də Sazağ addı bir çobanı olur. Sazağı havası da həmin çobanın adıynan bağlıdı. Bəyin çox gözəl bir qızı olur. Çobannan bu qız bir-birini sevirlər. Bir gün bu oğlan meşədən bir maral balası tapır. Gəlir ki, maral ya tələyə düşüb, ya da ovçu atıbdı, ölüb, yanında balası məliyir. Balanı götürür, gətirir evə. Qoyun südüynən bəsdiyir. Bir az dirçələnənnən sonra bağışlıyır sevgilisinə. Nəhayət elə olur ki, qız maralı özünə örgədir, əldə yedizdirir, ona oynamağ örgədir. Qız toya gedəndə maral da düşürmüş bunun dalına, toya gedirmiş. Qız çıxıf oynuyanda maral da gəlif onnan oynuyurmuş. Qız bulax başına gedəndə çoban da gələrmiş ora, maral da qızın dalınca gəlir axı. Çoban tütəkdə sazağı havası çalarmış, qız da oynuyarmış. Marala bu cür oynamağı örgədir.

Nəhayət, qızı istəmədiyi birinə zornan ərə vermək istiyillər. Toy başdanır. Oğlan evinin adamları gəlini aparmağa gələndə ba-

xıllar ki, – bu örtük (maralın örtüyü – top.) həmin gəlinin gərdəyinin simvoludu, – gəlin özünü öldürüf. Aləm qarışır bir-birinə, toy dönür yasa. Aparıllar gəlini dəfn eliyillər. Aradan iki gün keçir, qarının evində şivən qopur. Qarının nəvəsi olan çoban da özünü ağacdan asıb öldürüf. Camahat yığışır, çobanı qızın yanında dəfn eliyillər. Axşamüstü baxıllar ki, maral yoxdu. Nə qədər axtarıllar, maralı tapmıllar. Səhər uşaqlar örüşə mal aparanda baxıllar ki, qəbirstannıxda nəsə qızartı var. Gedillər ki, maral iki qəbirin arasında yatıf. Hay salıllar, bütün kənd qəbirstannığa qaçır. Baxıllar ki, maral iki qəbirin arasında ölüf. Bax, maralın örtüyü həmin gəlinin gərdəyidi. Bir nəfər oraxdan maral fiquru düzəldir, həmin gəlinin gərdəyini də üstünə atır. Bunda məqsəd nə oluf? Yanı iki sevəni bir-birindən ayırmaq istəyənlərə görk olsun. Bu, nakam məhəbbətin simvoludu. Ay atalar, ay analar, sevgilini ayırmaq olmaz, istəklini ayırmaq olmaz. Bax bunu təbliğ edir.

### 3. KAFTAR OYUNU

Kaftar oyunu Kəlbəcərin, əsasən, Oruclu və Ağcakənd kəndlərində oynanılırdı. Ağır ritmli havanın müşayəti ilə bayramlarda oynanılardı. Bu oyunu Oruclu kəndində ən çox Bəkir, bir də Cabbar kişi oynuyardı. Oyunun mənası vəhşi bir kaftarın insanı yeməsidi. Bir nəfəri kaftar görkəmində bəziyirdilər. Bir çömçəni çənəsinə bağlıyırdılar, birini yuxarı. Adam ağzını açıb yumanda çömçələr bir-birinə dəyib şakqıldayırdı. Ona da geyim geyindirirdilər. Ağız nahiyyəsini timsah ağzı kimi düzəldirdilər. O qədər qorxunc olurdu ki, qadınlar, uşaqlar onu görəndə qorxardılar. Oyunun məzmunu budur ki, bir igidin kaftarı öldürməyə güjü çatmır, ona hiyləynən qalib gəlir. Özünü ölülüyə vurur. Əyninə kəfən geyinir, gəlir uzanır kaftarın yolunun üstündə. Kaftar gəlir, bunu dik söyküyür divara, özü çəkilir geri. Ağzın şakqıldada-şakqıldada gəlir ki, bunu kəlləynən vura öldürə. Kəlləynən vurub öldürmək istəyəndə – bu ölü də canlı adamdı axı, özünü ölülüyə vurub, – böyrü üstə yıxılır, kaftarın başı divara dəyir. Kaftar bir də gedir, bir də qayıdır. Oyun kaftarı

öldürənə qədər davam eliyərdi. Kaftar o qədər başını divara çırpırdı ki, ölürdü. Onnan sonra kəfən geyinən adam çıxırdı, ayağını qoyurdu onun üstünə. Hamı bayram eliyirdi ki, kaftar öldü.

## 4. YEDDİ HÜNƏR

"Yeddi hünər" oyununu idarə edən bir ağsaqqal və bir ağbirçəkdən başqa oyunda iştirak edən adamlar, heyvanlar və əşyalar hər dəfə yeddi-yeddi olur. Bu oyun Novruz bayramında ilaxır çərşənbədə, habelə şənliklərdə icra olunur. Oyuna hazırlıq işləri qabaqcadan görülür və qaliblərə vermək üçün nəmər hazırlanır.

**Yeddi çoban:** Əvvəlcə camaatın tamaşa etdiyi meydana hərəsinin əlində bir çomaq olan yeddi nəfər çoban gəlir. Çobanın biri irəli çıxıb əlindəki ağacı dik tutaraq möhkəm saxlayır. Altı çobanın hərəsi öz çomağı ilə həmin çobanın dik tutduğu ağacı onun əlindən çıxarmaq üçün var gücü ilə zərbə endirir. Həmin zərbələrdən sonra Əgər çobanlardan birinin vurduğu zərbə ilə ağac onun əlindən çıxarsa, o, məğlub olur. Növbə ilə hər çoban öz ağacını dik tutub tək-tək altı zərbəyə hazır dayanır. Həmin zərbələrdən sonra ağac hansı çobanın əlindən çıxmasa, o, qalib hesab olunur və oyunu idarə edən ağsaqqal ona nəmər verir. Hədiyyə camahatın imkanından asılı olaraq yapıncı, çomaq, çarıq, corab və s. əşyalar olarmış.

Onu da deyək ki, hər oyunun əvvəlində ağsaqqal və ağbirçək oyunçuların şəninə şeir deyib onları ruhlandırarmış. Məsələn, çobanların şəninə deyilən şeirin bir parçası beləymiş.

Çoban hey!
Qoy dillənsin qarğı ney.
Yarın baxır qıyqacı,
Möhkəm saxla ağacı.
Ağac əlindən çıxmasın,
Yarın məlul baxmasın.

**Yeddi pəri:** Çobanlar getdikdən sonra meydana yeddi qız gəlir. Onların hər biri yeddi cağla[81] yeddi rəng ipdən corab toxumağa başlayır. Ağbirçək qızları ruhlandırmaq üçün deyir:

Deyiklin baxır sənə,
Qız, zirək tərpənsənə.
Dilində nəğmə oxu,
Əlində corab toxu.

Müəyyən edilən vaxt qurtaran kimi qızlar işi dayandırırlar. Ağbirçək toxunan corab hissələrini nəzərdən keçirir. Kim daha çox, incə, sıx və naxışlı toxuyubdursa nəmər sahibi olur. Ola bilsin ki, nəməri başqaları da alsın. Qızların evdarlıq məharəti bu yolla üzə çıxarılır.

**Yeddi çapar:**

Çapar hey!
Heç kimdən etmə giley.
Köhlənə qamçı çalma,
Yoldaşdan geri qalma.
Erkəyi yerdən götür,
Yar görsün atın ötür.

Ağsaqqal meydana daxil olan yeddi çaparın şəninə şeir söyləyir. Qara zurnanın səsləndirdiyi oynaq hava aləmi başına götürür. Atlar cilov gəmirir. Yolun qırağında müxtəlif yerlərdə yeddi erkək qoyun görünür. Minicilərdən hər biri atın çaparağına cəld yerə əyilib erkəyin birini götürüb qucağına qoymalı və dayanmadan geri qayıtmalıdır. Çaparlardan hansı belə hünər göstərsə, ona nəmər verilir.

**Yeddi nər:** Qabaqcadan hazırlanmış ağıla yeddi camış kəli və ya yeddi xam cöngə qatılır. Meydana yeddi nər igid daxil olur. Şərtə görə onların hərəsi bir-bir yeddi heyvanın boynunu qatlayıb yerə yıxmalıdır. Ağsaqqal elin bu saytal oğlanlarını gülərüzlə qarşılayıb deyir:

---

[81] Cağ – mil

İgid hey!
Boyun qatla peydərpey.
Gözlər səni gözləyir,
Yarın səni izləyir.

Pəhləvan cüssəli oğlanlar bir-bir ağıla daxil olub kəllərin üzərinə şığıyırlar. Yeddi kəlin buynuzunu qatlayıb yerə vurmaq o qədər də asan iş deyil. Bu hünəri edənlər alqışlar altında nəmər alırlar.

**Yeddi qaçar:** Yeddi qaçar meydanda görünür. Uzaqda yeddi topa küləş və yolda maneələr görünür. Quş qanadlı oğlanlar birnəfəsə yüyürərək maneələri keçməli, küləş topasına çatmalı, dayanmadan hərəsi bir topanı ayağı ilə dağıtmalı və ya ona od vurmalıdır. Ağsaqqal xeyir-dua verir:

Qaçar hey!
İgid qanad açar hey.
Yüyür bir-bir bəndi aş,
Yolda büdrə, nə də çaş.
Dağıt, od vur topaya,
El çağırsa yet haya.

Ağsaqqalın işarəsi ilə cəsurlar yerindən tərpənib ox kimi irəli süzürlər. Tələbə dürüst əməl edib meydana hamıdan tez qayıdana nəmər qismət olur.

**Yeddi ovçu:** Müəyyən məsafədə yeddi paya basdırılır və bunlar yağı düşmən adlandırılır. Əlində yay olan yeddi nəfərin hər birinə yeddi ox verilir. Yeddi oxla yeddi payanı vuran oyunun qalibi sayılır. Yay-ox olmadıqda hər nəfərə daş paylanır. Hər daşla bir payanı vurmaq lazım gəlir. El ağsaqqalı da mehribanlıqla onlara ürəkdirək verir:

Ovçu hey!
Görməkdə ol qartal, ley,
Ox payada zey açsın,
Yarın dodağı qaçsın.

Hər ovçu hədəfi nişan alıb bəxtini sınayır. Yeddi payanı vura bilən nəmərə layiq görülür.

**Yeddi gəlin:** Hələ oyun yenicə başlananda meydanda yeddi yerdə ocaq qalanır, yeddi qazan asılır. Yeddi gəlin hərəsi bu qazanların birində xörək bişirir. Ağbirçək gəlinlərə öyüd-nəsihət verir:

Qızım hey!
Payla şərbət, olsun mey.
Bişir ən dadlı xörək,
Yeyəndə ləzzət görək.

Oyun qurtaran kimi xörəklər hazır olur. Bütün məclis əhli süfrə başında oturur. Xörəklər paylanır. Hansı gəlinin bişirdiyi xörək daha dadlı hesab edilərsə, aldığı nəmər onu sevindirir.

## 5. İYNƏ-İYNƏ

On-on beş nəfər hərrəmə yerdə otururdu, ayaxların qabağa uzadırdı. Bir nəfər də idarə eliyirdi. İdarə eliyən adam oxuyurdu.

İynə-iynə,
Ucu düymə.
Mər-məricə
Mərik keçir.
Şam ağacı
Şatır keçir.
Əmim oğlu
Bir ağac atdı.
Haldur dedi,
Huldur dedi.
Yağnan qara,
Çıx qırağa.

Kimin qılçasında qutarırdısa, o çıxırdı, ortada ayaq üstə dururdu. Yerdə oturannar onu təpiknən vururdular, çalışırdılar onu yıxalar. Kimin üstünə yıxılsa, yerlərini dəyişirdilər: bu keçirdi onun yerinə, həmin şəxs ortada dururdu. Bu səfər onu təpikliyirdilər. O da kimin üstünə yıxılsa, ortada bu səfər o dururdu. Axırıncı oyunçu ayağa durana qədər oyun davam eliyirdi. Nə qədər uşaq varsa, gərək hamısının üstünə yıxılardı, onnan sonra oyun qutarardı.

## 6. MƏTƏYƏ SALMA

Komandada adamların sayı bərabər olurdu. Hər iki komandanın üzvləri belə seçilirdi. İki nəfər bəy dururdu. O biri uşaxlar iki-iki gəlirdilər. Özlərinə şərti ad qoyurlar. Daldada öz aralarında deyirdilər, mən "Xəzər", sən də "Neftçi". Gedirdilər bəy duranların yanına. Deyirdilər ki, "Xəzər"i istiyirsən, "Neftçi"ni? Bunlar bilmir axı, hansı hansıdı. Deyirdi, "Neftçi"ni. Adı "Neftçi" olan gedirdi onun yanına, o birisi də o biri bəyin komandasına keçirdi. Sonra o biri iki nəfər gəlirdi. Onlar da özünə heylə bir ad qoyurdu. Məsələn, biri özünə alma adı qoyurdu, o biri armud. Deyirdilər, almanı istiyirsən, armudu? Deyirdi, almanı. O formada bölüşürdülər. Bölüşənnən sonra püşk atırdılar ki, kim mətəni qoruyajax, kim başa çıxajax? Biri çıxırdı başa, biri də mətəni qoruyurdu.

Topu ağajdan düzəldirdilər. Ağajdan topa bənzər yumru bir şey yonub düzəldirdilər. Yumurta boyda bir top idi. Bir metr uzunnuğunda zopalar olardı. Eləsi olurdu çoban çombağı kimi olurdu. Eləsi olurdu, adi ağaj olurdu. Top mətəyə düşənnən sonra yerlər dəyişirdi. Bu komanda çıxırdı meydançaya top qovalamağa, onlar gəlif dururdu mətəni qorumağa. Mətəni qoruyan rahat olurdu. Əlində ağaj mətəni qoruyurdu.

**Oyunun təsviri[82]:** Oyun başlamazdan əvvəl beş mətə qazılır. Biri ortada, digər mətələr isə kənarda olur. Orta mətəyə baş mətə deyilir. Ətrafdakı mətələr isə bir-birindən bir ağacboyu məsafədə qazılır. Mətələr hazır olandan sonra işləyəcək adamın kim olduğunu müəyyən etmək lazım gəlir. Bunun üçün oyunçular əllərindəki ağacların ucunu baş çalaya qoyurlar. Kimin ağacı balacadırsa, o, ağacını bir ayaqboyu mətədən qabağa uzadır, çiliyi də onun ucuna qoyur. Sonra bir ayağı çalada olmaq şərtilə ağacla vurub çiliyi mətədən uzaqlaşdırır. Növbəylə o biri oyunçular da çiliyi qaldığı yerdən vurub

---

[82] Oyunun təsviri bizə məxsusdur. Buzovna qəsəbəsində məskunlaşmış Ağcakənd kəndinin sakinləri bəzi oyunları əyani şəkildə oynamış, həmin oyunlar İnstitutun əməkdaşları tərəfindən videolentə köçürülmüşdür. "Mətəyə salma", "Löpük-löpük", "Qaçmatop" və "Çilingağac" oyunlarının təsvirləri həmin görüntülər əsasında verilmişdir.

daha da uzaqlaşdırmağa çalışırlar. Çilik mətədən xeyli uzaqlaşdıqda artıq ağac ona çatmır, o zaman oyuncu ağacı atmaqla çiliyi vurmağa çalışır. Kim çiliyi vura bilmirdi, o yanırdı və ilk işləyən adam o olurdu.

İşləyəcək adamın kim olduğu bilinəndən sonra baş təyin edilir. Baş oyunçuların sayına görə müəyyən edilir. Əgər beş oyunçu varsa, baş beş metrdən təyin olunur, yeddi oyunçu varsa yeddi metrdən təyin olunur. Hər oyunçunun öz mətəsi olur və bir ayağı mətənin içində olmaqla baş mətəni gözləyir. İşləyən şəxs təyin olunmuş məsafədən çiliyi atıb baş mətəyə salmağa, mətəni qoruyan oyunçular isə əllərindəki ağacla onu mətədən uzaqlaşdırmağa çalışırlar. Elə olurdu ki, işləyən adam çiliyi atanda onu havada ikən vurub uzaqlaşdırırdılar. Buna qaytarma deyilirdi. Çilik hara gedirdisə həmin adam bu səfər ordan çiliyi atıb baş mətəyə salmalı idi. Bəzən məsafə çox uzaq olur, o zaman işləyən şəxs onu iki qola atıb salmağa çalışırdı. Baş mətəni qoruyan adamların bir ayağı mütləq mətənin içində olmalıdır, kim ayağını mətədən çəksə işləyən oyunçunun həmin mətəni tutmağa ixtiyarı var. Ona görə işləyən şəxs həm də mətəni qoruyanları güdürdü, kim ki ayağını öz mətəsindən çəkir, həmin an onun mətəsini tuturdu. Bu səfər işləmək növbəsi mətəsini itirən şəxsə keçirdi. İşləyən şəxs bəzən aldadıcı fəndlər işlədirdi. Çiliyi bir deyil iki qola atırdı, yaxud çiliyi elə atırdı ki, oyunçuya dəyib yerə düşürdü, bu zaman cəld tərpənib ayağını çiliyin üstünə qoyurdu, rəqibin onu vurub uzaqlaşdırmasına imkan vermirdi.

## 7. ÇIRTMA DAŞ

Çırtma daş oyunu dörd dənə yumuru daşnan oynanılır. Daşları atırdılar yerə. Daşı elə atmalıdırlar ki, onlar bir-birinə bitişik düşməsin. Bitişik düşsəydi, o yanırdı, daşları atmaq növbəsi o biri oyunçuya keçirdi. Daha sonra çırtmaynan daşları bir-birinə vururdular. Qabaqcadan da şərt kəsirdilər ki, hər vurulan daş beş baldan hesablanacaq. Müəyyən hədd təyin edirdilər. Məsələn, kim yüz xalı tez toplasa, o qalib hesab olunacaq. Daşın dördünü də bir vuruşa vura bilən yüz xalı toplamadan qalib gəlirdi.

## 8. LÖPÜK-LÖPÜK

Moza qurulan yerdə beş metr aralı məsafə təyin edilir, başqa sözlə baş təyin edilir. Oyunçular həmin məsafədən durub löpüklərini atırlar. Löpük nəlbəki boyda yastı daş olur və hər kəsin öz löpüyü olur. Kim löpüyünü ən uzaq məsafəyə atırsa, birinci o atmaq şansı qazanır. Löpüyü atmaqda da məqsəd mozanı aşırmaqdı. Moza da yastı daşın üstündə, dik vəziyyətdə qoyulur. Onun da gözətçisi olur. Gözətçi əlində top mozadan üç metr kənarda durur. Qabaxlar top yox idi, əlimizə qaloş alırdıq, onunla löpüyü aparanı vururduq.

Ən uzaq məsafəyə uçan löpüyü atır, mozanı aşırdır. Bu zaman gözətçi mozanı gətirif yerinə qoymalıdı. Onu gətirənə qədər isə löpük sahibi gəlib öz löpüyünü aparmalıdı. Gözətçi sənnən qabaq gəlib mozanı mətəyə qoyardısa, sən onun yerində dururdun, bu səfər o löpük atırdı.

Gözətçinin mozanı düzəldib dik vəziyyətə qoyana qədər löpük sahibini vurmağa ixtiyarı yoxdu. Löpüyü atan adam əgər mozanı vura bilmirsə, gəlib daşın üstə çıxana qədər gözətçi onu vurursa, gözətçi bu səfər o olur. Vura bilmirsə, o zaman löpük sahibi əlini vurmadan löpüyü alır ayağının üstünə, onu yuxarı atıb havada tutmalıdır. Tuta bilmir, əlindən düşürürsə, gözətçinin yenə onu vurmağa ixtiyarı var. Amma daşı tutdusa, artıq ona zaval yoxdu, saymazyana keçir başa.

Baş qoyurlar. Əvvəlcədən də məsləhətləşirlər ki, kim yüzə çıxdısa, qalib o hesab olunur. Axıra qalanı da minirlər. Hər dəfə mozanı vurduxca, mozaynan löpük arasındakı məsafəni ayaq boyu sayırlar. Kim həmin sayı topladısa o qalib hesab olunur, axıra qalanı da minirlər.

**Oyunun təsviri:** Löpük yastı daşdır, moza isə altı yastı, yuxarısı dik daşdır. Moza hamar bir daşın üstünə qoyulur. Ondan sonra löpüyü atmaq üçün baş (məsafə) təyin edilir. Oyunçulardan biri mozadan başlayıb dörd addım sayıb baş qoyur, ordan düz xətt çəkir. Löpüklərini həmin xəttin arxasından sırayla yerə qoyurlar. Birinci kimin löpüyüdürsə, ayağının birini arxadakı löpüyün üstünə

qoyub mozanı vurur. Növbəylə o biri oyunçular da löpüklərini atırlar. Mozanı vura bilən oyunçular kənarda durur, bu səfər vura bilməyən oyunçular öz aralarında yarışırlar. Axıra kim qalsa, mozanın gözətçisi o olur. Gözətçi əlində top mozanın tuşunda ondan bir metr kənarda durur. Gözətçinin funksiyası nədir: Gözətçi mozanı gözləyir. Əgər oyunçular mozanı vurub yıxarsa, onu gətirib yerinə qoymalıdır. Oyunçular löpüklərini atdıqdan sonra öz löpüklərini aparmağa gəldikdə gözətçi əlindəki topla onları vurmağa çalışır. Kimi vurarsa, onunla yerini dəyişir. Gözətçi üçün bir sıra qadağalar var. Əvvəla gözətçinin ayağı öz löpüyünün üstündə olmalıdır. Mozaya daha yaxın olmaq üçün mozanın tuşundan ayrılmamaq şərtilə löpüyü ayağının altında irəli, qabağa hərəkət elətdirə bilər, amma löpükdən ayağını çəkib oyunçunu vurarsa, bu sayılmır. İkinci, əgər oyunçu mozanı vurub yıxarsa, gözətçinin onu düzəltməmiş oyunçunu vurmağa ixtiyarı yoxdu. Üçüncü, gözətçi oyunçunu başla moza arasındakı məsafədə vurmalıdır. Əgər oyunçu baş təyin edilmiş yerdə olarsa, yaxud ayağı löpüyün üstündə olarsa, onu vurmağa ixtiyarı yoxdu. Oyunçular üçün də bir sıra qadağalar var: Onlar löpüklərini atarkən ayaqlarını baş təyin edilmiş xətdən qabağa atmamalıdır. Atarsa, gözətçinin onları vurmağa ixtiyarı var. Oyunçular löpüklərini atandan sonra o dəqiqə löpüklərinin arxasınca gəlmirlər. O biri yoldaşlarının da atmasını gözləyirlər. Hansı oyunçu löpüyü yıxdısa, gözətçinin başının mozanı düzəltməyə qarışmasından istifadə edib löpüklərini götürüb aparırlar. Löpüyünün arxasınca gələn oyunçunun onu əlinə almağa ixtiyarı yoxdu. Löpüyü bir ayağı ilə o biri ayağının üstünə alır, onu yuxarı ataraq havada tutur, ondan sonra sərbəst öz yerinə keçə bilər. Yox əlindən salardısa, o zaman gözətçi onu vura bilər.

## 9. ÇALAYA ATMA

Novruz bayramında çalaya atma oyunu oynuyardıq. Bir dənə çala düzəldilir. Çalanı da mümkün qədər üzdən edərdilər ki, içinə az fındıq düşsün, yaxud düşən fındıq ordan çıxsın. Beş, altı addım

sayıb cız çəkirdilər. Ayağı cıza qoyub çalaya fındıq atırlar. Heç kəsə ölçü qoyulmur. Kim nə qədər istiyir o qədər fındıq ata bilər. Bir nəfər çala başı durur. Şərt belədir ki, çalaya düşən fındığın sayı cütdürsə, çalanın başında duran ona həmin fındığın sayı qədər fındıq verməlidir. Tək oldusa, həmin fındıqlar çalanın başında durana çatır. Elə vaxt olub ki, həmin oyunda bir torba fındıq udan olub. Ən maraqlı oyun olub. Çox uşaq oynuyardı.

Çala başını da atışmaynan müəyyən edirdilər. Çalaya fındıq atardıq, kimin fındığı cüt düşdüsə o çala başı olardı.

## 10. XAN-VƏZİR

Dörd parça kağız kəsirlər. Birinin üstünə Məhəmməd yazırlar. Birinə milisoner, birinə Aşını, birinə də Ardağı yazırlar. Kağızları bükürlər, qarışdırıb atırlar ortaya. Hərə bir kağızı götürür. Milisoner kimə düşübsə, o deyir:

– Aşını! Aç Məhəmmədin başını.

Aşını Məhəmmədi tapır, papağın götürür. Milisoner bu səfər deyir:

– Ardağı, qaldır gəlsin bardağı.

Ardağı da bir bardaq suyu Məhəmmədin başına tökür. Bu oyunu əsasən yay vaxtı oynuyurdular.

## 11. YUMURTA OYUNU

**Qatara qoyma:** Mart ayı girəndən çıxana qədər ahıl yaşlı insanlardan tutumuş altı-yeddi yaşlı uşaqlara qədər hamı yumurta döyüşdürürdü. Qatar oyunu deyirlər, biz tərəfdə o çox mod idi. Misalçün, biri bazara bir vedrə yumurta gətirif satır. İki nəfər gəlirdi, bir vedrəni qoyurdu ortalığa. Bir yumurtanı o götürürdü, birini mən, döyüşdürürdük. Axırda kimin əlindəki yumurta sağ qalardısa, o udurdu. Uduzan yumurtanın pulunu verirdi, bir verdə yumurta udana qalırdı. Elə adam olurdu bir gündə on vedrə yumurta udurdu.

Yaxud qabaqcadan şərtləşirdilər ki, beş dənə, on dənə yumurtanı qatara qoyax. Yumurtanı qatara qoyurdular, bu başından

biri götürürdü, o biri başından o biri. Deyirdilər ki, kim birinci götürsə, o yatajax. Sən də baxırsan ki, birinci yumurta bərk yumurtaya oxşuyur, sən onu götürmək istiyirsən. Birinci götürürsənsə, yatırsan. Yatan yumurtanı əlində tuturdu, üstdəki də vururdu. Sınan yumurtaları da bir yerə yığırdılar. Əgər vuran adamın əlindəki yumurta sınarsa, bu səfər əl dəyişirdi: o yatırdı, o biri vururdu. Bu şəkildə qatar qutarana qədər yumurtaları döyüşdürürdülər, axırda kimin əlindəki yumurta sağ qalardısa, o qalib gəlirdi.

**Yumalatma[83]:** Yumalatma oyunu bişmiş yumurtaynan oynanılırdı. Elə vaxt olurdu bərk yumurta tapmaq üçün bir gündə yeddi kənd gəzirdik. Yumurtanı dişimizə vurub yoxluyurduq, hansı bərkdisə, seçib onu götürürdük. Belə-belə seçib on-on beş dənə yaxşı yumurta gətirirdik, o yumurtaynan da elə vaxt olurdu yüzə qədər yumurta udurduq.

Yumalatma oyunu belədir ki, yamac yerdən yumurtanı yumalıyırdılar. Çox vaxt peyinlikdə oynuyurdux. Malın peyinini töküb ayaxlıyırdılar, bərkiyif möhkəm olurdu. Onun üstünə yumurtanı yuxarıdan atsan belə sınmazdı. Beş nəfər, altı nəfər növbəynən yamacın yuxarısınnan yumurtanı buraxırdı. Qabaqcadan da püşk atırdıq, püşk kimə düşsə o birinci yumaladardı. Onun dalınca o biri oyunçu yumurtanı elə buraxmalıdı ki, həmin yumurta gedib o birinə dəysin. Əgər dəydisə, həmin yumurtanı udurdu. Udan adamın bir də yumurta yumalatmağa ixtiyarı vardı. Öz yumurtasını götürüf təkrar bir də yumalıyardı. Kim ki vura bilmirdi, yumurta qalırdı yerində. Bu şəkildə hamı yumalıyannan sonra bu səfər birinci yumalayan öz yumurtasını götürüf təzdən yumalıyırdı.

**Mərək qurma:** Fərz elə üç nəfərdi. Biri kənarda durub gözünü yumur. O biri iki nəfər peyindən üç topa qurullar. İkisinin içi boş olur, birinin içində yumurtanı gizlədillər. Gizliyib qutarandan sonra gözünü yumanı çağırıllar ki, gəl tap. Yumurtanın hansı topanın içində olduğunu tapırsa udur, tapmadısa uduzur.

---

[83] Ağcakənddə "hellamac" oyunu kimi tanınır.

## 12. ÇALAYA DÖYMƏ

Çalaya döymə oyunu ən azı üç nəfər arasında oynanır. Bir dənə çala qazıllar. Oyunçulardan biri hakim durur. Hakim əlində çöp tutur, o biri uşaqlar çöpü tapmalıdır. Çöpü kim tapmırsa, həmin adam çalada yatır: bir ayağını qoyur çalaya, durur orda. Çöldə qalan iki nəfər də çalışır ki, onu ya təpiknən vurub, ya da itələyib çaladan çıxarsın. Çalada yatanın isə onları itələməyə ixtiyarı yoxdu, ancaq ayağıynan çöldəki oyunçuları qurşaqdan aşağı vurmalıdı. Özü də bir ayağı daim çalada olmalıdı: ayağını çaladan götürsə uduzurdu və yenidən çalada yatmağa davam edirdi. Çöldəki oyunçulardan birinin ayağına vurardısa, bu səfər həmin adam çalada yatır. Vura bilmirdisə, çöldəkilər onu çaladan çıxardıb döyürdülər. O da onların əlindən çıxıb yenidən gəlib çalada dururdu, oyun yenidən davam edirdi.

## 13. HALDURUMAĞAC OYUNU

Heyvanı örüşə aparardıq, örüşdən qayıdanda haldurumağac oyunu oynuyardıq. Hamı ağacı evə tərəf atardı ki, yavaş-yavaş evə yaxınlaşsınlar. Qabaqcadan şərt kəsirdilər ki, kim uduzsa, ona şapalaq vurulacaq. Yaxud yerə mıx döyürdülər, dişiynən mıxı çəkməli idi. Mıxı da bıçağın dalıynan yerə döyürdük. Mıxın başı torpaqda itsə belə əliynən onu açmağa ixtiyarın yox idi, yalnız ağzınnan mıxın ətrafın oyub onu çıxarda bilərdin. Qabqcadan baş təyin edirdik. Məsələn, deyirdik baş əlli metrdi, kim əlli metri tez toplasa, o qalib gəlir.

Əvvəlcə ağacı birinci kimin atacağını müəyyən edirdik. Çobanlar ağaclarını atırdılar havaya. Biri ağacı atır göyə, o biri də çalışır ki, ya havada onun ağacını vursun, ya da yerə düşəndə bunun ağacı onun ağacını kəssin. Əgər ağacı göydə vura bilirdisə, yaxud yerdə onun ağacını kəsərdisə, birinci atmaq haqqını o qazanırdı. Bu dəfə o ağacını atır göyə, o biri də çalışır onun ağacını vursun. Əgər ağac ağacı kəsmirsə, onda düşən ağaclar arasındakı məsafəni ölçürdülər. Kim əlli metri ilk toplasa, o qalib hesab olunurdu.

## 14. QAÇMATOP

Qaçmatop oyununu hər dəstədən iki nəfər olmaqla dörd nəfər oynuyur. Qabaqcadan yüz addım sayıb məsafə təyin edirlər. Onun başı, ayağı bilinsin deyə çızıq çəkirlər. Daha sonra işləyən tərəfi müəyyən etmək üçün çöp tutulur. Çöpü tapan dəstə başda durur, tapmayan tərəf isə işləyir. Başda duran oyunçu qolu yana açılmış vəziyyətdə durur, işləyən tərəf isə topu onun ovcunun içinə atmalıdır. Ola bilər ki, işləyən tərəf topu dəqiq verməsin: onu ya hündürdən atsın, yaxud yana atsın. Top dəqiq verilmədikdə işləyən tərəf özü gedib topu gətirməlidir. Əgər başda duran şəxs çaşıb özü gətirərsə, onda özü yanmış olur. Top verildikdə başda duran şəxs çalışır onu mümkün qədər daha uzağa vursun ki, rəqib oyunçu topu gətirənə qədər başla ayaq arasındakı məsafəni qət edə bilsin. Oyunçu başda və ya ayaqda olduqda rəqib oyunçunun onu vurmağa ixtiyarı yoxdu. Onu yalnız başla ayaq arasındakı məsafədə vura bilər. Ona görə də işləyən tərəf çalışır ki, rəqib oyunçu başla-ayaq arasındakı məsafəni qət etməmiş topu ələ keçirib onu vursun. Rərib oyunçu topu vurduqda işləyən tərəf onu havada tutarsa, rəqib dəstə uduzur və tərəflər yerlərini dəyişirlər.

Topu vurduqdan sonra oyunçu qaça bilmirsə onda dəvə boyu verilir. İşləyən tərəf ayaqda xəttin üstündə durur, rəqib oyunçu isə ondan üç addım qabaqda dayanır. İşləyən tərəf topu havaya atır, topu tutana qədər o biri oyunçu qaçıb başa gəlməlidir. Başa çatana qədər rəqib oyunçu onu vurarsa, həmin dəstə uduzur. Ona görə də dəvə boyu verən tərəf fənd işlədir. Birinci, ikinci dəfə əlini yalandan yuxarı qaldırıb endirir, üçüncüdə rəqibin gözləmədiyi anda topu göyə atır ki, onun qaçmağa imkanı olmasın. Ümumiyyələ, dəvəboyu ən geci üç top müddətində verilməlidir.

## 15. ÇİLİNGAĞAC

Oyuna başlamazdan əvvəl iki nəfər bəy durur, digər oyunçular isə özlərinə şərti ad qoyaraq iki-iki halay bəylərin yanına

gəlirlər. Məslən, biri özünə qar, digəri yağış, biri qoz, digəri fındıq adını qoyur. Halay bəy hansını seçsə həmin oyunçu onun yanında, digər oyunçu isə digər halay bəyin yanında durur. Dəstənin bütün üzvləri məlum olduqdan sonra işləyən tərəfin kim olduğunu müəyyən etmək üçün püşk atılır. Püşkü udan tərəf başda qalır, uduzan dəstə isə işləyən tərəf olur. Həmin dəstənin üzvləri ətrafa dağılaraq hər kəs öz yerini alır. Təsvirini verdiyimiz oyunda hər dəstənin dörd üzvü vardır.

Çilingağac oyunu *toxmaq vuruşu*ynan başlayır. Toxmağın yuxarısından bir qarış buraxaraq aşağısından əlnən tuturlar. Daha sonra çilik toxmağın ucuna qoyulur. Çiliyi havaya atıb toxmağın arxasıyla onu irəli vururlar. Vuruşu etdikdən sonra toxmaq mətənin ortasına qoyulur. Çilik havada ikən rəqib oyunçu onu ya əliylə tutmağa, ya da əlindəki toxmaqla vurmağa çalışır. Çiliyi tuta bilərsə, vuran oyunçu yanır. Tuta bilmədikdə isə çilik hara düşübsə, ordan atıb toxmağı vurmalıdır. Vura bilirsə, həmin şəxs yanır, bu səfər vurmaq növbəsi dəstənin o biri üzvünə keçir. Çilik havada ikən rəqib oyunçu toxmaqla onu vurduqda, cəza olaraq vuruşun biri artır. Yəni çiliyi oyuna daxil edən tərəf əvvəl üç toxmaq vurmalı idisə, indi dörd vuruş etməli olur. Toxmaqda hər oyunçunun üç dəfə vuruş etmək haqqı olur. Üç vuruşdan sonra *yanqu vuruşu* gəlir. Yanquda vuruşların sayı beş, yeddi və daha çox ola bilər. Bu oyunçular arasındakı razılıqdan asılıdır. Yanqu vuruşunda oyunçu çiliyi havaya atıb toxmaqla onu irəli vurur, rəqib oyunçu isə toxmaqla çiliyi havada ikən vurmağa çalışır. Vura bilərsə, həmin oyunçu yanır. Vura bilmədikdə isə çiliyi mətəyə elə atmalıdır ki, o bir ağac boyu qədər mətəyə yaxınlaşmalıdır. Vuran tərəf mətəylə çiliyin arasındakı məsafəni ölçür, əgər çilik bir ağac boyundan yaxın düşübsə, vuruşu edən tərəf yanır. Yanqu vuruşu qurtardıqdan sonra *qara yanqu* gəlir. Qara yanquda isə vuruşların sayında məhdudiyyət yoxdur. Rəqib oyunçular çiliyi mətənin içinə salana qədər oyun davam edir.

## MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ HAQQINDA MƏLUMAT

1. **Qulf haqqında.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
2. **Yeddi qardaş ilan.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
3. **Əsirlikdən qaçan.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
4. **Lövhi-məhfuz.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
5. Nəzərov Həbib Mənsim oğlu, Bağırlı kəndi
6. Nəzərov Həbib Mənsim oğlu, Bağırlı kəndi
7. **Şeytan fəhlələri.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
8. **Süleyman peyğəmbərnən bayquş.** Alıyev Çərkəz Məhəmməd oğlu, Ağcakənd kəndi
9. **Süleyman və qarışqa.** Səfərova Muxək Qaraca qızı, Ağdaban kəndi
10. Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
11. **Məhəmməd peyğəmbər və Salman.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
12. **Həzrət Əli və üç əsgər.** Səfərova Muxək Qaraca qızı, Ağdaban kəndi
13. **Yerin-göyün ağırlığı.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
14. **Həzrət Əli və Salsal pəhlivan.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
15. **Həzrət Əliynən Rüstəm Zal.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
16. **Həzrət Əlinin Şəhri-Zərə yürüşü.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
17. **Həzrət Abbas.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
18. **Hatəm.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
19. **Seyid Manaf ağa.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
20. **Şıx Həsən.** "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
21. **Kalba Ellaz və Məmmədușağı nəsli.** Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
22. Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
23. Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
24. "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
25. İbrahimov Tahir Həsən oğlu, Kəlbəcər şəhəri

**26.** **Geştək.** Həsənov Əli Abduləli oğlu, Armudlu kəndi
**27.** Həsənov Əli Abduləli oğlu, Armudlu kəndi
**28.** Kamalov Qulu Camal oğlu, Yellicə kəndi
**29.** Kamalov Qulu Camal oğlu, Yellicə kəndi
**30.** "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
**31.** **Molla Bayramlı.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**32.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**33.** **Ağcakənd.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
**34.** Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
**35.** Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
**36.** **Narınclar.** Tahirov Kamran Əziz oğlu, Narınclar kəndi
**37.** **Xallanlı.**
**38.** "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
**39.** **Əsrik.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**40.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**41.** Cabbarov Təhməz Səttar oğlu, Əsrik kəndi
**42.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**43.** Cabbarov Təhməz Səttar oğlu, Əsrik kəndi
**44.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
**45.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**46.** **Bəylik.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**47.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**48.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**49.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**50.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
**51.** **Alxaslı.** Quliyev Vaqif İsmayıl oğlu, Hacıkənd kəndi
**52.** İsayev Eldar Mehdi oğlu, Hacıkənd kəndi.
**53.** **Seyidlər.** Əliyev Əfqan Əzim oğlu, Seyidlər kəndi
**54.** **Ağdaban.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
**55.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
**56.** Kərimov Vaqif Nəsir oğlu, Ağdaban kəndi
**57.** Bayramov Ərəstun Fərəc oğlu, Ağdaban kəndi
**58.** **Bağırlı.** Nəzərov Həbib Mənsim oğlu, Bağırlı kəndi
**59.** Nəzərov Həbib Mənsim oğlu, Bağırlı kəndi
**60.** **Milli.** Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi

61. Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi
62. **Çərəkdar.** Məmmədov Əlövsət Sarı oğlu, Çərəkdar kəndi
63. Məmmədov Əlövsət Sarı oğlu, Çərəkdar kəndi
64. **Gəlin qaya.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
65. Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
66. **Ceyran bulağı.** Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
67. **Qar arxac.** Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
68. **Keyti dağı.** "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
69. **Soğanatılan qaya.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
70. **Sümüktökülən dərə.** Muxtarov Zahid Fərhad oğlu, Yellicə kəndi
71. **Laçın qayası.** Muxtarov Zahid Fərhad oğlu, Yellicə kəndi
72. **Qoturlu.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
73. **Şah Abbasın fərracı.** Kərimov Nəbi Süleyman oğlu, Məmməd-ușağı kəndi
74. **Qızıl çarıq.** Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
75. **Kərbəlayi Həcər.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
76. **Kürdoğlu Məhəmməd.** Bayramov Ərəstun Fərəc oğlu, Ağdaban kəndi
77. Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
78. Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
79. Söyləyicisi məlum deyil.
80. Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
81. Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
82. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
83. **Məşədi Cəmil.** Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi,
84. Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
85. Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri
86. **Hacı Həsənalı.** Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri
87. **Məşədi İsgəndər.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
88. Məmmədov Əyyub Əli oğlu, Ağcakənd kəndi
89. Məmmədov Əyyub Əli oğlu, Ağcakənd kəndi
90. **Arğalı.** Əliyev Əfqan Əzim oğlu, Seyidlər kəndi
91. Əliyev Əfqan Əzim oğlu, Seyidlər kəndi
92. **Hacalı Yoldaş.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi

93. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
94. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
95. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
96. **Haxo pəhlivan.** Həsənov Əli Abduləli oğlu, Armudlu kəndi
97. Həsənov Əli Abduləli oğlu, Armudlu kəndi
98. "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
99. "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
100. **Nəbi pəhlivan.** Həsənov Əli Abdulәli oğlu, Armudlu kəndi
101. Həsənov Əli Abdulәli oğlu, Armudlu kəndi
102. Həsənov Əli Abdulәli oğlu, Armudlu kəndi
103. **Slo pəhlivan.** "Gəlimli-gedimli dünya" (Bakı, 2001)
104. **Keçəl Baxış.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
105. **Kərbəlayi Şəldi.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
106. **Vegili adamlar**. Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
107. Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
108. **Ağsaqqal məsləhəti.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
109. **Ürək dostu.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
110. **Camışın əməli.** Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi
111. **Qismət haqqında.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
112. **Nəbiyə də bö, Allahverdiyə də bö?** Əliyev Əfqan Əzim oğlu, Seyidlər kəndi
113. **Mən çəkən köşədirsə, qırılmaz.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
114. **Ağdaban faciəsi.** Səfərova Muxək Qaraca qızı, Ağdaban kəndi
115. **Xıdır Nəbi.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
116. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
117. **Qodu-qodu.** Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri
118. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
119. **Toy qardaşlığı.** Məmmədov Əyyub Əli oğlu, Ağcakənd kəndi
120. **Toy adətləri.** Rüstəmova Şirmayə Abdulla qızı, Ağcakənd kəndi
121. Bayramova Sədət Cabbar qızı, Ağcakənd kəndi
122. Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
123. **Kirvəlik.** Rüstəmova Şirmayə Abdulla qızı, Ağcakənd kəndi

**124. Zərgərin nağılı.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
**125.** Alıyeva Səfurə İsmayıl qızı, Ağcakənd kəndi
**126. Əsl dost.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
**127. Şıx Səyad.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
**128. Adam şeytan.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
**129. Musa peyğəmbər və Qara qul.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**130. Comərd qəssab.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**131. Qəşəmşəm.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**132. Səxavət yaxşıdı, yoxsa ibadət?** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**133. Musa Allahı qonaq çağırır.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**134. Süleyman və qoca dünya.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi
**135. Üç qardaş**. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
**136. Tacir qızı.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
**137. Peyğəmbər və dəyirmançı.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
**138. Allaha pənah.** Xəlilova Maçan Mehralı qızı, Ağcakənd kəndi
**139. Suynan yanan çıraq.** Xəlilova Maçan Mehralı qızı, Ağcakənd kəndi
**140. Malyeməzin nağılı.** Xəlilova Maçan Mehralı qızı, Ağcakənd kəndi
**141. Yazıya pozu yoxdu.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**142. Naxırçı qızı.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**143. Məhbubə xanım.** Alıyev Çərkəz Məhəmməd oğlu, Ağcakənd kəndi
**144. Qaşıqçının nağılı.** Məmmədova Səadət Rəhim qızı
**145. Padşah və ağıllı qızı.** Məmmədova Səadət Rəhim qızı
**146. Bəhlul Danəndə.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
**147.** Məmmədova Zöhrə Mehralı qızı, Ağcakənd kəndi
**148.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
**149. Şeyx Sədi.** Quliyev Vaqif İsmayıl oğlu, Alxaslı kəndi
**150.** Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi

151. **Kərbəlayi Fərəc.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
152. Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi
153. Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi
154. Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi
155. Məmmədov Qəmbər Hüseyn oğlu, Ağcakənd kəndi
156. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
157. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
158. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
159. Məmmədova Zöhrə Mehralı qızı, Ağcakənd kəndi
160. Məmmədova Zöhrə Mehralı qızı, Ağcakənd kəndi
161. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
162. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
163. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
164. **Rəfi kişi.** Məmmədov Qəmbər Hüseyn oğlu, Ağcakənd kəndi
165. Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
166. Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
167. Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri
168. Heydərov Yunus Məhəmməd oğlu, Kəlbəcər şəhəri
169. Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
170. Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
171. **Dəli Bavış.** Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
172. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi
173. Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi
174. Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi
175. **Kalvalı.** Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri
176. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
177. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
178. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
179. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
180. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
181. **Dədəsinin qiymətini qoyub üstünə.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
182. **Molladan qaç, lotuya maç.** Heydərov Yunus Məhəmməd oğlu, Kəlbəcər şəhəri

**183. Sən qapıda qonağı, arpada qatırı tanımırsan.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
**184. Üzümü bir-bir yeyərlər.** Alıyeva Səfurə İsmayıl qızı, Ağcakənd kəndi
**185. Loğman və oğlu.** Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi
**186. Səksəndəndir.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
**187. Bizdən adam olmayacaq.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
**188. Boz maydan.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
**189. Qılınc gördüm, qında görmədim.** Abbasova Günəş Şəmşir qızı
**190. Şəfi bəy görünmür?** Şirinov Muxtar Bahadur oğlu, Kəlbəcər şəhəri
**191. Səndən Məhəmməd olmaz.** Şirinov Muxtar Bahadur oğlu, Kəlbəcər şəhəri
**192. Bu hi o hidən deyil**. Cabbarov Təhməz Səttar oğlu, Əsrik kəndi
**193. Bir üfürə, bir səbirə.** Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi,
**194. Metis qoyun.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
**195. Aşıq Alının Türkiyə səfəri.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**196. Aşıq Alının İran səfəri.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**197. Bəstinamə.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**198. Aşıq Ələsgərnən Aşıq Qurbanın görüşü.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**199. Səməd Vurğunun Kəlbəcər səfəri.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**200. Aşıq Həmidin Qarabağ səfəri.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi
**201. Növrəs İmanla Aşıq Sadığın deyişməsi.** Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi
**202. Gəlmədin.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
**203. Laçına.** Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi

## İNANCLARIN SÖYLƏYİCİLƏRİ

1. **Əsgərova Torağa Albəndə qızı:** 1
2. **Bayramova Sədət Cabbar qızı:** 2, 3
3. **Alıyeva Səfurə İsmayıl qızı:** 4
4. **Quliyev Vaqif İsmayıl oğlu:** 5, 6, 7
5. **Məmmədov Əlövsət Sarı oğlu:** 8, 9, 10
6. **Abbasov Bəhlul Kavış oğlu:** 11, 13
7. **Dadaşov Məhəmməd Muxtar oğlu:** 12
8. **Babaxanova Əzizə Salah qızı, Sarıdaş kəndi:** 34, 37
9. **Babaxanova Bənövşə Əli qızı, Sarıdaş kəndi:** 35, 38
10. **Abbasova Günəş Şəmşir qızı:** 36, 40, 41
11. **Məmmədova Səadət Rəhim qızı:** 39
12. **Alşanov Sevil İbrahim qızı, Qamışlı kəndi:** 42, 44
13. **İsmayılova Sədaqət Qoca qızı, Əsrik kəndi:** 43, 48
14. **Bayramova İnsaf Hüseyn qızı, Qılıçlı kəndi:** 45, 47
15. **Nəcəfov Nəsir Cəmil oğlu, Dərəqışlaq kəndi:** 46

## ATALAR SÖZLƏRİNİN SÖYLƏYİCİLƏRİ

1. **Cabbarov Təhməz Səttar oğlu:** 3
2. **Əsgərova Torağa Albəndə qızı:** 6, 7, 27
3. **Süleymanov Yaqub Hüseyn oğlu:** 20, 30
4. **Məmmədov Əlövsət Sarı oğlu:** 26, 31
5. **Kərimov Nəbi Süleyman oğlu:** 1, 2, 4, 5, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 21, 22, 23, 24, 25, 28, 29, 32, 33, 34, 35, 36, 37, 38, 39, 40, 41.

## BAYATILARIN SÖYLƏYİCİLƏRİ

1. **Ələkbərova Gözəl Süleyman qızı:** 1-66
2. **Əsgərova Torağa Albəndə qızı:** 67-80
3. **Bayramova Sədət Cabbar qızı:** 81-97
4. **Kərimova Sərvinaz Xalıqverdi qızı:** 98-108
5. **Abbasova Günəş Şəmşir qızı:** 109-122
6. **Kərimova Şamama Nəbi qızı:** 123-135
7. **Həşimova Səmayə Ədil qızı:** 136-139

8. **Nəbiyeva Validə Ədil qızı:** 140-156
9. **Məmişov Xansuvar Şahsuvar oğlu:** 157-159
10. **Abbasova Gülzaman Müseyib qızı:** 160-164

## OYUNLARIN SÖYLƏYİCİLƏRİ

1. **Kilimarası oyunu.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
2. **Maral oyunu.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
3. **Kaftar oyunu.** Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi
4. **Yeddi hünər.** Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı..., (Bakı, 1998).
5. **İynə-iynə.** Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi
6. **Mətəyə salma.** Alıyev Çərkəz Məhəmməd oğlu, Ağdaban kəndi
7. **Çırtmadaş.** Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi
8. **Löpük-löpük.** Süleymanov Yaqub Hüseyn oğlu, Ağcakənd kəndi
9. **Çalaya atma.** Süleymanov Yaqub Hüseyn oğlu, Ağcakənd kəndi
10. **Xan-vəzir.** Süleymanov Yaqub Hüseyn oğlu, Ağcakənd kəndi
11. **Yumurta oyunu.** Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi
12. **Çalaya döymə.** Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi
13. **Haldurumağac.** Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi

## SÖYLƏYİCİLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

1. Abbasov Bəhlul Kavış oğlu, Seyidlər kəndi, təvəllüdü 1938, təhsilsiz. Məskunlaşdığı yer: Göygöl, Murovdağ kəndi. İnamlar: 11, 13; Toplayan: A.Abbasova

2. Abbasova Gülzaman Müseyib qızı, Laçın kəndi, təvəllüdü 1930. Məskunlaşdığı yer: Abşeron rayonu. Bayatılar: 160-164; Toplayan: A.Abbasova

3. Abbasova Günəş Şəmşir qızı, Nəcəfalı kəndi, təvəllüdü 1935. Məskunlaşdığı yer: Tərtər, Buruç kəndi. **Söylədiyi mətnlər:** 189. İnamlar: 36, 40, 41; Bayatılar: 109-122; Toplayan: A.Abbasova

4. Alıyev Çərkəz Məhəmməd oğlu, Ağcakənd kəndi, təvəllüdü 1950. Ali təhsilli riyaziyyat müəllimi. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətnlər:** 8, 143. Oyunlar: 6

5. Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi, təvəllüdü 1940, texnikom təhsilli, molla. Məskunlaşdığı yer: Gəncə şəhəri, Gülüstan qəsəbəsi. **Söylədiyi mətnlər:** 4, 7, 13, 14, 19, 31, 32, 75, 106, 107, 129, 130, 131, 132, 133, 134, 150.

6. Alıyeva Səfurə İsmayıl qızı, Ağcakənd kəndi, təvəllüdü 1955, ali təhsilli, kitabxanaçı. Məskunlaşdığı yer: Biləcəri qəsəbəsi. **Söylədiyi mətnlər:** 125, 184; İnamlar: 4.

7. Bayramov Ədalət Şirin oğlu, Ağcakənd kəndi, təvəllüdü 1946, ali təhsilli. Məskunlaşdığı yer: Buzovna qəsəbəsi. **Söylədiyi mətnlər:** 34, 35, 74, 80, 81. Oyunlar: 12, 13.

8. Bayramov Ərəstun Fərəc oğlu, Ağdaban kəndi, təvəllüdü 1951, orta-ixtisas təhsilli şofer. Məskunlaşdığı yer: Tərtər rayonu. **Söylədiyi mətnlər:** 57, 76.

9. Bayramova Sədət Cabbar qızı, Ağcakənd kəndi, təvəllüdü 1924, təhsilsiz. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətnlər:** 121. Bayatılar: 81-97.

10. Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi, təvəllüdü 1949, ali təhsilli, hazırda icra nümayəndəsidir. Məskunlaşdığı yer: Şamaxı rayonu, Çuxuryurd qəsəbəsi. **Söylədiyi mətnlər:** 39, 40, 42, 43, 45, 46, 47, 48, 49, 50, 82, 92, 93, 94, 95, 171, 172.

11. Cabbarov Təhməz Səttar oğlu, Əsrik kəndi, təvəllüdü 1931, orta-ixtisas təhsilli. Məskunlaşdığı yer: Şamaxı rayonu, Çuxuryurd qəsəbəsi. **Söylədiyi mətnlər:** 41, 192.

12. Dadaşov Məhəmməd Muxtar oğlu, Qamışlı kəndi, təvəllüdü 1932, təhsilsiz. Məskunlaşdığı yer: Goranboy, Meşəli kəndi. İnamlar: 12. Toplayan: A.Abbasova

13. Ələkbərov Aslan Süleyman oğlu, Kəlbəcər şəhəri, təvəllüdü 1949, təhsilli. Məskunlaşdığı yer: Gəncə şəhəri, Gülüstan qəsəbəsi. **Söylədiyi mətnlər:** 85, 86, 117, 167, 175.

14. Ələkbərova Gözəl Süleyman qızı, Kəlbəcər şəhəri, təvəllüdü, 1946, orta təhsilli, kitabxanaçı işləyib. Məskunlaşdığı yer: Gəncə şəhəri. Söylədiyi bayatılar: 1-66.

15. Əliyev Əfqan Əzim oğlu, Seyidlər kəni, təvəllüdü 1956, ali təhsilli. Məskunlaşdığı yer: Buzovna qəsəbəsi. **Söylədiyi mətnlər:** 53, 90, 91, 112.

16. Əsgərova Torağa Albəndə qızı, Ağcakənd kəndi, təvəllüdü 1934, yeddi illik təhsil. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətnlər:** 152, 153, 154, 185, 193. Bayatılar: 67-80.

17. Heydərov Yunus Məhəmməd oğlu, Kəlbəcər şəhəri, təvəllüdü 1954, ali təhsilli. Məskunlaşdığı yer: Gəncə şəhəri. **Söylədiyi mətnlər:** 168, 182.

18. Həsənov Əli Abduləli oğlu, Armudlu kəndi, təvəllüdü 1950, orta təhsilli, tibb işçisi. Məskunlaşdığı yer: Gəncə şəhəri, Gülüstan qəsəbəsi. **Söylədiyi mətnlər:** 26, 27, 96, 97, 100, 101, 102..

19. Həşimova Səmayə Ədil qızı, Comərd kəndi, təvəllüdü 1940, təhsilsiz. Məskunlaşdığı yer: Xırdalan şəhəri. Bayatılar: 136-139; Toplayan: A.Abbasova

20. Xəlilova Maçan Mehralı qızı, Ağcakənd kəndi, təvəllüdü 1936, orta təhsilli. Məskunlaşdığı yer: Yevlax rayonu. **Söylədiyi mətnlər:** 138, 139, 140.

21. İbrahimov Tahir Həsən oğlu, Kəlbəcər şəhəri, təvəllüdü 1942. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətn:** 25.

22. Kamalov Qulu Camal oğlu, Yellicə kəndi, təvəllüdü 1930, ali təhsilli, ticarətçi. Məskunlaşdığı yer: Biləcəri qəsəbəsi. **Söylədiyi mətnlər:** 28, 29.

23. Kərimov Nəbi Süleyman oğlu, Məmmədușağı kəndi, təvəllüdü 1928, təhsilsiz, çoban. Məskunlaşdığı yer: Gəncə şəhəri, Gülüstan qəsəbəsi. **Söylədiyi mətnlər:** 21, 22, 23, 65, 66, 67, 73, 83, 84.

24. Kərimov Vaqif Nəsir oğlu, Ağdaban kəndi, təvəllüdü 1947, ali təhsilli. Məskunlaşdığı yer: Tərtər rayonu. **Söylədiyi mətn:** 56.

25. Kərimova Sərvinaz Xalıqverdi qızı, Ağcakənd kəndi, 1938-ci il təvəllüdlü, təhsilsiz. Məskunlaşdığı yer: Yevlax rayonu. Bayatılar: 98-108. Toplayan: N.Həsənova

26. Kərimova Şamama Nəbi qızı, Milli kəndi, təvəllüdü 1940, təhsilsiz. Məskunlaşdığı yer: Goranboy rayonu. Bayatılar: 123-135. Toplayan: A.Abbasova

27. Quliyev Vaqif İsmayıl oğlu, Hacıkənd kəndi, təvəllüdü 1935, orta təhsilli. Məskunlaşdığı yer: Gəncə şəhəri. **Söylədiyi mətnlər:** 51, 149.

28. Mahmudov Xalıqverdi Həmid oğlu 1934-cü ildə Kəlbəcər rayonunun Zivel kəndində anadan olub. Atası Həmid Mirzə Bağır oğlu da aşıq olub. On iki yaşında bir oğlu dünyasını dəyişdiyindən sonradan bu sənəti işlətmir. Aşıq Xalqverdi aşıqlıq sənətinin ilk sirlərini atasından öyrənir. Sonralar atası iflic olur və bir tərəfi demək olar ki işləmir. Ondan sonra Həmid Mirzə Aşıq Şəmşirə "Göstər nabələdə yol, qəbul eylə" misralı bir şeir yazır və ondan oğlunu şəyirdliyə götürməsini xahiş edir. Aşıq Şəmşir Xalıqverdini şəyirdliyə qəbul etməzdən əvvəl onu sınayır. Ona sazda bir hava çaldırır, sazın başı və ayağının hara olduğunu soruşur. Xalıqverdinin verdiyi cavabdan razı qalan Şəmşir "ustad oğlunun xamı olmaz" deyib onu şəyirdliyə qəbul edir. Aşıq Şəmşirin yanına gedəndə Xalıqverdinin 20-21 yaşı olardı. Şəmşirin yanında aşıqlıq bilgilərini daha dərinləşdirir və onun ən sevimli şəyirdlərindən biri olur. Bir dəfə Şəmşirdən soruşurlar ki, dədə, de görək, səndən sonrasına sənin yerində qalan varmı? Ona umud bağlıya bilirsənmi, yoxsa yox? Şəmşir deyir ki, şagirdlərimin içində Xalıqverdiyə gümanım gəlir. Mənim, istəkli şagirdim odu. Bir müddət Aşıq Şəmşirlə toylarda iştirak edən Xalıqverdi 1953-cü ildən sərbəst aşıqlığa başlayır. Aşıq janrında yazdığı bir çox şeirlərin müəllifidir. Kəlbəcərin işğalından sonra demək olar ki, aşıqlıq sənətini işlətmir. **Söylədiyi mətnlər:** 15, 16, 17, 141, 142, 195, 196, 197, 198, 199, 200, 203.

29. Məmişov Xansuvar Şahsuvar oğlu, Çaykənd kəndi, təvəllüdü 1934, təhsilsiz. Məskunlaşdığı yer: Göygöl, Murovdağ kəndi. Bayatılar: 157-159. Toplayan: A.Abbasova

30. Məmmədov Əlövsət Sarı oğlu, Çərəkdar kəndi, təvəllüdü 1957, ali təhsilli müəllim. **Söylədiyi mətnlər:** 62,63.

31. Məmmədov Əyyub Əli oğlu, Ağcakənd kəndi, təvəllüdü 1944, orta təhsilli. Məskunlaşdığı yer: Yevlax rayonu. **Söylədiyi mətnlər:** 88, 89, 119.

32. Məmmədov Qəmbər Hüseyn oğlu, təvəllüdü 1942, Ağcakənd kəndi, ali təhsilli müəllim. **Söylədiyi mətnlər:** 155, 164.

33. Məmmədova Səadət Rəhim qızı, Nəcəfalı kəndi, təvəllüdü 1939. Məskunlaşdığı yer: Bərdə rayonu. **Söylədiyi mətnlər:** 144, 145. İnamlar: 39. Toplayan: A.Abbasova

34. Məmmədova Zöhrə Mehralı qızı, Ağcakənd kəndi, təvəllüdü 1952, orta təhsilli. **Söylədiyi mətnlər:** 147, 159, 160.

35. Muxtarov Zahid Fərhad oğlu, Yellicə kəndi, təvəllüdü 1962, ali təhsilli. Məskunlaşdığı yer: Gəncə şəhəri. **Söylədiyi mətnlər:** 70, 71.

36. Namazov Çingiz Əkbər oğlu, Ağdaban kəndi, təvəllüdü 1947, ali təhsilli müəllim. Məskunlaşdığı yer: Tərtər rayonu, Bəyim Sarov kəndi. **Söylədiyi mətnlər:** 10, 18, 54, 55, 78, 111, 169, 170, 186, 187, 188. Oyun: 7.

37. Nəbiyeva Validə Ədil qızı, Xallanlı kəndi, təvəllüdü 1935, təhsilsiz. Məskunlaşdığı yer: Oğuz, Daşağıl kəndi. Bayatılar: 140-156; Toplayan: A.Abbasova

38. Nəcəfov Həbib Nəbi oğlu, Milli kəndi, 58 yaş, orta-ixtisas təhsilli müəllim. **Söylədiyi mətnlər:** 60, 61, 173, 174. Oyun: 11.

39. Nəzərov Həbib Mənsim oğlu, Bağırlı kəndi, təvəllüdü 1932, təhsilsiz. Məskunlaşdığı yer: Goranboy rayonu, Veysli kəndi. **Söylədiyi mətnlər:** 5, 6, 58, 59.

40. Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi, təvəllüdü 1940, texnikom təhsilli, həkim işləyib. Məskunlaşdığı yer: Sumqayıt şəhəri. **Söylədiyi mətnlər:** 1, 2, 3, 44, 64, 69, 104, 105, 108, 115, 126, 127, 128, 151, 165, 166, 202. Oyun: 5.

41. Rüstəmova Şirmayə Abdulla qızı, Əsrik kəndi, təvəllüdü 1940, yeddi illik təhsil. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətnlər:** 120, 123.

42. Səfərova Muxək Qaraca qızı, Ağdaban kəndi, təvəllüdü 1938, yeddi illik təhsil, sağıcı. Məskunlaşdığı yer: Tərtər rayonu, Bəyim Sarov kəndi. **Söylədiyi mətnlər:** 9, 12, 114.

43. Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi, təvəllüdü 1946, orta təhsilli, sazbənd. Məskunlaşdığı yer: Yevlax rayonu, Kövər kəndi. **Söylədiyi mətnlər:** 11, 72, 87, 109, 116, 118, 135, 136, 137, 146, 148, 156, 157, 158, 181. Oyunlar: 1, 2, 3.

44. Süleymanov Yaqub Hüseyn oğlu, Ağcakənd kəndi, təvəllüdü 1937, ali təhsilli müəllim. Məskunlaşdığı yer: Bakı, Buzovna qəsəbəsi. **Söylədiyi mətnlər:** 8, 9, 10.

45. Şamil Dəlidağ: Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı. Bakı, 1998, 315 s. *Kitaba daxil edilən mətnlər:* 161, 162, 163, 176, 177, 178, 179, 180. Oyun: 4.

46. Şəldiyev İsmayıl Sadıq oğlu, Ağcakənd kəndi, təvəllüdü 1933, texnikom təhsilli. Məskunlaşdığı yer: Ağsu rayonu. **Söylədiyi mətnlər:** 33, 77, 113, 122, 124, 183, 194, 201.

47. Şirinov Muxtar Bahadur oğlu, Kəlbəcər şəhəri, 1950-ci il, ali təhsilli həkim. Məskunlaşdığı yer: Gəncə şəhəri. **Söylədiyi mətnlər:** 190, 191.

48. Tahirov Kamran Əziz oğlu, Narınclar kəndi, 1935-ci il, sinif müəllimi. Məskunlaşdığı yer: Bakı şəhəri. **Söylədiyi mətnlər:** 36.

49. Vəli Heydəroğlu. Gəlimli, gedimli dünya. Bakı: Nərgiz, 2001. *Kitaba daxil edilən mətnlər:* 20, 24, 30, 38, 68, 98, 99, 103.



**Mahmudov Xalıqverdi Həmid oğlu, Zivel kəndi**



**Alıyev İsrafil İsmayıl oğlu, Molla Bayramlı kəndi**



**Rəfiyev İsmayıl Məhəmməd oğlu, Əsrik kəndi**



**Ələkbərova Gözəl Süleyman qızı, Kəlbəcər şəhəri**



**Cabbarov Komissar Qaraş oğlu, Əsrik kəndi**



**Namazov Çingiz Əkbər oğlu və Səfərova Muxək Qaraca qızı, Ağdaban kəndi**



**Maral və kilimarası oyunlarına aid şəkillər**



**Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi**



**Kilimarası oyunu**



**Halay durma**



**Mətəyəsalma oyunu**



**Çiling-ağac oyunu**



**Löpük-löpük oyunu**




**Kəlbəcər rayonunun xəritəsi**

# NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ[84]

**460** Dəyirmanın sirri** – № 142. Bu süjetin indiyə qədər yalnız bir variantı məlum idi. Zivel kənd sakinindən qeydə alınan bu variant həm süjetin yayılma arealının müəyyənləşdirilməsində, həm də onun başa düşülməsində böyük əhəmiyyət kəsb edir.

**460B Günəşdən xəbər gətirmək** – № 129. Bu süjetin indiyə qədər dörd variantı qeydə alınmışdır. Kəlbəcərdən qeydə alınmış bu nağılı həmin süjetin daha mükəmməl və kamil variantlarından biri saymaq olar.

**750B* İbadət yaxşıdı, yoxşa səxavət** – № 132.

**750K* Qonaqpərvər qəssab** – № 130.

**751A = AT 751A* Musa peyğəmbər Allahı qonaq çağırır** – № 133.

**753*B Dəyirmançı çırağa nöyüt əvəzinə su töküb yandırır** – № 139.

**776**A Allaha pənah** – № 138.

**798* Dünya qarısı** – № 134.

**821** = AT 1353** İnsanla şeytan gücünü yoxlayır – № 128. Bu süjet də ənənəvi variantlardan kifayət qədər fərqlənir.

**834B* = AT 745A Ağacın içində gizlədilmiş pul** – № 146.

**846* = AT 650A[1] Bərəkət surfası** – № 131.

**875H* Padşah çəpgöz qıza aşiq olur** – № 142.

**882 Qadının sədaqətliliyi üstündə mərc** – № 143.

**893*A** Qəhrəman öz nişanlısının dostu ilə evlənməsinə razı olur – № 126. Bu nağıl ənənəvi variantlardan kifayət qədər fərqlənir və sosial-iqtisadi dəyişikliklərlə əlaqədar nağıllardakı təkamülü izləmək baxımından əhəmiyyət kəsb edir.

---

[84] Süjetlərin adları və nömrələri "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı: Elm və təhsil, 2013) əsasında verilmişdir. Süjet adlarından sonra nağılın topludakı nömrəsi göstərilmişdir. Topludakı nağılların böyük əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir, yalnız bir neçə süjetin qarşılığı yoxdur ki, həmin süjetlər haqqında da göstəricinin sonunda əlavə məlumat verilmişdir.

**921C** Köpəyin münəccimliyi** – № 137.

**922** Toğlunu qurda göstərmək** – № 124, 125.

**926C*** Kar, kor, şil qız** – № 136.

**930 Yazıya pozu yoxdur** – № 141.

**934G* İlanla gələn əcəl** – № 136.

**986 Tənbəl ər** – 145.

**991* Tacir xəsisliyi tərgidir** – № 140.

**1426** Sandıqda saxlanılan arvad – № 127. Bu süjetin indiyə qədər ayrı-ayrı bölgələrdən qeydə alınmış 4 variantı məlumdur. Kəlbəcərdən isə belə bir süjet ilk dəfə yazıya alınır. Ənənəvi variantlardan fərqli olaraq, həmin süjet burada "Şıx Səyadın qadınların əməlindən kitab yazması" adlı məşhur lətifə süjeti ilə kontaminasiya olunmuşdur.

**"Üç qardaş"**. Bu nağıl ilk dəfə toplanıldığından göstəricidə onun qarşılığı yoxdur.

## BAŞLIQLAR

**TƏRTİBÇİDƏN** ... **3**

**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**

Qulf haqqında ... 7

Yeddi qardaş ilan ... 8

Əsirlikdən qaçan ... 9

Lövhi-məhfuz ... 10

Şeytan fəhlələri ... 13

**Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında**

Süleyman peyğəmbərnən bayquş ... 15

Süleyman və qarışqa ... 16

Məhəmməd peyğəmbər və Salman ... 16

Həzrət Əli və üç əsgər ... 17

Yerin-göyün ağırlığı ... 18

Həzrət Əli və Salsal pəhlivan ... 21

Həzrət Əliynən Rüstəm Zal ... 23

Həzrət Əlinin Şəhri-Zərə yürüşü ... 24

Həzrət Abbas ... 27

Hatəm ... 28

Seyid Manaf ağa ... 29

Şıx Həsən ... 30

**Yer adları, tayfa və nəsillər haqqında**

Kalba Ellaz və Məmmədușağı nəsli ... 30

Geştək ... 35

Molla Bayramlı ... 37

Ağcakənd ... 38

Narınclar ... 40

Xallanlı ... 41

Əsrik ... 43

Bəylik ... 46

Alxaslı ... 48

Seyidlər ... 49

Ağdaban ... 50

Bağırlı .......... 53
Milli .......... 54
Çərəkdar .......... 55
Gəlin qaya .......... 56
Ceyran bulağı .......... 58
Qar arxac .......... 59
Keyti dağı .......... 60
Soğatılan qaya .......... 60
Sümüktökülən dərə .......... 61
Laçın qayası .......... 61
Qoturlu .......... 61
**Tarixi şəxsiyyətlər, tanınmış insanlar, qaçaqlar haqqında**
Şah Abbasın fərracı .......... 62
Qızıl çarıq .......... 63
Kərbəlayi Həcər .......... 63
Kürdoğlu Məhəmməd .......... 64
Məşədi Cəmil .......... 69
Hacı Həsənalı .......... 72
Məşədi İsgəndər .......... 72
Arğalı .......... 75
Hacalı Yoldaş .......... 77
Haxo pəhlivan .......... 79
Nəbi pəhlivan .......... 82
Slo pəhlivan .......... 84
Keçəl Baxış .......... 85
Kərbəlayi Şəldi .......... 85
Vegili adamlar .......... 86
**Müxtəlif mövzulu rəvayətlər**
Ağsaqqal məsləhəti .......... 89
Ürək dostu .......... 90
Camışın əməli .......... 90
Qismət haqqında .......... 91
Nəbiyə də bö, Allahverdiyə də bö? .......... 92
Mən çəkən köşədirsə, qırılmaz .......... 93

**QARABAĞ MÜHARİBƏSİ XATİRƏLƏRDƏ**
Ağdaban faciəsi ........ 94
**ETNOQRAFİK MƏTNLƏR**
Xıdır Nəbi ........ 98
Qodu-qodu ........ 100
Toy qardaşlığı ........ 101
Toy adətləri ........ 103
Kirvəlik ........ 107
**NAĞILLAR**
Zərgərin nağılı ........ 109
Əsl dost ........ 129
Şıx Səyad ........ 133
Adam şeytan ........ 136
Musa peyğəmbər və Qara qul ........ 139
Comərd qəssab ........ 148
Qəşəmşəm ........ 151
Səxavət yaxşıdı, yoxsa ibadət? ........ 154
Musa Allahı qonaq çağırır ........ 157
Süleyman və qoca dünya ........ 161
Üç qardaş ........ 162
Tacir qızı ........ 166
Peyğəmbər və dəyirmançı ........ 169
Allaha pənah ........ 171
Suynan yanan çıraq ........ 172
Malyeməzin nağılı ........ 174
Yazıya pozu yoxdu ........ 176
Naxırçı qızı ........ 180
Məhbubə xanım ........ 182
Qaşıqçının nağılı ........ 190
Padşah və ağıllı qızı ........ 192
**LƏTİFƏLƏR**
Bəhlul Danəndə ........ 196
Şeyx Sədi ........ 202
Kərbəlayi Fərəc ........ 204

Rəfi kişi ........ 213
Dəli Bavış ........ 216
Kalvalı ........ 218
Dədəsinin qiymətini qoyub üstünə ........ 220
Molladan qaç, lotuya maç ........ 221
Sən qapıda qonağı, arpada qatırı tanımırsan ........ 222
Üzümü bir-bir yeyərlər ........ 223
Loğman və oğlu ........ 224
Səksəndəndir ........ 224
Bizdən adam olmayacaq ........ 225
Boz maydan ........ 226
Qılınc gördüm, qında görmədim ........ 226
Şəfi bəy görünmür? ........ 227
Səndən Məhəmməd olmaz ........ 227
Bu hi o hidən deyil ........ 227
Bir üfürə, bir səbirə ........ 228
Metis qoyun ........ 228
**AŞIQLAR, EL ŞAİRLƏRİ**
Aşıq Alının Türkiyə səfəri ........ 229
Aşıq Alının İran səfəri ........ 259
Bəstinamə ........ 270
Aşıq Ələsgərnən Aşıq Qurbanın görüşü ........ 271
Səməd Vurğunun Kəlbəcər səfəri ........ 272
Aşıq Həmidin Qarabağ səfəri ........ 283
Növrəs İmanla Aşıq Sadığın deyişməsi ........ 312
Gəlmədin ........ 321
Laçına ........ 321
**ŞAİR NƏBİ ........ 323**
Baxtın olmasa ........ 325
Düşəndə ........ 325
Olmaz ........ 326
Ola bilməz ........ 326
Nə pis olarmış ........ 327
Olmasa ........ 328

Gərək........................................................................ 328
Başına döndüyüm ............................................................... 329
İndi .......................................................................... 330
Olmadı........................................................................ 330
Döndü, nə döndü............................................................. 331
Sizin olsun .................................................................. 332
Məni......... ................................................................. 332
Dünyada.... ................................................................. 333
**AYRIM ƏHMƏD............................................................ 334**
Nə mənası var ............................................................... 335
Ay ata mindi.................................................................. 335
Nə pis olarmış ............................................................... 336
Yaşayıb dolanmaq olmur ................................................... 337
Var............................................................................ 337
Ağlama ....................................................................... 338
Yazıram....................................................................... 338
İnsan .......................................................................... 339
İnsanın........................................................................ 340
Getdi.......................................................................... 340
Deyən olsun ................................................................. 341
Demədim...................................................................... 341
Dağlara ....................................................................... 342
Hey yanar-yanar.............................................................. 343
Düşdü, nə düşdü.............................................................. 344
Dəyməz ....................................................................... 344
Xoş zamandayam............................................................. 345
**ƏLÖVSƏT SALDAŞ ...................................................... 346**
Söyüd ......................................................................... 346
Papaqnamə ................................................................... 348
Bilmirəm ..................................................................... 350
Gəzirəm....................................................................... 350
Verir .......................................................................... 351
Mənim ........................................................................ 352
Lay-lay ....................................................................... 353

**SAZBƏND SÜLEYMAN** .......... **354**
Qaldı .......... 355
Sazım .......... 355
Çalıram .......... 356
Qafil olma, kamil insan .......... 357
Qanmayanın kefidir .......... 357
Sin ayəsi .......... 358
Can .......... 359
Of .......... 359
Vaxtıdır .......... 360
**İNANCLAR** .......... **361**
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** .......... **369**
**TAPMACALAR** .......... **373**
**BAYATILAR** .......... **375**
**OYUNLAR**
Kilimarası oyunu .......... 389
Maral oyunu .......... 390
Kaftar oyunu .......... 391
Yeddi hünər .......... 392
İynə-iynə .......... 395
Mətəyə salma .......... 396
Çırtmadaş .......... 397
Löpük-löpük .......... 398
Çalaya atma .......... 399
Xan-vəzir .......... 400
Yumurta oyunu .......... 400
Çalaya döymə .......... 402
Haldurumağac .......... 402
Qaçma top .......... 403
Çilingağac .......... 403
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** .......... **405**
**NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ** .......... **428**

**Qarabağ: folklor da bir tarixdir, VIII kitab**
**(Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri).**
Bakı, "Elm və təhsil", 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Nigar Həsənova**

Kompyuterdə yığan:
**Kəmalə Zeynalova**

Korrektor:
**Aytac Abbasova**

Kompyuter tərtibçisi və
texniki redaktor:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 38,75 ç/v
Tirajı: 400